**HƏSƏN HÜSEYNOV**

# SIĞIN HAQQ DƏRGAHINA

Nərgiz NƏŞRİYYATI
BAKI- 2013

***Bismillahir-Rəhmanir-Rəhim!***
***Ya Allah ya Məhəmməd ya Əli səndən mədəd.***

***Bu kitabı Kərbəlanın cavan şəhidlərindən olan İmam Həsənin (ə) on üç yaşlı oğlu Həzrəti Qasimin (ə) və İmam Hüseynin (ə) Kərbəlada şəhid olmuş dörd yaşlı qızı Həzrəti Rüqəyyənin (s.ə) pak və müqəddəs ruhlarına ithaf edirəm.***

***Əmri-Şahə müti ol, etsin qəbul bir gün səni,***
***İcz ilə kim dərgahi-Sultanə gəlmir, gəlməsin***

***Ön söz müəllifi: Leyla Musəvi***
***Redaktor: Rövşən Fətişoğlu***

***Hacı Həsən Hüseynov. "Sığının Haqq Dərgahına". "Nərgiz"nəşriyyatı, Bakı, 2013, 460səh.***

***Hacı Həsən Xalıqverdi oğlu Hüseynov 1970-ci il aprel ayının 25-də Zəngilan rayonunun Sobu kəndində anadan olub. Azərbaycanın ərazi bütovlüyü uğrunda gedən döyüşlərdə iştirak edib, döyüşlərin birində ağır güllə yarası alıb. Uzun müddər yataq xəstəsi olub.***

***Hal-hazırda I qrup Qarabağ Müharibəsi Əlilidir.***

***Bakı İslam Universitetini bitirib, İslamşünasdır.***

***"Aşıq Qurbani" məclisinin üzvüdür. "Olaylar","İki sahil", "Üç nöqtə", "Nəbz", "Dirili Qurbani" , "Təzadlar" və s. qəzetlərində və bir sıra jurnallarda məqalələri dərc olunub.***

***"Parlaq ulduz", "Xuda Hüseynin aşiqi", "Ya Əli", "Gizli qalmış xəzinə", "Həzrət Əli(ə) müxtəlif baxışlarda" adlı elmi-tədqiqat əsərlərinin müəllifidir. "Sığın Haqq Dərgahına" (Məqalələr toplusu-1) adlı kitabı müəllifin oxucularla növbəti görüşüdür.***

$H\frac{742000000}{079}777-2013$

© «Nərgiz», 2013

# TƏQDIMAT
## (ÖN SÖZ ƏVƏZİ)

*Dəhr bir bazardır, hər kim mətahın əxz edər,*
*Əhli-dünya-simuzər, əhli-hünər fəzlü, kamal.*

***M.Füzuli.***

***Bismillahir-Rəhmanir-Rəhim!***
***Mehriban və Bağışlayan Allahın adı ilə!***

***Mərifət yolunda addımlamaq çətin, lakin mükafatı səhralardakı qum dənələri qədər çoxdur...***
***Bütün düşüncə və xəyallarını biçin mövsümünün sevinci bəzəyən bir toxum torpağa əkilərkən çəkdiyi iztiraba yalnız bu duyğu sayəsində sinə gərə bilər. Bir müvəffəqiyyətdəki dəyərin ona nail olmaq üçün dözülən əziyyətlər və çəkilən zəhmətlər ölçüsündə olduğunu bilənlər çətinlik və məşəqqətlərin bağrında-kı sevinci hər zaman qəlblərində hiss edərlər. Üstəlik bu yolun rəhbəri və müəllimi bir Haqq dostu isə atılan addımlardakı san-cılar sanki tərifsiz bir ləzzətə çevrilməyə başlayar.***

***Biz də "Hər xidmətin sonu əvvəlindəki səmimi niyyətə görə nəticələnər"düsturuyla niyyətlərimizi götür-qoy edib, bu həqiqət yolunda səbirlə addımlamağa başladıq.***

***Zamanımızın ən böyük ehtiyacının nə ola biləcəyini düşünərkən bu sualın cavabını eşq və məhəbbət dəryası olan könül söhbətlərində tapdıq.***

***Bir dəfə dostları ilə birlikdə oturan səhabələrdən biri:***
***"Allahdan nə isə istəyəcək olsaydınız nə istəyərdiniz?"deyə soruşmuşdu:***
***Onlar bu suala belə cavab vermişdilər:***
***"Maddi imkanlara sahib olub, onu Allah yolunda səxavətlə infaq edə bilməyi istəyərdik."***

***Üzündəki ifadədən bu cavabları bir o qədər də bəyənmədiyi aydın olan səhabə verdiyi suala özü belə cavab verdi:***

*“Mən isə Haqq-Təaladan qəlbi xidmət eşqiylə yanan, hərtərəfli kamil insanlar lütf etməsini və bunlarla Allaha itaət yolunda maarifləndirmə xidmətini həyata keçirmək istəyərdim.” Beləcə, hər dövrdə xidmətin ana sütununu təşkil edən “kamil insan” ehtiyacını dilə gətirmiş, diqqətləri bu əsas nöqtəyə çəkmişdi.*

*Səhabələrin hikmət dolu söhbətlərində könüllərimizə nəqş etməyə çalışdığı düstur da eynilə o zaman olduğu kimi bu gün də Allah üçün xidmət şüuruna sahib insanların yetişməsi idi. Biz də quraqlıqdan qovrulan vadilərə yönələrək xidmətdə sərhəd tanı-mayan Peyğəmbərlərin (ə), İmamların (ə), övliyaların, ariflərin, aqillərin və aşiqlərin səylərini örnək alaraq bu yola çıxdıq. Bu düşüncənin ilk səmərəsi olaraq da “Hər kəs rahilə arxasında oturar, amma hər kəs qəlbi səviyyəsinə görə bir pay alar” həqiqətinə əsaslanaraq hazırlanan bu kitabı istifadə etməniz üçün sizə təqdim etmək istədik.*

*Hacı Həsən Hüseynovun “Sığın haqq dərgahına” kitabı Azərbaycan türkcəsində yeni həyata başlayır; oxuculara faydalı olacağını düşünürük.*

*Allah-Təala layiqiylə istifadə edə bilməyi hər birimizə qismət etsin.*

*Amin...Ya Rəbbəl-Aləmin!*

***Leyla Musəvi***



# *Redaktordan*

***Bismillahir-Rəhmanir-Rəhim***

***Əlhəmdu lilləhi rəbbil-aləmin. Və səlləllahu əla şeyidina Muhamməmədin və alihit-tayyibinət-tahirin və əla əshabihil əx-yaril-muntəcəbin və lənətullahi əla ədaihim əcməin.***

***Bu kitab elmi dairələrdə tanınmış ilahiyyatçı alim, ən şərafətli və nəcabətli səçərəni təmsil edən Seyyid Hacı Həsən Hüseynovun məqalələrindən ibarətdir.***

***Kitabın adı müəllifin toxunduğu məsələlərin ümumi məzmunundan götürülmüş və bu baxımdan mövzunun əhatə etdiyi mət-ləbləri dolğun və əhatəli şəkildə əks etdirir.***

***Əsərdə qeyd olunan məsələlər elmi və irfani olsa da, sadə və rəvan dildə yazılmış, kitabın çapına (nəşrinə) qədər müxtəlif vaxtlarda dövri mətbuatda, elmi dərgilərdə dərc olunmuş, elm mənsubları və ixtisas sahibləri tərəfindən yüksək qiymət-ləndirilməklə yanaşı, geniş oxucu kütləsinin də hüsn, rəğbətini qazanmışdır.***

***Müəllif toxunduğu hər bir mövzu barədə yetərincə hərtərəfli araşdırma aparmış, təkcə özünü yox, həmdə geniş auditoriyanı, düşündürən və narahat edən məsələləri özünəməxsus səliqə ilə incələmiş, məxsusi dəst-xət yaratmışdır. Klassik və müasir ədə-biyyatı dərindən mənimsəmiş tədqiqatçı Allah yanında ən bəyənilmiş din olan İslamın həqiqətlərini poetik dilin nümunələri fonunda şərh edir, bəlağətli üslubu ilə oxucunun zövqünü oxşayır.***

***Müəllif İslam dininin prinsip və müddəalarının izahında mənbələrə istinadən fikir söyləyir. Quran ayələri, İslam Peyğəmbərinin (s) sünnəsi və Əhli-Beytin (ə) irsi və digər islami dəyərlər poetik dil və onun nümunələri əsasında izah edilir.***

***Kitabdakı məqalələri oxuyarkən onun müəllifi Seyyid Hacı Həsən Hüseynovun təhlil qabiliyyəti, dini və dünyəvi elmlərə münasibəti yəqinliklə aydın olur.***

***Müəllifin əsəri yazmaqda məqsədi dinimizin reallıqlarını, tarixi gerçəkliyin dini mənzərəsini, dini-ideoloji çalarlarını oxuculara açıb göstərməkdir.Demək olar ki, müəllif bu məqsədinə layiqincə nail olmuşdur.***

***İnanırıq ki, müəllif bu sahədə axtarışlarını davam etdirə-cək və gələcəkdə daha samballı araşdırmaların ərsəyə gəlməsinə nail olacaqdır.***

***Rövşən Fətişoğlu***



# MÜƏLLIFDƏN

***Gəlib qeyrət günü, himmət zamanı,***
***Ucaldaq başda Azərbaycanı!***
***Qıraq bu qurdları, kəffari, bədri,***
***Açaq yol Kərbübəlayə, Kazimeynə.***

***S.M.Şəhriyar***

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Bütün həmd və sənalar aləmlərin Rəbbi Allah-Təalaya məxsusdur. Salam və salavat Onun məxluqlarının (yaratdıq-larının) ən xeyirlisi və əzizi Xatəmül-Ənbiya Həzrət Məhəm-məd (s) və onun pak Əhli-beytinə (ə) olsun.***

***Elə bir Əhli-beytə (ə) ki, Allah-Təala hər cür pisliyi onlardan uzaqlaşdıraraq onları pak və münəzzəh (uzaq) etdi. Amma sonra: "Əraf"surəsi 199-cu ayə:***

***"Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər."***

İnsanın tərbiyə olunmasında özü üçün örnək (ülgü) və ideal seçdiyi dahi şəxsiyyətlərin böyük təsiri vardır. Bəşəriy-yətin səadət və xoşbəxtliyi üçün ən gözəl nümunələri özündə cəm edən elm şəhəri Həzrət Məhəmməd (s) insanlar arasında iki ağır və dəyərli əmanət qoyub getmişdir. O iki əmanətdən biri Qurani-Kərim, digər isə Əhli-beytdir (ə).

***Xəlq edib hər kəsdən əvvəl İlahi,***
***Beş nəfər müqəddəs, beş nəfər dahi,***
***Mühəmməd, Fatimə, Mürtəza, Həsən,***
***Bir də İmam Hüseyn-Kərbəla şahı[1]***

Allah Rəsulunun (s) bizim aramızda əmanət kimi qoyub getdiyi iki əmanətdən biri olan Qurani-Kərim biz müsəlmanlar üçün həyat proqramı, həyat mənbəyidir.

---

***[1]Axund Hacı Soltan Hüseynqulu oğlu***

Digəri olan Əhli-beyt (ə) isə bizi Quranın əmrlər istiqamətində hidayət edən pak İmamlarımızdır (ə).

***Vəqti rehlətdə mükərrər tapşırıb Xətmi-Rəsul,***
***İki zad məndən əmanətdir sizə eylin qəbul,***
***Ey camaat! Biri Qurandır, biri Ali-Rəsul,***
***Saxlayın , siz onlara hörmət Peyğəmbərdən sora.***[1]

Qurani-Kərimdən sonra Peyğəmbərlərin (s) və İmamla-rın(ə) tərcümeyi-halını öyrənmək zəruridir. Xüsusən bu za-manda müxtəlif hiylərlərlə öz mədəniyyətindən, yüksək mənəvi dəyərlərindən uzaqlaşdırılmağa çalışan yeni nəslin tərbiyəsi üçün Peyğəmbərimizin (s), İmamlarımızın (ə) həyatını, keçdiyi həyat tərzini öyrənib, bilmək vacib məsələlərdən biridir. Əgər insanın əqidəsi düz deyilsə, deməli əməlləri də dəyərsizdir.

İmam Məhəmməd Baqir (ə) buyurur:

***"Dünyanın qərbinə də gedin, şərqinə də gedin, axırda gəlib, burada diz çökəcəksiniz ki, həqiqəti dərk edəsiniz."***

Bu hədisdən də belə başa düşülür ki, bu günkü bəşər övladının Allah qanunlarına təslim olmaqdan və ona iman gətirməkdən başqa çarəsi yoxdur. Məhz bu səbəbdən bəşərin həll olunmayan böhranlarının və çətinliklərinin hamısı mənəvi və əxlaqi böhranlardır. Bəs onların kökləri hardadır?

Onun kökü 2 şeydədir:

***1.İmanın itirilməsi***

***2.Əxlaqı dəyərlərin aradan getməsi.***

İman nədir?

Əgər Qurana müraciət etsək, görərik ki Allah-Təala ***"Əsr"*** surəsində imanın nədən ibarət olmasını və kimlərin nicat tapmasını, bizlərə nişan verir. Surədə buyurulur:

***1."And olsun zamanəyə"***

***2. "Həqiqətən insan ziyandadır"***

---

[1] ***Hacı Əbülhəsən Raci***

***3.”İman gətirib və saleh əməllərlə məşğul olub və həqqi tövsiyyə edib və səbr edirlər.”***

***Əxlaq nədir?***

İmam Səccadın (ə) ***“Səhifeyi-Səccadiyə”***əsərində buyurduğu dualardan biri ***“Məkarimul-Əxlaq”***yəni ***“Ləyaqətli -əxlaq”*** duasıdır. Bu duada belə bir cümlə var:

“Allahım mənə yüksək mərtəbəli əxlaq əta elə.”

***İslam dininin maarifi 3 prinsip əsasında qurulub:***

***1.Əqidə – Üsuliddin. 5 əsasdan ibarətdir***
***2.Əməl – Firiuddin. 10 əsasdan ibarətdir***
***3. Əxlaq - Ədəb, ərkan və mərifət***

***Üsuliddin 5 əsasdan ibarətdir:***

***1.Tohvid –Allah Yeganədir***
***2.Ədl- Allah Ədalətlidir***
***3.Nübuvvət- 124.000 Peyğəmbər***
***4.İmamət – 12 İmam***
***5.Məad – Qayıdış***

***Firiuddin 10 əsasdan ibarətdir.***

***1. Namaz –Gündəlik qılınan 17 rükət Namaz***
***2. Oruc – Ramazan ayında tutulan bir ay oruc***
***3. Zəkat – Qazancın onda biri, ildə bir dəfə***
***4. Xums – Qazancın beşdə biri, ildə bir dəfə***
***5. Həcc – Ömürdə bir dəfə Kəbənin ziyarəti***
***6. Əmrbe-məruf – Yaxşı işlərə dəvət***
***7. Nəhyəz-munkər – Pis işlərdən çəkinmə***
***8. Cəhad – Nəfslə mübarızə***
***9. Təbərra – Allah dostları ilə dost olmaq***
***10. Təvəlla – Allah düşmənlərindən üz çevirmək***

İslamın zühurundan qabaq Ərəbistan əhalisi cahiliyyət qanunları ilə yaşayırdı və ticarətlə məşğul olurdular. Ərəbis-tanda hökumət yox idi. Ərəblər heç bir siyasi nizama tabe ol-mamış və tayfa şəklində Bədəvi Ərəblər simasında həyat tərzi keçirirdilər.

Əvvəlcə qısa da olsa Ərəbistan yarımadasının coğrafi mövqeyi haqqında məlumat veririk:

Ərəbistan dünyanın ən böyük yarımadasıdır. Asiyanın cə-nub qərbində yerləşir. Ərəbistan şərq tərəfdən Fars körfəzi, cə-nub tərəfdən Oman dəryası və Hind okeanı, qərb tərəfdən Qır-mızı dəniz, Şimal tərəfdən isə böyük səhralıqlarla əhatə olun-muşdur. Ərəblərin əsl peşəsi heyvandarlıq idi. Bəzi yerlərdə məxsusən Taif və Mədinə şəhərlərində əkinçiliklə məşğul olur-dular. Məkkə əhli onlardan fərqli olaraq, ticarətlə məşğul olurdu. İslamın zühurundan qabaq bir sıra Ərəblər Həzrəti İbrahimin (ə) dinindən qalan əməllərə itaət edirdilər. O əməllər bunlardan ibarətdir:

1. ***Allaha və qiyamət gününə etiqad:***
2. ***Həcc mərasimi***
3. ***Nigah (kəbin)***
4. ***Xütnə (sünnət)***
5. ***Qurbanlıq bayramı***

İslam Peyğəmbəri(s) Amul-fil ili Rəbiəl-əvvəl ayının 17-də Məkkə şəhərində dünyaya gəldi. Peyğəmbərin dünyaya gəlməsi(s) Ərəblərin nüfuzunun qalxmasına səbəb oldu. Pey-ğəmbər(s) dünyaya gələn zaman bir sıra qeyri-adi hadisələr baş verdi:

***1. İran şahı Kəsranın eyvanı silkələndi.***
***2. Bu sarayın 14 sütunu yerlə-yeksan oldu.***
***3. İranda Savə gölü qurudu.***
***4. Min illərlə sönməyən Fars atəşgahı söndü.***
***5. Bütün bütlər üzü-üstə yerə düşdü.***

Satira janrının banisi M.Ə.Sabir sanki Peyğəmbərin (s) zühurunu müşahidə etmiş və M.Füzuliyə yazdığı "Təsdisin" birinci bəndində bütün bu baş verən hadisələri nəzmə çəkmiş-dir:

***Şükrlillahki, bizə şamil olub lütvi-Xuda,***
***Bu mübarək günü dərk etməyə ömr etdi vəfa,***
***Eydi-Mövludu-Nəbidən gözümüz tapdı ziya,***
***Qılın ey ümməti mərhumə bu gün, vəcdi-şəfa,***
***Əşrəqət min-fələkil-bəhcəti-şəmsün və biha,***
***Mələəl-aləmə nurən və sururən və bəha.***

İslam Peyğəmbərinin (s) zühurundan danışdıqdan sonra, ***"Sığın haqqın dərgahına"(Məqalələr toplusu)***nun nə səbəbdən çap olunması barədə qısa da olsa oxuculara məlumat vermək istədik. 1998-ci il mədrəsədə təhsil aldığımız vaxtlarda və 2003-2008-ci illər Bakı İslam Universitetində oxuduğum vaxt-larda müxtəlif qəzet səhiflərində çap etdirdiyim məqalələri bir toplu şəklində cəmləşdirib, iki hissədə oxucuların diqqətinə çatdırmağı özümüzə borc bildik**.**

***"Sığın haqq dərgahına"(Məqalələr toplusu)***nun I hissəsində əsasən ***"İnsan və Quran", "Təqva ədəbiyyatda", "Allah övliyalarına ehtiram"*** *və* ***"14 Məsum"*** haqqında məlumat, ***"Islam-da olan müqəddəs bayramlar", İslamın əməli bölümünə aid olan - "Namaz, Oruc"*** və sair haqqında çap olunan məqalələrimizi kitab şəklində siz əziz oxucuların xidmətinə veririk.

Əsas məqsədimiz bizi vəhdətdən uzaqlaşdıran, amillər və əxlaqi normalara riayət etməmək problemi olduğundan bu məqalələrdə də biz müsəlmanlar və möminlər arasında olan pərakəndəliyin kökünü axtarmağı qarşımıza məqsəd qoymuş-duq və buna nə dərəcədə nail olduğumuzu oxucuların öhdəsi-nə buraxırıq.

Məhəbbət və saflığın ilkin mənbəyi olan mənəvi gözəllik anlayışı xüsusi bir məhfumdur. Lakin bəzi mənəviyyatdan uzaq rəhbərlərin məqsədi ağalıq etmək və yüksək məqam sahibi olmaqdır. Məşhur bir rəvayətdə deyildiyi kimi, Əbu Əli Sinanın şagirdlərindən biri Bəhmənyar bir gün öz ustadına deyir:

***"Ey ustad sən bu qədər elm və düşüncə sahibisən. Əgər özü-nü Peyğəmbər elan etsən, bütün camaat sənə inanar və səni Peyğəmbər kimi sevər."***

Əbu Əli Sina Bəhmənyarın bu sulaının cavabında su-sur və heç bir söz demir.

Bir gün ustad və şagird birlikdə qış fəslində səfərə çıxırlar. Sübh vaxtı Əbu Əli Sina yuxudan durub, şagirdi Bəhmənyarı oyadaraq - ***“Mən susuzam, dur ayağa mənə bir içim su gətir.”***

Bəhmənyar bəhanə gətirərək, ustadına:

- Ustad indi qışdır. Soyuq su sənə ziyandır deyərək, isti yatağını tərk etmədi. Bu zaman minarələrdən azan səsi ucaldı. ***“Allahu Əkbər!”, “Allahu Əkbər!”.***

Əbu Əli Sina gördü ki, şagirdi Bəhmənyara cavab vermə-yin vaxtı çatıb.

Dedi:

***- “Ey Bəhmənyar! Sən deyirdin ki, əgər mən özümü Pey-ğəmbər elan etsəm, camaat mənə inanar və Peyğəmbər kimi mə-ni sevərlər. Ancaq, illər boyu sən mənim şagirdim olmusan və mənim elmimdən bəhrələnmisən. Buna baxma-yaraq, mənim fər-manım səndə o qədər az təsir qoymuşdur ki, bir anlıq yataqdan qalxıb, mənə bir içim su verməyə hazır olmadın.***

***Amma Peyğəmbərin (s) vəfatından 400 il keçməsinə bax-mayaraq, Müəzzinlər (azan deyənlər) Allahın elçisinin əmrinə itaət edib, isti yataqlarından qalxıb, dəstəmaz alıb, uca minarə-lərə çıxaraq, Allahın birliyinə və onun Peyğəmbərinin (s) haqq olmasına şəhadət verirlər. İndi özün düşün gör Peyğəmbərlə (s) adi insanların arasında nə qədər fərq var.”***

Tibb elminin banisi Əbu Əli Sina bu gözəl nəsihət və məsləhətləri ilə Bəhmənyarın simasında bəşər övladına demək istəyir ki, filosoflar mürid (tələbə) deyil, şagird hazırlayır-lar.Həmçinin bəzi siyasi rəhbərlər pak insanlar deyil, təəssüblü davamçılar hazırlayırlar. Bu cür siyasi rəhbərlərdən fərqli ola-raq Səfəvi rəhbərləri dərvişlərdən ibarət güclü və bacarıqlı mü-cahidlər və ordular təşkil edirdilər. Lakin, bunu onlar öz adları ilə deyil, Həzrəti Əlinin (ə) adı ilə bağlayırdılar. Həzrət Əlidə (ə) həm filosof səciyyəsi, həm inqilabçı rəhbər, həm təri-qət piri və həm də Peyğəmbərlərə (ə) məxsus olan xüsusiyyət-lər vardır.

Həzrət Əlinin (ə) məktəbi həm ağıl və təfəkkür məktəbi idi,həm də inqilab, təslim və inzibat, həmdə gözəllik ,cazibə və hərəkət məktəbi idi.

Həzrət Əlinin (ə) ardıcıllarından və aşiqlərindən olan, İbni Sikkini buna misal göstərə bilərik. İbn Sikkin Ərəb ədəbiyyatının görkəmli simalarından idi, onun adı ərəb dilli alimlərin sırasında əzəmətlə çəkilirdi. Bu şəxs Həzrət Əlinin (ə) şəhadətindən təxminən 200 il sonra, Abbası xəlifəsi Mütəvəkkilin hakimiyyəti dövründə yaşayırmış. Xəlifə Mütəvəkkil onu şiə olmaqda ittiham etdi. Lakin bu alimi bacarıqlı və fəzilətli bir ustad gördüyü üçün onu öz uşaqlarına müəllim seçdi. Bir gün uşaqlar onun yanına gələrkən Mütəvəkkil özüdə orada idi, gu-ya uşaqlar imtahan verib yaxşı qiymətlər almışdılar. Mütəvək-kil öz razılığını bildirərək, müəllimə təşəkkür etdi və İbn Sik-kindən soruşdu:

***"Ey Sikkin! Sənin üçün bu iki uşaq əzizdir yoxsa Həzrət Əlinin (ə) balaları Həsən (ə) və Hüseyn (ə) ?"***

İbn Sikkin bu sözdən və belə bir müqayisədən çox narahat oldu və öz-özünə düşündü ki, bu məğrur insan özünü Həzrət Əli (ə), uşaqlarını isə utanmadan Həsən (ə) və Hüseynlə (ə) müqayisə edir: Günah məndədir ki, onların təlim və tərbiyəsi-ni öz üzərimə götürmüşəm. Mən gərək bu məğrur insanın ca-vabında həqiqəti aşkar edim.

İbn Sikkin cəsarətlə həqiqəti Xəlifənin üzünə deyir:

***"Allaha and olsun! Həzrət Əlinin (ə) qulamı olan Qənbər mənim üçün bu iki uşaqdan və onların atasından qat-qat artıqdır və əzizdir."***

Mütəvəkkil bu cavabdan çox narahat oldu və əmr etdi ki, İbn Sikkinin dilini boynunun kökündən çıxartsınlar və Xəlifə-nin əmri eynilə icra olundu.

Tarix öz canından keçmiş və yenilməz iradəsi ilə həyatını və canını Həzrət Əlinin (ə) məhəbbəti yolunda qur-ban verən insanlarla doludur. Səfəvi şahları da İbn Sikkin kimi Həzrət Əlinin (ə) sevgi və məhəbbəti ilə yaşadılar, Həzrət Əlinin (ə) haqqın cəmiyyətdə bərpa etdilər və ərazisi iki milyon səkkiz yüz

min kvadrat kilometr olan Azərbaycan Səfəvilər Dövləti yaratdılar. Bu dövlətin banilərindən biri könüllər sultanı, ***“Əlini (ə) sevməyi səadət bilən”*** Ş.İ.Xətai deyirdi:

***Xətainin deyil həqqi şaha qulam deyə bilmək,***
***Əgər xidmət qəbul olsa, onun Mövlası Qənbərdir.***

Biz bu məqalələr də çalışdıq ki, İnsanları, məxsusən gəncləri ictimai vəhdətdən uzaqlaşdırmaq, özlərini və öz fikir-lərini bəyənmək, təkəbbürlülük, şöhrətpərəstlik, vəzifəpərəst-lik, başqalarının fikrinə hörmət qoymamaq və s. kimi neqativ hallardan kənarlaşdıraq.

Odur ki, biz gərək Qurani-Kərimin ***“Maidə”*** surəsinin 35-ci ayəsinə istinad edib, ***“Allaha vəsilələrlə yaxınlaşın,”*** buyuran Rəbbimizin əmrlərinə tabe olaq.

Sual oluna bilər ki, o, vəsilələr kimlərdir?

Ayədə buyurulan ***“vəsilə”*** dən məqsəd Peyğəmbər (s) və məsum (günahsız) şəxslərdir.

Bu məsum şəxslərdən ikisindən ***Peyğəmbərdən (s) və sonuncu İmamdan (ə)*** insanlar üçün, məxsusən gənclər üçün ibrətə layiq iki rəvayəti olduğu kimi qeyd edirik.

***1.”Peyğəmbər (s) zamanında döyüşlərin birində bir neçə kafir əsir düşmüşdü. Onlar elə insan idilər ki, azad buraxılsay-dılar İslama qarşı təxribatlar törədər və müsəlmanları fitnəyə sarı çəkərdilər. Onlardan axırıncı dəfə İslama iman gətirib-gətirməmələri barədə sual olundu. Amma heç biri qəbul etmədi. Bir-bir edam hökmü icra edildi. Axırıncısının da ölüm hökmü verildikdə, Allah-Təala tərəfindən Peyğəmbərə (s) bildirildi ki, 5 yaxşı əməlinə görə Allah onu sevir. Onlardan biri bu kafirin gözəl əxlaqa malik olması idi. Kafir şəxs Allah tərəfindən onun bu əməllərinin dəyərləndirilməsini eşitdikdə, İslam dinini qəbul etdi.”***

**2.** Həftədə bir dəfə ona baş çəkməyə gələn İmam Zaman (əc.f.) bir gün ayaqqabı yamayan Seyyid Əbdülkərimə deyir:

***“Seyyid Əbdülkərim!Mənim ayaqqabımı tikirsənmi?”***

Seyyid cavab verir:

***“Ağa səndən əvvəl növbəyə duran var. Onun işini görüm, sonra sizin qulluğunuzda duraram. Ayrı bir dəfə yenə İmam Zaman (əc.f) eyni sualı verir və Seyyiddən eyni cavabı alır.”***

Üçüncü dəfə bu hal təkrarlandıqda, Seyyid ayağa qalxıb, İmamı (əc.f.) qucaqlayır və belə deyir:

***“Ağa indi fəryad çəkib, hamıya bildirirəm ki, İmam Zaman (əc.f) mənim dükanımdadır.”***

İmam (əc.f.) buyurur:

***“Seyyid Əbdülkərim! Özünü ələ al, Mən sənin ədalətini və digərlərinin haqqını necə qorumağını imtahan edirdim.”***

“Ey bizi Yaradan Ulu Tanrı! Sən bizə kömək ol ki, biz də mənəvi rəhbərlərimiz olan məsum din böyüklərimizin yolu ilə gedək və bütün işlərdə onları özümüzə ülgü qərar verək”. Ulu babamız M.Füzulinin dediyi kimi:

***Bir yolda sabit et qədəmi-etibarımı,***
***Kim, rəhbəri-şəriət ola müqtəda mana.***

***Həbsi-həvada qoyma Füzuli sifət-əsir,***
***Ya Rəbb hidayət eylə təriqi-fəna, mana***

***Əssəlamu aleykum və rəhmətullahi və bərakətuh***

# I BÖLÜM

*Həyat sürprizlərlə dolu bir okeana bənzəyir. Səhifəmizin uğurlu keçməsi üçün gəminin də, kapitanının da güclü olması lazımdır. Necə ki, heç bilmədiyimiz bir elmi öz başımıza öyrənməyimiz çox çətindir, mənəvi yolda da ayağımızın sürüşməməsi üçün daim bir etiqadlı mürşidə ehtiyacımız var. Necə ki, könüllər sultanı Şah İsmail Xətai deyib:*

*Şah Xətai sənin dərdin deşilməz,*
*Dərdi olmayanlar dərdə tuş olmaz,*
*Mürşidsiz, rəhbərsiz yollar açılmaz,*
*Mürşid ətəyində əlin varmıdır?*

## ən-Nas («İnsanlar») surəsi

## سُورَةُ النَّاسِ

Rəhmli, Mərhəmətli Allahın adı ilə!

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

1. De: «Pənah aparıram insanların Rəbbinə,

قُلْ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ ﴿١﴾

2. insanların Hökmdarına,

مَلِكِ ٱلنَّاسِ ﴿٢﴾

3. insanların Tanrısına,

إِلَٰهِ ٱلنَّاسِ ﴿٣﴾

4. vəsvəsə verən, [Allahın adı çəkiləndə] geri çəkilənin [şeytanın] şərindən

مِن شَرِّ ٱلْوَسْوَاسِ ٱلْخَنَّاسِ ﴿٤﴾

5. hansı ki, insanların köksləinə vəsvəsə salır,

ٱلَّذِى يُوَسْوِسُ فِى صُدُورِ ٱلنَّاسِ ﴿٥﴾

6. cinlərdən də [olur], insanlardan da!»

مِنَ ٱلْجِنَّةِ وَٱلنَّاسِ ﴿٦﴾

***Əbcədi Allah yardıb "Be"yi binadan gözəl,***
***Səlavatın sahibidir nur üzü nurdan gözəl,***
***Kəlmə-kəlmə ayə enib, həqq Rəsulun şaninə,***
***Şər-İslamın  tərbiyəsi, otuz cüzv Quran gözəl.***

***Oxuduqca nur çiləyir ayələrin danəsi,***
***Hesabatda dörd altıdır, yüz on dörddü xanəsi,***
***Böylə bir elmi dəryanın nurdandı pərşanəsi,***
***Onu münəvvər yaradıb, böyük Yaradan gözəl.***

***Ay Kamandar!  Şər-İslamın tər dünyası kimdə var?***
***Turi-Sinanın hikməti, möcüzəsi kimdə var?***
***Merac evinin səfəri, Şah Mirzəsi kim də var?***
***Övliyalar, Ənbiyalar, Ol Qadir Sübhan gözəl[1].***

***[1] Haqq aşiqi Aşıq Kamandar.***

# İNSAN VƏ QURAN

***Bismillahir-Rəhmanir-Rəhim!***

***"Bismillah"***ayəsi barəsində Əmirəl-Möminin Həzrət Əli (ə) buyurur:

***"Doğrudanda bəndə bir şey oxumaq və ya bir işi görmək istədikdə "Bismillahir-Rəhmanir-Rəhim" desə, o iş bərəkətli olar."***

***"Bismillah"ı dərk eyləməmiş, "Həmd"ə yüyürmə,***
***Ey zahidi-gümrah!***
***Sərkərdəsiz, aya, görünüb bağlana səngər***
***Ləşkər tapa rövnəq!***

S.İ.Nəsimi ideyalarının davamçısı olan, Həzrət Əlinin (ə) eşqi ilə səmalarda pərvaz edən, Əhli-Təriqət şairlərindən olan S.Ə.Nəbati bu ***"Müstəzad"***ında Həzrət Əlinin (ə) buyurduğu kimi, yolunu azmış zahidlərə və Əhli-Sünnə camaatına çatdır-maq istəyir ki, ***"Bismillahir-Rəhmanir-Rəhim"***ayəsi surələrin baş tacı olmaqla yanaşı həm də surələrin sərkərdəsidir. Buna görə də gərək hər bir insan ***"Bismillahir-Rəhmanir-Rə-him"***ayəsini dərk etsin və bilsin ki, bu ayəni dərk etmədən ***"Həmd"*** və digər surələri oxumağın heç bir faydası yoxdur.

Bütün digər dinlərdə olduğu kimi, İslam dinində də ənə-nəvi yığıncaqlar və məclislər mövcuddur. Bu yığıncaqlar və ya məclislər dörd qismə bölünür. Rəvayətlərdə açıq-aydın şəkildə söylənilir ki, Allahın nəzəri həmin məclislərdə olar:

1. ***Quran məclisi;***
2. ***Şəriət- vacibat məsələləri məclisi;***
3. ***Həzrət Əlinin (ə) mədhi məclisi;***
4. ***İmam Hüseynin (ə) müsibət və təziyə məclisi;***

Quran məclisi Quran məktəbidir. Peyğəmbər (s) buyurmuşdur:

***«Əl-Quranu müəddəbəətullah» – yəni, «Quran Allahın ədəb məktəbidir»***

***Bütün möminlərin qəlbindəki canandır Quran!***
***Nüzuli-həqdir çün, ümmətin dərmanıdır Quran!***

***Günəşdir ki, salıb nuri-kəlamın cümlə yer üzrə,***
***Cahan gülzarının ən ətrbar reyhanıdır Quran!***

***Açır hər hikmətin sirin bəşərçün sureyi– «İqrə»,***
***Hər elmin, sənətin ən başlıca ünvanıdır Quran.***

Əsrlər boyu nüfuzlu müctəhidlər və üləmalar Qurani-Kərimə təfsir yazıb, onu xalqa izah etmək üçün əziyyətlər çə-kiblər. Tarixdə elə şəxslər olub ki, onlar Quranı gözəl oxumaq-la bərabər, hətta onu bütöv halda əzbər bilmişlər.

Qurani-Kərimi əzbər bilənlərə ***"Hafizi-Quran"*** deyilir.

Şeyx Bəhayəddin ***"Tənbiyhil-Ğafilin"*** əsərində yazır:

***Cani-mömin şadiman əz xandəni Quran buvəd,***
***Xandəni Quran bezahir canira canan buvəd.***

(Mömininin canı, ruhu Quran oxumaqla şad olar. Quranı aşkar üzdən oxumaq cana can verər, aşiqi-məşuqə yetirər).

Həzrət Əli (ə) buyurub:

***"Bilin, Quran elə bir məsləhət verəndir ki, xəyanət etmir, elə bir yol göstərəndir ki, azdırmır, elə bir söz danışandır ki, yalan demir".***

Hal-hazırda gənclərimizin Qurani-Kərimi öyrənməyə hə-vəsi xeyli artmışdır. Lakin buna baxmayaraq hələ də çox adamlar Qurana hörmət etməyin vacibliyini ya bilmir, ya da buna əməl etmirlər və Quranın ehtiramını yüngül sayırlar. Bəziləri isə Quranın hörmətini onu rəflərdə digər kitablarla yanaşı, toz basmış halda saxlamaqda görürlər, halbuki, Qura-nı oxumaq və onun ayələrini dərk etmək lazımdır.

Allah-Təala ***«İsra»*** surəsinin 9-cu ayəsində buyurur: ***«Həqiqətən bu Quran ən etibarlı yola hidayət edəndir».***

Qurani-Kərim şan və şərəf mənbəyidir.

Qurani-Kərim müqəddəs və toxunulmazdır, qorunan və mühafizə olunandır. Ona yalnız təmiz və pak olanlar əl vura bilərlər.

Qurani-Kərim nazil olmağa başladığı zaman bütün cahan qaranlıqlar içində idi. İnsanlar yollarını azmışdılar, əlaqələri yox idi, ayrı-ayrı bütlərə ibadət edirdilər. Peyğəmbərlərin (s) zaman-zaman təbliğ etdikləri haqq din unudulmuşdu, hər tərəfdə haqsızlıq baş qaldırmış, könüllər qaralmışdı. Belə bir zamanda Cəbrayıl (ə) cahanın böyük xilaskarı Həzrəti Mə-həmmədə (s) Quranın ilk ayələrini çatdırdı.

***Xuda vəhy eylədi hər bir kəlamı Müstəfa üçün,***
***Dedi: Təfsir elə, elmin əsil meydanıdır Quran!***

Doğrudanda Qurani-Kərim bir nurdur.

Allah-Təala bizlərə doğru yolu onunla göstərir.

Qurani-Kərim bütün insanlara öyüd, bədxahlı könüllərə şəfa, Allahdan qorxanlar üçün hidayət mənbəyidir, müsəlman-lara mərhəmət bəxş edən, onları rəhmli olmağa sövq edən, doğrunu yalandan, düzü əyridən, haqqı batildən ayıran, çox incə mətləbləri aşkar edən yüksək, şərəfli, hikmətlə dolu təmiz və pak bir kitabdır. Elm və təfəkkürə böyük qiymət verən bu kitab bütün insanlığa işıq saçan bir məşəl olmuş, dünyanın müxtəlif yerlərində mədəniyyətlər vücuda yetirmiş, insanlığı maddi və mənəvi cəhətlər baxımından yüksəlmişdir.

Əgər Qurani-Kərimdə ecazkar bir yüksəklik duymayan tapılarsa, onun səbəbini və nöqsanını öz ağlının naqisliyində aramalıdır.

Qurani-Kərimdə hər mövzu çox yüksək və bəlağətli ifadəsini tapmışdır. Bütün dünya işlərini ən mükəmməl şəkildə öyrədən səmavi kitab Qurani-Kərimdir. Gələcəyə aid mühüm xəbərlər, bənzərsizliyi və ucalığı, keçmiş Peyğəmbərlərin hekayətləri,

cihad, haqq dinin əsasları, etiqad və ibadətlər, gözəl əxlaq, axirət dünyası – bütün bu müşkül mövzular Qurani-Kərimdən öyrənilə bilər. Necə ki, şair Kərəm Kürqıraxlı demişdir:

***Dünya öz qoynunda tapandan nicat,***
***Allahın hökmüylə qurulmuş həyat.***
***Bu yer, bu asiman, külli-kainat,***
***Quranın otuz cüzv ayəsindədir.***

Qurani-Kərim insanlarla Allah arasında ilahi və səmavi bir yoldur. Peyğəmbər (s) buyurmuşdur:

***«Sizin içərinizdə ən xeyirliniz Quranı öyrənən, ondan da xeyirliniz Quranı öyrədəndir».***

Qurani-Kərim həm özü, həm də sözü ilə ən böyük bir möcüzədir. İndiyədək ən qısa bir surəsi, tək bir ayəsi belə təh-rif edilməmiş, ona bənzər bir söz deyilməmişdir.

Sözə (ehya) dirilik verən, dövründəki şeir əhlinin və özündən sonra gələn neçə-neçə şairlərin əzəm ustadı Mövlanə Məhəmməd Füzuli Qurani-Kərimi istər ləfzi, istərsə də mənası etibarı ilə İslam peyğəmbərinin (s) qiyamətədək hərfi belə də-yişmədən qalacaq ən böyük möcüzəsi hesab edir və deyir:

***Baqiyi-möcüz nə hacət əmri-həqq isbatinə,***
***Aləm içrə möcüzi-baqi yetər Quran sənə.***

(Tanrı işinin isbatı üçün başqa möcüzələrə nə ehtiyac var? Quran aləmdə əbədi möcüzə olaraq sənə kifayətdir).

M.Füzuli elmi-fəlsəfi əsəri olan ***«Mətləül-etiqad»*** əsərində yazır:

***“Bütün peyğəmbərlərin(ə) peyğəmbərliyinin sübutu müəyyən möcüzələrdən ibarət olmuşdur. Lakin o Peyğəmbərlərdən(ə) sonra həmin möcüzələrdən heç bir əsər qalmamışdır. Halbuki, bizim peyğəmbərin (s) möcüzələrindən biri olan Qurani-Kərim Peyğəmbərə (s) necə nazil olub olduğu kimidir. Və bütün za-***

***manlar üçün qiyamət gününə qədər peyğəmbərliyinin sübutu olaraq qalacaqdır".***

Müasir dövrümüzdə də bir çox şairlər və aşıqlar öz şeirlərində Peyğəmbərin (s) əbədi möcüzəsi sayılan Qurani-Kərimdən bəhrələnmiş və yeri gəldikcə öz şeirlərini Quran ayələri ilə zinətləndirmişdirlər. Belə şairlər klassik ədəbiyyatımızda çoxdur. Həm şair, həm də aşıq kimi böyük şöhrət tapmış, ozan-aşıq sənətinin dərin bilicisi, Şirvan aşıq məktəbinin yaradıcılarından hesab edilən, Əhli-beyt (ə) aşiqi Aşıq Əhməd Rüstəmov Quranı belə vəsf edir:

***Haqqdan, ədalətdən yaranıb Quran,***
***Yaşayıbdır, yaşayacaq hər zaman.***
***Milyon-milyon şahlar köçüb dünyadan,***
***Nə irsi yaşayır, nə də qanunu.***

***Əhməd, Qurandadır ədli-ədalət,***
***İnayət, şəfaət, mehri-məhəbbət.***
***Ustadlara rəhmət, şeytana lənət,***
***Qurandan müqəddəs bir qanun hanı?***

İrfan sahiblərini düşündürən cəhətlərdən biri də Peyğəmbərin (s) ***"Merac"*** səfəridir. Peyğəmbər (s) Allah-Təalanın əmri ilə ***"Merac"***a getmiş və bu səfərdə xalis ruhani və mənəvi varlıqlar olan səma əhlini, o sıradan Quranı belə, ən istəkli məh-bub tək sevdirməyə çalışmış və onların dərin rəğbətini insanla-ra qazandırmışdır .

***Ey olub merac burhani-ülvi-şan sənə,***
***Yerə enmiş göydən istiqbal edib, Furqan sənə.***

(Ey merac məqamının yüksəkliyinə dəlil olan, Furqan səni qarşılayıb, göydən yerə enmişdir).

M.Füzulinin fikrincə ***“Məmduh”*** (tərif olunan) elə şərəfli-dir ki, o, yer əhli ola-ola səmavi kitab olan Qurani-Kərim onu qarşılamaq üçün o uca məqamdan enmişdir. Lakin Füzuli bu sözü deyərkən Qurani-Kərimi heç də kiçiltmir. M.Füzuli Pey-ğəmbər (s) sevgisiylə alışıb yanan, ürəyi iman nuru ilə dolub-daşan bir sənətkar kimi Peyğəmbəri (s) bu baxımdan da son-suz şövq və kamil zövq ilə tərənnüm etmişdir:

***Quran sefate- caho-cəlale- Məhəmməd əst,***
***Ehkame- şər-şərhe kəmale- Məhəmməd əst.***

(Quran büsbütün Məhəmmədin (s) əzəmətini səciyyələndirdiyindən, şəriət hökmləri də onun kamilliyinin açımından ibarətdir).

İmam Zeynalabidin (ə) buyurub:

***“Quranın ayələri – elm xəzinələridir, hər zaman xəzinə açılsa, gərək orada olan şeylərə baxasan”.***

Bir gün Aişədən Peyğəmbərin (s) əxlaqı barədə soruşurlar: Aişə Quranı götürüb məscidə gəlir və məscid əhlindən soruşur:

***“Məgər siz Quran oxumursunuz? Quran bütünlüklə Peyğəmbərin (s) əxlaqıdır”.***

Allah-Təala ***«Əhzab»*** surəsinin 21-ci ayəsində buyurur: ***«Əgər Allaha və qiyamət gününə ümid edirsinizsə və Allahı çox yad edirsinizsə, Allahın peyğəmbiri (s) sizin üçün ən gözəl ülgüdür».***

Qurani- Kərim bir neçə insanları bizə ideal təqdim edib. Onlardan biri İslam Peyğəmbəri Həzrəti Muhəmməddir(s). Nümunəvi işləri tanıyaq, onu özümüzə nümunə götürək.

Müsəlmanlar Allahın xoşbəxt bəndələridir ki, onların dini Allahın ən sonuncu dini İslam, kitabı Allahın ən sonuncu kitabı Qurani-Kərim, Peyğəmbəri Həzrəti Muhəmməddir (s). Amma şair demiş:

***Heyf ola, səd heyf ola biz əhli Quran olmuşuq,***
***Bir quru addır, yalandan biz müsəlman olmuşuq.***

Allah-Təala sonuncu dini olan İslamı bizim üçün təsadü-fən seçməmişdir:

***"İslam dini kainatın günəşidir!"***

Günəş doğanda isə nəinki ulduzlar, hətta ay da öz nuru-nu itirir.

İslam günəşi doğandan sonra Allahın əmri ilə əvvəlki dinlərin hökmü qalmamış, onlar öz müqəddəsliklərini itir-mişlər.

Allahın belə bir əmr verməsinin əsas səbəbi isə həmin dinlərdiki müxalifətçiliyin, təmayüllüçülüyün, təfriqəçiliyin meydana gətirdiyi lazımsız məzhəblər arasında yaranan nifaq və hərc-mərclik olmuşdur.

İslam Peyğəmbəridə (s) İslam dinində belə lazımsız məzhəblərin münafiqlərin meydana gələcəyini bilmiş və bundan çox narahat olmuş və müsəlmanlara son vəsiyyətlərinin birin-də belə buyurmuşdur:

***«Ey insanlar! Ey müsəlmanlar! Ey mənim ümmətim! Bir olun! Birlikdə olun! Əl-ələ verərək aranızda möhkəm bir ittifaq yaradın! Allah yolunda addımlayarkən sıralarınızda səf-səf (cərgə) durun! Çiyin-çiyinə durarkən Allaha xidmət etmiş olursunuz. Yoxsa Allah ibadətlərinizi qəbul eləməz! Aranızda nifaq salınmasına imkan verməməli, birlikdə hərəkət etməlisiniz! Bun-ları etməsəniz, islamiyyətdə məzhəblər meydana gətirərək, ara-nızda təfriqələr salaraq, birliyinizi parçalayacaq, Allahın sizlərə bəxş etdiyi azadlığı və hüriyyəti əlinizdən alacaqlar. Allah sizi hürr yaratmışkən, çalışın qula qul olmayın! Başqa dindən onlara islam haqqında fikir yürütməyə heç bir vaxt imkan verməyin! Hətta o münafiqlər sizin dininizi tərifləsələr belə. Çalışın Allahla öz aranızda pərdədar olmasın! Dediklərimizə əməl etməsəniz qiyamət günü Kövsər hovuzu başında yanıma gələ bilməyəcək, Allahın qulu və Rəsulunun İslam bayrağı altında kölgələnə bilməyəcəksiniz!»***

Həmçinin Peyğəmbər (s) ***«Səqəleyn»*** hədisində buyurmuş-dur:

***«Ey camaat, mən sizin aranızda iki ağır və dəyərli əmanət qoyub gedirəm. Onlardan biri Allahın kitabı olan Qurani-Kə-***

***rimdir ki, onda nur və bəlağət cəm olub, ikincisi isə mənim Əhli-beytimdir (ə). Çalışın onlardan nə qabağa keçməyin, nə də geri qalmayın. Əgər onlardan qabağa keçsəz də, geri qalsazda əbədi bədbəxtliyə düçar olarsız »***

Mərsiyə ədəbiyyatının tacı Hacı Əbülhəsən Raci Peyğəmbərin (s) bu mübarək hədisini belə nəzmə çəkmişdir:

***Vəqti rehlətdə mükərrər tapşırıb xətmi-Rəsul,***
***İki zad məndən əmanətdir sizə eylin qəbul:***
***«Ey camaat! Biri Qurandır, biri Ali-Rəsul,***
***Saxlayın siz onlara hörmət Peyğəmbərdən sora*!**

Amma çox təəssüf ki, illər ötdükcə Həzrətin (s) bir çox vəsiyyətləri kimi bu da bəzi üzdəniraq müsəlmanlar tərəfindən və Peyğəmbərimizin (s) vaxtında qorxularından İslamı qəbul edənlər, yəni münafiqlər tərəfindən unudulmağa başladı.

***İman və saleh əməllər*** – İnsanın bütün fəaliyyətlərinin təməlini təşkil edir. Çünki insanın bütün əməli, səyləri və çalışmalarının əsas mənbəyi və əqidəsindən qidalanır. Lakin insandan fərqli olaraq, heyvanların bütün hərəkət və fəaliyyəti instinkt əsasında tənzimlənir, insanın əməlləri isə əqidə və fikirlərinin məhsulu olub, onları əks etdirir. Buna görə də bü-tün İlahi Peyğəmbərlər(ə) hər şeydən əvvəl insanların və ümmət-lərin əqidə və məsləklərinin islahından başlamış və xüsusən rəzalətlərin, bədbəxtliklərin və təfriqələrin əsas mənbəyi olan şirkə qarşı mübarizə aparmışlar. Maraqlıdır ki, burada ***«iman»*** anlayışı mütləq mənada işlənmişdir ki, imanın bütün müqəddəsliklərini ehtiva edə bilsin. Yəni, Allaha, Qiyamətə, haqq-hesaba, mükafata, cəzaya, səmavi kitablara, İlahi Peyğəmbərlərə(ə) və onların vəsilərinə qədər bəslədikləri hissi-əqidəni ehtiva etsin.

***Çalışdım xəlq üçün beqədri-qüvvə,***
***İstədim əməlim zinətim olsun.***
***Hər gördüyüm əməl, hər yazdığım söz,***
***Özümün özümə qiymətim olsun.***

– Həmin layiqli əməllərdir ki, burada yalnız ibadət, Allah yolunda sərvət xərcləmək, cihad, elm və bilik əldə etmək deyil, əslində insanın təkamülündə, əxlaqi tərbiyəsində, Alla-ha yaxınlıqda, insan cəmiyyətinin inkişafında və s. sahələrdə hər bir layiqli iş üçün bir vasitədir.

***Əməlin düzdüsə, hər bir arzun,***
***Kuyi-yarə yetəcək şəkk eləmə.***
***Nə əməl əksən əgər taleyinə,***
***O əməl də bitəcək, şəkk eləmə.***
***Yaxşı işlərlə qazan yaxşı günü,***
***Pis zəmanə ötəcək, şəkk eləmə.***
***Nə yaman həşr günü can qurtarar,***
***Nə yaxşı itəcək, nə də pis şəkk eləmə.***

İman – insanın ruhunda düşüncə, fikir, etiqad, hər cür təsirdən uzaq bir anlayış, insanın bütün varlığını öz rənginə boyayan bir məfhumdur.

İman çox işıqlı bir çıraqdır ki, təkcə otağın içini işıqlan-dırmır. Onun şüaları həm də otağın qapı və pəncərəsindən ba-yıra çıxıb, həyət-bacaya düşür. O evin yanından keçən hər kəs aydın görər ki, içəridə çox işıqlı bir güclü iman çırağı yanır. İnsanın qəlbində də belə bir güclü iman çırağı yanırsa, onun nuru insanın dilində, gözündə, əlində və ayağında öz əksini tapır. Bu əzaların hər birinin hərəkəti, tərpənişi, rəftarı göstə-rir ki, bunlar o insanın ürəyinin işıltısıdır ki, onun üz-gözündə öz əksini tapmışdır. Buna görə Quran ayələrində çox vaxt «sa-leh əməl» ifadəsi onun ən zəruri bir kompanenti kimi ***“iman”*** sözü ilə birlikdə işlədilmişdir.

Allah-Təala ***«Nəhl»*** surəsinin 97-ci ayəsində buyurur:

***«Mömin olub yaxşı işlər görən hər bir kişi və qadına (dünya və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik».***

***«Ey xəstə könül, dərdinə dərman tələb eylə,***
***Gər can dilərisən, yeri canan tələb eylə».***
***Tərk eylə bu hicran qəmini, dərdü-məlali,***
***Vəslə yetibən rövzeyi-rizvan tələb eylə.***

Bu bir-birinə haqqı tövsiyə edən insanlara aid bir maddədir. Burada bütünlükdə və ümumilikdə haqqa doğru dəvətə işarə olunur. Əsas məqsəd bundan ibarətdir ki, haqqı batildən asanlıqla ayırsın və unutmasınlar ki, həyat yollarında çaşmaq, azmaq və əsas marşurutdan çıxmaq pis nəticələr verir.

***Aşiqi məbududur aşiq edən dünyada çün,***
***Tərk edər imanın insan düşsə insandan uzaq.***

İnsanlara haqqı tövsiyə edən adamların özləri haqqın tərəfdarı olmalıdır.

İnsanlara səbirli olmaq tövsiyə edən kəslərə aiddir. Çünki insan öz yolunu, öz istiqamətini müəyyənləşdirəndən sonra əməllərini həyata keçirərkən, bir sıra çətinliklərlə qar-şılaşır. Əgər o dözümlü və səbirli olmasa, heç vaxt haqqın həqiqətləri-nə çata bilməz, saleh əməllər tuta bilməz və ya öz imanını qoruyub saxlaya bilməz.

Doğrudan da bu günün müsəlmanları öz gündəlik həyatlarında, fərdi və ictimai fəaliyyətlərində bu dörd maddəyə əməl etsələr, onları həyata keçirsələr, çətinlikləri, problemləri asan-lıqla həll olunar, gerilikləri aradan gedər, zəiflikləri, məcburiy-yətləri qələbələrlə əvəz olunar və dünyanın şər işləri onlardan uzaqlaşar.

***Canını canana ver ki, can yaxın, canan uzaq,***
***Can verəndən sonra çün canan yaxındır, can uzaq.***
***Həqqi əzbər eyləmək, eylər səni həqqə yaxın,***
***Vay o gündən, ey rəfiq, dərddən düşə dərman uzaq.***

Peyğəmbərin (s) səhabələri və dostları bir-birilə görüşüb, sonra ayrıldıqda ***“Əl-Əsr”*** surəsini oxuyardılar və bir-birləri ilə xudahafizləşib, öz işlərinin ardınca gedərdilər.

İnsan varlıq aləmində yaranmışların ən qiymətlisidir. Allah-Təala heç bir məxluqu insandan üstün yaratmayıb. İnsan həm ruhi, həm də cismani cəhətdən yaradılmış başqa canlılardan fərqlənir. Onda olan ruhi istedadlar və cismani bacarıqlar bir-birindən maraqlıdır.

Allah-Təala ***«İsra»*** surəsinin 70-ci ayəsində buyurur:

***“And olsun ki, Adəm (ə) oğullarına çox nemətlər verdik. Onları quruda və dənizdə (miniklərə) daşıdıq.Onlara təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik”.***

İnsanın Allah dərgahında əziz olması iki növdür:

– Allahın ona bəxş etdiyi əzizlik – ***“İsra”*** surəsinin 70-ci ayəsində bu cür əziz olmağa işarə olunur. İnsan Allahın ona verdiyi bu əziyyətə görə bütün məxluqlardan, hətta mələklər-dən də üstündür. Başqa sözlə, bu cəhət insana elə bir istedad verir ki, başqa məxluqlar bu istedaddan məhrumdurlar.

– İnsanın özünün qazandığı əzizlik – İnsanın Allah dərgahında bu cür əziz olması onun təqvalı olub, yaxşı işlər görməsindən asılıdır.

Allah-Təala ***“Hücurat”*** surəsinin 13-cü ayəsində buyurur:

***“Şübhəsiz,Allah dərgahında sizlərdən ən möhtərəm olanı, daha təqvalı olan kəsdir”.***

***“Nəhcül-Bəlağə”*** də olan 242 xütbədən biri də ***«Təqva»*** və yaxud ***“Xütbeyi-Həmmam”*** adı ilə məşhur olan xütbədir. Həmmam Əlidən (ə) təqvanın dərəcələrini eşidəndən sonra ruhu bədənini tərk eləyir və mələkut aləminə uçur. Şair Vüqar Nakam demiş:

***Təsiri-kəlmən sənin Həmmamı bican eylədi,***
***Təlim etdi bizlərə şiən nadir təqva, Əli.***

***Təqva***-Allahın vacib etdiyi əməlləri yerinə yetirib, günah işlərdən çəkinmək deməkdir.

İnsan elə bir yüksək dərəcəyə çata bilər ki, Allah-Təala mələklərə Adəm Peyğəmbərə (s) səcdə etmələrini əmr etdi. Onların bu səcdələri Allaha şükür səcdəsi idi ki, ilahi belə bir üstün məxluq yaratmışdır.

Necə ki, S.Ə. Şirvani bir qəzəlində belə deyir:

***İstərdi mələk Adəmi ki, tapmaya xilqət,***
***Hüsni bəşəri gör ki, mələk oldu giriftar.***

Quran və hədislərdə insanı tərbiyə və hidayət etmək məqsədiylə həmişə onun əzəmətli şəxsiyyəti xatırladılır.

İmam Əli (ə) buyurub:

***“Ey insan! Sən elə güman edirsən ki, balaca bir məxluqsan? Sənin vücudunda böyük bir dünya vardır”.***

İnsan özünün böyük və əzəmətli şəxsiyyətini dərk eləsə, heç vaxt onu dəyərsiz və puç yollarda məhv eləməz. İnsan heç vaxt bir parça qızılı bir daş parçası ilə dəyişməz.

Necə ki, İmam Səccad (ə) buyurur:

***“Öz şəxsiyyətinə qiymət verən şəxsin gözündə maddi maraqlar dəyərsiz olar”.***

Baba Tahir Üryan bir ***“rübai”*** sində İmamın (ə) bu hədisi-nə uyğun olaraq belə yazıb:

***Həqiqət yolunu azmaqdan usan,***
***Bəsdir əsir etdi nəfsini şeytan,***
***Qədrin hurilərdən artıqdır mənə***
***Heyif sən özünə qiymət qoymursan.***

Həzrət Yusif (ə) İlahi Peyğəmbərlərdən biri olub.

O həyatında müxtəlif hadisələrlə üzləşdi, o cümlədən qardaşlarının ona zülm etməsi, quyuya atmaları, onun Misir padşahının sarayına yol tapması, sonra zindana düşməsi və vəzir olması. Yusif (ə) ömrünün axırlarında Misirin padşahı oldu. Yusif

(ə) həmişə dünyanın fani olmasını və hamının əbədi padşaha-Allaha qovuşacağını xatırlayırdı. Onun padşah olandan sonra duası bu idi:

***"İlahi, məni dünyadan müsəlman halında apar!"*** [1]

Həzrət Yusif (ə) bu duanı yalnız padşah olandan sonra edirdi. Bu o deməkdir ki, rəyasət xətərli bir işdir. Hətta bu işdə Yusif Peyğəmbər(ə) kimi bir şəxsiyyətin də ayağı büdrəyə bilər. Buna görə o Həzrət özünün Allah yoluna sadiq qalma-sından ötrü dua edirdi. Yusif (ə) axıra kimi Allah yolunda ola-cağına şübhə etmirdi. Lakin bununla belə, o rəyasət və pad-şahlığın xətərli və aldadıcı bir iş olduğuna görə, həmişə Allah-dan kömək diləyərdi.

Bəli, insanlara mənsub olan eşq – həyat və yaşayışdır. Eşq – aşiqi məşuqə bənzəməyə rəğbətləndirir və aşiq öz məşuqu-nun bir cilvəsi və onun rəftarının bir nümunəsi olmağa çalışır. Necə ki, Əbu Əli İbn Sina ***«İşrak»*** əsərində yazır:

***"Nəfsani məhəbbət aşiqlə məşuqun başlanğıc etibarilə zati həmrəngliyindən ibarətdir, aşiqin ən çox diqqəti məşuqun xüsu-siyyət və işvələrinə yönəlir. Çünki bunlar onun vücudundan do-ğan əsərlərdir. Həmin eşqdir ki, vücudu mülayim, çağlayan və həyəcanlı edər. O elə bir saflıq yaradır ki, aşıq onunla dünyada-kı çirkinliklərdən uzaqlaşar".***

Hər bir insan özünü islah etmək üçün bir həqiqət əhlini tapmalı və özünü doğrudan da islah edə bilmək üçün ona, mü-rid olmalıdır. Necə ki, Hafiz deyib:

***Könlün vüsal nemətini Hafiz istəsə,***
***Əhli-hünər qapısının olasan torpağı gərək.***

***Və yaxud:***

***Bülbül öz sözlərini aldı gülün feyzindən,***
***Yoxsa dimdikdə belə söz qəzəli olmaz idi.***

---

***[1] Yusif surəsi ayə 101.***

Əvvəllər ibadət edib, xeyirxah bir iş görmək istədikdə süstlük və tənbəlliyə düçar olan adam, eşq və məhəbbət tap-dıqda artıq süstlük və hikmətsizlikdən qurtulur, iradə və əzmi güclənir:

***Xublar mehri yaman aldı dini-imanı,***
***Roxi-şətrənc ala bilməz roxi-ziba alanı.***
***Sanma kim öz-özünə oldu dəli-Məcnunu,***
***Leylinin cazibəsi göylərə qaldırdı onu.***
***Bir samandım əl-ayaqsız selə düşmüşdüm,***
***Qovuşar ikən ona tapdım axır dəryanı.***
***O kaman qaşın idi, bir də gözəl incə əlin,***
***Kim gəzib məclis ara, aldı dili-şeydanı.***

Tarixdə elə böyük adamlar vardır ki, kamil insanlara bəslədikləri iradənin nəticəsində azı onların fikrində və vicdanlarında böyük inqilab yaratmışdır. Mövləvi onlardan biridir. O əvvəllər bu qədər odlu və həyəcanlı deyildi. Alim olsa da, soyuq və sakit halda, şəhərin bir bucağında tədrislə məşğul idi. Şəms Təbrizi ilə tanış oldu, onun məhəbbəti canını, ürəyini bürüdü, dəyişildi, ürəyinə bir od düşdü və nəhayət, barıt anba-rına bir qığılcım düşmüş kimi alışıb yandı. Mövlanənin ***"Məsnəvi"***si dünyanın ən böyük kitablarından biridir. Bu ada-mın bütün şeirləri tamamilə dalğa və hərəkətdir. O, mürşüdü Şəms Təbrizi haqqında yazdığı ***"Divan"***ını öz muradı və məh-bubunun xatirəsinə söyləmiş və ***"Məsnəvi"***sində də onu həd-dindən artıq çox yad etmişdir.

***"Məsnəvi"***də Mövləvinin nə isə bir mətləb axtardığını görürük. Ancaq Şəms yadına düşərkən ruhunda böyük bir fırtına törənib vücudunda coşğun dalğalar yaradır.

***Bu nəfəs canım ara bir od salıb,***
***Yusifin köynəyinin ətrin alıb.***
***Gəl mənim üçün bir ölənlərdən danış,***
***Sirrlər söylə, o günlərdən danış.***
***Qoy yer ilə göy gülüşlərlə dola,***
***Ruh ilə ağlın gücü yüz qat ola.***

***Söylədim ey canı yanmış hicrdən,***
***Sanki bir can xəstə, yox dərman edən.***
***Yox bu cismimdə ayıq bircə damar,***
***Şəhrə sığmaz, yarı şərh etmək olar?***
***Nə deyim, etdi nələr hicri ətəş,***
***Başqa bir vaxta burax gəl bu işi.***
***Bunca qovğa, fitinə, aşub istəmə,***
***Bundan artıq Şəmsi-Təbrizidən demə.***

Şairlər bəzən öz şeirlərində məhbub və məşuqlarına qarşı bəslədikləri sevgi və eşqi ***"Ey könlüm, canım, dinim, imanım"*** kəlmələriylə ifadə edirlər.

Necə ki, Mövlanə Cəlaləddin Rumi Şəms Təbrizi haqqında ***"Ey mənim günəşim, Tanrım"*** sözlərindən istifadə etmişdir. Bu Mövlanənin Şəms Təbriziyə sitayişi deyildir. Bəlkə onun Şəmsə qarşı duyulan sevgi və məhəbbətinin şiddətini bildirir. Hər halda bunlar şeir və irfanə tabedirlər. Bir çox Ələvilər və ariflər öz şeirlərində Həzrət Əliyə (ə) bəslədikləri çox dərin sev-gi və məhəbbəti dilə gətirirlərsə, bu onların məazəllah, Əlini (ə) Allah bilərək ona sitayiş etmələri bəyanında deyildir. Bu Ələ-vilərə və Bəktaşilərə qarşı bir iftiradır. Doğumu, ölümü, ibadə-ti, namazı, orucu hər kəsdən daha çox Allah üçün olan bir kimsə Allah ola bilməz. Bəlkə Allahın xas bir bəndəsidir.

Necə ki, Əhli-beyt (ə) aşiqi S.Ə.Hüseyni Əlini (ə) Xaliqin ayinəsi hesab edir:

***Ya Əli, tut əlimi, qoyma cəhalətdə qalım,***
***Əliboş, könlü qara matəmi-üzmayə dalım.***
***Bilirəm çatmayacaq Xaliqə sənsiz vüsalım,***
***Çünki sən ayinəsən, çöhreyi-yəzdanə, Əli.***
***Necə ləbbeyk deməyim sən təki sultanə, Əli.***

***Sirri-sübhanın Əli, kəlmeyi-sirrullahısan,***
***Sirri-Allahın, Əli, zübdətərin agahısan.***
***Sən ədalət səhabı, lütfi-kəramət şahısan,***

***Bənzəyir hər əməlin rəfəti-rəhmanə, Əli,***
***Necə ləbbeyk deməyim sən təki sultanə, Əli.***

İbn Abbas deyir:

***"Biz bir gün Peyğəmbərin (s) hüzurunda idik. O Həzrətdən soruşdular ki, ən yaxşı həmsöhbət kimdir?"***

Həzrət (ə) buyurdu:

***"Elə bir adam ki, onu görmək Allahı yadınıza salsın, sözləri biliyinizi artırsın, davranışı sizə Axirət və Qiyamət günü-nü xatırlatsın".***

İmam Əlinin (ə) və övladları 11 imamın hamısının söz-ləri, davranışları bizə axirət və qiyamət gününü xatırladır. Al-lahı yadımıza salır. Elə bu səbəbdən Füzuli yadigarı kimi tanı-nan S.Ə.Şirvani bizlərə belə tövsiyə edir ki:

***Piri-meyxanə Əlidir, odur ənvari-cəli,***
***Aşinanı tanı seyr eyləmə biganə üçün.***

Allah-Təala bütün dünya nemətlərini insan üçün yara-dıb, insanı isə özü üçün yer üzündə xəlifə yaradıb. Allah-Təala ***"Bəqərə"*** surəsində buyurur:

***Yadına sal, o vaxt ki, Pərvərdigarın mələklərə dedi: "Mən Yer üzündə bir xəlifə yaradacağam!"***

***"Xəlifə"*** - sözü canişin mənasındadır. Tədqiqatçıların ço-xunun nəzəriyyəsinə görə, ***"İlahi xilafətdən məqsəd, Allahın Yer üzündə nümayəndəsidir".*** Sonrakı ayədə buyurur:

Mələklər həqiqəti dərk etmək üçün soruşdular:

***"Yer üzündə o kəsi qərar verirsən ki, fəsad etsin və qanlar töksün. Halbuki, biz sənə ibadət edirik, təsbih və həmd edirik, səni müqəddəs tuturuq".***

Allah-Təala mələklərin bu etirazına belə cavab verir:

***"Mən bildiyim şeyi, siz bilmirsiniz".*** Hər halda, Allah-Təala istəyirdi ki, elə bir mövcud yaratsın ki, bütün aləmin başında

dursun və ilahi xilafət məqamına ləyaqətli olsun. Yer üzündə Allah-Təalanın nümayəndəsi olsun.

M.Füzuli mələklərin bu etirazını və Allah-Təalanın mələklərə verdiyi cavabı belə qələmə alır:

***Adəm əvvəl səri-kuyin verib almış Cənnət,***
***Eşidib tən mələk sonra peşiman oldu.***

Beytin mənası belədir ki, Adəm mələklərdən tənə yedisə, mələklər də Allah-Təaladan tənə yedilər.

Belə bir imtahan qarşısında mələklər elmi əhatələri məh-dud olduğundan donub qaldılar və cavabları bu oldu:

***«Sən paksan və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Hər şeyi bilən, hikmət sahibi Sənsən!»***

Mələklər fikirləşirdilər ki, əgər xilqətdən hədəf yalnız bəndəlik və ibadətdirsə, biz onun kamil nümunəsiyik, həmişə ibadətdəyik və xilafətdə hamıdan üstünük.

Onlar bundan xəbərsiz idilər ki, onların vücuduna şəh-vətin, qəzəbin, həva-həvəslərin yolu olmadığı halda, etdikləri ibadət şeytanın hər tərəfdən vəsvəsəsi ilə əhatə olunmuş, arzu və şəhvətli istəkləri olan insanın bəndəliyi və ibadəti xeyli fərq-lidir. Bu tufanlı mövcudun ibadəti hara, sakit və əmin sahildə qərar tutmuşların ibadəti hara?

Mələklər haradan biləydilər ki, Adəmin nəslindən Həzrət Məhəmməd (s), İbrahim (ə), Nuh (ə), Musa (ə), İsa (ə) və İmamlar (ə), Əhli-beyt və xeyirxah bəndələr, şəhidlər, könüllü kişilər və qadınlar vücuda gələcəklər. Onların hamısı Allah yolunda eşqlə qədəm götürəcəklər. Bunlar elə şəxslərdir ki, onların bir saatlıq təfəkkürü mələklərin neçə illik ibadətinə bə-rabərdir!

***İstərdi mələk Adəm kim, tapmaya xilqət,***
***Hüsni-bəşəri gör ki, mələk oldu giriftar.[1]***

---

***[1] S.Ə.Şirvani***

Elə ki, Adəm (ə) kamilən xəlq oldu, mələklər hamısı ona səcdə etdilər.

Xəlifələrin ən böyüyü möminlərin ağası Mövla Əlidir (ə)

***Ha! Əliyyun bəşərün keyfə bəşər!***
***Rəbbuhu fihi təcəlla və zəhər!***

***(Agah ol! Əli bəşərdir, özü də necə bəşər!***
***Rəbbi ona təcəlli etmiş, zahir olmuşdur!)***

Həzrət Əli (ə) hətta düşməninə də məhəbbət bəsləyən şəxs olmuşdur. İbn Mülcəm Həzrət Əlinin (ə) başına qılınc endirəndən sonra onu Əlinin(ə) yanına gətirdilər.İmam(ə) buyurdu ki:

***"Onunla işiniz olmasın. Əgər qalsam, mən bilərəm, o bilər. Amma əgər ölsəm şəriətin qanunu budur ki, onu bir zərbə ilə öldürəcəksiniz"***. Südü içir, qalanını oğluna verib, buyurur: ***"Apar ona ver. O, sizin əlinizdə əsirdir".***

S.M.Şəhriyar deyir:

***Kim öz oğluna deyər ki, qıl əsir ilə müdara,***
***Nola qatilimdi, yüngül yetirin onu cəzaya.***

İmam Əlinin (ə) kəraməti də belədir. Hər nəyi var bağışlayır.

Bir gün xanım Fatimeyi Zəhra (s.ə.) deyir ki:

***"Ağa, evdə çörək yoxdur".*** Əli (ə) beli əlinə götürüb gedir bir yəhudinin bağında işləməyə, axşam pulunu alıb evə gələn-də görür ki, bir nəfər fəhlə iş tapmayıb, oturub yolda. Aldığı pulu ona verib deyir ki, get balalarına çörək al. Evə gəlib xanı-mı Fatimeyi Zəhraya (s.ə.) deyir ki:

***"Getdim bir iş gördüm, müzdün aldım və gələndə gördüm ki, bir nəfər iş tapmayıb, verdim ona, savabına səni də şərik elədim. Sabah gedib işləyərəm, çörək yeyərik".***

Ustad aşıqlardan olan haqq aşiqi Borçalı Xındı Məmməd "Neylədin" rədifli ustadnaməsində Həzrəti Əlinin (ə) səxavət və şücaətindən söhbət açır və deyib:

***Qaldırıb Xeybəri yerindən atan,***
***Tifilkən ağ devin bəndini çapan.***
***Özünü qul deyib, bərbərdə satan,***
***Sən Əliyyi-Mürtəzanı neylədin?***

Xeyirxahlıq Allah vergisidir. Allah-Təala onu sevdiyi bəndələrə əta edir. Hər bir kiçik xeyirxahlıq şərin məhvinə, xeyrin təntənəsinə açılan qapıdır.

Həzrət Əli (ə) buyurub:

Allah-Təala mənə buyurdu:

***"Dünyanın haramlarına tərəf getmə, Mən halalına tərəf də getmədim".***

Bu cür şəxslər Allah-Təalanın Yer üzündə xəlifələri sayılır və bütün insanlar üçün ülgüdürlər.

***Ey Xudanı bu fəna gözlə gəzən dünyada,***
***Anla bir dəfə ki, Allahı görən göz Əlidir.***

Həzrət Əli (ə) elə bir məqama çatmışdı ki, bəsirət gözüylə Allahı görmüş və buyurmuşdur:

***"Mən görmədiyim Allaha ibadət etmərəm".***

Cabir İbn Abdullahi Ənsari nəql edir ki, Peyğəmbər (s) buyurdu: ***"Əgər Əlidə (ə) olan xislətlərin biri insanlarda olsa fəzilət nöqteyi-nəzərindən onlara bəs elər".***

***Övliyalar, ənbiyalar çoxdurur illa ki, sən,***
***Cümlədən əla imişsən, ya Əli, səndən mədəd.***

***Bu Xətai xəstədil birliginə iqrar edir,***
***Vahidi yekta imişsən, ya Əli, səndən mədəd.***

İnsanların keçmişi maraqlı, yadda qalan, eşitməli olduğu kimi, gələcəyi də yadda qalan olmalıdır. Lakin insanlar özləri özlərindən qafildirlər. Keçmişlərindən az-çox məlumatları olsa da, gələcəklərindən xəbərləri yoxdur. Lakin Quranı oxuyan insanlar və Qurana iman gətirib onun buyurduqlarına əməl edənlər gələcəklərindən bir şey bilirlər. Quran eyibsiz və nöq-sansız bir kitab olaraq, ustad görməmiş, əmin bir şəxsə nazil olub və həmin şəxs Peyğəmbər (s) idi ki, ömrünün əvvəlindən sonuna kimi onda bir dənə də olsun xəyanət görünməyib.

Həzrət Məhəmməd (s) Peyğəmbərliyə yetişəndən sonra yerin ağacları onun qabağında əyilir, bitkiləri ona ***"Əssəlamu əleykə, ya Rəsulullah"*** deyirdilər. Ulu Füzuli deyir:

***Böyüksən, şöhrətini vəsf etməyə bir ölçümüz yoxdur,***
***Yetişməz rütbənə dördüncü göydə isiyi-Məryəm.***

İnsanın gələcəyi barəsində, Axirət Aləmi haqqında Quran-da çox ayələr var. Bəziləri axirətə inanmayıb belə fikirləşirlər ki, insan öləndən sonra aparıb torpağın altına qoyurlar, o da torpaq olub bir daha dirilmir. Düzdür, insanın cəsədi çürüyüb torpaq olacaq, amma həmin torpaqlar Qiyamət günü Allah məhkəməsinə gələcək. İnsan bu dünyada bacardığı qədər cavanlığından istifadə etməli, yaxşılıq, ibadət etməli, axirət evini abadlaşdırmaq və s. bunlar kimi xeyirxah işlər görmə-lidir.

Haqq aşiqi Aşıq Ələsgərin atası əkinçi Alıməmməd kişi "İnsan" rədifli ustadnaməsində insanları xeyirxahlığa və mə-nəvi paklığa çağırır. Eyni zamanda insanlara tövsiyyə edirik daim özlərin şeytanın şərrindən qorusunlar:

***Axır fikir eylə, yafil dolanma,***
***Qəlbini şeytandan yad elə, insan.***
***Elə iş tut, aqibətdə utanma,***
***Bacar könül yıxma, şad elə, insan.***

***Bu dünya dediyin fanidir, fani,***
***Əzəl Nuh gəlmişdi, qalmadı, hanı?***
***Puç eylədi İskəndər tək xaqanı,***
***Bizə də əsəcək bad elə, insan.***

Bir qoca kişi demişdir:

***"Cavanlığımda yaman fikir çəkirdim ki, qocalığımda gözəllər məni sevməyəcək. İndi qocalmışam, mən özüm onları istəmirəm".***

***"Ey oğul, nə qədər cavan olsan da izzətli və böyük Allahı unutma. Heç vaxt ölümündən arxayın olma, çünki ölüm qocalığa, cavanlığa baxmır".***

***Yaşla olsa idi ölüm hər zaman,***
***Qocalar ölərdi, ölməzdi cavan.***

Bir şəhərdə bir dərzi var imiş. O şəhər darvazasının yanın-da dükan açmışdı. Qəbristanlığın yolu bu dükanın qabağından keçərdi. Dərzi mıxdan bir kuzə asmışdı və adət etmişdi ki, hər bir cənazə şəhərin darvazasından çıxarılanda, o kuzənin içəri-sinə bir daş salsın. Ay qurtardıqda kuzəni açıb daşları sayar, neçə adamın öldüyünü bilərdi. Bir gün dərzi özü də öldü. Bir kişi onun öldüyünü bilməyib, dükana gəldi. Qapını bağlı gö-rüb, qonşusundan dərzinin harada olduğunu soruşdu.

Qonşu isə cavab verdi: ***"Kuzədə".***

Şair Ə.Vahid gözəl deyib:

***Kim ki, qail ola Peyğəmbər ilə Qurana,***
***Etibar eyləməz əsla bu fəna viranə.***

***Axirət mülkünə sərmayə qazan dünyadə,***
***Sən də bir gün gələcəksən bu məzaristanə.***

Buna görə ayıq ol, cavanlığınla qürrələnmə. Həmişə ölümdən qorx ki, ağır günahlarınla birlikdə dərzi kimi kuzəyə düşməyəsən. Həmişə fikirləş ki, görəsən Allahın buyurduğu vacib

işləri düzgün yerinə yetirə bilmisənmi, yaxud nəhy etdiyi işlərdən çəkinmisənmi? İnsanlar öldükdən sonra bu fani dün-yadan götürdükləri xeyir və pis əməlləri barədə sorğu-sual olu-nacaq. Hər bir şəxsə gördüyü xeyirli işlərin mükafatı, pis işlə-rin cəzası veriləcək. Şair Mirzə Həsib Qüdsi Məhşəri belə xatır-layır:

***Vay o gündən ki, olur yövmi-hesab,***
***Həqq edr məxluqa qəhr ilə xitab:***
***"Siz Mənim əmrimcə taət etmədiz,***
***Sidq qəlbilə ibadət etmədiz".***

Filosoflar demişlər:
"***Ölməmişdən əvvəl ölünüz***".

***Bir əcəb meydir ölüm ki, hamı ondan içəcək,***
***Əldə sərmayə əgər olsa gözəl şeydir ölüm.***[1]

***"Tin"*** surəsinin 4-cü ayəsində Allah-Təala buyurur:
***"Biz insanı ən gözəl biçimdə yaratdıq".***

Allah-Təala insanı hər cəhətdən kamil və ləyaqətli bir şə-kildə yaratmışdır. O, insana hər cür istedad bəxş etmişdir, onu ancaq və ancaq yüksəklərə ucaltmaq, kamilləşdirmək xatirinə çox böyük mərhələlərdən keçirərək hazırlamışdır. Bəli, bu hə-min insandır ki, kamil şəkildə yaradıldığını gördükdən və dərk etdikdən sonra, özü Allahın şükranlıq hisslərini ifadə edərək deyir ***"Yaradanların ən yaxşısı olan Allaha eşq olsun!"***

Doğrudan da, Allah insanları gözəl bir biçimdə yaratdı. Lakin onlar iki dəstəyə ayrıldılar. Bir dəstə ilahi təlimlərdən, Qurani-Kərimin müqəddəs ayələrindən, Peyğəmbərin (s) və İmamların (ə) hikmətli kəlamlarından ilham alaraq özlərinin ilkin insani fitrətində qaldı, Allah-Təalaya iman və onun əmr-lərinə əməl etməklə kamillik dərəcəsinə çatdı. Digər insanlar isə inamsızlığa, şeytani vəsvəsələrə, nəfsani həvavü-həvəsə tabe

---

[1] ***Ə.Nəzərli***

olması nəticəsində Allah verən fitri qabiliyyətini əldən verdi, rəzalətin ən aşağı məqamına gəlib çatdı.

Məhz buna görə axirətdə insanların cəzası və mükafatı bir-birindən fərqlənir. Çünki qiyamət gününün sahibi Allah-Təalanın özüdür.

İnsanı ucaldan gözəl əxlaqi keyfiyyətləri başa düşüb dəyərləndirən, böyük türk şairi, həqiqət və mərifət nəğməkarı, ilahi nəğmələri ilə könülləri fəth edən Yunis İmrə Axirət aləmini belə səciyyələndirir:

***Ey ərənlər, ey qardaşlar,***
***Əcəl yetə öləm bir gün.***
***İşlərimə peşman olub,***
***Bir özümə gələn bir gün.***

***Yanlarıma qona əlim,***
***Söz söyləməz ola dilim.***
***Qarşıma gələ əməlim,***
***Neyləmişəm, görəm bir gün.***

# ŞƏRIƏT (VACIBAT) MƏSƏLƏLƏRI MƏCLISI

Şəriət- məsələlərinə görə hədisləri də oxuyub təbliğ etmək dönə-dönə tövsiyə olunur. Hər bir müsəlman bildiyi şəriət məsələlərini bilməyənlərə öyrətməlidir. Axundlar, dindarlar dini məclis və mərasimlərdə bu işi təmənnasız icra etməlidir. Elə bu səylərin nəticəsidir ki, şəriət məsələləri əsrlərdən bəri xalq arasında yayılmış, buna müəyyən dərəcədə əməl olunmuşdur. Ne-cə ki, Şah İsmayıl Xətai söyləmiş:

***Şəriət yolunu Məhəmməd açdı,***
***Təriqət gülünü Şah Əli seçdi.***
***Bu dünyadan neçə yüz min ər köçdü,***
***Onlar ittifaqda, Məhdi yoldadır.***

***Əhkamın 5 bölümü var:***

1. **Vacib:**
2. **Müstəhəbb**
3. **Həram**
4. **Məkruh**
5. **Mübah**

Hər bir müsəlman İslam Əhkamının bu 5 bölümünə əməl etməli və diri olan Müctehidə (ictihad sahibi) təqlid etməlidir ki, şəriətin qanunlarını bilmiş olsun. Şəriətin 10 bölümü olan Firuiddin yəni, dinin əməlləri bunlardır:

***Namaz, Oruc, Zəkat, Xums, Həcc, Əmrbeməruf, Nəhy-əz-Munkər, Cəhad, Təbərra və Təvəlla.***

Hər bir Müqəllid (təqlid edən) Müctehidə təqlid etməklə şəriətin əməli bölümü olan yuxarıda saydığımız bu şərtlərə əməl etmiş olur. Hər bir oxucu geniş şəkildə öz müctehidinin risaləsinə əməl etməklə bu əməlləri yerinə yetirmiş olur.

# HƏZRƏT ƏLININ (Ə) MƏDHI MƏCLISI

Peyğəmbər (s) buyurub: “Hikmət on hissədən ibarətdir. Bunun doqquz hissəsi Əliyə (ə), qalan bir hissəsi başqa adam-lara verilib. Əli (ə) o bir hissədə də başqalarına şərikdir.”

***Aləmdə sənin məclisi-tədrisinə lüğman,***
***Hikmətdə hələ tifli dəbistaqdı, Əlican.***

***Hikmətdə, cəlalətdə sənin yoxdu nəzirin,***
***Xadim sənə Davudu, Süleymandı, Əlican.***[1]

Həzrət Əli (ə) öz elmi barəsində əlini sinəsinə qoyub de-yərdi: ***“Bu sinədə çoxlu elm yatır, kaş ki, onları öyrənməyə la-zımi adamlar tapılaydı. Nə qədər ki, mən sizin aranızdayam, hər nə istəyirsinizsə, soruşun. Allaha and olsun ki, bu gün baş verən-lərdən və qiyamətə qədər olacaq işlərdən sizə xəbər verərəm”.***

Əli (ə) Quranla əlaqəsində belə buyurur:

***“Əgər məndən hər hansı bir ayə barədə soruşsanız, onun nə vaxt və harada nazil edildiyini, Nasix ya Mənsux, Məhkəm ya Mütəşabeh, Məkki ya Mədini olduğunu sizə xəbər verərəm!”***

Həzrət Əli (ə) dəfələrlə yəhudilər arasında ***Tövratla***, Xiris-tianlar arasında ***İncillə***, müsəlmanlar arasında ***Quranla*** qəzavət edə bilmək qabiliyyətini bəyan etmişdi. Bunu onun ilahi elmlə-ri vasitəsi ilə çıxardığı hökmlər,başqa dinlərin nümayəndələri-nin çətin suallarına ver-diyi cavablar, dünyəvi elmlərdən olan tibb, nücum, tarix, ədəbiyyat və s. sahələrdə əldə etdiyi böyük nailiyyətlər də sübut edir.

***Əvvəli Quranda sənsən, axırı Quranda sən.***
***Gah olursan “Sin” də sakin, gah təhti “Ba” Əli!***[2]

---

[1] *Sifyari Dilxun (Cənubi Azərbaycan şairi)*

[2] *Vüqar Nakam*

Həzrət Əli (ə) İslamı qəbul edərkən 10 yaşı olub. İlk şəxs olub ki, kişilərdən Peyğəmbərin (s) arxasında dayanıb namaz qılıb. Əlinin (ə) kiçik yaşında İslamı qəbul etməsini çox adam-lar məqsədə uyğun bilməyiblər. Niyə? Çünki şəriətdə kişilər gərək 14 yaşdan sonra təklifi qəbul edələr. Ancaq biz müqəd-dəs kitabımız olan Qurani-Kərimdə görürük ki, Allah-Təala Həzrəti Yusif(ə), İsa (ə), Yəhya (ə) və Musanın(ə) hələ kiçik yaşlarında iman əhli olduğunu vurğulayıb. Misal üçün**, *“Mər-yəm”*** surəsi 12-ci ayədə buyurulur: ***“Ey Yəhya(ə), kitabı qüv-vətlə al, (dedik) və ona uşaqlıqda bilik bağışladıq”.*** Bu surədə 30-cu ayədə İsa (ə) barədə buyurulur: ***“Uşaq söylədi: - Mən Al-lahın bəndəsiyəm. Mənə kitab verib və məni Rəsul edibdir.”*** Bu iki ayə kifayətdir ki, kiçik yaşlarında da iman əhli olmaq məq-sədə uyğun sayılsın.

S.M. Şəhriyar bir qəzəlində yazır:

***Əli, ey humayi-rəhmət, nə dəlilsən Xudayə,***
***Ki, Xudadan özgə sayən nə ki, var, edər himayə?!***

***Əgər aşinayi-həqsən, Əli ilə aşina ol,***
***Əli ilə olmuşam mən, könül aşina Xudayə***

Həzrət İmam Əli (ə) buyurub:

***“Ərəftu rəbbi bi rəbbi”*** – yəni “Allahımı tanıdım”. S.M.Şəhriyar da Allahı onun ecazkar bəndəsi olan İmam Əli(ə) ilə tanıyır və deyir ki: ***“Hər kəs iman əhli olmaq istəyirsə, Həzrəti Əlini (ə) sevsin, onu özünə rəhbər bilsin”.***

Klassik Azərbaycan şairi S.Ə. Şirvani deyirdi:

***Qorxuram getməyəsən Kəbəyə, ey ərabi,***
***Getdiyin gah müxalifdi, bu şeytan yoludur.***

***Tut könül ali-Əli damənini, eyləmə qəm,***
***Get bu yoldan ki, bu yol Buzəri, Səlman yoludur.***

*Demə meyxanə yolun rahi-zəlalət, vaiz,*
*Oğlun ölsün, bir ayıl, bu Şahi-Mərdan yoludur.*

Azərbaycan xalqının həmişə Allaha, onun Peyğəmbərlərinə(ə) və İmamlarına(ə) məhəbbəti olub. Əliyə (ə) daha çox mehr-məhəbbət bəsləyənlərdən biri Buzovna kənd Məşədi Qərib məscidinin axundu, gözəl din xadimi Hacı Soltan İmam Əlini(ə) belə mədh edir.

***Mən gədayam, hər iki mülkdə şahım Əlidir,***
***Ümüdüm, ruzi-qiyamətdə pənahım Əlidir.***

***Qeybə dair nə sual Soltana versəz, deyəcək,***
***Iki aləmdə bütün sirrə izahım Əlidir.***

Həzrət Əli (ə) buyurub:

***"Əgər Allahla mənim aramdakı pərdələr götürülsə, yenə imanımda zərrəcə nöqsan olmaz."***

O Həzrətdən (s) soruşurlar:

***"Ya Əli, Allahı gördünmü?"***

Cavab verir:

***"Onu adi gözlər görə bilməz. Allahı başqa gözlə, iman gözü ilə görmək olar!"***

Belə imanın sayəsindədir ki, Əlinin (ə) ibadəti dillər əzbəridir.

***Ecazüvə aləm sənin heyrandı, Əlican,***
***Ziynətli adın dərdlərə dərmandı, Əlican.***

***İxlas ilə hər dəri ümmidivə gəlsə,***
***Olsa nəzəri-lütvin, o soltandı, Əlican.***[1]

Həzrəti Əli (ə) Allaha olan eşqini belə ifadə edirdi: ***"Mənə bu izzət bəsdir ki, sənin bəndənəm. Mənə bu fəxr yetər ki, sən***

---

***[1] Sifyari Dilxun (Cənubi Azərbaycan şairi)***

***mənim Rəbbimsən. Sən mənim istədiyim kimisən, məni də öz istədiyin kimi et".***

***"Siffeyin"*** müharibəsində ox və nizə yağışı altında səccadəsini sərib elə döyüş meydanındaca namaza başladı. Be-lə bir döyüşdə necə namaz qılmaq olar, deyə ona maneçilik tö-rətmək istəyənlərə buyurdu: Məgər bu müharibədə məqsədi-miz namazı diri saxlamaq deyilmi?

Xəlifəlik dövründə Həzrət Əli(ə) qarın dolusu yemirdi, de-yirdi:

Əgər rəhbərlik etdiyim xilafətin bir guşəsində kimsə gecə ac yatırsa, mən qarın dolusu yeyə bilmərəm.

Səhabələrindən biri Bəsrədə İmamın (ə) canişini idi. Bir gün o şəhərdə yaşayan varlı bir kişinin dəvətini qəbul edib, ona qonaq oldu. Həmin evdə ləziz yemək yedi. Bu xəbəri Əliyə (ə) çatdırdılar. İmam (ə) özü bir məktub yazıb valiyə göndərdi: ***"Hər kəs öz rəhbərinə itaət etməli, onun elmindən bəhrələnməli-dir. Bil ki, sizin rəhbəriniz (İmam özünü nəzərdə tuturdu) dün-yada iki parça geyimə və iki tikə çörəyə qane olub. Şübhəsiz ki, siz mənim kimi olmağa qadir deyilsiniz. Ancaq mən sizdən istə-yirəm ki, pəhrizkarlıq, səy, iffət və sədaqətlə mənə kömək edəsi-niz. Allaha and olsun ki, sizin sevdiyiniz dünyada nə qızıl və gü-müş toplamışam, nə də sərvət gizlətmişəm".***

El sənətkarı Kərəm Kürqırağlının bir bənd şeriri qəlbimə gəldi:

***Yadına salmadın dövləti, varı,***
***Dinə qurban verdin hər arzuları.***
***Cəm edib dünyaya sən imamları,***
***Olmusan onlara şöhrət, şan, Əli!***
***Canım sənə fəda, Əli, can Əli!***

Bəli, bu həmin Əlidir ki, qızıl sikkəsini əlinə götürüb baxır və deyir:

***"Ey dünya, get başqasını aldat. Mən sənə üç dəfə talaq vermişəm"***- yəni, səni birdəfəlik rədd etmişəm.

Həzrət Əlinin (ə) qatı düşmənlərindən olan Müaviyə belə deyirdi:

***“Vallahi, əgər Əlinin (ə) bir anbar qızılı və bir anbar da şa-manı olsa, qızıl samandan qabaq sədəqə verər”.***

Rəvayət edirlər ki, Əlinin (ə) dörd dirhəm pulu var idi. Onun bir dirhəmini gündüz, bir dirhəmini gecə, bir dirhəmini gizlində, bir dirhəmini də cəmiyyət içində sədəqə verdi. Sonra bunun səbəbini belə izah etdi: ***“Allah yanında sədəqənin veril-diyi şəraitlərin biri ən yüksək savaba malikdir. Mən pulumu müxtəlif şəraitlərdə verdim ki, heç olmazsa biri həmin yüksək savab mərtəbəsindən hesab edilsin”.***

Bu hadisə ilə bağlı olaraq ***“Bəqərə”*** surəsinin 274-cü ayəsi nazil olub:

***“Öz mallarını gecə və gündüz, gizli və aşkar sədəqə verən-lərlərin muzdu  Allah yanındadır. Onlar nə qorxar, nə də kədər-lənərlər.”***

Belə bir şəxsiyyəti sevmək və ondan dərs almaq hər bir müsəlman üçün ibadətdir. Lakin çoxları Əlidə (ə) nöqsan axta-rır. Kərəm Kürqırağı belələrinə cavab verir:

***Sən zülmət yolunda oldun şam, çıraq,***
***Adın gələn yerdə gərək baş yaraq.***
***Biz kimik ki, səndə nöqsan  axtaraq,***
***Peyğəmbər görməyib bir nöqsan, Əli,***
***Canım sənə fəda, Əli, can Əli.***

Ş.İ. Xətai isə ***“Ya Əli, səndən mədəd”*** rədifli-qəzəlində de-yirdi.

***Övliyalar, ənbiyalar çoxdurur, illa ki, sən,***
***Cümlədən  əla imişsən, ya Əli, səndən mədəd.***

***Mömünə irşad edirsən lütfü ehsanü kərəm,***
***Kafirə qovğa imişsən, ya Əli, səndən mədəd.***

***Yerdə, göydə istəmir şol kor münafiqlər səni,***
***Zahirən peyda imişsən, ya Əli, səndən mədəd.***

***On səkkiz min aləmin sirdaş sənin sirrindədir,***
***Mürşidi-bina imişsən, ya Əli, səndən mədəd***

***Qisməti-ruzi əzəldə həm müini-Mustəfa,***
***Nərgizi-şəhla imişsən, ya Əli, səndən mədəd.***

Peyğəmbər (s) buyurub:

***"Əli (ə) hidayət bayrağı, imanın nur saçan yeri, mənim dostlarımın İmamı və mənə itaət edən hər bir kəsin çırağının nurudur."***

***Peyğəmbər (s) Həzrət Əlinin (ə) fəziləti barədə buyurur:***

**1.** Sizlərdən Kövsər hovuzuna varid olacaq ilk şəxs sizin içinizdə iman gətirən ilk adamdır ki, o da Əli ibn Əbu-talibdir.
**2.** Ya Əli! Səni sevənin və sənə sadiq olanın xoş halına! Sə-ni qəzəbləndirənə və səni aldadana vay olsun!
**3.** Cənab Cəbrayıl (ə) mənə buyurdu ki, Allah sənə Əlini və onu sevənləri sevməyi əmr edir.
**4.** Əgər ağaclar qələm, dəryalar mürəkkəb, cinlər hesabdar, insanlar yazan olsaydı, yenə Əlinin (ə) fəzilətini sayıb qurtara bilməzdilər.
**5.** Mənim vəzifəm Quranın zahiri düşmənləri ilə vuruşmaq-dır. Əli (ə) isə Quranın batini düşmənləri ilə vuruşacaq-dır.
**6.** Əgər camaat Əli ibn Əbutalibin (ə) məhəbbəti ilə onun başına toplaşsaydı Allah-Təala cəhənnəm odunu yaratmazdı.

# HƏZRƏT ƏLININ (Ə) BUYURDUĞU HƏDISLƏR

1. Hər kəs gözəl əxlaqı sevsə, haramdan çəkinər.
2. İmanın əsası gözəl əxlaq və sədaqətdir.
3. Qəzəb şiddətli alovdur. Hər kəs qəzəbini boğsa hə-min atəşi söndürmüş olar. Hər kəs öz qəzəbini cilovlamasa, o alovun şöləsində yanan ilk şəxs özü olacaqdır.
4. Ağıl- möminin yol gəstərənidir
5. Elm həyatdır, iman nicatdır.
6. Bu gün (yəni dünya həyatı) əməl günüdür, hesab gü-nü deyil. Sabah (qiyamət günü) isə artıq əməl günü yox, hesab günüdür.

Peyğəmbər (s) buyurub:

***"Mən bir ağacam ki, Fatimə həmin ağacın budaqları, Əli(ə) o ağacı barlandırandır. Həsən və Hüseyn ağacın meyvə-ləri, onların dostları isə bu budağın yarpaqlarıdır."***

Əziz oxucular, sizi İslam dininin böyük-şəxsiyyəti Əmi-rəl-Möminin Əlinin (ə) mübarək mövludu günü münasibəti ilə təbrik edir, sizə uzun ömür, xoşbəxt həyat arzulayıram.

Allah köməyiniz, İslam Peyğəmbəri (s) yol göstərəniniz və Həzrəti Əli (ə) dayağınız olsun. Amin!



# “HÜSEYNƏ (Ə) AĞLAYAN GÖZLƏR QIYAMƏT GÜNÜ AĞLAMAZ”

*“Ey xar görən bizləri, bizlər nücəbayiz,*
*Meydani- həmiyətdə Ələmdari-vəfayiz.”*

***Əbdülxaliq Cənnəti***

Mötəbər tarix kitablarında nəql olunan rəvayətlərə əsasən Kərbəla qiyamından sonra orada qalanların hamısını və dö-yüşdə xəstəliyi üzündən iştirak edə bilməyən İmam Zeynalabi-dini (ə) əsir aldılar. Onları şəhər-şəhər gəzdirilib, sonra Yəzi-din əyləşdiyi Şam şəhərinə gətirildilər.

Həzrəti Zeynəb (s.ə.) və İmam Səccad (ə) öz xütbələri ilə camaata haqqı tanıtdılar və Yəzidi onları azad etmək məcbu-riyyətində qoydular. Sonra 3-cü gün Şamda əza saxladılar. Bu əza Kərbəla şəhidlərinə, İmam Hüseynə (ə) tutulan ilk matəm məclisi idi. Belə məlum olur ki, İmam Hüseynə (ə) və Aşura şə-hidlərinə ilk əza saxlayan, novhə deyib oxşayan qəm karvanı-nın qəhrəmanı Həzrət Zeynəb (s.ə.) başda olmaqla Kərbəla əsirləri olub.

Həzrəti Zeynəbin (s.ə.) dilindən:

***Ey Zeynəbi ağlar qalan, Həsən laylay, Hüseyn laylay,***
***Səkinəsi susuz qalan, Həsən laylay, Hüseyn laylay.***
***Laylay, qardaşlarım, laylay, qəmim, qəmgüsarım laylay!***

***Ərşə dayandı fəryadım, cismimi yandırır odum,***
***Yadımdan çıxıb öz adım, Həsən laylay, Hüseyn laylay!***
***Laylay, qardaşlarım, laylay, qəmim, qəmgüsarım laylay!***

***Dur çağır, gəlsin anamı, bağlayaq bir-bir yaranı,***
***Bacın ölsün, başın hanı? Həsən laylay, Hüseyn laylay!***
***Laylay, qardaşlarım, laylay, qəmim, qəmgüsarım laylay!***

***Hanı Heydəri-Kərrarım? Hanı Əbbas Ələmdarım?***
***Qalmayıb bir havadarım, Həsən laylay, Hüseyn laylay!***
***Laylay, qardaşlarım, laylay, qəmim, qəmgüsarım laylay!***

***Çağır anam Fatiməni, ona özün tapşır məni,***
***Ağlayaq bir yerdə səni, Həsən laylay, Hüseyn laylay!***
***Laylay, qardaşlarım, laylay, qəmim, qəmgüsarım laylay!***

İmam Hüseynə (ə) əza saxlamaq Peyğəmbərin (s) buyurduğu hədislərə əsasən qeyd edilir. Peyğəmbər (s) bir hədisdə belə buyurub:

***"Hüseynə (ə) ağlayan gözlər, qiyamət günü ağlamaz".***

İndi dünyanın elə bir yeri yoxdur ki, Kərbəla vaqiəsini eşitməmiş olsun. Bir çox müsəlman və xristian alimləri Kərbə-la hadisəsi barədə yüksək fikirlər söyləmişlər.

Təəssüflər olsun ki, son zamanlar bəzi ziyalılar ***Məhərrəm*** ayında əzadarlıq etməyi, İmam Hüseynə (ə) matəm saxlamağı gerilik kimi qələmə vermək istəyirlər. Onların fikrincə İslam dini şəhidə ağlamağı qadağan edib və İmam Hüseynə (ə) əzadarlıq etmək dinin prinsiplərinə ziddir. Bildiyimiz kimi İslam dini – dünyada ən çox tanınan müqəddəs bir dindir. Bu din öz ətrafında milyonlarla insanı birləşdirir. Məhəbbət dini, əxlaq dini olan İslam hamını birliyə çağırır. Qurani-Kərimin Ali-İmran surəsinin 19-cu ayəsində Allah-Təala buyurur: ***"Din, Allah yanında əlbəttə İslamdan ibarətdir".***

Eyni zamanda bu ilahi ideologiya Rəsuli-Əkrəmin (s) dili ilə insanlara belə öyrədilir:

***"Əgər günbatanda bir müsəlmanın başı ağrıyırsa, günçıxanda da bir müsəlman bu ağrını duymalı, bu dərdə şərik olmalıdır. Çünki İslam dünyası bir bədəni xatırladır. Bədənin hər hansı bir əzası ağrısa, bütün bədən o əzanın ağrısını duyur".***

Şeyx Sədi bu hədisi belə nəzmə çəkib:

***Bir bədən üzvüdür bu bəni-Adəm,***
***Eyni bir cövhərdən yaranmış aləm.***

*Bir üzvi dərdlərə salsa ruzigar,*
*Tutmaz başqa üzvi yerində qərar.*
*Özgənin dərdinə əgər qalmasan,*
*Yaraşmaz adına deyilsin insan.*

Gəlin bir anlıq Qurani-Kərimin və məsumların şəhidlər haqda buyurduqlarına diqqət yetirək.

Qurani-Kərimin ***“Bəqərə”*** surəsinin 154-cü ayəsində Al-lah-Təala buyurur:

***“Allah yolunda öldürülmüşlərə (şəhid olanlara) “Ölü” deməyin. Əksinə, bəlkə onlar diridirlər. Lakin siz bunu dərk etmirsiniz”.***

***“Ali-İmran”***surəsi 169-cu ayə:

***“Allah yolunda öldürülənləri “Ölü” hesab etməyin! Əksinə, bəlkə onlar diridirlər və Rəbbləri yanında onlara ruzi verilir”.***

Peyğəmbər (s) buyurub:

***“Behiştə birinci şəhidlər daxil olarlar. Şəhid şam kimi özü yanıb aradan gedər və ətrafına işıq saçar”.***

***“Şəhid ürək kimidir, bədənin quru damarlarına qan verir və o da qanını İslama hədiyyə etməklə cəmiyyətə dirilik və həyat bəxş edir”.***

***“Hər yaxşının ən yaxşısı, hər əlanın ən əlası var. Şəhidlikdən isə əla mərtəbə yoxdur”.***

Bir gün Rəsuli-Əkrəmdən (s) soruşdular:

***“Ya Rəsulallah (s) qəbirdə nə üçün şəhidlərə sorğu-sual etməzlər?”***

Rəsuli-Əkrəm (s) buyurdu:

***“Şəhidin qanlı libası onu sual etməkdən qoruyar. Şəhidin təkcə ruhu yox, qanlı bədəni də Allah yanında müqəddəs və pakdır”.***

İmam Cəfər Sadiq (ə) buyurub:

***“Hər kəs ki, Allah yolunda və ya Allah dininin müdafiəsi uğrunda şəhid olsa, ona qüsl verməzlər. Onun qüslü öz qanı,***

***kəfəni isə öz qanlı libaslarıdır. Meyit namazı qılıb dəfn edərlər. Şəhidin bədəni torpaq altında da çürüməz”.***

Bir daha ayələrdən və hədislərdən aydın olur ki, şəhidlik İslam dinində ən yüksək zirvədir. Məhz bu səbəbdən də hər il ***Məhərrəm*** ayının 10-u bütün müsəlman aləmində İmam Hüseynə (ə) və onun qohum-əqrabasının, yaxınlarının şəhid olduqları Aşura günü matəm günü kimi qeyd olunur. İki ay ***Məhərrəm*** və ***Səfər*** ayları əzadarlıq ayları sayılır və müsəlmanların bərəkəti bu 2 aydır.

Kərbəla müsibəti əsrlərdən bəri ***Ərəb, Fars, Türk*** və ***Avro-pa*** tarixçilərinin diqqətini cəlb etmiş və onlar bu hadisəyə aid yüzlərlə əsər yazmışlar. Əgər Kərbəla müsibəti kimi faciəli bir hadisə tarixə düşməsəydi, bu matəmli günlər də qeyd edilməz-di.

Bizim əsas məqsədimiz Kərbəla şəhidlərinə əza saxlama-ğın mahiyyətini açıqlamaqdır. İslam dini vəzifəsindən, elmin-dən, şəxsiyyətindən asılı olmayaraq hər bir şəxsə hər hansı bir dini məsələ barəsində Quran və Məsumlara istinad etmədən fi-kir söyləməyə icazə vermir. Hər kim də istəyə din haqqında fikir söyləyə gərək bu iki mənbəyə söykənə. Biz də bu iki mənbəyə söykənib öz fikrimizi çatdırırıq.

Öncə Əhli-beytdən (ə) nəql olunan mötəbər rəvayətlərə əsasən İslam Peyğəmbərindən (s) əvvəl gələn Peyğəmbərlə-rin(ə) İmam Hüseynin (ə) gələcəkdə baş verəcək şəhadətinə ağlamaqları mövzusudur. Bir sıra təfsir kitablarında, o cümlədən ***«Dürrüs-səmin»*** təfsir kitabının müəllifi ***“Bəqərə”*** surəsinin 37-ci ayəsinin təfsirində bu məsələyə işarə edərək yazır:

***“Həzrəti Adəm (ə) ərşin üzünə baxdı, Həzrəti Muhəmmədin (s) və Əhli-Beytinə (ə) mübarək adlarının orada yazıldığını gördü. Vəhy mələyi Cəbrayıl (ə) Həzrəti Adəmə (ə) o adlarla tövbə etməyi öyrətdi. Həzrəti Adəm (ə) Allah-Təalanı o beş nəfərə (Muhəmməd(s), Əli(ə), Fatimə (s.ə.), İmam Həsən (ə) və İmam Hüseynin (ə) adına and verdi. İmam Hüseynin(ə) xatırlayanda Adəmin (ə) gözlərindən yaş axdı, qəlbi kövrəldi.”***

Cəbrayıldan (ə) bunun səbəbini soruşduqda Cəbrayıl (ə) cavab verdi:

***«Sənin bu ağladığın müsibət o qədər böyükdür ki, heç bir müsibət onun tayı, bərabəri ola bilməz».***

Həzrəti Adəm (ə) soruşdu:

***«O necə bir müsibətdir?»***

Həzrəti Cəbrayıl (ə) cavab verdi:

***«O, qürbətdə heç bir köməkçisi olmayan yalqız və susuz halda öldürüləcək. Qəddarlıqla başını kəsəcəklər, özünün və əshabının başlarını şəhər-şəhər gəzdirəcəklər».*** Sonra hər ikisi Həzrəti Hüseynə (ə) və onun tərəfdarlarına uşağı ölmüş ana kimi ağladılar.

Əhli-beyt şairi S.Ə.Şirvani bu hadisəni bir qəzəlinin son beytində verir:

***Pənctənlər adını zikr et ki, Seyyid, bilmişəm.***
***Adəmə təlimi-əsmadən, bu mənadır qərəz.***

(Pənc-tənlər – yuxarıda adları qeyd olunan beş kimsələr-dir.Təlimi-əsma – isə Quran ayəsinə ***"Bəqərə"*-37**-ci ayəyə işa-rədir. Seyyid yazır ki, həmin adlar Əhli-Beytin (ə) mübarək adlarıdır.)

Həzrəti Musa (ə) Allah-Təaladan Aşura gününün mənası-nı soruşduqda Allah-Təaladan belə bir nida gəldi: **«Aşura»**-son Peyğəmbər Həzrət Muhəmmədin (s) nəvəsi üçün ağlamaq və özünü ağlayanlara bənzətmək günüdür. Ey Musa! Hər kim bu gün göz yaşı töksə, ağlayanlarla birlikdə olsa, ona yas tutanlardan olsa, onun üçün Cənnətdə məqam qərar vermi-şəm. İzzət və cəlalıma and olsun ki, Aşura günü və başqa bir gündə ixlasla, xalis niyyət, sidq ürəklə İmam Hüseyn (ə) və Kərbəla şəhidlərinə göz yaşı tökənə yüz şəhidin savabını verə-rəm».

***Hüseynə tutar bəzmi-əza Həzrəti Yəhya,***
***Kuhsarə salır naləvu-şuri-Zəkəriyya.***
***Ta bəstər olur dərdi qəmə Yunisi-Musa,***
***Əflakə salır naləsini Asiya-Sara.***

Digər Peyğəmbərlərdən də Kərbəla şəhidlərinə əza saxlamaq barədə çoxlu rəvayətlər nəql olunmuşdur. Bəs, İslam Peyğəmbərinin və məsum imamların şəhidə ağlamaq, əza sax-lamaq barədə münasibətləri necə olmuşdur?

İslam aləmində 2-ci böyük döyüş olan Ühüd müharibə-sində Peyğəmbərin (s) əmisi Həzrəti Həmzə (ə) şəhid olur. Hə-min döyüşdə şəhid olanların hamısının evində əzadarlıq keçiri-lir və şəhidlərə ağlayırlar. Təkcə Həmzənin (ə) evindən ağlaş-ma səsi gəlmirdi. Peyğəmbər (s) bu mənzərəni gördükdə qadın-lara buyurdu: «Bütün şəhidlərin ağlayanı var, Həmzənin isə ağlayanı yoxdur». Peyğəmbərin (s) bu sözlərindən sonra qa-dınlar Həmzənin evinə gedib ona ağladılar, ona əza saxladılar. Bu hadisədən sonra ənənəvi olaraq şəhidə ağlamaq istəyən hər kəs əvvəlcə Həmzənin evinə gedib ona ağlayırdı.

İmam Zeynulabidindən (ə) rəvayət olunmuşdur ki: ***"Hər bir mömin Hüseyn İbn Əli (ə) üçün ağlayaraq gözlərindən yaş axıtsa, Haqq-Təala behiştdə ona bir neçə otaq bəxş edir. Hər bir mömin bizim vilayət və məhəbbətimiz üzündən əzab-əziy-yətə yetişsə və bu müsibətlərin yanğısından gözlərindən yaş axıb üzünə tökülsə, Haqq-Təala onun üzərindən hər bir əzab-əziyyəti, qəm-qüssəni götürər, onu qiyamət günündə öz qəzəbindən və cəhənnəm odundan əmin-amanda saxlar".***

Əbu Harun kor və qüdrətli bir şair idi. Bəzi vaxtlar İmam Hüseyn (ə) məzlumiyyətinə dair mərsiyə yazırdı. O, İmam Sadiqin (ə) əshabından sayılırdı. Bir gün İmam Sadiqin (ə) xidmətinə gəldi. İmam Sadiq (ə) buyurdu:

***"Ey Əbu Harun! Cəddimin barəsində yazdığın mərsiyələrdən mənim üçün oxu!"***

Əbu Harun dedi:

***"Ey Peyğəmbər balası, gözüm üstə!"***

Bu vaxt İmam Sadiq (ə) buyurdu:

***"Deyin qadınlar da gəlib pərdənin arxasında otursunlar və mərsiyəyə qulaq assınlar".*** Qadınlar gəldilər.

Bu zaman Əbu Harun təzə yazdığı mərsiyə və şeirlərdən oxudu.

Beş misradan artıq oxumamışdı ki, İmamın (ə) evində ağlaşma, nalə-şivən başladı.

Həzrət İmam Sadiq (ə) elə ağlayırdı ki, mübarək çiyinləri tərpənirdi. İmamın (ə) evindən ağlaşma və nalə səsləri göyə ucaldı. Sonra dedilər kifayətdir.

İmam Hüseyn (ə) müqəddəs inqilabı böyük mahiyyət kəsb etdiyi üçün Kərbəla vaqiəsi zaman və məkan hüdudunu aşaraq hər bir məkana və zamana şamil olub, hər günü Aşuraya və hər yeri Kərbəlaya çevirdi. Şair İlqar Fəhni demiş:

***Həmi ən gözəl zülm var, həmi ən gözəl ölüm var.***
***O da dəşti Kərbəlada, bu da dəşti Kərbəlada.***

İmam Hüseyn (ə) şərəfli ölümü ilə şərəfli İslam dinini yaşatdı.

***"Zillət bizdən uzaqdır"*** – kəlamı ilə fədakarlıq nümunəsi, hidayət günəşi və nicat gəmisinə çevrildi və İmam Hüseyn (ə) ən yüksək zirvə olan şəhidlik məqamına çatdı.

Hər bir insan şəhid üçün ağladıqda özünəməxsus tərzdə həyəcan keçirir və qəlbi kövrələrək göz yaşları tökür. Bununla o şəhidə qarşı olan sevgi və məhəbbətini bildirir. Şərqin böyük filosofu mərhum Murtəza Müttəhərinin buyurduğu kimi desək:

***"Şəhidə ağlamaq onun qəhrəmanlığında iştirak edib, ruhu ilə uyğunlaşıb, sevinci ilə şad olub, dalğasında ləpələnməkdir".***

Əgər İslam dini şəhidə ağlamağı və əza saxlamağı qada-ğan edirsə, nə üçün Rəsuli-Əkrəmə (s) və pak İmamlar(ə) müsəlmanları bu işə sövq edir.

İbn Əbbas nəql edir ki, Peyğəmbər (s) belə buyurmuşdur:

***"Allahın salamı olsun şövq və mərhəmətlə İmam Hüseynə(ə) ağlayanlara, düşmənlərinə lənət oxuyub, nifrət bəsləyən və qəlblərini onlara qarşı kin və qəzəblə dolduranlara".***

İmam Rza (ə) buyurmuşdur:

***"Ey Rəyyan, əgər bir faciə üçün ağlamalı olsan, Əlinin oğlu Hüseyn (ə) üçün də ağla, çünki əməvilərin əli ilə o***

***Həzrətin (ə) başını qoçun başını kəsən kimi kəsdilər və onunla birlikdə İmamın Əhli-beytindən (ə) 18 nəfər şəhadətə yetirildi".***

Başqa məsum İmamlarımızdan(ə) da bu mövzuda çoxlu sayda rəvayətlər bizə çatmışdır. Rəvayət olunub ki, İmam Cə-fəri Sadiqin (ə) yanında İmam Hüseynin (ə) adı çəkildiyi gün, axşama qədər o Həzrətin (ə) bir dəfə də olsun güldüyünü görən olmadı.[1]

İmam Sadiq (ə) buyurmuşdur:

***"Bizə edilən zülmə (məzlumiyyətimizə) ağlayan hər kəsin nəfəsi zikrdir, kədəri ibadətdir".***

İmam Hüseyn (ə) şəhid olduqdan sonra o Həzrətin(ə) kə-sik boğazından belə bir səs eşidildi:

***"Ey mənim şiələrim, hər vaxt sərin su içsəniz, məni yada sa-lın, bir şəhiddən, yaxud qəribdən söz düşəndə məni yada salıb ağlayın".***

***Dəf olur şiə, Hüseynün matəmində hər bəla,***
***Ağla hər gün ruzi-aşuradu, hər yer Kərbəla.***

***Bu Hüseynin adının hər qəlbdə təsiri var,***
***Saf edər hər qəlbi çün xasiyyəti-iksiri var.***
***Zikr olanda qüssədən hər halətin təğyiri var,***
***Aşikaradur olub bu ismdə müzmər bəla.***[2]

İmam Rza (ə) buyurub:

***"Ey Aşuranın yasını saxlayanlar, əgər bilsəydiniz ki, Allah-Təala sizin saxladığınız yasın əvəzində sizin üçün nə qədər ne-mətlər hazırlayıb, sevinciniz kədərinizdən çox olardı".***

Peyğəmbərlərin (ə) və ,İmamların tarixindən bəlli olur ki, onlar da İmam Hüseynə (ə) ağlamışlar.

Bütün Peyğəmbərlər Kərbəlanı ziyarət etmiş, orada duraraq ***"Sən bir müqəddəs məkansan və səndə parlaq bir ay dəfn edəcəklər"*** – demişlər.

---

***[1] Sireyi-Həbəvi, 97-98-ci səh***
***[2] Mirzə Dahi Almaslı***

Peyğəmbər (s) dəfələrlə İmam Hüseynin (ə) müsibətini xatırlayaraq ağlamışdır. O Həzrət (s) buyurub:

***“Ümmətimdən mənim dinimdə olduqlarını sananlar övladlarımın fəzilətlərini, nəslimin təmiz və paklarını öldürəcəklər. Dinimi və sünnətimi dəyişdirəcəklər. Hüseynin (ə) qatillərinə və qatillərini sevənlərə, onlara kömək edənlərə Allahın lənəti olsun. Allahın salamı və rəhməti o kəslərə aiddir ki, Hüseynə (ə) ağ-layar və düşmənlərinə lənət oxuyarlar”.***

S.M.Şəhriyar yazır:

***Hüseynə yerlər ağlar, göylər ağlar,***
***Bətuli-Murtəza-Peyğəmbər ağlar.***

***Hüseynin növhəsin Dilriş yazanda,***
***Müsəlman səhldir ki kafər ağlar.***

İmam Rza (ə) buyurub:

***“Hər kəs Hüseynə ağlasa və yaxud düşmənlərimizin biz Əhli-beytə (ə) qarşı etdikləri müsibətləri danışaraq başqalarını ağlatsa, Allah-Təala onu qiyamət günündə bizimlə birlikdə məşhur edəcək”.***

Əllamə Məclisi ***“Biharul-Ənvar”*** kitabında yazır:

Peyğəmbərin (s) qızı Fatiməyə (s.ə.) oğlu Hüseynin (ə) şəhid ediləcəyi bildiriləndə o ağlayaraq soruşdu:

***“Bəs kim ona matəm saxlayacaq?”***

Peyğəmbər (s) buyurdu:

***“Ümmətimin qadınları və kişiləri Əhli-beytim (ə) üçün ağlarlar, nəsilləri boyu hər il matəm tutarlar”.***

Kərbəla şəhidlərinə indiyədək matəm saxlamaq Peyğəmbərin (s) buyurduqlarına əyani sübutdur.

Məsumların özləri də İmam Hüseynə (ə) ağlamış və bizlə-rə də ağlamağı və əza saxlamağı tövsiyə etmişlər. Rəsuli-Ək-rəmə (ə) İmam Hüseynin (ə) şəhadəti barəsində belə buyur-muşdur:

***“Həqiqətən İmam Hüseynin (ə) şəhid olması ilə möminlərin qəlbinə bir iman odu-hərarəti düşər ki, bu od da heç vaxt sönməz”.***

İmam Muhəmməd Baqir (ə) Aşura günü Hüseynin (ə) ziyarətinə gedə bilməyənlərə buyurub:

***“Evlərində matəm qursunlar və ağlasınlar. Onun müsibəti barəsində danışsınlar”.***

Aşura günü təkcə İmam Hüseynin (ə) tərəfdarlarının de-yil, bütün müsəlmanların, ümumiyyətlə insanlığın matəm və yas günüdür.

İmam Rza (ə) buyurub:

***“Hər kim Aşura gününü özünə hüzn və ağlamaq (əza saxlamaq) günü edərsə, Allah qiyamət gününü ona sevinc günü edər”.***

İmam Hüseynin (ə) faciəsinə ağlamaq, yas tutub əza saxlamaq bu hadisəni diri saxlamaq, gələcək nəsillərə çatdır-maq deməkdir. 1400 ilə yaxındır ki, Kərbəla hadisəsi məhz əzadarlıqla bu günümüzədək gəlib çatıb.

Hadisələrdən də aydın olur ki, İslam dini şəhidlərə əza saxlamağı və ağlamağı mühüm şərt bilir. Belə ki, ağlamaq insanda zülmə qarşı nifrət yaradır. Ağlamaq, qəmli olmaq özü-nü unudaraq sevdiyi şəxsə yaxınlaşmaq baxımından xüsusi əhəmiyyətə malikdir. Əzadarlıq edən İmam Hüseynə (ə) mənə-vi cəhətdən yaxınlaşır, İmam Hüseyn (ə) düşmənlərinə nifrətini artırır. Bu əzadarlıq ilə özünün Kərbəla şəhidlərinə qarşı olan ehtiramını və məhəbbətini bildirir. Hər bir insan İmam Hüsey-nə (ə) yaxınlışmaqla haqqa yaxınlaşır və batil qüvvələrdən uzaqlaşır.

Şair Dahi Almaslı bir ***“Növhə”***sində İmam Hüseynin (ə) mübarək dilindən çıxan haqq kəlmələri belə qələmə alır.

***Sığmadım mən süstülər, biganələr ümmanına,***
***Hər kəsin amalı var, girsin döyüş meydanına.***
***Haqqı izhar etsə hər dəm, Dahi öz dövranına,***
***Tanrı dost eylər onu azadələr mövlasına.***

Aşura günü haqq ordusuyla batil ordusunun qarşılaşdığı gündür. Haqq ordusunun rəhbəri Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn (ə), batil ordusunun rəhbəri Yəzid idi.

Bəşəriyyət tarix boyu iki cəbhəyə bölünmüşdür. Firon yoxsa Musa, Nəmurd yoxsa İbrahim, Muhəmməd (s) yoxsa Əbu Süfyan, Əli (ə) yoxsa Müaviyə, İmam Hüseyn (ə) yoxsa Yəzid. Bu səbəbdən tarix insanın güzgüsüdür, bizə göstərir ki, biz hansı cərgədənik.

İmam Hüseynin (ə) Aşura cərəyanı nəzirə olmayan faciədir. Bu baxımdan İmam Hüseynə (ə) ağlamaq heç vaxt öz aktuallığını itirmir və insanların əqidəsinin formalaşmasında misilsiz əhəmiyyətə malikdir. Aşura günü İmam Hüseyn (ə) şəhid olmaqla böyük mənəvi məqama sahib oldu. Aşura günü batil qüvvələrin haqq qüvvələrinə qarşı amansız divan tutduğu gündür. Belə bir gündə özünü haqq bilən bir şəxsin deyib-gülməyə haqqı varmı?

Beləliklə, İmam Hüseynə (ə) əza saxlamağı biz müsəlman-lara təkidlə tapşıran Peyğəmbərin (s) və pak İmamların(ə) nə dərəcədə uzaqgörən olmasının şahidi oluruq.

Bəzi insanlar isə şəhidlər ağası İmam Hüseynə (ə) ağlama-ğı yanlış sayıb, bununla da milləti acizlik, məzlumluq və inki-şafdan geri qalmaq kimi sözlərlə ittiham edirlər. Lakin həqi-qətdə insan şəhidin şəhadətindən kədərlənərək onun müsbət keyfiyyətlərini dərk edib, o keyfiyyətlərdən məhrum olduğuna ağlayır. Necə ki, İmam Hüseyn (ə) həyatda qaldığı təqdirdə cəmiyyətə hansı faydalar verəcəyini, xalqı öz elmi, zəkası, ədaləti ilə yüksək rifah dərəcəsinə çatdıracağını düşündükdə kədərlənir və qəmgin olur.

Hər bir kəs şəhid üçün ağladıqda özünəməxsus tərzdə həyəcan keçirir və qəlbi kövrələrək göz yaşları tökür. Sanki o şəhidə qarşı olan sevgi və məhəbbətini bildirməklə ona daha da yaxınlaşır. Daha doğrusu bu vəziyyətdə özünü onunla bir yerdə bilir. Bununla da şəhidin insan ruhuna etdiyi təsir qəlb-ləri bir-birinə bağlayır. İnsan şəhidi özünə örnək seçir və özünü onun yolunun davamçısına çevirməyə səy edir. Beləliklə şəhi-din qanı hədər getmir, yüzlərlə, minlərlə damlaya, bəlkə də qan dənizinə çevrilərək cəmiyyətin bədəninə nüfuz edir. Pey-ğəmbər (s)

buyurmuşdur***: «Allah dərgahında heç bir damla Al-lah yolunda tökülən qan damlasından dəyərli deyildir».***

Şəhidə ağlamaq, onun hərəkatını qoruyub saxlamaq, bu hərəkatı davam etdirməkdir. Bununla da şəhidin hərəkatın-dakı misilsiz dəyərlərdən gələcək nəsillərin məhrum olmaması-na, həmçinin bu hərəkatın hədəf və amalından faydalanma-sına nail oluruq. Məsumlardan biri buyurub: «Hər kim şəhid üçün ağlasa, ağlatsa və ya ağlamsınsa mükafatı cənnətdir».

Şəhidə ağlayan şəxs onun nə üçün şəhid olmasını, hansı məqsəd və ideya daşımasını, kimə qarşı mübarizə apardığını araşdırır və onları öyrənir. Bununla da o, şəhidə qarşı məhəb-bəti olduğundan özünü ona bənzədir, şəhiddəki cəsurluq, qəh-rəmanlıq və fədakarlıq kimi xüsusiyyətləri özündə yaratmağa çalışır. Deməli, şəhidə ağlamaq acizlik, məzlumluq, inkişafdan geri qalmaq deyil, əksinə ruh yüksəkliyi, mübarizlik, zülmə qarşı boyun əyməmək kimi qiymətləndirilməlidir.

Necə ki, şair Kamil Sərbəndi bir ***“Növhə”***sində şəhidin məqamını qeyd edir:

***Kim şəhid olmuş bəqa mülkündə cənnətdir yeri,***
***Atəşə düşməz, nə də görməz əzabi-məhşəri.***
***Bunları Allah edib nazil, yayıb peyğəmbəri,***
***Ayeyi-Quran ilə dillərdə əzbərdir şəhid.***

***Sən də Kamil, gey kəfən haqqın yolunda hər zaman,***
***Qoy canın getsin, fəqət yol vermə getsin din, iman.***
***Allaha məxsusdur, onsuz əvvəl-axır cismü-can,***
***Ver onu mərdanə ki, cansızda sərvərdir şəhid.***

Əhli-beyt (ə) tərəfdarlarına tənə edənlər İmam Hüsey-nin(ə) həyatını vərəqləyib o Həzrətin (ə) ***“Məzlumluq bizdən uzaq-dır!” və ya “Mən ölümü zillətlə yaşamaqdan üstün tuturam” yaxud “Əgər cəddim Məhəmmədin (s) dini mənim ölümümlə yaşayacaqsa, onda ey qılınclar, alın mənim sinəmi”*** - kimi kə-lamlarına diqqət yetirsinlər. Aşura günü o Həzrətin (ə) tutduğu

hədəf və məqsəd uğrunda nə dərəcədə əzmkarlıq gös-tərdiyinə və hansı həddə qədər fədakarlıq etdiyinə diqqət yetirsinlər. Bu gün İmam Hüseyn (ə) aşiqləri ağlamaq, qara ge-yinmək, yaxud sinə vurub əzadarlıq etməklə özlərini məzlum və aciz yox, bu məktəbin davamçıları hesab edirlər. Onlar İmama(ə) əza saxlamaqla ona qarşı olan məhəbbətlərini bildirir və deyirlər:

***"Biz Aşura günü Kərbəlada olsaydıq, sənin döyüşçülərinə qoşular, səninlə birlikdə mübarizə aparardıq".***

***Ey Hüseyn, ey ayeyi-rəhmət, səlam olsun sənə,***
***Ey cəzadə şafei-ümmət, səlam olsun sənə!***

***Ey beşikdən ərşə merac eyləyən qundaqidə,***
***Ərşi əlayə verən zinət, səlam olsun sənə.***

***Seyli-xuriylə yıxan kaxi-fəsad düşməni,***
***Zülmə təslim olmayan Həzrət, səlam olsun sənə.***

***Ey edən yetmiş nəfərlə məhz otuz min ləşkəri,***
***Küfri niyrusin yıxan qüdrət, səlam olsun sizə!***

İmam Hüseyn (ə) əməli ilə, cihadı və mübarizəsi ilə özünə əbədiyyət qazanmış Kərbəla qəhrəmanıdır. İmam Hüseyn (ə) Azərbaycan xalqının qədimdən əziz tutduğu, əzasında çalışdığı və heç bir batil inanca dəyişmədiyi inam və etiqad mənbəyidir. Nə qədər ki, İslam var, haqq var və haqqı sevərək canını ona fəda edən möminlər var, bir o qədər də Kərbəla səhrasında şə-hid olanlar xatırlanacaq. Çünki Kərbəla məktəbi adi məktəb deyil, bu məktəb eşq və qeyrət, şücaət və mərdanəlik məktəbi-dir. Eyni zamanda bu məktəb ədalət örnəyi, zalımlara və kafir-lərə qarşı bir ibrət məktəbidir. Peyğəmbər (s) və məsum İmam-larımız(ə) İmam Hüseyni (ə) yad etməyi və onun müsibətinə kədərlənərək ağlamağı dəfələrlə təkid etmişlər. Çünki İmam Hüseyni (ə) sevmək və ona aşiq olmaq, bütün gözəllikləri sev-mək, İmam Hüseynə (ə) ağlamaq isə bütün məzlumlara ağla-maq deməkdir.

Peyğəmbər (s) buyurur:

***“Hər kəs İmam Hüseynə (ə) ağlaya, yaxud onun müsibətini zikr edərək bir kəsi qəmləndirə, Allahın cənnəti ona vacib olar!”***

İmam Məhəmməd Baqir (ə) isə: ***“İmam Hüseynə (ə) ağlamağı 2000 həcc və ümrədən üstün tutaraq, onu Peyğəmbərlə(s) birgə cihada bərabər sayır”***

Bu hədislərdən bir daha aydın olur ki, İmam Hüseynə (ə) ağlamaq, onun müsibətini yada salaraq qəmlənmək, Allah-Təalanın çox sevdiyi bir əməl sayılır. Çünki bu iş Allah düşmənlərinə nifrət, Allah dostlarına isə mərhəmət deməkdir. İmam Hüseynin (ə) müsibətinə ağlayan, yas tutan hər bir kəs həqiqətdə Allah düşmənlərinə öz nifrətini bildirərək, Allah yo-lunda şəhid olan Allah dostlarına öz sevgi və məhəbbətini iz-har edir.

Şair Fərman Kamil oğlu bir ***“Qəzəl”***ində İmam Hüsey-nə(ə) ağlamağın böyük fəzilət olduğunu oxucuya çatdırır

***Hər kəs ki, əgər ağlasa, dünyadə Hüseynə,***
***Billah qovuşar rövzeyi-üqbadə Hüseynə.***

***Hər mahi-mühərrəm geyər aşiqləri qara,***
***Çün matəm edir Həzrəti-Zəhradə, Hüseynə.***

Mərhəmət və izzət sahibi olan Allah-Təala, onun yolunda sidq ürəklə candan keçməyə hazır olan şəxsləri «öz sadiq dostları» adlandıraraq onların xatirəsini əbədi yaşatmaqla, insan-lara nümunə kimi təqdim edir. Necə ki, Həzrət İsmayıl (ə) özü-nün Allah yolunda qurban kəsilməsinə razı olaraq, Allah se-vimlisinə çevrildi. İndinin özündə də bu ***«Qurbanlıq»*** bayramı bütün dünya müsəlman-larının adəti kimi yaşamaqdadır. İmam Hüseyn (ə) isə nəinki özünü, hətta bütün yaxınlarını və var-dövlətini Allah yolunda qurban verərək ***«Kərbəla qurbanlı-ğına»*** çevrildi. Şair H.Ə.Mahir İmam Hüseynin (ə) fəzilətinə həsr etdiyi ***«Müxəmməs»***inin bir bəndində yazır:

*Cananı ilə bağlaya kim əhd ilə peyman,*
*Peymanə vəfa qılmalıdır, lütf edə canan.*
*Bir şahinsən aləmdəki ey şəhi-şəhidan,*
*Layiqdi kəsilsin sənə, yetmiş iki qurban.*
*Ey sidq ilə cananına qurban gedən aşiq!*

Bir çoxları Peyğəmbər (s) ölüyə ağlamağı, növhə və mərsi-yə deməyi qadağan edərək, lənətləmişdir – deyərək İmam Hü-seynin (ə) aşiqlərinin göz yaşı və matəminə irad tuturlar. Lakin əsl həqiqət budur ki, Peyğəmbər (s) hər bir matəm və göz yaşı-nı deyil, Allaha şikayət və etiraz məqsədilə olan vay-şivəni və ağlamağı lənətləyərək qadağan etmişdir. Peyğəmbər (s) özü dəfələrlə Həzrət Hüseynin (ə) başına gələcək müsibətlərdən xəbər verərək ağlamış və göz yaşı axıtmışdı.

Göz yaşı ilahi rəhmətin açarı və onun mərhəmətinin nişa-nəsidir. Rəvayətlərdə deyilir:

Həzrət İsa (ə) Allah-Təaladan soruşdu:

***«İlahi, göz yaşının sənin dərgahında nə qədər qiyməti vardır?»***

Allah-Təala buyurdu:

***«Ey Məryəmin oğlu, and olsun izzəti-cəlalıma, mən bir damla göz yaşı ilə cəhənnəm odunu söndürürəm!»***

Həzrət Əli (ə) buyurub:

***«Göz yaşının quruması yalnız qəlbin qəsavət bağlaması sə-bəbi ilədir. Qəlblər də, günahın çoxluğu ilə bərkiyər, daşlaşar!»***

Ustad Füzuli demiş:

*Etməmək meyl gözəldir günaha əvvəldən,*
*Diləməkdənsə nəhayət kərəmi-Sübhandan.*

Qurani-Kərimdən və məsum imamlarımızın (ə) kəlamla-rından aydın olduğu kimi, onlar hər nə qədər bizdən uzaq ol-salar da, həqiqətdə daim bizə yaxın və bizimlə birgədirlər. Ölüm və

şəhadət onları bizdən ayırmır. Böyük Füzulimizin bu-yurduğu kimi:

***Rəsmdir dəryaların möhtac olan hər bir kəsi,***
***Ya yaxındır, ya uzaq, feyzilə eylər kamyab.***
***Böylə bir halət günündə çeşmeyi-zatində var,***
***Kim alır ondan uzaqlar, həm yaxınlar abu-tab.***
***Göy üzündə ay deyil yalnız günəşdən nur alan,***

***Yer də ondan lətafət kəsb edibdir ləli-nab.***
***Ey olan gündən uca, dəryadən əla qoy sənə,***
***Qibtə etsin yerdə dəryalar, fələkdə afitab.***
***Lütf olsa, gər mənə səndən təəccüb iş deyil,***
***Nazil olmuşdur yerə bu rəsmdir, göydən kitab.***

İmam Hüseynə (ə) ağlamaq əsla acizlikdən və zəlillikdən deyil. Bu izzət və əzəmətdəndir və bu ağlamaq insanda müba-rizə ruhu aşılayır.

Digər cəhətdən İmam Hüseynə (ə) ağlamaq ona qarşı olan həqiqi məhəbbətdəndir. Elə bir məhəbbət ki, aşiqlərin qəlbin-dədir. Odur ki, imama (ə) ağlamağın fəziləti haqqında çoxlu rəvayətlər mövcuddur. İmam Sadiq (ə) buyurur:

***“Müsibət baş verdikdə bəndə üçün ağlamaq və səbirsizlik məkruhdur. Yalnız Hüseyn İbn Əliyə (ə) ağlamağın savabı var”.***

Bu hədisdən bir daha aydın olur ki, Kərbəla hadisələri məhəbbət yaradan hadisələrdəndir. Kərbəla qəhrəmanlarının alovlu sözlərini eşitmək, gözlərdən qeyri-adi olaraq yaş axıdır və ürək yandırır. İmam Hüseynə (ə) ağlamaq və əzadarlıq etməyin çox böyük əhəmiyyətə malik olduğunu anlayıb, əziz oxuculara bir neçə mühüm nöqtəni çatdırmağı lazım bildim.

1. İmam Hüseynə (ə) məqsədini canlandırmaq.

Yəni, ağlamaqla onun məhəbbəti bir daha canlanır. Allah yolunda əmr beməruf və nəhyəz-münkər etməsi, islama göstər-diyi böyük və əvəzedilməz xidmətləri qəlblərə həkk olur. Ağla-maqla qəflətdə olanlar, yolunu azanlar ayılırlar. Kərbəla fa-ciəsi

kimi bəşəriyyətin tarixinə həkk olan ikinci bir hadisə hələ indiyədək tarixdə baş verməyib. Buna görə də, əza saxlamaqla Kərbəla hadisəsi zehnlərdə canlanır. İmam Hüseyn (ə) məqsə-dini canlandırmaq, əsl mənada islamı qoruyub saxlamaqdır.

2. İmam Hüseynə (ə) sonsuz məhəbbət və düşmənlərinə nifrət.

İmam Hüseynə (ə) ağlamaq, vəhy ailəsinə məhəbbət və sa-diqliyin aliliyini göstərir. Bu ona məhəbbəti artırmaqla yanaşı, düşmənlərinə nifrət oyadır. Belə ki, İmam Hüseynin (ə) haqqını tanıyaraq ağlamaq, imamın qatillərinə nifrət bəslə-məkdir.

3. Dinin həqiqəti ilə yaxından tanışlıq.

İmam Hüseynə (ə) əzadarlıq məclisinin əsas faydalarından biri də odur ki, camaat islam həqiqəti ilə dərindən tanış olur. Dinin Quran və əhli-beytə (ə) bağlılığını dərk edir.

4. Günahların bağışlanması.

Rəyyan İbn şəbib İmam Rzadan (ə rəvayət edir: ***«Ey Şəbi-bin oğlu, əgər Hüseynə ağlasan, yanaqlarına axan ilk yaşla Allah sənin kiçik və böyük günahlarını bağışlayar»***

İmam (ə) digər bir hədisdə buyurur: «Ağlayanlar heç ol-masa Hüseyn (ə) kimisinə ağlasınlar. Çünki ona ağlamaq bö-yük günahların bağışlanmasına səbəb olur»

5.Behiştdə qalmaq.

İmam Baqir (ə) buyurur:

***“İmam Hüseynin (ə) əzasında ağlayan mömini Allah behişt otaqlarının birində yerləşdirər”*** [1]

İmam Sadiq (ə) buyurur:

***«Kim Hüseyn (ə) haqqında şeir oxuya, ağlaya, yaxud kimisə ağlada hər ikisi behiştə gedər. Kimin yanında Hüseyn (ə) adı çəkilə və gözündən damcı da olsa yaş axarsa, əvəzini Allah behiştlə qiymətləndirər».***

6. Şəfa tapmaq.

İmam Hüseynin (ə) əza məclislərinin bərəkətlərindən biri də şəfa tapmaqdır. Dəfələrlə eşitmişik ki, Hüseynə (ə) əza sax-

---

[1] ***Kamilüz-ziyarət.***

layanların bəziləri şəfa tapıb. Böyük müctəhid, mərhum Ayətullhül-üzma Burucerdi 90 yaşında gözləri sağlam və eynəksiz kitab oxuyurdu. Mərhum alim deyir:

***"Bir vaxt Bürucerd şəhərində yaşayırdım. Güclü göz ağrısına düçar olmuşdum. Müalicənin faydası olmadı. Get-gedə ağrı artırdı.Məhərrəm ayı çatdıqda əzadarlıq məclisinə gedirdim.Müxtəlif yerlərdən dəstə-dəstə camaat məclisə gəlirdi. Dəstələrdən biri məclisə daxil olanda sanki mənəviyyat işığı gücləndi. Mən də kənarda oturub ağlayırdım. Bu vaxt həmin dəstənin ayaq tozundan götürüb gözümə çəkdim. Gözlərim sağaldı. İndi görmə qabiliyyətim də artıb. İmam Hüseynin (ə) bərəkətindən hətta eynəyə də ehtiyac yoxdur".***

7. İmam Hüseynə (ə) ağlayan qiyamət günü ağlamaz.

Rəsuli-Əkrəm (s) qızı Həzrəti Fatimeyi-Zəhraya (s.ə.) buyurdu:

***«Hüseynin (ə) müsibətinə ağlayan gözlərdən başqa, qiyamətdə bütün gözlər ağlar qalacaq. Ona ağlayan qiyamət günü şad və gülərüz olacaq».***

8. Ölüm qorxusundan və cəhənnəm atəşindən amanda qalmaq.

Mərhum Seyyid, doktor İsmayıl Mücab Hindistanda gördüyü hadisədən danışır:

Hindistandakı bütpərəstlərdən bəzilərinin İmam Hüsey-nə(ə) əqidələri olduğundan Məhərrəmdə başqa müsəlmanlar kimi əza saxlayıb sinə vururdular. Belə məclislərə maddi kö-məklik də edirdilər. Bir bütpərəst həmişə əza məclisində sinə vururdu. Dünyasını dəyişdikdə adət-ənənə üzrə yandırıldı. Bə-dəni külə döndü, yalnız sağ əli və sinəsi yanmamışdı. Yaxın qohumları sinəsini və əlini gətirib şiə qəbristanlığında dəfn edib dedilər:

***«Bunlar sizin Hüseynə aiddir».***

9. Hüseyn (ə) əzasında şeirin təsiri.

İmam Sadiq (ə) buyurub:

***«Hüseynə (ə) şeir deyib ağlayan yaxud başqasını ağladan şəxsə Allah behişti vacib edər və günahlarını bağışlayar»***

Ey Allahım! Bizi bu dünyada və Axirətdə Quran və Əhli-beytdən (ə) ayrı salma, Peyğəmbərin (s) və İmamların (ə) şəfaətindən binəsib eləmə! Amin, ya Rəbbil Aləmin!

# TƏQVA ƏDƏBİYYATDA VƏ HƏDİSLƏRDƏ

***Bismillahir-rəhmanir-rəhim***

***"Qəlbimi döndər hər qapıdan Allah!***
***Onu öz qapında müqərrər eylə.!***

***M.Füzuli***

Müqəddəs kitabımız sayılan Qurani-Kərim öz ayələri ilə İslamın əbədi din olduğunu bəşəriyyətə açıq şəkildə bəyan etmiş və bəyan etməkdədir.

İslam Peyğəmbərinin (s) gətirdiyi İslam dinin məşəli olan Qurani-Kərim hər tərəfi öz parlaq nuru ilə işıqlandırmışdır. O, şərqdən doğan günəş kimi hər zaman parlayacaqdır. O, sanki ilahi bir günşdir ki, insanlar öz əbədi səadətinə qovuşmaq üçün onun nurundan faydalanır və belə bir nurun hər zaman saç-ması bütün zamanlar üçün vacib və zəruridir.

Qurani-Kərimdə insanların doğru yola hidayət olması üçün bütün üsul və vasitələr qüsursuz və nöqsansız olaraq nizamlanmışdır. Etiqad və inancın əsasları, insanın Allah ilə rabitəsi və bu rabitələrin möhkəmlənmə yolları vahid nizam üzərində bərqərar olmuşdur. Şair Kərəm Kürqıraxlı belə demişdir:

***Dünya öz qoynunda tapandan nicat,***
***Allahın hökmüylə qurulmuş həyat.***
***Bu yer, bu asiman, külli-kainat,***
***Quranın otuz cüzv ayəsindədir.***

Həzrəti Fatimeyi-Zəhra (s.ə.) buyurmuşdur:

***“Ey Allahın bəndələri, sizin aranızda Quran bir rəhbər kimidir. Sizinlə bağlanan bir əhd-peymandır. Quran Allahın doğru danışan natiq kitabıdır. Quranın nuru saçan, işığı isə parlaqdır. Onun dəlilləri aşkardır, sirrləri açıqdır. Quranın ümmətləri həmişə yadları həsrətdə qoymuşdur”.***

Digər bir hədisdə xanım Fatimeyi-Zəhra (s.ə.) belə bu-yurur:

***“Allahın kitabına itaət etmək behiştə doğru getməyə səbəb olar. Onun göstərişlərini dinləmək isə insanı nicat tapmağa yönəldər. O kitabla Allahın aydın höccətləri (dəlilləri), onun aşkar qayda-qanun, hüdud və vəzifələri hasil olur. Bu bir kitabdır ki, halal-haram məsələlərini, aşkar dəlilləri və kifayətedici sübutları, yüksək dəyərləri və müqərrər qayda-qanunları əhatə edir”.***

Görkəmli elm və din xadimi, Axund Hacı Soltan Qurani-Kərim haqqında yazır:

***Bütün möminlərin qəlbindəki cananıdır Quran!***
***Nüzuli-həqqdir çün, ümmətin dərmanıdır Quran!***

***Günəşdir ki, salıb nuri-kəlamın cümlə yer üzrə,***
***Cahan gülzarının ən ətribər reyhanıdır Quran!***

Həzrəti Əli (ə) buyurub:

***“Quranla ünsiyyət tapan bir şəxs ondan aralananda onun bir xüsusiyyəti azalar, bir xüsusiyyəti isə çoxalar: nadanlığı azalar, hidayəti çoxalar. Bilin ki, Quranla birgə olan yoxsul və yazıq (biçarə) olmaz, Quranla olmazdan əvvəl isə heç kim varlı olmaz”.***

Həzrəti Əlinin (ə) oğlu İmam Həsən (ə) barəsində bir vəsiyyətnaməsi vardır. Həzrət (ə) həmin xüsusi vəsiyyətnaməsin-də oğluna və bütün mənəvi balalarına buyurur:

***«Mən sənə vəsiyyət edirəm təqvalı ol».***

Rəvayətlər də vardır ki, bir nəfər Peyğəmbərin (s) yanına gəldi və O Həzrətdən (s) sual etdi:

***«Ya Rəsulallah (s) təqva nə deməkdir?»***

Peyğəmbər (s) buyurdu:

***«Təqva budur ki, insan Allaha itaət eləyə və Allahın hüzurunda günah etməyə»***.

Əgər bir adam Allaha itaət etsə və onun hüzurunda günah etməsə, o adam təqvalı adamdır. Təqva sahibi sayılan hər bir insan Allahın buyurduğu bütün vacib əməlləri yerinə yetirməli və bütün haram işlərdən, günahlardan özünü saxlamalıdır.

***Təqva əməldə şah isə, gər tacıdır namaz,***
***Məşuq yetişsə aşiqə meracıdır namaz.***[1]

Namaz dində əsas məsələlərdəndir. Peyğəmbər (s) buyu-rub:

***"Namaz möminin meracıdır".***

Əgər bir insan Allah-Təalanın istədiyi kimi namaz qıla bilsə, həqiqətən o namaz onu meraca aparar. Çünki, bütün əməllərdən üstün əməl təqvadırsa, təqvanın tacı namaz sayılır. Allah-Təala da ən gözəl və əla təşəkkürü ki, bizlərdən istəyir, o namazdır.

***«Ənbiya»*** surəsinin 73-cü ayəsində buyurulub:

***«Biz vəhy eylədik onlara yaxşı işlər görsünlər və namaz qıl-sınlar».***

Bu ayədən belə nəticəyə gəlmək olar ki, hər bir işdən üstün iş, hər əməldən gözəl əməl namazdır.

Şeyx Sədi namaz barəsində belə deyir:

***Namaz qılmayana borc vermə, aman,***
***Aclıqdan şikayət etsə də həman.***
***O Allah borcunu vermirsə əgər,***
***Bəndənin borcunu de, necə verər?***

İnsanların təqvalı olması üçün mühüm sayılan əməllərdən biri də Orucdur. Orucluq ilahi ziyafətə hazırlıqdır. Hər bir Allah bəndəsi Ramazan ayında oruc tutmalı və bu ayın hörmətini saxlamalıdır. Ramazan ayının hörməti orucluğa gö-rə yox, Qurana

---

[1] ***Fəxrəddin Cəfakeş.***

görədir. Çünki Quranı Qədr gecəsində Allah-Təala Peyğəmbərimizin (s) mübarək qəlbinə nazil etmişdir. Ramazan ayını bu səbəbdən Quranın baharı adlandırmaq olar.

***Nazildi yerə rəhməti-Sübhan Ramazanda,***
***Həm nazil olub ayeyi-Quran Ramazanda.***

***Hər kəs ki, oruc tutsa, olur Xaliqə mehman,***
***Əlhəq tapacaq rəhməti-güfran Ramazanda.***

Qurani-Kərimin ***"Bəqərə"*** surəsinin 183-cü ayəsində Allah-Təala buyurur:

***"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz".***

Bu ayədə orucun vasitəsilə insanların təqvalı olmasına işa-rə edilir. Bu ayə insanlara Ramazan ayında təqvalı olmağı (gü-nahlardan çəkinməyi və Allahın buyurduğu əməlləri yerinə ye-tirməyi) tövsiyə edir.

***Bu mahi-mübarək verəcək ruha qidanı,***
***Pakizə olur səhhəti-insan Ramazanda.***

184-cü ayədə buyurur: ***"Oruc tutmaq müəyyən olan (bir ay) günlərdir. Bu günlərdə sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər gün əvəzində) bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə, bu onun üçün daha yaxşı olar. Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!"***

Bu ayədə Allah-Təala insanlara xeyir işlər görməyi tövsiyə edərək bildirir ki, bu ayda gördüyünüz xeyir işlərin hamısı sizin öz xeyrinizədir. Allahın insanların oruc tutub, namaz qılma-larına ehtiyacı yoxdur. Allah ehtiyacsızdır. Kim namaz qılıb, oruc tutarsa, özünə xeyir etmiş olar, namaz qılmayan və bu ayda oruc tutmayan şəxslər özlərinə ziyan vermiş olarlar. Bir sözlə,

insanların oruc tutub-tutmamasının Allaha heç bir xeyiri, ziyanı yoxdur. Bu əməllərin yerinə yetirilməsində ancaq insanların böyük xeyirləri vardır. Allah-Təala o səbəbdən buyurub:

***“Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!”***

El şairi Kərəm Kürqıraxlı bir şeirində namazın, orucun faydası haqqında belə yazır:

***Acından pay yığsan harama uyma,***
***İşlərin ən təmiz, gözəli budur.***
***Namaz qıl, oruc tut, yalan danışma,***
***Dünyanın axırı, əzəli budur.***

185-ci ayədə buyurulur:

***“İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə oruc tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona təzim edəsiniz”.***

Allah-Təala bu ayədə Ramazan ayında Ona ibadət etməyi və verdiyi nemətlər qarşısında təşəkkür etməyi tövsiyə edir.

İmam Sadiq (ə) buyurur ki,  Allah-Təala belə buyurub:

***“Oruc Mənim üçündür və Mən də onun savabını verəcəm”.***

Ramazan ayının orucundan məqsəd budur ki, insanlar təqvalı olsunlar, yəni təqva əldə etmək istəyən şəxs bu ayda yemək-içmək və bütün bədən üzvləri cəhətindən oruc olmalı-dır. Kim bu mübarək ayın orucu ilə təqva əldə edə bilmirsə, o insan bu ayın bəhrəsindən məhrum olub.

***Sidq ilə bu ayda eyliyir şükri-Xuda çün,***
***Tapmışdı şəfaət Hacı Soltan Ramazanda.***

İmam Həsən (ə) buyurub:

***“Həqiqətən Allah-Təala Ramazan ayını öz bəndələri üçün yarış qərar verdi. Bu ayda Allahın rizayəti üçün yarışarlar. Bir hissə ötər və axirətdə səadətə yetişər. Bir hissə də geridə qalıb bədbəxt olar. Yaxşılar savaba yetişər və təqsirkarlar bədbəxt olar. Boş-boş gülüb oynayan şəxsin işi çox təəccüblüdür”.***

Şair Fəxrəddin Cəfakeş də bu cür insanlar barədə gözəl deyib:

***Nə oldum fasiq aləmdə, nə oldum əhli-təqva mən,***
***Nə oldum axirət əhli, nə oldum əhli-dünya mən.***

***Gedibdir fürsət əldən, fayda verməz ağlamaq, könlüm,***
***Bu göz yaşilə hasil gər, edəm hər ləhzə dərya mən.***

Allah-Təala ***“Ali-İmran”*** surəsinin 102-ci ayəsində buyu-rur:

***“Ey iman gətirənlər! (Təqvalı olun!) Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda (müsəlman kimi) ölün!”***

Bir nəfər İmam Sadiqin (ə) hüzuruna gəlib təqvanın mənasını soruşdu. Həzrət (ə) də cavabında buyurdu: ***“Təqva odur ki, Allah sənin harada olmağını əmr etdikdə səni orada itirməsin və harada olmamağını əmr edibsə, səni orada görməsin”.***

İmam (ə) təqva barədə buyurduğu bu hədisdə bütün vacibata əməl etmək və haram əməllərdən çəkinməyin vacib olduğunu insanlara bir daha başa salır.

Bir nəfər abid öz ustadına dedi:

***“Mənə tövsiyə elə».***

Ustad onun cavabında dedi: ***«Bilirsən ki, Allah insanların halını hamıdan yaxşı bilir?”***

Dedi: ***“Bəli, bilirəm”.***

Dedi:***“Allah-Təala bizə təqvalı olmağı buyurub, əgər təqvadan yaxşı bir şey olsaydı Allah-Təala onu bizə buyurardı”.***

Axund Hacı Soltan təqvanı belə qiymətləndirir:

***Mömin sayılan hər kəsin ünvanı Əlidir,***
***Təqvada mükəmməl olanın canı Əlidir.***

Qurani-Kərimin qardaşı sayılan ***“Nəhcül-bəlağə”*** kitabı İmam Əlinin (ə) söylədiyi xütbələrdən, məktublardan və hədislərdən ibarət olan dəyərli bir kitabdır. Bu kitabda olan xütbələrdən biri də ***“Müttəqilər”*** – yəni ***“Təqvalılar”*** xütbəsidir.

***“Təqvalılar”*** kimlərdir?-Qurani-Kərimin ***“Bəqərə”*** surəsinin 3-cü ayəsində buyurulur: ***“Təqvalılar o kəslərdir ki, qeybə inanır, namaz qılır və onlara verdiyimiz ruzilərdən (başqalarına) infaq (ehsan) edirlər”.***

Sonrakı ayədə buyurulur:

***“Həm də o kəslərdir ki, sənə və səndən qabaq (peyğəmbərlərə) nazil olunana iman gətirir, axirətə də (kamil) inanırlar”.***

Daha sonra ***“Onlar Rəbbiləri tərəfindən hidayət olunmuşlardır, (doğru yola yönəlmişlər) səadətə çatanlar da onlardır”*** – deyə buyurulur.

Bu ayələrdə Allah-Təala təqvanın nədən ibarət olduğunu bizlərə çatdırır.

Müttəqi insanlardan biri, həm də Həzrət Əlinin (ə) əshabından sayılan Həmmam adlı bir şəxs İmamın (ə) hüzuruna gəlib dedi:

***“Ya Əmirəl-möminin (ə), mənə Allahdan çəkinənləri (təqvalı olanları)anlat, həm də elə anlat ki, onları görən kimi olum”.***

Həzrət Əli (ə) Həmmama “Nəhl” surəsinin 128-ci ayəsini oxudu və buyurdu:

***“Ya Həmmam, Allahdan çəkin, yaxşı işlər tut, çünki Allah çəkinənlərlə və yaxşı iş tutanlarladır”.***

Həmmam bu sözlə kifayətlənmədi, and verdi:

***Hikməti-Mövlayə guş etdi Həmmam,***
***Hicranı vüsalə tuş etdi Həmmam.***
***Nəsibi-məqamı – “Seyri-Məallah”,***
***Vəhdətin meyindən nuş etdi Həmmam.***

Həzrət Əli (ə) bundan sonra Allaha həmdü-səna edib, Rəsuluna(s) və soyuna səlatü-səlam göndərəndən sonra buyur-du:

***«Nöqsan sifətlərdən münəzzəh olan uca Allah xalqı yaratdı. Yaratdığı vaxt onların itaətinə ehtiyac duymurdu, üsyan və günahından da qorxusu yox idi. Çünki üsyan edənin günahı, üsyanı ona heç bir zərər verməz, itaət edənin itaətindən bir fayda görməz. Xalqın dolanacağını O bölmüş, hər adamı layiq olduğu yerə O qoymuşdur».***

***Hər kəsin qismətin ol yar bu dünyadə verir,***
***Kuyin öz aşiqinə, cənnəti-zöhhadə verir.***[1]

Çəkinənlərə gəldikdə, onlar fəzilət sahibləridirlər. Onların sözləri doğru, paltarları ortababdır – nə çox bər-bəzəkli, nə də çox sadədir. Yerişlərində ürək açıqlığı var. Allahın onlara ha-ram etdiyi şeylərə göz yumarlar. Onlara fayda verəcək biliyə qulaq verərlər. Bunlara uymayanların ürəkləri nemətə çatar-kən necə rahat olursa, bunların da ürəkləri bəla və möhnət içində beləcə rahatlıq tapır. Allah öz bəndələrinin əcəllərini təqdir etməsəydi, ölüm saatını təyin etməsəydi, onların ruhları savab həvəsi, əzab qorxusu ilə bir göz qırpımınca belə bədənlə-rində qərar tutmazdı. Onların gözündə Yaradan uludur. On-dan başqası kiçik. Sanki cənnəti görməkdə, orada nemətləri əl-də etməkdədirlər. Sanki cəhənnəmi görməkdə, orada əzaba düşməkdədirlər. Qəlbləri məhzundur, heç kimə pislik etməzlər. Həsədləri o qədər zəifdir ki, sanki yoxdur. Arzuları əhəmiyyət-siz, nəfsləri tərtəmizdir. Tez ötüb gedən günlərdə səbr etmişlər, dalınca sürəkli bir rahatlıq və sakitlik gəlir. O zaman Rəbbiləri faydalı alış-verişi onlar üçün asan etmişdir. Dünya onları istər, onlarsa dünyanı istəməzlər. Dünya onları dustaq etmişdir, fə-qət onlar canlarını fidyə verib ondan qurtulmuşlar.

Gecə düşən kimi ayağa durarlar, səff (cərgə) qurarlar, ibadətə başlayarlar. Quran ayələrini hərf-hərf, ağır-ağır, məna-sını

---

***1 Vüqar Nakam***

anlayaraq oxuyarlar. Beləcə özlərini qəm-qüssəyə atarlar, dərdlərinin dərmanını Quranda axtarar, Quranda taparlar. Təşviqə, savaba, mükafata aid bir Quran ayəsi oxuduqda o sa-vabı əldə etməyi umarlar. Cani-dildən ona könül bağlayarlar, sanarlar ki, o mükafat gəlib gözlərinin önündə durmuşdur. Qorxuducu bir ayə oxuduqda ona qulaq verərlər, sanarlar ki, cəhənnəm alovu ucalarkən çəkdiyi zəbanə qulaqlarına gəl-məkdədir, onu eşitməkdədirlər. Ruku etməkdən ikiqat olmuş-lar. Alınlarını, əllərini, dizlərini, ayaq barmaqlarını yerlərə dö-şəmişlər, səcdəyə qapanmışlar. Əzabdan, zəncirlərə vurulmaq-dan qutarmaq diləyilə uca Allaha üz tutmuşlar.

Gündüzlərinə gəldikdə, mülayim, xoşxasiyyətli, bilikli, yaxşı adamlardır. Qorxu onları, ovçunun yonduğu ox kimi in-cəltmişdir, zəiflətmişdir. Onları görən xəstə hesab etsə də, xəs-təlikləri yoxdur. Onlara baxan ağlını itirmiş sayar, halbuki ağıllarında ancaq o böyük zaman – axirət vardır. Az ibadətə razı olmazlar, qulluqlarını kifayət saymazlar, amma həddin-dən artıq ibadət də etməzlər. Özlərini günahkar kimi aparar-lar, əməllərindən qorxarlar. Birisi onlardan birini yüksək gö-rər, təmiz sayarsa, söylənən sözdən qorxub deyər ki, mən özü-mü başqalarından yaxşı tanıyıram. Rəbbimsə məni məndən də yaxşı tanıyır. Deyilən sözlərə görə məni günahkar sayma, Alla-hım məni onların zənnlərindən üstün et. Onların bilmədikləri günahlarımı da bağışla.

***Üzüm qarə, əlim boşdur, özüm məddahi-Mövlayəm,***
***Mənə qəm guşəsi olmuş cahan eşqü-məhəbbətdən.***

***Məni sanma o kəslərdən kim, ol kəslər ki, qafildir,***
***Həqiqi aşiqindir, kim tutub rahi-həqiqətdən.***[1]

Sonra Həzrət (ə) buyurdu:

---

[1] ***Şair Məddah***

***“Onlardan hər birinin bu əlaməti var: Onları dində güclü, qulluqda ehtiyatlı, imanda şübhəsiz, elmə həris, bilikdə nümunə, varlılıqda ortabab, ibadətdə səmimi və Rəbbi qarşısında alçal-mış, yoxluqda bəzənmiş, çətin zamanda davamlı, halal ruzi əldə etməkdə mübariz, hidayət nəşəli, tamahdan qurtulmuş, gözəl və təmiz işlərlə məşğul, fəqət Allahdan həmişə qorxan görərsən. Gündüz axşama kimi düşüncəsi şükürdür. Gecə səhərə kimi çalışdığı zikrdir. Qorxuyla gecələr, nəşəylə səhər açar. Qəflətə düşməkdən çəkinərək qorxar. Lütfə, ehsana çataraq nəşələnər. Nəfsi onu istədiyi bir şeyə zorla yönəltsə, o da nəfsinə zor gələr, sevdiyini ona verməz”.***

Necə ki, Seyid İmadəddin Nəsimi bir şeirində deyib:

***«Arifi-nəfs olmayan bulmaz həqi» – dedi Əli,***
***Cümleyi-əşyanı gör mirati-dildə müncəli.***
***Bas ayaq vəhdət yolunda, çək bu kəsrətdən əli,***
***Qəhri lütfün mənşəyi-mənada vahiddir, vəli.***
***Bilmədi şeytan bu Tovhidi, Əhəddən düşdü dur.***

Gözü zavalsız nemətdədir. Zahidliyi – davam etməyəcək, yox olub tükənəcək şeydəndir. Helmini elmə qarışdırmışdır. Görərsən ki, umduğu yaxındır, uzaq deyil, azdığı azdır, çox deyil. Nəfsi əldə etdiyi ilə kifayətlənər, hərislik etməz, yediyi az bir şeydir, çox tələb etməz, işi asandır, dini qorunmuşdur, şəhvəti ölmüşdür, qəzəbi sönmüşdür. Ondan xeyir umarlar, şərindən arxayın olarlar.

Qafillər içində zikr edən sayılar, zikr edənlər arasında qafil sayılmaz. Ona zülm edəni bağışlar, ona heç nə verməyənə bir şey verər, onu yoluxmayanı yoluxar. Yaman söz ondan uzaqdır. Danışığı yumşaqdır. Qınanılan işi yoxdur, yaxşı işləri isə çoxdur. Xeyri ona tərəf gəlir, şər isə dönüb getməkdədir. Sarsıntılara qarşı təmkinlidir, xoşagəlməz işlərə səbr edər, rahatlığa şükr edər. Ona düşmən olana zülm etməz, zülm etmədiyinə təəssüflənməz. Onu sevən də günaha batmaz, şa-hidliyi tələb olunmadan doğrunu

söylər, ona veriləni, tap-şırılanı itirməz. Ona etibar ediləni unutmaz. Xalqı pis ləqəblə çağırmaz, qonşusuna ziyan verməz. Müsibətə düşənə sevin-məz. Batilə boyun əyməz, batil işə qol qoymaz, haqdan ayrılmaz. Susarsa, sükutu onu qayğılandırmaz, gülərsə, səsini ucaltmaz, ona zülm edilərsə dözər, axırda onun qisasını Allah alar.

Nəfsi onun əlindən bezar olmuşdur. Fəqət, insanlar onun üzündən rahatlıq tapmışlar. Axirət üçün nəfsini yorar, nəfsi sarıdan insanları arxayın edər.

Bir adamdan uzaqlaşarsa, bu zahidliyindən, təmizliyindəndir. Uzaqlaşması qürurdan, böyüklükdən olmaz, yaxınlaş-ması hiylədən, qurğudan doğmaz».

Söz bura çatanda Həmmam fəryad edib yıxıldı və canını tapşırdı. Şair Vüqar Nakam Həmmamın öz canını fəda etmə-sini və təqvanın nədən ibarət olduğunu bir beytdə belə verir:

***Təsiri-kəlmən sənin Həmmamı bican eylədi,***
***Təlim etdi bizlərə şiən nədir təqva, Əli.***

Şair Fəxrəddin Cəfakeş də bir beytində Həmmamın öz əqidəsi yolunda canın tapşırıb canana qovuşmasını belə vəsf edir:

***Piri-meyxanə verən badeyi-nabın feyzi,***
***Can fəda etməyə, vadar eləyər Həmmamı.***

Həzrət Əli (ə) belə buyurdu:

***“And olsun Allaha, mən bundan qorxurdum. Bax, yerində verilmiş öyüdlər əhlinə belə təsir edər”.***

Xaricilərdən İbn Qəvva adlı birisi dedi: «Madam ki, belə-dir, ey möminlərin Əmiri, bəs niyə dediyin sözlər, verdiyin öyüdlər səni də bu hala salmadı?»

Həzrət Əli (ə) buyurdu:

***“Vay sənin halına, hər işin bir vaxtı var, o vaxtı keçirməz. Hər şeyin bir səbəbi var, o səbəbi keçirməz. Bir də bu cür sözləri***

***dilinə gətirmə. Çünki bu, Şeytanın hiyləsidi, sənin dilinlə danışdı”.***

Təqvanın on əlaməti var:

***“Səbir, pislikdən çəkinmək, Allahın yardımını diləmək, qarışıq işlərdən, günahlardan qurtulmaq, halal ruzi əldə etmək, riyasız ibadət etmək, Tanrının şəfqətinə layiq olmaq, Allah sevgisini qazanmaq, ibadətlərinin qəbul edilməsinə nail olmaq, Alla-hın kəraminə qovuşmaq, müjdəsini əldə etmək”.***

İmam Muhəmməd Təqi (ə) buyurub:

***“Mən səni ilahi təqvaya tövsiyə edirəm, təqva insanı tələf (həlak) olmaqdan qoruyar və çarpışmalarda bəhrə verər. Allah-Təala öz bəndəsini təqva vasitəsilə ağlına gəlməyən uçurumlardan qurtarar. Bəsirətsizliyini və cahilliyini təqva ilə aydınlaşdırar. Həzrəti Nuh (ə) və onunla birlikdə gəmidə olanlar təqva ilə nicat tapdılar. Həzrəti Saleh (ə) və onunla birlikdə olanlar da təqva ilə ildırımdan nicat tapdılar. Doğrudur, səbr edənlər ancaq təqva ilə nicat tapmış və uğurlar qazanmışlar”.***

Şair F.Cəfakeş təqvanı ***“İnsan vücudunun vətəni”*** adlandırır və deyir:

***Mülki-təqvadə deyildirsə vücudun vətəni,***
***Bilə bilməzsən, həvəs eyləmə, sirri-dəhəni.***

Dini rəvayətlərdə ilahi təqva bütün əməllərdən üstün he-sab olunub. İnsan gərək doğru, düzgün ola, özü ilə Allah ara-sında. Yəni tək olan Allaha heç bir şeyi şərik qərar verməyə. Xəlvətə düşəndə günah etməyə, hər bir zaman və hər bir vaxt Allah yadında ola və Allaha ibadət edə, namaz qılıb, şükr eləyə. Axund Hacı Soltan ***“Nəsihətnamə”***-sində dediyi kimi:

***Təqvayla ibadət şüarın olsun,***
***Bir də saf əqidən, vüqarın olsun.***
***Bu yolda sabit ol sidqi ürəklə,***
***Yetərsən kamına sən bu diləklə.***

*Paklıqla qazanır cənnəti insan,*
*Bunu bəxş eləyib bizə Yaradan.*
*Büxl ilə həsədi ürəyindən sil,*
*Hər nəfəs ki, çəksən, gəl qədrini bil.*

İmam Hüseyn (ə) buyurub:

***“Sizə təqvalı olmağı vəsiyyət edirəm. Çünki Allah zəmanət verib ki, hər kim günahlarından qaçıb təqvalı yaşasa, onu bəyən-mədiyi vəziyyətdən çıxarıb, arzusunda olduğu şəraitə salacaq, gümanı olmayan yerdən ona ruzi yetirəcək”.***

Bu yazımı möminlər ağası Əlinin (ə) oğlu İmam Həsənə (ə) və Əhli-beyt (ə) sevənlərə buyurduğu vəsiyyətnaməsi ilə yekunlaşdırıram.

Bismillahir-rəhmanir-rəhim!

Bu Əbu Talibin oğlu Əlinin (ə) vəsiyyətidir. Əli (ə) Alla-hın yeganəliyinə və birliyinə şəhadət verir və iqrar edir ki, Muhəmməd (s) Allahın bəndəsi və Peyğəmbəridir. Onu Allah göndəribdir ki, öz dinini başqa dinlərə qalib etsin. Həqiqətən mənim namaz və ibadətim, ölüb-dirilməyim Allahındır və Allah üçündür. Onun heç bir şəriki yoxdur. Mən buna əmin olmuşam və mən Allaha təslim olanlardanam.

Oğlum Həsən, sənə, bütün övladlarıma, Əhli-beytimə və bu yazım hər kəsin əlinə çatarsa, ona aşağıdakıları tövsiyə edi-rəm:

1. İlahi təqvanı heç bir zaman yaddan çıxarmayın. Səy edin ki, ölənə qədər Allahın dinində qalasınız.

*Can qeydinə qalarmı bu aləmdə bircə an,*
*Təqva ilə edən özün, imanə mübtəla.*

2. Hamınız birlikdə – Allahın ipindən yapışın. İman və Allahşünaslıq əsasında müttəfiq olun və bir-birinizdən ayrılmayın. Peyğəmbər (s) buyurub:

***“Xalqın arasını düzəltmək daimi namaz və oruclardan üstündür. Dini məhv edən amil fəsad və ixtilafdır”.***

3. Yaxın adamları və qohumları yaddan çıxarmayın, qohumlarla əlaqə yaradın. Çünki bu iş insanın Allah yanında çəkilən haqq-hesabını asanlaşdırır.

4. Sizi and verirəm Allaha, yetimləri ac və sahibsiz qoymayın.

5. Sizi and verirəm Allaha, qonşuları unutmayın. Peyğəm-bər (s) qonşular haqqında o qədər tövsiyə etdi ki, biz güman etdik ki, onları irsdə şərik etmək istəyir.

6. Sizi and verirəm Allaha, Qurana yaxşı əməl edin. Nəbadə başqaları Qurana əməl etməkdə sizdən qabağa düş-sünlər.

7. Sizi and verirəm Allaha, namazı yüngül tutmayın, na-maz dinimizin sütunudur.

8. Sizi and verirəm Allaha, Allahın evi, Kəbənin həccini tərk etməyin. Əgər Həcc tərk olunsa, sizə möhlət verilməyə-cəkdir və başqaları sizi öz yemləri edəcəkdir.

9. Sizi and verirəm Allaha, Allah yolunda cihad edərkən öz can və malınızı əsirgəməyin.

10. Sizi and verirəm Allaha, zəkat verməyi unutmayın. Zəkat Allahın qəzəb odunu söndürür.

11. Sizi and verirəm Allaha, Peyğəmbərin (s) əshab və köməkçiləri barədə sizə tövsiyə edirəm. Rəsulallah (s) da onla-rın haqqında tövsiyə etmişdi.

# ALLAH ÖVLIYALARINA EHTIRAM

***Bismillahir-Rəhmanir-Rəhim!***

Könüllər sultanı, görkəmli din, elm və dövlət xadimi, Əhli-beyt (ə) aşiqi Ş.İ.Xətai bütün ömrü boyu Allah övliyalarına məhəbbət bəsləməyi öz müridlərinə tövsiyə etmiş, yaradıcılığı-nın ana xəttini demək olar ki, bu mövzuya həsr etmişdir:

***Şahi-Mərdanın, Əlinin, aliyəm, övladıyam,***
***Zülfüqarı, taci-Düldül uş bu nişan məndədir.***

***Açarım dini Məhəmməd, məzhəbim-Cəfər yəqin,***
***"La fəta illa Əli", bu sirri-pünhan məndədir.***

***Mən şəha bu canımı sidq ilə qurban qılmışam,***
***Gər qəbul qılsa vilayət, eydi-Qurban məndədir.***

***Çün Xətaiyəm, şahın vəsfini daim söylərəm,***
***Eşq ilə bel bağlaram, dəftərlə divan məndədir.***

(Şah kəlməsi irfan ədəbiyyatında Allah övliyalarına – Pey-ğəmbər(s) və İmamlara(ə) aiddir).

Allah övliyalarının xatirəsini əziz tutmaq və onların ***mövlud*** gününü bayram keçirmək Quran baxımından, hədislər güzgüsündən və əql sahibləri nəzərindən bəyənilən bir iş olduğunu sübuta yetirmək üçün Peyğəmbər (s) sünnəsinə tabe olaraq dörd əsas mənbəyə istinad edərək əziz oxucuların nəzərinə çatdıracağıq.

Allah-Təalanın kitabı Quran baxımından bu mərasimlərin – yəni, Peyğəmbərin (s), qızı Fatimeyi-Zəhranın (ə) və İmam-ların (ə) "***mövlud"***larını keçirmək bəyənilən və tərifə layiq bir işdir, eyni zamanda Allah-Təalaya tabe olmaqdır:

***«Sənin adını dünyada yüksəltdik»***[1]

---

[1] ***"İnşirah" surəsi ayə- 4***

Bu mübarək və şərif ayədən bizə məlum olur ki, Allah-Təala Peyğəmbərin (s) əzəmət və cəlalının bütün dünyada yayılmasını istəyir və İslam Peyğəmbəri Həzrəti Məhəmmə-di(s) Quranda tərifləyir.

Əgər biz də səmavi kitabımız olan Qurana tabe olub, əzəmətli mərasimlər təşkil etməklə, kamal və fəzilət sahibi olan Peyğəmbərimizin (s) və İmamlarımızın (ə) mövludlarını qeyd etsək, o zaman aləmlərin yaradanı Pərvərdigara tabe olmuş olarıq. Onu da qeyd etmək lazımdır ki, bu cür mərasimlərin keçirilməsi Peyğəmbər (s) və İmamlara (ə) hörmət və təzimdir. Allah-Təala bizə ***"Ənam"*** surəsində Peyğəmbərə (s) kömək etməyi və onu əzizləməyi buyurur:

***"O kəslər ki, Peyğəmbərə (s) iman gətirib onu əzizlədilər və ona kömək etdilər, göndərdiyimiz nura itaət etdilər, məhz onlar nicat tapanlardır".***

Bu ayədən də ayıdn olur ki, Peyğəmbəri (s) və onun Əhli-beytinin (ə) xatirəsini canlandıran mərasimlərin keçirilməsi Allah-Təalanın razı olduğu işlərdəndir.

***İlahi bir şüa vermiş sənə öz zatı-pakından,***
***Cahan nura boyanmış bu ziyadan, ya Rəsulallah![1]***

Quran Peyğəmbərə (s) və onun Əhli-beytinə (ə) məhəbbət bəsləməyi **"Məvəddət"** ayəsində vacib edib və buyurub: (Ey Peyğəmbər!) De: **"Mən sizdən ən yaxın adamlarıma (Əhli-Beytimə) məhəbbət bəsləməkdən başqa bir şey istəmirəm".**

***Əlvida ey ümmətim, dünyanı tapşırdım sizə,***
***Can sizin, can itrətim Quranı tapşırdım sizə.***

***Gərçi mən Peyğəmbərəm, nazil olub Quran mənə,***
***Azimi rahi-bəqayam, çün yetib fərman mənə.***

***[1] Ənvər Nəzərli***

***Müntəzirdir ədndə dərvazəban rizvan mənə,***
***Dini təkmil etmişəm, imanı tapşırdım sizə.***

***Etmişəm iyirmi üç il şamu-səhər xidmət sizə,***
***Cahiliyyətdən qurtardım, verdim əmniyyət sizə.***
***Bir əmanətdir bu gün Quran ilə itrət sizə,***
***Gülüstanımdan güli-rənanı tapşırdım sizə.***

Göründüyü kimi, həm Quran, həm hədis, həm də klassik ədəbiyyat baxımından ilahi övliyalara ehtiram və təzimlə keçirilən bayram mərasimləri insanların onlara eşq və məhəbbətlərinin cilvəsidir. Bu mərasimləri keçirməkdə müsəl-manların əsas hədəfi Peyğəmbərin (s) şənini yüksək tutmaqdan başqa bir şey deyildir. Əhli-beyt (ə) şairi M.Füzuli yazır:

***Böyüksən şöhrətin vəsf etməyə bir ölçümüz yoxdur,***
***Yetişməz rütbənə dördüncü göydə İsiyi-Məryəm.***

Qurani-Kərim İlahi Peyğəmbərlərdən (s) biri olan Həzrət İsanın (ə) dinindən belə hekayət edir:

İsa İbn Məryəm (ə) dedi:

***“Pərvərdigara, Ey bizim Rəbbimiz, bizə asimandan bir süfrə göndər ki, hamımız üçün bayram, sənin tərəfindən bir nişanə olsun; bizə ruzi ver, çünki sən ruzi verənlərin ən yaxşısısan” («Maidə», 114).***

Ayədən belə aydınlaşır ki, Həzrət İsa (ə) Allahdan istəyir ki, onlara asimani bir süfrə nazil etsin və onun nazil olma gününü bayram keçirsinlər. Əgər əziz bir ilahi Peyğəmbər asi-mani süfrə olan, insanın sadəcə cismi cəhətdən ləzzət almasına səbəb bir ruzinin nazilini bayram keçirirsə və bu işi şirk və bidət saymırsa, necə ola bilər ki, bəşər cəmiyyətinin xilaskarı Həzrət Məhəmmədin (s) mövlud gününü bayram keçirmək şirk və bidət olsun.

***Təalallah, gəl gör kim, yenə nuri-Xuda gəldi,***
***Cəmii ənbiya, xətmi-Məhəmməd-Mustəfa gəldi.***

***Sevindi cani-aşiqlər, açıldı bəxti sadiqlər,***
***Oyandı ruhi-möminlər, səfa gəldi, səfa gəldi.***

***Zəminlərdə, zamanlarda salahül-xeyr məqdəmdir,***
***Fələklərdən, mələklərdən hezaran mərhaba gəldi.***

***İrişdi mürşüdü-kamil, qamu əhli-iman oldu,***
***Sevindi ğazilər cümlə ki, xətmi-ənbiya gəldi.***

***Həqə məzhərdürür Adəm, sücud et, uyma iblisə,***
***Ki, Adəm donuna girmiş Xuda gəldi, Xuda gəldi.***

***Firiştə endi göylərdən, bəşarət əhli-ürfana,***
***Xəvaricə əcəl yetdi, yezidlərə bəla gəldi.***

***Zəlalət içrə zülmətdə itirmişdin çırağını,***
***Gözün ac, çıx bu zülmətdən ki, bir bədri düca gəldi.***

***Əzazil adlı şeytanın, yetər, təqlidinə uyma,***
***Əlin tut, həq yolun göstər, imami-rahnüma gəldi.***

***Cahanı sehr ilə Firon özünə tabe etmişdi,***
***Onları udmağa Musa əsası əjdaha gəldi.***

***İmami-Heydər oğluna dili candan riza ver gəl,***
***İmamım Cəfəri Sadiq, Əli, Musa, Riza gəldi.***

***Xətai xəstə ol şahın cəmalın vəslini istər,***
***Rəvan ver, can satun algil ki, elmi-can bəha gəldi.***

Bu şeirdən də aydın olur ki, İslam dinin ardıcılları qədim dövrlərdən Peyğəmbərin (s) və Əhli-İtrətin (ə) əziz xatirələrini

bayram mərasimləri keçirtməklə bu günümüzə qədər diri saxlamışlar.

Hüseyn İbn Məhəmməd Diyar Bəkri ***«Tarixül-xəmis»*** adlı kitabında yazır:

***"Dünya müsəlmanları tarix boyu Peyğəmbəri Əkrə-min(s) doğum ayında bayram keçirir, bu ayın gecələrində ehsan və sədəqə verir, şadlıq keçirir, müxtəlif savab əməllər edir, onun təvəllüdü münasibəti ilə şeir oxuyurlar. Bu işlərlə onun hərtərəfli rəhmət və bərəkəti hamıya aşkar olur".***

Qurani-Kərim hədislər və ədəbiyyat baxımından ilahi övliyaların əziz xatirələrini yad etmək üçün keçirilən mərasim-lər təqdirəlayiq bir işdir və heç bir günahı yoxdur. Deməli, Allah dərgahında əziz olan şəxsiyyətlərin təvəllüdlərini bayram keçirməyi şirk və bidət hesab edənlərin sözləri tam əsassızdır.

Əhli-beytə (ə) sonsuz məhəbbət bəsləyən S.Ə.Şirvani dünyanın yaranışını Həzrət Məhəmmədin (s) və Əhli-itrətin (ə) adına bağlayaraq **«Qərəz»** rədifli qəzəlində deyir:

***Bir vücudi-kamilin olmuş tüfeyli-kainat,***
***Xəlqi-aləmdən nə Musəvi, nə İsadır qərəz.***

Bu beytdə ***"Vücudi-kamil"*** Həzrət Məhəmmədə (s) işarə-dir. Hədisi-qüdsidə deyilir:

***"Əgər sən olmasaydın, kainatı yaratmazdım".***

Bu beytin geniş mənasını Əhli-beyt (ə) şairi M.Füzuli Peyğəmbərə (ə) həsr etdiyi bir ***"nət"***də vermişdir. Seyyid isə qəzəli-ni bu beytlə bitirir.

***Pənc-tənlər adını zikr et ki, Seyyid, bilmişəm,***
***Adəmə təlimi-əsmadan bu mənadır, qərəz.***

Beytdə adları çəkilən ***"Pənc-Tənlər»,*** yəni ***«Əba altında beş kimsə»*** Həzrət Məhəmməd (s), Həzrət Əli (ə), Həzrəti Fatime-yi-Zəhra (ə), İmam Həsən (ə) və İmam Hüseyndir (ə).

Bu misra ***"Bəqərə"*** surəsinin 38-ci ayəsinə işarədir. Ayədə buyurulur: ***"Adəm öz Allahından (bəzi, xüsusi) kəlmələr öyrən-***

***di ki, onun tövbəsinin qəbuluna səbəb oldu. Həqiqətən Allah töv-bə qəbul edən və mehribandır".***

İbn Abbas deyir:

"Bir gün Peyğəmbərdən (s) soruşdum: Adəmin Allahdan öyrəndiyi və tövbə etməsinə səbəb olan sözlər hansılardır?"

Peyğəmbər (s) buyurdu:

"Adəm (ə) – Allahı Məhəmmədə (s), Əliyə (ə), Fatimə-yə(ə), Həsənə (ə) və Hüseynə (ə) and verdi, Allah-Təala da onun tövbəsini qəbul etdi".

Aşıq Əhməd Rüstəmov bir ***"Divani"***sində deyir:

***Beş kimsənənin üzünə qərar tapıb durub dünya,***
***Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyni-Kərbəla.***
***Əhməd deyər: "Barii-Xuda, pənci-təni-ali-əba"***
***Yet ümmətin harayına ruzi-qiyamət, ya Əli!***

Bu mövzunu ustad Məhəmməd Füzulinin yazdığı bir nətlə yekunlaşdırırıq.

***Ey vücudun əsəri xilqəti-əşya səbəbi,***
***Nəbi ol vəqti ki, bil, fel gərəkməzdi Nəbi.***

Bu beyt hədisi-qüdsə əsaslanır. Rəvayətə görə, Allah-Təala bütün mövcudatdan qabaq Həzrəti Məhəmmədin (s) pak ruhunu yaradaraq, ona xitabən buyurdu:

***"Ya Məhəmməd, əgər sən olmasaydın, fələkləri yaratmaz-dım. Əgər Əli olmasaydı, səni yaratmazdım. Əgər Fatimə olma-saydı, sizin heç birinizi yaratmazdım".***

Hədisdən aydın olur ki, kainatın xilqəti peyğəmbərə (s) xatirdir.

Canlı və cansız aləmin vücuda gəlməsi, minlərlə Peyğəmbərlərin (ə) göndərilməsi Rəsuli-Əkrəmin (ə) Peyğəmbərliyi üçün şərait yaratmaqdan ötrüdür.

Şair ilk beytdə deyir ki, dünyada hələ heç bir ruh və cism olmadığı vaxt Allah-Təala Məhəmmədin (ə) pak ruhunu yaradıb,

onu Peyğəmbər etdi. Yəni, Peyğəmbər (s) sonralar onun nurundan yaradılacaq bəşəriyyətə ***"Rəsul"*** elan olundu. Beytin ikinci misrasında ustad şair buna toxunaraq yazır ki, ***"Nəbi gərəkməyən bir vaxt Nəbi"*** elan olundu.

Bu məqalədə çalışdıq ki, deyək ***"Allah övliyalarına ehtiram göstərmək vacibdir."***

# HƏZRƏT PEYĞƏMBƏRİN (S) ƏMİSİ VƏ HƏZRƏT ƏLİNİN (Ə) ATASI HƏZRƏT ƏBUTALİBİN (Ə) İMANI

***"Məsləkin, vicdanın olarsa təmiz,***
***El, hamı saxlayar xətrini əziz."***

***Ə.Vahid***

***Bismillahir-Rəhmanir-Rəhim!***

Həzrət İmam Rza (ə) buyurur:

***"Kimin Əbu Talibin (ə) kafir kimi dünyadan köçməsinə etiqadı olsa, kafirdir".***

Həzrət Əbu Talibin (ə) əsl adı İmrandır. Atası Əbdül Mütəllib, anası Fatimə binti Əmr İbn Aizdir. Həzrət Əbu Talib (ə) Peyğəmbərin (s) atası Abdullah və Zübeyrlə doğma qardaş idi. Əbdül Mütəllibin digər övladları isə başqa qadın-lardan dünyaya gəlmişlər.

Tarix Həzrət Əbu Talibin (ə) fədakarlıqlarını qeydə almış-dı. Məşhur tarixçi İbn Əbil Hədid Əbu Talibin(ə) göstərdiyi fədakarlıqlar haqqında belə yazır:

Bir nəfər Əbu Talibin (ə) imanı barədə bir kitab yazıb mənim yanıma gətirdi və məndən onun haqqında bir şey yazma-ğımı istədi. Mən onun kitabının arxasında bu iki misranı yaz-dım: ***"Əgər Əbu Talib və oğlu Əli olmasaydı, İslam dinini qoru-yub saxlamaq mümkün olmazdı. Ata (Əbu Talib) Məkkədə Peyğəmbəri (s) himayə edirdi və oğlu (Əli) Yəsribdə ölüm burulğanına düşürdü".***

Əbu Talibin (ə) imanı məsələsinin tarix kitablarında qeyd olunmasına siyasi bir məsələ kimi baxılır, bəzi yersiz təəssüb-keşlər onun imanını inkar etməklə Həzrət Əlinin (ə) fəzilətləri-ni inkar etmək istəyir. Əgər Əbu Talib Əlinin (ə) atası olma-saydı, onun imanını sübut etmək üçün mövcud dəlillərin heç onda biridə lazım deyildi.

## ƏBU TALİBİN (Ə) İMANLI OLMAĞININ SƏBƏBLƏRİ

Hər hansı bir şəxsin imanını bu qeyd olunan üç yoldan bi-ri ilə sübut etmək olar:

1.Ondan yadigar qalan elmi əsərləri araşdırmaqla;

2.Onun cəmiyyətdəki rəftarını araşdırmaqla;

3. Onun haqqında dostlarının nəzərini araşdırmaqla.

Biz də Əbu Talibin (ə) imanını qeyd olunan hər üç yolla araşdıraq.

## ŞEIRLƏR DIVANI

Əgər Əbu Talibdən yadigar qalan və divan şəklində çap olan elmi əsərləri araşdırsanız qoşduqları şeirlərin onun kamil imanına dair mühüm sübut olduğunu görərsiniz. Əbu Talibin Peyğəmbərə (s) yazdığı şeirlərdən birinin tərcüməsinə diqqət edək:

***“Həqiqətən mən bildim ki, Məhəmmədin (s) dini dünyada olan dinlərin ən yaxşısıdır”.***

# ƏBU TALIBIN PEYĞƏMBƏRI QORUMAQDA GÖSTƏRDIYI XIDMƏTLƏRI

Əgər biz Əbu Talibin Peyğəmbəri (s) qorumaqda göstər-diyi fədakarlıqları və onun məqsədlərni araşdırsaq, bu xidmət-ləri

onun imanının sübutu olduğunu görərik. Əbu Talibin Peyğəmbərə (s) məhəbbəti səbəb oldu ki, yaşlı olmasına bax-mayaraq 3 il bir dərədə qalmış və bu işi Məkkənin rəisliyindən üstün bilmişdir. Hətta o, Peyğəmbəri (s) müdafiə etdiyinə görə Məkkənin şeyxliyindən belə uzaqlaşdırılmışdır.

Həzrət Əli (ə) buyurub:

*“Mənim atam şeyx idi, eyni zamanda fəqir idi”.*

# QOHUMLARI VƏ DOSTLARININ ƏBU TALIBIN (Ə) IMANINA MÜNASIBƏTI

Əbu Talibin (ə) ölüm xəbəri Peyğəmbərə (s) çatanda o Həzrət(s) ağladı və Əliyə (ə) əmr etdi ki, ona qüsl verib kəfənə büksün və dəfn etsin. Özü isə Allahdan onun bağışlanmasını istədi.

Bir nöqtəni də qeyd etmək lazımdı ki, Peyğəmbərlə (s) Xədicənin(s.ə) kəbinini Əbu Talib(ə) oxuyub.

İmam Səccadın (ə) hüzurunda Əbu Talibdən (ə) söz düş-dü. İmam (ə) buyurdu:

***“Təccüb edirəm, nə üçün camaat onun ixlasında şəkk edir. Heç bir müsəlman qadın kafir ərinin əqdində qala bilməz. Hal-buki, Fatimə binti Əsəd(s.ə) Peyğəmbərə (s) iman gətirən ilk qadı-lardandır və Əbu Talibin(ə) həyatının son anlarına kimi onun əqdində idi və ondan ayrılmadı”.***

İmam Baqir (ə) buyurur:

***“Əbu Talibin (ə) imanı camaatın çoxunun imanından üs-tündür. Əmirəlmöminin Əli (ə) bəzilərinə əmr etdi ki, atasının tərəfindən həcci yerinə yetirsinlər”.***

İmam Sadiq (ə) buyurub:

***“Onun imanı Əshabi-Kəhfin imanı kimidir ki, ürəyində imanlı idi, amma təzahür etməzdi”.***

Əllamə Məclisi deyir:

***“Şiələrin nəzərincə Həzrəti Əbu Talib (ə) heç vaxt bütə sitayiş etməyib. O, Peyğəmbərə (s) iman gətirənlərdəndir. Əbu***

***Talib Həzrət İbrahimin (ə) vəsilələrindən biridir. Onun imanlı şəxs olmağı şiələr arasında məşhurdur. Alimlər bu böyük şəxsiy-yətin imanı barədə kitablar yazıblar”.***

Şeyx Səduq yazır:

***“Bir hədisdə buyurulur ki, cənab Əbdül Mütəllib(ə) ilahi hüccət, cənab Əbu Talib (ə) isə onun vəsisi olub”.***

***“Vədayişü-ənbiya”*** kitabının rəvayətinə əsasən, Həzrət Musanın (ə) əsası, Həzrət Süleymanın (ə) üzüyü və sair əma-nətləri Əbdül Mütəllibin vasitəsilə Əbu Talibə (ə) verildi, o da onları Peyğəmbərlərin sonuncusu Həzrət Məhəmmədə (s) verdi.

İbn Əsmir Şafei deyir:

***“Əhli-beyt(ə) Əbu Talibin(ə) imanı barədə yekdil fikirdə olublar və Əhli-beytin (ə) bu sözü hüccətdir”.***

Əsbət İbn Nəbatə deyir: Əli (ə) buyurur:

***“Allaha and olsun ki, babalarım Əbdül Mütəllib, Haşim və Əbdül-Manaf(ə) bütə ibadət etməyiblər”.***

Dedilər: ***“Bəs nəyə ibadət edirdilər?”***

Buyurdu: ***“Onlar Kəbəyə tərəf namaz qılırdılar və İbrahi-min(ə) dininə bağlı idilər”.***

Həzrət Əlinin (ə) Əbu Talib barədə beytlərindən məlum olur ki, onun məqamı Həmzədən daha üstündür.

İbn Əbil Hədid yazır: «Əgər Əbu Talib(ə) və oğlu olma-saydı, dindən heç bir əsər-əlamət olmaz və belə möhkəmlən-məzdi. Əbu Talib(ə) Məkkədə Peyğəmbəri (s) qoruyurdu, oğlu isə Peyğəmbəri (s) Mədinədə fasiləsiz qoruyur və müdafiə edir-di».

Bütün bu deyilən fikirlərdən belə aydın olur ki, Əbu Ta-lib(ə) imanlı bir şəxs olub və bu dünyadan köçərkən möminlər kimi dəfn olunub.

Həzrət Əbu Talib (ə) barədə ilk kitab hicrətin 630-cu ilin-də qələmə alınıb. O zamandan indiyə qədər müxtəlif dillərdə onun imanı, böyüklüyü barədə kitablar yazılaraq çap edilib ki, bu da tədqiqatçılara aydındır.

Həzrət Əbu Talib(ə) besətin 10-cu ili, hicrətdən üç il qabaq dünyadan köçdü. Məşhur rəvayətə əsasən, o, 81 yaşında vəfat edib.

Peyğəmbər (s) əmisinin cənazəsini görəndə buyurdu: «Ey əmi! Mərhəmət etdin və mehribanlıq göstərdin, nəticədə xeyirli mükafat aldın. Uşaqlıqdan mənə arxa oldun, böyüdükdə isə kömək və himayə etdin».

Sonra üzünü insanlara çevirib buyurdu: ***«Allaha and olsun ki, Qiyamət günü əmimə olunan şəfaətə hamı təəccüb edəcək».***[1]

Əbu Talibin(ə) vəfat etməsiylə əlaqədar Həzrət Cəbrail(ə) nazil olub Peyğəmbərə (s) buyurdu:

***«Sənin arxan və köməyin bu dünyadan köçdü, hicrət et»***

Həzrəti Əbu Talibin(ə) qəbri Həcundadır (Məkkədə bir yer adı).

Peyğəmbər (s) əmisinin vəfat etdiyi ili ***«Amul-hüzn»*** (Hüzn ili) adlandırdı.

Yazımı gözəl elm xadimi, Əhli-beyt (ə) şairi Axund Hacı Soltanın Həzrət Əbu Talib (ə) haqqında yazdığı şeirlə yekunlaşdırıram:

***Odur Peyğəmbəri edən himayət,***
***Tükənməz vəfası Əbu Talibin.***
***Muhəmməd yetincə gənclik yaşına,***
***Çox olub cəfası Əbu Talibin.***

***Düşmənə laf üçün verməzdi məcal,***
***Sözü qılınc təki kəsərdi dərhal.***
***Kafirlər qorxudan olurdular lal,***
***Gələndə sədası Əbu Talibin.***

***Oldu Peyğəmbərçün sinəsi səngər,***
***Kim ona kəc baxdı, oldu mükəddər.***
***Bir Muhəmməd idi, bir də ki, Heydər,***
***Ruhani qidası Əbu Talibin.***

---

[1] ***"Biharül-Ənvar", cild.19, səh.69.***

***Peyğəmbər vəsfinə şeirlə dindi,***
***Əmi tək qiyməti, qədri bilindi.***
***İslamın əmisi sayılan indi,***
***Budur iqtidarı Əbu Talibin.***

***Hörmətin vacibdir saxlasın aləm,***
***Adını hər mömin desin mükərrəm,***
***Soltan pişvazına çıxardı o dəm,***
***Olsaydı rizası Əbu Talibin.***

# II BÖLÜM

**Salavati-şərifə, şəfadır. Hər dəfə boş vaxtlarımızda, bir yerə gedib-gələrkən bacardığımız qədər salavati-şərifə gətirək. Dilimiz daima salavatlarla islansın. Çünki salavati-şərifə Peyğəmbərimizi(s) xatırladar, həyatımıza nizam verməmizə köməkçi olar.Necə ki, qılınc və məntiq meydanının yeganə müzəffəri Şah İsmail Xətai "Nəsihətnamə" –sində buyurur:**

**Cəmali-Müstafaya ver salavat,**
**Olasan cümlədən sağu,səlamət.**
**Məhəmməd ümməti qalmaz damuda,**
**Salavat ver, canın yanmasın oda.**

# BIRINCI MƏSUM[1]

# İSLAM PEYĞƏMBƏRİ HƏZRƏTİ MƏHƏMMƏD (S) TANRININ NURUDUR.

***Dedi: "Məşuqum o yox, sənsən indi yəqin bil,***
***Qəflətdə olmuşam mən, sanki əvvəl neçə il,***
***Sən mənə Mustafasan, mən ollam, ollam Əli,***
***Sənə xidmətdə ollam, bağlaram hər vaxt beli."***

***M. C. Rumi "Mənəviye-Məsnəvi"***

***Bismillahir-rəhmanir-rəhim!***

***Ya Nəbi! Sən eylə vüsalə çarə,***
***Yetim sevgilimə mən üzü qarə.***

Həzrəti Muhəmməd (s) Hicri-qəməri təqvimi ilə 571-ci il Rəbiələvvəl ayının 17-də cümə günü Məkkə şəhərində dünyaya gəlib. Atası Abdullah, anası Aminə.

Mövzumuz Həzrəti Peyğəmbərin (s) Besətə çatması barə-də olduğuna görə Peyğəmbərin (s) anadan olması barədə, bun-dan artıq məlumat vermirik. Peyğəmbərin (s) Besətə çatması ilə əlaqədar Peyğəmbərin (s) əziz və girami qızı Xanım Fatime-yi-Zəhranın (ə) buyurduğu hədislə məqaləmizi siz oxuculara çatdırırıq.

***[1] İmam Zeynul-Abidindən(ə) "məsum" sözünün mənası barədə soruşduqda buyurdu. "Məsum – Allah ipindən yapışan şəxsdir.Allahın ipidə Qurandı ki, bu ikisi (Quran və məsum) qiyamətə kimi bir-birindən ayrılmazlar. Quran imama, İmam da Qurana doğru hidayət edir. Məhs bu mənanı Allah Təala Qurani-Kərimin "İsra" surəsinin 9-cu ayəsində buyurur. "Həqiqətən bu Quran ən möhkəm yola hidayət edir" ("Biharul-Ənvar" 25-ci cild, səh.194***

Həzrəti Fatimeyi Zəhra (s.ə.) buyurub:

***«Təsdiq edirəm ki, atam Məhəmməd (s) Allahın bəndəsi və Peyğəmbəridir. Onu Peyğəmbərliyə göndərməzdən əvvəl seçmişdi. Hətta yaratmazdan əvvəl, o zaman ki, bütün xalqlar qorxunc və vəhşətli evlərin gizli pərdələri altında özlərini gizlətmiş və yoxluq ərəfəsində yaşayırdılar, ona ad qoymuşdur. Çünki Allah bütün işlərin cərəyan və sərəncamına və zamanın bütün hadisələrinə agahdır. Allah Məhəmmədi (s) öz əmrinin kamilləşməsinə görə Peyğəmbərliyə çatdırdı ki, onun əmrini yerinə yetirsin və qəti olan müqəddəratını əməli olaraq həyata keçirsin».***

Əhli-Beyt (ə) aşiqi olan və onlara sidqi ilə xidmət edən könüllər sultanı, cənnətməkan Ş.İ.Xətai ***«Ya Nəbi»*** qəzəlin də is-lam Peyğəmbərini (s) belə mədh edir:

***Şol mübarək zatına işim sənadır, Ya Nəbi,***
***Asilik bimarına adın şəfadır, Ya Nəbi.***

***Ayağın torpağının qədrin nə bilsin hər kişi,***
***«Kün-fəkun» ol torpağa kəmtər bahadır, Ya Nəbi.***

***Çün sənin xoşluğuna yaratdı, Sane-Aləmi,***
***Ayağın torpağına canım fədadır, Ya Nəbi.***

***Bu Xətai xəstəyə qılgil şəfaət ruzi-həşr,***
***Çünki əslindən səninlə aşinadır, Ya Nəbi!***

610- cı il Rəcəb ayının 27-ci günü Peyğəmbər (s) həmişə olduğu kimi ***«Hera»*** mağarasında idi.

Cəbrayıl (ə) Qurani-Kərimin ilk ayələrini ***“Ələq”*** surəsi 1-5)Peyğəmbərə (s) gətirdi.Besətə yetişən zaman Peyğəmbərin (s) 40 yaşı var idi.

Peyğəmbər (s) nazil olan ilk ayələri deməyə çəkinirdi. Cəbrayıl (ə) bu ayələri təkrarlamağa onu məcbur etdi. Bədə-nində üşütmə hiss edən Peyğəmbər (s) ***mağaranı*** tərk edib evə,

Xədicənin (ə) yanına gəldi. O dağdan enərkən bir nida onun qulağına yetişdi:

***«Mən mələk Cəbrayılam, sən isə Allahın Rəsulusan».***

***Alator kahasında qoca Hera dağında,***
***Heyrətlə dinləyirdi asimanı Məhəmməd.***

***Cəbrayılın diliylə göydən ayə gəlirdi,***
***Təzədən tanıyırdı bu cahanı Məhəmməd.***

***Ucadan dedi mələk: «Allahın Rəsulusan,***
***Həkk eylə yaddaşına sən Quranı, Məhəmməd!»***

***Xaliqin kəlamını yandır çilçıraq kimi,***
***Çağır, imana gətir hər insanı, Məhəmməd!***

***Sən bütün zamanların, məkanların oğlusan,***
***Nə zamanı hüdud bil, nə məkanı, Məhəmməd!***

***Mələk qalxdı göylərə nurlu qanadlarıyla,***
***Sanki görmüş kimiydi Yaradanı Məhəmməd!***

***Endi Hera dağından səmadan enmiş kimi,***
***Səma rəngində gördü boz səhranı Məhəmməd.***

***Çilənməsin qan gərək haqqın iman yoluna,***
***Necə kəssin dünyadan nahaq qanı Məhəmməd.***[1]

Peyğəmbər (s) evə yetişəndə Xədicə (ə) ondan nə baş verdiyini soruşdu. Peyğəmbər (s) olmuş hadisəni danışdı. Xədicə (ə) ona ehtiramla baxdı və dedi:

***«Allah sənə kömək edəcəkdir*»**.

---

[1] ***Hüseyn Kürdoğlu (Laçınlı)***

Özündə yorğunluq hiss edən Peyğəmbər (s) yatmaq istədi. Xədicəyə(ə) buyurdu ki: ***“Mənim üstümü ört, üşüyürəm”.*** Peyğəmbər (s) yuxuya daldı. Xədicə (ə) Vəraqat ibn Nofəlin yanına getdi. (Vəraqat ibn Nofəl Xədicənin (ə) əmisi oğlu, ərəblərin ən bilikli alimi idi). Xədicə (ə) Peyğəmbərdən (s) eşitdiyi sözləri olduğu kimi ona söylədi. Vəraqat ibn Nofəl de-di ki, Məhəmməd (s) düz danışandır və ona Peyğəmbərlik verilibdir.

Peyğəmbərin (s) şəriətinə ilk iman gətirənlər qadınlardan Xədicə (ə), kişilərdən Əli (ə) idi.

Həzrət Əli (ə**)** ***“Nəchül-Bəlağə”*** də ***“Qasiyə”*** xütbəsində buyurur ki: « İslamın qədəm basdığı ilk ailənin 3-cü şəxsi Mən idim».

İslamı ilk qəbul edənlərdən olan Xədicənin (ə) imanını Peyğəmbər (s) yüksək qiymətləndirir və onun yoxluğundan kədərlənirdi. Ravi deyir:

«***Bir gün Aişə Məhəmməd (s) evi tərk edərkən ona dedi ki, Allah Xədicədəndə yaxşısını sənə qismət edib. Peyğəmbər (s) bu sözdən çox narahat oldu və buyurdu ki, heç vaxt Allah Xədicədən (ə) yaxşısını mənə verməyibdir. Xədicə(ə) o zaman mənə iman gətirmişdi ki, hamı məni inkar edirdi».***

Zaman və məkan baxımından şərait olmadığına görə Həzrəti Məhəmməd (s) üç ilə qədər xalqı Tovhidə gizli şəkildə dəvət etdi.

Peyğəmbərin (s) üç il apardığı təbliğat ümumi yox, fərdi xarakter daşıyırdı. Qüreyşdən bir ziyan görməyən Peyğəmbər (s) onların itaət etdiyi bütlərə də toxunmurdu. ***Miladi 614***-cü ilə qədər Ərqəmin evini ibadət və təbliğat yeri elan etmişdi.

O zamandan ki, İslam Peyğəmbərinin (ə) ümumi dəvəti başladı Qüreyşin də düşmənçiliyi açıq şəkildə üzə çıxdı. Peyğəmbər (s) ilk ümumi dəvətə öz qohum-əqrabasının içərisində başladı. Bu barədə ***«Şüəra»*** surəsi 214-cü ayə nazil oldu: ***«Sən qohum-əqrabanı öz dininə dəvət et».***

Peyğəmbər (s) Həzrət Əliyə (ə) göstəriş verdi ki, təam hazırlansın və Qüreyşin başçılarından 45 nəfəri ora çağırdı. Peyğəmbər (s) onları vəhydən agah etmək istəyirdi. Əbu Ləhəb

(Peyğəmbərin əmisi) məclisin gedişini pozdu və bu gizli dəvəti bəyan etməyi ikinci ziyafətdə məsləhət bildi. Həmin ziyafətə toplaşanlar yemək yedikdən sonra Peyğəmbər (s) qonaqlara belə müraciət etdi:

***«Mən Allahın birliyinə şəhadət verirəm və sizə deyirəm ki, mən onun tərəfindən bütün insanlara elçiyəm. Siz öləndən sonra yenidən dirilib etdiyiniz əməllərin nəticəsini görəcəksiniz. Sizin üçün mən dünyanın xoşbəxtliyini gətirmişəm. Kim məni müda-fiə etsə, o mənim qardaşım və nümayəndəmdir».***

***Bir zaman sarvan olub, dəvə karvanı çəkdi,***
***Indi gövhərlə yüklər o karvanı Məhəmməd.***

***Qardaşlığa çağırdı bütün əhli-dünyanı,***
***Aləmə ayna tutdu pak vicdanı Məhəmməd.***

***İnsanın xislətindən çıxsa tamah şeytanı,***
***Yeddi göyə ucaldar nərdivanı Məhəmməd.***

Bu sükutu pozan Həzrət Əli (ə) buyurdu ki:

***«Ya Rəsulallah(s), mən sənin tərəfindəyəm və sənin müda-fiəndə həmişə hazıram».***

Peyğəmbər (s) ona oturmağı təklif etdi. Üç dəfə Pey-ğəmbər (s) bu təklifi bəyan etdi. Hər üç dəfə ancaq Əli (ə) Pey-ğəmbərin (s) təklifini qəbul etdi. Peyğəmbər (s) öz qohum-əq-rabasına müraciət edib dedi:

***«Bu cavan Əli (ə) mənim qardaşım və canişinimdir, ona hə-mişə tabe olun. Əli haqq ilədir, haqq da Əli ilədir».***

***Sevdi Şahi-Mərdanı əziz bir qardaş kimi,***
***Kainatın günəşi, şəraf-şanı Məhəmməd.***

***Ağzı haça qılıncın sahibinə güvəndi,***
***Sevdi o yenilməyən qəhrəmanı Məhəmməd!***

Həzrət Fatimə (s.ə.) buyurur:

***“Atam Həzrəti Məhəmməd (s) insanların hidayəti üçün qiyam etdi, onları azğınlıqdan qurtardı, korluqdan çıxarıb bəsirət verdi və onları sağlam bir dinə hidayət etdi. Onlara doğru yol göstərdi”.***

İman daxili bir qüvvə olub, insan üçün enerji mənbəyidir. Bütün çətinlikləri də insan üçün asan edir. İnsan öz məqsədin-də ardıcıl və möhkəm olsa, daim müvəffəqiyyət qazanar.

Quran-Kərim bu sözü ***“Fusillət”*** surəsinin 30-cu ayəsində sübut edir:

***«O kəslər ki, Allaha iman gətiriblər və bu yolda səbirli və dözümlü olublar, həqiqətən onlar öz istədiklərinə nail olublar».***

Bəni Haşim qəbiləsinin başçısı Əbu Talibin yanına Qurey-şin başçıları gəlib İslam Peyğəmbərindən (ə) şikayət etdilər, dedilər ki, sənin qardaşoğlun bizim bütləri pisləyir və bizim əqidəmizi bəyənmir. Onu başa sal ki, ya bizdən əl çəksin, ya da sən onu himayə etmə.

İslam Peyğəmbərinin (ə) cazibədar çıxışları, Quranın fəsahəti getdikcə islamın rövnəq tapmasına səbəb olurdu.

***Quran ayələrin Allah göndərdi,***
***Bu yolda qeyrətlə durdu Məhəmməd.***
***Diliylə söylədi incilər, dürlər,***
***Əliylə min naxış vurdu Məhəmməd!***

Qureyş qəbiləsi 2-ci dəfə Əbu Talibin(ə) yanına gəldilər və dedilər ki, ***«Sən Məkkənin böyüyüsən və bizdən şərafətlisən. Niyə bu xətərə etinasızsan? Bizim səbrimiz daha yoxdur»***

. Əbu Talib onlara dedi ki, sizin sözlərinizi qardaşoğluma çatdıracağam. Əbu Talib(ə) Peyğəmbəri (s) vəziyyətdən xəbər-dar edəndə o belə cavab verdi:

***«Əgər günəşi sağ əlimə, ayı da sol əlimə versələr, yəni bütün kainatı mənə bağışlasalar, mən öz məqsədimdən dönən deyiləm».***

***O dağlar başında ləkəsiz qardı,***
***Abırdı, həyadı, ismətdi, ardı.***
***Görən bu dünyanın işi nolardı,***
***Deyirəm, nə yaxşı vardı Məhəmməd!***

Peyğəmbərin (s) bu cavabı Əbu Talibə bərk təsir etdi. Dedi: ***«And olsun Allaha ki, səndən öz himayəmi əsirgəməyəcə-yəm».*** Qureyş tayfası başa düşmüşdü ki, Əbu Talib İslamı rəs-mən qəbul etməsə də, daxilən Peyğəmbərə imanı var idi.

***Qatdı qanımıza qeyrət-arını,***
***Başına tac bildi düz ilqarını.***
***Səmada Allahın qurduqlarını,***
***Torpaqda təzədən qurdu Məhəmməd!***

Qureyş tayfası bu fikrə düşdü ki, Peyğəmbərin (s) özüylə danışıb ona pul, vəzifə, gözəl qadın təklif edib öz yolundan döndərsinlər. İslam Peyğəmbəri (ə) ilə danışıqlardan da Qureyş heç bir şeyə nail ola bilmədi.

***Duydu yaşamağın mənasın dərin,***
***Binasın o qoydu xeyirnən-şərin.***
***Allaha, İmama şəkk edənlərin,***
***Ümidin biryoluq qırdı Məhəmməd!***

İslam Peyğəmbəri (s) onlara dedi ki: «Mən sizdən bir şey istəyirəm, onu qəbul edin və bütün ərəb ölkəsinə hökmdarlıq edin. O da budur ki, Allahın vəhdaniyyətini qəbul edəsiniz». Qureyş tayfası Peyğəmbərin (s) bu sözünə belə cavab verdi:
***«Biz 360 bütü tək Allaha dəyişə bilmərik».***

***Ay Kərəm, o haqqın düşdü izinə,***
***Əyri gedənləri çəkdi düzünə.***
***Vallah, insan deyil, bu yer üzünə,***
***Tanrının saldığı nurdu Məhəmməd!***

Peyğəmbər (s) bütün çətinliklərə baxmayaraq, İslam dini-ni bütün dünyaya bəyan etdi. 1400 ildi İslam dini yaranıb və bəşər bu dindən faydalanıb.

Xristian alimi Maykl Hart ***«Dünyanı dəyişdirmiş 100 nə-fər»*** kitabında Həzrət Məhəmmədi (s) 100 nüfuzlu şəxsin sırasında 1-ci yerdə elan etmişdir. Bu müsəlmanlar üçün böyük iftixardır.

# İSLAM PEYĞƏMBƏRİNİN ZÜHURUNA MÜXTƏLİF DİNLƏRDƏ OLAN MÜJDƏLƏR

***Dərdinə dərman gərəksə, hər nəfəs Quran oxu,***
***Zəxminə məlhəm gərəksə  ləğvi kəs, Quran oxu!***

***La ədri***

***Bismillahir-Rəhmanir-Rəhim***

Səmavi kitabımız olan Qurani-Kərimdə Peyğəmbərimizin 5 dəfə adı çəkilib. Məhəmməd (s) adı (bəyənilmişl deməkdir) 4 yerdə -***"Ali-İmran" surəsi 114, "Əhzab" surəsi 40, "Məhəm-məd"(s) surəsi 2*** və "***Fəth" surəsi 29-cu ayələr, Əhməd (s)*** adı isə ***"Saff" surəsinin 6-cı ayəsində*** zikr olunmuşdur.

***"Səff" surəsi*** 6-cı ayədə Allah-Təala Məryəm oğlu İsa-nın(ə) dilindən xalqa müjdə olaraq belə buyurur:

***Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: "Ey İsrail övladları! Həqiqətən mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə müjdə verən Allahın elçisiyəm. Sonra onlara açıq-aşkar möcüzələr gətirdikdə onlar: Bu açıq-aydın sehrdir-de-dilər".***

Şair Şüaidə bir qəzəlində deyib:

***O Əhəddir, sən də Əhməd götürülsə "Mim" adından***
***Aradan hicab açılsa bir adın Xuda deyilmi?***

***“Təfsiri nümunə”***nin sahibi ***“Ənisül-əlam”*** kitabından nəql edilərək yazır. ***“Cənab Fəxrül”-***İslam müsəlman olmazdan əv-vəl xristian dinində ən böyük keşişlərdən birinin tələbəsi və xidmətçisi olmuşdur. Bir gün ustadan xəstə olmasına görə tələbələrə dərs deməyə o gedir. Orada tələbələrin ***“Farqalita”***adı üzərində mübahisə etdiyini görür. Evə qayıtdıqda mövzunu ustadına izah edərkən keşiş ağlayıb deyir. Bu kəlmə Yunan dilin-də Perklatus deyilən Siryani sözüdür. Keşiş ah çəkdi və dedi:

***“Bunu yalnız Alimlikdə sabit qədəm və möhkəm olanlar bilir.”***

Mən çox israr etdim ki, onun mənasını mənə açıqlasın və bunu sirr kimi saxlayacağıma and içdim. Keşiş dedi:

***“Bilsələr məni öldürərlər.”***

Söz verdim ki, adın gizli qalacaq. Otaqlardan birinin aça-rını verdi. Mən o otağın aşarını heç vaxt görməmişdim. İki ki-tab adı çəkdi. Biri yunan, digəri Siryani dilində yazılmışdı.

Hər iki kitabda Farqalita kəlməsi ***“Əhməd və Məhəm-məd”*** mənalanmışdı. O dedi:

***“İstisnasız xristian Alimləri İslam peyğəmbərinin (s) Besətindən (Besət peyğəmbərlik məqamına çatması) öncə bu kəlməni belə mənalandırıblar ki, o Həzrətin (s) zühurunu gözləyirdilər, lakin zühurdan sonra öz rəisliklərindən əl çəkə bilməyiblər. Mən də onlar kimi”.***

Fəxrül-İslam sözünə davam verərək yazır:

Dedim: ***“Elə isə indi təklif nədir?***

İslam dinindən sonra başqa dinlər nəsx olunub. (Bu cüm-ləni 3 dəfə təkrar etdi)

Mən dedim: ***“Bəs qurtuluş yolu hansı yoldur?”***

Dedi: ***“Yalnız İslam peyğəmbərinə (s) itaət etmək.”***

Sonra ağladı.

Dedim: ***“Ay ruhani Ata, İslam dininə daxil olmağıma icazə verirsənmi?”***

Dedi: ***“Əgər axirət və qurtuluş istəyirsənsə, yalnız yolu budur. Mən də sənə duaçı olacağam. Bu şərtlə ki, qiyamət günü mənim də müsəlman olduğuma şahid olasan. Lakin fanatik in-***

***sanların qorxusundan və habelə riyasətə xatir onu bəyan etməyə acizəm”.***

Bəli, Ş.İ.Xətai gözəl deyib:

***Din Məhəmməd dinidir, səlla əla sahib vüqar,***
***Kövsərin suyin verən şahım Əlidir şəhsüvar.***

Fransız alimi Liban yazır:

***“Quran kitabının əzəmətli olmasını bilmək istəsək, buna diqqət edib görərik ki, 14 əsr keçməsinə baxmayaraq, heç bir şəxs onda (Quranda) bir cüzi səhv və nöqsan tapa bilməmişdir. Onun açıq-aydın bəyan üslubları, kəlmələri elə təzə və şirindir ki, elə bilirsən elə indicə nazil olub”.***

Tədqiqatçı qərb alimi Ser Vilyam Maules deyir:

***“Məhəmmədin (s) “Quranı” elə bir kitabdır ki, orada açıq məntiqli dəlillər, saysız-hesabsız elmi məsələlər hüquqi məhkəmə qaydaları, ictimaiyyətdə yaşamaq və öz mədəniyyətlərini hifz etmək üçün sadə idarələr olduğu halda, möhkəm sabit və münəzzəm qaydada oxucuları özünə cəlb edir” .***

Necə ki, Aşıq Əhməd demiş:

***Haqdan, ədalətdən yaranıb Quran,***
***Yaşayıbdı, yaşayacaq hər zaman,***
***Milyon-milyon şahlar köçüb dünyadan,***
***Nə irsi yaşayır, nə də qanunu.***

***Əşrəfül-Ənbiya, Rəsuli-Əkrəm,***
***Bir yarpaq kağıza çalmamış qələm,***
***30-cüzv Quranı əzbər edənnən,***
***18 min aləm ucaltdı Onu.***

***Əhməd: Qurandadır ədlü-ədalət,***
***Ədalət, inayət, mehrü-məhəbbət,***
***Ustadları rəhmət, şeytana lənət,***
***Qurandan müqəddəs bir qanun hanı?***

**1.**Həzrət İbrahimin (ə) Sühufu – 3-cü fəsil

**a)**Peyğəmbərlik onun vücudi ilə başa çatacaqdır. O öz zühuru ilə Allah-təalanın rəhmət və bərəkətini yer üzündə yaya-caq.

**b)**Ey İbrahim,Məhəmməd (s) və onun vəsilərinə salavat və salam göndər.

**2**.Həzrət Musa (ə) Tövrat-Xilqət kitabı (Fəsil 2-12) Allah İbrahimə dedi:

Sənin nəslindən böyük bir ümmət yaradaram və sənin adını ucaldaram. O Həra dağında sakin olacaq.

**3.**Həzrət Süleyman Peyğəmbərin (s) kitabı (Fəsil 5-16) o Məhəmməddir ki ağzı şirin olsun. Onun on iki canişin, möcüzələri var və on ikincisi Allah –Təalanın əmri ilə (Bir göy səsindən) sonda qiyam edəcək.

**4.**Əmiya Peyğəmbərin kitabı

(Fəsil 10-42) Allah-Təalanı yeni bir dinlə zikr edər və onun səltənəti özündən sonra başlanar, adı Əhməddir (s).

**5.**Həzrət İsa(ə) İncil-Bornaba(Fəsil 33-41)Allah Adəmə (ə) bir yazı yolladı. Onda ***"La ilahə illəllah Muhəmmədun Rəsulallah***" yazılmışdı.[1]

***Bütün dərvişlərin şahı olubdur Əhmədi-Mürsəl,***
***Ki, "Nuni-Vəl-Qələm," Quranda səbt etmiş, bu fərmani.***

***Fəqirin xirqəsində bəxyələrdə rəmzlər vardır***
***Ki, anlar "Lövhi-məhfuzu" açanlar bu müəmmanı.***

***"Əhmədi-Mürsəl"*** Məhəmməd (s) peyğəmbərin adların-dan biridir***."Nuni-Vəl-Qələm"*** "Quran"ın 68-ci surəsi-dir. Bu surənin məzmunu varlıların fəqirlərə, kasıblara kömək etməli olduğu haqqında təbliğatdan ibarətdir. X.Şirvani bu beytlərdə deyir ki, Məhəmməd (s) fəqirlərin tərəfdarı olmuş-dur. ***"Xirqə"*** dərvişlərin geydikləri uzun paltar, rəmzlər-məna-lı, kinayəli sözlər ***" lövhi-məhfuz"*** müqəddəs yazılar lövhəsi müəmma düyümlü söz

***[1] S.Kazım Pərpənci "Üsuliddin" səh. 62-63.***

anlaşılmaz ifadə deməkdir. Şair bu beytlərdə də deyir ki, yoxsulların, dünya malına əsir olmayanların mənəvi yüksəkliyini ancaq ***“müqəddəs yazılar”*** ın qaranlıq, gizli sirlərini başa düşənlər anlaya bilər. Belə şəxslər də Peyğəmbərlər, İmamlar və övliyalar ola bilər. Sonuncu Peyğəmbəri də Allah-Təala bütün aləmlərə rəhmət olaraq göndərmişdir.

***Çoxdur hərçənd günahım, ey kəramətli nigar,***
***Ol şəfi ruzi-qiyamət, etmə üz məndən kənar,***
***Çün verib Tanrım səni aləmlərə rəhmət qərar,***
***Ol qədər zövqi-şəfaət cövhəri zatında var.***
***Kim, gəlir ərzi-xəta mənidə bir ehsan sana.***

# İSLAM PEYĞƏMBƏRİ HƏZRƏT MƏHƏMMƏDİN (S) HƏDİSLƏRİ:

**1**. «Ey Allahın bəndələri, sizlər xəstə, bütün alimlərin yaradanı isə həkim kimidir. Xəstənin xeyri öz istəklərinə yox, həkimin tədbirlərinə əməl eləməkdədir. Buna görə nicat tapmaq üçün Allahın əmrinə təslim olun».

**2**. «Mənim Əhli-beytim (ə) Nuh peyğəmbərin (ə) gəmisi kimidir. O gəmiyə minən nicat tapar. Ayrılan isə qərq olar».

**3**. «Hər kim Allah üçün 40 gün ixlasa əməl etsə, hikmət çeşmələri qəlbindən dilinə axar».

**4.** «Mən elmin şəhəriyəm, Əli (ə) isə onun qapısıdır. Kim elm istəsə, o qapıdan girməlidir».

S.M.Şəhriyar Peyğəmbərin (s) bu hədisini belə nəzmə çəkib:

***Allahın şəhri Nəbidir, qapısı Şahi-vəli,***
***Deşik axtarma bu şəhrin belə darvazası var.***

**5**. «Allah-Təala sizin simanıza və mallarınıza baxmaz, ancaq ürəklərinizə və əməllərinizə baxar».

**6.** «Bir varlının yanına gedib, (sərvətinə görə) onun qarşısında əyilən bir şəxs dilinin üçdə iki hissəsini itirir».

***Nə xoşbəxtəm ki, dünyada sənin tək sevgilim vardır,***
***Neyçün qorxum qiyamətdə cəzadan, ya Rəsulallah!***
***Dönərsəm səndən, ey istəkli soltanım, üzüm dönsün,***
***Üzülsün rişteyi-canım cəfadan, ya Rəsulallah![1]***

Bu məqaləni Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi, bəşəriyyətin bədii fikir tarixində əbədi ad qazanmış Xəqani Şirvaninin Peyğəmbər (s) haqqında yazdığı qəsidədən bir neçə bəndlə yekunlaşdırırıq:

***Yerə sahib, göyə məhrəm, o Peyğəmbər Məhəmmədir***
***Ki, iki dünyada xaqanlar, ona quldur, rəiyyətdir.***

***Könül eşqə veribsən, nəfsini öldür, yaraşmaz ki,***
***Təriqi Mustəfanı Buləhəblə qol-qola getmək,***

***Bu dünya mülkünə Məhvər, Bəşər övladına rəhbər,***
***Cahana nur saçan Məşəl, Məhəmmədir o Peyğəmbər***

***O bir şahdır, onun üçün enib göydən şəriət də,***
***Ayuağına qoyub başın fələklər də, təbiət də,***

***Onun bayrağı üstündə yazılmışdı "Rəsuləllah"***
***O qurdu "Lailahə" qəsrinə "illa"nı, əlbətdə***

***"Təbarək"xütbəsi "sübhanə" oldu beş səhər təbli,***
***"Liəmrix" təxti,, "Qabə qövseyn" bir nübuvvətdə.***

***Göyərçin pərdəyə döndü, bulud saldı ona kölgə,***
***Bu bir olmuş həqiqətdir, verib baş vəqti hicrətdə***

---

[1] ***Hacı Ənvər Nəzərli***

*Kövhər saçmış o əllərdə qələm heç tutmayıb əsla,*
*Əbədi qaldı hər nitqi,, göhər oldu həqiqətdə.*

# PEYĞƏMBƏRİN (S) MERACI

*Meraca gedib Əhmədi-Məhmudu Muhəmməd,*
*Kəşf etdi bəşər dərdinin dərmanı Əlidir!*

*Axund Hacı Soltan*

***Bismillahir-Rəhmanir-Rəhim***

Allah-Təala İsra surəsinin 1-ci ayəsində buyurur:

***"Öz nişanələrindən göstərmək üçün gecə bəndəsini (Məkkədə) Məscidul-Həramdan (Beytül-Müqəddəsdə) ətrafına bərəkət verdiyimiz Məscidul-Əqsaya aparan Allah pak-pakizədir. Həqiqətən, o, eşidən və görəndir".***

Peyğəmbərin (s) Meracı dinin (İslam dini) zəruri etiqadlarındandır və bütün İslam firqələri tərəfindən yekdilliklə qəbul olunur.

Besətin 10-cu ili Ramazan ayının 17-də Peyğəmbər (s) Məscidul-Həramda məğrib (şam) namazından sonra Məscidul əqsadan, "***Büraq***" vasitəsiylə səmaya qalxdı. Meracdan qayı-dıb, Məscidul-Həramda sübh namazını qıldı.***"Merac"-*** sözü ərəb dilində " ***göylərə yüksəlmə"*** *və ya* ***"göyə qalxmaq"*** üçün alət anlamına gəlir. Istilahi mənada bu söz Həzrəti Mühəmmə-din (s) məşhur bir möcüzəsini Allahın izni və əmri ilə yer kürəsindən ayrılaraq ən qısa bir müddətdə cismən və ruhən göyün ən uca qatlarına yüksəlməsini və dərhal yer aləminə qayıtmasını bildirir.

Qurani-Kərimin ayələrindən və məşhur hədislərdən məlum olur ki, Allah-Təala Peyğəmbəri (s) bir gecə içində Məkkədən Məscidul-Əqsaya, oradan da səmalara, Sidrətul-Müntəhaya və Ərşi-Əlaya apardı, səmaların qəribə yara-nışlarını, gizli sirlərini, sonsuz elmləri ona təlqin etdi. Pey-ğəmbər (s) ərşin altında

Beytul-Məmurda Haqq-Təalanın iba-dətilə məşğul oldu, Peyğəmbərlə görüşdü, behiştə onların halı-nı müşahidə etdi.

Peyğəmbərin(s) meracı yuxuda və ruhən yox, oyaq vaxtı və cismani baş vermişdir.

Merac səfəri tarixin ən parlaq və müqəddəs səfəridir. Bu səfərdə müsafir İslam Peyğəmbəri (s), uçuş məkanı Məscidul-Həram, eniş məkanı Məscidul-Əqsa, qonaq sahibi Allah, məq-səd ilahi ayələrin (nişanələrin) müşahidəsi, sovqat səma xəbər-ləri və bəşər düşüncəsinin maddi dünya səviyyəsindən yuxdarı qaldırılmasıdır.

Qurani-Kərimin satira formasında Təfsirini verən "Hop-hopnamə" nin müəllifi M.Ə.Sabir Peyğəmbərin(Ə) Meracın vəsf edib və deyib:

***Xosrovi-hüsnün, əzizim, imişsən tacı,***
***Xublər cümlə sənin dərgəhinin möhtacı***

***Qabi-qövseynə qaşın, leylətül-əsra zülfün,***
***Tapmısan mərtebeyi-hüsndə sən meracı.***

Allah-Təala Həzrət Adəmi (ə) səmadan yerə endirdi. Amma İslam Peyğəmbərini (s) yerdən səmaya qaldırdı.

***Kəlam səmadan enib, sən səmaya yüksəldin,***
***Əyarü qiymətini qoy düşünsün hər gümrah,***

Peyğəmbər (s) həmin gecə yuxarı aləmləri, səma qatlarını və yaranış qəribəliklərini müşahidə etdi.

Peyğəmbərin (s) Meraca haradan və kimin evindən getmə-si barədə müxtəlif nəzərlər var. Bəzi rəvayətlərdə Xədicənin (ə) evindən, bəzi mənbələrdə Həzrət Əlinin (ə) bacısı Ümmi Hani-nin mənzilindən, bəzi mənbələrdə də Şeybi Əbu Talibdən(ə) getdiyini qeyd ediblər.

***"Təfsiri-Fürqan"*** da bildirilir ki, Peyğəmbərin (s) Milad, merac, besət, hicrət, Məkkəyə giriş və dünyadan əbədi aləmə

köçməsi bazar ertəsi gecəsinə təsadüf etmişdir. Merac gecəsi olduqca əhəmiyyətli bir gecədir.

Peyğəmbərin (s) Meracı bənzəri olmayan bir hadisədir. Bu bənzərsiz hadisə Azərbaycan (klassik) şairləri üçün misilsiz bir ilham mənbəyinə çevrilmişdir.

Ustad şair N.Gəncəvi ***"İsgəndərnamə"*** də yazır:

***Əli boş, bu dərviş geyimli soltan,***
***Qulamlıq alandır, şahlığı satan,***
***O gecə meraca at səyirdərək***
***Fələyin donuna vurdu min bəzək***
***Gecə meracının çətrindən sayə***
***Göy-o nərdivandan kiçik bir payə.***

Ustad şair bu beytlərdə meracın başlanğıc mərhələsini əl-van bədii boyalarla, parlaq təşbeh və bənzətmələrlə təsvir edir. Kainatı bürümüş zülmət gecəni adi bir çətir kölgəsinə, göyləri isə kiçik nərdivan pillələrinə bənzətməklə şair Tanrıdan başqa hər şeyin Həzrət Məhəmməd (s) əzəməti, qüdrəti qarşısında cı-lız və gücsüz olduğunu göstərmək istəyir və göstərirdə.

***Göy gecə məclisi qızışdırmışdı,***
***İşıqdan gecənin gözü qamaşdı,***
***O yeddi fələyə, o yeddi ülkər,***
***Çin ipəklərə düzmüş dürr, gövhər.***
***Cənnət keşikçisi huri pərilər,***
***Hər köşkə vurmuşdu yaraşıq zivər,***
***Bu taxtın soltanı olan Məhəmməd***
***Keçən elçilərdən odur vəliəhd***
***Müşkünü saçaraq " Beytül-Əqsa"yə***
***Məkkədən ucaldı ərşi-əllayə***
***Cismini qurtardı dünya bəndindən,***
***Etdi ərş əhlinin qəlbində məskən***
***Yetmiş yollu yurddan köçünü vurdu,***
***Çadırı yeddinci fələkdə qurdu***

***Doqquz hücrəsini bir an buraxdı***
***Göyün doqquzuncu tağına qalxdı***
***Yeddinci əflakə çatdığı zaman***
***Dişarı atıldı dördkünc daxmadan***
***Altında şimşək tək şığıyan büraq***
***Günəşə qərq olmuş yəhərlə yaraq***
***Məhəmməd peyğəmbər atı çapırdı***
***O səyyar dənizdən toz qoparırdı***
***Özü yol biləndi, atı yeriyən,***
***Bu ata, o şaha olsun yüz əhsən.***

Böyük filosof-şair S.İ. Nəsimi bir qəzəlinin sonbeytində Peyğəmbərin (s) meracın belə vəsf edir**:**

***Meraca çıxdı ruhi-Nəsimi bürq ilə,***
***Şel laşədən nə faidə kim, lazəlul ola?!***

S.İ.Nəsimi dünyagörüşündə Merac, hər şeydən öncə, ruha-ni bir yüksəliş, mənəviyyat aləminin uca göylərində seyr et-məkdir.

Görkəmli dövlət və din xadimi, bacarıqlı sərkərdə və rəvan təbli şair kimik tarixdə ad qazanmış Ş.İ.Xətai də öz ya-radıcılığında canından çox sevdiyi din rəhbərinin bu möcüzə-sinə dönə-dönə müraciət etmişdir.

***Qaldı sidrəl-müntəha, keçdin fələkdən ta zəmin,***
***Kim yetər bu qədri həqqə, müntəhadır, ya Nəbi!***

Bu beytdə Ş.İ.Xətai demək istəyir ki,hər bir gözəlliyin yet-kinlik nöqtəsi Həzrəti Məhəmmədə (s) məxsus olduğu kimi, peyğəmbərlər arasında Merac dağının ən uca zirvəsini fəth edən də odur. Xətai demək istəyir ki, keçmiş və gələcək nəsillər içərisində heç kəs bu qədər Allaha daha yaxın olmamış və olmayacaqdır.

Həbibi, M.Füzuli, Ş.Təbrizi, S.Ə.Şirvani, M.Ə.Sabir, H.Cavid və bir çox başqa klassiklərimiz də Peyğəmbərin (s) **“Merac”**ına dair çox gözəl bədii əsərlər yazıb yaratmışlar.

Müasir dövrdə Merac mövzusu unudulmamışdır. Axund Hacı Soltan, A.Buzovnalı, V.Nakam, D.Almaslı, H.Ə.Mahir, Ə.Nəzərli, N.Salami, N.Zöhrabi, H.Yusif Qulam-mirzə oğlu və s.kimi qələm sahibləri az-çox bu mövzuya üz tutmuş, bədii töhvələrini verməyə çalışmışlar. Axund Hacı Soltan “Ya Mustafa” rədifli qəzəlində yazır:

***Yer üzündən asimana eylədin meracı sən,***
***Ərşdə mehmanın oldu Mürtəza, ya Mustafa!***

Bu beytdə Hacı Soltan həm merac hadisəsinə ümumi işarə edir, həm də İslam peyğəmbəri Həzrət Məhəmmədlə (s) Həzrət Əli (ə) arasındakı xüsusi məhrəmanə münasibətləri, həqiqi din qardaşlığını oxuculara çatdırır. Bu beytdə gözlərimiz qarsısın-da təkcə Həzrəti Məhəmmədin (s) göylərə ucalan sürəti deyil, həm də Məhəmməd-Əli münasibətləri ilə bağlı bir çox tarixi hadisələr gizlənib. Dostluğun, sədaqətin, din qardaşlığının və fədakarlığın meracı-ən yüksək nöqtəsi bu iki misilsiz şəxsiyyət arasındakı ülvi münasibətlərdədir.

İmam Cəfər Sadiq (ə) buyurur:

***“Allah-Təala Peyğəmbəri (s) 124 dəfə səmayə apardı. Hər dəfə də Əmirəlmöminin Həzrət Əlinin (ə) və digər məsumların imamət və vilayəti barədə başqa vacibatlardan çox təkid və töv-siyə etdi”.***

Peyğəmbər (s) Merac əhvalatını bəyan edən vaxt bəzi, iradəsiz, tutumsuz insanlar dindən çıxdılar.

Merac hadisəsi əbəs deyil, meracın yetərincə mühüm səbəbləri var.

Merac islami bir əqidədir ki, Qurana və Əhli-beyt (ə) hə-dislərinə inanan şəxs onu inkar edə bilməz.

İmam Sadiq (ə) buyurur:

“Dörd şeyi inkar edən şəxs bizim şiələrimizdən deyil.

***1.Meracı,***
***2.Qəbirdə sorğu-sualı,***
***3. Behişt və cəhənnəmi,***
***4. Şəfaəti"***

İmam Rza (ə) buyurur:

***"Hər kəs Meraci təkzib etsə, Peüyğəmbəri-Əkrəmi (s) təkzib edibdir".***[1]

İmam Sadiq (ə) buyurur:

***"Cəbrail, Mikail və İsrafil Büraqı Rəsuli-Əkrəm (s) üçün gətirdilər. Həzrət Məhəmməd (s) Büraqa mindi və o, hərəkətə gəldi. Cəbrail və Peyğəmbərlə (s) birlikdə idi. O, yerin və göylərin ayətlərini Peyğəmbərə (s) nişan verirdi."***

(Büraq-fövqalədə keyfiyyətlərə malik olan qeyri adi bir məxluqdur)

Həyata haqqın işığıyla baxan haqq aşiqi Yunis İmrə Peyğəmbərin (s) Meracını çox zərif və incə bir dillə, şirin boyalarla oxuculara çatdırır.

***Məhəmmədə bir gecə,***
***Tanrıdan endi Büraq***
***Cəbrail dedi, səni***
***Meraca çağırdı haqq.***

***Cənnət olsun məkanın,***
***Behişti qucsun canın,***
***Çağırır haqq sübhanın,***
***Nə yatmısan, oyan, qalx.***

***Durdu Merac qəsdinə,,***
***Meyl etdi abdəstinə,***
***Səcdə qıldı dostuna,***
***Bilmədi yaxın, uz***

[1] *"Biharul-Ənvar" c.18 səh.302,319, "Həqqul yəqin" səh.3*

***Göylərə xəbər oldu,***
***Hər yan sevinclə doldu,***

***Dedilər Əhməd (ə) gəldi,***
***Bəzəndi səkkiz uçmaq.***

***Gör Məhəmməd neylədi,***
***Göyləri seyr elədi,***
***Ümmətini söylədi***
***Ərşə açınca qucaq.***

***Neçə min illik yola,***
***Bir dəmdə enib gələ,***
***Yunis deyər, kim ola?***
***Məhəmməddir o, mütləq.***

***"Meracın"*** bu qədər şəffaf bir hadisə olmasına baxmayaraq müəyyən suallar və şübhələr hələ də davam edir. Deyirlər ki, atmosferdən kənarda hava yoxdur, yandırıcı isti və öldürücü soyuq var, çəkisizlik mövcuddur, fəzanın təhlükəli şüaları şölələnir. Səma səfəri üçün bir gecə bəs etməz, səma səfərinə çıxan bir şəxsdə işıq sürəti və ya daha böyük sürət olmalıdır, yerin cazibəsindən çıxmaq üçün saatda 400 min.km yol getmək lazımdır. Bu cür şübhələri ümumi şəkildə belə cavab-landırmaq olar:

1.Merac mövzusu Qurani-Kərimin "***İsra"*** və ***"Ən-Nəcm"***surələrində və mütəvatir rəvayətlərdə bəyan olunmuş-dur.

2. Mövzunu xırdalıqları ilə yox, prinsipcə qəbul etmək zəruridir.

3. Merac İslam Peyğəmbərinin (s) möcüzələrindən olduğu kimi, bütün möcüzələrə tətbiq olunan qayda meraca da şamil olunur.

4. Bütün çətinliklər Ilahi qüdrətə əsaslanmaqla həll oluna bilər. Əgər Bəşər övladı olan insan bu gün səmaya təyyarə qaldırırsa, başqa planetlərə süni peyklər və hava gəmiləri gön-

dərə bilirsə, onda gərək Merac məsələsini şərtsiz və problemsiz qəbul etməlidir.

5. Quranda Bilqeyisin taxtının bir göz qırpımında bir ölkədən digər ölkəyə gətirilməsi qeyd olunur. Belə bir məlumat da Merac məsələsinin məsafə baxımından mümkünsüzlük ehti-malını aradan qaldırır.

Merac barədə nazil olan ayələrə diqqətlə yanaşılsa heç kəsdə şəkk şübhə yaranmaz. Allah-Təala "**İsra**" surəsinin 1-ci ayəsində buyurur ki:

***"Pak və münəzzəhdir o Allah ki, gecə vaxtı bəndəsini (Pey-ğəmbəri) ona öz ayə və qüdrət nişanələrini göstərmək üçün "Məscidül-Həram" dan Məscidül-Əqsaya seyr etdirdi. O, eşi-dən və görəndir".***

Ayənin ərəbcə əvvəli ***"Sübhan"*** kəlməsi ilə başlayır və bu məsələnin əzəmətli və çox mühüm olduğunu bildirir.

"***Əsra" -*** sözü göstərir ki, bu seyr etmə, gecə vaxtı baş vermişdir. Ərəblər də gecə seyr etməkdə bu sözü işlədərlər.

***"Əbd***"-sözü Peyğəmbərin (s) öz cismi və bədəni ilə yuxarı aləmlərə yüksəlməsini göstərir. Bu seyr cismin və ruhun birgə seyri, hərəkəti idi.

Aşıq Ələsgər ***"Peyğəmbərin Meracı"*** adlı ustadnaməsinin bir bəndində deyir:

***Yetişdi hücrəyə əzizü-əzim,***
***Şahi-Mərdan dedi: "Meracın qədim!"***
***Göstərdi almanı, etdi təbəssüm,***
***Buyurdu: " Hər işin sirri qüdrəti"***

***"Linuriyyəhu min ayatina***"-cümləsi meracın hədəfini, məq-sədini bəyan edir. Yəni meracda məqsəd Allah-Təalanın qüd-rət nişanələrini Peyğəmbərə göstərmək və Həzrət Əlinin (ə) rəhbərlik və vilayətini təsdiq etmək imiş.

Bu ayədə olan incə nöqtələr mövzunu tam şəkildə aydın-laşdırmış və heç bir qaranlıq nöqtə qalmamışdır.

*“ƏN-NƏCM”* surəsində Peyğəmbər (s) ikinci dəfə vəhy mələyini əsl surətində gördü.
Allah-Təala buyurur:
***“Peyğəmbərin (s) gözü səhvə uğramadı, o, Allahın böyük nişanələrini gördü”.***

Bu iki ayə göstərir ki, həmin görünmə yuxuda deyil, ayıq hal-da olmuşdur. Biz müsəlmanlarında İslami əqidəmiz ***“İsra”*** və ***“Ənnəcm”*** surələrinin ***“Merac”*** barədə olan ayələrinə əsasən Peyğəmbər (s) bir gecədə öz cismi ilə (maddi cismi) ***“Məscidül-Həram”***dan ***“Məscidül-Əqsa”***ya aparılmış və oradan da yuxarı aləmlərə seyr etmiş, vəhy mələyini onun həqiqi surətində eyni-lə müşahidə edərək Allah-Təalanın ayə və nişanələrinin əzəmə-tini yaxından görmüşdür.

Mirzə Dahi Almaslı Peyğəmbərin (s) meracı barədəd yazır:

***Bürəqa əyləşərək fəth qıldı ərzü səmanı,***
***Səyahət eylədi bir ləhzə içrə ərşi-xudanı.***
***Nəbilər içrə görən varmıböylə zövqü səfanı,***
***Vücudi pak ilə can verdi asimanə Mühəmməd***

İlk iki misra daha çox təsvir səciyyəsi daşıyırsa, sonrakı beyt əsasən Meracın tərənnümünə, bədii dəyərləndirilməsinə xidmət edir. Divan ədəbiyyatı ənənələrinə sadiq qalmağa çalı-şan şair bir tərəfdən Həzrəti Məhəmmədin (s) ***“Merac”*** baxı-mından da bütün Peyğəmbərlərdən (ə) üstün olduğunu, digər tərəfdən daim ulu yaradana yaxınlaşmağa, ona doğru ucalma-ğa can atan kamil şəxsiyyətin yalnız adi bəşər övladına deyil, fələklər və mələklər aləminə də həqiqi həyat bəxş edə biləcəyini səmimi ürək çırpıntıları ilə irəli sürür.

# BÖYÜK ISLAM PEYMĞƏBƏRI HƏZRƏT MƏHƏMMƏD IBNI ABDULLAHIN (S) TƏVƏLLÜDÜ, ŞƏHADƏTI VƏ HƏYATI HAQQINDA SUAL-CAVAB.

***Sual - 1.***

Peyğəmbərin (s) ata və anasının adları nədir?

***Cavab:***

Atasının adı Abdullah, anasının adı isə Amənədir.

***Sual - 2***.

Peyğəmbərin (s) nə üçün iki adı vardır?

***Cavab:***

Onun səbəbi budur ki,Məhəmməd adını böyük şəxsiyyətli ulu babası Əbdul-mütəllib, Əbdul-mütəllibdən qabaq onun üçün ***"Əhməd"*** adını anası Amənə seçmışdilər.Həmçinin onun özü buyurmuşdur: Mənim ***"Məhəmməd"*** adlanmağım bu üz-dəndir ki, yerin hər bir guşəsində vəsf və mədh olunmaqda-yam. ***"Əhməd"*** adlandırmağım isə bu üzdəndir ki, səmanın hər tərəfində yerdən daha çox vəsf və mədh olunuram".

***Sual - 3.***

Peyğəmbərin (s) adı Quranda neçə dəfə gəlmişdir?

***Cavab:***

Qurani-kərimdə Peyğəmbərin (s) mübarək adı beş dəfə çə-kilmişdir.

***Sual - 4.***

Anası vəfat edən zaman Peyğəmbər (s) neçə yaşında idi?

***Cavab:***

Altı yaşında.

***Sual - 5.***

Hansı Peyğəmbər həzrət Məhəmmədən (s) qabaq,o Həzrətin gəlişini müjdə vermişdir və Qurani-kərimin hansı su-rəsində buna işarə olunmuşdur?

***Cavab:***

“Həzrət İsa (ə) peyğəmbər. ***“Səff”*** surəsinin 6-cı ayəsində ona işarə olunmuşdur”.

***Sual - 6:***

***Nə üçün Peyğəmbərə (s) Əmin deyilirdi?***

***Cavab:***

Əmanətdarlıqda sədaqətli olduğu üçün Məhəmmədə (s) “Əmin” deyilirdi.

***Sual - 7:***

Həzrət Məhəmmədin, (s) Peyğəmbərlikdən qabaq hansı dinə tabe idi?

***Cavab:***

Həzrət Məhəmmədin (s) Peyğəmbərlikdən qabaq hansı dinin ardıcıllarından olması haqqında üç nəzər mövcuddur:

**1)** Həzrət İsanın (ə) canişinlərindən idi.

**2)**İbrahim Xəlilin (ə) təriqətlərində idi.

**3)** Xüsusi bir şəriətə malik idi ki, ilham və vəhy yolları ilə ələ gətirirdi.Bir çox saylı rəvayətlər üçüncü nəzəriyyənin həqi-qətə daha çox uyğun olduğunu sübuta yetirir.

***Sual - 8.***

Həzrət Məhəmmədə (s) neçə yaşında peyğəmbərlik ve-rildi?

***Cavab:***

Qırx yaşında.

***Sual - 9:***

Besətin ilk çağında Peyğəmbərin (s) şüarı nə idi?

***Cavab:***

***“Bir olan Allahdan başqa heç bir Tanrı yoxdur”***-deyin ki, nicat tapasınız.

***Sual - 10:***

Peyğəmbər (s) neçə il gizli surətdə təbliğatla məşğul idi?

***Cavab:***

Üç il müddətində.

***Sual - 11:***

Peyğəmbər (s) nə zamandan öz dövlətini aşkar etməyə əmr olundu və buna bağlı ayə hansıdır və hansı surədədir?

***Cavab:***

Besətin üçüncü ilində, Həzrət Peyğəmbər Mutəal Allah tərəfindən,öz dəvətini aşkar edərək xalqa çatdırmağa əmr olundu.Elə bu zaman, mübarək Şüəra surəsinin 214-cü ayəsi nazil oldu: “Yaxın qohumlarını qorxut!”.

***Sual - 12:***

Peyğəmbərə (s) ilk iman gətirmiş şəxs kim olmuşdur?

***Cavab:***

Həzərt Əli ibni Əbu Talib (ə).

***Sual - 13.***

Peyğəmbər (s) Besətinin ilk çağlarında hansı ölkələrlə və padşahlarla məktublaşaraq onları müqəddəs İslam dini
və Tövhidə dəvət etmişdir?

***Cavab:***

Qurani-Kərimin ayələrinin buyurduğuna əsasən,İslam bü-tün dünyanı əhatə edən bir dindir və Peyğəmbər (s) Allahın xalqa göndərdiyi sonuncu elçisidir.O Həzrət, Xosrov Pərviz (İran padşahı), Herqel (Bizans imperatoru) və Moququs (Mi-sir hökmdarı) kimi dünya başçılarına məktub yazaraq onları dininə dəvət etdi.O Həzrətin məktubları aydın, qısa və qəti idi.

***Sual - 14.***

Peyğəmbər (s) ölkələrin və şəhərlərin rəislərinə neçə mək-tub yazmışdır?

***Cavab:***

Peyğəmbərin (s) müxtəlif ünvanlara yazdığı məktublardan cəmisi 185 məktub gəlib bizə çatmışdır.

***Sual - 15.***

Peyğəmbərin (s) hansı əmisi onunla düşmənçilik edibdir?

***Cavab:*** Əbu Ləhəb.

**Sual - 16.**

Peyğəmbərin (s) şairi kim idi?

***Cavab:***

Həssan ibni Sabit.

***Sual - 17.***

Nə üçün Peyğəmbər (s) və İmamın (ə) vücuduna ehtiyac vardır?

***Cavab:***

İmam Baqir (ə) buyurur:

Peyğəmbər və İmam yer üzündə olduğu zaman Allah-taala yerin sakinlərindən əzabı götürür və həmçinin Peyğəm-bər (s) buyurmuşdur:

“Ulduzlar səma əhlinin əminamanda olmalarına səbəb oldular və Mənim Əhli-beytim (ə) də yer əhlinin əmin-amanda qalmalarına səbəb olurlar”.

Peyğəmbərin (s) besətindən və imamın tanınmasından məqsəd, biz insanların səadətə və  düz yola yönəlməyimizdir.

***Sual - 18.***

Usvətil-Həsənə (gözəl nümunə) ləqəbi Qurani-Kərimin hansı ayə və surələrində Peyğəmbərə (s)  nisbət verilmişdir?

***Cavab:*** Mübarək Əhzab surəsinin 21-ci ayəsində ona işarə olunur: ***“Əgər Allaha və qiyamət gününə imanınız varsa, onda Allahın Rəsulu sizin üçün ən gözəl ülgüdür.”***

***Sual - 19.***

Qurani-kərimdə neçə nəfər ***"Üsvətil-Həsənə"*** kimi təbir olunmuşdur?

***Cavab:***

Qurani-kərimdə bəşər dünyasının iki böyük şəxsiyyəti haqqında söz açılmış və təkid olunmuşdur ki, onlar usvətil-Həsənə nümunələrdəndir. O iki nəfər Həzrət İbrahim (ə) və Məhəmməd Peyğəmbərdir (s)

**Sual - 20.**

***“Rəsul” və “Nəbi”*** arasındakı fərq nədir?

***Cavab:***

***“Nəbi”*** bir insandır ki, bəşər fərdlərindən heç birinin vasi-təsi olmadan Allah tərəfindən xəbər verir. Həmçinin “***nəbi”*** sö-zünün kökü ***“nəbə”***dən götürülmüşdür ki, yəqinli və əhəmiy-yətli xəbər mənasındadır; Amma ***“rəsul”*** göndərilmiş və Allah tərəfindən bəndələrə tərəf risalət (peyğəmbərlik vəzifəsi) almış mənasındadır. Buna əsasən, ona elçi mübəlliq (təbliğ edən), bəşir və nəzir də əlavə olunur. Beləliklə hər bir rəsul nəbidir, lakin hər nəbi rəsul deyildir.

***Sual - 21.***

İslam tarixinin başlanğıcı hansı ildir?

***Cavab:***

Peyğəmbərin (s) Məkkədən Mədinəyə Hicrəti ilə İslam tarixi başlandı.

***Sual - 22.***

Mədinəyə çatdıqdan sonra Peyğəmbərin (s) gördüyü ilk iş nədən ibarət oldu?

***Cavab:***

Peyğəmbərin(s) ilk atdığı qədəm məscid tikdirməkdən ibarət oldu.

***Sual - 23.***

Mədinədə Peyğəmbərin (s) ilk möcüzəsi nə oldu?

***Cavab:***

Peyğəmbərin (s) Mədinəyə hicrətindən sonra və O Həzrə-tin bu şəhərə daxil olduğu zaman, xalq dəvənin cilovunu tuta-raq və xaiş edərək o həzrəti öz evlərinə dəvət etdilər. O Həz-rət(s) buyurdu:

Dəvənin cilovunu boşlayın. Dəvəm hər kəsin evinin qapısı ağzında otursa, mən onun qonağı olacağam. Dəvə hərəkət etdi və nəhayət Əbu Əyyub Ənsarinin evinin qarşısında oturdu. Əbu Əyyub fəryad etdi;

Ey ana! Qapını aç, qəbilələrin ən əziz şəxsi həzrət Məhəm-məd Mustafa (s) gəldi, Əbu Əyyubun anası kor idi. O, qapını açıb dedi:

Əfsus, yüz əfsus, kaş görən gözlərim olaydı və Allah elçisi-nin nurani çöhrəsinə tamaşa edəydim. Peyğəmbər (s) ona lütf edərək rəhmət əlini onun gözlərinə çəkdi, o həmin an gözləri açılaraq Peyğəmbərin (s) gözəl camalını müşahidə etdi. Bu, Al-lah elçisinin Mədinədə ilk möcüzəsi idi.

***Sual - 24.***

Peyğəmbər (s) hansı müharibədə buyurmuşdur:

***"Həzrət Əlinin (ə) zərbəsi bütün insanlarla cinlərin ibadətindən üstündür?"***

***Cavab:***

***“Xəndək”*** müharibəsində Həzrət Əlinin (ə) Əmr ibn Əbdə-vud üzərində qələbə çaldığı zaman.

***Sual - 25.***

***“Bədr”*** müharibəsi hansı ildə baş vermişdir?

***Cavab:***

Hicrətin ikinci ilində.

***Sual - 26.***

***“Fəth”*** surəsi nə zaman nazil oldu və özündə hansı bir xoş xəbəri əks etdirirdi?

***Cavab:***

Hicrinin 7-ci ilində Həzrət Peyğəmbər (s) Hudeybiyyədən qayıtdığı zaman o Həzrətə **“Fəth”** surəsi nazil oldu və Xeybər qalasının fəthinin müjdəsini özündə əks etdirirdi.

***Sual - 27.***

Peyğəmbərin (s) ***“Merac”*** hekayəti Qurani-kərimin hansı ayə və surəsində gəlmişdir?

***Cavab:***

Mübarək ***“İrsa”*** (Bəni-İsrail) surəsinin ilk ayəsində Allah taala buyurur:

***“Bəzi ayələrimizi göstərmək üçün öz bəndəsini Həzrət Məhəmməd (s) bir gecə Məscidul-həramdan ətrafını mübarək etdiyimiz Məscidul-əqsaya aparan Allah pak və munəzzəhdir. Allah həqiqətən,eşidən və biləndir.”***

***Sual - 28.***

Peyğəmbərə (s) meracda hansı şeylər sifariş olundu?

***Cavab:***

Bütün meraclarda Allah-taala Peyğəmbərə (s) İmam Əlinin (ə) və ondan sonrakı İmamların (ə) vilayət və İmaməti-nə bütün vacib əməllərdən daha çox sifariş etdi.

***Sual - 29.***

***“Merac”*** gecəsində Peyğəmbərə (ə) meraca getməsinə va-sitə olan miniyin adı nədir?

***Cavab:***

“Buraq”

***Sual - 30.***

Peyğəmbər(s) ***“Merac”*** gecəsində öz səfərinə haradan başlamışdır?

***Cavab:***

Peyğəmbər (s) özünün möhtəşəm səfərinə sud bacısı Um-mu haninin evindən başlayaraq fələstində olan Beytul-müqəd-dəsə doğru yola düşdü. ***“Beytül-ləhm”*** (İsa peyğəmbərin doğul-duğu məkan), Peyğəmbərlərin (ə) mənzillərini və onların əsər-lərini və məkanlarını gördükdən bir müddət sonra həmin nöq-tədən səmalara tərəf gedir.

***Sual - 31.***

***“Mənzilət****”* hədisi kimin vasitəsilə bəyan olmuş və
kimin haqqındadır?

***Cavab:***

Peyğəmbər (s) Əliyə (ə) buyurdu: ***"Harunun Həzrət Musa (ə)leyhissalama necə nisbəti var idisə, sənin də mənə o cür nisbətin vardır. Lakin məndən sonra peyğəmbər gəlməyəcəkdir".***

***Sual - 32.***

Şərəfli *“****Maidə”*** surəsinin 67-ci ayəsi:

***"Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə çatanları təbliğ et. Əgər (bunu) etməsən, Allahın risalətini (peyğəmbərlik vəzifəsi-ni)yerinə yetirmiş olmazsan."***-ayəsi harada və nə münasibətlə Peyğəmbərə (s) nazil olmuşdur?”

***Cavab:***

***“Bida”*** həcci - Peyğəmbərin (s) sonuncu həcci ərəfəsində ***“Maidə”*** surəsinin 67-ci ayəsi nazil oldu və Peyğəmbərə (s) əmr olundu ki, Həzrət Əlini (ə) özünün canişini, vəsisi kimi tanıtdırsın.

**Sual - 33.**

***“Qədir-Xum”*** hadisəsinin əbədi və həmişəyaşar olmasının səbəbi nədən ibarətdir?

***Cavab:***

***“Qədir-Xum”*** hadisəsinin həmişəyaşar olmasının səbəblərindən biri bu mühim hadisə haqqında

Qurani-Kərimin iki ayəsinin nazil olmasıdır. Quran kimi,bu tarixi hadisə də həmişə yaşayacaq, xatirələrdən silin-məyəcəkdir. Bunlar aşağıdakı iki ayədən ibarətdir.***"Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə çatanları təbliğ et. Əgər (bunu) etməsən, Allahın risalətini (sənə həvalə etdiyi peyğəm-bərlik vəzifəsini) yerinə yetirməmiş olarsan. Allah səni insanlar-dan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!"***[1]

***"Və  Bu gün kafirlər dininizdən əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi kamilləşdirdim,sizə olan nemətimi tamamladım və İslamı bir din kimi sizin üçün bəyəndim."***[2]

[1] ***"Maidə" surəsi, ayə 67***
[2] ***"Maidə" surəsi, ayə 3***

# İKINCI MƏSUM

## ANALAR BAYRAMI FATİMEYİ- ZƏHRANIN (S.Ə.) HƏYAT VƏ FƏALİYYƏTİ BARƏDƏ

***Ya Zəhra! Nəzərin ayırma məndən,***
***Qoyma bu vadidən uzaq düşüm mən.***
***Yoxsulluq mülkünün yolçusuyuq biz,***
***Bizi layiq gorsən onda, "Bismillah".***

***Bismillahir-Rəhmanir-Rəhim***

***İslam anası Fatimə Xeyri-Nisadır,***
***Zira hamıya din ilə iman Əlidir.***

Bu şah beytlər, Şah babamız, görkəmli dövlət və din xadi-mi, ana dilimizdə yaranan şeirimizin inkişafında xüsusi xid-mətləri olan, özü də bu dildə ölməz sənət inciləri yaradan, Əh-li-beyt (ə) aşiqi   Ş.İ.Xətaidir.

Həzrəti Fatimeyi-Zəhra (s.ə.) Besətin 5-ci ilində, Cəmadi-yüs-sani ayının 20-də, cümə günü, Məkkə şəhərində dünyaya göz açdı.Atası İslam Peyğəmbəri Həzrət Məhəmməd (s), anası Həzrəti Xədiceyi-Kübra (ə)  idi.

İslam Peyğəmbəri Həzrəti Muhəmmədin (s) qızı, Həzrət Əlinin (ə) bəxt ulduzu, 11 İmamın anası Həzrəti Fatimeyi-Zəhranın (s.ə.) mübarək mövludu haqqında İslam alimləri və tarixçiləri arasında həmişə fikir ayrılığı olub və bu gün də mövcuddur. Bəzi alimlər Həzrəti Fatimənin (s.ə.) dünyaya gəl-məsini İslam Peyğəmbərinin Bəsətə yetişməsindən iki il sonra olduğunu, bəziləri isə beş il sonra dünyaya gəldiyini yazırlar.

Böyük Azərbaycan şairi M.Füzuli demişkən:

***«Allahu Ələm»*** – yəni, düzünü Allah bilir.

Tarixçilərin çoxu yazır ki, Besətin 5-ci ilinin Cəmadiyus-səni ayının 20-si, cümə günü dan yeri sökülməyə yaxınlaşan vaxt Məkkə şəhərində Həzrəti Fatimə dünyaya gəldi. Bu se-vimli

İslam xanımının atası Həzrəti Muhəmməd (s) anası isə Həzrəti Xədiceyi-Kübra (ə) olmuşdur. Həzrəti Fatimə (s.ə.) hələ körpə ikən anası Həzrəti Xədicə (ə) vəfat etdi. İslam Pey-ğəmbərinin bu əziz qızından başqa 3 qız övladı olmasına bax-mayaraq, Həzrəti Fatiməyə (s.ə.) daha çox məhəbbət və istəklə sevirdi. Peyğəmbər (s) öz qızına «***Ümmi-Əbihə***» ləqəbi vermiş-di. Həqiqətən də, Həzrəti Fatimeyi-Zəhra (s.ə) həmin ləqəbə ləyaqətli idi.

Peyğəmbər (s) buyurubdu:

***«Fatimə (s.ə.) mənə bütün ailə üzvlərindən daha əziz və daha istəklidir».***

Həzrəti Fatimeyi-Zəhra (s.ə.) təkcə İslam Peyğəmbəri üçün yox, imamlar və övliyalar üçün yox, onu sevən bütün mö-minlər üçün həmişə əziz və doğmadır.

İmam Cəfəri-Sadiq (ə) öz ulu babası Həzrəti Rəsuldan(s) rəvayət edir ki, bir gün Peyğəmbər (s) öz sevimli qızına buyur-du:

***«Qızım, bilirsən niyə sənin adını Fatimə qoymuşam?» Həz-rəti Fatimə (s.ə.) soruşdu: «Niyə, ey əziz ata?»***

Allahın Rəsulu buyurdu:

***«Allah-Təala səni və səninlə qoşa addımlayan dostlarını, əsl İslam tərəfdarlarını məhşər günündə cəhənnəm odundan kənar-da saxlayacaq».***

(Fatimə «Xətəmə» kəlməsindəndir – yəni, kəsən və ayı-ran).

***Yox iffəti həyada bərabər ona fəqət,***
***Məryəmlə verdi, zinəti Qurana Fatimə.***

***Vəsfində ayə-ayə elə şərh «Kövsəri»,***
***Min nəqş verdi sureyi «Rəhmanə» Fatimə.***

Həzrəti Fatiməyə (s.ə.) həm də Həzrəti Zəhra deyə müra-ciət edərdilər.

İmam Həsən Əsgəri (ə) buyurur:

***«Həzrəti Fatimeyi-Zəhranın (s.ə.) Zəhra adı ilə adlanması-nın səbəbi bundan ibarətdir ki, hər gün üç dəfə onun camalının nuru Əli (ə) üçün cilvələnirdi.***

***Fatimeyi Zəhranın (s.ə.) parlaq çöhrəsi səhərin ilk başlanğıcında günəş kimi, günorta vaxtı ay kimi və günbatan vaxtı ulduz kimi nur saçırdı».***

***Zəhra adın Xuda ona bəxş etdi Dəhrdə,***
***Çün səcdə qıldı sidq ilə Sübhana Fatimə.***

***Soltan bütün ömrü boyu eylər səna ona,***
***İzzin bəyan edər Şahi-Mərdana Fatimə.***

Hicrətin ikinci ilinin Zilhiccə ayının əvvəlində Həzrət Əli (ə) ilə izdivac etdi, beş övlad anası oldu. İmam Həsən (ə), İmam Hüseyn (ə), Həzrəti Zeynəb və Ummü-Gülsüm, bir də Möhsin ki, anadan olmamışdı, ikinci xəlifənin qulu olan Qun-fuz qılıncın qını ilə Həzrəti Fatiməyə zərbə endirərkən bu zər-bədən bətnindəki uşaq siqt oldu və o gündən də Fatimə (s.ə.) şiddətli xəstəliyə düçar oldu.

***Ol Fatimədir, Həzrəti Zəhrayə Nəcibə***
***Hər dərdə dəva didəsi giryana salam ver.***

Əllamə Məclisi ***«Biharül-Ənvar»*** kitabında xanım Fatimeyi-Zəhranın (s.ə.) dünyaya gəlməsini belə təsvir edir:

***«Bir gün Peyğəmbər (s) əbtəh (Məkkə və Mina arasında) deyilən yerdə əyləşmişdi. Həzrət Əli (ə), Abbas, Həmzə, Əm-mar Yasir, Müzəffər İbn Zəhzah, Əbubəkr və Ömər də o Həzrə-tin yanında oturmuşdular. Bu zaman Cəbrayıl (ə) öz əsl surətin-də, qanadları şərq və qərbi əhatə etmiş halda Peyğəmbərin (s) hüzuruna gəlib salam verdi»*** *və buyurdu:* ***«Ey Peyğəmbər, Uca Tanrı sənə salam göndərir və buyurur ki, 40 gün Xədicə ilə yaxınlıq etməyəsən».***

Bu məmuriyyət Xədicəni (ə) çox istədiyinə görə Peyğəmbərə (ə) çox ağır gəldi. Ancaq Allah-Təalanın əmrini hər şey-dən yüksək tutan Peyğəmbər (s) göstərişi qəbul etdi və 40 gün Xədicədən (ə) uzaq oldu. Gündüzlər oruc tutub, gecələri isə

ibadətlə keçirən Peyğəmbər (s) axır günlər yetişən zaman Əmmar Yasiri sevimli zövcəsi Xədicənin (ə) yanına göndərib bu xəbəri ona çatdırmağı tapşırdı. ***«Ey Xədicə! Elə güman etmə ki, bir müddət səndən uzaqlaşmağım məhəbbətsizlik, ya laqeydsizlik üzündəndir. Allahım bunu, öz işini yer üzündə icra etməsindən ötrü əmr etmişdir. Bu əmrin nəticəsi üçün səadət və xeyirdən savayı bir iş fikirləşmə. Allah-Təala gündə neçə dəfə ən böyük mələklərini sənin nazını çəkməyə məmur edir. Axşam düşən kimi qapını bağla və öz yatağında istirahət et. Bil ki, Mən Fatimə binti Əsədin evindəyəm».***

Qırx gün sona çatdıqdan sonra Cəbrayıl (ə) Peyğəmbərin (s) yanına gələrək belə dedi:

***«Allah-Təala salam göndərib buyurur ki, sənə veriləcək hədiyyəni almağa hazırlaşasan».***

Peyğəmbər (s) Cəbrayıldan (ə) soruşdu:

*«**Allah-Təalanın mənə edəcəyi töhfə nədir?**»*

Vəhy mələyi Cəbrayıl (ə) ərz etdi ki, bilmirəm. Elə bu zaman Mikayıl (ə) Allahın dördə yaxın mələklərindən biri göylərdən yerə enərək, behişt parçalarına bükülmüş cənnət meyvələri ilə dolu sinini Rəsuli-Əkrəmin (s) qarşısına qoydu. Cəbra-yıl (ə) Peyğəmbərə (ə) dedi: ***«Allah-Təala buyurur ki, axşam iftarını bu meyvələrlə açasan».***

Həzrət Əli (ə) buyurur ki, Peyğəmbər (s) bizdə idi. Adətən axşamlar iftar vaxtı evin qapısını açıq qoymağımı tapşıran və **«qoy kim istəsə gəlib Peyğəmbərlə birlikdə yemək yesin» –** söyləyən Məhəmməd (s) o gecə məni də qapının ağzında oturdub:

***«Ey Əbu Talib oğlu, bu məndən başqasına haram olunmuş bir təamdır»*** – deyə buyurdu.

Mən qapının ağzında əyləşdim. Rəsuli-Əkrəm (s) evə da-xil olub sininin üstündə çəkilmiş örtüyü qaldırdı, içində bir sal-xım üzüm, bir budaq da xurma gördüm. Həzrət (s) onlardan bir az yeyib doyandan sonra su içdi. Sonra yumaq üçün əlini uzatdı. Cəbrayıl (ə) O Həzrətin(s) mübarək əlinə su tökür, Mi-kayıl (ə) yuyur, İsrafil (ə) isə dəsmalla qurulayırdı. Bu zaman Peyğəmbər

(s) nafilə namazı (müstəhəb namaz) qılmaq üçün ayağa qalxdı. Cəbrayıl (ə) Peyğəmbərə (s) yaxınlaşıb dedi:

***«Ya Peyğəmbər (s) indi namaz qılmaq vaxtı deyil. Gərək evə gedib Xədicə ilə yaxınlıq edəsən. Çünki, Allah istəyir ki, bu gecə sənin sülbündən pak övladlar yaratsın».***

Həzrəti Xədicə (ə) deyir:

***«Mən həmin 40 gün müddəti tək qalırdım. Axşam düşən kimi qapını bağlayıb, pərdələri çəkib, namaz qılırdım. Namazı qurtarandan sonra çırağı söndürüb yatağıma istirahət etməyə gedərdim. Lakin o gecə hələ yatmamışdım ki, qapı döyüldü»*** .

Mən ***«Qapını döyən kimdir ki, Peyğəmbərdən (s) başqa heç kim onu döymür?»*** dedim. Bu vaxt Peyğəmbərin (s) məla-hətli səsini eşitdim ki, buyurdu:

***«Ey Xədicə (ə) qapını aç! Mənəm Muhəmmədəm».***

Allaha and olsun ki, Peyğəmbər (s) məndən hələ uzaqlaş-mamışdı ki, Fatimənin (s.ə.) nurunu öz bətnimdə hiss etdim.

Peyğəmbərin (s) Xədicədən (ə) 40 gün uzaq olmağı iki dünya xanımı, dünya qadınlarının sərvəri olan Həzrət Fatime-yi-Zəhranın (s.ə.) məqamının uca olasına bir nümunədir ki, bu fəziləti dil belə təsəvvür etməkdə acizdir.

Allahın elçisi üçün behişt meyvələrindən üzüm və xurma-nın gətirilməsi bu meyvələrin daha çox bərəkətli və xeyirli ol-malarından irəli gəlir. Çünki ağacların arasında heç bir ağac xurma və üzüm ağacı kimi bərəkətli və xeyirli olmamışdır. Həmçinin bu iki ağac Adəmin (ə) xəmirindən artıq qalmış və gildən yaradılmışdır və çox ehtimal ki, belə seçim pak və mübarək nəslin övladlarının çoxlu olmasına və bərəkətinə bir işarədir.

Şeyx Səduq «***Əmali***» kitabında Müfəzzəl İbn Ömərdən be-lə nəql edir ki, bir gün İmam Sadiqdən (ə) soruşdum:

***«Yəbnə Rəsulallah! Fatimə (ə) dünyaya necə gəldi?»*** İmam (ə) buyurdu:

***«Xədicə (ə) Peyğəmbər (s) ilə evlənəndən sonra Məkkə qadınları (İslama qarşı olan düşmənçilikləri üzündən) Xədicə-dən (ə) uzaqlaşdılar. Bu işlərdən Xədicə (ə) çox kədərlənir və***

***həmin çirkin əməllərin Peyğəmbərə (s) zərər yetircəyindən qorxurdu. Amma, Xədicə (ə) Fatiməyə (ə) hamilə olduqda körpə ana bətnində onunla söhbət edərək ürək-dirək verirdi. Xədicə (ə) hətta bunu da Peyğəmbərdən (s) gizlədirdi».***

Bir gün Allahın Rəsulu(s) evə daxil olduqda Xədicənin(ə) kiminləsə söhbət etdiyini eşidir və bu barədə soruşduqda, o pak qadın belə cavab verir: ***«Bətnimdəki uşaq mənimlə söhbət edir. O mənim munisimdir».***

Peyğəmbər (s) buyurdu:

***«Cəbrayıl (ə) mənə xəbər verib ki, bu qız uşağıdı və Allah-Təala tezliklə mənim pak nəslimi onunla davam etdirəcəkdir. İmamlar onun nəslindən dünyaya gələcəklər. Allah-Təala mənə olunan vəhy kəsildikdən sonra onları yer üzündə mənim canişin və xəlifələrim qərar verəcəkdir».***

Vədə tamamlananda Həzrət Xədicə (ə) Qüreyş və Bəni-Haşim qadınlarına ona hamiləlikdən azad olmaqda kömək etmələri üçün xəbər göndərdi. Lakin Qüreyş və Bəni-Haşim qadınları söylədilər ki, bizi saymayıb, sözümüzü yerə saldın və Əbu Talibin himayəsində yaşayan, yetim olan Məhəmmədə (s) ərə getdin. Buna görə də biz sənin yanına gəlməyəcəyik.

Xədicə (ə) bu xəbərdən çox kədərləndi. Ancaq Allah-Təala onu tək qoymadı.

Fatimeyi-Zəhra (s.ə.) anadan olan vaxt Bəni-Haşim qadınlarına bənzəyən dörd ucaboy qadın gəldi.

Onlardan biri dedi:

***«Ey Xədicə! Biz Allah tərəfindən göndərilmişik və sənin bacılarınıq. Mən Sara İbrahim Xəlilin (ə) həyat yoldaşıyam və bu, Fironun zövcəsi Asiyadır. O behiştdə səninlə bir yerdə oturub-durar. O birisi isə İmranın qızı Məryəmdir (ə), o isə Musanın (ə) bacısı Gülsümdür.***

***Allah-Təala bizi sənin yanına göndərdi ki, doğuş vaxtı kömək edək».***

Fatimə (ə) pak-pakizə bir halda dünyaya gəldi. Dünyaya gəldiyi zaman ondan saçan nur bütün Məkkə evlərini işıqlandırdı. 10 nəfər behişt hurilərindən, əllərində cənnətdən gə-

tirdikləri teşt və kövsər suyu ilə doldurulmuş kuzə ilə evə daxil oldular. Fatimə (ə) dil açıb Allahın birliyinə, Məhəmmədin (s) isə Onun Rəsulu olmasına şəhadət verərək dedi:

***«Əşhədu ənla ilahə illallah və annə əbu rəsulallah seyyidül ənbiya və annə bəli seyyidül övliya və vəladət sadətul əsbat»*** (Şəhadət verirəm ki, yeganə Allahdan başqa ibadətə layiq mə-bud yoxdur. Atam Allahın Rəsulu, peyğəmbərlərin başçısıdır. Ərim övliyaların sərvəri və iki övladım isə behişt cavanlarının ağasıdır). Sonra o dörd qadından hər birinə ayrı-ayrılıqda sa-lam verərək onların hər birini öz adı ilə səslədi. Qadınlar böyük sevinc və şadlıqla Fatimənin (ə) mübarək mövludu mü-nasibətilə təbrik söyləyib müjdə verdilər. Hurilər səmada ilk dəfə elə nur gördülər ki, hələ ondan qabaq belə bir nuru heç bir vaxt görməmişdilər.[1]

Əhli-beyt (ə) şairi seyid Nurəddin Dərafərin ***«Mövludu-Zəhra»*** adlı qəzəlində qeyd olunan rəvayət və hədisləri şeir dili ilə belə vəsf edir.

***Yetişib Mövludu-Zəhra, nə gözəl gündü bu gün,***
***Olunub din evi bərpa, nə gözəl gündü bu gün.***

***Hər tərəfdən ucalır göylərə təbrik səsi,***
***Bürünüb nur ilə dünya, nə gözəl gündü bu gün.***

***Göz açıb dəhri-fəna içrə Peyğəmbər balası,***
***Gözün aydın ola, Mövla, nə gözəl gündü bu gün.***

***Öz adı Fatimədir, amma ki, Zəhra ləqəbi,***
***Həm də «Siddiqeyi-Taha» nə gözəl gündü bu gün.***

***Bir xanım ki, adı dillərdə İmamət anası,***
***Arifa ver buna məna, nə gözəl gündü bu gün.***

---

***[1] Şeyx Abbas Qummi "Beytul-Əhzan" səh. 19-20.***

Həzrət Fatimənin (s.ə.) dünyaya gəlməsi barədə bəzi ixti-laflı rəvayətlər də mövcuddur. Bəzi tarixçilər deyirlər ki, Fa-timə (s.ə.) Fil hadisəsindən 25 il keçdikdən sonra dünyaya gə-lib. Şeyx Muhəmməd İmam Muhəmməd Baqirdən (ə) nəql edir ki, Məbəsdən 5 il keçdikdə Fatimə (s.ə.) dünyaya gəlib. Əhli-beyt (ə) şairi M.füzuli iki dünya xanımının dünyaya gəl-məsini ***«Hədiqətüs-sühəda»*** əsərində şeir dili ilə belə vəsf edir:

***Şər gülzarına rövnəq verdi bir növrəs nihal,***
***Asimani-dinə pərtöv saldı bir fərrux hilal.***
***Ol nihalın bərgü barından dolub daməni-dəhr,***
***Ol hilalə qıldı ənvari-hidayət intiqal.***

Bir rəvayətdə deyilir ki, Rəsuli-Əkrəm (s) buyurub: «Cəb-rayıl (ə) mənə xəbər verib ki, onun adı asimanlarda – Mən-surə, yerdə isə Fatimədir. Fatimə – ***«kəsən», «ayıran»*** mənasın-dadır. Yəni o banu (ə.s.) öz şiələrini Cəhənnəmdən, düşmənləri isə öz məhəbbətindən və cənnətdən qət edib, ayırıbdır. O xa-nım öz dostlarına Axirətdə kömək edəcəyi üçün, göylərdə ona Mənsurə deyirlər.

Rəsuli-Əkrəm (s) buyurub***: «Fatimə (s.ə.) zahirdə insan şəklindədirsə də, batində huriyyədir».***

Həzrəti Fatimə (s.ə.) 5 yaşında ikən, besətin 10-cu ilində anası Xədicə (ə) vəfat etdi. Rəsuli-Əkrəm (s) Mədinəyə hicrət edəndən sonra Ümmi-Sələməni (ə) özünə nigah elədi və Fati-məni (ə) ona tapşırdı ki, tərbiyəsi ilə məşğul olsun. Həmin vaxt Fatimənin (ə) 8 yaşı var idi.

Həzrəti Xədicədən (ə) sonra Peyğəmbərin (s) ən sevimli zövcəsi olan Ümmi-Sələmə (ə) deyərmiş ki: ***«Allaha and olsun, mən özüm Fatimədən (ə) ədəb öyrənirəm, azyaşlı olmasına bax-mayaraq o, hər şeyi məndən və başqalarından çox bilir».***

*****

# PEYĞƏMBƏRIN (S) XANIM FATIMEYI-ZƏHRAYA (Ə) NƏSIHƏTI

Bir gün Xanım Fatimeyi-Zəhra (ə) Peyğəmbərin(s) hüzuruna gedib, atasından istədi ki, ona bir qulluqçu versin. Bu za-man Peyğəmbər (s) buyurdu:

***“İstəyirsizmi sizə elə kəlam öyrədim ki, qulluqçudan yaxşı olsun?”***

Sonra buyurdu:

***“Yataq otağına gedən zaman otuz üç dəfə “sübhanallah”, otuz üç dəfə “əlhəmdulillah” və otuz üç dəfə “Allahu-əkbər” deyin. Bu zaman Fatimə (s.ə.) ayağa durub üç dəfə dedi: “Razituənillahi və rəsulihi”- “Allah və rəsulundan razı qaldım.”***

Məşhur sünni alimi Əbubəkir Şirazinin kitabında nəql olunur ki, Həzrəti Fatimeyi-Zəhra (s.ə.) Peyğəmbərə (s) öz şərtini söyləyib, kəniz istəyən zaman, Peyğəmbər (s) ağlayıb buyurdu: ***“Ey Fatimə, and olsun məni Peyğəmbərliyə seçən Allaha, məsciddə dörd yüz nəfər kişi vardır ki, nə yeməkləri var, nə də geyimləri. Əgər sənin fəzilətinin itmək qorxusu olmasaydı mən sənin istədiyini verərdim. Mən istəmirəm ki, sənin əcrin və mükafatın səndən alınıb sənin kənizinə verilsin.”***

Sələbinin təfsirində İmam Baqirdən (ə.s.), Qüşeyrinin təfsirində isə Cabir ibni Əbdullah Ənsaridən nəql olunan hədisdə deyilir ki, peyğəmbər (s), Fatimənin (s.ə.) əynində yun paltar, dəyirmanda un üyüdə-üyüdə uşağa süd verdiyini gördükdə o Həzrətin(s) gözləri yaşardı və buyurdu: ***“Ya bintahu təəccəli mərarətuddünya bihəlavətil axirəti.”*** “(Ey qızım, axirətin şirinliyi üçün dünyanın çətinliyinə döz!)”

Fatimə ərz etdi: ***“Ya Rəsulullah, əlhəmdu lillahi əla nəmaihi vəsişukru lillahi əla alaihi.” “Ey Allahın rəsulu, Allaha, nemətləri və əta etdiklərinə görə həmd, şükr olsun.”***

# HƏZRƏTI FATIMEYI-ZƏHRANIN (S.Ə.) BUYURDUĞU HƏDISLƏR

**1**. «Ey Allah bəndələri, sizin aranızda Quran bir rəhbər kimidir. Sizinlə bağlanan bir əhd-peymandır. Quran Allahın doğru danışan natiq bir kitabıdır. Quranın nur saçan işığı isə parlaqdır. Onun dəlilləri aşkardır, sirrləri açıqdır. Quranın ümmətləri həmişə yadları həsrətdə qoymuşdur».

**2**. «Allahın kitabına itaət etmək behiştə doğru getməyə səbəb olar. Onun göstərişlərini dinləmək isə insanı nicat tapmağa yönəldir. O kitabla Allahın aydın höccət dəlilləri, onun aşkar qayda-qanun, hüdud və vəzifələri hasil olur.

Bu bir kitabdır ki, halal, haram məsələlərini aşkar dəlilləri və kifayət edici sübutları, yüksək dəyərləri və müqərrər qayda-qanunları əhatə edir».

**3.** «Namaz – Allahınızın müqabilində başınızı səcdəyə qoyub onun əzəmətli dərgahına təvazökarlıq etmək üçündür».

**4**. «Zəkat – ürəklərdə xeyirxahlıq, mehribanlıq, hər növ dostluq və məhəbbət ruhunun yaranması üçündür. Zəkat sizin var-dövlətinizin artmasına səbəb olar».

**5.** «Ədalət – cəmiyyət arasında müsavat, bərabərlik və nizam-intizamın qorunması üçündür».

**6.** «Cihad – İslamın əzəmət, şövkət və izzətini qorumaq üçündür».

Şair Məşədi Kamil Sərbəndi deyirdi:

***Nübuvvətlə imamət səndə tapdı ülfəti,***
***Sən oldun Mürtəzanın həyatının zinəti.***
***Səndən aldı Həsənin, Hüseynin təravəti,***
***Ey ümmətə bəxş edən imaməti, Fatimə,***
***Ey Mustəfa ömrünün səadəti, Fatimə!***

***Bu məqaləni Axund Hacı Soltan Hüseynqulu oğlunun Xanım Fatimeyi-Zəhra (s.ə.) barədə yazdığı bir qəzəllə yekunlaşdırı-rıq.***

***Müjdə, ey cümlə-cahan, dəhrə bu gün Zəhra gəlib,***
***Xətt "Bismillahir-rəhmanir-rəhim"ə "ba" gəlib.***

***Nə fəzilət verdi Allah bu kəsə ey möminan,***
***Şəninə Quranidə "Kövsər" gəlib "Dərya" gəlib.***

***Yerdə bir Kəbə var idi, amma daşdan, taxtadan,***
***Fatimə gəldikdə canlı kəbeyi-ülya gəlib.***

***Lütfi-xaliqdir enib dərgahi-Yəzdandan yerə,***
***Paklığın rəmzin cahanda etməyə icra gəlib.***

***Etmək üçün aləmə isbat nədir təqva sözü,***
***Xaliqin əmriylə Zəhra ümmətə əhda gəlib.***

***Fatimə ad qoydu Xətmi-Ənbiya bu töhfəyə,***
***Həqq ilə nahəqqi çün fərq etməyə məna gəlib.***

***Növbahardır sanki əyyami-zimistan dəf olub,***
***Laləzari-Əhmədə tazə güli-rəna gəlib.***

***"La fəta illa Əli, la seyfa illa Zülfiqar,"***
***Ya Əli, göydən sənə bir yari-bihəmta gəlib.***

***Kuyi-peyğəmbərdə alilər düzülmüş səfbəsəf,***
***Bu mubarəkbadə Məryəm, Hacərü, Sara gəlib.***

***Sən Həsən ilə Hüseyni aləmə bəxş eylədin,***
***Zeynəbü , Gülsüm adında isməti – "Ta-ha" gəlib.***

***Mustafanın rehlətindan sonra Cəbrail ilə,***
***Ərşi-əladan onunçün müshəfi-vala gəlib.***

***Ya Muhəmməd, Soltanam, təbrikə gəldim ümməti,***
***Kainata həqq hicabından düri-yekta gəlib.***

# HƏZRƏTI FATIMEYI-ZƏHRANIN (S.Ə.) KƏNIZI FIZZƏNIN ELMINƏ BIR BAXIŞ.

*Xoş olmaq istəsən, xoş dostlar tanı,*
*Xoşbəxt xoşbəxt edər çünki insanı.*

***(N.Gəncəvi "İsgəndərnamə")***

***Bismillahir-Rəhmanir-Rəhim***

Əbulqasım Qüreyşi öz kitabında bəzi səhabədən nəql edir ki, Zəhranın **(**s.ə.**)** kənizi Fizzə səhrada həcc karvanından geriyə qalıb itmişdi. Karvandan arxada qalmış Abdullah Mü-barək adlı bir nəfər deyir ki, səhrada bir nəfər yalqız qadın gördüm. Mən dəvə ilə onun yanına gedib ondan hər nə soruş-dum, Quran ayəsi ilə aşağıdakı surətdə mənə cavab verdi. On-dan soruşdum:

***"Sən kimsən?"***

Dedi: ***"Və qul səlamun fəsəufə yələmun." "Və de salam ol-sun sizlərə, tezliklə biləcəklər."[1]***

Ona salam verib dedim: "Sən burada neyləyirsən?"

Dedi: ***"Və mən yəhdillahi fəma ləhu min muzillin." "Allah-Təala hər kəsi hidayət etsə yolunu azmaz."[2]***

Başa düşdüm ki, yolu azıbdır. Dedim: "Cinlərdənsən, yoxsa insanlardan?"

Dedi: ***"Yə bəni Adəm xuzu zinətəkum." "Ey Adəm övlad-ları, bəzəklərinizi, zinətlərinizi götürün."[3]***

Başa düşdüm ki, Adəm övladıdır. Dedim: "Haradan gəlir-sən?"

Dedi: ***"Yunadəunə min məkanin bəidin." "Onlar uzaq yer-dən səslənərlər."[4]***

---

*[1] "Zuxruf" surəsi, ayə 89*
*[2] "Zumər" surəsi, ayə 37*
*[3] "Əraf" surəsi, ayə 31*
*[4] "Fussilət" surəsi, ayə 44*

Başa düşdüm ki, uzaq yoldan gəlir. Dedim: “Hara gedirsən?”

Dedi: ***“Və lillahi ələnnasi hiccül bəyti.” “Allah Təala imkanlı şəxslərə Kəbənin həccini vacib etdi.”***[1]

Başa düşdüm ki, Məkkəyə gedir.

Dedim: “Karvandan nə vaxt ayrı düşmüsən?”

Dedi: ***“Və ləqəd xələqnəs səmavəti vəl ərzi fi sittəti əyyamin.” “Biz göyləri və yeri və yerin içində olanları altı günə yaratdıq.”***[2]

Başa düşdüm ki, altı gündür karvandan ayrı düşüb. Dedim: “Yemək istəyirsənmi?”

Dedi: ***“Və la cəəlnahum cəsədən la yəkulunəttəmə.” “Biz onları yemək yeməyən cəsədlər tək yaratmadıq.”***[3]

Başa düşdüm ki, acdır. Dedim: “Tələs, tez gəl.”

Dedi: ***“La yukəllifullahu nəfsən illa vusəha.” “Allah Təala heç kimin boynuna gücündən artıq yük qoymaz.”***[4]

Başa düşdüm ki, yorulub, yeriməyə taqəti yoxdur.

Dedim: “Gəl dəvəyə min, arxada əyləş.”

Dedi: ***“Ləv kanə fihima alihətun illəllahu ləfəsədəta.” “Əgər yerdə və göydə yeganə Allahdan başqa Allahlar olsaydı yer-göy bir-birinə dəyərdi.”***[5]

Başa düşdüm ki, mənimlə birgə dəvədə oturmağa həya edir. Dəvədən düşüb onu təkcə mindirdim. Elə ki, dəvəyə mindi, dedi: ***“Sübhanəlləzi səxxarə ləna haza.” “Pak və münəz-zəhdir o Allah ki, bunu bizə müti***[6] ***etdi.”***[7]

Karvana çatan zaman ondan soruşdum: “Karvanda sənin qohum-əqrəban varmı?”

---

*1 “Ali-imram” surəsi, ayə 97*
*2 “Qaf” surəsi, ayə 39*
*3 “Ənbiya” surəsi, ayə 8*
*4 “Bəqərə” surəsi, ayə 286*
*5 “Ənbiya” surəsi, ayə 22*
*6 Muti, yəni itaət edən, tabe olan.*
*7 “Zuxruf” surəsi, ayə 13*

Dedi: ***"Ya Davudu inna cəəlnakə xəlifətən fil ərzi." "Ey Davud, biz səni Yer üzündə öz xəlifəmiz etdik (qərar verdik)."***[1]

***"Və ma Mühəmmədin illa rəsulun." "Mühəmməd, peyğəmbərdən başqa bir şey deyildir."***[2]

***"Ya Yəhya xuzil kitabə biquvvətin." "Ey Yəhya, kitabı möhkəm tut."***[3]

***"Ya Musa inni ənəllah." "Ey Musa, mənəm Allah."***[4]

Başa düşdüm ki, karvanda ona qohum olan Davud, Mühəmməd, Yəhya və Musa adında şəxslər vardır. Onları çağır-dım. Dörd nəfər cavan o qadına tərəf gəldilər. ondan soruş-dum: "Bunlar sənin nəyindir?"

Dedi: ***"Əlmalu vəl bənunu zinətul həyatiddünya." "Mal və övlad dünya həyatının bəzəyidirlər."***[5]

Başa düşdüm ki, onlar onun övladlarıdır. Onlar qadının yanına gələndə o dedi: "Ya əbəti əstəcirhu innə xeyrə mənistəcərtəl qəviyyul əmin." "Ey ata, onu qulluğa götür. Çünki, yax-şı bir insanı qulluğa götürürsən. O, qüvvətli və əmin bir şəx-sir."[6]

Başa düşdüm ki, onlar deyir ki, mənim muzdumu versin-lər. Onlar mənə bir miqdar pul verdilər. Qadın dedi: "Vallahu yuzaifu limən yəşau." "Allah Təala o mükafatı hər kim üçün istəsə neçə dəfə artırar."[7]

Başa düşdüm ki, onlara deyir ki, bir az çox muzd verin. Onlar mənə bir az da pul verdilər. Onlardan soruşdum: ***"Bu xanım kimdir?"***

***Dedilər: "Bu qadın Həzrəti Zəhranın (s.ə.) kənizi, bizim anamız Fizzədir. O, iyirmi ildir ki, Quran ayələrindən başqa bir söz danışmır."***

---

[1] ***"Sad, surəsi, ayə 26***

[2] ***"Ali-İmran, surəsi, ayə 144***

[3] ***"Məryəm" surəsi, ayə 12***

[4] ***"Qəsəs" surəsi, ayə 30***

[5] ***"Kəhf" surəsi, ayə 46***

[6] ***"Qəsəs" surəsi, ayə 26***

[7] ***"Bəqərə" surəsi, ayə 261***

# HƏZRƏTI ZƏHRA (S.Ə.) VƏ ONUN ŞIƏLƏRININ FƏZILƏTI VƏ BEHIŞTDƏKI MƏQAMLARI.

Əbu Cəfər Təbəri **“Bəşarətul Mustafa**” kitabında Həm-mam Əbi Əlidən nəql edir ki, Kəbül Əhbardan soruşdum:

***“Əli ibni Əbutalibin (ə.s.) şiələri barədə nəzəriniz nədir?”***

Dedi: “Ey Həmmam, mən onların Quranda vəsfini tapmı-şam. Onlar Allahın hizbi[1] İslamın köməkçiləri, Allah vəlisinin ardıcılları, insanlar arasında Allahın alicənab və məxsus bən-dələridirlər. Allah Təala onları öz dini üçün seçib behişti üçün yaratmışdır. Onlar behiştdə Firdovsi-əlada şəffaf mirvari dənəsindən və ləl-cəvahirdən düzəldim otaqlarda yaşayarlar. Onlar müqəddəs şəxsiyyətlərin arasındadırlar. Belə şəxslər hələ əl dəyməmiş içkilərdən içərlər. Bu içki onlara məxsus ***“Təs-nim”*** adlı bulağın suyundandır**.** ***“Təsnim”*** Allah Təalanın Həz-rəti Fatimə (s.ə.) əta etdiyi bulaqdır. Bu bulağın mənbəyi qüb-bəsi soyuqluqda kafur, dadı zəncəfil, iyi isə müşk kimi olan bir sütunun dibindəndir. O bulaq arxlara axar, Fatimənin (s.ə.) şiələri və dostları da ondan içərlər. O qübbənin dörd sütunu vardır. Onun bir sütunu ağ mirvaridəndir. Bu sütunun dibində ***“Təhur”*** adlı bir bulaq vardır. Onun bir sütunu da yaşıl züm-rüddəndir. Bu sütunun dibində isə təhur və baldan olan şərab-la dolu daha iki bulaq vardır. Bu çeşmələrdən hər biri behiştin aşağı hissəsində axır. Təkcə Təsnim çeşməsi behiştin yuxarı hissəsində axır. Bundan yalnız behiştin xüsusi adamları içəcəklər. Onlar Əlinin (ə.s.) şiələri və dostlarıdır. Budur Allah Təalanın Quranda buyurduğu kəlamın təfsiri: ***“Yusqəvnə min rəhiqin məxtumin əynən yəşrəbu bihəl müqərrəbun.”***

---

[1] ***Hizb, yəni zümrə, hissə, qism.***

***"Onlar ağzı bağlı əl dəyməmiş şərabla sirab olarlar. O elə bir çeşmədir ki, ondan yalnız Allahın ən yaxın adamları içəcəklər."***[1]

Sonra Kəbul Əhbar dedi:

***"Allaha and olsun, şiələri ancaq Allahın əhdü-peyman bağladığı şəxslər sevir."***

*****

# HƏZRƏT FATİMEYİ - ZƏHRANIN (S.Ə.) TƏVƏLLÜDÜ, ŞƏHADƏTİ VƏ HƏYATI HAQQINDA SUAL - CAVAB

***Sual - 1.***

Fatimeyi -Zəhra (s.ə) harada və nə vaxt anadan olubdur?

***Cavab:***

Besətin 5-ci ilinin ***"Camadiyus-sani"*** ayının 20-ci, cümə günü dan yeri sökülməyə yaxınlaşan vaxt, Məkkə şəhərində.

***Sual - 2.***

Nə üçün Fatimeyi- Zəhraya (s.ə) Fatimə deyirlər?

***Cavab:***

Fatimeyi-Zəhra (s.ə) aşağıdakı səbəblərə görə Fatimə deyirlər.

***1) O, hər bir pislikdən və çirkinlikdən uzaqdır.***

***2) O, və onun şiələri cəhənnəm odundan uzaqdır.***

***3)Fatimeyi-Zəhra (s.ə) yüksək elm və kamal dərəcələrinə malik olduğu üçün başqalarından seçilirdi.***

(Fatimeyə ***"xətəmə"*** kəlməsindədir, yəni kəsən və ayıran).

***Sual - 3.***

Nə üçün Fatimeyi-Zəhra (s.ə) Zəhra deyirlər?

***Cavab:***

İmam Həsən Əskəri (ə) buyurur:

---

[1] ***"Mutəffifin" surəsi, ayə 25-28***

Fatimeyi- Zəhra(s.ə) Zəhra adı ilə adlanmasının səbəbi bundan ibarətdir ki, hər gün üç dəfə onun camalının nuru Əli(ə) cilvələnirdi.

Fatimeyi-Zəhra (s.ə) parlaq çöhrəsi səhərin ilk başlanğı-cında günəş kimi, günorta vaxtı ay kimi və gün batan vaxtı ulduz kimi nur saçırdı.

***Sual - 4.***

Nə üçün Fatimeyi Zəhra (s.ə) ***"Hurayi-İnsiyyə"*** deyirlər?

***Cavab:***

Peyğəmbər (s) öz ***"Merac"***larının birində səmaya gedən zaman behiştin alma, təzə xurma və meyvələrindən meyl etdi. Allah taala həmin behişt yeməklərini Peyğəmbərin (s) sulbun-də (bel sümüyü) suya çevirdi.

O Həzrət (s) elə ki, ***"Merac"***dan yer üzünə qayıtdı, Həzrət Xədicə (ə) cinsi əlaqədə oldu.

Beləliklə Fatimeyi-Zəhra (s.ə) nuru Xədicə (ə) rəhninə (uşaqlıq) düşdü. Buna görə də Fatimeyi-Zəhra (s.ə) ***"Hureyi-İnsiyyə"*** adı ilə adlandı, yəni Fatimeyi-Zəhra (s.ə) yer əhli ol-maqla yanaşı, behişt hurilərindən də idi.

***Sual - 5.***

"**Ümmu-Əbiyha"** nə deməkdir və kim bu ləqəbi Fatimeyi-Zəhra (ə) veribdir?

**Cavab:**

*"**Ümm**"* gəlməsi *"**ana**"* mənasına olmaqdan əlavə *"**əsil**"* və **"kök"** mənasına da işlənibdir. Necə ki, Məkkəyə

*"**Ümmul-qura**"* və şəraba *"**Ümmul-xəbais**"* deyirlər. Buna görə də ***"Ümmu əbiha"*** da, vilayət və nubuvvətin əsli, kökü məna-sındadır. Həqiqətən, Fatimeyi-Zəhra (s.ə) kölgə salan bir ağac idi. O, imamət və vilayətin şirin meyvələrini yetişdirdi. Pey-ğəmbər (s) öz əziz qızına ***"Ümmu Əbiha"*** ləqəbi verdi.

Həqiqətən də, Fatimeyi-Zəhra (s.ə) həmin ləqəbə ləyaqətli idi.

***Sual- 6.***

Əli (ə) Fatimeyi -Zəhra (s.ə) ilə nə vaxt evləndi?

***Cavab:***

Hicrinin 2-ci ilinin ***“Zilhiccə”*** ayının əvvəlində, (bəzi rəvayət-lərə əsasən, zilhiccənin 6-cı günü də qeyd olunubdur.)

***Sual - 7.***

Fatimeyi- Zəhra (s.ə) neçə övladı var idi?

***Cavab:***

Fatimeyi-Zəhra (s.ə) Həsən, Hüseyn, Zeynəb, Ümmul-Gülsum və Möhsun adlarında beş övladı var idi.

***Sual - 8.***

Fatimeyi-Zəhra (s.ə) zəkat və namazın fəlsəfəsi haqqında nə buyurubdur;

***Cavab:***

Fatimeyi-Zəhra (s.ə) buyurur:

“Ey müsəlmanlar! Diqqət edin ki, səmavi qanunlar sizin kamala çatmağınız və səadətiniz üçün qərara alınıbdır;

***“Namaz”-***Allahınızın müqabilində başınızı səcdəyə qoyub, Onun əzəmətli dərgahına təvazökarlıq etmək üçündür.

***“Zəkat”-***ürəklərdə xeyirxahlıq, mehribanlıq, hər növ dostluq və məhəbbət ruhunun yaranması üçündür.

Zəkat sizin mal-dövlətinizin artmasına səbəb olur”.

***Sual - 9.***

Fatimeyi-Zəhra (s.ə.) şəri hökmlərinin (oruc, ədalət, ci-had, əmr-be-məruf və nəhy-əz-münkər) fəlsəfəsi haqqında bu-yurduğu sözləri nədən ibarətdir?

***Cavab:***

Fatimeyi- Zəhra (s) şəriət hökmlərin fəlsəfəsi haqqında belə buyurur:

***“Oruc”-*** sizin ürəklərinizi pak və səfalı etmək üçündür. Oruc tutmaq ürək qaraltılarını aradan aparır və insanın ruhunu layiqli məqamlar üçün hazırlayırlar.”

***“Ədalət”-***cəmiyyət arasında müsavat, bərabərlik və nizam-intizamın qorunması üçündür.

***“Həcc”-***Allaha pərəstiş ruhu və imanını həmçinin dindarlığı möhkəmlətmək üçündür.

***“Cihad”-***İslamın əzəmət, şövkət və izzətini qorumaq üçündür.

***“Əmr-be-məruf və nəhy-əz-münkər”-*** cəmiyyəti fəsaddan, puçluqdan və aludəlikdən qorumaq üçündür.

***Sual - 10.***

Fatimey-Zəhra (s.ə.) fəzilətlərindən bir neçəsini bəyan edin?

***Cavab:***

Fatimeyi-Zəhra (s.ə.) ***»Kisa və Mubahilə»*** əshablarından biridir.

Fatimeyi-Zəhra (s.ə) o şəxslərdən idi ki, onların şəni haqqında ***"Təthir ayəsi"*** nazil olub.

# İMAMƏT BARƏSİNDƏKİ ƏQİDƏMİZ

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Mən ağlım kəsəndən, gözüm görəndən,***
***Allahu, Muhəmməd, Əli demişəm.***
***On iki İmama, Həzrət Abbasa,***
***Üz tutub Xudaya, bəli demişəm.***[1]

İmamət-Usuliddinin ayrılmaz bir hissəsidir və iman yalnız İmamətə etiqad bəsləyəndən sonra kamil olar. Bu barədə heç kəsə nə qədər böyük şəxsiyyətli olsa da belə ata-babalara, qohum-əqrəbaya sair möminlərə təqlid etmək əsla caiz deyil-dir, əksinə, ***Tovhid*** və ***Nübüvvət*** bəhsində qeyd olunduğu kimi, şəxsi etiqada əsaslanmalıdır.

Əgər imamət üsuli-dinsən hesab olunmazsa yenə də onda təqlid etmək caiz deyildir. Amma başqa bir cəhətdən vacibi şə-ri vəzifələrin yerinə yetirilməsində qəti yəqinlik tapmağın va-cib olduğu üçün ona etiqad bəsləmək lazımdır.

Bizim hamımız bir tərəfdən Müqəddəs Şəriət Sahibi tərəfindən müəyyən vəzifələri, göstərişləri yerinə yetirməyə vəzifə-

***[1] Zəki İslam***

liyik. Digər tərəfdən də, o, vəzifələrin hamısı bizim üçün aydın deyildir.belə olan halda elə bir kəsin, ardınca getməliyik ki, onun dediklərinə əsasən vəzifəmizin düzgün surətdə yerinə yetirildiyinə, şəri məsuliyyətin boynumuzdan götürüldüyünə yəqinimiz olsun. Tabe olmalı olduğumuz belə bir şəxs İmamiyyə şiəsinin əqidəsinə görə, "İmam", başqalarının əqidəsinə görə isə hər hansı başqa şəxslərdir.

Cəfəri məzhəbinin (şiələrinin) etiqadına əsasən, İmamət üsuli dinin 4-cü əsas rüknüdür və əhəmiyyətinə görə nübüvvət-dən sonra gəlir. Həmçinin əqidə qaydası kimi şərt olunması da mümkündür. Belə ki, şiələr bunun vasitəsi ilə sair islami məzhəblərdən seçilmişlər.

İmamət Əhli-beyt (ə) tabeçilərini məzhəbinin idealoji əsası sayılır.

***İmamət***-lüğətdə bir şəxsin, camaatın ona tabe olubiqtida etmələri üçün irəli keçməsinə deyilir. Tabe olunan şəxs İmam, tabe olanlar isə məmum adlanır. Deməli, İmam, insanın söz və əməldə iqtida etdiyi, tabe olduğu şəxsə deyilir ("əimmə-tun"kimi cəm bağlanar)

"İmam"kəlməsi Qurani-Kərimdə 12 yerdə zikr olunub. Yeddi yerdə tək halda (***İmam:*** "Bəqərə"124, "Hud" 17, "Hicr" 79, "İsra" 71, "Furqan" 74, "Yasin" 12, "Əhqaf" 12, qalan 5 yerdə isə cəm halında (***Əimmətun:*** "Tövbə" 12, "Ənbiya" 73, "Qəsəs" 5 və 41, "Səcdə" 12) gəlmişdir.

İlahiyyat elmi istilahında isə ***İmamət*** dedikdə, ilahi bir məqam , mənsəb başa düşülür ki, Allah onu Peyğəmbəri (s) seçdi-yi kimi Özünün bəndələrə olan əzəli elmi ilə seçir, Peyğəmbə-rə(s) əmr edir ki, İmamı(ə) ümmətə tanıtdırıb ümməti ona itaət etməyə çağırsın. Bəndələrin İmam(ə) seçməyə haqları və səla-hiyyətləri yoxdur.

***"Sənin Rəbbin sitədiyini xəlq edir, onlar üçün xeyirıi şəxslər seçir".*** [1]

İmamla(ə) Peyğəmbərin(s) fərqi bundadır ki, Peyğəmbə-

---

[1] ***"Qəsəs"surəsi, 68***

rə (s) vəhy gəlir, İmam(ə) isə hökmləri Peyğəmbərdən (s) ilahi bir qüvvə ilə əxz edir. Peyğəmbər (s) Allah tərəfindən,İmam (ə) isə Peyğəmbər (s) tərəfindən olan təbliğatçıdır. Bu, İma-miyyə məzhəbinin inancıdır. Sair məzhəblərdə isə, imamət din və dünya işlərində ümumi rəhbərli, Peyğəmbəri Əkrəm (s) tərəfin-dən furuiddin hökmlərində xəlifədir.[1]

İslam alimləri arasında İmamət məsələsində iki nəzəriyyə mövcuddur. Birinci nəzəriyyəyə görə, imamət (ümmətə rəhbər-lik) rəy vermə, seçki yolu ilədir. İkinci nəzəriyyəyə görə isə Allah tərəfindən təyin olunan ilahi bir məqamdır. Şiələr birinci nəzəriyyəni batil hesab edib deyirlər ki, o, Allah tərəfindən tə-yin olunur və Peyğəmbərin (s) vasitəsi ilə xalqa təqdim olunur və o, özündən sonrakı şəxsə itaət etməyi vəsiyyət edir. Necə ki, o Həzrət (ə) ***"Qədir-Xum"***da bu işi görmüşdü. Ondan sonra isə, hər İmam(ə) özündən sonrakı İmamı(ə) xalqa təqdim edir. Yaxud da möcüzənin onun əli ilə zahir olması ilə məsələ ay-dınlaşır. Çünki, İmamətin ilk şərti ismətdir. Bu da gizlin və ba-tini işlərdəndir ki, Allahdan başqa heç kəs onu bilməz. İma-miyyə şiələrindən başqa yerdə qalan məzhəblər isə deyirlər ki, imamətdə Peyğəmbərin (s) canişin təyin etməsi, camaatdan canişinə itaət etmələri barədə əhd-peyman alması şərt deyildir. Bəzi vaxtlar beyətlə olur, məsələn, şura üzvləri bir kəslə beyət edib, onu İmam təyin edirlər. Bu da İmamda ismətin şərt ol-maması əsasındadır. Bütün müsəlmanların da beyət etmələri şərt deyildir. Bəzi hallarda hətta bir nəfərin də beyət etməsi ki-fayətdir. Əgər məsələ beyətlə həll olmazsa, İmamı seçmək üçün növbə başqa işlərə çatır. Məsələn, ***zorakılıq və istila.*** Əgər İmam ölsə və İmamət üçün lazımi şərtlərə malik olan bir kəs beyət alınmadan və canişin təyin edilmədən öz qüdrəti ilə, zor-la camaatı özünə tabe etdirsə, xilafət onun üçün təsbit olunur. Hətta o fasiq, cahil, zalım və zorakılıq edən də olsa belə. Bun-dan əlavə, onların fikrincə, İmamı (ə) hətta fasiq olsa da

---

***[1] Əlavə məlumat üçün bax: ərəbcə lüğət kitabları, "Əslüş-şiə və üsuluha", səh.210,221, "Əqaidül-Cəfəriyyə", səh.27 "Əlmiləlü vən-nihəl", (Şəhristani), 1-ci cild, səh.31 "Şərhülməqasid", 5-ci cild, səh.232***

belə xilafətdən çıxarmaq caiz deyildir. Amma bir xəlifədən güclüsü gəlib onu zorla xilafətdən çıxarsa, əvvəlki İmam (ə) öz məqa-mından çıxarılır və sonra gələn şəxs İmam (ə) olur.

Görəsən aqil bir şəxs özünə icazə verərmi ki, imaməti fa-siq, zalım, cahil şəxsin heç bir əsas olmadan, yalnız qüdrətli və güclülüyü ilə təyin edən bir məzhəbə meyl etsin?! Özü də əvvəl-ki İmama tabe olan, qüvvəsi ondan çox olan bir şəxsin zorakı-lıq yolu ilə İmam olmasını?! Görəsən bu Peyğəmbərin (s) bu-yurduğu: ***“Hər kəs zəmanəsinin İmamını tanımadan öncə ölsə, cahiliyyət dövründə ölümüş ərəb kimidir”*** hədisindəki İmam ola bilərmi? Bəs Allah-Təalanın buyurduğu ayədəki ***məzhəb*** harda qaldı?[1]

Allah-Təala “Yunis” surəsinin 35-ci ayəsində buyurub: ***“Görəsən haqqa doğru hidayət edən şəxs tabe olmaq üçün daha ləyaqətlidir, yoxsa özü hidayət olunmayan və kiminsə hidayətinə ehtiyaclı olan bir şəxs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?”***

---

***[1] Əlavə məlumat üçün bax: “Nəhcül-haqq və kəşfüs-sidq”, səh.168 “Şərhül-məqasid”, 5-ci cild, səh.233, “Ət-təmhid”, səh.186 “Əslüşşiə və üsüliha”, səh.221 “Əqaidül-Cəfəriyyə”, [1]Bax: “Əl-Kafi”, 1-ci cild, səh.377, “Əl-məhasin”, 1-ci cild, səh.176, “Üyünü-əxbarir-Riza (ə)”, 2-ci cild səh.58, “Kəmalüddin” səh.413, “Əl-ğənyətü” (Nömani), səh.130, “Ricalül-Kəşiyy”, 2 ci cild, səh.724, “Müsnədi-Tiyalisi”, səh.259 “Hilyətül-övliya”, 3 cü cild, səh.224 “Əl-möcəmül-kəbir”, (Təbərani), 10-cu cild, səh.350, “Müstədrəki-Hakim”, 1-ci cild, səh.77, “Nəhcül-bəlağə”nin şərhi (İbni əbil-Hədid), 9-cu cild, səh.155, “Yənabiül-məvəddət”, 3-cü cild, səh.155, “Məcməüz-zəvaid”, 5-ci cild, səh.224, “Müsnədi Əhməd”, 4-cü cild, səh.96***

# PEYGƏMBƏRLƏRIN (Ə) VƏ IMAMLARIN (Ə) ISMƏTI BARƏSINDƏKI ƏQIDƏMIZ

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Dildəki "Ya-hu" kəlamımdır mənim,***
***Əhli-həqqə bu salamımdır mənim.***
***Cismimə neylər cəhənnəm atəşı,***
***Cəfəri Sadiq imamımdır mənim.***[1]

İslam elm akademiyasının təsisçisi olan 6-cı İmamımız (ə) İmam Cəfəri Sadiqin (ə) ardıcılı olan Cəfəri Məzhəbinə mən-sub olanların (şiələrin) əqidəsi budur ki, Peyğəmbərlərin(ə) və İmamların (ə) hamısı məsumdurlar. Bu məsələ barəsində bəzi müsəlman firqələri bizimlə müxalif olub, isməti nəin ki, İmamlar (ə) barəsində, hətta Peyğəmbərlər (s) barəsində belə, vacib bilmirlər.

***İsmət***-kiçik və böyük günahlardan, (Allaha qarşı) üs-yankarlıqdan (günahdan), xəta və unutqanlıqdan uzaq olmaq deməkdir.[2]

Seyid Mürtəza (r.ə.) "Tənzihül-Ənbiya" kitabında buyu-rur:

"Əshabi-hədis" və "Həşəviyə" firqələri Peyğəmbərlərin (s) nübüvətdən əvvəl kəbirə günaha mürtəkib olmalarını mümkün hesab etmişlər. Bəziləri hətta nübüvət vaxtında belə, şəriətin əda olunmasına aid olan işlərdəki yalandan başqa bütün kəbi-rə günahlara mürtəkib olmasını caiz hesab etmişlər. Bəziləri də bunları Peyğəmbərlik dövründə, amma gizlində mürtəkib ol-malarını, bəziləri isə bütün hallarda caiz bilmişlər. Amma ***Mö-təzilə firqəsi*** Peyğəmbərlərin (s) bütün kəbirə və təhqiramiz sə-ğirə günahlara mürtəkib olmalarını həm nübüvvətdən əvvəl, həm də sonra uzaq bilmişlər. Lakin təhqiramiz olmayan səğirə

***[1] Axund Hacı Soltan Hüseynqulu oğlu***
***[2] Bax: "Şərhül-məqasid", 5-ci cild, səh.50 "Əl-qənyətu fi üsulid-din", səh.161***

günahları hər iki halda (nübuvvətdən əvvəl və sonra) caiz bilmişlər. Sonra bu firqə ardıcıllarının da öz aralarında ixtilaf düşmüşdür. Bəziləri öz Peyğəmbərimizi də (s) bilərəkdən kiçik günaha mürtəkib olmasını caiz bilmişlər. Bəziləri isə demişlər ki, Peyğəmbərlər (ə) günah bildikləri şeyə yaxın düşməzlər, amma təvil əsasında günah edə bilərlər. Cəfər ibni Mübəşşir və onlara tabe olanlar demişlər ki, Peyğəmbərlərin (ə) günahı yalnız səhvən və ya qəflət üzündən baş verə bilər. Buna görə də qiyamətdə, onların ümmətlərindən, məqamlarının uca və mərifətlərinin qüvvəsi olması səbəbi ilə götürülməsinə baxmayaraq, cəzalandırılacaqlar.

# İSMƏTIN MƏNASI

İsmətin lüğətdə mənası: ***“İsmət-bir səciyyədir ki, insan onun səbəbi ilə bir şeydən qorunur, sanki onun vasitəsilə istəmədiyi şeyə düşməkdən imtina edir. Bu fel növü deyildir”. Ərəb dilində “itəsəmə fülanün bil-cəbəli”- “filankəs dağa sığın-dı”deyildikdə həmin şəxsin dağa sığınmaqla nicat tapmasına işa-rə olunur.***

Məşhur “Lisanül-ərəb”lüğətində deyilir: ***“İsmət”***- hifz et-mək deməkdir. “Allahın köməyi ilə ismətli olmaq”- yəni Onun lütfü ilə günahdan, məsiyətdən uzaq olmaq. [1]

“Allah bir kəsə ismət bəxş etmişdir”- dedikdə insanın Onun səbəbi ilə, itaətdə ikrahlı şeydən amanda qalması kimi bir tovfiq nəzərdə tutulur. Bu, suda qərq olan insana ip ver-mək kimidir ki, o da bu ipdən tutub xilas olur. Allah-Təala bu mənanı “Ali-İmran” surəsinin 103-cü ayəsində bəyan etmişdir:

***“Hamılıqla Allah ipindən tutun və heç vaxt dağılışma-yın!”*** *(Allah ipi-yəni Allah dini )*

İmam Zeynül Abidindən (ə) ***“Məsum”*** sözünün mənası ba-rədə soruşduqda buyurdu:

“Məsum-Allah ipindən yapışan şəxsdir. Allahın ipi də Qurandır ki, bu ikisi (Quran və Məsum) qiyamətə kimi bir-bi-rindən ayrılmazlar. Quran İmama, İmam da Qurana doğru hi-dayət edir. Məhz bu mənanı bu Allah kəlamı yetirir ki:

***“Həqiqətən bu Quran ən möhkəm yola hidayət edir”.*** [2]

---

***[1] “Biharül-ənvar”, 25-ci cild, səh.194 ; Şeyx Müfid “Məqalat”, 4-cü cild, səh.34 ; “Lisanül-ərəb”, 12-ci cild, səh.403, “ə-sə-mə”maddəsi”.***
***[2] “İsra”surəsi, ayə 9***

# ÜÇÜNCÜ MƏSUM

# İMAMƏT SƏMASININ PARLAQ ULDUZU HƏZRƏTİ ƏLİ (Ə) KƏBƏDƏ DOĞULAN YEGANƏ ŞƏXSİYYƏTDİR

***Ya Rəbb!  Əli eşqi qəlbimdə qaynar,***
***O ad çəkilincə varlığım oynar.***
***O bağda yeri yox Əlisizlərin,***
***Ora həsrət qoyma aşiq gözlərin.***
***Ya Allah! Əliyə yetir salamım,***
***Naqis görünsə də əgər kəlamım.***

***Bismillahir-Rəhmanir-Rəhim!***

İndiyə qədər heç kəs Kəbə evində dünyaya gəlməyib.

Bu, ancaq Həzrət Əliyə (ə) nəsib oldu.

Həzrət Əli (ə) Bəsətdən 10 il əvvəl ***Rəcəb*** ayının 13-cü günü Allahın evində – müqəddəs Kəbədə dünyaya göz açdı. Peyğəmbərdən (s) sonra İslam aləminin 2-ci böyük şəxsiyyəti Həzrəti Əlidir (ə).

Həzrət Əlinin (ə) anası Fatimə binti Əsəd buyurub:

***«Kəbə evindən çıxmaq istəyirdim, qeybdən səs gəldi: «Ey Fatimə, bu uşağın adını Əli qoy».***

Uca Allah buyurur:

***«Mən onun adını öz adımdan seçdim və ədalətimlə tərbiyələndirdim. Onu dərin elmimə agah etdim».***

Həzrəti Əli (ə) 63 illik ömrünün 23 ilini Peyğəmbərl (s) birgə İslam dininin şöhrət tapması üçün çalışdı. Hətta Peyğəmbərlə(s) Allahın əmri ilə Məkkəni tərk edərkən (müşriklər Peyğəmbəri (s) öldürmək istəyəndə Əli (ə) onun yerində yatır və öz canını təhlükə qarşısında qoyur. Bu hadisə ilə əlaqədar ***«Bəqə-rə»*** surəsi 207-ci ayə nazil oldu: ***"İnsanların bəzisi də Allahın***

***razılığını tapmaq üçün öz canından keçər. Allah bu bəndələrinə qarşı mehribandır”.***

Şair K.Kürqırağlı yazır:

***Haqdan şir doğulmaq yazıldı baxta,***
***Dizlərin torpaqda, əllərin haqda.***
***Ən çətin məqamda, ən çətin vaxtda,***
***Oldun Peyğəmbərə özün kan Əli,***
***Canım sənə fəda, Əli, can Əli!***

***«Maidə»*** surəsinin 67-ci ayəsində Əlinin (ə) Allah tərəfindən Peyğəmbərdən (s) sonra xəlifə olmasına işarə olunur: ***«Ey Peyğəmbər, sənə Allah tərəfindən əmr olunanı xalqa çatdır»***. Peyğəmbər (s) özü də Əlinin (ə) şəxsiyyətinə böyük qiymət ve-rib və onun fəzilətləri haqda neçə-neçə hədislər söyləyib:

***«Ya Əli, Allah sənə üç fəzilət bəxş edib ki, bunlar mənə verilməyib. Allah sənə mənim kimi qayınata,Fatimeyi-Zəhra (s.ə) kimi həyat yoldaşı, İmam Həsən (ə) və İmam Hüseyn (ə) kimi övladlar bəxş edibdir».***

Peyğəmbər (s) səhabələrinin dilindən də Həzrət Əli (ə) haqqında yüksək fikirlər deyilmişdir. İkinci xəlifənin zamanın-da ***“Həcc”*** mövsümü ərəfəsində Əli (ə) *“**Məscidül-Həram**”*da təvaf halında gördü ki, bir gənc özgənin namusuna xəyanət gö-züylə baxır. Əli (ə) həmən şəxsə bir şillə vurdu. O şəxs gedib xəlifəyə ərz elədi ki, məni təvaf eləyən zaman bir şəxs vurdu. İkinci xəlifə sual elədi ki, o şəxsi görsən tanıyarsanmı?

Dedi: “Bəli”. Cavan ətrafa nəzər salıb Əlini (ə) namaz üstə görüb onu nişan verir. Xəlifə cavab verdi ki: ***“Səni Allahın gözü görüb və Allahın əli vurub, mən heç nə deyə bilmərəm”.***

S.M.Şəhriyar deyir:

***Nə Xuda desəm səzadır,  nə bəşər desəm rəvadır.***
***Necə versəm ad xətadır, Şəhi-mülki-la fəta yə.***

Müxtəlif əqidə sahibləri də Əlinin (ə) barəsində gözəl fikirlər söyləyiblər. Xristian alimi Corc Cordaq Əlinin (ə) haqqın-da yazdığı kitabda deyir:

***«Ey yerlər, ey göylər, bütün gücünüzü bir yerə yığın, bəşəriyyətə ikinci bir Əlini təhvil verin».***

***«Maidə»*** surəsinin 55-ci ayəsində Allah-Təala buyurur: ***«Sizin dostunuz ancaq Allah, onun elçisi və namazı bərpa edən və ruku halında infaq edən möminlərdir».***

Bu ayə nazil olan vaxt Əbazər və İbn Abbas Rəsulalla-hın(ə) məscidindəydilər. Həmçinin bu iki Peyğəmbər(s) səha-bələri nəql edirlər ki:

***«Bir gün Mədinə yoxsullarından birisi Rəsullahın(s) məscidinə daxil oldu və öz yoxsulluğundan nalə, şikayət eləyərək camaatdan kömək istədi. Heç kəs kömək etmədi. Həzrət Əli (ə) onun nalə səsini eşitmiş və rukuya gedən halda üzüyünü ona ver-mişdi. Məsciddə olanlar çıxıb getməmiş, Cəbrayıl (ə) bu ayəni gətirdi».***

S.M.Şəhriyar deyirdi:

***Yeri döy Əli qapısın, odur, ey gədayi-miskin,***
***Kərəmiylə padşahlq üzüyün verən gədayə***.

Mövlanə deyir: ***«Həzrət Əlinin (ə) elmi dəlilə yox, yəqinə əsaslanır. Dəlillərlə hərəkət edənin yolu taxtadandır. Taxta isə çox etibarsızdır. İxlası da, əməli də Əlidən öyrən. Ya Əli,sən elm şəhərinin qapısısan, helm günəşinin nurusan. Ey rəhmət qa-pısı, ey bərabəri olmayan Allah barigahı, bağlanma, əbədi açıq qal. İgidlikdə Allahın şirisən, ərlikdə isə kimliyini kim bilir?»***

Həzrət Əli (ə) «***Darun-Nədvə***» cərəyanında Peyğəmbə-rin(s) yatağında yatdı və bu təhlükəli gecəni müvəffəqiyyətlə başa vurdu. İlahi imtahanından başı uca çıxdıqda şükür səc-dəsi etdi. İslamda birinci şükür səcdəsini Əli (ə) yerinə yetirdi. Həzrət Əlidən (ə) nə qədər danışılsa azdır. Əli (ə) «***Nəhcül-Bə-lağə***» sahibidir. ***«Nəhcül-Bəlağə»*** Quranın qardaşıdır.

Məhəmməd Əmin Dilsuz deyir:

***Ya Əli, vəsfinə könlüm təzədən mail olur,***
***Eylərəm vəsfini tofiqin əgər şamil olur.***
***Mən də hərçənd sənin vəsfinə layiq deyiləm,***
***Leyk, hər kimsəyə salsan nəzərin qabil olur.***

***Peyğəmbər (s) buyurub:***

***«Hər kəs Adəmin (ə) elminə, Nuhun (ə) pəhrizkarlığına, İbrahimin (ə) səbrinə, Musanın (ə) əzəmətinə və İsanın (ə) ibadətinə nəzər salmaq istəyirsə, Həzrət Əliyə (ə) baxsın ».***

Peyğəmbərin (s) zamanında baş verən müharibələrdən birində ***"Ühüd"*** döyüşündə Həzrət Əli (ə) elə fədakarlıq göstərdi ki, Cəbrayıl (ə) nazil olub buyurdu:

***«Ya Muhəmməd, bu qardaşlıq və fədakarlıq mənasıdır ».***

Peyğəmbər (s) buyurdu:

***« Əli məndən və mən də Əlidənəm».***

Cəbrayıl (ə) buyurdu:

***«Mən də hər ikinizdənəm».***

Seyyid İmadəddin Nəsimi deyir:

***Kim Muhəmmədi Əlidən ayırır, lənət ona,***
***Ləhməki-ləhmi deyilmi ya Əli, səndən mədəd!***

Hədislərdən belə məlum olur ki, Peyğəmbərlə (s) Əlinin (ə) qohumluqdan əlavə məslək və əqidə birlikləri də olub. Çox təəssüf ki, Peyğəmbərin (s) rəhmətindən sonra Əlinin (ə) haqqını əlindən aldılar.

Islam irfanının əsasını ilk dəfə Əli (ə) qoyub. Əli (ə) dini xadimlər və İslam alimlərindən bir dəstəsini tərbiyyə etdi və onlara irfanın nəzəri və əməli hissələrini tanıtdı. Onlardan Üveysi Qərəni, Kumeyl ibn Ziyad, Meysəm Təmmar və s. Kimi yeganə nüsxədir. Ondan ayrı düşmək, tək bir şəxsdən ayrı düşmək deyil. Bəlkə də bir okeandan uzaq düşməkdir və ***«Nəhcül-Bəlağə»***-dən faydalanmaqdır.

# IMAM ƏLININ (Ə) ŞƏXSIYYƏTI "NƏHCÜL-BƏLAĞƏ"DƏ

***Sən nüzul etdikdə fəryad etdi şeytanir-rəcim,***
***Sandı ki, bağlandı babi-şurişi qovğa, Əli.***

***Vüqar Nakam***

***Bismillahir-Rəhmanir-Rəhim***

***Çəkin söz-söhbətdən sən alçaqlarla,***
***Onları özündən uzaqda saxla.***

***(N.G.əncəvi "İsgəndərnamə")***

## *Əmirəlmöminin Əlinin (ə) şücaəti*

Əgər şücaəti insanın öz nəfsinə qalib gəlməsi mənasında ifadə etsək, Əli (ə) nəfsə qalib gəlməkdə ən şücaətli şəxsiyyət olacaqdır.

Həzrət Əli (ə) hədislərinin birində buyurub:

***"Nəfsə qalib gəlmək, Xeybər qalasını almaqdan çətindir".*** Bu fikri o Həzrətin *"Nəhcül-bəlağə"*də dediyi sözlər də təsdiq edir: ***"Qələmlərinizin ucunu iti edin, sətirlər arasında çox fasilə qoymayın! Əsl mətləbi yazın ki, müsəlmanların mallarına zərər dəyməsin".***

Əgər şücaəti bəlalar qarşısında-səbr və dözümlə göstərmək mənasında götürsək, yenə də Həzrət Əlidən (ə) səbirli və şücaətli şəxs tapmaq mümkün deyil. Bu sözümüzə sübut Mövla Əlinin (ə) ***"Nəhcül - Bəlağə"***də buyurduğu ***"Şiqşiqiyyə"*** xütbəsidir.

O xütbədə Mövla Əli (ə) buyurur:

***"Rəsuli-Əkrəmdən (s) sonra 25 il elə bir halda səbr etdim ki, sanki boğazımda sümük qalmış, gözlərimə çöp batmışdı"***

# ƏMİRƏL MÖMİNİN HƏZRƏTİ ƏLİNİN (Ə) SƏXAVƏTİ

Müqəddəs kitabımız Qurani - Kərimdə bir neçə ayə Əlinin (ə) səxavəti haqqında nazil olub. ***"Vilayət"*** ayəsi, "İtam" ayəsi, "İsar" ayəsi və s.

"Vilayət" ayəsi *"**Maidə**"* surəsinin 55-ci ayəsidir:

***"Sizin Rəbbiniz yalnız Allah, Onun Rəsulu və iman gətirib namaz qılaraq ruku halında zəkat verən şəxslərdir".***

Bu ayənin şəni nüzulu belədir:

İmam Əbu - İshaq Sələbi *"**Əl- Kəbir**"* adlı təfsirində Peyğəmbərin (s) sədaqətli səhabəsi Əbuzər Ğəffaridən belə nəql edir ki, Əbuzər deyir:

"Mən bu iki qulağımla eşitdim - yalan desəm, hər ikisi də kar olsun ki, Həzrəti Peyğəmbər (s) buyurdu:

***"Əli möminlərin rəhbəri, kafirləri öldürəndir. Ona kömək edən (Allahdan) kömək görər, onu yalqız buraxanı (Allah) yalqız buraxar".***

Sonra Əbuzər sözünə davam edərək deyir:

***"Mən Həzrət Peyğəmbərlə (s) namaz qıldığım vaxt bir sail məscidə daxil olub xalqdan yardım istədi. Amma heç kim ona bir şey vermədi. Həzrət Əli (ə) ruku halında üzük olan orta barmağını sailə tərəf uzatdı. Həmin sail gəlib Əlinin (ə) barmağındakı üzüyü çıxartdı. Məsciddən bir adam belə çıxmamışdı ki, Cəbrayıl (ə) bu ayəni gətirdi. Peyğəmbər (s) Allaha yalvararaq dua etdi."***

Həzrət Əlinin (ə) bu səxavətini bir çox şairlər qələmə alıblar. Onlardan M.H.Şəhriyar, Hacı Yaşar Cahid, Namiq Kamal Dərbəndi və s. qeyd etmək olar.

Şair Namiq Kamal Dərbəndi deyir:

***Sailə etdin əta, şövq ilə əngüştərini,***
***Heyranam taətinə, etdiyin ehsanə, Əli.***

***Hacı Yaşar Cahid yazır:***

***Verdi əngüştərini sailə əsnayi - namaz***
***Kimsə əshabidə bir böylə səxa olmaz idi.***

Seyyid Əsəd Hüseyni Əlinin (ə) şəxsiyyətində olan yüksək və ali keyfiyyətləri nəzərə alaraq deyir:

***Sən ibadətdə Əli, fəlsəfəsən ümmət üçün,***
***Sən səxavətdə Əli, mərəkəsən millət üçün,***
***Sən şücaətdə Əli, möcüzəsən xilqət üçün,***
***Gəlməyib sən tək igid səhneyi - meydanə, Əli,***
***Necə ləbbeyk deməyim sən təki sultanə, Əli.***

Həzrət Əlinin (ə) qulamı deyir:

Bir gün Əli (ə) su çıxartmaq üçün yer qazırdı. Namaz vaxtı çatdı, o Həzrət (ə) namaz qılmağa başladı.

Namazı qutardıqdan sonra onun üçün yemək gətirdim.

Həzrət Əli (ə) əllərini qumların arasından çıxan su ilə yudu, sonra yeməyini yedi. Şükr etdi və sonra buyurdu:

***"Allah lənət etsin o şəxsə ki, qarnından ötrü cəhənnəmə gedir!"***

Sonra göstəriş verdi, kağız - qələm gətirdilər. Bostanı və suyu yazılı şəkildə fəqirlərə hədiyyə etdi.

***Əmirəlmöminin Əlinin (ə) zöhdü***

***Zahid məni aldatma cəhənnəmdə od olmaz,***
***Onlar ki, yanırlar odu burdan aparırlar.***

***Əbulhəsən Raci***

***"Zöhd"***-Allahdan başqa heç kəsə və heç nəyə ürək bağlamamaqdadır. Həzrət Əli (ə) zöhdü belə tərif edir: ***"Dünyada zahidlər o kəslərdir ki, etdikləri nəsihətə özləri də əməl edərlər, xalqı Allahın qəzəbindən çəkindirib, özləri də çəkinərlər.***

***Başqalarını şəriətə əməl etməyə çağırarlar, özləri də əməl edərlər. Düzgün nəsihət vermək özü də bir əməldir.”***

Həzrət Əli (ə) xilafətdə olan zaman Osman ibn Huneyfə yazır: “Eşitmişəm, elə bir qonaqlığa getmisən ki, orada fəqirlər olmayıb. Sən orada yağlı, yumşaq yeməklər yemisən! Mən Əli (ə), ömrümdə iki paltara və iki tikə arpa çörəyinə qane olmuşam. Siz mənim kimi ola bilməzsiniz, amma Əliyə (ə) özünüzün əxlaq, təqva və pəhrizkarlığınızla kömək edin”

# ƏMİRƏL MÖMİNİN ƏLİNİN (Ə) ƏDALƏTİ

Həzrət Əli (ə) ədalət simvoludur. Həzrət Əli (ə) qoşun başçısı İbn Əbbasın əhalidən nisyə mal aldığını və aldığı malın pulunu gec qaytardığını və məqamından düzgün istifadə etmədiyini eşitdikdə, ona belə bir tərbiyə edici məktub yazır:

***"Mən razı deyiləm ki, sərkərdəm öz məqamından istifadə etsin, nisyə mal alıb, aldığı malın haqqını gec qaytarsın."***

Məsihi alimi Corc Cordaq Həzrət Əlinin (ə) ədaləti haqqında yazır:

***"Əli, öz ədalətinə görə, mehrabında öldürüldü."***

İbni Abbas deyir:

Həzrət Əlinin (ə) yanına beytül-malı (qızıl və gümüşü) aparırdım. Yolda gördüm ki, onun qılıncını satırlar. Həzrət Əlinin (ə) yanına çatanda əhvalatın səbəbini soruşdum. Həzrət Əli (ə) buyurdu:

***"Libasım yox idi, onun puluna paltar almaq istəyirdim."***

Əli (ə) özü bir əxlaq nümunəsi olaraq, Allaha ibadətdə həmişə təqvanı əsas şərt hesab edirdi. Bu səbəbdən də, Əli (ə) qızıl sikkəsini əlinə alıb deyirdi:

***"Ey dünya get, başqasını aldat! Mən sənə üç dəfə talaq demişəm."***

Və bu həmin Əlidir ki, onun gözündə xilafət yamaqlı, köhnə çarıqdan daha dəyərsiz idi.

İnsanın bu dünyadakı yaşayışı və yaradılış fəlsəfəsinin incəlikləri *"Nəhcül - bəlağə"*də öz əksini tapmışdır.

*"Nəhcül - bəlağə"* əsərində axirət insanın əbədi səadəti, saleh əməllər isə əxlaq göstəricisi kimi verilmişdir.

*"Nəhcül - bəlağə"*nin 156-cı xütbəsində Əli (ə) buyurur: ***"Fani dünyada əbədi aləm üçün azuqə toplayın! Ey Allahın bəndələri! Əməllərin araşdırılacağı, günahkarlara şiddətli əzab veriləcəyi, körpələrin dəhşətdən qocalacaqları gündən qorxun! Etdiyiniz günahları nə qaranlıq gecə pərdələyə bilər, nə də möhkəm qapı və kilidlər gizlədə bilər."***

Həzrət Əli (ə) xəlifə seçildikdən sonra xalq ona beyət edir. Beyətdən sonra Həzrət Əli (ə) oxuduğu xütbədə buyurmuşdur: ***"Camaat! Nə qədər ki, məni itirməmisiniz, soruşun, məndən sual edin! Çünki birincilərin və sonuncuların elmi məndədir. And olsun Allaha, əgər məhkəmə kürsüsündə otursam, Tövratın davamçıları arasında onların Tövratları əsasında hökm çıxararam..."***

Sonra buyurdu: ***"Məni itirməmişdən qabaq məndən soruşun. Toxumu yaran və insanı yaradan Allaha and olsun ki, əgər Quran ayəsindən soruşsanız, sizə onun nə vaxt və kimin barəsində nazil olmasını deyərəm."***

Digər bir xütbədə Əli (ə) buyurur:

***"And olsun Allaha, gecəni səhərə kimi dəvətikanının üstündə oyaq qalmaq və zəncirlərlə çiyinlərimdən bağlanaraq çəkilmək, mənə Qiyamət günü Allaha və Onun Peyğəmbərinə(s) zalım kimi qovuşmaqdan daha xoşdur."***

Cabir ibn Əbdüllahi Ənsari (r) deyir:

Allahın Peyğəmbəri (s) Ərəfədə idi və Əli (ə) onun qarşısında durmuşdu.

Peyğəmbər (s) buyurdu:

***"Ey Əli! Yaxın gəl və əlini mənim əlimə qoy. Ey Əli! Səninlə mən bir ağacdan yaradılmışıq. Mən həmin ağacın kökü, sən onun gövdəsi, Həsənlə Hüseyn budaqlarıdır. Kim onun budaqlarından asılsa, Allah onu cənnətə daxil edər."***

Həzrət Əli (ə) buyurur:

***"Mən Allahın elmiyəm. Mən Allahın xəbərdar qəlbi, onun natiq dili, gözü və tərəfiyəm. Mən Allahın əliyəm. Mən yol göstərənəm, Mən yolu tapmışam, mən yetim və yoxsulların atasıyam. Mən dul qadınların başçısıyam, Mən bütün zəiflərin arxa və pənahıyam. Mən qorxu və vahimə içində olan hər bir kəsin pənahgahıyam. Mən möminləri Cənnətə aparan bələdçiyəm. Mən Allahın ən möhkəm ipi və təqva kəlməsiyəm. Mən Allahın gözü və doğruçu diliyəm. Mən İslamı qəbul edən ilk şəxsəm. Mən Peyğəmbərlə (s) namaz qılan ilk şəxsəm."***

Şair demiş:

***Əhli-islama yəqin babi-Əlidəndi nicat***
***Özgə bir kəsdə səxa yoxdu bu xulyadan keç.***

Həzrət Əli (ə): ***"Hakimlərin ən ədalətlisi, insanların ən dürüstü, şahidlərin ən mötəbəri, fəqihlərin ustadı, Quranın bətni, özündən əvvəl və sonra olmuş və olacaq bütün qəzavət edənlərin - qazilərin ən alisi və ən adilidir".***

***Əli sahib idi ismi-əzəmə,***
***Bir töhfə almışdı öz məbudundan,***
***Peyğəmbərdən sonra Həzrət Əli tək,***
***Yox idi xəbərdar elmi-lədundan.***

Doğrudan da tarixə nəzər saldıqda görürük ki, Həzrət Əli (ə) öz qəzavətləri və müşkül məsələləri həll etməsi ilə bu gün bizim əlimizdə olan qanun kitabının və risalənin yazılmasına səbəb olmuşdur.

Peyğəmbərin (s) buyurduğu bir hədis də deyilənləri təsdiq edir: ***"Əli (ə) ümmətinin ən üstün qazisidir."***

Həzrət Əli (ə) buyurur:

***"Mən səmadan enmiş 4 kitabı əzbər bilirəm:***

***(Tövrat, İncil, Zəbur, Quran.) Amma istərdim ki, bütün müsəlmanlar da, bu 4 kitabı əzbər bilsinlər. Çətin olduğuna***

***görə hər kitabdan bir cümlə seçdim. Hər kəs oxusa, inansa və əməl etsə, elə bil ki, bütün bu kitabları oxuyub öyrənib."***

***"Tövrat":*** "Hər kim sakit olsa, nicat tapar."

*"**İncil**":* "Hər kim qane olsa (qənaət etsə ), doyar".

***"Zəbur":*** "Hər kim şəhvətləri tərk etsə, bəlalardan salamat qalar."

***"Quran":*** "Hər kim Allaha təvəkkül etsə (yalnız ona ümid bağlasa), Allah ona kifayət edər."

Həzrət Əlinin (ə) şəxsiyyəti barədə söz demək və nəsə yazmaq həddindən artıq çətin və məsuliyyətli bir işdir. Çünki bir şəxsi ki, Allah-Taala tərif edə, Peyğəmbər (s) və Əhli - beyti (ə) sevə və milyonlarla insana nümunə ola, belə şəxs haqqında nə demək mümkündür ki, aciz qələm sahibi də söz deyə. Bunu nəzərə alıb məşhur Quran təfsirçisi Abdullah ibn Əbbasın nəql etdiyi bir rəvayətlə məqaləmi tamamlayıram.

İbn Əbbas deyir: "Əlidə (ə) olan 4 xüsusiyyət heç kəsdə yoxdur:

1.Əli (ə) ərəb və əcəm içərisində Peyğəmbərlə (s) namaz qılan ilk şəxsdir;

2. O, bütün müharibələrdə Peyğəmbərin(s) bayraqdarıydı;

3.Hamının döyüşdən qaçdığı gün o, səbr edib, dayanar və şücaətlə düşmənə sinə gərərdi;

4.O, Peyğəmbərə (s) qüsl verib qəbrə qoyan şəxsdir".

İlahi! Bizi Qurandan və Əhli-beytdən (ə) ayrı salma! Bu dünyada onların ziyarətini, Qiyamət günündə şəfaətin bizlərə şamil elə. Amin!

# İMAM ƏLI VƏ IBADƏT

***Hüsn ilə ziba imişsən, ya Əli, səndən mədəd,***
***Görk içində bay imişsən, ya Əli, səndən mədəd.***

***Eşq ilə məşuqi aşiq səndə bulmuşdur zühur,***
***Sirri-ma fiha imişsən, ya Əli, səndən mədəd.[1]***

***Bismillahir-Rəhmanir-Rəhim!***

Əli İbn Əbu Talib (ə) haqqında söhbətə Həzrət Əlinin (ə) şöhrətli adından kömək istəməklə, Həzrət Əlinin (ə) insana qüvvət verən xatirəsinin işığından başlayaraq, onun mənəvi camalından və cah-cəlallı mənəviyyatından istəyimiz odur ki, bu işdə bizə yardımçı olsun.

Həzrət Əli (ə) haqqında danışmaq və yazmaq cəsarət istə-yir. Bu bütöv dəryanın suyunu bir səhənglə daşımaq xülyasına düşən dəlinin istəyinə bənzəyir. Belə məqamda cürət və cəsarət görməyincə yardım olmazsa, Mövlanənin bu sözü ilə təskinlik taparsan.

***Dəniz suyunu içmək mümkün olmasa da,***
***Yanğın sönüncə dadmaq gərəkdir.***

Əgər bir insan öz nəfsini tərbiyə etmək, əxlaqını təmizlə-mək, seyr-suluk və həqiqət yollarında axtarış etmək fikrində olsa, gərək onun tərbiyə və irfan məktəbinə daxil olsun, bu qüdrət və geniş hökmranlığı ilə yanaşı, yamaqlı ayaqqabısını, sadə paltarını, arpa çörəyini, fəqir və miskinlə ünsiyyətini görüb, dəyərincə qiymətləndirə bilsin. Bütün camaat yuxuda ikən təkcə ulduzlar və onun gözləri ayıqdır. Xurma bağının ortasında, ya da ***"Kufə"*** məscidinin mehrabında əlini göyə uzadıb bədəni titrəyir və göz yaşı tökür, Axirət və Qiyamət gü-nü üçün ağır ilahi məsuliyyətdən yana nigarandır.

---

***[1] Şah İsmail Xətai***

***Ya Əli, ərşi-əlanın sən işıq ulduzusan,***
***Sən pərişan ürəyin şöleyi aləmsuzusan.***
***Məşhərin zülmətinin sən məhişəb əfruzusan,***
***Sən böyük Soltanısan aləmi imkana Əli,***
***Necə «ləbbeyk» deməyim sən kimi sultanə Əli.***[1]

Əli (ə) hər şeydə və hər işdə yeganədir. İbadət üsulu və öz Tanrısı ilə dərdləşmək yolu da onun özünə məxsus yeganə üsul və yolu idi. Hətta ürəyindən dərd üstündən dərd toplansa da, öz sirrini, ürək dərdini Tanrısına söyləmək üçün gecələri seçir-di. Gecələri evdən çıxardı, şəhər ətrafındakı xurma bağlarına gedərdi. Çünki xurma ağacları ay işığının aydın kölgəsində su quyularına sarı əyilirdi, dərdini canüzücü nalələrini, sinəsində qalan, kimsəyə demədiyi fəryadını izhar etməyə başlayardı.

***Ya Əli, vəsfinə könlüm təzədən mail olur,***
***Eylərəm vəsfini tofiqin əgər şamil olur.***
***Necə vird eyləməyim vəsfini hər şamu - səhər,***
***Olmasa hübbün əgər cümlə əməl batil olur.***

Tək Allaha pərəstiş yolunda seyr və suluk, Tanrının bö-yük dərgahı qarşısında bəndəlik, onun sorğu-sualsız əzəməti qarşısında edilən dua və niyaz, o qadir mütləqə sitayiş, həmçi-nin nəfsin təmizlənməsi yolunda çalışma, yaradılanın Yarada-na qovuşması Peyğəmbərlər (ə) təliminin ən məşhur üsulların-dan biridir ki, başqa təlimlərin başlanğıcı sayılır.

İslamda Pərvərdigara ibadət etmək bir sıra elmi, ictimai və əxlaqi vəzifələrdən ibarətdir. İslam baxımından pak Allah duyğusu ilə yerinə yetirilən hər bir xeyirli və faydalı iş ibadət və bəndəlik deməkdir.

Buna görə də dərs oxumaq, bilik qazanmaq, məlumat toplamaq, elm öyrənmək, halal və faydalı qazanc, xalqa xidmət

---

[1] ***Seyyid Əsəd Huseyni***

üçün göstərilən ictimai fəaliyyət Tanrı duyğusu və ilahi niyyətlə, riya və zahiri təbliğatın nüfuzundan kənar olarsa, elə bunlar özü tək Allah qarşısında ibadət və bəndəlik sayılır. Ne-cə ki, namaz və oruc islam ibadətinin bariz nümunəsidir.

Əli (ə) ***«Nəhcül-Bəlağə»***də buyurur:

***«Bir sıra adamlar mükafat həvəsi və arzusu ilə Tanrıya sitayiş edirlər. Bu cür ibadət tacirlərin ibadətidir. Bir dəstə ona qorxudan pərəstiş edir. Bu isə kölləsifətlərin və qulların ibadətidir. Başqa bir dəstə isə Allaha yüksək amal və sifətləri qarşısında şükür etmək üçün pərəstiş edir. Bu cür ibadət azad adamların ibadətidir».***

Əli (ə) dəfələrlə buyurub:

***«Ey Tanrı, mən sənə heç zaman cəzadan qorxduğuma görə və behişt tamahı ilə pərəstiş etməmişəm. Mən sənə ona görə pərəstiş etdim ki, səni pərəstişə layiq gördüm».***

***Ölüncə Allaha etdin ibadət,***
***Cəm adəm öyrəndi səndən səxavət.***
***Peyğəmbər bu qədər çəkməzdi zillət,***
***Olsaydı haqq yolda müsəlman, Əli!***
***Canım sənə fəda, Əli, can Əli!***[1]

Həzrət Əli (ə) ibadət işində qərarsız və vurğun bir aşiq idi. Onun ibadəti təkcə dini ayini yerinə yetirmək üçün deyildi. O, Haqqın camalının həqiqi aşiqi idi. Onun nəzərində həqiqətin dilrüba camalından başqa heç nə cilvələndirmirdi. Onun səcdələri uzun olur, səcdəgahı isə şövq yaşı ilə islanırdı.

Əli (ə) Ərəbin və Əcəmin içərisində Peyğəmbərlə (s) yanaşı ilk namaz qılan müsəlman olmuşdur. Həzrət Əli (ə) Peyğəm-bərin (s) bütün müharibələrində onun bayraqdarı olmuşdur.

İmam Əli (ə) yenə də öz dəyərli kəlamlarının birində buyurur:

---

[1] ***Kərəm Kürqraqlı***

***“Əgər fərz üçün Allah onun fərmanından boyun qaçırmağa görə cəza təyin etmişsə, Tanrı qarşısında təşəkkür etmək vəzi-fəsi məcbur edirdi ki, onun fərmanından üz döndərib, boyun qa-çırmasınlar”.***

İmam Əli (ə) məktəbində pərəstiş bir məsələdə xülasə olu-nur: ***“Haqqı yad etmək və Onu hifz etmək. Ondan qeyri nə var-sa yaddan çıxartmaq, həmişə Tanrının yad etməklə yaşamaq”.***

***Ha! Əliyyun Bəşərin keyfə Bəşər!***
***Rəbbuhu fihi təcəlla və zəhər!***

***(Agah ol! Əli bəşərdir, özü də necə bəşər!***
***Rəbbi ondan təcəlli etmiş, zahir olmuşdur).***

Qurani-Kərim də Allah-Təala “Namaz” barəsində buyu-rur:
***«Namazı məni xatırlamaq və yada salmaq üçün qıl».***

Əlinin (ə) ruhi yüksəlişi hər gün daha çox artırdı. O, özünü daha yüksəklikdə olan üfüqə doğru çəkdi və uçuşuna ağırlıq gətirən hər bir şeyi özündən uzaqlaşdırdı. Xüsusilə gecə, hər yer qaranlığa bürünərkən Allahın əzəməti pak və şəffaf firuze-yi rəngli aynada və göyün sayrışan ulduzları arasında cah-cəlal ilə əks olunurdu. Əli (ə) bu sayaq ruhi əzəmətlə özünü qüdrətli və tək Yaradanın qarşısında zərrədən artıq hesab etmirdi. Hə-mişə, hər zaman, hər yerdə bu cür razi-niyazlar, kəlmələr və ibadətlər onun dodağında zümzümə kimi səslənirdi: ***“Bu nəf-simdir ki, onu pəhrizlə tərbiyə edirəm. Ta ki, hesab və Qiyamət günü ən qorxulu və dəhşətli gündə iztirabdan əmin-amanlıq tapsın”.***

***Sirri-sübhanın Əli, kəlmeyi sirrullahısan,***
***Sirri Allahın Əli, zübdətərin agahısan.***
***Sən ədalət səhabı, lütfi kəramət şahısan,***
***Bənzəyir hər əməlin rəfəti-rəhmanə, Əli.***
***Necə «ləbbeyk» deməyim sən təki sultanə, Əli!***[1]

---

[1] ***Seyyid Əsəd Hüseyni***

İmam Zeynalabidin (ə) uzun-uzadı səcdə edərdi. Tanrı qarşısında üzü üstə torpağa düşərdi, sanki heç yerindən qalx-maq bilməzdi. Ondan xahiş etdilər ki, öz ibadət və səcdəsinin vaxtını bir qədər də qısaltsın. O zaman belə buyurur:

***«Mən nə zaman cəddim Əli ibn Əbu Talib (ə) qədərincə Pərvərdigarımın ibadətiylə məşğul olmuşam?»***

İmam Əli (ə) gecə ibadətlərində, özü ilə Pərvədigarının arasında firuzə rəngli və göydən başqa bir rəng yox ikən, bu bir pərdə də Əlinin (ə) eşq və düşüncə pərvazının bircə qanadı ilə aradan götürülürdü.

***Cəmi möminlərə sən nuri-hüdasan, Əlican,***
***Eşqi aşiqlərə sən şuri-nəvasan, Əlican.***
***Məhzərül-həqsən Əli, dəsti-Xudasan, Əlican,***
***Bağlıdır mülki bəqa, sən Şahi-Mərdanə, Əli,***
***Necə «ləbbeyk» deməyim sən təki sultanə, Əli.***

Həzrət Əli (ə) ibadət zamanı torpağa döşənərdi, öz duala-rında və razi-niyazlarında deyərdi:

***«Ey Tanrı, sənin yeganəliyinə və əzəmətinə pərəstiş edirəm. Sənin şan-şöhrətli və cah-cəlallı dərgahında bəndəlik alnımı tor-pağa vururam. Səni adi gözlə görmürlər, lakin görünməzlik ha-lında güman etmirlər. Sənin camalının işığı qəlblərdə incə insani duyğular oyadır, eşq şöləsini artırır, lakin sənin dilbərlik cilvən torpaqdan yaranan bəşərin nəzərində gizli bir pərdədir».***

***Yığıb toplamadın dövləti, varı,***
***Dinə qurban verdin hər arzuları.***
***Tanıdıb dünyaya sən imamları,***
***Olmusan onlara şöhrət-şan Əli,***
***Canım sənə fəda, Əli, can Əli.***[1]

---

[1] *Kərəm Kürqıraqlı*

Əli (ə) ***“Kumeyl”*** duasında buyurur:

***«İlahi, sənin səltənətin əzəmətli, məqamın uca, tədbirin gizli, əmr və fərmanların aşkar, qüdrətin qalib və nüfuzludur. Sənin hökumət dairəndən qaçmaq mümkün deyildir».***

İmam Əlinin (ə) sözlərində Tanrı cilvəsi müşahidə edilir. Hər nədən söhbət açırsa, orada Tanrı vücudunun işığı şölə sa-çır. Lakin Tanrıdan birbaşa söhbət açdığı yerlərdə onun kəla-mının başqa rəngi vardır.

İmam Əli (ə) Tanrı dərgahına üz tutub, mənalı dua ilə belə müraciət edirdi:

***«Ey Tanrı! Məni öz qüdrətinə və gücünə möhtac et, lakin güclülürədən ehtiyacsız et. Sən mənə yol göstər ki, yoldan çıxmayım. Sən mənə dost ol ki, düşmənlərin yalanından uzaq olum».***

İslamın əziz və hörmətli Peyğəmbəri (s) Rəsuli-Əkrəm(s) Əlinin (ə) ibadəti, elmi, pəhrizkarlığı, səbri və əzəməti haqqın-da belə buyurub:

***«Hər kəs Adəmin (ə) elminə, Nuhun (ə) pəhrizkarlığına, İbrahimin (ə) səbrinə, Musanın (ə) əzəmətinə və İsanın (ə) ibadətinə nəzər salmaq istəyirsə, Əli İbn Əbu Talibə (ə) baxsın».***

***Zülmət yolumuzda oldun şəm, çıraq,***
***Adın gələn yerdə gərək baş yaraq.***
***Biz kimik ki, səndə nöqsan axtaraq,***
***Peyğəmbər görmədi bir nöqsan, Əli,***
***Canım sənə fəda, Əli, can Əli.***

İslam irfanının əsasını qoyan İmam Əli (ə) olub. O Həz-rət(ə) dini xadimlər və İslam alimlərindən bir dəstəsini tərbiyə etdi. Onların arasında Üveysi Qərəni, Kumeyl İbn Ziyad, Meysəm Təmmar və Həmma kimi mərifət əhli və zahidlərdən bir dəstəsi vardı.

*Təsiri kəlmən sənin Həmmamı bican eylədi,*
*Təlim etdi bizlərə şiən nədir təqva, Əli.*

Əli (ə) *«Nəhcül Bəlağə»*də buyurur:

***«And olsun Allaha ki, təbliğ edilən əmrləri, tamamlanan vədləri, söylənilən bütün sözləri bildim. Hikmətin qapıları biz Əhli-beytin(ə) astanasındadır, nur saçan işıqları bizdədir».***

***"Bilin ki, dinin hökmü birdir, yolları daşsız, kəsəksiz, nöqsansızdır. Kim onlara uyub o yolu tutarsa, məqsədinə çatar, qənimətlər əldə edər. Kim dayanarsa, o yoldan saparsa, peşman olar.***

***Yol azuqəsinin hazırlandığı gün üçün, gizli şeylərin meydana çıxacağı çağ üçün çalışın. Kimə bu günün ağlı fayda verməzsə, sabah ondan uzaq olanda heç bir fayda verməz. Açıq olmayan bəsirət gözü görməz olar, həqiqətdən sapar. Bu gün bir fayda əldə edə bilməyən sabah tamam məəttəl qalar.***

***Allahın nemətlərinə şükr edərək onu mədh edirəm. Mənim boynuma qoyduğu vəzifəni yerinə yetirmək üçün on-dan yardım istəyirəm. Bilirəm və bildirirəm ki, Muhəmməd (s) onun bəndəsi və Rəsuludur(s), o xalqı itaətə çağırdı, cihad edərək düşmənləri məhv etdi. Allahın birliyinə inanmayanların birləşməsi onu qorxutmadı.İşığını söndürmək istəyənlərin cəhdi onu bu işdən uzaq-laşdırmadı.***

***Allahdan çəkinmə, günahdan qaçma yolunu tutun. Çünki bu halqası möhkəm olan bir ipdir. Ölüm və ölümün çətinliyinə hazır olun. Çünki işin sonu qiyamətdir. Əqli olana elə bu bəsdir".***

***«Ey böyük Pərvərdigar! Gecə yaxınlaşarkən və zülmət ifriti öz qanlı yaxasını şəfəqdən dışarı çəkərkən sənə təşəkkür edirəm və sənə pərəstiş edirəm. Sübh çağına yaxın, dan sökülərkən, günəşin zər pəncəsi üfüqün alnına qızıl qələmlə nur ayələrini ya-zarkən səni yadıma salır və sənə pərəstiş edirəm. Fələyin qaran-lıq çadırının bir anlıq görünüb gizlənən hər bir sayrışan ulduzu öz gözəllik mənzərəsini bu sayaq işvələrlə daha cazibədar şəkildə cilvələndirir. Sənin böyüklük və əzəmətindən***

***qafil deyiləm və hər an, hər yerdə sənin camalını görürəm. Gözlərimi dünyaya açarkən başdan ayağa kimi bir parça ürək və qəlb oluram ki, sə-ninlə aşiqanə tərzdə dərdləşim. Hər nədən danışsalar yorulur və usanıram. Lakin elə ki, növbə sənin məhəbbətinə yetişir, yenidən canlanır, bu dastanı başlanğıcdan eşitmək istəyirəm».***

***Əli, ey humaye-rəhmət, to çe ayəti Xodara?***
***Ke be maseva fekəndi həme sayeyi homara!***

***Del, əgər xoda şenasi, həme dər roxe Əli bin,***
***Be Əli şenaxtəm mən, bexoda qəsəm Xodara.***

***Tərcüməsi:***
***Əli, ey Humayi-rəhmət, nə dəlilsən Xudaya,***
***Ki, Xudadan özgə sayan nə ki, var edər himayə?!***

***Əgər aşinəyi həqsən, Əli ilə aşina ol,***
***Əli ilə olmuşam mən, könül aşina Xudayə.***

Namaz təvazökarlıq və Allah qarşısında zəlillik izhar etməkdir. İbadət isə Allahı nəzərdə tutaraq Onun əmrinə itaət edib müəyyən bir işi yerinə yetirməkdir. İbadətlərdən biri də Allah yolunda onun razılığı üçün sədəqə verməkdir.

***Övliyalar, ənbiyalar çoxdur, illa ki, sən,***
***Cümlədən əla imişsən, ya Əli, səndən mədəd.***

Əlinin (ə) namaz halında üzüyünü dilənçiyə verməsi onun diqqətini Allahdan azaltmır. Əksinə bu işi o Həzrətin Allaha olan diqqətinin kamilliyindən irəli gəlir ki, eyni zamanda iki ibadətlə məşğul olur.

Bəli, Allahın əzəməti Həzrət Əlinin (ə) ürəyini o qədər bürümüşdü ki, Allah qarşısında namaz qıldığı vaxt diqqəti o qə-dər Allaha yönəlirdi ki, öz bədəninin yarasından ağrı qafil olurdu.

Həzrət Əlinin (ə) Allaha ibadət niyyətiylə dilənçiyə üzüyünü verməsi Allaha kamil diqqəti olduğunu təkid edir. Ancaq diqqət bədənin ağrısına yönələrsə, bu Allaha kamil diq-qətinin olmadığını bildirir.

***Olmasaydın sən əgər, yetməzdi kamillik kama,***
***Kama yetmişdir kamal, kamı kəmalıtındadır.***

***Oldu bu yəqin mənə, natiq kəlamullahisən,***
***Çün zəbər-zirlə kəlamullah, kəlimatındadır.***[1]

Əli (ə) *«Nəhcül-Bəlağə»*də buyurur:

***"Ey Allahım! Sənə sitayiş edirəm və istəyirəm ki, bu sitayişlə rəhmət buludları bizim üzərimizə daha çox yağsın. Belə bir məqamda sənin nemətin kamil və bütöv olsun. Sənə pərəstiş edirəm. Sənin ismət pərdəndə yol azmaqdan və günahdan pənah ax-tarıram".***

***İmam (ə) «Kumeyl» duasında buyurur:***

***"İlahi, səni and verirəm öz izzət və cəlalına, bütün hallarda mənə qarşı rauf və mehriban ol! Və bütün işlərimdə mehr məhəbbətlə əhatə edib mənə qarşı şəfqətli ol! Ey mənim Allahım, ey mənim Rəbbim, axı səndən başqa kimim var ki, ondan bəd halı-mın aradan aparmasını, işlərimə nəzər etməsini istəyəm".***

***Əhli-İslama yəqin babi-Əlidəndir nicat,***
***Özgə bir kəsdə səxa yoxdu, bu xülyadan keç.***

***Gecə-gündüz Əli zikrin elə ta halın var,***
***Amma cəhd eylə nə gerçək, nə də röyadan keç.***[2]

İmam Əli (ə) buyurur:

---

[1] ***Fəxrəddin Cəfakeş***
[2] ***Axund Hacı Soltan***

*«Ey Tanrı! Məni öz qüdrət və gücünə möhtac et, varlılara isə möhtac etmə. Sən yol göstər ki, mən yolumdan çıxmayım. Sən mənə dost ol ki, düşmən yanından uzaq olum».*

*Bu məqaləni Ş.İ.Xətainin Həzrəti Əliyə(ə) ithaf etdiyi bir qəzəldən iki betylə yekunlaşdırıram:*

*Ol Əlisən kim, hamı Peyğəmbərə sənsən şəfi,*
*Cümlə bu ümid ilən qapına gəlir xasu am.*

*Çün sənin övsafinə yetməz Xətainin sözü,*
*Üş bu əbyat üstə xətm oldu kəlamım vəssəlam.*

*Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.*

# MÖMÜNLƏR AĞASI HƏZRƏT ƏLININ (Ə) ŞƏHADƏTI

***Rəhbər də Əli, şahi-vilayət də Əlidir,***
***Şanu-şərəfi, şöhrəti-izzət də Əlidir.***
***Zahid! Mənə tərif eləmə baği-behişti,***
***Kövsərdə Əlidir, elə cənnətdə Əlidir.***

***Seyid Nurəddin Dərafərin***

***Bismillahir-rəhmanir-rəhim!***

Müsəlman aləmi müqəddəs Ramazan ayının mübarək günlərini və sevgili İmam Əlini (ə) şəhadətə yetməsi kədərini yaşayır. Bəlkə elə belə də olmalıydı, bəlkə Allah sevdiyi İmamı(ə) məhz sevdiyi ayda öz yanına, dərgahına aparmalıydı…

***Ol Əlidir, aləmə ümid olan,***
***Ol Əlidir, dünyada təcrid olan.***
***Ol Əlidir, ey Xətai bixəta,***
***Dünyəvi üqbadə həm cavid olan.***

Bu şah beytlər könüllər sultanı, Əlinin (ə) böyük məhəbbət və ehtiram bəsləyən Əhli-beyt (ə) aşiqi Ş.İ.Xətainindir.

Xətai buyurur: ***«Həzrət Əlni (ə) sevmək səadətdir».***

***Mən məvali məzhəbəm, rahım Əli,***
***Hacətim, zikrim, nəzərgahım Əli.***
***Oldu ənqa tək Xətai bivücud,***
***Qafi-qüdrət sirri Allahım Əli.***

Peyğəmbər (s) özü də Əlinin (ə) şəxsiyyətinə böyük qiymət verib və onun fəzilətləri haqda neçə-neçə hədislər söyləyib:

***«Ya Əli, Allah sənə üç fəzilət bəxş edib ki, bunlar mənə verilməyib. Allah sənə mənim kimi qayınata, Fatimeyi-Zəhra***

***kimi həyat yoldaşı, İmam Həsən (ə) və İmam Hüseyn (ə) kimi övladlar bəxş edibdir».***

Müxtəlif əqidə sahibləri də İmam Əlinin (ə) barəsində gözəl fikirlər söyləyiblər. Xristian alimi Corc Cordaq İmam Əlinin (ə) haqqında yazdığı kitabda deyir: ***«Ey yerlər, ey göylər, bütün gücünüzü bir yerə yığın, bəşəriyyətə ikinci bir Əlini təhvil verin».***

***Sən ibadətdə Əli, fəlsəfəsən ümmət üçün,***
***Sən səxavətdə Əli, mərakəsən millət üçün.***
***Sən şücaətdə Əli, möcüzəsən xilqət üçün,***
***Gəlməyib sən tək igid səhnəyi-meydanə, Əli,***
***Necə «ləbbeyk» deməyim sən təki sultanə, Əli.[1]***

Həzrət Əliyə (ə) düşmən münasibəti bəsləyən Müaviyə onun ölüm xəbərini eşidəndə belə deyir:

***«Dünyanın dovşanlarına deyin ki, harda istəyirsiz otlayın, çün müharibələr şiri dünyadan köçdü».***

Həzrət Əli (ə) 4 il 9 ay xilafətdə oldu. Bu müddətdə 3 bö-yük müharibə oldu. ***Cəməl, Siffeyin*** və ***Nəhrivan*** müharibələri. Nəhrivan müharibəsində Həzrət Əli (ə) Murad qəbiləsindən olan İbn mülcəm Muradini çağırıb ondan 3 dəfə şəhadət aldı. Sonra buyurdu:

***«Sənin bir yəhudi dayın var idi. O həmişə sən ağlayanda de-yərdi:«Ey Saleh Peyğəmbərin(ə) dəvəsini öldürəndən pis adam». İbn Mülcəm dedi: «Bəli, ya Əli, düzdür».***

Əli (ə) buyurdu:

***«Sən mənim qatilim olacaqsan».***

İbn Mülcəm düşdü Əlinin (ə) əl-ayağına ki, ya Əli, al bu qılıncı, kəs mənim bu əllərimi. Əli (ə) buyurdu: ***«Cəza yetişməmiş biz qisas almırıq, çünki bu caiz deyil».***

Nəhrivan müharibəsindən sonra ibn Mülcəm Quttamə adlı bir qıza aşiq olur, Quttamənin göstərişi ilə İbn Mülcəm Əlini (ə)

---

***[1] S.Əsəd Hüseyni***

Hicrətin 40-cı ili Ramazan ayının 19-da Kufə məsci-dində sübh namazı qılarkən qılınc ilə ağır yaraladı.

***Sənin başın qızıl qanə boyandı,***
***Sübh namazın ta yarımçıq dayandı.***
***Bu günahdan dağ od tutdu, daş yandı,***
***Ulduzlara düşdü səda, Ya Əli!***

***Səni vuran o əl niyə sınmadı,***
***Yandı yer-göy, amma ki, o yanmadı.***
***Kimliyini namərd niyə qanmadı?***
***Səni bizə verdi Xuda, Ya Əli!***[1]

İbn Mülcəm Əlini (ə) yaralayandan sonra tutulur. Onu tutandan sonra Əli (ə) buyurdu ki:

***«Onunla işiniz olmasın. Əgər qalsam mən bilərəm, o bilər, o sizə aid olan iş deyil. Amma əgər ölsəm, şəriətin qanunu budur ki, onu bir zərbə ilə öldürəcəksiniz».***

Rəhmətlik S.M.Şəhriyar deyir:

***Kim öz oğluna deyər ki, qıl əsir ilə mudara.***
***Nola qatilimdi? Yüngül yetirin onu cəzaya.***

Südü içir, qalanını oğlu İmam Həsənə (ə) verib deyir ki, apar ver ona, o sizin əlinizdə əsirdir. Can sənə qurban, ya Əli! Kim öz düşməninə məhəbbət bəslər? Əlinin (ə) kəraməti də belədir: ***"Hər nəyi var bağışlayır".***

Şair Fəxrəddin Cəfakeş deyir:

***Qanə səcdə qıldı xak "füztu birəbbi-Kəbə"də***
***Vadar etdi çün onu, bu məntiq ürfan, ya Əli!***

Qılınc başına enərkən buyurdu:

---

***[1] Şairə Kəmalə***

***“And olsun Kəbənin Allahına ki, rahat oldum.”***

Ramazan ayının 21-də Əli (ə) şəhadətə yetişdi. Allahın salamı onun pak və müqəddəs ruhuna olsun.

## HƏZRƏT ƏLİNİN (Ə) BUYURDUĞU HƏDİSLƏR:

**1.** İnsanlar 4 taifəyə bölünür: ***üməra***-hökmdarlıq, ***əğniya***-dövlətlilər, ***füqəra***-kasıblar, ***üləma***-alimlər. Ümərа, əğniya və füqəranın üləmaya ehtiyacı var. Üləma isə onlara möhtac deyil».

**2.** «Susuz səhralarda bitən ağacların çubuğu daha möh-kəm olur».

**3.** «İnsanın həlak olmasına 3 sifət səbəb olar:

1) Təkəbbür – necə ki, təkəbbür şeytanın böyük məqam-dan xaric olmasına səbəb olub.

2) Tamahkarlıq – necə ki, tamah Adəmin (ə) behiştdən çıxmasına səbəb oldu.

3) Həsəd – necə ki, həsəd Qabilin öz qardaşı Habili öldür-məsinə səbəb oldu.

**4.** «Allahı çox yada salın və zikr edin, o zikrlərin ən üstü-nüdür».

**5.** «Allah rəhmət eləsin o adama ki, bilə hardan gəlib, har-da yaşayır və hara gedəcək».

**6.** «Əyninə uyğun geydiyin paltar kimi dostluq etdiyin şəxs də gərək öz əxlaq və şəxsiyytinə uyğun olsun».

**7.** «Yalandan uzaq olun, çünki o sizi imandan uzaqlaşdırar».

***Sən eşqi Əliylə duraraq rahi Xudadə***
***Ol Səcdeyi-taətdə axan qanə salam ver.***[1]

*****

[1] ***Hacı Soltan Hüseyinqulu oğlu***

# HƏZRƏT ƏLININ (Ə) TƏVƏLLÜDÜ, ŞƏHADƏT VƏ HƏYATI HAQQINDA SUAL-CAVAB.

***Sual - 1***.

Həzrət Əlinin (ə) ata və anasının adı nədir?

***Cavab:***

O Həzrətin atasının adı Həzrət Əbu Talib (ə), anasının adı isə Fatimə binti Əsəd (ə) idi.

***Sual - 2.***

Həzrət Əli (ə) nə vaxt və hansı şəraitdə dünyaya gəlmişdir?

***Cavab:***

Həzrət Məhəmməd (s) Peyğəmbərliyə çatmamışdan 10 il əvvəl Rəcəb ayının 13-də Kəbə evində dünyaya gəlmişdir.

Həzrət Əlinin (ə) anası Fatimə binti Əsəd buyurur:

***“Kəbə evindən çıxmaq istəyirdim, qeybdən bir səs gəldi: Ey Fatimə! Bu uşağın adını Əli qoy. Uca Allah buyurur: “Mən onun adını Öz adımdan seçdim və öz ədəbimlə onu tərbiyələndir-dim. Onu dərin elmimə agah etdim. Bu uşaq Mənim evimdə (Kəbədə) olan bütləri sındıracaq. Evimin damında azan deyəcək və məni müqəddəs tutacaq. Onu sevən və fərmanına əməl edən şəxsin xoş halına, onu düşmən bilib fərmanına əməl etməyənin vay halına!”***

***Sual - 3.***

Nə üçün Həzrət Əlinin (ə) adı Quranda açıq aşkar gəlmə-yibdir?

***Cavab:***

1) Həzrət Əlinin (ə) vilayət mövzusu imtahana çəkilir və gərək camaat onun vasitəsi ilə imtahan olunsunlar. Bu mətləbi təsdiq edən ayələrdən biri, mübarək **“Ənkəbut”** surəsinin 1-ci ayəsidir.

Bu ayədə Allah-Təala buyurur:

***"İnsanlar yalnız İman gətirdik! -deməkləri ilə onlardan əl çəkilib imtahan olunmayacaqlarını güman edirlər".***

Sünni və Şiə təriqətinə mənsub olan təfsir alimlərinin yekdil nəzərinə əsasən, bu ayədən məqsəd Həzrət Əlinin (ə) vilayətidir. O Həzrətin(ə) vilayəti ilə müsəlmanlar imtahan olunurlar.

2) Əgər Həzrət Əlinin (ə) adı Quranda gəlsəydi, yenə də camaat vəzifə, məqam, dünya tamahkarlığı və məhəbbəti üzündən onunla müxalifətçilik edəcəkdilər. Necə ki, Quran ayələrindən bəziləri ilə müxalifət etdilər.

3) Qurani-Kərim külli və ümmi hökmlərə şamildir. Peyğəmbər(s) Əhli-Beytin (ə) barəsində olan ayələri öz zəmanəsində olan insanlara çatdırmışdır.

***Sual - 4.***

İslamda birinci şükr səcdəsi harada və kimin vasitəsi ilə yerinə yetirildi?

***Cavab:***

Birinci şükr səcdəsi Həzrət Əlinin (ə) vasitəsi ilə yerinə yetirildi. Həzrət Əli (ə) Peyğəmbərin (s) yatağında yatdığı təhlükəli gecədən sonra, həmin gecəni müvəffəqiyyətlə sona çatdırıb İlahi imtahandan başı uca çıxdıqda şükr səcdəsi etdi.

***Sual - 5.***

Həzrət Əli (ə) xəstə yatağında olarkən öz övladlarına et-diyi vəsiyyət və nəsihət nə idi?

***Cavab:***

Həzrət Əli (ə) öz vəsiyyət və nəsihətində buyururdu: ***“Həmişə təqva ilə bəzənin, dünyanın dalınca getmiyin, dünyada əlinizdən çıxan şeyə görə təəssüflənməyin. Həqiqəti deyin, zülmkarlarla mübarizə edin və məzlumdan himayə edin.”***

Həmçinin Həzrət Əli (ə) iki əziz övladı İmam Həsənə (ə) və İmam Hüseynə (ə) buyurdu:

***“Zalımın düşməni və məzlumun köməkcisi olun. Ədalətlə rəftar edin və mənim qatilimə bir zərbədən artıq vurmayın. Çünki o mənə bir zərbədən artıq vurmayıbdır.”***

***Sual - 6.***

***“Adiyat”*** surəsi harda və kimin haqqında nazil olmuşdur?

***Cavab:***

Bəzi rəvayətlərə əsasən ***“Adiyat”*** surəsi Həzrət Əlinin (ə) ***“Zatus-Səlasə”*** müharibəsindəki qələbəsi ilə əlaqədar nazil olubdur. Həmin müharibə hicrinin 8-ci ilində baş verdi.

***Sual - 7.***

Peyğəmbər ( s) Həzrət Əlinin (ə) imanı haqqında nə buyurubdur?

**Cavab:**

Peyğəmbər ( s) buyurdu:

***“Əgər göyləri və yeri tərəzinin bir gözünə və Həzrət Əlinin(ə) imanını tərəzinin o biri gözünə qoysalar yəqinən Həzrət Əlinin (ə) imanı daha ağır olacaq.”***

***Sual - 8.***

İslam irfanının əsasını qoyan şəxs kimdir?

***Cavab:***

İslam irfanının əsasını qoyan şəxs Həzrət Əli (ə) idi. O Həzrət dini xadimlər və İslam alimlərindən bir dəstəsini tərbi-yə etdi. Onlardın arasında Uveysi Qərəni, Kumeyl ibni Ziyad və Meysəm Təmmar kimi mərifət əhli və zahidlərdən bir dəs-təsi var idi.

***Sual – 9.***

Həzrət Adəmin (ə) elminə, Nuhun(ə) pərhizkarlığına, İbrahimin (ə) səbrinə, Musanın (ə) əzəmətinə və İsanın (ə) ibadətinə malik olan şəxs kimdir?

***Cavab:***

Peyğəmbər(s) buyurdu: ***“Hər kəs Adəmin(ə) elminə, Nuhun(ə) səbrinə, Musanın(ə) əzəmətinə və İsanın(ə) ibadətinə baxmaq istəyirsə Əli İbn Əbu Talibə (ə) baxsın”.***

***Sual - 10.***

Həzrət Əlinin (ə) qəbri necə və nə vaxt aşkar oldu?

***Cavab:***

Harun Ərrəşidin xilafəti dövründə bir hadisə Həzrət Əlinin(ə) qəbrinin tapılmasına səbəb oldu. Bir gün Harun və onun yanında olanlar ov üçün Kufənin biyabanlarına getmiş-dilər. Onlar gördülər ki, ceyranlar orada olan bir təpənin üstünə pənah apardılar və ov itləri və ov quşları isə geri qayıtdılar. Onlar bu

hadisəni görəndə çox təəccüb etdilər. Harun Abdullah adında bir nəfərə dedi:

***“Tez ol! həmin təpəni axtar, güman edirəm ki, bu təpə müqəddəs bir məkandır, orada sirrlər vardır”.***

Həmin təpəni axtaran zaman ***“Bəni-Əsəd”*** tayfasından olan bir qocayla rastlaşdılar. Onu Harunun yanına gətirdilər. Qoca kişi dedi:

***“Atam öz atasından nəql edir ki, Həzrət Əlinin (ə) şərafətli qəbri bu təpədədir və Allah-Təala o təpəni əmin-amanlıq təpəsi yaradıbdır”.***

Harun atdan düşdü, su istəyib dəstəmaz aldı və həmin təpənin kənarına getdi. Harun orada namaz qıldı və özünü torpağın üstə atıb ağladı. Beləliklə Həzrət Əlinin (ə) müqəddəs qəbri 130 il gizli qalandan sonra aşkar oldu.

İmam Sadiq(ə) bu deyilənlərin həqiqət olduğunu vurğulamış və həmin təpədə Həzrəti Əlinin(ə) qəbrinin olduğunu təsdiqləmişdir. Həmin təpə Nəcəfül-Əşrəfdə Həzrəti Əlinin(ə) məqbərəsi olan təpədirki, hazırda dünyanın müxtəlif yerlərindən O Həzrətin(ə) qəbrinin ziyarətinə gedirlər

# DÖRDÜNCÜ MƏSUM

## İMAMƏT SƏMASININ İKİNCİ ULDUZU İMAM HƏSƏNİN (Ə) MÜBARƏK MÖVLUDU

***Ya Həsən! Əlidir mənim istəyim,***
***Yolunda qurbandı, varsa hər nəyim.***

***Bismillahir-Rəhmanir-Rəhim!***

İmam Həsən (ə) Hicri-qəmərinin 3-cü ili Ramazan ayının 15-də Mədinə şəhərində dünyaya göz açdı. Atası möminlərin ağası Həzrət Əli (ə), anası İslam Peyğəmbəri Həzrət Məhəmmədin (s) sevimli qızı, iki dünya xanımlarının rəhbəri Həzrət Fatimeyi-Zəhradır (s.ə).

İmam Həsənin (ə) ən məşhur ləqəbləri Müctəba və Sibti Əkbərdir.

İmam Həsənin (ə) yaşayış dövrü üç hissəyə bölünür:

1. Peyğəmbərlə (s) birlikdə olan dövr - 7 il
2. Atası Həzrət Əliylə(ə) olan dövr - 37 il
3. İmamlıq dövrü - 10 il

İmam Həsən (ə) dünyaya gələndən sonra Həzrət Əli (ə) onu Peyğəmbərin(s) yanına apardı.

Peyğəmbər(s) buyurdu:

***"Ona bir ad qoymusunuz?"***

Həzrət Əli (ə) ərz etdi:

***"Ona ad qoymaqda sizdən qabağa keçə bilmərəm".***

İslam Peyğəmbəri(s) buyurdu:

***"Mən də Allahdan qabağa keçə bilmərəm".***

Sonra Allah-Təala Həzrət Cəbraili (ə) nazil etdi və buyurdu:

***"Məhəmməd(s) üçün bir oğlan uşağı dünyaya gəlib, Mənim salamımı ona çatdır. Ona de ki, Əlinin sənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir. Ona Harunun oğlunun adını***

***qoy! Harunun oğlunun adı Şəbərdir, ərəb dilinə tərcümə etdikdə, olar Həsən"*** [1]

***Göz açıb aləmə izzət ilə Zəhra balası,***
***Şahi-Mərdan-Əlinin çeşminin ağı-qarası.***
***Nə qəmin vaxtıdır indi, nə də dərdin sırası,***
***Çünki nə ahu-nəva, həm də nə fəryad günüdür.***
***Şad ol ey şiə ki, İslamımızın şad günüdür.***
***Əli övladı İmami Həsənin ad günüdür.***

Allah-Təalanın vəhy mələyi olan Cəbrailin (ə) Yer üzünə nazil olaraq Həzrət Əlini (ə) bu mövlud münasibətiylə təbrik etməsi bu məqamının böyüklülüyünə ən gözəl dəlil və sübutdur. İmam Həsənin (ə) fəzilətləri o qədər çoxdur ki, nə yazmaqla, nə də danışmaqla tükənməz.

***Beş kimsənin üzünə qərar tapıb durub dünya,***
***Mühəmməd, Əli, Fatimə, Həsən, Hüseyni-Kərbəla.***
***Əhməd deyər: "Bari-Xuda Pənci-təni-ali-əba"***
***Yet ümmətin harayına ruzi-Qiyamət, ya Əli!*** [2]

Həzrət Əlinin (ə) şəhadətindən sonra İmam Həsən Müctəba (ə) Allah-Təalanın əmri ilə imaməti öz öhdəsinə götürdü. İslam Peyğəmbəri (s) müxtəlif ibarətlərlə İmam Həsənin(ə) İmamətliyini bəyan etmişdir. Həm sünnü, həm də şiə alimlərinin yekdil nəqlinə görə Allahın Rəsulu Həzrət Məhəmməd (s) dəfələrlə buyurmuşdur:

***"O (yəni Həsən) ağadır. Çünki ağa olmağı İmam ünvanıdır".*** [3]

---

[1] ***İlaluş-şəraye, 137***
[2] ***Aşıq Əhməd Rüstəmov***
[3] ***"Biharul-Ənvar", c.49, səh.193***

Peyğəmbərin (s) buyurduğu bu hədis vacib edir ki, İmam Həsən (ə) Allah Rəsulunun (s) bütün ümmətinin ağası (İmamı) hesab edilsin. Bu o Həzrətin (ə) imamətinin bəyanıdır.

Peyğəmbər (s) buyurmuşdur:

***"Həsən və Hüseyn iki imamdırlar, istər qiyam edələr, istər oturalar".***

Başqa bir hədisdə Peyğəmbər (s) buyurub:

***"Həsən və Hüseyn keçmişdəki insanların arasında keçmişdəki və gələcəkdəki insanlar arasında behişt cavanlarının iki ağasıdır. Onların atasının (Həzrət Əlinin) məqamı isə onlardan da yaxşıdır"***

İmam Həsən (ə) Əhli-beytdən (ə) (beş kimsədən) biridir. ***"Təthir"*** ayəsində Allah-Təala ***"pənc-təni-ali-əba"***dan bəhs edərək buyurur ki:

***"Allah siz Əhli-beytdən (ə) bütün çirkinlikləri apardı və Sizi pak-pakizə qərar verdi."***

Hər iki firqənin etiqadlarına əsasən ***"pənc-təni-ali-əba"***dan məqsəd Həzrət Məhəmməd, Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyndir (ə) ki, ***"Təthir" ayəsi*** onların şəninə nazil olub.[1]

Ayədən aydın olur ki, İmam Həsən (ə) bir kəsdir ki, Allah-Təala hər bir pisliyi və çirkinliyi Onun qəlbindən silmiş, o mübarək və pak qəlbi Quranın sirr və hikmətlərinin xəzinəsi, İlahi vəhyin layiqli təfsirçisi, dini öz həyatı ilə təmsil edən ismətli bir rəhbər əta etmişdir.

İmam Həsənin(ə) barəsində nazil olan ayələrdən biri də ***"Mübahilə"*** ayəsidir[2] Hər iki məzhəbin etiqadlarına görə Allah-Təalanın "Mübahilə" ayəsində buyurduğu "Əbnaəna" kəlməsindən məqsəd yalnız İmam Həsən (ə) və əziz qardaşı İmam Hüseyndir.[2] Həmçinin İmam Həsən (ə) "Əhli-kisanın" 4-cü nümayəndəsidir. Rəvayət ediblər ki, Allahın Rəsulu Həzrət Mühəmməd (s) bir gün Əli(ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyni(ə) bir əbanın altında cəm edib buyurdu: ***"Bunlar mənim***

---

[1] ***"Əl-müstədrək", 3/146, "Əl-Xisal" 561***

[2] ***"Ali-İmran" surəsinin 61-ci ayəsi***

***Əhli-Beytimdir (ə) ki, Allah-Təala onları hər cür çirkinliklərdən və günahlardan pak etmişdir.***

***Kim ki, şaddır çatacaq həşr günü ali yerə***
***Bu günü çünki Xuda yazdı qəzavü-qədərə.***
***Ver göz aydınlığı, Soltan, sevinən bəndələrə***
***Yad edlə Qasim atasın ki, onun yad günüdür.***
***Şad ol ey şiə ki, İslamımızın şad günüdür***
***Əli övladı İmami Həsənin ad günüdür.***

# İMAM HƏSƏN MÜCTƏBANIN (Ə) ŞÜCAƏTİ

Cəməl[1] müharibəsində üsyançılar Allahın xəlifəsini əhatə etdilər və cəngavərlər onların müqabilində aciz qaldılar. Həzrət Əli (ə) nizəni Məhəmməd İbni Hənəfiyyəyə verdi və ona əmr etdi ki, hücum etsin. Ancaq dəvə sahibləri ona mane oldular və nəticədə o geri qayıtdı. İmam Həsən (ə) nizəni onun əlindən aldı və Aişənin üstündə oturduğu dəvəyə vurdu. (Üsyançılar dəvəni ciddi-cəhdlə qoruyurdular). Nizəsindən qan damcılayan halda qayıtdı. Məhəmməd ibn Hənəfiyyənin üzü qızardı. Həzrət Əli (ə) buyurdu:

***"Narahat olma. O, Peyğəmbərin (s) oğludur, Sən isə Əlinin oğlusan"[2]***

***Hərə qoy bir yana qoysun dilinin əzbərini,***
***Məqam etsin fərəhin yaşinə qəm bəstərini.***
***Hər kimin dərdi var açsın göyə öz əllərini,***
***Sevinən bəndələrə Xaliqin imdad günüdür.***
***Şad ol ey şiə ki, İslamımızın şad günüdür,***
***Əli övladı İmami-Həsənin ad günüdür.***

---

[1] ***Dişi dəvə, Aişənin Həzrət Əliylə (ə) apardığı müharibədir***
[2] ***"Mənaqib Ali Əbu Talib", 4/21; "Musnədi-Əhməd", 6/298.***

***İmam Həsənin (ə) fəsahət və elmi***

Bir gün Əmirəl-möminin Həzrət Əli (ə) oğlu İmam Həsənə(ə) buyurdu ki, xütbə söyləsin. İmam Həsən (ə) ayağa durdu, qısa və məna ilə dolu cümlələrlə Allaha mərifət, Onun zatı sifətlərindən və feli sifətlərindən o cür danışdı ki, Əmirəl-Möminin Əli (ə) ayağa durdu və onun iki gözünün arasından öpdü və ***"Ali-İmran"*** surəsinin 34-cü ayəsini oxudu:

***"Övladlardan bəziləri bəzi digərlərindəndir (onlar seçilmiş ataların olub, paklıqda da bir-birlərinə oxşardırlar). Allah eşidən və biləndir"*** [1]

Ərabi Əbu Bəkrdən bir məsələ (ehram halında dəvə quşunun yumurtasını yemək hökmünü) soruşdu: "Əbu Bəkr məsələnin cavabında aciz qaldı və onu Ömərin yanına göndərdi. Ömər də bu suala cavab verməkdə aciz qaldı və onu Əbdürrəhmanın yanına göndərdi. O da aciz qaldı. Dedilər:

"Sən gərək Əlinin(ə) yanına gedəsən".

Həzrət Əli (ə) buyurdu:

***"Bu iki oğlanın hər birindən (Həsən və Hüseynə (ə) işarədir) istəyirsən soruş".***

İmam Həsən (ə) o cür cavab verdi ki, camaat təəccüb etdi və dedi:

***"O kəs ki, Süleyman ibn Davudu bilikli və alim etmişdir, bunu da bilikli və alim etmişdir"*** [2]

***Bu gün ey şiə, sevincdən bələnin göz yaşına,***
***Müjdə versin hərə öz dostuna, öz sirdaşına.***
***Kafirin ta ki, binadan evi uçsun başına,***
***İslamın hər nə ki var düşməni, bərbad günüdür.***
***Şad ol ey şiə ki, İslamımızın şad günüdür,***
***Əli övladı İmam Həsənin ad günüdür.***

---

[1] ***Tərcümətul İmamul Həsən (ə) ibn Əsani, 145***
[2] ***"Mənaqib Ali Əbu Talib", 4/10".***

***Peyğəmğbər(s) bir gün öz səhabələrinə buyurdu: "İstəyirsinizmi əmi və bibi cəhətdən ən üstün olan şəxslərin kimi olduğunu sizə söyləyim?"***

Səhabələr dedilər: "Bəli".

***Peyğəmbər (s) buyurdu: "Onlar Həsən (ə) və Hüseyndir. Əmiləri Behiştdə qanadları ilə uçan Cəfər Təyyar və bibiləri də behiştdə olan Ümmü Hanidir"***[1]

## İMAM HƏSƏN MÜCTƏBADAN (Ə) HƏDİSL\ƏR

***1.*** *"*Həmd olsun O Allaha ki, hər danışanın sözünü eşidir. Danışmayanın ürəyindəkilərdən xəbəri vardır. Hər bir canlının ruzisi Allahın əlindədir. Ölən hər bir kəs Allaha doğru qayıdır".

***2.*** *"*Təqsirkarı cəzalandırmaqda tələsməyin, təqsir ilə cəza arasında güzəştə (üzrə) də yol verin".

***3.*** *"*Dünya və Axirətin səadəti ağıl və fikri ilə qazanılır".

***4.*** *"*Cahillik və savadsızlıq kimi bir yoxsulluq yoxdur".

***5.*** *"*Öz biliyini başqalarına öyrət və başqalarının biliyini də öyrən. Beləliklə öz elmini möhkəmləndirib, bilmədiyini öyrənmiş olarsan".

***6.*** *"*Ağlın başlıcası xalqla yaxşı rəftar eləməkdir".

***7.*** *"*Haqla batilin arası dörd barmaqdır:

"Gözünlə gördüyün hər şey haqdır, qulağınla eşitdiklərinin çoxu batildir".

***8.*** *"*Dünyanı sevən bir kəsin qəlbindən Axirət qorxusu gedər".

***9.*** *"*Mömin dünyada axirəti üçün istifadə edər, kafir isə isə dünyadan bəhrə almaq üçün".

***10.*** *"*Xalqın həlak olmasına üç şey səbəb olar:

***1.Təkəbbür;***

***2.Tamah;***

***3.Həsəd.***

---

[1] ***Təntihul-məqal, c.3 səh 74***

***“Təkəbbür”*** - dini məhv edər, şeytan da təkəbbür etdiyinə görə lənətə uğradı.

***“Tamah”*** - insanın düşmənidir, Adəmdə (ə) bunun üçün cənnətdən çıxarıldı.

***“Həsəd və paxıllıq”***-pisliyin rəhbəridir . Qabil həsədə qapılaraq qardaşı Habili öldürdü".

***11.***"Təfəkkür edin, təfəkkür bəsirətli insanların könlünə həyat bəxş edər".

***12.***"Ağlı olmayanın ədəbi, iradəsi olmayanın igidliyi, dini olmayanın abır-həyası olmaz".

***13.*** “Fürsət əldən tez çıxar, yenidən ələ düşməsi isə çətindir.”

***14***. “Zarafat insanın heybətini aparır”

*****

# İMAM HƏSƏNİN (Ə) TƏVƏLLÜDÜ, ŞƏHADƏTİ VƏ HƏYATINA AİD SUAL VƏ CAVAB

***Sual - 1.***

İmam Həsənin (ə) məşhur ləqəbləri hansıdır?

***Cavab:***

Müctəba və Sibti Əkbər

***Sual - 2.***

İmam Həsənin (ə) künyəsi nədir?

***Cavab:***

Əbu Muhəmməd

***Sual - 3.***

İmam Həsən (ə) nə zaman və harada dünyaya göz aç-mışdır?

***Cavab:***

Hicrinin üçüncü ili, Ramazan ayının 15-də Mədinə şəhərində dünyaya gəlmişdir.

***Sual - 4.***

İmam Həsənin(ə) yaşayış dövrü neçə hissəyə bölünür?

***Cavab:***

Üç hissəyə bölünür:

1) Peyğəmbərlə (s) birlikdə olduğu dövr
2) Atası ilə birlikdə olan dövr
3) İmamlıq dövrü

***Sual - 5.***

İmam Həsən (ə) neçə il imamlıq edibdir?

***Cavab:***

10 il

***Sual - 6.***

İmam Həsən (ə) neçə il Peyğəmbərin (s) dövründə yaşamışdır?

***Cavab:***

7 il.

***Sual - 7.***

İmam Həsən (ə) neçə il atası ilə birlikdə olmuşdur?

***Cavab:***

31 il.

***Sual - 8.***

İmam Həsən (ə) bir uşaq dünyaya gələndə necə təbrik etmək haqqında nə buyurmuşdur?

***Cavab:***

Nəql edirlər ki, Allah-Təala İmam Həsənə (ə) bir oğlan uşağı verdi. Qureyşdən olan bir neçə nəfər təbrik demək üçün o Həzrətin (ə) hüzuruna gəlib belə dedilər:

***"Bu qəhrəman uşağın qədəmləri mübarək olsun."***

İmam Həsən (ə) buyurdu:

***"Belə təbrik demək nəyə lazımdır?! Belə təbrik deyin: Uşağı sənə bağışlayana şükr et, bağışlanmış (uşaq) sənə mübarək olsun. Allah onu böyütsün və sən onun yaxşı işlərindən bəhrə aparasan".***

***Sual - 9.***

İmam Həsən (ə) ziyarət üçün neçə dəfə piyada Mədinədən Məkkəyə getmişdir?

***Cavab:***

120 dəfə

***Sual - 10.***

İmam Həsənin (ə) Müaviyə ilə sülh etməsinin fəlsəfəsi nə idi?

***Cavab:***

İmam Həsənin (ə) qoşunun böyük bir hissəsinin müna-fiqliyi və qoşunun başçısı olan Übeydullah ibni Abbasın Müaviyənin dəstəsinə sarı qaçması, başqa bir dəstənin aldan-ması (tarixdə nəql olunur ki, onlar qoşunun üçdə iki hissəsini təşkil edirlər), qoşunun qalan hissəsinin əhd-peyman sındır-maları, xəvaricin fitnə-fəsadı, İmama(ə) həddindən çox töhmət vurulması və müsəlmanların məsləhəti üzündən İmam(ə) məc-bur olub Müaviyə ilə sülh müqaviləsi bağlamağı qəbul etdi.

***Sual - 11.***

İmam Həsən (ə) neçə yaşında və kimin vasitəsi ilə zəhər-ləndi?

***Cavab:***

47 yaşında Müaviyənin əmri və öz əyalı Cudənin vasitəsi ilə.

***Sual - 12.***

Pak və məsum İmamların(ə) hansının cənazəsini oxladı-lar?

***Cavab:***

Mühəddis Qumi ***“Mənaqib”*** kitabının müəllifindən nəql edir ki, İmam Həsənin (ə) pak cənazəsini oxladılar. Belə ki, dəfn zamanı ondan yetmişdən çox ox çıxardılar.

***Sual - 13.***

İmam Həsən (ə) nə zaman və harada şəhadətə çatdı?

***Cavab:***

Hicrinin 50-ci ilinin Səfər ayının 28-də.

***Sual - 14.***

İmam Həsən (ə) qəbri haradadır?

***Cavab:***

Mədinədəki ***“Bəqi”*** qəbristanlığında.

# BEŞINCI MƏSUM

## İMAMƏT SƏMASININ ÜÇÜNCÜ ULDUZU SEYYİDİ ŞÜHƏDA İMAM HÜSEYN(Ə)

***Ya Hüseyn! Qəsəm ol Əkbər canına,***
***Məni Həbibimin apar yanına***

***Bismillahir rəhmanir rəhim!***

İmam Hüseyn (ə) hicrətin 4-cü ili Şaban ayının 3-də Mədi-nə şəhərində anadan olub.

Atası – Həzrət Əli (ə)
Anası – Peyğəmbirn qızı Həzrəti Fatimeyi-Zəhra (s.ə.)
Məşhur ləqəbi – Seyidüş-şühəda
Müqəddəs məzarı – Kərbəla
İmam Hüseynin (ə) yaşayış dövrünü 4 yerə bölmək olar:

***1.Peyğəmbər zamanı – 6 il***
***2.Atası Həzrət Əliylə(ə) birlikdə – 30 il***
***3.Qardaşı İmam Həsənlə birlikdə – 40 il***
***4.İmamlıq etdiyi dövr – 10 il***

Həzrət Peyğəmbər (s) nəvələri Həsən (ə) və Hüseyni (ə) çox sevərdi. Bir gün xanımı Ayişəyə buyurdu:

***«Ey Ayişə, hər kəs nəvəm Hüseynin (ə) şəhadətindən sonra onun qəbrini ziyarət etsə, Allah-Təala mənim Həcc ziyarətimin birinin savabını o şəxsə verər».***

Ayişə dedi:

***«Ya Rəsulallah! Sənin həcclərinin birinin savabını?!»***

Peyğəmbər (s) buyurdu:

***«Bəli, hətta iki Həccimin savabını»…***

Bu mövzu beləcə davam etdi.

Nəhayət, Peyğəmbər (s) ***«Hətta Allah-Təala mənim 90 ədəd Həccimin savabını və bütün ümrələrimin savablarıyla bir-likdə Hüseyni (ə) ziyarət edən şəxsə verəcək»*** – söylədi.

Peyğəmbər (s) daha sonra buyurdu:

***«Həsən və Hüseyn keçmişdəki və gələcəkdəki insanlar arasında behişt cavanlarının iki ağasıdır. Onların atası Həzrət Əlinin (ə) məqamı isə onlardan da yaxşıdır».***

Əhli-beyt (ə) aşiqi ustad Füzuli yazır:

***Biz Hüseyn süfrəsinin nanü-nəmək pərvəriyik,***
***Adı hər yerdə çəkilsə, o ada müştəriyik.***
***Aylar, illər o şaha novhə deyib, ağlamışıq,***
***Gər qəbul etsə, onun nökərinin nökəriyik.***

İmam Hüseynin (ə) fəzilətləri barəsində nazil olan ayələr-dən biri də ***“Əl-Fəcr”*** surəsinin 2-ci və sonuncu ayələridir.

Bir qrup təfsirçi bu zaman kəsiyinin Məhərrəm ayının ilk on günlüyü olduğunu söyləmişlər.

***«Əl Fəcr»*** surəsi Quranın 89-cu surəsidir. Bu surə 30 ayə-dən ibarətdir. Surə Məkkədə nazil olub.

Peyğəmbər (s) bu surənin fəziləti barədə buyurmuşdur:

***«Kim bu surəni (Zilhiccə və ya Məhərrəm ayının ilk on gecəsində) oxusa, Xudavəndi Aləm onun günahlarını bağışla-yar, kim onu digər günlərdə tilavət etsə, Qiyamət günü onun üçün işıq və aydınlıq veriləcəkdir».***

1. And olsun dan yerinə…

2. And olsun on gecəyə…

Bu ayə barəsində müxtəlif şərhlər verilib.

Cabir İbn Abdullah Ənsari nəql edir ki, bu ayədə ***"On gecə"*** dedikdə Zilhiccə ayının birinci ongünlüyü nəzərdə tutu-lur. Çünki həmin vaxt dünya müsəlmanları bir yerə (Məkkədə Kəbə evinə) toplaşır və geniş bir siyasi birlik, həmrəylik nüma-yiş etdirirlər.

Başqa təfsirçilərin fikrincə ***«On gecə»*** dedikdə mübarək Ramazan ayının axırıncı ongünlüyü nəzərdə tutulmuşdur ki,

*"Qədr gecəsi"*də onların arasındadır. Başqa bir qrup təfsirçilər isə bu günlərin Məhərrəm ayının ilk on günlüyü olduğunu söyləmişlər.

Bir sıra İslami xəbərlərdə Quran mətninə söykənərək Fəcrin Həzrəti Mehdi Sahib əz-Zamanın (ə.f.) vücuduna, ondan əvvəlki 10 imama, bu ayədən sonraki ayədə ifadə olunan <<**Şəfənin**>> isə Həzrəti Əliyə (ə) işarə olunduğunu iddia etmişlər.

<<**On gwn**>> anlayışı necə təfsir edilir-edilsin, həmin günlərin son dərəcə böyük əhəmiyyətə malik olduğunu göstərir. Çünki hər adi şeyə and içmirlər, ən gərəkli, müqəddəs şeylərə and içirlər. Deməli, and içilən bu <<**On gwn**>> çox mühüm bir mənaya malikdir.

***əssəlamu aleykum və rahmətullahi və bərəkətuh.***

# «BİZ ONA BÖYÜK BİR QURBANLIQ FƏDA ETDİK»

***Zülcənah üstən yıxıldı çün siratəl-mustəqim,***
***Söylədi ol dəmdə "Bismillahir-Rəhmanir-Rəhim"***

***Hacı Rza Sərraf.***

***Bismillahir-Rəhmanir-Rəhim!***

İmam Rza (ə) buyurub:

***«Həzrət İbrahim (ə) bildi ki, nəslindən olan Axirzaman Peyğəmbərin (s) nəvəsi Hüseyn(ə) aşura günü zibh olunacaq və bunun təsirindən Allah dininin kökü həmişəlik suvarılacaqdır».***

Qurani-Kərim Allah-Təalanın bəşərə göndərdiyi sonuncu səmavi kitabdır. Bu səmavi kitab 114 surə və 6236 ayədən ibarətdir. Bu surələrdən biri də ***«Səffat»*** surəsidir. Bu surədə Al-lah-

Təala Həzrət İbrahimin (ə) başına gələn hadisələrə işarə edərək buyurur:

***"Nəmrud əhli ona (İbrahimə) qarşı hiylə qəsd etdilər. Biz isə onları zəlil etdik (Və odu gülüstana çevirdik)".***

İbrahim (ə) xilas olduqdan sonra qövmünə dedi: ***"Mən Pərvərdigarıma doğru gedirəm ki, əlbəttə, O məni hidayət edəcək!"***

(Dua edərək) dedi:

***«İlahi, mənə saleh bəndələrindən olan bir övlad bəxş et».***

***«Biz də (duasını qəbul edib) ona həlim bir oğlan uşağı ilə müjdə verdik».***

Sonra yüyürüb qaçmaq və atasına kömək etmək çağına çatdıqda İbrahim(ə) dedi:

***"Əziz oğlum! Yuxuda gördüm ki, (Allah yolunda) səni qurban kəsirəm. Bax bu barədə nə fikirləşirsən?» O dedi: «Atacan, sənə nə əmr olunmuşdursa, onu da et. İnşallah! Məni səbrli bəndələrdən tapacaqsan!"***

***"Onlar  hər ikisi (Allahın əmrinə) təslim oldu və onu üzü üstə yerə yıxdı (ki, ölüm vaxtı oğlunun üzünü görməsin!) (Bıçağı boğazına çəkən halda)***

***Biz o halda ona xitab etdik:***

***Ya İbrahim! Artıq sən röya aləminin əmrinə əməl etdin. (Bıçağı boğazından götür ki,) biz, yaxşı iş görənlərə belə mükafat veririk. Şübhəsiz ki, bu iman əhlinin halını aydınlaşdıran bir imtahan idi."***

***"Biz ona böyük bir qurbanlıq əvəz verdik"***[1] Ayələrdən görünür ki, ata-bala (İbrahim və İsmayıl) hər ikisi Allah-Təalanın əmrinə təslim olduqldan sonra vəhy gəldi:

***«Biz ona böyük bir qurbanlıq fəda verdik» –*** deyərək Allah-Təala İbrahimin (ə) yuxusuna əməl etdiyini çatdırır.

Bu ayənin incəliyinə diqqət yetirmək lazımdır ki, böyük bir qurbanlıq nə deməkdir? Mənəviyyat baxımından Həzrət İsmayıl (ə) kimi qurbanlığı bir ***"Qoç"***la dəyişə bilərmi? Bu ayəyə diqqət

---

[1] ***"Səffat" surəsi 97-ci ayə***

yetirdikdə insan fikirləşir ki, görəsən İsmayıl (ə) kimi qurbanlığın qarşısında qoç böyük bir qurbanlıq ola bilərmi?

***“Xisali- Səduq”*** kitabında yazılır:

İmam Rza (ə) buyurub:

***"Həzrət İbrahimə (ə) Kərbəla hadisəsinin həqiqəti təsvir edildi. Beləliklə qurbanın qəbul olunmadığından kədərlənmiş İbrahim (ə) bildi ki, oğlu İsmayılın qurban verilməsi məsələsinin taleyi dəyişilib, qaldı onun nəslindən olan Axirzaman Peyğəmbər Həzrət Məhəmmədin (ə) nəvəsi Hüseyn İbn Əli (ə) böyük qurbanlıq kimi Aşura günü zibh oluna (kəsilə) və həmin zibhin təsirindən Allah-Təalanın dininin kökü həmişəlik suvarılacaq və bəqada Qiyamət gününə kimi zəmanət olunacaq-dır".***

1. Aşura günü bir gündür ki, Peyğəmbərin (ə) övladı İmam Hüseyn (ə) İslam dininin əbədi qalması yolunda hər şeyindən keçdi.

Görkəmli Əhli-beyt şairi mərhum Seyid Həsən Kəhnə-muyi Təbrizi Kərbəla hadisəsini nəzmə çəkmişdir.

***Gördü dini din adıyla məhv edir dinsiz Yezid,***
***Dini imandan olub bir iddə insana ümid.***
***Oldu qurban, verdi qurban dinə yetmiş bir şəhid,***
***Peyruvan dinə ta həmvar olsun rahi-din.***

İmam Hüseyn (ə) İslam dininin əbədi qalmasından ötrü bütün imkanlardan istifadə edərək hər şeyini Allah yolunda qurban verdi.

***Verdim sənin eşqində nəyə gəldi gümanım,***
***Bir başdı qalan aşiqvin dari nə dari.***
***Bu baş da səninkiydi ki, məndəydi əmanət,***
***Rədd eylirəm indi onu al qovza yuxarı.***

İmam Hüseyn (ə) hər şeyini qurban verdiyi halda Allah-Təala vədə verdiyi kimi Onu mükafatlandırmaqla Özü o qanı satın alır.

Belə ki, Allah-Təala Qurani-Kərimdə ***«Tövbə»*** surəsinin 111-ci ayəsində buyurur:

***"Həqiqətən Allah möminlərini canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vədə vermiş Cənnət əvəzinə satın almışdır".***

Hər bir alqı-satqının 4 rüknü olmalıdır. Satıcı, alıcı, satı-lan, mal, malın dəyəri.

Bu ayədə belə bir təntənəli mənəvi alqı-satqıdan söhbət açılır.

***Satıcı*** – mömin insanlar – yəni, İmam Hüseyn (ə) və 72 Kərbəla şəhidləri; ***alıcı*** – Allah-Təala; ***satılan mal***-möminlərin canı və malı; ***onların dəyəri isə***-əbədi cənnət təyin olunmuşdur.

Sonra müamilənin sənədində göstərir ki, belə dəyərli mənəvi müamilənin sənədi Tövrat, İncil və Qurani-Kərim ola-raq vəhy mənbəyidir. Həmin səmavi kitablarda belə bir müjdə möminlərə vədə verilib.

Qeyd olunan mənalardandır ki; ***"Ziyarəti-Aşura"***da oxu-yuruq:

***"Salam olsun sənə, ey qanının sahibi Allah-Təalanın Özü olan və ey təklərin arasında ən tək olan".***

Məhz bu səbəblərdəndir ki, Peyğəmbərimiz (s) buyurub:

***«Hüseyn hidayət yolunun çırağı və nicat gəmisidir».***

Nicat gəmisinin işi nədir?

Nicat gəmisi dənizdə qərq olub boğulanları xilas edir. Hü-seyn (ə) də günah ümmanında çabalayanlara nicat verir. Çünki İmam Hüseynin (ə) mübarək bədəni başdan-başa lütfdür.

Nəql olunur ki, Nasibilərdən (Əhli-beytə(ə) düşmən olanlar) biri ağzına nə gəldi danışırmış. İstədiyi vaxt İmam Hüseynin(ə) hərəmi qarşısında dayanıb söyüş söyürmüş. Bir gün hərəmin xadimi İmamı (ə) yuxuda görür və şikayət edir ki, ağa, bu kişi ağzına nə gəldi deyir. Niyə bunu nifrin etmirsiniz?

İmam Hüseyn (ə) buyurdu:

***“O kişi filan gün, filan saatda fərat körpüsünün üstündən keçən zaman öz-özünə deyərmiş: Görəsən bunlar bu sudan bir az Hüseynin (ə) uşaqlarına versəydilər, nə olardı? O bir cümləyə görə həmin kişi azaddır, nə desə deyib”.***

Bir neçə gündən sonra həmin kişi gəlir, hərəmin qarşı-sında dayanıb yenə ağzına gələni danışır.

Xadim gəlib deyir:

***«Ey Nasibi, necə bir cümlə ilə özünə bəraət qazandırmısan»*** və yuxusunu ona danışır.

Kişi dərhal tutduğu işdən peşman olub tövbə edir və dəstəmaz alıb sürünə-sürünə İmam Hüseynin (ə) hərəminə girir. Hərəmin kənarında dayanıb yanıqlı səslə deyir**:**

***«Ağacan, bil-məmişəm, bağışla məni!»*** [1]

Hüseyn (ə) nicat gəmisidir. Bəli, nicat gəmisi belə nicat verir. Allah-Təala tofiq versin, kömək olsun, biz də nicat ta-panlardan olaq, İnşəllah. Amin, ya Rəbbəl-aləmin!

Bu məqaləni Seyyid Nurəddin Dərafərinin İmam Hüsey-nin(ə) eşqində yazdığı ***“Sənsən”*** rədifli qəzəli ilə bitiririk.

***Hüseyn, ey Kərbəla şahı, şücaət məktəbi Sənsən,***
***Siratəl-müstəqim Heydər, hidayət məktəbi Sənsən.***

***Edib bu məktəbi təlim tapır hürriyyət insanlar,***
***Rahi-azadəlik, rahi-səadət məktəbi Sənsən.***

***Çəkib aşiqləri verdin Minadə birbəbir qurban,***
***Qoyan İslamidə dərsi-şəhadət məktəbi Sənsən.***

***Nümayiş eylədin eşqin bəhasin xubilər görsün,***
***Xuda məhbubinə eşqi-məhəbbət məktəbi Sənsən.***

***Baban Peyğəmbərin elmin qanınla eylədin bərpa,***
***Əlinin bahünər oğlu rəşadət məktəbi Sənsən.***

---

*[1] Ayətullah Yəqub Cəfəri Marağayi «Təfsiri-Kövsər», s.4*

*Səninlə hifz olub İslam, Səninlə hifz olub Quran,*
*Edən həm din evin abad, risalət məktəbi Sənsən.*

*Səni dərk etməyən bilməz Əliyyəl-Murtəza kimdir,*
*Danılmaz həqqin ünvanı, vilayət məktəbi Sənsən.*

*Xudaya, "Seyyidi" salma Hüseyndən ayrı üqbadə,*
*Özün əcri şəfasın ver, şəfaət məktəbi Sənsən*

# İMAM HÜSEYNİN (Ə) HİCRƏTİ

***Bismillahir-Rəhmanir-Rəhim***

*Allah ilə ol imdi, niyaz eylə Nəsimi,*
*Başəd ki, suçundan keçə lütf eyləyə Rəzzaq.*

***S.İ.Nəsimi***

İmam Hüseyn (ə) Hicri-qəmərinin 60-cı ilinin Rəcəb ayının 28-də bazar günü övladları, qadınları (Məhəmməd ibn Hənəfiyyədən başqa) və bir dəstə başqa qohumları ilə birlikdə gecəylə Mədinədən hərəkət etdilər və cümə axşamı şəban ayının 3-də Məkkəyə çatdılar. İmam Hüseyn (ə) və səhabələri 95 günə qədər Məkkədə qaldılar və öz həcclərini tamam edə bilmədiklərinə görə ümrəyə çevirdilər və hicrinin 60-cı ilinin Zilhiccə ayının 8-də ailəsi və övladları ilə birlikdə İraqa tərəf yola düşdülər.

İmam Hüseynin (ə) ***"Həcc"*** ərəfəsində həccini ümrəyə döndərib Məkkədən çıxmasına səbəb o idi ki, Yezidin adamlarından bəziləri ziyarət adıyla İmamı (ə) öldürmək üçün Məkkəyə yola düşüblər və istəyirlər ki, ehram paltarının altında gizlətdikləri silahla haram ayda və Kəbənin kənarında

Peyğəmbər(s) övladını şəhadətə yetirsinlər. O özü bu barədə buyurur:

*"**Mən Allahın evinin hörmətini saxlamaq üçün Məkkəni tərk etdim.**"*

İmam Hüseyn (ə) Məkkədən çıxmamışdan bir gün əvvəl səhabələri üçün bir xütbə oxudu. ***"Xuttəl-mout"*** adıyla məşhur olan bu xütbənin axırında buyurdu:

***"Hər kəs istəsə öz ürəyinin qanını bizim yolumuzda qurban etsin və bizimlə yola düşməyə hazırdırsa, Allah qoysa, mən sabah hərəkət edəcəyəm".***

## NƏYƏ GÖRƏ İMAM HÜSEYN (Ə) QİYAM ETDİ ?

***İmam hüseynin (ə) qiyam etməsinə 3 mühüm amil səbəb oldu.***

İmam Hüseynin (ə) qiyamının 3 mühüm səbəbi vardır:

***1. Yezidə beyət*** - İmam Hüseyn (ə) bu batil fikir barədə buyurdu:

***"Zillət və zülmü qəbul etmək bizdən uzaqdır".***

***2. Kufə camaatının dəvəti*** - Onlar 150-yə qədər məktub yazıb İmam Hüseyni (ə) Kufəyə dəvət etdilər (amma sözlərinin üstündə durmadılar).

***3. "Əmr be məruf və nəhy -əz-münkər"*** - Bir çox alimlər bu amilin üzərində dayanırlar.

İmam Hüseyn (ə) buyurub: "Mən özümə xatir və fəsad üçün qiyam etməmişəm. Qiyamda məqsədim cəddim Peyğəmbərin (s) ümmətini və atam Həzrət Əlinin (ə) şiələrini islah etməkdir. Mən bu qiyamla ***"nəhy-əz-münkərə və əmr be mərufa dəvət edirəm".***

İmam Hüseyn (ə) bir məntəqəyə çatıb yerin adını soruşdu, dedilər Kərbəladır. O Həzrət(ə) Kərbəla adını eşidəndə buyurdu***: "İlahi, bu bəlalı və qəmli-qüssəli yerdən Sənə pənah aparıram". Sonra sözünə davam etdi: "Atlardan düşün, bura bizim***

***mənzilimizdir və xeymələrimizin yeridir. Bizim qanımız bu torpağa töküləcək".***

***Əssəlamu-əleykum və rəhmətullahi və bərəkətuh!***

# HİCRİ 61-Cİ İL. AŞURA GÜNÜ

***"Hu vəl əvvəl, hu vəl axir", gedər səndən ikilik kim,***
***Nəsimi! Yar ilə çün kim ulaşdı, kulli yar oldu.***

***S.İ.Nəsimi***

***Bismillahir-Rəhmanir-Rəhim!***

Tarixçilər yazırlar ki, Aşura günü İmam Hüseynin (ə) səhabələri döyüş meydanına getməzdən əvvəl hər biri İmamın (ə) qarşısında ərz edirdi:

***"Salam olsun sənə, ey Rəsuləllahın övladı!"***

O da cavabında buyurdu:

***"Biz də ardınızca gəlib sizə qoşulacağıq".***

Sonra ***"Əhzab"*** surəsinin 23-cü ayəsini oxudu: ***"Möminlər arasında elələri də var ki, şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar verdikləri sözü əsla dəyişməzlər".***

Aşura günü İmam Hüseynin (ə) səhabələrindən 17 nəfəri Bəni-Haşim sülaləsindən olanlar idi ki, Kərbəla çölündə vəhşicəsinə qətlə yetirildilər. Bəni-Haşim sülaləsindən ilk şəhid olan İmam Hüseynin (ə) oğlu Əli Əkbər oldu. Aşura gününün ən faciəli hadisələrindən biri təzə bəylə gəlinin - Vəhəb və Haniyənin şəhid olma hadisəsidir. Vəhəb İmamdan (ə) icazə alıb meydana getdi, bir az mübarizə və döyüşdən sonra iki əllərini kəsib əsir şəklində Ömər Sədin yanına apardılar. Ömər Sədin əmri ilə Vəhəbin boynu vuruldu, onun kəsik başını İmam Hüseynin (ə) qoşununa tərəf atdılar. Vəhəbin anası oğlunun kəsik başını götürüb üzünün qanını təmizlədi və yenidən düşmənə tərəf atıb dedi:

***"Biz Allah yolunda verdiyimiz qurbanları geri almırıq".***

Vəhəbin həyat yoldaşı Haniyə özünü ərinin qana bulaşmış cənazəsinə yetirdi və qanını təmizləyə-təmizləyə dedi:

***"Cənnət sənə mübarək olsun".***

Şümr öz quluna əmr etdi ki, onu da qətlə yetirsin. Qulam dəmir topuzla vurub Haniyəni də şəhid etdi.

***İmam Huseyn (ə) Aşura gecəsi düşməndən niyə möhlət istədi?***

Imam Huseyn (ə) Aşura gecəsi düşməndən möhlət istədi. O, qardaşı Əbulfəzl Abbasa (ə) buyurdu

***"Qardaşım, get düşmənlərə de ki, bu gecəni bizə möhlət versinlər. İstəyirəm bu gecəni namaz qılıb dua etməklə məşğul olaq. Çünki mənim namazı, Quran oxumağı və dua etməyi nə qədər çox sevdiyimi Allah bilir."***

Imam Huseyn (ə) Aşura gecəsi möhlət alıb dua və ibadətlə məşğul olmasının bərəkətindən düşmən qoşunundan 32 nəfər tövbə etdi və həmin gecə gəlib İmamın (ə) dəstəsinə qoşuldular.

# AŞURA ƏN BÖYÜK MÜSİBƏT GÜNÜDÜR

Abdullah ibn Fəzl Haşimi deyir:

***"İmam Sadiqdən (ə) soruşdum: "Nə üçün Peyğəmbərin (s), Həzrət Əlinin (ə), Həzrət Fatimənin (s.ə), İmam Həsənin (ə) vəfat günləri deyil, məhz Aşura günü qəmli-qüssəli gün kimi tanınıb?"***

İmam Sadiq (ə) buyurdu:

***"Əshabi-kisa"*** (Əbaya bürünmüş beş kimsə - Peyğəmbər (s), Həzrət Əli (ə), Həzrət Fatimə (ə), İmam Həsən (ə) və İmam Hüseyn (ə) Allah yanında ən aziz insan idilər. Peyğəmbər (ə) vəfat edərkən müsibət böyük olsa da, ***"Əshabi-kisa"***dan 4 nəfər qalmışdı və onlar xalqın pənahgahı idilər...

Amma İmam Hüseyn (ə) şəhid olandan sonra***"Əshabi-kisa"***dan heç kəs qalmamışdı. Necə ki, İmam Hüseynin (ə) qalması bütün ***"Əshabi-kisa"***nın qalmağı kimidir, eləcə də onun

şəhidliyi dünyada olmamalarına bərabərdir. Buna görə də Aşura ən böyük müsibət və qəm-qüssə günü kimi tanınıb.

Abdullah ibn Fəzli deyir ki, İmam Sadiqdən (ə) soruşdum: "Bəs İmam Səccad(ə) haqqında nə deyirsiniz?" Həzrət Sadiq(ə) buyurdu: "O, xalqa İmam və höccətdir, lakin Peyğəmbəri(s) görməyib və o, öz elmini ata-babasından irs aparıb,

amma Həzrət Əli (ə), Həzrət Fatimə (s.ə), İmam Həsən (ə) və İmam Hüseyn (ə) Peyğəmbəri (s) yaxından görüblər və camaat onları Peyğəmbərlə (s) birlikdə müşahidə ediblər. Buna görə də xalq nə vaxt o Həzrətlərdən(ə) birini görsəydi, onlar üçün Peyğəmbərin(s) xatirələri, danışığı, rəftarı təzələnərdi."

# QURANİ-KƏRİMLƏ İMAM HÜSEYN (ə) OXŞARLIĞI

1.Qurani-Kərim əmr be məruf və nəhy-əz-münkər edir, İmam Hüseyn (ə) də.

2.Qurani-Kərim xalqı Allaha tərəf, Haqqa doğru dəvət edir. İmam Hüseyn (ə) da Aşura günü buyurdu:

***"Mən sizi Haqqa dəvət edirəm".***

3.Qurani-Kərim əhli olmayan şəxslərdən şikayət edir. İmam Hüseyn (ə) də Qiyamət günü özünə və Əhli-beytinə (ə) zülm edən şəxslərdən şikayətlənəcək.

4.Qurani-Kərim ***"Səyyidul-kəlam"*** ("Kəlamların ağası"), İmam Hüseyn (ə) ***"Seyyidüş-şühəda"***dır ("Şəhidlərin ağası").

5.Qurani-Kərim də ***nurdur,*** İmam Hüseyn (ə) də ***nurdur.***

Bu məqaləni İrfan şairlərindən olan Mirzə Dahi Almaslı-nın bir ***“Növhə”***si ilə yekunlaşdırırıq:

***Düşmüşəm, ey dustlər, mən Kərbəla sevdasına,***
***Çırpınır Məcnun könül can veməyə Leylasına.***

***Aləmi- röyadə cəddimdən əmanət almışam.***
***Bir əmanət kim, onun şərhində heyran qalmışam***
***Fani dünyadan çıxıb, göylərdə məskun olmuşam,***
***Atmışam imza bu gün haqq əmrinin icrasına.***

***Saxlamaz yoldan məni zövqü-səfa, cövrü-cəfa,***
***İstərəm öz dərdimə şəhdi-şəhadətdən şəfa,***
***Boynuma minnət qoyub cəddim Mühəmməd-Mustafa,***
***Canişin bilmiş məni zülmətdə nur ehyasına.***

***Qarşıda min möhnətim, min bir əzabım var mənim,***
***Onlara səbrü dəyanətdən cavabım  var mənim.***
***Haqqı batildən seçən dinim, kitabım var mənim,***
***Qan ilə şərhin verər, şahid mənəm mənasına.***

***Əhli-həqqin tacidarı, höccəti-dövran mənəm,***
***Əmri-məruf, nəhyi-münkər dərdinə dərman mənəm.***
***Həqq mənəm, İman mənəm, İslam mənəm, Quran mənəm,***
***Qoymaram əsla yetişsin zalim öz xülyasına.***

***«Həqq gələr, batil gedər», hökmi-Xudadır, dönmərəm,***
***Mən hidayət nuruyam, tufani-şərdən sönmərəm.***
***Təxti-merac üstəyəm, göylər enər, mən enmərəm,***
***Kərbəladandır fəqət yol məhşərin səhrasına.***

***«Hərzəvü hədyan» deyildi Heydəri-Kərrarıma,***
***Yüz xəyanət etdilər ol Əhmədi-Muxtarıma,***
***Verdilər zəhri-cəfa sərdarıma, dildarıma,***
***Sığmayır qeyrət gəmim ta səbrimin dəryasına.***

***Qıyma-qıyma doğranar qarşımda Əkbər, dönmərəm,***
***Qan ilə sirab olar köksümdə Əsğər, dönmərəm!***
***Qarət eylər Zeynəbi-Tahanı kafər, dönmərəm,***
***Cismü canım od tutar, qan sürtərəm əczasına.***

*«Dön bu yoldan» - söyləyir həm dust, həm düşmən mənə,*
*Nalələr yüksəlməsin, layiq deyil şivən mənə,*
*Kərbəla səhrasıdır dünyada son məskən mənə,*
*Bir həqiqət var, məni səslər ölüm röyasına.*

*"Neynəva" dəştindədir dünyada hürriyyət mənə,*
*Pak ruhlardan gəlir qeyrət mənə, qüdrət mənə,*
*Bəxş edib «Qalu-Bəla» peymanəsi izzət mənə,*
*Satmaram mən əhdimi dəhri-fəna qovğasına.*

*Sığmadım mən süstülər, biganələr ümmanına,*
*Hər kəsin amalı var, girsin döyüş meydanına,*
*Haqqı izhar etsə hər dəm Dahi, öz dövranına,*
*Tanrı dost eylər onu azadələr Mövlasına.*

*****

# İMAM HUSEYN (Ə) TƏVƏLLÜDÜ, ŞƏHADƏTİ VƏ HƏYATI HAQQINDA SUAL-CAVAB.

***Sual - 1.***

İmam Hüseynin (ə) bayraqdarı kim idi?

***Cavab:***

Həzrət Əbulfəzl Abbas (ə). Onun ləqəbi Səqqa idi.

***Sual - 2.***

Məkkədən xaric olanda İmam Hüseynin (ə) xütbəsi nə idi və hansı adla tanınıbdır?

***Cavab:***

İmam Hüseyn (ə) Məkkədən xaric olmazdan bir gün əv-vəl öz səhabələri üçün bir xütbə oxudu və o xütbə ***"Xüttəl-mout"*** adıyla məşhurdur.

İmam (ə) bu xütbənin axırında buyurdu:

***“Hər kəs istəsə ki, öz ürəyinin qanını bizim yolumuzda qurban etsin və bizimlə yola düşməyə hazırdırsa, Allah qoysa, mən sabah hərəkət edəcəyəm”.***

***Sual - 3.***

Nə üçün İmam Hüseyn (ə) bir gecəni (aşura gecəsi) düşməndən möhlət istədi?

***Cavab:***

İmam Hüseyn (ə) Həzrət Əbulfəzl Abbasa (ə) buyurdu: “Qardaşım, get düşmənlərə de ki, bu gecəni bizə möhlət versinlər, biz də namaz qılıb Allaha dua etməklə məşğul olaq. Çünki mənim namazı, Quran oxumağı və dua etməyi nə qədər çox sevdiyimi Allah bilir.”

***Sual - 4.***

İmam Hüseynin (ə) Aşura günü və döyüş əsnasında aşkar surətdə yerinə yetirdiyi İlahi vaciblərindən biri hansı əməl idi?

***Cavab:***

İmam Hüseyn (ə) öz səhabələri ilə birlikdə camaat namazı qılırdı. Zöhr namazını, *"**xovf**"* namazı qıldılar. Belə ki, namaz tamam olana qədər səhabələrdən iki nəfər İmamın (ə) qarşı-sında dayandılar ki, İmama (ə) ox dəyməsin. O iki nəfərə o qədər ox dəydi ki, biri ağır yaralandı o biri isə şəhid oldu.

***Sual - 5.*** Aşura günü kim *"**zöhr**"* namazının vaxtını İmam Hüseynin (ə) yadına saldı və İmam (ə) onun cavabında nə buyurdu?

***Cavab:***

***“Aşura”***nın günorta vaxtı Əbu Sumameyi-Seydavi gü-nəşə baxıb gördü ki, zöhr olubdur. İmama (ə) ərz etdi: “Bax-mayaraq ki, düşmən möhlət vermir, amma istəyirəm Allaha elə qovuşam ki, axırıncı namazımı səninlə qılmış olam.”

İmam (ə) göyə baxıb buyurdu:

***“Namazı mənim yadıma saldın, Allah səni yadına salsın və namaz qılanlardan etsin. İndi namazın əvvəl vaxtıdır, düşməndən istəyin bizə namaz qılmaq üçün möhlət versin.”***

***Sual - 6.***

***"Bəni-Əsəd"*** tayfasından bir qoca kişi Peyğəmbərin (s) səhabələrindən idi və ***"Hüneyn"*** döyüşündə iştirak etmiş və Aşurada İmam Hüseynin (ə) kənarında şəhid olmuşdur. Onun adı nədir?

***Cavab:*** Onun adı Ənəs ibni Haris Kahilidir. O, Həbib ibni Məzahirin qohumlarından idi.

***Sual - 7.***

Əbuzərin azad etdiyi Əlinin(ə) evində, sonra isə İmam Hə-sənin(ə) evində yaşayan və nəhayət Kərbəlada İmam Hüseyn-lə (ə) birgə şəhid olan qulun adı nə idi?

***Cavab*:**

Onun adı Covn idi.

***Sual - 8.***

Nə üçün Aşura günü ən böyük müsibət günü kimi tanınıb?

***Cavab:***

Abdullah ibni Fəzl Haşimi deyir ki, İmam Sadiqdən (ə) soruşdum: Nə üçün Peyğəmbərin (s), Həzrət Əlinin (ə) və Fa-timeyi Zəhranın (ə) və İmam Həsənin (ə) vəfat günləri deyil, məhz Aşura günü müsibət və qəmli-qüssəli gün kimi tanınıbdır?

İmam Sadiq(ə) buyurdu: "Çünki ***"Əshabi-kisa"*** (Əbaya bürünmüş beş kimsə - Peyğəmbər (s), Əli (ə), Həzrət Fatimə(ə), İmam Həsən(ə) və İmam Hüseyn(ə) Allah yanında beş ən əziz insan idilər. Peyğəmbər (s) vəfat edəndə düzdür, müsibət bö-yük idi, amma ***"Əshabi-kisa"***dan dörd nəfər qalmışdı və onlar xalqın pənahgahı idilər. Həzrəti Fatimə (ə) şəhid olandan sonra müsibət böyük idi, amma camaat ***"Əshabi-kisa"***dan üç nəfəri öz aralarında görürdülər və camaatın pənahgahı idilər, amma İmam Hüseyn (ə) şəhid olandan sonra "Əshabi-kisa"dan heç kəs qalmamışdı və artıq xalq üçün pənahgah qal-mamışdı. Necə ki, İmam Hüseynin (ə), qalmağı bütün ***"Əsha-bi-kisa"***nın qalmağı kimidir. Eləcə də onun şəhid olması onların hamısının (dünyada) olmamalarına bərabərdir. Buna görə də ***"Aşura"*** günü ən böyük müsibət və qəm-qüssə günü ki-mi tanınıbdır".

Abdullah ibni Fəzl Haşimi deyir ki, İmam Sadiqə (ə) dedim: Bəs İmam Səccad (ə) haqda nə deyirsiniz?

İmam (ə) buyurdu:

"İmam Səccad (ə) xalqa İmam və höccətdir, lakin Peyğəmbəri (s) görməyib və o öz elmini ata-babasından irs aparıb, amma Həzrət Əli (ə) Fatimeyi Zəhra (ə), İmam Hə-sən(ə) və İmam Hüseyn (ə) Peyğəmbəri (s), yaxından görüblər və camaat onları Peyğəmbərlə (s) birlikdə müşahidə ediblər, buna görə də nə vaxt xalq o Həzrətlərin(ə) birini görsəydilər, onlar üçün Peyğəmbərin (s) xatirələri, danışığı, rəftarı təzələnirdi.

***Sual - 9.***

Kərbəla şəhidlərindən hansının başını kəsmədilər və nə üçün?

***Cavab:***

***Kərbəla şəhidlərindən iki nəfərin başını kəsmədilər:***

1) Həzrət Əli Əsğərin (ə) çünki onu İmam Hüseyn(ə) dəfn etdi.

2) Hürr ibni Yezid Riyahi, qohumları onun başının kəsilməsinə mane oldular.

***Sual - 10.***

Kərbəlada İmam Hüseynlə (ə), birlikdə şəhid olan səhabə-lər neçə nəfər idi?

***Cavab:***

Məşhur rəvayətə görə onların sayı 72 nəfər idi.

***Sual - 11.***

Rəvayətlərdə Allah evinin həcci əvəzinə nəyi tanıtdırıblar?

***Cavab:***

İmam Hüseynin (ə) ziyarəti həcc əvəzindədir.Yəni Alla-hın evi Kəbəni ziyarət etməyə qüdrətləri olmayan kəslər İmam Hüseynin (ə) qəbrini ziyarət etsinlər.

***Sual - 12.***

***"Nahiyeyi-müqəddəsə"***-ziyarəti hansı ziyarətdir və hansı xüsusiyyətlərə malikdir?

***Cavab:***

***"Nahiyeyi-müqəddəsə"***-ziyarətnaməsi Sahib-əz-Zaman-dan (əc.f) nəql olunubdur.

Həzrət (əc.f.) bu müqəddəs ziyarətnamədə bütün Kərbəla şəhidlərinin adını əzəmətlə çəkib, onlara salam və rəhmət göndərib, onların qatillərinə lənət deyibdir.

***Sual - 13.***

Namaz halında Kərbəla torpağına səcdə edən şəxsin sava-bı nə qədərdir?

***Cavab:***

***"Nicatul-ibad"*** kitabında deyilir ki, hər kəs namazda Kər-bəla torpağına səcdə etsə namazın qəbul olmağına mane olan şeylər götürülər və İmam Hüseynin (ə) qəbrinin torpağının bə-rəkətinə xatir namazı qəbul olunar.

***Sual - 14.***

Kərbəla şəhidlərinin başları nə zaman və kimin əmri ilə kəsildi?

***Cavab:***

Məhərrəm ayının 11-də Ömər Sədin əmri ilə.

***Sual - 15.***

İmam Hüsyn (ə) neçə yaşında şəhadətə çatdı?

***Cavab:***

57 yaşında.

***Sual - 16.***

İmam Hüseynin (ə) qatili kimdir?

***Cavab:***

Şeyx Şüştəri (r.ə) buyurub:

“İmam Hüseynin (ə) qatili əvvəl Yeziddir.Çünki o hökm verdi ki, ya İmam Hüseyndən (ə) mənim üçün beyət alın, ya da başını mənə göndərin.Ondan sonra İbni Ziyaddır, çünki ci-nayətin müqəddiməsini o hazırladı. Ondan sonra Ömər ibni Səddir. Kərbəla hadisəsindən sonra onu qatil kimi tanıyırdı-lar. Sonra Şimrdir ki, İmam Hüseynin (ə) başını kəsməklə mü-sibəti daha da artırdı.”

***Sual – 17.***

Zulcənah İmam Hüseynin (ə) bədəni ilə necə vidalaşdı?

***Cavab:***

İmam Hüseyn (ə) şəhid olandan sonra onun vəfalı atı Zulcənah İmamın(ə) tikə-tikə olmuş bədəninin yanına gəlib öz boynunun tükünü onun qanına boyadı.

İmamın(ə) bədənini iyləyərək uca səslə kişnəyirdi.

İmam Baqir (ə) buyurub:

"O öz kişnəməsi ilə deyirdi ki, öz Peyğəmbərinin (s) övladını öldürən ümmətin zülmünə vay olsun!"

***Sual - 18.***

Kərbəla şəhidlərinin cəsədləri nə zaman və kimin vasitəsi ilə dəfn olundu?

***Cavab:***

Kərbəla şəhidləri hicrinin 61-ci ilinin Məhərrəm ayının 11-də dəfn edildi. Belə ki, ***"Əqləmə"*** çayının yaxınlığındakı kənddə yaşayan Bəni-Əsəd tayfası şəhidlərin pak cəsədlərinin yanına gəldilər, amma İmam Hüseynin (ə) və başqa şəhidlərin başları bədənlərində olmadığına görə onları tanımadı-lar.Heyran qalmışdılar, nə edəcəklərini bilmirdilər.Birdən ta-nımadıqları bir atlı onlara tərəf gəldi.

Atlı onlara dedi: ***"Nə üçün bura gəlmisiniz?"***

Dedilər:

***"Bu pak cəsədləri dəfn etmək üçün gəlmişik, amma bədənlərin kimin olduğunu bilmirik."***

Həmin atlı İmam Zeynəlabidin (ə) idi. O Həzrət(ə) cəsədlərin hər birini onlara tanıdır, onlar da dəfn edirdilər. İmam Zeynəlabidin (ə) atasının tikə-tikə olmuş bədənini şəxsən özü həsirin arasına qoyub torpağa tapşırdı.

***Sual - 19.***

İmam Hüseynin (ə) pak məqbərəsi haradadır?

***Cavab:***

Kərbəlada.

***Sual - 20.***

Nə üçün İmam Hüseynin (ə) qəbri altı guşəlidir?

***Cavab:***

Çünki Əli Əkbərin (ə) cənazəsi atası İmam Hüseynin (ə) kənarında dəfn olunmuşdur.

***Sual - 21.***

İmam Hüseynin (ə) müqəddəs məqbərəsinin zərihinin yuxarısına qızıl suyu ilə nə yazılıbıdır?

***Cavab:***

İmam Hüseynin(ə) qəbrinin zərihinin yuxarısında qızıl su-yu ilə ***"Nur"*** ayəsindən sonra Peyğəmbərin (s) buyurduğu hədis yazılıb:

"Ey Cabir! Hüseynin(ə) qəbrini ziyarət et, çünki Hüseynin(ə), qəbrinin ziyarətinin savabı yüz (müstəhəb) həcc ziyarətinin savabı qədərdir. Əlbəttə, Hüseynin (ə), qəbri cənnət gülüstanlarındandır və Kərbəla behişt torpağıdır".

***Sual - 22.***

İmam Hüseynin (ə) vəsiyyətnaməsi necədir?

***Cavab:***

İmam Hüseyn (ə) İraqa tərəf hərəkət edən vaxt bir vəsiyyətnamə yazıb qardaşı Məhəmməd ibni Hənfiyyəyə verdi.

Bu vəsiyyətnamədə Allahın təkliyinə, Peyğəmbərin(s) nubuvvətinə və qiyamətin haqq olmasına iqrar edəndən sonra buyurub:

***“Mən özümə xatir və fəsad üçün qiyam etməmişəm. Mənim qiyam etməkdə məqsədim cəddim Peyğəmbərin (s) ümmətini və atam Həzrət Əlinin (ə) şiələrini islah etməkdir. Mən bu qiyamla xalqı nəhy-əz-munkərə və əmr-be-mərufa dəvət edirəm.”***

***Sual - 23.***

İmam Hüseynin (ə) neçə övladı var idi?

***Cavab:***

Şeyx Mufid deyir: “İmam Hüseynin (ə) altı övladı var idi?

**1)** Əli ibni Hüseyn (İmam Zeynəlabidin), anasının adı Şəhrəbanu idi.”

**2)** Əli ibni Hüseyn (Əli Əkbər), anası Leyla idi.

**3)**Abdullah (Əli Əğsər), Kərbəlada oxla boğazından vu-rub İmam Hüseynin (ə), qucağında şəhid etdilər,anası Rubab idi.

**4)** Cəfər, Kərbəla hadisəsindən qabaq dünyadan getdi.

**5)** Səkinə, anası Rubab idi.

**6)** Fatimə, anası Ummu İshaq idi.

Şeyx Mufiddən fərqli olaraq bəzi alimlər İmam Hüsey-nin(ə) Rüqəyya (s.ə.) adlı qız övladı olduğunu da qeyd ediblər və onu ***“Bəbul-Həvaic”*** yəni “***Hacətlər qapısı”*** adlandırıblar.

Hal-hazırda Rüqəyyənin (s.ə.) qəbri Suriyada yerləşir və Əhli-Beyt (ə) tərəfdarlarının müqəddəs ziyarətgahlarından biri hesab olunur.

***Sual - 24.***

Həzərt Zeynəbin (ə) dünyaya gəlməsi və vəfatı nə zaman və harada olubdur?

***Cavab:***

Həzrət Zeynəb (ə) hicrinin 5 ya 6-cı ilinin Camadiyul-əv-vəl ayının 5-də Mədinədə dünyaya gəldi və hicrinin 62-ci ilin-də, Mədinədə və ya Şamda vəfat etdi.

Bəzilərinin yazdıqlarına əsasən, hicrinin 64-cü ilində vəfat etmişdir.

Xanım Zeynəbin(s.ə) qəbri Suriyanın mərkəzi Dəməsq şəhərindədir və böyük ziyarətgahdır.

***Sual - 25.***

Sahibəzzaman(ə),***"Nahiyeyi-müqəddəs"*** ziyarətnaməsin-də Həzrət Əbülfəzl Abbasın (ə), fəzilətlərindən beşini bəyan edibdir, onlar hansılardır?

**Cavab:**

Sahib-əz-Zamandan (əc.f) nəql olunmuş ***"Nahiyeyi-müqəddəsə"*** ziyarətnaməsində o Həzrət Əbülfəzə (ə) belə buyurur:

“Salam olsun Həzrət Əlinin (ə), oxlu Əbülfəzinə. O,elə bir kəsdir ki,canını qardaşına qurban verdi, dünyanı axirətə çat-maq üçün vasitə etdi və o qardaşına fəda olan keşikçi idi və çox çalışdı suyu susuz dodaqlara yetirsin. O, bir kəsdir ki, iki qolları Allah yolunda kəsildi.”

***Sual - 26.***

İmam Hüseynin (ə) müqəddəs başı harada Quran oxudu və hansı ayəni təlavət etdi?

***Cavab:***

Çoxlu rəvayətlərdə nəql olunubdur ki, İmam Hüseynin (ə) kəsik başı Kufədə Quran oxudu.O cümlədən şeyx Mufid nəql edir:

Zeyd ibni Ərqəm dedi: "İmam Hüseynin (ə) başını Kufə-nin küçələrində gəzdirəndə gördüm ki, İmamın(ə) başı nizədə bu ayəni oxuyur; "Yoxsa ***"Əshabi-Kəhf"***in və ***"Rəqim"***in ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən?"

Həmçinin nəql olunub ki, müqəddəs baş bu ayəni oxuyurdu:

"Allah sənə (tezliklə onlardan sənin intiqamını almağa) kifayət edər. O, eşidən və bilәndir.

Nəql olunubdur ki, İmamın (ə), müqəddəs başından nur saçırdı və bu ayəni oxuyurdu:

"Zülm edənlər (öləndən sonra) hara düşəcəklərini mütləq biləcəklər."

***Sual - 27.***

Cabir İbni Abdullah Ənsari kim idi?

***Cavab:***

Cabir təqribən 15-il Hicridən qabaq Mədinədə dünyaya gəldi və atası Abdullah ***"Uhud"*** döyüşündə şəhid oldu. Cabir həmişə Peyğəmbər (s) ilə bir yerdə idi və Peyğəmbərin (s) döv-ründə 19 döyüşdə iştirak etmişdi. Peyğəmbərdən(s) sonra həmişə Həzrət Əli (ə) və Əhli-beytlə (ə), birlikdə olardı.Beləki, elə bil onun yaşayışı Əhli-beytin (ə) yaşayışıyla üst-üstə düşmüşdü.

İlk dəfə İmam Hüseyni (ə) o ziyarət etmişdi.

Nəhayət Cabir Peyğəmbərin(s) övladlarını sevdiyinə görə Həccac ibni Yusif tərəfindən bədəni dağlandı.

***Sual - 28.***

Əsirlər və İmam Hüseynin (ə), Əhli-beyti (ə),nə zaman Şam şəhərinə daxil oldular?

***Cavab:***

Hicrinin 61-ci ilinin Səfər ayının əvvəli.

***Sual - 29.***

İmam Hüseynin (ə) qəbrini ilk dəfə kim ziyarət edibdir və bu tofiq ona nə zaman nəsib olubdur?

***Cavab:***

İmam Hüseynin (ə) qəbrini birinci dəfə Cabir ibni Abdullah Ənsari ziyarət etdi. O ***"Ərbəin"*** günündə İmamın (ə), qəbrini ziyarət edibdir.

***Sual - 30.***

İmam Hüseyn (ə) üçün mərsiyyə deməyin tarixi nə zamana təsadüf edir?

***Cavab:***

İmam Hüseyn (ə) üçün mərsiyyə oxumağın tarixi Peyğəmbərin (s) dövründə və hətta Peyğəmbərdən (s) də qabaq, yəni Həzrət Adəmin (ə) dövrünə çatır. Çünki Peyğəmbərin (s) özü və məsum imamlar İmam Hüseyn (ə) üçün mərsiyyə oxuyublar və xalqı bu işə dəvət ediblər. Ona görə də o Həzrətə mərsiyyə oxumaq qabaqkı dövrə qayıdır.

İmam Hüseynə (ə) mərsiyyə demək İslam dinində məzhəbi şüarlardan və siyasi, ictimai, tərbiyəvi proqramlardan sayılır.

Bəziləri deyirlər ki,mərsiyyə oxumaq 9 və 10-cu əsrlərdə ***“Rövzətuş-şühəda”*** kitabının yazılması ilə başlandı.Bu nəzəriy-yə doğru deyildir.

***Sual - 31.***

İmam Hüseynin (ə) qətli haqqında ilk dəfə fars dilində yazılmış ***"rövzə"*** kitabının adı nə olub və müəllifi kim idi?

***Cavab:***

İmam Hüseynin (ə) haqqında fars dilində yazılan birinci rövzə kitabı ***“Rövzətuş-şühəda”*** kitabıdır.Müəllifi Cəmaləddin Hüseyn ibni Əli Vaiz Kaşifidir.

***Sual - 32.***

Muxtar neçə yaşında və harada şəhadətə çatdı?

***Cavab:***

Muxtar 67 yaşında Musəb ibni Zubeyrin qoşunu ilə müharibə edən zaman şəhid oldu.Muxtarın şərafətli qəbri, Həzrət Müslümin (ə) pak qəbrinin yanında Kufə şəhərindədir.

***Sual - 33.***

İmam Hüseynin (ə) Əhli-beyti (ə) və Haşimi qadınları nə zaman əzadarlıqdan çıxdılar?

***Cavab:***

Haşimi tayfasının qadınları İmam Hüseyn (ə) şəhid olan-dan sonra beş il müddətinə qədər gözlərinə sürmə vurmayıb, başlarına həna qoymadılar. Hətta bir nəfər də onların evindən yemək bişirmək məqsədi ilə tüstünün qalxmasını görmədi. Hic-rinin 67-ci ilində Muxtarın qoşunu vasitəsi ilə Ubeydullah ibni Ziyad cəhənnəmə vasil olandan sonra Haşimi tayfasının qadınları əzadan çıxdılar.

***Sual - 34.***

İmam Səccad (ə) atasının müsibəti üçün neçə il ağladı?

***Cavab:***

İmam Sadiq (ə) buyurur: ***"İmam Səccad (ə) 40 il atası İmam Hüseynin (ə) müsibətinə görə ağladı. Bu 40 il ərzində o Həzrət(ə) gündüzlər oruc tutur, gecələr ibadət edirdi. Hər vaxt o Həzrətin (ə) qulamı Həzrətin qarşısına yemək və su qoyduqda, İmam (ə) buyurardı:***

***"Allahın Rəsulunun (s) övladı ac və susuz öldü".***

İmam Səccad (ə) bu cümləni tez-tez təkrar edir və ağlayır-dı. Hətta Həzrətin (ə) yeməyi gözünün yaşıilə islanırdı. İmam Səccad (ə) ömrünün axırına qədər bu cür yaşadı.

***Sual - 35.***

Qurani-Kərimlə (sabit Quran) və İmam Hüseyn (ə), (na-tiq Quran) arasında nə oxşarlıq var?

***Cavab:***

Qurani-Kərimin və İmam Hüseynin (ə) bir-birinə oxşar-lığı aşağıdakılardan ibarətdir:

**1)**Qurani-Kərim əmr-be-məruf və nəhy-əz-münkər edir. İmam Hüseyndə (ə) əmr-be-məruf və nəhy-əz-münkər edir.

**2)** Qurani-Kərim xalqı Allaha tərəf, haqqa doğru dəvət edir. İmam Hüseyn (ə) da Aşura günü buyurdu: ***"Mən sizi haqqa tərəf dəvət edirəm".***

**3)** Qurani -Kərim Quran əhli olmayan şəxslərdən şikayət edir.

İmam Hüseyndə (ə), qiyamət günündə özünə və əhli-beytinə zülm edən şəxslərdən şikayət edəcək.

4) Qurani-Kərim *"**Səyyidul-kəlam**"*dır (yəni kəlamların ağasıdır).

İmam Hüseyn (ə) *"**Seyyiduş-şühəda**"*dır (yəni şəhidlərin ağasıdır).

5) Qurani-kərim nurdur,İmam Hüseyn (ə) da nurdur.

***Sual- 36.*** Qasim İbn Həsən kim idi? Və Kərbəlada olarkən neçə yaşı var idi?

***Cavab:***

Qasim (ə) ikinci İmamımız İmam Həsən Müctəbanın (ə) oğlu idi və Kərbəlada olarkən 13 yaşı var idi. əmisi İmam Huseyndən (ə) icazə alıb meydana getdi, şücaətlə döyüşdü və şəhadət məqamına nail oldu.

# ALTINCI MƏSUM

# İMAMƏT SƏMASININ DÖRDÜNCÜ ULDUZU İMAM ZEYNƏLABİDİN (Ə) MÖVLUDU

***Ya Zeynulibad! Et qəbul duami,***
***Heydəri-Kərrarə yetir ricami.***

***Bismillahir-Rəhmanir-Rəhim***

***Adı: Əli (ə)***
***Məşhur ləqəbləri: Səccad, Zeynəlabidin.***
***Atası: İmam Huseyn (ə),***
***Anası: Şəhrəbanu (Yezdəgirdin qızı)***
***Anadan olduğu yer: Mədinə***

Yaşayış dövrləri: O Həzrətin (ə) həyatını iki mərhələyə bölürlər:

1. ***Atası ilə birlikdə 22 il.***
2. ***İmamlıq dövrü (35 il)***

***Müqəddəs məzarı: Mədinə, Bəqi qəbirstanlığı***

1) Yeziddən tutmuş Əməvilər sülaləsinin onuncu xəlifəsi Hişam ibn Əbdülməlikə qədər 9 nəfər tağut və zalım hökmdarla müasir olub.

2) O Həzrət (ə) Hişam ibn Əbdülməlikin təhriki ilə zəhərləndirilmiş və 56 yaşında şəhadətə yetişmişdir.

İmam Zeynəlabidin (ə) ***«Siffeyn»*** müharibəsi davam edən vaxt dünyaya gəlir, Müaviyyənin ağır cinayətlər törətdiyi vaxtda boya-başa çatır. Müaviyyənin Əlinin (ə) tərəfdarlarını öldürməsi, o Həzrətə (ə) nəlayiq sözlər deməsi, Jərbəla faciəsi və özünün əsir düşməsi və hər an ölümlə üzləşməsi kimi hadisələrlə qarşılaşır. İbni Ziyadın Yezidin məclislərində müsəlmanlara verilən əzab-əziyyətləri öz gözləri ilə görür.

Anadan olduğu tarix: İmam Zeynul-Abidin (ə) hicrətin 38 -ci ili Şəban ayının 5-i Mədinə şəhərində dünyaya gəlmişdir.

***Onu Allah İmam bilmiş,***
***Adın Zeynuləba vermiş,***
***Pənahi-Kərbəla gəlmiş,***
***Mübarəkdir, mübarəkdir!***

İmam Zeynəlabidin (ə) anası İran padişahı II Yezdəgirdin qızı Şəhrəbanu xanım haqqında belə deyir: **"Həzrət Şəhrəbanu 9 məsum imamın(ə) «imamlar atası» deyilir. O cür də Şəhrəbanu xanıma «İmamlar anası» deyilir."**

# İMAMIN YAŞADIĞI DÖVR

İmamın(ə) yaşayış dövrü iki hissəyə bölünür:
Atası ilə olduğu dövr – 22 il.
İmamət dövrü – 35 il.
Tavus Yəmani deyir:
«Bir gecə Kəbənin kənarından keçirdim. Gördüm ki, İmam Zeynəlabidin (ə) ***"Hifzi İsmail"*** məkanına daxil olub na-maz qılmağa başladı. Sonra səcdəyə getdi.
Mən eşitdim ki, O Həzrət (s) səcdədə deyir:
***«İlahi! Sənin kiçik bəndən, sənin biçarə bəndən, sənin yox-sul bəndən və sənin xahiş edən bəndən sənin evinə gəlibdir».***
Sözünün davamında Tavus Yəmani deyir:
***«Mən bu duanı dinlədim və öyrəndim. Mənə üz gətirən qəm-qüssə zamanı bu duanı oxuyurdum. Beləliklə, qəm-qüssə mənim üzərimdən götürülürdü».***
Kərbəla hadisəsi baş verən zaman İmam Zeynəlabidi-nin(ə) 23 yaşı var idi.
Təəssüflə qeyd etməliyik ki, bəzi mənbələrdə 4-cü İmam(ə) daim xəstə kimi yad edilir və bununla da , camaatın fikrində o, cox zəif, əldən düşmüş, saralıb solmuş şəxs kimi canlanır. Hal-

buki, əslində belə deyil, çünki İmam(ə) ancaq Kərbalada, çox qısa müddətdə xəstə olmuşdur. Faciədən sonra sağalmış və təxminən 35 il digər İmamlar(ə) kimi sağlam bədənlə fəaliyyət göstərmişdir. Şübhəsiz ki,o Həzrətin(s) Kərbala hadisəsindəki müvəqqəti xəstəliyi Allahın bir məsləhəti idi. Belə ki, İmam (ə) bu vasitə ilə cihad vəzifəsindən azad olmuş və Yezidin muzdurlarının ölüm təhlükəsindən amanda qalaraq İmamət xəttini davam etdirmişdir. Əgər xəstələnməsəydi, gərək cihadda işti-rak edəydi və bu təqdirdə də atasının digər oğul və dostları ki-mi şəhid olar və beləliklə də, İmamət nuru birdəfəlik sönərdi.

İmam Səccad (ə) çətin və acınacaqlı əsirlik müddətində əsirlərin ümid və pənah yeri olmaqla yanaşı, həmçinin düşmə-nə qarşı şücaət və vüqarla hərəkət etmişdir. Eyni zamanda Kərbala şəhidlərini də o dəfn etmişdir.

İmamın (ə) həyatının parlaq cəhətlərindən biri də, acına-caqlı və zülmlə dolu mühitdəki ictimai xidmətləridir. Bu xid-mətlər istər Hirrə faciəsi zamanı kimi Mədinənin böhranlı və qarışıq günlərində, istərsə də kimsəsiz və miskinlərin nəvazişə ehtiyaclı, onlara tərəf lütf, mərhəmət əli uzadılması intizarında olduqları sakit günlərdə, o Həzrətin(s) ömrünün sonunadək davam etmişdir. İmam Səccadın (ə) həyatında eyni zamanda qul azad etmək məsələsi o qədər genişdir ki, onu yalnız böyük hesablamalarla deyil, bu işdə ali məqsədlərin varlığı ilə izah etmək mümkündür. Bu sahəyə diqqət yetirilsə aydınlaşar ki, Həzrət (s) bu işə insani-tərbiyəvi məqsədlə yanaşmışdır. Yəni o, qulları alaraq onları bir müddət təlim-tərbiyə etdikdən sonra azad edirdi. Onlar isə öz növbəsində cəmiyyət arasında nümunə kimi mədəni və tərbiyəvi fəaliyyət göstərir və azad ol-duqdan sonra da, İmamla (ə) əlaqəni kəsmirdilər. İmam Səc-cad (ə) hicrətin 94-95-ci ili dövrünün xəlifəsi tərəfindən zəhər-lənərək şəhadətə qovuşmuşdur, mübarək məzarı "***Bəqi***" qəbirstanlığındadır.

Bir nəfər İmam Saccada (ə) dedi:

***"Yəbnə Rəsuləllah(s) gecəni necə keçirdin?"***

O Həzrət(ə) cavabında buyurdu:

***“Gecəni bir halda keçirdim ki, məndən səkkiz şey tələb olunurdu: Allah məndən vacibatı, peyğəmbər (s) öz sünnəsini, əhli-əyalım məişətin təmin olunmasını, həvayi-nəfs şəhvəti (qane etməyi), şeytan günah iş görməyi, gözətçi mələklər (Rəqib və Ətid) düzgün əməli, Mələkul-movt (Əzrayıl) ruhumu, qəbr isə cəsədimi tələb edirdi. Mən də bu işlərin arasında onlara tələbkar idim”.***

# DÖRDÜNCÜ İMAMIN (Ə) LƏQƏBLƏRİ

İmamın (ə) bir sıra ləqəbləri olmuşdur ki, onlardan məşhurları bunlardır: Səccad , Zeynəlabidin, Seyyidüs-Sacidin, Zəki, Əmin və Züs-Səhənat.

Bu ləqəblərdən ən çox cəmiyyətdə ikisinə üstünlük verilir: Səccad(ə) və Zeynəlabidin(ə).

5-ci İmam Məhəmməd Baqirdən (ə) soruşdular ki: ***"Nə üçün İmama (ə) Səccad deyirlər?"***

İmam Məhəmməd Baqir (ə) belə cavab verdi:

"Atam İmam Zeynəlabidin (ə) hər vaxt ilahi nemətlərdən hansı birini yadına salırdısa, səcdə edirdi. Atam Qurani-Kə-rimin səcdəsi olan ayələrindən istər vacib olsun, istərsə də müs-təhəb, hansını oxuyurdusa, səcdə edirdi. Həmçinin hər vaxt namaz qılıb qurtarırdısa, səcdə edirdi və hər vaxt iki nəfərin arasında sülh yaradırdısa, səcdə edirdi. Xülasə, çoxlu səcdə et-diyi üçün alnında səcdə yeri qalmışdı. Bu səbəbə görə o Həz-rətə **«Səccad**», yəni ***«çoxlu səcdə edən şəxs»*** deyirdilər".

Bəs nəyə görə Zeynəlabdin deyirdilər?

***“Zeynəlabidin”*** (ə) ləqəbinə gəldikdə isə bu sözün mənası “***İbadət edənlərin zinəti”*** deməkdir. Peyğəmbər (s) buyurub: ***«Qiyamət günü carçı nida çəkəcək ki, Zeynəlabidin hardadır? Mən elə bil, Əli İbn Hüseyni (Zeynəlabidini) cərgələrin arasında gəzən görürəm».***

# İMAM ZEYNALABDIN (Ə) BUYURDUĞU HƏDISLƏR

5 dəstə ilə yoldaşlıq və dostluq etməyin:

**1**. Fasiqlə dost olma, çünki səni bir tikəyə, hətta daha aza, yəni bir tikənin dadına satar.

**2.** Paxıl adamla yoldaş olma, çünki son dərəcə ehtiyacın olan zaman səni öz malından məhrum edər.

**3**. Yalançı adamla yoldaş olma, çünki ilğım kimidir. Yaxı-nı sənin üçün uzaq və uzağı yaxın kimi cilvələndirir.

**4.** Axmaq adamla dost olma, çünki o, səni mənfəətə çat-dırmaq istəyir. Amma öz nadanlığından zərər yetirir.

**5**. Öz yaxınları ilə rabitəsini kəsən adamla oturub durma. Çünki mən qohumluq rabitəsini kəsən şəxslərin Allahın kita-bında 3 dəfə lənətləndiyini tapdım.

***İmam Zeynəlabidin (ə) dünya və axirət haqqında*** öz dost-larına etdiyi vəsiyyətdə buyurub:

***«Dostlarım, həqiqətən mən sizə dünya üçün deyil, axirət evi üçün tədarük görməyi vəsiyyət edirəm. Çünki siz axirətə qayı-dacaqsınız. Məgər xəbəriniz yoxdurmu ki, Həzrət İsa (ə) həva-rilərə buyurdu:***

***"Dünya bir körpüdür. Gərək bu körpüdən keçəsiniz. Buna görə də dünyanın imarəti üçün çalışmayın. Yəni gərək körpüdən keçəsən, nəinki orada oturmaq arzusu ilə gününü keçirib qala-san. Sizin dünyanız dəryadakı ləpələr və dalğalar kimidir. Dün-yada ev tikmək, dərya ləpələri üzərində ev tikməyə bənzəyir. Bəs belə bir əsassız süst-məkanı özünüz üçün sakitlik və dincəlmək yeri bilməyin."***

Irfan şairlərindən olan Baba Tahir Üryan bir ***"Rü-bai"***sində insanın son mənzilinin torpağın altı olduğunu qeyd edərək demişdir:

***Yerin şahin təki olsa göy qatı,***
***Yenə də əbədi sanma həyatı.***

*Yüz il yaşasan da bilməlisən ki,*
*Axır mənzilindi torpağın altı.*

Imama Zeynəlabidin (ə) axirət səfərinə hazırlaşmaq üçün iki şeyi tövsiyyə etdi:

1. ***Günahdan uzaq olmaq,***
2. ***Yaxşı işləri yerinə yetirmək, yoxsul insanlara kömək göstərmək.***

***Bir kəsə ehsan edərsən, qoyma minnət boynuna,***
***Çünki minnət qoymağı ol Xaliqi-Yəzdan edər.***

İmamın ən qiymətli əsəri ***"Səhifeyi-Səccadiyyə"*** əsəridir. Bu əsər 57 duadan ibarətdir. Həmin dualar əxlaqi, ictimai, ibadi və ən dəqiq tovhidi məsələləri bəyan edir. ***"Səhifeyi-Səccadiyyə"*** yə ***"Uxturul-Quran"*** (yəni Quranın bacısı) Əhli-beytin (ə) ***"İncil"***i və Ali-Muhəmmədin ***"Zəbur"***u da deyirlər.

*****

# İMAM ZEYNƏLABİDİN (Ə) TƏVƏLLÜDÜ, ŞƏHADƏTİ VƏ HƏYATI HAQQINDA SUAL-CAVAB.

***Sual - 1.***

İmam Zeynəlabidinin (ə) ata və anasının adı nədir?

***Cavab:***

İmam Zeynəlabidinin (ə) atasının adı İmam Hüseyn (ə) və anasının adı Şəhrəbanıdır.(Şəhrəbanı İran padşahı II Yez-degerdin qızıdır)

***Sual - 2.***

İmam Zeynəlabidin (ə) nə vaxt və harada dünyaya göz açdı?

***Cavab:***

Hicrinin 38-ci ilinin şəban ayının 5-i (və ya həmin ilin ca-

madiyul-əvvəl ayının 15-i)Mədənə şəhərində.

***Sual -3.***

İmam Zeynəlabidinin (ə) qulamlarından biri o Həzrət-dən(ə) soruşdu:

"Ey mənim ağam, sizin qəm çəkdiyiniz ruzigar sona çat-mayıb və sizin ağlamağınız azalmayıbdırmı? "

İmam Zeynəlabidin (ə) onun cavabında nə buyurdu?

***Cavab:***

İmam Zeynəlabidin (ə) öz qulamlarından birinin cavabın-da buyurdu:

"Vay olsun sənə! Həzrət Yəqub (ə) həm Peyğəmbər və həm də Peyğəmbər övladı idi.Onun 12 övladı olubdur. Allah- Təala Yəqubun (ə) övladlarından birini gizlətdi. Həzrət Yəqub (ə) öz övladı Yusifdən(ə) ayrılığı üçün başının tükü ağardı, beli əyildi və çoxlu ağladığı üçün gözləri tutuldu. Halbuki onun öv-ladı (Yusif) dünyada yaşayırdı və sağ idi. Lakin mən atamın, qardaşlarımın ölümünü, bədənlərindən ayrılmış başlarını yerin üstündə gördüm.Belə olan halda qəmqüssəli ruzigarım necə sona çata bilər, ağlamağım necə azala bilər."

***Sual - 4.***

İmam(ə) şəhid olduqdan sonra vəfalı dəvəsinin aqibəti ne-cə oldu?

***Cavab:***

İmam Zeynəlabidinin (ə) dəvəsi o Həzrət(ə) şəhid olandan sonra onun pak və müqəddəs qəbrinin kənarına gəlib qəbirin üstünə uzandı. Həzrətin(ə) dəvəsi özünü torpağa bulaşdırıb şivən qoparır və ağlayırdı. Üç günə qədər dəvə həmin vəziyyətdə qaldı və üç gündən sonra öldü.

# YEDDINCI MƏSUM

## İMAMƏT SƏMASININ BEŞİNCİ ULDUZU İMAM MƏHƏMMƏD BAQİRİN (Ə) MÖVLUDU

***Bismillahir-Rəhmanir-Rəhim!***

*__Ya Mühəmməd Baqir! Sənsən pənahım,__*
*__Bəlkə, lütf eyləyə quluna şahım__*

***Peyğəmbər(s) elminin varisi***

İmam Məhəmməd Baqir (ə) Hicrətin 57-ci ilində Rəcəb ayının 1-də Mədinədə dünyaya göz açıb. Babasına çox bənzə-diyi üçün o Həzrətin adını Məhəmməd qoyublar. Elmin sirləri-ni aşkar etdiyinə görə isə ona ***“Baqir”*** ləqəbi veriblər. İmam Məhəmməd Baqirin (ə) imamlıq dövrü atası İmam Səcca-dın(ə) şəhadətə yetişməsindən sonra təqribən 20 il davam edib. O Həzrət (ə) həm ata, həm də ana tərəfindən Həzrət Peyğəm-bərə (s) çatan ilk İmam sayılır.

1.Həyatını iki hissəyə ayırmaq olar:

1. İmamətdən qabaqkı 35 illik həyatı. (Həmin dövrdə Mə-dinədə yaşayırdı).

2. Təxminən iyirmi il davam edən imamlıq dövrü. (Bu dövr islam elm və biliklərini təbliğ etdiyi zamandır).

İmam Məhəmməd Baqir (ə) həmişə təzə və səliqəli paltar geyər, özünə ətir vurar və yavaş-yavaş yeriyərdi. Heç vaxt ucadan gülməz, həmişə ahəstə və ədəbli danışardı. Heç vaxt əsəbləşməzdi, həmişə rastlaşdığı adama hörmət göstərib onunla mehribanlıqla görüşərdi. Özü bu haqda belə buyurur:

***"Bu iş ürəkləri bir-birinə yaxınlaşdırıb, düşmənçilikləri aradan qaldırar".***

İmam (ə) dua edərkən çox ağlar, amma heç vaxt ucadan hönkürtüsü səslənməzdi. Danışarkən sözünü Allah adı ilə baş-ladığı kimi Allah adı ilə də bitirərdi.

Çoxlu bağları və tarlası vardı. Özü də sadə bir əkinçi kimi tarlaya gedər, fəhlələrlə birgə işləyib yemək yeyərdi.

Əldə etdiyi qazancı Allah yolunda sərf edib, fəhlələrin bü-tün ehtiyaclarını təmin edərdi. Belə ki, öz zamanında Hicazda ən səxavətli şəxsiyyət kimi tanınmışdı.

Şeyx Müfid İmam (ə) haqqında belə yazıb:

***"O Həzrət bütün elm və mərifətlərə bələd idi. Bütün ömrünü öz Allahına itaət etməklə başa vurmuşdu. Təqva və pəhrizkarlığında möhkəm və sarsılmaz idi. Bağladığı əhd-peymanına həmişə sadiq qalardı. Ürəyinin saflığı, ruhunun paklığı və insani rəftarları hamını heyran qoymuşdu. Camaata İslam əxlaqını tə-lim edərək onları məhz belə tərbiyələndirirdi".***

Təəssübkeş sünnü alimlərindən olan Ibn Həcər İmamın(ə) əxlaqı barədə yazır:

***"İmam Məhəmməd Baqir (ə) şəfalı və pak qəlbə malik şəxsiyyətdir. Sözü ilə əməli biriydi. Davranışı insani və İslami idi. Böyük arif, misilsiz abid idi. Onun insani ziynətlərini vəsf etməkdə acizəm".***

İmam Məhəmməd Baqirin(ə) elmi məqamı haqqında Şeyx Tusi belə yazmışdır:

Şam əhalisindən olan bir kişi İmam Məhəmməd Baqi-rin(ə) hüzuruna gəlib dedi:

***"Sən elmli və biliklisən. Məclisin də mənim üçün çox mənfəətli və dəyərlidir. Lakin sənin məclisində iştirak etsəm də özünü və xanədanını düşmən hesab edirəm".***

İmam heç bir cavab vermədi. Neçə gündən sonra həmin kişi xəstələnib yatağa düşdü. İmam(ə) dostları ilə birlikdə onun əyadətinə gəlib yatağının yanında əyləşdi və halını soruş-du.Bu alicənablığı görən şamlı dediyi sözdən peşman olub İmamdan (ə) nə cür üzr istəyəcəyini bilmədi. Həzrət (ə) xəstə-nin dərmanları və pəhrizi haqqında ailəsinə bildirdi və sağal-masını dua etdi. Çox çəkmədi ki, kişi yaxşılaşıb xəstəlik yata-ğından qalxdı. Sabahı gün İmamın(ə) dərsinə gəlib dediyi söz-dən peşman olduğunu söyləyərək Əhli-Beytin (ə) dostlarından birinə çevrildi.

Digər məsumlar kimi, İmam Məhəmməd Baqirində(ə) elm və biliyi vəhydən qaynaqlandığı üçün bütün məsələlərin cavabını bilirdi. Elmi səviyyəsi o qədər yüksək idi ki, alimlər onun məclisində uşaqlar müəllimin qarşısında əyləşdikləri ki-mi əyləşirdilər. İmam (ə) öz dərs məclisində bir bulud kimi elm yağışını tələbələrin zehninə yağdırırdı və hər kəs istedadı qədər istifadə edirdi. O Həzrət(ə) Peyğəmbər (s) elminin yeganə varisi sayırdılar.

İmam Sadiq (ə) buyurmuşdur:

***“Bir gün atamla birlikdə Hişamın məclisindən qayıdırdıq ki, yolumuz xristianların yığışıb alimlərinə sual verdikləri yer-dən düşdü. Yaxınlaşdıq ki, görək nə xəbərdir.”***

Qoca bir xristian bizi gördükdə dedi:

***“Sən Məhəmmədin ardıcıllarındansan, gecə də, gündüz də olmayan saat hansıdır?”***

Atam cavab verdi:

***“Dan yerinin söküldüyü ilə günəşin çıxdığı vaxtın arası”.***

Qoca soruşdu:

***“Hansı saatlardandır?”***

Atam buyurdu:

***“Cənnətin saatlarındandır. Bu vaxt xəstələr ayılar, ağrılar toxtayar və gecə yuxusuz qalan yuxulayar”.***

***Kişi dedi: “Cənnət əhli yeyib-içərlər, amma bir şey ifraz etməzlər. Bu dünyada da onlara bənzər bir şey varmı?”***

Atam buyurdu:

***“Bəli, uşaq anasının bətnində yeyər, lakin yediyi şeyi ifraz etməz”.***

Qoca dedi:

***“İddia edirsən ki, cənnət əhli cənnətin meyvələrindən nə qədər yesələr də o meyvələrdən heç bir şey azalmaz və əvvəlki halına qayıdar. Dünyada da elə bir şey varmı?”***

Atam buyurdu:

***«Bəli, çıraqdır. Əgər yüz çırağı bir çıraqdan yandırsan yenə də ondan bir şey azalmaz».***

Xristian yerindən qalxıb dedi:

***“Bu kişi məndən daha alimdir və mübahisə etdiyi adamın İmam Muhəmməd Baqir (ə) olduğunu öyrənən kimi ona iman gətirib müsəlman oldu.”***

O Həzrətin (ə) biliyi vəhydən qaynaqlandığı üçün bütün məsələlərin cavabını bilirdi.

Imam Muhəmməd Baqir (ə) illərlə İslam yolunda zəhmətlər çəkmişdir. İslam Məarif və mədəniyyətinə xidmət etdikdən sonra hicri 114 - cü ilin Zilhiccə ayının 4-də 59 yaşında ikən, Hişamın əmri ilə zəhərlənib şəhid oldu. O Həzrətin (s) pak bədənini ***“Bəqi”*** qəbirstanlığında, digər İmamların (ə) yanında torpağa tapşırdılar.

*****

# İMAM MUHƏMMƏD BAQİRİN (ə) HƏYAT VƏ FƏALİYYƏTİ BARƏDƏ SUAL VƏ CAVABLAR

***Sual - 1.***

İmam Baqir (ə) nə vaxt və harada anadan olubdur?

***Cavab:***

Hicrinin 57-ci ilinin Rəcəb ayının 1-də

***Sual - 2.***

Hansı İmam ata və ana tərəfindən ***“Bəni-haşim”*** tayfasına çatır?

***Cavab:***

İmam Baqir (ə) həm ata tərəfdən, həm də ana tərəfdən ***“Bəni-Haşim”*** tayfasına çatır. Çünki o Həzrətin(ə) atası İmam Zeynalabidinin (ə) və anası İmam Həsənin (ə) qızı Fatimə-dir(ə).

***Sual - 3.***

İmam Baqirin (ə) ata və anası kimdir?

***Cavab:***

İmam Baqirin (ə) atası İmam Zeynalabidin (ə) və anası İmam Həsənin (ə) qızı Fatimədir (ə).

***Sual - 4.***

İmam Baqirin (ə) yaşayış dövrünü neçə hissəyə bölmək olar?

***Cavab:***

O Həzrətin (ə) həyatını üç hissəyə bölmək olar:

1.Babası İmam Hüseynlə (ə) birlikdə olan dövr.

2.Atası İmam Səccadla (ə) birgə olan dövr.

3.Özünün imamət dövrü.

***Sual - 5.***

İmam Baqir (ə) neçə il əziz babası İmam Hüseynin (ə) dövründə yaşayıbdır?

***Cavab:***

3 il, 6 ay, 10 gün.

***Sual - 6.***

İmam Baqir (ə) neçə il atası İmam Səccadla (ə) bir yerdə olubdur?

***Cavab:***

34 il, 15 gün.

***Sual - 7.***

İmam Baqirin (ə) İmaməti neçə il çəkibdir?

Cavab: 19 il, 10, ay, 12 gün.

***Sual - 8.***

İmam Baqir (ə) öz imamət dövründə, Əməvilərin neçə xəlifəsi ilə üzbə-üz olubdur?

***Cavab:***

İmam Baqir (ə) öz imamət dövründə Əməvilərin dörd xəli-fəsi ilə üzbə-üz oldu. Həmin xəlifələr aşağıdakılardan ibarət-dir:

1) Süleyman ibni Əbdül-Məlik

2)Ömər ibni Əbdül-Əziz

3)Yezid ibni Əbdül-Məlik

4)Hişam ibni Əbdül-Məlik

***Sual - 9.***

***"Baqirul-Ulum"*** sözünün mənası nədir?

***Cavab:***

***"Baqirul-Ulum"***-yəni əvvəlinci və axırıncı elmləri yaran və açıqlayan.

***Sual - 10.***

İmam Baqir (ə) öz həyatının hansı dövründə şagird tərbiyə edir, şiəliyi və mədəniyyət inqilabını yayıb gücləndirirdi?

***Cavab:***

İmam Baqirin (ə) imamət dövrü ərzində Bəni-Üməyyə və Bəni-Abbas bir-biriləri ilə müharibə edirdilər. O Həzrət (ə) bu fürsətdən istifadə edərək şagird tərbiyə etməklə yanaşı şiəliyi və mədəniyyət inqilabını yayıb gücləndirirdi.

***Sual - 11.***

Peyğəmbərin (s) ən sədaqətli əshabından biri və Peyğəmbərin (s) salamını İmam Baqirə (ə) çatdıran (tapşırılmış) Əshabın adı nədir?

***Cavab:***

Peyğəmbərin (s) həmin əshabı Cabir ibni Abdullah Ənsari idi.

***Sual - 12.***

İmam Baqirin (ə) həmin şagirdlərindən biri əvvəl kor olubdur. Sonradan o Həzrətin(ə) duaları vasitəsi ilə gözü açılıbdır. Həmin şəxsin adı nədir?

***Cavab:***

İmam Baqirin (ə) həmin şagirdinin adı Əbu Bəsir idi.

***Sual - 13.***

İmam Baqirin (ə) buyurduğuna əsasən dünya və axirətin üç ləyaqətli nəcib əməli hansılardır?

**Cavab:**

Həmin üç əməl aşağıdakılardan ibarətdir:

1.Sənə zülm edən şəxsi bağışla.

2.Səninlə rabitəni kəsən şəxslə əlaqə yarat.

3.Hər vaxt bir kəs səninlə nadanlıq və cəhalət üzündən rəftar etsə, onun qarşısında səbr et.

***Sual - 14.*** İmam Baqir (ə) neçə yaşında və kimin hökmü ilə şəhid oldu?

***Cavab:***

İmam Baqir(ə) 57 yaşında Hişam ibni Əbdül Məlikin göstərişi ilə zəhərlənib şəhid oldu.

# SƏKKIZINCI MƏSUM

# İMAMƏT SƏMASINININ ALTINCI ULDUZU İMAM CƏFƏRİ SADIQ (Ə)

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Ya Cəfəri Sadiq! Göstər inayət,***
***Yarımın damənin tutum, nəhayət.***

Bütün varlığı ilə İslam dininə bağlı olan və Əhli-İtrətə (ə) xüsusi məhəbbət bəsləyən bu şah beytlərin müəllifi könüllər sultanı, cənnətməkan Ş.İ.Xətaidir.

***Şahi-Mərdanın, Əlinin aliyəm, övladiyəm,***
***Zülfüqarı tacı Düldül uş bu nişan məndədir.***

***Açarım dini-Məhəmməd, məzhəbim Cəfər yəqin,***
***La fəta illa Əli, bu sirri-pünhan məndədir.***

İmam Cəfəri-Sadiq (ə) Hicri-qəməri ilinin 83-cü ili rəbi-yül-əvvəl ayının 17-də Mədinə şəhərində doğulub. Atası 5-ci İmam Məhəmməd Baqir (ə) və anası Ümmu Fərvədir.

İmami Sadiqin (ə) imamət dövrü 34 il oldu. Bu müddətdə İmami Sadiq (ə) bütün qüvvəsini İslam dininin həqiqətini xal-qa çatdırmağa həsr etdi. İmami Sadiqin (ə) imamət dövründə Bəni-Uməyyə və Bəni-Abbas bir-biri ilə müharibə edən zaman İmam(ə) fürsətdən istifadə edərək geniş elmi-dini hövzə yaratdı. Həmin bu hövzədə 4000 şagird təhsil aldı.

Peyğəmbərin (s) hədislərinə ən sağlam yol Əhli-beyt(ə) yoludur və İmami Sadiq (ə) bu nöqtəni bir çox yerdə xalqa çatdırdı.

İmami Sadiq (ə) Yunis ibn Zəbyana buyurdu: ***"Ey Yunis, düzgün elmi istəsən, biz Əhli-beytdədir. Çünki hikmət yolları və düzü əyridən ayırmaq ölçülərini biz irs aparmışıq".***

***Ey adı olan tərifə layiq,***
***İmami Sadiq,***
***İmami Sadiq,***
***Vermiş sənə bu nemәti Xaliq,***
***İmami Sadiq***
***İmami Sadiq***

İslam tarixini araşdıranlardan biri tarixçi Əban ibn Təğlib İslam dininin və Allah-Təalanın tərəfdarlarını belə tərif edir:

«Allahın tərəfdarları onlardılar ki, camaat əgər Peyğəm-bərin (s) buyurduqlarında ixtilaf etsələr, Əlinin (ə) sözünü tu-tar və Əlinin (ə) sözündə ixtilaf etsələr, o zaman Cəfər ibn Muhəmmədin (İmam Cəfəri Sadiqin (ə) sözlərini əsas tutarlar. Çünki ən sağlam yol Peyğəmbərə (s) və Əliyə (ə) nisbət Əhli-beyt (ə) yoludur. Əgər İmamları(ə) rəvayət edən kimi də nəzə-rə alsaq, Peyğəmbərdən (s) ən etibarlı rəvayətçidilər. Əli (ə) buyurur:

***«Biz Əhli-beyt (ə) Allah elmindən bilirik».***

İmam Sadiq (ə) buyurur:

"Bizim yanımızda bir şeylər var ki, camaatın onlara ehtiyacı var. Peyğəmbərin (s) imla elədiyi və Əlinin(ə) yazdığı kitab bizim yanımızdadır. O kitabda bütün halal və haram yazılıb".

***Sən xətti Peyğəmbərdə dayandın,***
***İmami Sadiq,***
***İmami Sadiq.***
***Ən xoş günü saətdə yarandın,***
***İmami Sadiq,***
***İmami Sadiq.***

İmami Sadiqin (ə) zamanında İbn Əbul-Ovca adlı bir nə-fər Allah-Təalanın varlığını inkar etdi.

İmam (ə) onun bu cür batil fikrinə belə cavab verdi: «Allah-Təala heç vaxt gizli deyil. Hər bir şey onun əsərlərində-
dir və ona şahidlik edir. Allah-Təala insana onun boynunun damarından da yaxındır».

***Çün elmilər etdin bizə təlim,***
***İmami Sadiq,***
***İmami Sadiq.***
***Oldun bəşərə dahi müəllim,***
***İmami Sadiq,***
***İmami Sadiq.***

İmami Sadiq (ə) İslam maarifini diriltdi və böyük elmi məktəb yaratdı.

İmamın(ə) şagirdləri elmin müxtəlif sahələrində böyük məqamlara yiyələnib. İslam ölkələrində həqiqəti təbliğ etməklə məşğul oldular. Belə bir etiqadi məktəbi yaratmaq və İslam təlimlərini diriltmək İmami Sadiqi (ə) haqq məzhəbinin rəhbə-ri kimi tanıtdı.

***Haqq məzhəbini eylədin aşkar,***
***İmami Sadiq,***
***İmami Sadiq.***
***Cəfər adı oldu dəhrə nahar,***
***İmami Sadiq,***
***İmami Sadiq.***

Həm İmami Sadiq (ə), həm də ulu babası əziz İslam Pey-ğəmbəri Həzrəti Muhəmməd (s) ibadət barədə belə buyurur-lar:

***«İbadət və təqva yalnız namaz qılıb, bir guşədə xəlvətcəsinə ibadət etmək deyildir. Əgər insan yerinə yetirdiyi hər hansı bir işi Allaha xatir görsə və onun fəaliyyəti sadiqcəsinə olsa, Allahın ibadətini yerinə yetirmiş olar».***

***Sən Kazimə ustadi muinsən,***
***İmami Sadiq,***
***İmami Sadiq.***
***Həm varisi Peyğəmbəri dinsən,***
***İmami Sadiq,***
***İmami Sadiq.***

Abbasilərin 2-ci xəlifəsi Mənsur Dəvaniqi neçə dəfələrlə istəmişdir ki, İmami Sadiqi (ə) qətlə yetirsin.

İmami Sadiq (ə) öz səhabələrinə xilafətdən uzaqlaşmağı əmr etmişdir.

Bir gün Mənsur Dəvaniqi İmam Sadiqə (ə) məktub yazır:

***"Niyə başqaları kimi bizim yanımıza gəlmirsən?"***

İmam Sadiq (ə) bu məktubun cavabında yazır: ***"Bizim dünyada bir mal-dövlətimiz yoxdur ki, ona xatir səndən qorxaq. Sənin də axirətə laiq bir əməlin yoxdu ki, ona xatir ümidvar olaq. Sən nemət içində deyilsən ki, ona xatir sənə təbrik deyək və sən özünü bəladə görmürsən ki, ona xatir sənə təsəlli verək. Nə üçün sənin yanına gələk?"***

İmami Sadiq (ə) çalışırdı ki, xalis İslam bulanmamış şəklində qorunsun.

***Həm Heydəri-Kərrarə şərəfsən,***
***Imami Sadiq,***
***Imami Sadiq.***
***«Taha»ya da layiqli xələfsən,***
***Imami Sadiq,***
***Imami Sadiq.***

İmami Sadiq (ə) şəhadət yatağında iki çox mühüm məsələni sifariş etdi:

1. Allah ilə bəndə arasında sıx əlaqə yaradan namaz.

   Namaz haqqında İmam (ə) buyurdu: “Həqiqətən biz Əhli-beytin (ə) şəfaəti namazı yüngül sayan şəxslərə çatmayacaq.”

2. Qohum-əqraba ilə əlaqə saxlamaq.

Imam (ə) özü bu barədə belə buyurub:
“Öz ata və anasını özündən narazı edən şəxs və öz qohum əqrabası ilə get-gəl etməyən şəxs behiştin iyini duymayacaq.”

## İMAM SADİQİN (ə) VƏSİYYƏTNAMƏSİ

Həzrət İmam Cəfər Sadiq(ə) Mənsur Dəvaniqinin əmri ilə zəhərlənmənin təsirindən dünyasını dəyişdi. İmamın (ə) vəfatından sonra əmr verildi:

“Mədinənin valisi İmamın (ə) vəsiyyət məktubunu əldə etsin və İmam (ə) hər kimsəni özü üçün vəsi təyin etsə onun boynunu vursun”.

Abbasilər hakimiyyəti beləliklə şiənin nurunu söndürmək istəyirdilər. Məhəmməd İbn Süleyman İmamın (ə) evinə gəlib vəsiyyətnaməni istədi. Bağlı zərfin ağzını açan kimi təccübdən heç bilmədi nə etsin. İmam Sadiq (ə) vəsilərinin adlarını vəsiyyətnaməsində yazmışdır:

Mənsur Dovaniqi (xəlifə)
Məhəmməd İbn Süleyman (Mədinənin valisi)
Abdullah Əftəh (Böyük oğlu)
Həmidə Müsəffah (həyat yoldaşı)
Musa İbn Cəfər (20 yaşlı kiçik oğlu)

Beləliklə, xəlifə öz hədəfinə çata bilmədi. İmamın(ə) vəsiyyət məktubunu oxuyarkən dedi: “Bunları öldürmək mümkün deyil”.

Bəs belə bir vəsiyyətlə şiələrin vəzifəsi nə cür olmalıdır? Həqiqi şiələr vəsiyyəti oxuyarkən öz dini vəzifələrini anladılar. Belə ki: Cənab Əbu Həmzə Sümali qoca yaşında İmam Sadiqin(ə) səhabəsi olaraq İmam Sadiqin(ə) vəfat xəbərini eşidər-kən ağladı. Sonra vəsiyyətdən xəbər aldı. Vəsiyyətin məzmu-nunu eşidərkən dərhal dedi***: "Vəsiyyətnamə səğirə dəlalət edir, böyük bir fıtnəniıı qarşısı alındı."***

Sonra Əbu Həmzə Sumali sözünü açıqlayaraq dedi: "Vəsiyyətnamədə Mənsur və Valinin adlarının yazılması qətlin qarşısını aldı. Qadın imam ola bilməz. Kiçik və böyük oğulun adının bir yerdə gəlməsi böyüyün imam olmamasına dəlalət edir".

Beləliklə, şiələr başa düşdülər ki, İmam Sadiqin(ə) canişini Həzrət İmam Musa İbn Cəfərdir(ə). Belə ki, başqa sübutlar da bu mənaya dəlalət edirdi.

Mənsur Dəvaniqi məlum şəxslərin vasitəsi ilə zəhərlənmiş üzümlə İmami Sadiqi (ə) zəhərlədi. O Həzrət (ə) da bu zəhərin təsiri ilə Hicri 148-ci ilin Şəvval ayının 25-i Mədinə şəhərində 65 yaşında şəhadətə yetişdi. Məzarı Mədinə şəhərində yerləşən Bəqi qəbirstanlığındadır.

***O paki vücuda qıydı zalım,***
***Imami Sadiq,***
***Imami Sadiq.***
***Dərk etmədi amma ölməz alim,***
***Imami Sadiq,***
***Imami Sadiq.***

# İMAM SADİQİN (Ə) BUYURDUĞU HƏDİSLƏRİ:

1. «Allahı tanıyan Allahdan qorxar, Allahdan qorxan isə haramdan qaçar».

2. «Evli bir insanın qıldığı iki rükət namaz, evlənməmiş bir adamın qıldığı yetmiş rükət namazdan daha əfzəldir».

3. «Əgər bir kəs Həzrət Muhəmmədə (s) və Ali-Muhəmmədə salavat göndərməsə, Allah edilən duaların heç birisinə əhəmiyyət verməz».

***Səndən bizə çatdı haqq hədislər,***
***İmami Sadiq,***

*İmami Sadiq.*
*Bu zənnilə xar ola xəbislər,*
*İmami Sadiq,*
*İmami Sadiq.*

4. «Evlənin, lakin boşanmayın. Çünki boşanma göydəki mələkləri və Ərşi-ilahidə oturanları titrədir, sarsıdır».

5. «Allahın fəzlindən bir şey diləməyən, yoxsulluğa mübtəla olar».

6. «Qardaşlarım arasında mənim ən çox sevdiyim adam eyiblərimi mənə hədiyyə edən kəsdir».

7. «Xalqı dilinizlə deyil, gözəl əməllərinizlə yaxşılığa dəvət edənlərdən olun. Xalq sizin çalışmağınızı, doğruluğunuzu və haramlardan çəkinməyinizi görməlidir».

8. «Alimin bir günahı bağışlanmamış cahilin yetmiş günahı bağışlanar».

9. «Günlər üç növdür: Dünən (bir daha qayıtmayan gün), qənimət olan bu gün, sabah (ki, əlbəttə bir arzudur)».

10. Atalarınıza yaxşılıq etsəniz, övladlarınız da sizə yaxşılıq edər.

11.Başqalarının qadınlarına qarşı iffətli və namuslu olsanız, öz qadınlarınız da sizə qarşı iffətli olacaqlar».

*Ovsafuvu Soltan etdi əzbər,*
*İmami Sadiq,*
*İmami Sadiq.*
*Ta nurə boyandı külkü dəftər,*
*İmami Sadiq,*
*İmami Sadiq.*

Bu bölümü İmam Sadiqin (ə) ***"Ünvani-Bəsri"***yə buyurdu-ğu tövsiyyə xarakterli bir hədislə yekunlaşdırırıq.

# “ÜNVANI BƏSRI”
## (Hədisi)

*İnsan etsə əgər bir işə vərdiş,*
*Çətin olsa belə, görülər bu iş!*[1]

***Bismillahir-Rəhmanir-Rəhim!***

Həzrəti Ustad Əllami Qazi (r.ə.) əmmarə (pis işlərə əmr edən) nəfsdən və onun istəklərindn vaz keçmək üçün “Ünvan Bəsri” hədisini tövsiyə etmiş və Allah yolunda qədəm götür-mək istəyən tələbələrinə onu yazıb əməl etməyi tapşırmışdı və o, buna öhdədar olmayanları tələbəliyə qəbul etməzdi.

Həzrəti Ustad Əllami Qazinin (r.ə.) mühüm və əsaslı göstərişi bu şərif hədisə uyğun davranmaq idi. Ustad öz tələbə-lərinə belə buyurmuşdu:

“Onu ciblərinizdə gəzdirməli və həftədə bir-iki dəfə oxumalısınız”.

***“Ünvani Bəsri”*** hədisini əziz oxuculara olduğu kimi təq-dim edirik.

Əllamə Məclisi “Biharul-ənvar” kitabında Ünvan Bəsri-dən belə bir rəvayət nəql edir:

Neçə illər idi ki, Malik bin Ənəsin yanına get-gəl edirdim. İmam Cəfər Sadiq (ə) Mədinəyə gəldikdə mən o Həzrətin(ə) yanına gedib-gəlirdim və Malikdən öyrəndiyim kimi ondan da elm öyrənmək istəyirdim. Bir gün Həzrət(ə) mənə buyurdu:

“Mən hökumət aparatının nəzarətində olan bir adamam, yəni azad deyiləm, vaxtım öz ixtiyarımda deyil, hökumət ca-susları məni izləyirlər.Bundan əlavə gecə-gündüzün hər saatın-da zikrlərim və virdlərim var ki, onlara məşğulam. Sən məni bu virdlərimdən saxlama! İstədiyin elmi Malikdən öyrən və əvvəlki kimi onun yanına gedib-gəlməyə davam et.”

---

[1] ***N.G.əncəvi “Yeddi Gözəl***

Mən bu sözlərdən çox məyus oldum və o Həzrətin yanın-dan çıxıb öz-özümə dedim ki, əgər İmam (ə) məndə xeyir və hi-dayət əlamətləri görsəydi, məni öz hüzuruna gedib-gəlməkdən və elm öyrənməkdən məhrum etməzdi. Ondan sonra Peyğəm-bər (s) məscidinə getdim, iki rükət namaz qılıb belə dua etdim:

"Ey Allah! Səndən istəyirəm ki, İmam Sadiqin (ə) ürəyini mənə qarşı mehriban edəsən və onun elmindən mənə də ruzi edəsən ki, sənin müstəqim və möhkəm yoluna tərəf yönəlim. Qoy mən sənin doğru yoluna yol tapım".

Sonra kədərli halda evimə qayıtdım. İmam Cəfər Sadi-qin(ə) məhəbbəti qəlbimə dolduğu üçün daha Malik bin Ənə-sin yanına getmədim və vacibi namazlardan başqa heç bir iş üçün evdən bayıra çıxmadım. Bir gün əsr namazından sonra səbrim lap tükəndi. Gördüm ki, ürəyim sıxılır və taqətim aza-lıb. Ayaqqabılarımı geyinib, əbamı çiynimə atıb, İmam Cəfər Sadiqi (ə) ziyarət etmək üçün yola düşdüm. Həzrətin(ə) qapısı-na çatanda daxil olmaq üçün icazə istədim. Xidmətçilərdən biri gəlib soruşdu ki, nə işin var?

Dedim ki, Şərifə[1] salam vermək istəyirəm.

Xidmətçi dedi:

O, öz  müsəllasında[2] namaza durub.

Bir az oturub gözlədim. Çox keçmədi ki, xidmətçi gəlib dedi:

Daxil ol. Allahın bərəkəti sənə üz vermişdir ki, o bu vaxt səni qəbul etdi. Mən daxil olub o Həzrətə(ə) salam verdim. Həzrət(ə) cavab verib buyurdu:

“Əyləş, Allah səni bağışlasın.”

Mən oturdum. Həzrət(ə) başını aşağı salıb bir az fikrə getdi. Sonra başını qaldırıb soruşdu:

“Künyən” nədir?

Dedim:

Əba Əbdillah.

İmam(ə) buyurdu:

---

[1] ***Şərifə- yəni əziz***

[2] ***Müsəlla- yəni Namaz qılınan məkan***

“Allah sənin künyəni həmişəlik sənə müvəffəq etsin, ey Əba Əbdillah, istəyin nədir?”

Həzrət(ə) yenə başını aşağı saldı və cavabımı gözləməyə başladı.

Mən öz-özümə dedim, əgər bu ziyarət və görüşdən mənə qalan təkcə İmamın (ə) bu duası olsaydı, elə bu özü də çoxlu xeyir deməkdir. Həzrət(ə) yenə başını qaldırıb soruşdu:

“Nə istəyirsən”

Mən dedim ki, Allahdan istədim ki, sənin qəlbini mənə qarşı mehriban etsin və sənin elmindən mənə də ruzi versin.

Ümidvaram ki, Allah-Təala Həzrəti şərifiniz barədə istədiyini mənə əta edər.

İmam (ə) buyurdu:

“Ey Əba Əbdillah! Elm-təlim və öyrənməklə ələ gələn şey deyil. Elm yeganə nurdur ki, Allah-Təala kimi düz yola çək-mək istəsə onun qəlbində yerləşdirər. Odur ki, əgər elm istəyir-sənsə öncə öz ruhundan bəndəliyin həqiqətini tələb et. Elmi, o elmə uyğun yaşamaqla və ona əməl etməklə bir yerdə istə və Allahdan başa düşmə qabiliyyəti istə, qoy sənə başa düşməyi və dərk etməyi öyrətsin.”

Mən dedim, Ey Şərif.

Həzrət(ə) buyurdu:

“Əba Əbdillah deyə müraciət et”

Mən dedim:

Ey Əba Əbdillah! Ubudiyyətin və bəndəliyin həqiqəti nə-dir?

İmam Sadiq(ə) buyurdu:

1)“Bəndəliyin həqiqəti üş şeydədir:”

Bəndə Allahın ona tapşırdığı (əmanət kimi ona veridyi) şeylərə qarşı özündə malikiyyət hiss etməsin və özünü tam ixtiyar sahibi kimi görməsin. Çünki, qulların malı olmur, onlar bütün əmlaklarını Allahın malı hesab edir və Allah haraya əmr edibsə, oraya sərf edirlər.

2)Bəndə özü üçün tədbir tökməsin (və nəyin onun üçün yaxşı və nəyin pis olduğunu Allahın öhdəsinə buraxsın).

3)Bəndənin bütün məşğuliyyəti Allahın ona əmr etdiyi və ya nəhy etdiyi (çəkindirdiyi) işlərdə xülasə olsun. Buna görə də əgər bəndə, Allahın ona tapşırdıqlarına qarşı özündə malikiy-yət hiss etməsə, ona tapşırılan şeyləri Allahın əmr etdiyi yerdə sərf etməsi ona asan olar. Elə ki, bəndə bütün işlərinin tədbi-rini əsil tədbir sahibi olan Allaha tapşırdı, dünyanın çətinlik-ləri və münasibətləri ona asan olar və bütün məşğuliyyəti, fik-ri-zikri Allahın əmr və ya nəhy etdiyi işlərdə olan bəndənin, xalq qarşısında özünü göstərməyə və fəxr edib, lovğalanmağa boş vaxtı qalmaz. Allah-Təala hansı bəndəsini bu üç xasiyyətlə əziz etsə, dünya, iblis və camaat (və onların hücumlarına döz-mək) ona asan olar. Belə bəndə var-dövlət yığmaq camaat qarşısında fəxr etmək üçün dünyanın dalınca düşməz. Belə bəndə öz böyüklüyü və izzəti üçün başqalarının malına tamah salmaz və ömrünü batillə mənasız şeylər üçün hədər etməz. Bu təqva nərdivanının ilk pilləsidir. Allah-Təala buyurur:

***“O axirət evidir ki, onu yer üzündə ağalıq istəyində və fəsad törətmək niyyətində olmayan kəslər üçün qərar vermişik və yaxşı sonluq fəqət təqvalı insanlar üçündür.”***

Mən dedim:

Ey Əba Əbdillah! Mənə bir nəsihət və tövsiyyə buyur!

İmam (ə) buyurdu:

“Sənə 9 şeyi tapşırıram və bunlar mənim, Allah yolunun yolçularına tövsiyyəmdir. Allahdan istəyirəm ki, bunlara əməl etməkdə səni müvəffəq eləsin. Bunlardan 3-ü nəfsin ədəb və tərbiyyəsində, 3-ü səbr və dözümdə və son 3 hissəsi isə elm və bilik barəsindədir. Bunları yadında saxla və məbadə bunlara əməl etməkdə süstlük göstərəsən!”

Ünvan Bəsri deyir:

Qəlbimi O Həzrətin(ə) sözləri üçün (başqa xatirələrdən) boşaltdım.

Həzrəti İmam Sadiq (ə) buyurdu:

***“Nəfsin tərbiyəsinə aid 3 tövsiyə bunlardır.***

1)Məbada (yəni heç vaxt olmasın, əsla) iştahan çəkmədiyi şeyi yeyəsən! Bu axmaqlıq və əbləhlik gətirər.

2)Yalnız ac olduğun vaxt ye!

3)Yeyərkən Allahın adı ilə başlayıb, halal yemək ye! Və Həzrəti Peyğəmbərin (s) bu kəlamını yadına sal:

“Adəm övladı heç bir qabı qarnından pis doldurmamış-dır. Odur ki, əgər yeməkdən başqa çarəsi qalmamışsa, o za-man qarnının bir hissəsini yemək, bir hissəsini su, bir hissəsini də tənəffüs (nəfəs almaq) üçün saxlasın.”

***Səbrə aid 3 tövsiyyə bunlardır:***

1)Əgər bir nəfər sənə desə ki, bir söz desən on bərabərin eşidərsən, sən ona de əgər onunu desən, birini də eşitməzsən. (Yəni məni qəzəbləndirə bilməzsən)

2)Əgər kimsə səni söysə sən ona belə de. Əgər dediklərin-də doğrusansa Allahdan istəyirəm ki, məni bağışlasın. Yox əgər yalan deyirsənsə, Allahdan istəyirəm ki, səni bağışlasın.

3)Əgər kimsə səni söyüşlə hədələsə, sən ona nəsihət, xeyir-xahlıq və həlim riayət etmək vədəsi ver. (Yəni ona bildir ki, sə-nə qarşı kinim yoxdur.)

***Elmə aid 3 tövsiyyə isə bunlardır:***

1)Bilmədiyini alimlərdən soruş. Amma məbada onları sı-nağa çəkmək üçün nəsə soruşasan.

2)Məbada öz rəyinlə və özbaşına bir işi görəsən. Ehtiyat mümkün olan bütün işlərində ehtiyatdan kənara çıxma!

3)Yırtıcı şirdən qaçdığın kimi fətva verməkdən (yəni öz rəyinlə kiməsə hökm və göstəriş verməkdən) uzaq qaç. Muğayat ol ki, öz boynunu camaatın keçəcəyi körpü etməyə-sən.

***Ey Əba Əbdillah! Daha qalx və yanımdan get! Sənin üçün həqiqətən xeyirxahlıq etdim. Mənim zikr və virdimi dağıtma. Mən öz nəfsimə bədgüman olan bir adamam və vaxtımın nevə ötməsinə diqqətliyəm və salam olsun hidayət davamçılarına!"***

*****

# İMAM CƏFƏRIN (Ə) HƏYAT VƏ FƏALIYYƏTI BARƏDƏ SUAL CAVAB

***Sual - 1.***

İmam Sadiq (ə) nə vaxt və harada dünyaya göz açıbdır?

***Cavab:***

Hicrinin 83- cü ilinin Rəbiyül-əvvəl ayının 17-si Mədinə şəhərində.

***Sual - 2.***

İmam Sadiqin (ə) adı və künyəsi nədir?

***Cavab:***

O Həzrətin adı Cəfər, künyəsi isə Əbu Əbdillahdır.

***Sual 3.***

İmam Sadiqin (ə) ata və anasının adı nədir?

***Cavab:***

İmam Sadiqin (ə) atası İmam Məhəmməd Baqir (ə) və anası Ümmü Fərvədir. Ümmü Fərvə Qasim İbni Məhəmməd İbni Əbu Bəkrin qızıdır.

***Sual - 4.***

İmam Sadiqin (ə) yaşadığı dövrü neçə hissəyə bölmək olar?

***Cavab:***

İmam Sadiqın (ə) yaşadığı dövrü iki hissəyə bölmək olar:

1-İmamət dövründən qabaq.

2-İmamət dövrü. (O Həzrətin imamət dövrü ömrünün axırına qədər davam etdi.)

***Sual - 5.***

***"Şiəliyin"*** əsası və mədiniyyət inqilabı hansı ildə inkişaf edibdir?

***Cavab:***

İmam Sadiqin (ə) imamət dövrü olan 34 il müddətində.

***Sual - 6.***

Elmiyyə hövzəsi hansı dövrdə təşkil olubdur və İmam Sadiqin (ə) neçə şagirdi var idi?

***Cavab:***

İmam Sadiqin (ə) imamət dövründə (həmin dövr şiəliyin inkişaf dövrüdür.) Bəni-Ümeyyə və Bəni-Abbas bir-biri ilə müharibə edən zaman Həzrət (ə) fürsətdən istifadə edərək geniş elmiyyə hövzəsi təşkil verdi. Həmin elmiyyə hövzəsi dörd min nəfər şagirdə malik idi.

***Sual - 7.***

İmam Sadiq (ə) və Peyğəmbər (s) ibadət haqqında nə buyurublar?

***Cavab:***

Bu iki Həzrət(ə) buyurublar:

"İbadət və təqva yalnız namaz qılıb, bir guşədə xəlvətcə-sinə ibadət etmək deyildir. Əgər insan yerinə yetirdiyi hər han-sı bir işi Allaha xatir görsə və onun fəaliyyəti sadiqcəsinə olsa, Allahın ibadətini yerinə yetirmiş olar."

***Sual - 8.***

İmam Sadiqin(ə) imamət dövründəki zalım xəlifələr kimlərdən ibarət idi.

***Cavab:***

Əməvilərin 9-cu xəlifəsi olan Yezid ibni Əbdül-Məlikdən onların axırıncı xəlifəsinə qədər, həmçinin Abbasilərin 1-ci 2-ci xəlifəsi olan Səffah və Mənsur Dəvaniqi.

***Sual - 9.***

Nə üçün altıncı imama ***"Sadiq"*** deyirlər?

***Cavab:***

Peyğəmbır (s) buyurubdur: "Bu övladımın (İmam Cəfər Sadiq (ə) ləqəbini Sadiq qoyun. Çünkü onun (İmam Cəfər Sadiqin) 5-ci övladının (nəvəsinin) adı Cəfər olacaq və yalandan imamlıq iddiası edəcək. Bu zaman ona ***"Kəzzab"*** ləqəbini verəcəklər."

***Sual - 10.***

***"Cəfəri məzhəbi"***nin rəisi kimdir və nə üçün?

***Cavab:***

***"Cəfəri (şiə) məzhəbi"***nin rəisi İmam Sadiqdir (ə ).

Çünkü İmam Sadiqin (ə ) yaşadığı dövr İslam tarixinin ən tufanlı dövürlərindən biridir. Həmin dövürdə bir tərəfədən Bəni-Ümeyyə və Bəni-Abbas hökümətə və xilafətə malik ol-dular, başqa bir tərəfədən isə müxtəlif məktəblər bir-birinin qarşısında durur, müxtəlif etiqadi, fəlsəfi fikirlər irəli sürü-lürdü. Bu da müsəlman millətlərinin fəth olunmuş ölkələrin xalqları ilə rabitə yaratdıqları üçün ortaya çıxmışdı. Həmin dövr elə bir dövr idi ki, İmam Sadiq (ə) əgər fəaliyyət göstər-məsəydi, dinin məhv olmasına və İslamın həyatbağışlayan təlimlərinin həm daxildən, həm də xaricdən parçalanıb aradan getməsinə səbəb ola bilərdi. Peyğəmbər (s) və başqa İmamla-rın(ə) çoxlu zəhmət, çətinlik və əzab-əziyyətlə ələ gətirdikləri nəticələr aradan gedə bilərdi.

Bu zaman İmam Sadiq (ə) böyük dəyişikliyə əl atdı və mü-səlman xalqlarının fikirlərini ateistlik və kafirlikdən nicat ver-mək üçün misilsiz işlər gördü. O Həzrət (ə) şiələri məhv olmaq-dan qurtardı. Halbuki həmin zaman ondan qabaqkı və sonra-kı hökumətlər şiələri qorxu və işgəncə altında saxlayırdılar.

Şiənin böyük şəxsiyyətləri ya hökümət qorxusundan gizlə-nir, ya da qəsbkar hökümətin zahiri gözəlliklərinə cəzb olunur-dular. Bəli, şiəlik məhv olmaq üzrə idi və İslamın əsas məsələ-ləri zehnlərdən və xatirələrdən silinmişdi. Belə bir çətin və ağır şəraitdə İmam Sadiq (ə) məzhəbi və İslam maarifini diriltmə-yə başladı və böyük elmi məktəb təşkil verdi. O Həzrətin (s) şagirdləri elmin müxtəlif sahələrində böyük məqamlara yiyə-lənib İslam ölkələrində təbliğ etməyə başladılar. Ona görə də belə bir etiqadi məktəbi yaratmaq və İslam təlimlərini dirilt-mək İmam Sadiqin (ə ) ***“Cəfəri məzhəbi”***nin rəisi kimi tanın-masına səbəb oldu.

***Sual - 11.***

***“Cəfəri fiqhi”*** (şəriət elmi) hansı fiqhidir?

***Cavab :***

***“Cəfəri fiqhi”***-yəni həmin Məhəmmədin (s) fiqhidir və İsla-mın dini tövsiyə və göstərişlərindən ibarətdir ki, Qurani-kərim və İlahi vəhy yolu ilə Peyğəmbərə (s) çatıbdır.

***“Cəfəri fiqhi*** -Üsuliddinin və Firuiddinin izahından ibarət-dir ki, İslam məktəbində onun ilkin dövrlərindən başlanıbdır. Hənəfi firqəsinin rəisi İmam Sadiqin (ə) haqqında belə deyir:

“Mən fiqh elmini İmam Sadiqdən (ə) çox bilən bir insan tanımıram. “

Əbu Hənifənin bu sözü İmam Sadiqin (ə) işini və fəalliyyətini bəyan edir.

***Sual - 12.***

İmam Sadiqin (ə) şagirdlərindən biri o Həzrətdən(ə) bir neçə min hədis öyrənmişdi? Həmin şagirdin adı nədir?

***Cavab :***

“Zürarə rəhmətullah əleyh”.

***Sual - 13.***

İmam Sadiqin (ə ) buyurduğuna əsasən beş yerdə şeytanın hiyləsi təsir qoymaz, onlar hansılardır?

***Cavab :***

İmam Sadiq (ə ) buyurdu:

“İblis deyibdir: Beş yerdə mənim hiyləm təsir qoymaz, amma bu beş yerdən başqa yerlərdə insanlar mənim caynaqlarımın altındadırlar:”

**1**.Allah-Təalaya pak niyyətlə arxalanan və hər bir işdə Allaha təvəkkül edən şəxs.

**2**Gecə -gündüz Allaha təsbih edən şəxs.

**3**.Özü üçün bəyəndiyini başqa mömin üçün də bəyənən şəxs.

**4**.Giriftar olanda səbirsizlik etməyən şəxs.

**5.**Allah-Təalanın məsləhət bildiyinə razı olan və ruzi qüssəsini çəkməyən şəxs.

***Sual - 14.***

İmam Sadiq (ə ) şəhadət yatağında olarkən hansı işləri daha çox sifariş etdi?

***Cavab :***

İmam Sadiq (ə) şəhadət yatağında iki mühüm məsələyə sifariş edərək onlara təkid etdi:

**1.**Allah ilə bəndə arasında sıx əlaqə yaradan namaz. Bu haqda o Həzrət(ə) buyurdu:

“Həqiqətən, biz Əhli-beytin (ə) şəfaəti namazı yüngül sa-yan şəxslərə çatmayacaq.”

**2**.Qohum-əqraba ilə əlaqə saxlamaq.

Yəni ***“Sileyi-rəhm”*** etmək.

O Həzrət (ə) bu haqda da buyurdu:

“Öz ata və anasını özündən narazı edən şəxs və öz qo-hum-əqrabası ilə get-gəl etməyən şəxs behiştin iyini duymaya-caq.”

# DOQQUZUNCU MƏSUM

## İMAMƏT SƏMASININ YEDDİNCİ ULDUZU İMAM MUSEYİ-KAZIM (Ə)

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Ya Museyi-Kazim! Qoru bu qəlbi,***
***Eşqidir bu qəlbin bircə tələbi.***

Adı: İmam Musa (ə)
Məşhur ləqəbləri: Əbdi-Saleh, Kazım, Babəl-Həvaic.
Künyəsi: Əbul-Həsən, Əbu İbrahim.
Atası: İmam Sadiq (ə).
Anası: Həmidə (ə).
Anadan olduğu tarix: Məkkə və Mədinə arasında olan “Əbva” adlı bir kənddə.
Şəhadət tarixi: 25 Rəcəb, 183-cü il, 55 yaşında.
Şəhadət yeri: Bağdadda Harunun həbsxanasında, onun əmrilə zəhər verilmiş və şəhadətə çatmışdır.
Müqəddəs məzarı: Bağdadın yaxınlığında, "Kazimeyn" şəhərində.

***Bəşərin helmidə sabit imamıdır Kazım,***
***Təvanı tabdə ilkin məqamıdır Kazım.***

İmam Museyi-Kazimin (ə) yaşadığı dövrü iki mərhələyə bölmüşlər.

- İmamlıqdan qabaqkı dövr, 128-148-ci illər (20 il).
- İmamlıq dövrü,148-183-cü illər. (35 il)

O Həzrətin(ə) yaşadığı dövrdəki tağut və zalım xəlifələr bunlardan ibarət idi:

-Mənsur Dəvaniqi
-Mehdi Abbasi
-Hadi Abbasi
-Harun ər Rəşid.

Həzrət Kazimin(ə) ömrünün 23 il, 2 ay və 17 günü Abbasilər xilafətinin beşinci xəlifəsi Harunun dövründə olmuşdur. Bu illər boyu o, müxtəlif həbsxanalardan dustaq olmuşdur.

***Nə çox bəlavu zülüm çəkdi küncü-məhbəsdə,***
***Əzabi-şahi-şəhidan tamamıdır Kazım.***

***Verib zəhər ona min hiylə ilə zalimlər,***
***Bütün şəhidi-cahanın qiyamıdır Kazım.***

İmam Sadiq (ə) şəhid olan zaman Mənsur Dəvaniqi öz hakimiyyətinin ən son həddini yaşayırdı. Mənsur elə bir şəxsiy-yət idi ki, öz hakimiyyət dayaqlarını möhkəmlətmək üçün bir çox insanları qətlə yetirirdi. İmam Kazim (ə) atasının vəfatın-dan sonra 20 yaşında İslam hökümətinin xəlifəsi  sayılan bu ki-mi zalım bir hakimlə üzləşmişdi.

Dövrün vəziyyətinə nəzər saldıqda aydınlaşır ki, Mənsur hökümətinin əvvəlcədən üzərində nəzarəti  olan hər hansı bir qəti iş və proqramı həyata keçirmək məsləhət deyildi. Bu sə-bəbdən İmam Kazim (ə) atasının tutduğu elm yolunu davam etdirərək böyük elm ocağı (İmam Sadiqin (ə) elm ocağından kiçik) yaradıb tanınmış elmli və fəzilətli şəxsiyyətləri yetişdir-məyə başlayır.

***Əgər ki, elminə baxsan həqiqi məbəddir,***
***Kitabi-hikmətin əlhəq nizamıdır Kazım.***

***Yetirdi həqq onu aləmlərin pənahı kimi,***
***Cəfalı ümmətə Allah səlamıdır Kazım.***

Lakin bütün bunlarla yanaşı eyni zamanda dövrünün xəlifələrinin ədalətsizliyi, zorakılıqları müqabilində öz etraz əlamətlərini bildirməkdən çəkinmir, ədalət uğrunda mübarizə aparırdı. Zahiri hakimiyyət və qüdrət dövrünün xəlifələrinin əlində olsa da, yalnız camaatın ***“cisminə”*** , ***“quru bədəni”***nə hakimlik edirdilər. Qəlblərə hakim olmaq ancaq İmam Kazı-ma(ə)

məxsus idi. Ümumi fikirlərdəki məhəbbəti sayəsində mübariz və açıqfikirli müsəlmanlar sonda öz malının xüm-sünü, həmçinin beytül-mala mənsub olan digər vergiləri o Həz-rətin(ə) hüzuruna göndərirdilər.

***Nə söz çıxıbsa dilindən, bəşər tapıb xeyri,***
***Məhəmməd ayəsi, Heydər kəlamıdır Kazım.***

***Adıyla Soltana bəxş oldu şeirdə ilham,***
***Onun Xudaya olan ehtiramıdır Kazım.***

Dostlarından biri İmamın (ə) səbr və dözümü barədə belə demişdir:

«Həzrət (ə) həmişə öz nümunəvi əxlaqi ilə düşməni utan-dırardı».

Mədinədə bir kişi var idi ki, hər zaman İmamı(ə) görsəydi qabağını kəsib ona nalayiq sözlər deyərdi. Bir gün dostları İmama (ə) ərz etdilər ki:

«Yəbnə Rəsulillah(ə) icazə ver biz onu tənbeh edək». İmam(ə) buyurdu:

«Onunla işiniz olmasın».

Bu söhbətdən bir neçə gün keçdi, lakin həmin kişidən xə-bər çıxmadı.

İmam (ə) onun harada olduğunu soruşdu.

Dostları dedilər ki:

«O, Mədinə çölündəki tarlasına gedib».

Bunu eşidən İmam (ə) həmin tarlaya getdi. Tarlada işlə-yən həmin kişi İmamı (ə) uzaqdan görüb səsləndi: ***«Mənim tar-lama girmə! Mən səni və sənin ata-babanı özümə düşmən bili-rəm».***

İmam (ə) ona yaxınlaşıb salam verdi və mehribanlıqla su-al etdi:

«Bu tarlaya nə qədər xərcləmisən?»

Kişi dedi:

«Yüz dinar».

İmam(ə) sual etdi:

«Nə qədər gəlirin olacağına ümid edirsən?»
Kişi dedi:
«İki yüz dinar».
İmam Kazım (ə) içində 300 dinar olan bir kisəni çıxarıb ona verdi və buyurdu:
«Bu pulu al, tarlan da özünə qalsın».
Uzun illər İmamı(ə) təhqir edən həmin kişi belə bir hadisənin olacağını gözləmirdi. Bu hadisədən utanan kişi İmamın(ə) əlindən öpdü və ondan üzr istədi.
İmam (ə) Mədinəyə qayıtdıqdan sonra buyurdu:
***«Şəri özünüzdən belə uzaqlaşdırın».***
Bu hadisədən sonra İmama (ə) ***«Kazım»*** ləqəbi verildi. ***«Kazım»*** ləqəbinin mənası qəzəbləndiyi zaman narahatçılığını büruzə verməyən və qəzəbləndiyi zaman qəzəbini udan deməkdir.
İmam (ə) öz qohumlarına məhəbbət bəsləyər və belə buyurardı:
***«Qohumların arasında nə qədər düşmənçilik olsa da əgər bir-birləri ilə qarşılaşdıqları zaman əl verib görüşsələr düşmənçilikləri aradan qalxar. Və hamısı dinclik və şadlıq içində yaşayar».***
İbni Şəhr Aşub belə nəql edir:
«Bir gün Abbasi xəlifəsi Mənsur İmam Kazımı (ə) saraya dəvət edib əmr etdi ki, ***"Novruz bayramı"*** günü xəlifəyə gətirilən hədiyyələri təhvil alsın. İmamın (ə) bu işə razılığı olmasa da, məcburiyyət qarşısında qəbul etməli oldu. Rəsmi qarşılanma mərasimində iştirak edən böyüklər və zadəganlar Mənsurun əmri ilə hədiyyələri o Həzrətə təhvil verirdilər. Bir nəfər də Mənsurun tərəfindən orada durub gətirilən hədiyyələri siyahıya alırdı. Axırda bir qoca gəlib dedi:
«Ey Peyğəmbər övladı, mənim dünya malından hədiyyə etmək üçün heç bir şeyim yoxdur. Amma baban Hüseynin (ə) Kərbəla müsibətinə dair bir şeir yazıb sənə gətirmişəm»
Qoca kişi yazdığı şeiri oxudu. Onun bu şeiri İmama(ə) çox təsir etdi. Həzrət (ə) Məsurun məmuruna əmr etdi ki: «Get

Mənsurdan soruş gör bu hədiyyələri nə edəcək?». Məmur gedib qayıtdıqdan sonra İmama(ə) dedi.

Mənsur deyir ki:

«Hədiyyələrin hamısını sizə bağışladım. İstədiyiniz adama verə bilərsiniz».

İmam(ə) həmin şeir yazan qoca kişiyə tərəf dönüb belə buyurdu:

***«Babam Hüseynin (ə) müsibətlərinə dair yazdığın şeirə görə bu hədiyyələrin hamısını mən də sənə bağışlayıram ki, bu yox-sulluqdan qurtarasan».***

İmam(ə)  həmişə özü öz məişətini təmin etmək üçün tarla-da işləyər və heç kimsədən kömək istəməzdi. Bir gün Əli Bətaini adlı bir səhabəsi İmamı (ə) görmək üçün tarlaya gəldi. İmamı (ə) iş başında gördükdə ərz etdi ki:

***"Qurbanın olum, niyə bu işi başqa adamlara gördürmürsən?"***

İmam (ə) buyurdu:

***"Niyə başqalarınqa gördürürm? Halbuki, məndən daha yaxşı adamlar belə işlərlə məşğul olublar".***

Əli Bətaini soruşdu:

***"O şəxsilər kimlərdir?"***

İmam (ə) buyurdu:

***"Allahın Peyğəmbəri(s), Əmirəl-Möminin və bütün ata-babalarım. İşləyib-çalışmaq Allahın Peyğəmbərləri(ə) və vasilərinin üsuludur. Və Allahın ləyaqətli bəndələri həmişə öz güzaranlarını təmin etmək üçün öz işlərini özləri görüblər"***

***Əzəldən sevdiyim, əməkdir, işdir,***
***Hər ağac bir bağdan gətirilmişdir.***[1]

Günlərin bir günündə İmam Kazım (ə) küçədən keçəndə bir evdən çal-çağır səsi eşidir. Böyüklərdən sayılan ev sahibi özü

***[1] Nizami Gəncəvi "Yeddi Gözəl"***

üçün kef məclisi qurub əylənməklə məşğul idi. Evin kənizi evdə olan zibilləri küçəyə atmaq üçün bayıra çıxdı.

Kəniz İmamı (ə) görən zaman ona yaxınlaşıb salam verdi. İmam (ə) ondan soruşdu:

***«Bu evin sahibi bəndədir, ya azad insandır?»***

Kəniz dedi:

***«Azad insandır».***

İmam (ə) buyurudu:

***«Azad olduğu bəllidir. Əgər bəndə olsaydı, Allahdan qorxub bu işləri görməzdi».***

Kəniz evə qayıtdıqdan sonra ağası ondan nə üçün gec gəldiyini soruşdu. Kəniz əhvalatı olduğu kimi ağasına danışdı. Ağası bir az duruxub İmamın(ə) sözləri barədə fikrə getdi. Birdən yerindən qalxıb ayaqyalın İmamın(ə) dalınca qaçdı. Özünü İmama (ə) yetirib salam verdi və öz əməlindən peşman olduğunu söyləyib İmamın (ə) hüzurunda tövbə etdi. O gün-dən sonra kef məclisini ibadətgaha çevirdi. Həmin günün xati-rəsini əbədi yaşatmaq üçün o gündən etibarən ayaqyalın gəzər-di. Buna görə də o ***«Bişri-hafi»*** (ayaqyalın) ləqəbi ilə məşhur oldu.

***Tövbə ilə əfv olur aləmdə çox cürmi-günah,***
***Hər iki aləmdə vardı çünki adil padişah.***
***Gər bəşər övladısan, olma Xudadan bipənah,***
***Adəmin şənində «Kərramna» dedi niqti-İlah,***
***Əhli-mənasan həqiqət sümmə-vəchullahı gör.***[1]

İmam Kazim (ə) hicrətin 183-cü ( və ya 186) ilində zəhərlənərək şəhid olmuşdur. Məzarı İraqda ***"Kazimeyn"*** şəhərində böyük ziyarətgahdır.

---

***[1] Axund Hacı Soltanın Ş.İ.Xətaiyə yazdığı təxmi***

# İMAM MUSEYI-KAZIMIN (Ə) BUYURDUĞU HƏDISLƏR

**I.** İnsanların biliyini dörd şeydə bilmişəm:

**1**. İnsanın Allahını tanıması.

**2.** Allahın onda (vücudunda) nələr yaratdığını bilməsi.

**3.** Allahın ondan nə istədiyini anlaması.

**4**. Onu dindən çıxaran şeyin nə olduğunu bilməsi.

**II**. Allah-Təalanın insanlara iki hüccəti (zahiri və batini) vardır: ***Zahiri hüccət***-göndərilən peyğəmbərlər və imamlar (ə) dır.***Batini höccəti*** isə- ağıldır.

**III**. Ey Hişam! Loğman oğluna belə dedi:

"İnsanların ən ağıllısı olmaq istəyirsənsə, haqqa boyun əy. (Təvaze et). Ey oğul, dünya dərin bir dənizdir, insanların çoxu onda boğulmuşdur.Gərək bu dənizdə sənin gəmin təqva, onun yükü iman, yelkəni təvəkkül , kapitanı ağıl, yol göstərəni bilik, sükanı isə səbr olsun."

**IV.** Bir nəfər İmam Kazımdan (ə) soruşdu: Hansı düşmən-lə cihad etmək vacibdi?

Həzrət (ə) buyurdu:

Sənə ən yaxın olan düşmənlə.O düşmən ki, sənə hamıdan artıq ziyanlıdır və düşmənçiliyi çox böyükdür və səndən gizlidir, baxmayaraq ki,sənə yaxındır.

**V.**Ey Hişam, Həzrəti İsa (ə) öz yaxın dostlarına belə dedi:

"Doğrudan da ən kiçik və ya xırda günahlar, şeytanın hiylələridir, şeytan o günahları sizin nəzərlərinizdə kiçildir və onlar yığıldıqca o qədər çoxalır ki, sizi öz içində qərq edir."

**VI.**Ey Hişam! Əkin daş üstündə yox, saf və yumşaq yerdə olar. Həmçinin elm və hikmət saf və təvazökar ürəklərdə inkişaf edər, daş ürək və mutəkəbbirlərdə yox!

**VII.**Bir hikmətli söz möminin itik malıdır,belə isə elm öyrənmək üçün çalışın.

*********

# İMAM MUSEYI-KAZIMIN (Ə) HƏYAT VƏ FƏALIY-YƏTI BARƏDƏ SUAL VƏ CAVABLAR

**Sual - 1.**

İmam Museyi Kazim (ə ) nə vaxt və harada dünyaya göz açdı?

**Cavab :**

Hicrinin 128-ci ilinin Səfər ayının 7-si, bazar günün səhər çağı. Əbva kəndində (bu kənd Məkkə və Mədinə şəhərinin arasında yerləşir).

**Sual - 2.**

“Kazım” sözünün mənası nədir və nə uşun İmam Musa ibni Cəfərə (ə) Kazim deyirlər?

**Cavab :**

***“Kazim”*** kəlməsinin mənası qəzəbi yatırmaq deməkdir. İmam Musa ibni Cəfər (ə ) zalımların ona qarşı etdiyi zül-mün müqabilində öz qəzəbini yatırdığı və səbir etdiyi üçün, həmçinin helmi və bağışlamağı həddindən artıq olduğuna görə və o Həzrətin(ə) haqqında günah və cəfa edənlərin təqsirlərindən keçdiyi üçün ***“Kazim”*** ləqəbi ilə tanıbdır.

**Sual - 3.**

İmam Museyi Kazimin (ə ) ata və anasının adı nədir?

**Cavab :**

O Həzrətin(ə) atasının adı İmam Sadiq (ə ) , anasının adı isə Həmidədir (ə ).

**Sual - 4.**

İmam Kazımın (ə ) yaşadığı dövrü nüçə hissəyə bölmək olar?

**Cavab :**

İki hissəyə:

**1**. İmamətdən qabaqkı dövr.

***2***. İmamətdən sonrakı dövr.

**Sual - 5.**

İmam Kazimın (ə) imamət dövrü hansı zalım xəlifələrin dövranına təsadüf edir?

**Cavab :**

Mənsür Dəvaniqi, Mehdi Abbasi, Hadi Abbasi və Harun Ərrəşid.

**Sual - 6.**

İmam Kazimın (ə) ən tanınmış və yüksək dərəcəli iki övladının adı nədir?

**Cavab:**

İmam Rza (ə ) və Həzrət Fatimeyi Məsumə (ə )

**Sual - 7.**

İmam Kazimin (ə) zahiri, batini və əxlaqi xüsysiyyətləri necə idi?

**Cavab:**

İmam Kazim (ə) orta boylu, nurani çöhrəli və qalın, qara saçlı idi. O Həzrətin (ə) mübarək bədəni çox ibadət etdiyi üçün zəifləmişdi. Lakin güclü ruhu və parlaq qəlbi var idi. İmam Kazim (ə) çox fəaliyyət göstərdiyi və ibadət etdiyi üçün **"Əbdu Saleh"** ləqəbi ilə tanınıbdır. O Həzrət səxavət, bağışlamaq və ehsan etməkdə əziz ata-babaları kimi idi. İmam Kazim (ə) öz əyalına, övladına və qulamlarına qarşı çox mehriban idi. Hə-mişə yoxsul və biçarələri fikirləşirdi və Quran oxumaqla ün-siyyət tapmışdı. O Həzrət (ə) Quranı qəmli və xoş avaz ilə tilavət edirdi. Elə Quran oxuyurdu ki, camaat o Həzrətin (ə) evinin ətrafına toplaşıb İmamın(ə) oxuduğu Qurana qulaq asaraq ağlayırdılar. Mədinə şəhərinin əhalisi o Həzrətə ***"Zeynül-müctehidin"*** ləqəbini vermişdilər.

**Sual - 8.**

İmam Kazim (ə ) hansı xəlifənin dövründə illərlə zindanda qaldı?

**Cavab :**

Abbasilərin 5-ci xəlifəsi Harun Ərrəşidin xilafəti döv-ründə.

**Sual - 9.**

İmam Kazim (ə) kimin göstərişi ilə neçə yaşında zəhərləndi?

**Cavab :**

Harun Ərrəşidin göstərişi ilə 55 yaşında.

**Sual - 10.**

İmam Kazim (ə) nə vaxt və harada şəhid oldu?

**Cavab:**

Hicrinin 183-cü ilinin Rəcəb ayının 25-i Bağdad şəhərin-də, Harun Ərrəşidin zindanında.

**Sual - 11.**

İmam Kazimın (ə) şəhid olduğu zindanın adı nədir və ha-rada yerləşir?

**Cavab:**

Bağdad şəhərindəki Sindi İbni Şahəkin zindanı.

**Sual - 12.**

Hansı İmam(ə) şəhid olandan sonra danışmağa başlayıb?

**Cavab:**

İmam Kazim (ə) şəhid olandan sonra xəlifə Sindi ibni Şahəkə göstəriş verdi ki, onun mübarək cənazəsini Bağdad körpüsünün üzərinə qoyub xalqa elan etsin ki, İmam Kazim (ə) təbii ölümlə dünyadan gedibdir. Xalq o Həzrətə(ə) baxırdılar, lakin o Həzrətin(ə) üzərində yara görmürdülər. Rəvayət olu-nur ki, xalis şiələrdən biri imamın cənazəsinin kənarına gəlib dedi:

Ey Peyğəmbər övladı! Sən düz danışansan və atan düz danışandır. Bizə xəbər ver ki, səni öldürdülər, yoxsa özün dünyadan getdin?

İmam(ə) buyurdu:

***"Qətlən, qətlən, qətlən."*** - "Məni öldürdülər".

**Sual - 13.**

Hansı İmam(ə) vəsiyyət etdi ki, onu zindanda bağlandığı zəncirlərlə birlikdə dəfn etsinlər? Bunun səbəbi nə idi?

**Cavab:**

İmam Kazim (ə) vəsiyyət etdi ki, zindanda özünə işgəncə verilən zəncirlərlə yanaşı dəfn etsinlər. İmamın(ə) bu vəsiyyəti aşağıdakı səbəbə əsasən ola bilər:

"O Həzrət (ə) şəhid olandan sonra, babası Allahın Rəsulu ilə və ya anası Fatimeyi Zəhrayla(ə) görüşdüyü zaman deyər: Mənə bu zəncirlərlə zindanda işgəncə verirdilər".

**Sual - 14.**

İmam Kazimın (ə) şərafətli qəbri haradadır?

**Cavab:**

Bağdadın yaxınlığında olan ***"Kazimeyn"*** şəhərində.

# ONUNCU MƏSUM

## İMAMƏT SƏMASININ SƏKKİZİNCİ ULDUZU İMAM RZA (ə)

***Bismaillahir-Rəhmanir-Rəhim!***

***Ya Rza! Bu qərib canimə lütf et,***
***Ərzəmlə Əlinin hüzuruna get.***

İmam Rza (ə) 148-ci hicri-qəməri ilinin Zilqədə ayının 11-də Mədinə şəhərində dünyaya gəlib. Atası İmam Kazım (ə), anası Tüktəm xanım idi.

İmam Rzanın (ə) anası haqqında bu cür deyilir: «Əcəmin böyüklərindən olan İmam Kazımın (ə) anası Həmidə bir kəniz aldı və onu **«Tuktəm»** adlandırdı. O kəniz əql, həya və din baxımından ən yaxşı qadınlardan idi. O, Həmidəyə çox ehtiram göstərirdi. Bir gün Həmidə onu övladı İmam Kazı-ma(ə) bağışladı və onun sifarişini İmama (ə) çatdırdı. İmam Kazım (ə) onunla ailə qurdu. İmam Rza (ə) dünyaya gələndən sonra isə Həmidə (ə) ona «**Tahirə**» ləqəbini verdi».

İmam Rzanın (ə) adı Əli, künyəsi Əbülhəsən, ən məşhur ləqəbi isə Rzadır(ə).

İmam Rzanın (ə) səhabələrindən biri İmam Cavada(ə) ərz etdi: «Sizin müxaliflərinizdən bir dəstə belə güman edirlər ki, Bəni Abbasi xəlifəsi Məmun İmam Rzanı (ə) özünə vəliəhd seçən vaxt «**Rza»** ləqəbini yüksək məqamlı atanıza verdi».

İmam Cavad (ə) buyururdu:

***"And olsun Allaha, onlar yalan deyirlər. Allah-Təala onu Rza adı ilə adlandırdı. Çünki asimanda Allah yanında bəyənil-miş, Yerdə isə Allah Rəsulu və Əhli-beyt (ə) ondan xoşnud ol-muşlar və Allah onu imamətə bəyənmişdir".***

Bu şəxs deyir ki, İmam Cavaddan (ə) soruşdum: «Sənin keçmiş ataların Allah, Peyğəmbər (s) və İmamət (ə) tərəfindən bəyənilmişdimi?»

İmam Cavad (ə)buyurdu:

«Bəli!»

Dedim: «Bəs nə üçün İmam Rza (ə) onların arasından bu ləqəblə tanınmışdır?»

İmam Cavad (ə) buyurdu: «Çünki müxaliflər və düşmənlər də ondan razı olmuş, onu bəyənmişlər».

İmam Rza (ə) atası İmam Kazımın (ə) şəhadətindən sonra hicri-qəməri 183-cü ilində 35 yaşında İmamət məqamına çatdı. Onun imamət müddəti 20 il çəkdi. Birinci on ili Harun-ər Rə-şidin xilafəti dövrünə, ondan sonra 5 il Harunun böyük oğlu Məhəmməd Əminin xilafətinə, axırıncı 5 ili isə Harunun kiçik oğlu Abdullah Məmunun xilafət dövrünə təsadüf et-mişdir.

İmam Rza (ə) Harun ər-Rəşidin xilafəti dövründə Mədinə şəhərində yaşadı, İmam (ə) Mədinədə olduğu müddətdə çoxlu şagirdlər yetişdirmiş və şiəlik məktəbinin maarifi, elmlərinin nəşri sahəsində mühüm addımlar atmışdı.

Bəzi bədxahlar İmamın(ə) bu işlərindən xəbərdar olduqda Bağdada gəlib Harunla görüşür və ona çatdırırlar ki, bəs Musa İbn Cəfərdən sonra oğlu onun yerində oturub imamət iddiası edir. Bu, sizin xilafətiniz üçün qorxuludur.

Harun əsəbi halda dedi: «Atası ilə etdiyimiz kifayət deyilmi? İstəyirsiniz qılıncı əlimə götürüb bütün ələviləri məhv edim?»

İstər Bəni-Üməyyə, istərsə də Bəni-Əbbasdan olan xilafət qəsbkarları Əhli-beytdən (ə) qorxurdular. Çünki yaxşı bilirdi-lər ki, xilafət Əhli-beytin (ə) haqqıdır. Peyğəmbərin (s) varislə-ri olan bu pak ailəyə hər bir fürsətdən istifadə edərək əzab-əziyyət etməkdən çəkinmirdilər… Amma Məmun digər yolu seçdi. O, atasından daha zirək idi. Məmun İmam Rzanı (ə) zindana atmadı, ona zahiri işgəncə və əzab vermədi, onlardan daha ağır əzab verdi. İmam Rzanın (ə) ruhunu sıxıntı və təzyiqdə saxladı. Bu sıxıntı və təzyiqlərin çoxluğu sayəsində İmam Rzanın(ə) məcburi halda vəliəhdliyi qəbul etməsi baş verdi.

İmam Rza (ə) dəfələrlə Məmunun vəliəhdlik təklifindən boyun qaçırdı. İş o yerə çatdı ki, Məmun bərk əsəbiləşərək İmamı

(ə) ölümlə hədələdi. İmam Rza (ə) bir neçə səbəbə görə məcbur qalıb vəliəhdliyi qəbul etdi.

Bir rəvayətdə nəql olunmuşdur ki, «İmamdan (ə) hansı məcburiyyətə görə vəliəhdliyi qəbul etdiniz?» – deyə soruş-duqda buyurdu:

***"Həmin məcburiyyətə görə ki, babam Həzrət Əli (ə) Şurada iştirak etməyə məcbur oldu"***. (Həmin Şura Ömər İbn Xəttabın göstərişi ilə xəlifəni təyin etməkdən ötrü təşkil edilmişdi).

Başqa bir rəvayətdə İmam Rza (ə) buyurub: «Onun (Mə-munun) sözlərinə aldanmayın. And olsun Allaha, məni ondan başqası qətlə yetirməz. Amma səbr etməkdən başqa bir çarəm yoxdur ki, ömrümü başa vurum».

İmam Rza (ə) əlinə düşən bütün fürsətlərdən camaatı agah etmək üçün istifadə edirdi. Nişapur əhlinin yanında ***«Silsilətül-zəhəb» – «Qızıl Silsilə»*** hədisində buyurur: ***«La ilahə iləllah» mənim qalamdır. Ona daxil olan hər bir kəs mənim əzabımdan amandadır. Əlbəttə, bunun şərtləri vardır və mən də o şərtlərdən biriyəm».***

İmam Rza (ə) Məmunun onun vəlihədliyindən öz xilafə-tinin qanuniləşdirilməsi üçün istifadə etməsinə imkan vermədi və Əhli-beytin (ə) vilayətinin haqq olduğunu hər yerdə hamıya bəyan etdi.

Məmunun vəliəhdliyi İmam Rzaya (ə) təklif etməsinin və onu məcburi şəkildə İmam Rzanın(ə) öhdəsinə qoymasının mühüm dəlilləri aşağıdakılardan ibarətdir:

1. İmam Rzanın (ə) mənəvi məqamına və üsyançı hesab etdiyi ələvilərə zərər yetirmək;
2. Abbasilərin hökumətini qanuni hökumət kimi qələmə vermək;
3. Əhli-beyt(ə) aşiqi olan və Abbasilərə nifrət bəsləyən camaatı cəzb etmək;
4. İmam Rzanın (ə) fəaliyyətini nəzarət altına götürmək;
5. Öz hökumətinin Xorasan əhalisi və bütün iranlılar tərəfindən qanuni hökumət kimi qəbul olunması.

# İMAM RZANIN (Ə) ƏXLAQ VƏ RƏFTARI

***Bismaillahir-Rəhmanir-Rəhim!***

***Müshəfi-hüsnündə şol hərfi-xətü-xalın sənin,***
***“Sətri-Bismillahir-Rəhmanir-Rəhim” olmuşdur.***

***S.İ.Nəsimi***

İmamlar (ə) Allah tərəfindən seçilmişdir və Allahın Yer üzündə höccətidirlər. Xalqa həyat dərsi, paklıq və fəzilət öyrət-məklə əhali üçün ülgü və sərməşq idilər… İmamların (ə) yük-sək əxlaqi keyfiyyətləri onları hamıdan ucaya qaldırdı. İmam-lar (ə) heç vaxt özlərini xalqdan ayrı hesab etmir, onları qul ol-mağa və alçaqlığa çəkmir, heç kəsi təhqir etmirdilər.

İbrahim İbn Abbas deyir:

«Heç vaxt görmədim ki, bir danışan adamın sözünü kəs-sin. Gecələr az yatar, çox oyaq qalardı. Daim oruc tutardı. Xeyirxah işlərlə məşğul olar, gizli ehsanlar verər, qaranlıq ge-cədə gizlincə yoxsullara kömək edərdi».

Məhəmməd İbn Əbi İbad deyir:

"Həzrətin(ə) yerə saldığı fərş yayda həsir, qışda isə palaz idi. Onun ev paltarı qalın və kobud idi. Ancaq ümumi məclis-lərə gedəndə sadə və yaxşı paltar geyir, özünü düzəldərdi".

Bir gecə İmamın (ə) qonağı gəlmişdi. Söhbət zamanı çı-raqda qüsur əmələ gəldi və qonaq istədi çırağı düzəltsin. İmam(ə) razı olmayıb çırağı özü qaydaya saldı və buyurdu:

***"Biz elə bir nəsilik ki, qonağı işlətmərik".***

Bir şəxs İmama (ə) söylədi ki, and olsun Allaha, Yer üzündə heç kəs şərafətdə sizin atalarınızdan yüksək deyil, İmam (ə) buyurdu:

«Atalarımızı şərafətləndirən paklıq və Allaha itaətdir ki, onları böyük edib».

Bəlx əhalisindən bir kişi deyir:

«Xorasan səfərində İmam Rza (ə) ilə yoldaş idim. Bir gün süfrə açmışdı. İmam (ə) bütün xidmətçiləri, qulamları, hətta qaraları da süfrədə oturtdu ki, onunla birlikdə çörək yesinlər. Mən ona söylədim ki, sənə qurban, yaxşı olar ki, onlar ayrı otursunlar.

İmam (ə) buyurdu:

«Hamının Allahı, ata-anası birdir. Hər kəsin mükafatı isə onun əməlindən asılıdır».

Bir qərib İmamın (ə) xidmətinə gəlib dedi:

«Mən sizin ata-babalarınızın dostlarındanam. Həccdən qayıdıram. Pulum qurtarıb. Yol xərcim yoxdur ki, gəlib evə çatım. Mənə bir az borc verin, evimə çatım. Ora çatan kimi borcumu sizin tərəfinizdən yoxsullara sədəqə verərəm. Mən öz şəhərimdə yoxsul deyiləm. Amma səfərdə belə möhtac qalmı-şam».

İmam 200 dinar gətirib qapının arasından əlini uzatdı və yolçunu səslədi:

"Bu iki yüz dinarı götür, yol xərci et, mənim tərəfimdən bu pulu sədəqə verməyin lazım deyil".

O şəxs dinarları alıb getdi. İmam (ə) geri dönəndə ondan soruşdular ki, niyə belə etdiniz ki, o pulu alanda sizi görməsin? İmam (ə) cavab verdi:

«Elə etdim ki, ondan xəcalət və sual götürməyim».

İmamın (ə) dostlarından Süleyman Cəfəri deyir ki, bəzi məsələlərdən ötrü imamın hüzuruna getmişdim. İşim qurtardı və istədim ki, azad olum. İmam (ə) mənə bu gecəni onun yanında qalmağı buyurdu. İmamla(ə) birlikdə onun evinə get-dik. Axşam çağı idi. Həzrətin (ə) qulamları bənnalıq edirdilər. İmam (ə) onların içində kənar adam görüb, kimliyini soruşdu. Dedilər:

«Bizə kömək edir, haqqını verəcəyik».

İmam (ə) soruşdu:

«Muzdunu təyin edibsinizmi?» Dedilər, xeyir, nə versək razı olar. İmam (ə) narazılıqla buyurdu:

«Bunlara tapşırmışam ki, heç kəsin haqqını danışmamış işə çağırmayın. Gələn adamla danışın, qərardad bağlayın, ala-cağınızı və verəcəyinizi bilin. Muzdu danışılmış işin haqqından cüzi artıq

vverilsə, muzdlu razı qalar. Yox əgər danışılmayıb-sa, əməlin üç bərabəri haqq versən, yenə xəyal edəcək ki, az-dır».

Göründüyü kimi, bizim məsum İmamlarımız(ə) öz tərəf-darlarını haqqı, ədaləti qorumağa səsləyir.

İmam Rzanın (ə) böyük səhabələrindən olan Əhməd İbn Məhəmməd İbn Nəsr Bəzənti üç nəfər yaxın adamı ilə onun xidmətinə gəlir və bir saat oturduqdan sonra getmək istəyir. İmam (ə) üzünü Əhmədə tutub deyir: «Sən əyləş». Gecədən xeyli keçməsinə qədər söhbət edirlər. Sonra Əhməd yenə mürəxxəs olmaq istəyir. Amma imamın dəvətindən sonra qa-lır. İmam Rza (ə) öz otağına keçib geri dönəndə Əhməd sevin-cindən səcdəyə düşüb deyir:

«Allah, sənə çox şükür olsun ki, Allahın höccəti neçə nəfər xidmətinə gəldiklərimizin içində mənə bu qədər hörmət və ehtiram etdi».

Əhməd səcdədən qalxan kimi İmam(ə) onun əlini sıxıb, buyurdu:

«Ey Əhməd! Əmirəl-möminin öz yaxın əsabələrindən Səsəə İbn Suhanın görüşünə gəlir və getmək istəyərkən deyir ki, ey Səsəə, sənin görüşünə gəldiyim üçün qardaşların önündə fəxr etmə, özünü onlardan üstün tutma. Allahdan qorx, pəh-rizkar və pak ol! Allah üçün təvazökar və şükr edən ol! Allah sənə ucalıq bəxş edər.

İmam Rza (ə) bunu söyləməklə xəbərdarlıq edir ki, dünya-da heç bir iş insanın özünü tərbiyə etməyə və nəfsini düzəltməyə tay ola bilməz. Hətta İmama(ə) yaxın olmaq, onun lütf və mərhəmətiylə fəxr edib öyünməklə də, özünü başqalarından üstün tutmaq olmaz.

# SALAM OLSUN ALI-YASINƏ

"Uyunu-Əxbarir-Riza" kitabında yazılıb:

Bəni-Abbas xəlifəsi Məmunun əmri ilə bütün alimlərin İmam Rzanın(ə) hüzuruna gəldikləri gün İmam(ə) onlardan soruşdu:

"Qurani-Kərimdə "Ya-sin" kəlməsində kim nəzərdə tutulub?"

Bəni-Abbas alimləri dedilər:

"Ya-Sin" nən məqsəd Muhəmməddir (s).

İmam(ə) buyurdu:

"Allah-Təala İslam Peyğəmbərinə(s) bir üstünlük vermiş-dir ki, onu ağlı və düşüncəsi olmayanlar başa düşə bilməzlər. O üstünlük belədir. Allah-Təala Qurani-Kərimdə Peyğəmbər-lərdən(ə) başqa heç kəsi salamlamayıb. Belə ki, "Səffat" surə-sinin 79-cu ayəsində "Salam olsun Nuh Peyğəmbərə(ə) bütün aləmlərdə", 109-cu ayədə "Salam olsun İbrahimə(ə), 120-ci ayədə "Salam olsun Musaya(ə) və Haruna(ə), 130-cu ayədə "Salam olsun "Ali-Ya-Sin" ə, 182 ci ayədə "Salam olsun bütün Rəsullara".

Allah-Təala "Salam olsun "Ali-Ya-Sin"ə buyurarkən "Ya-Sin" övladların nəzərdə tutur. Bir halda ki, "Ya-Sin" Peyğəm-bərə(s) dəlalət edir, "Ali-Yasin"də Əhli-Beytə(ə) dəlalət edir.

İmam Hicri-qəmərinin 203-cü ilinin səfər ayının sonunda Nuqanın Sənabad adlı məkanında Abbasi xəlifəsi Məmunun göstərişi ilə zəhərlənib 55 yaşında şəhid edildi. Onun pak və müqəddəs qəbri İranın Məşhəd şəhərindədir. Allah-Təala İmam Rzanın (ə) ziyarətini cəmi istəyənlərə nəsib etsin, Amin!

Haqq aşığı Aşıq Şəmşirin yaşadığı zamanda yolları bağlı qalan ziyarətgahlarımızdan biri də Qərib Rzanın (ə) Məşhəddə olan məqbərəsi idi. Aşıq Şəmşir İmam Rzaya (ə) həsr etdiyi ***«Ustadnamə»***sinin son bəndində zəmanəsindən şikayət edərək yazırdı:

***Şəmşir ha səsləyir yazı yazanı,***
***Müdəm ruhum cövlan edir havanı.***

*Ziyarət etməyə İmam Rzanı,*
*Yol verilmir gedə qonağa, neynim!*

İmam Rzanın (ə) əxlaq və rəftarından çox danışmaq olardı. Lakin yazıların həcmini nəzərə alıb sözümüzü burada tamamlayırıq

# İMAM RZANIN (Ə) HƏYAT VƏ FƏALİYYƏTİ BARƏDƏ SUAL VƏ CAVABLAR

**Sual - 1.**
İmam Rza (ə ) nə vaxt və harada dünyaya göz açıb?
**Cavab:**
Hicrinin 148-ci ilinin Zilqədə ayının 11-i, Mədinə şəhərində.
**Sual - 2.**
İmam Rzanın (ə ) ata və anasının adı nədir?
**Cavab:**
O Həzrətin atasının adı İmam Museyi Kazım (ə), anasının adı isə Nəcmə (ə) idi.
**Sual - 3.**
İmam Rzanın (ə) yaşayış dövrünü neçə hissəyə bölmək olar?
**Cavab:**
Üç hissəyə:
1.İmamətdən qabaqkı dövr.
2.Imamətdən sonrakı dövr Mədinə şəhərində.
3.İmamətdən sonrakı dövr Xorasan şəhərində.
**Sual - 4.**
İmam Rzanın(ə) yaşadığı dövrün ən həssas hissəsi nə vaxt və neçə il oldu?
**Cavab:**
İmam Rzanın(ə) İmamət dövrü və Xorasanda olduğu üç il o Həzrətin(ə) siyasi yaşayışının ən həssas dövrü idi.
**Sual - 5.**

Nə üçün İmam Rza(ə) bir yerdən hərəkət edən iki müsafi-rə öz namazlarını necəliyindən sual verərkən, iki müxtəlif ca-vab verdi?

**Cavab:**

İmam Rza (ə) onlardan birinə buyurdu: "Sənin namazın şikəstdir". O birisinə buyurdu: "Sənin namazın tamdır". Sonra İmam Rza (ə) "Sənin namazın tamdır" deyərək buyurduğu şəxsə məsələni belə izah etdi:

"Çünki sən xəlifəni (zalım xəlifə Məmunu) görmək məq-sədi ilə gəlmisən. Buna görə də sənin səfərin günah səfəridir və günah olan səfər namazın şikəstə olmasına səbəb olmur".

İmam Rza (ə) hətta məsələləri bəyan edərək xalqı zalım padşahdan uzaqlaşdırırdı.

**Sual - 6.**

İmam Rza(ə) nə üçün Xorasan şəhərinə dəvət olundu?

***Cavab:*** Məmun , öz hökümət sarayının əzəmətli, qüdrətli və elmi mövqeyə malik olması üçün, başqa bir tərəfdən Həzrət Əlinin (ə) Əhli-beytinin (ə) tərəfdarlarının narazılığını azalt-maq və keçmişdəki zülümlərini islah etmək məqsədi ilə İmam Rzanı (ə) Mədinə şəhərindən Mərv şəhərinə dəvət etmək fikri-nə düşdü. Məmun öz adamları ilə məşvərət edəndən sonra, xü-susilə qoşun başçısı və ölkənin işlərini həll edən huşlu, isde-dadlı bir şəxs olan Fəzl ibni Səhl ilə məsləhətləşəndən sonra zorakıcasına İmam Rzadan(ə) isdədi ki, Mədinədən Xorasana gəlsin.

**Sual - 7.**

***"Silsilətüz-zəhəb"*** hədisi hansı hədisdir, kimin vasitəsi ilə və harada bəyan olubdur?

**Cavab:**

İmam Rza(ə) Xorasana səfər etdiyi ərəfədə ***Nişapur*** şəhə-rinə çatdı. O Həzrət (ə) Tövhid və Allahın birliyi haqqında bir hədis bəyan edərək buyurdu:

***"La ilahə illallah mübarək kəlməsi mənim möhkəm qalam-dır,hər kəs ona mötəqid olsa, bu möhkəm qalaya daxil olacaq və əgər bu qalaya daxil olsa, qiyamət gününün əzabından amanda***

***qalacaqdır." Bir neçə andan sonra İmam Rza (ə) o hədisdən sonra buyurdu:***

***"Amma bunun şərti vardır. İmam Rza(ə) özünə işarə edərək buyurdu:***

***Mən onun şərtlərindən biriyəm."***

**Sual - 8**

"***Silsilətüz-Zəhəb***" kəlməsinin lüğəvi mənası nədir və nə üçün ona "***Silsilətüz-Zəhəb***" deyirlər?

**Cavab:**

***"Silsilətüz-Zəhəb" – "Qızıl silsilə"*** deməkdir. Bu hədisin raviləri arasında Peyğəmbərə (s) qədər bütün məsum imamlar olduğu uşun buna ***"Silsilətüz-Zəhəb"*** deyirlər.

**Sual - 9.**

İmam Rzanın (ə) bəyan etdiyi ***"Silsilətüz-Zəhəb"*** hədisi hansı mətləblərə malikdir?

**Cavab:**

İmam Rzanın (ə) vasitəsi ilə bəyan olunmuş ***"Silsilətüz-Zəhəb"*** hədisindən üç mətləb istifadə olunur:

O Həzrət (ə) öz ata-babalarının adını nəql etməklə Həzrə-tin (ə) ata-babaları bu hədisi bir-birindən nəql ediblər, ta gedib Peyğəmbərə (s) çatır, Peyğəmbər (s) də Cəbrail(ə) vasitəsiylə, Cəbrail də Allah-Təaladan bu hədisi eşidibdir. İmam Rza (ə) da bu hədisi nəql etməklə İlahi xəlifələr olan öz ata-babalarını xalqın nəzərinə çatdıraraq onları xalqa xatırlatdı.

**Sual - 10 .**

Hansı İmam **"Ali Məhəmmədin alimi"** ləqəbi ilə tanınıbdır?

**Cavab:**

İmam Rza (ə )

**Sual - 11.**

İmam Rza (ə) neçə yaşında və kimin vasitəsi ilə zəhər-ləndi?

**Cavab:**

55 yaşında Məmunun vasitəsi ilə.

**Sual - 12.**

İmam Rza (ə) nə vaxt və harada şəhid oldu?

**Cavab:**

Hicrinin 203-cü ilinin səfər ayının axırında, Nuqanın Sə-nabad adlı məkanında (hal hazırda ora Məşhədin məhəllələ-rindən biridir).

**Sual - 13.**

İmam Rzanın (ə) bir övladının adı nə idi və İmam(ə) şəhid olan vaxt onun yeganə övladının neçə yaşı var idi?

**Cavab:**

İmam Rzanın (ə) şəhid olduğu zaman Həzrət İmam Mə-həmməd-Təqinin (ə ) təqribən yeddi yaşı var idi.

**Sual - 14.**

İmam Rzanın (ə ) şərafətli qəbri harada yerləşibdir?

**Cavab:**

***"Məşhəd"*** şəhərində.



# ON BIRINCI MƏSUM

## İMAMƏT SƏMASININ DOQQUZUNCU ULDUZU İMAM MUHƏMMƏD TƏQİNİN (Ə) MÖVLUDU.

***Bismaillahir-Rəhmanir-Rəhim!***

***Ya Mühəmməd Təqi! Ey ismi-bakir,***
***Ruhuma qüdrət ver, Əliyə xatir.***

Adı: Məhəmməd (ə)
Məşhur ləqəbləri: Cavad,Təqi (ə)
Kunyəsi:Əbu Cəfər (ə)
Atası: Həzrət Rza(ə)
Anası:Xeyzəran (s)
Anadan olduğu il:195-ci il, Rəcəb ayının onu.
Anadan olduğu yeri: Mədinə.
Şəhadət tarixi: 220-ci il,Ziqədənin sonu,25 yaşında.

Şəhadət yeri: O Həzrət (ə) Bağdad şəhərində Mötəsəm Əbbasinin hiyləsi ilə və öz arvadı-Məmunun qızı “Ümmü-Fəzl”in əli ilə zəhərləndirilmiş və şəhadətə çatmışdır.

Müqəddəs məzarı: Bağdadın yaxınlığındakı *“**Kazimeyn”*** şəhərində.

Yaşayış dövrləri: O Həzrətin (ə) yaşayış dövrünü iki hissə-yə bölmüşlər:

1. Yeddi il imamlıqdan əvvəlki dövr.
2. İmamlıq dövrü (17 il).

Ləqəbi Təqi və Cavad olan İmam Mühəmməd (ə) hicrətin 195-ci ilində Mədinə şəhərində doğulmuşdur. Anası Səbikə xanım əxlaqi dəyərlər baxımından yüksək mərtəbədə dururdu. Atası vəfat edərkən İmam Təqinin (ə) təxminən 7 yaşı vardı.

O, İmam (ə) olduğu müddət ərzində iki Abbasi xəlifəsi - Məmun və Mötəsimlə bir dövrdə yaşamışdır. Adı çəkilən xəli-fələrin hər ikisi o Həzrəti(ə) məcburi şəkildə Mədinədən Bağ-dada gətizdirmiş və Məmunun İmam Rza (ə) barədə icra etdiyi

siyasəti davam etdirərək onu paytaxtda saxlamaqla nəzarət al-tına almışlar.

İmam Rzanın (ə) ailəsində, həmçinin müsəlmanlar arasın-da İmam Təqi (ə) xeyir-bərəkətli bir uşaq kimi tanınmışdı. Ki-çik yaşlarından İmamət məqamına yetişmiş ilk İmam olduğun-dan , o Həzrətin (ə) həyatını mütaliə edərkən irəli çıxan ilk su-al bu olur: "Azyaşlı bir kəs müsəlmanların rəhbərlik məsuliy-yətini necə öz öhdəsinə götürə bilər?"

Bir uşağın ümmətə rəhbər seçilməsi onların ağlına sığma-dığı üçün öz fikirlərində İmam Təqini (ə) elmi mübarizə mey-danında məğlub edəcəklərini düşünüb, o Həzrətə(ə) çətin və dolaşıq suallar verirdilər. Ancaq bu müzakirələrin hər birində İmam Təqi (ə) öz qəti və aydın cavabları ilə özünün İmam (ə) olması məsələsi üzərində bütün şək-şübhəni qaldıraraq İmam(ə) olduğunu və ümumiyyətlə, İmamət məsələsini isbat edirdi.

***Hər iki aləmə izzət Təqidir,***
***Gülü-gülzari- nübuvvət Təqidir.***

***Doğru yol göstərib ol ümmətə çün,***
***Nuri-ənvari həqiqət Təqidir.***

Həzrəti Rzanın(ə) şəhadətindən bir il sonra Məmun bir dəstə atlı ilə ova çıxmışdı. Küçədə uşaqlar oynayırdılar. Bir uşaq da qıraqda dayanıb onların oyunlarına baxırdı. Uşaqlar Məmun ilə atlılarını görən kimi qaçıb getdilər. Lakin on bir yaşlı uşaq yerində dayanıb tərpənmirdi. Abbasi Xəlifəsi Mə-mun uşağa yaxınlaşıb dedi:

– Ay oğlan, bəs sən niyə o biriləri kimi qaçmadın?

On bir yaşlı oğlan belə cavab verdi:

– Yol elə də darısqal deyildi ki, sənin yolunu tutmuş olam. Bir pis iş də görməmişəm ki, səndən qorxam. Sizin səbəbsiz olaraq birini incidəcəyinizi də güman etmirəm. Deməк, qaç-mağım mənasızdır.

Xəlifə Məmun uşağın ədəb və cəsarətindən heyrətə gəlib soruşdu:

– Sənin adın nədir?

Uşaq cavab verdi:

– Muhəmməd.

– Kimin oğlusan?

Dedi:

– Əlinin.

Məmun dedi:

– Sən İmam Rzanın (ə) oğlu deyilsənmi?

Uşaq dedi:

– Bəli.

Xəlifə uşağın bu ədəbindən ona afərin deyib, atlıları ilə çı-xıb getdi.

İmamın(ə) əxlaqi xüsusiyyətlərindən çox danışmaq olar. Hələ atası sağ olarkən, atasının dostlarından biri o Həzrət(ə) üçün oyuncaq alıb gətirmişdi. Oyuncağı görən kimi Həzrət(ə) narahat olub buyurdu:

– Mən bunları neynirəm? Allah bizim həyatımızda əylən-cəyə yer qoymayıb. Biz elm və fəzilət xanədanıyıq.

Bəzəndi deyir:

Bir gün İmam Rza (ə) Mədinədə olan oğluna bu məz-munda bir məktub yazdı:

"Övladım, eşitdiyimə görə qulluqçular icazə vermirlər ki, xalq sizinlə asanlıqla əlaqə yaradıb öz məsələlərini soruşsunlar. Bunu bil ki, onlar sənin xeyir və səadətini istəmirlər. Sənə əmr edirəm ki, qapın hamının üzünə açıq olsun, qoy hamı gediş-gəlişdə sərbəst olsun ki, səndən bir şey soruşmaq istədikdə im-kan tapsınlar. Bir yerə getmək istədikdə mütləq yanında pul götür ki, ehtiyacı olan bir şəxs ilə qarşılaşdıqda ona kömək edə biləsən. Çətinlikdə olan qohumlarını unutma. Onların vəziy-yəti ilə yaxından və ən yaxşı şəkildə maraqlan. Heç vaxt yoxsullara kömək və yardım etməyi unutma!"

Abbasi Xəlifəsi Məmun İmam Rzanı (ə) şəhid etdikdən sonra İmam Cavadı (ə) Mədinədən Xorasana gətirdərək öz qı-zı Ümmü

Fəzli İmamla(ə) evləndirmək istəyirdi. Sarayda olan xəlifənin adamları bu işə maneçilik törətmək istədilər. Ancaq Məmun qəbul etməyib dedi:

«Siz onu tanımırsınız. Əgər onu tanısaydınız məndən Allahın ən yaxşı bəndəsi və xalqın ən biliklisini öz kürəkənim olaraq seçməyə maneçilik törətməzdiniz. Siz onu imtahan edə bilərsiniz. Əgər suallarınızın cavabını verib sizi məhkum etsə, daha heç bir söz deməyib istəyinizdən vaz keçin, yox əgər ca-vabınızı verə bilməsə, mən sizin istəyinizi qəbul edib qızımı ona verməərəm».

Abbasilər Yəhya İbni Əksəmin yanına gələrək ondan bir neçə məsələ hazırlayıb Məmunun məclisində İmam Cavad-dan(ə) soruşmasını istədilər. Yəhya onların istəyini qəbul etdi, onlar da Məmunun yanına gəlib Yəhyanın razı olduğunu Mə-muna bildirdikdə, Məmun razu olub bu iş üçün xüsusi bir gün təyin etdi.

Abbasilər Yəhya İbni Əksəm ilə məclisə gəldilər. Təntənə-li bir məclis qurmuşdular. Böyüklərin hamısı məclisdə iştirak edirdilər. Bu vaxt İmam Cavad (ə) məclisə daxil oldu. Məc-lisdə olanlar ayağa qalxdılar. İmam (ə) qabağa gəlib Məmu-nun yanında əyləşdi. Məmun İmama(ə) müraciət edərək dedi ki, Yəhya İbni Əksəm sizdən bəzi məsələləri soruşmaq istəyir.

İmam(ə) buyurdu:

– İstədiyi məsələni soruşa bilər.

Yəhya dedi:

– Ehram paltarı geyib Allahın evini ziyarətə gedən və ora-da bir heyvan ovlayan şəxs barədə nə deyə bilərsiniz?

İmam (ə) buyurdu:

– Ey Yəhya,  bu məsələnin müxtəlif şəkilləri var. Onlar-dan hansını soruşursan? Bu şəxs Hərəmin içində imiş, yoxsa bayırında? Bu işin haram olduğunu bilirmiş, ya yox? Heyvanı qəstdən öldürüb, yoxsa səhvən? Qul imiş, ya azad? Bu işindən peşman olub, yoxsa işinə davam etmək istəyir? Heyvanı gecə ovlayıb, ya gündüz? Birinci dəfə imiş, yoxsa ikinci, yaxud üçüncü dəfə? Heyvan quş imiş, ya yox? Böyük imiş, ya kiçik?"

İmamın (ə) məsələni bu cür xırdalığı ilə şərh etməsi Yəhya İbni Əksəmi çaş-baş etdi və dili tutuldu. Məclis əhli İmama(ə) afərin dedilər.

Sonra İmam(ə) Yəhyaya belə buyurdu:

– Mən də sizdən bir məsələni soruşmaq istəyirəm.

Yəhya dedi:

– Buyurun, əgər cavabını bilsəm deyərəm. Əgər bilməsəm, sizdən eşidib istifadə edərəm.

İmam Yəhyadan həmin məsələni soruşdu. Məclis əhli Yəhyanın cavab verməsini gözləyirdi. Məmun və tərəfdarları Yəhyanın cavab verib, verə bilməməsindən narahat idilər və deyirdilər:

"Əgər Yəhya cavab verə bilməsə hamımız rüsvay olacağıq və imamın nüfuzu daha da artacaq".

Elə bu vaxt Yəhya utandığından başını aşağı salıb və İmama(ə)  üz tutaraq dedi:

– Məsələnin cavabını bilmirəm. Özünüz buyurun, biz də istifadə edək.

İmam(ə) gözəl bir tərzdə sualın cavabını dedi. Dostları şad, düşmənləri isə qəmgin etdi. Bu vaxt Məmun ətrafında olanları belə xitab etdi:

– Sizin aranızda belə məsələlərə cavab verə bilən bir şəxs vardırmı?

Cavab verdilər ki: ***"Allaha and olsun ki, yoxdur".***

Sonra Məmun elə həmin məclisdə qızı Ümmü Fəzli İmam Cavada (ə) ərə verdi.

***Gər Riza oldu tamam xəlqə imam,***
***Varisi-mülki-imamət Təqidir.***

***Oldu təqvalı müəllim bəşərə,***
***Zöhdü-təqva üçün ayət Təqidir.***

# İMAM CAVADIN (Ə) YETIŞDIRDIYI TƏLƏBƏLƏR

İmam Cavadın (ə) zamanında şərait olmadığından İmam(ə) çox az tələbə yetişdirə bildi. İmamın (ə) yetişdirdiyi tələbələrdən biri ***Əli İbni Məhziyar*** idi. O, İmamın(ə) xüsusi dostlarından idi. Mömin və zahid bir kişi idi. Əhvazda yaşayırdı. Əhli-Beyt əsərlərini ehtiva edən təqribən 30 kitab ondan yadigar qalmışdı. İbni Məhziyar elə bir məqama çatdı ki, İmam (ə) onun haqqında belə bir məktub yazdı:

«Allahın adı ilə! Ey Əli! Allah sənə yaxşı bir mükafat verəcək. Səni öz cənnətində yerləşdirəcək və iki aləmin nemətlərindən faydalandıracaqdır. Mən xeyirxahlıq və xidmətdə sənin kimi olan kimsəni görməmişəm».

***Əbu Nəsir Bəzənti***. O, Kufə əhalisindən və İmamın(ə) xüsusi əsabından idi. Onun fiqhi və elmi məqamını bütün alimlər qəbul edirdilər.

***Zəkəriyya İbni Adəm.*** Qum əhalisindən və İmamın(ə) dəyərli əshablarından biri idi. Qəbri Qum şəhərindədir. Bu şəxs İmamın(ə) dua etdiyi və vəfalı dostu olaraq tanıtdığı şəxs-dir. İmamın(ə) əshabından biri: «Mənim yolum uzaqdır, buna görə də din əhkamını sizdən soruşa bilmirəm. Mən nə edim?»

İmam (ə) cavabında buyurdu:

«Din və dünya işlərində mənim əminim olan Zəkəriyya İbni Adəmlə məsləhət et».

Hicrətin 218-ci ilində Məmun öldü. Ondan sonra qardaşı Mötəsim xəlifə oldu. O, İmam Təqini (ə) öz nəzarəti altında saxlamaq məqsədi ilə Hicrətin 220-ci ilində Mədinədən Bağ-dada gətizdirir.

Qəlbində İmama(ə) qarşı düşmənçilik kin-küdurəti bəs-ləyən Mötəsim İmamın (ə) fəaliyyətindən narahat olaraq onu öldürmək fikrinə düşür. Nəhayət , o,öz çirkin məqsədini həya-ta keçirtdi. İmam Təqi (ə) şəhid olarkən ömrünndən cəmi 25 il keçmişdi.

Onun məzarı İraqda ***“Kazimeyn”*** şəhərində babasının yanında böyük ziyarətgahdır.

***Yetmədi kamə, cavan oldu şəhid,***
***Dili-büryani-şəhadət Təqidir.***

***Gər kəbab etdisə də qəlbini zəhr,***
***Dərdi-bidadə şəfaət Təqidir.***

***Vardı çox ümmüdi Soltanın ona,***
***Səbəbi-rahi səadət Təqidir.***

# İMAM CAVADIN (Ə) BUYURDUĞU HƏDİSLƏR

***1.Möminin üç şeyə ehtiyacı vardır:***
1. Allahın yardımına.
2. Öz batinindən gələn öyüdə.
3. Nəsihət edənin nəsihətini qəbul etməyə.

***2-Üç şey Allahın razılığını ələ gətirməyə səbəb olar:***
1. Çox istiğfar eləmək.
2. Yaxşı (mülayim) davranış.
3. Çoxlu sədəqə vermək.

***3. Üç şey var ki, hər adamda olsa, peşman olmaz:***
1. Tələsməmək.
2. Məsləhət almaq.
3. Qərara gələndə Allaha Təvəkkül etmək.

4.İnsanın kamalı ağlındadır.

5. Hər kim Allaha təvəkkül etsə, Allah onu pislikdən qurtarar.

6. Şükür olunmayan nemət bağışlanmayan günah kimidir.
7. Ən üstün ibadət ixlasdır.
8. Möminin sərlövhəsinin adı xoş əxlaqdır.
9. Ən böyük eyib özündə olan eyibi başqalarında axtarmaqdır.
10. hər kəs ***"Qədr"*** gecəsi ibadət edərək oyaq qalsa, günahları bağışlanar. Günahları ulduzlar, dağlar ağırlığında olsa da.

Bir kişi İmama(ə) dedi:

– Mənə nəsihət et.

İmam (ə) buyurdu:

– Ona əməl edəcəksənmi?

Dedi:

– Bəli.

İmam (ə) buyurdu:

- Səbri özünə balış bil, kasıblığı ağuşuna al, şəhvətləri boşla və nəfslə müxalif ol. Bil ki, sən Allahın hüzurundasan. Ona görə də əməllərinə nəzər yetir ki, nə iş gördüyünü biləsən.

*****

# İMAM MUHƏMMƏD TƏQİNİN (Ə) HƏYAT VƏ FƏALİYYƏTİ BARƏDƏ SUAL VƏ CAVABLAR

**Sual - 1.**

İmam Məhəmməd Təqi (ə) nə vaxt və harada anadan olubdur?

**Cavab:**

Hicrinin 195-ci ilinin Rəcəb ayının 10-u, Mədinə şəhərin-də

**Sual - 2.**

İmam Məhəmməd Təqinin (ə ) ata və anasının adı nədir?

**Cavab:** O Həzrətin (ə) atası İmam Rza (ə ) və anası Xeyzəran (ə).

**Sual - 3.**

İmam Məhəmməd Təqinin (ə) yaşadığı dövrünü neçə hissəyə bölmək olar?

**Cavab:**

İmam Məhəmməd Təqinin (ə) yaşadığı dövrü iki hissəyə bölmək olar:

1. İmamətdən qabaqkı dövr.
2. İmamət dövrü.

**Sual - 4.**

İmam Məhəmməd Təqi (ə) neçə yaşında İmamətə çatdı?

**Cavab:**

Yeddi yaşında.

**Sual - 5.**

Ən cavan yaşlarında şəhid olan İmam(ə) kimdir və neçə yaşında şəhid olubdur?

**Cavab:**

İmam Məhəmməd Təqi (ə) 25 yaşında şəhid oldu və o imamların arasında ən cavan şəhid olan İmamdır(ə).

**Sual - 6.**

İmam Məhəmməd Təqinin (ə) İmamət dövrü hansı zalım hökümdarlarla bir dövürdə olubdur?

**Cavab:**

İmam Məhəmməd Təqinin (ə) İmamət dövrü iki zülümkar hökümətin hökümdarının dövrü ilə yanaşıdır: ***"Həmin zülmkar hakimlər Abbasilərin yeddi və səkkizinci xəlifələri Məmun və Mötəsəmdir".***

**Sual - 7.**

İmam Əliyyən Nəqinin (ə ) və İmam Məhəmməd Təqinin (ə) dövründə yaşayan ən böyük fəqih və təqvalı alimlərdən biri o iki Həzrətin (ə) tərəfindən ***"Əhvaz"*** şəhərində xalqın işlərini həll etmək üçün nümayəndə idi. Həmin şəxsin adı nədir?

**Cavab:**

Əli ibni Məhziyar.

**Sual - 8.**

Imam Məhəmməd Təqi (ə) zəlzələnin olmaması üçün Əli ibni Məhziyara hansı göstərişi verdi?

**Cavab:**

İmam Məhəmməd Təqi (ə) Əli ibni Məhziyarın ***"Əhvaz"*** şəhərində çoxlu zəlzələnin olması xüsusunda verdiyi sualın cavabında buyurdu: "Çərşənbə, cümə axşamı və cümə günlərini oruc tutun, paltarlarınızı yuyun və cümə günü evdən çıxıb bir yerə toplaşaraq dua edin, Allah-Təala bu bəlanı sizin başınızın üstündən götürər." Əli ibni Məhziyar deyir:

İmam Məhəmməd Təqinin (ə) göstərişinə əməl etdik və ondan sonra daha zəlzələ baş vermədi.

**Sual - 9.**

İmam Məhəmməd Təqi (ə), xəstələnmiş və ölümdən qor-xan şagirdi üçün hansı məsəli vurdu?

**Cavab:**

Həzrət(ə) buyurdu:

“Ey Allahın bəndəsi! Sənin ölümdən qorxman ona görədir ki, ölümün nə olduğunu bilmirsən. Sənin üçün bir misal vuru-ram: "Əgər sənin bədənin çirk və kəsafətə bulaşsa, bədən dəri-sinin üstündə yaraların peyda olmağına səbəb olar və sən na-rahat olarsan. Bilməlisən ki, əgər hamama gedib öz bədənini yumaqla bu bulaşıqların, çirklərin və yaraların aradan gedər. İndi hamama getmək istəyirsən, ya yox?"

Həmin xəstə ərz etdi: "Əlbəttə, belə olan surətdə hər nə qədər tez olsa, hamama getmək və özümü bütün çirklərdən tə-mizləmək istəyirəm".

İmam Məhəmməd Təqi (ə) buyurdu:

"Ölüm mömün üçün hamam kimidir və o günahların çir-kinliklərini pak etmək, yumaq mərhələsi və axırıncı mənzilidir. Əgər ölümə doğru hərəkət etsən, həqiqətdə bütün qəm-qüssə-lərdən, əzab-əziyyətlərdən azad olub, şadlığa tərəf getmiş olar-san. Buna görə də heç qəm yemə".

İmam Məhəmməd Təqinin (ə) bəyanatı və mehriban söz-ləri həmin xəstənin ruhunu təzələyib, onun qəlbini və əsəblərini sakitləşdirərək, qəmini şadlığa çevirdi.

**Sual - 10.**

İmam Məhəmməd Təqi (ə) neçə yaşında və kimin göstəri-şi ilə zəhərləndi? O Həzrəti (ə) zəhərləyən kim idi?

**Cavab:**

İmam Məhəmməd Təqi (ə)25 yaşında Mütəsəmi Abbasi-nin göstərişi ilə Ümmül-Fəzlin vasitəsi ilə zəhərləndi. Ümmül-Fəzl o Həzrətin(ə) əyalı və Məmunun qızı idi. Beləliklə İmam Məhəmməd Təqi (ə) Ümmül-Fəzlin verdiyi zəhərlə şəhid oldu.

**Sual - 11.**

İmam Məhəmməd Təqi(ə) nə vaxt və harada şəhid oldu?

**Cavab:**

Hicrinin 220-ci ilinin Zilqədə ayının axırı, Bağdad şəhə-rində.

**Sual - 12.**

İmam Məhəmməd Təqinin (ə) əyalı Ümmül-Fəzl nə üçün o Həzrətə (ə) qarşı kin saxlayıb və nəhayət o Həzrəti (ə) şəhid edibdir?

**Cavab:**

Çünki İmam Məhəmməd Təqi (ə) əyalı Ümmül-Fəzlin uşağı olmurdu. İmam Məhəmməd-Təqinin (ə) Səmanə adlı bir kənizlə (10-cu imamın anası) evləndi. Həmin kənizdən bir neçə uşaq oldu. Ümmül-Fəzl buna görə ürəyində İmam Mə-həmməd-Təqiyə (ə) kin saxladı.

**Sual - 13.**

İmam Məhəmməd Təqinin (ə) qatili kim idi və nəyin vasi-təsi ilə o Həzrəti(ə) şəhid etdi?

**Cavab:**

O Həzrətin (ə) qatili Ümmül-Fəzldir. Ümul-Fəzl İmam Məhəmməd-Təqinin (ə) əyalı və Məmunun qızı idi. O zəhərli üzümün vasitəsi ilə Həzrəti (ə) zəhərlədi.

**Sual - 14.**

İmam Məhəmməd-Təqinin (ə) qatili necə dünyadan getdi?

**Cavab:**

İmam Məhəmməd-Təqi (ə) şəhadət yatağına düşəndən sonra Ümmül-Fəzl peşman olub ağlamağa başladı.İmam Məhəmməd-Təqi (ə) buyurdu:

***“Nə üçün ağlayırsan? And olsun Allaha, tezliklə elə bir yoxsulluğa və qəm-qüssəyə giriftar olacaqsan ki,onun nicatı-dərmanı olmayacaq.”***

Çox çəkmədi Ümmül-Fəzl xəstələndi. O bütün var döv-lətini dərmana xərclədi. Amma sağalmadı. Mal dövləti əlindən çıxdı. Elə bir vəziyyətə düşdü ki, dilənçilik edib camaatın yolu üstündə oturaraq dilənçiliyə başladı və elə həmin vəziyyətlə də dünyadan getdi.

# ON IKINCI MƏSUM

## İMAMƏT SƏMASININ ONUNCU ULDUZU İMAM ƏLIYYƏN NƏQİ (Ə)

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Ya Əliyyün Nəqi! Eylə himayət,***
***Mənimçün Əlidən istə şəfaət.***

Adı: Əli
Ləqəbi: Hadi və Nəqi
Kunyəsi: Əbül-həsən
Atası: Həzrət Muhəmməd Təqi (ə)
Təvəllüdü: Hicri 214-cü il
İmamlıq müddəti: 34 il
Ömrü: 40 il
Şəhadəti: 254-cü Hicri-qəməri ili
Məzarı: İraq, Samirra şəhəri.

Həzrət Hadi (ə) ***“Zöhd və Təqva”*** baxımından misilsiz idi. Mütəvəkkilin məmurları onun evinə basqın etdikdə onu sadə bir otaqda ibadət halında görmüşdülər. O, Quranı çox sevər, xalqın işini sahmana saldıqdan sonra həmişə Quran oxuyardı. Camaatla xoş və gülərüzlə rəftar edər, ahəstə addımlarla yeri-yərdi. Yoxsulların vəziyyəti ilə maraqlanar və bəzən otuz min dinara qədər pulu dar gündə olan yoxsullara bağışlayardı. Be-lə ki, bir gün Mütəvəkkil tərəfindən Həzrətə (ə) göndərilən 30 min dinarın hamısını yoxsul bir ərəbə bağışladı.

Mütəvəkkilin anası İmam Hadinin (ə) ***"zöhd və imanına"*** heyran olmuşdu. Bir gün ayağı yaralanmış Mütəvəkkili hə-kimlər sağalda bilmədikdə anası Fəth ibn Xaqanı o Həzrə-tin(ə) evinə göndərdi ki, İmamdan (ə) dərman alıb gətirsin. Həzrətin (ə) göndərdiyi dərman Mütəvəkkili sağaltdı.

Bütün həkimlər bu işə mat qalmışdılar. Anasının təşəkkür üçün göndərdiyi min dinarın hamısını Həzrət(ə) yoxsullar arasında payladı.

Bir gün rəssam Yunus qorxa-qorxa İmamın(ə) hüzuruna gəlib belə dedi:

"Ey Peyğəmbərin(ə) övladı! Mən öldürülmək ərəfəsindəyəm. Siz ailəmə baxarsız?".

Həzrət (ə) əhvalatı soruşduqda o, belə izah etdi: "Abbasilərin adamlarından biri mənə bir daş-qaş verib ki, rəsm çəkim. Lakin üstündə işləyərkən yarı bölündü. Sabah onu geri almaq üçün gələcəklər, əgər əhvalatı bilsələr, məni öldürəcəklər".

İmam (ə) başını aşağı salıb dedi:

«Sənin haqqında dua etdim. Arxayın ola bilərsən ki, onlar daha sənə heç bir ziyan yetirməyəcəklər. Əksinə bu iş sənin xeyrinə qurtaracaq».

Sabahısı gün həmin kişi gəlib ona dedi:

«Ey Yunus! Qaş-daşın üstünə bir rəsm çəkəcəkdin. Lakin iki qızım dalaşırlar. Əgər mümkündürsə, onu iki böl və hər birinin üstündə ayrı-ayrı naxış sal. Bu iş üçün sənə ayrıca bir mükafat da verəcəyəm».

Yunus «İcazə verin bu barədə fikirləşim» - deyə oradan çıxdı və sevincək İmamın (ə) hüzuruna gələrək ona təşəkkür etdi.

Mütəvəkkil israf etməkdə, eləcə də xalqın sərvətini boş yerə xərcləməkdə şöhrət qazanmışdı. Hətta günü bu gün də Sa-mirra şəhərində mövcud olan qüllənin ucaldılmasına bir mil-yon yeddi yüz min qızıl dinar pul xərcləmişdi. Lakin bütün bunlara baxmayaraq, Peyğəmbərin (s) övladını elə ağır vəziy-yətə salmışdı ki, qızları Mədinədə ip əyirməklə güzəranlarını təmin edirdilər. Hətta iş o yerə çatmışdı ki, əyinlərinə geymək üçün bir dənə təzə paltarları belə yox idi. Mütəvəkkil Əli (ə) övladları ilə sərt davranır, eləcə də onlara Əli (ə) xanədanını ələ salıb təhqir etmək üçün külli miqdarda pul verirdi. Həmişə yanında bir təlxək də var idi ki, iyrənc rəftarları ilə Əlini (ə) lağa qoyub Mütəvəkkili güldürürdü.

Mütəvəkkilin Əli (ə) övladlarına qarşı etdiyi hörmətsizlik hətta o dərəcəyə çatmışdı ki, bir gün öz məktublarının birində Mədinə valisinə belə yazdı:

"Hər kim Əli (ə) xanədanına yardım etsə, yaxud onlarla oturub-dursa, onu ağır şəkildə cəzalandır!"

Mütəvəkkil 243-cü Hicri-qəməri ilində İmam Hadini (ə) Mədinədən Samirraya sürgün etdi və o Həzrəti oğlu İmam Həsən Əskəri (ə) ilə birlikdə ömürlərinin sonuna qədər hərbi bazanın yanında nəzarət altında saxladı.

Həzrət Hadinin (ə) elmi nübuvvət məktəbindən qaynaqlandığı üçün elm nuru mübarək ürəyinə saçılaraq onu yaradılış sirrindən xəbərdar edirdi. Onun elmi haqqında bir neçə örnəyi burada qeyd edirik:

Bir gün Rum padşahı Abbasi xəlifələrindən birinə belə bir məktub yazdı:

**"İncil"** də oxuduğumuza görə səmavi bir surə vardır ki, hər kəs onu oxuyub əməl etsə, Allah onu cəhənnəmə atmayacaqdır. Bizə həmin surənin hansı olduğunu yazın.

Abbasi xəlifəsi bütün alimləri topladı, lakin heç biri cavab verə bilmədi. Xəlifə İmam Hadini (ə) da dəvət edərək həmin məsələni soruşdu. İmam (ə) belə buyurdu. "O, hər bir müsəlmanın gecə -gündüz neçə dəfə namaz üstə oxuduğu "Həmd" surəsidir". Həzrət (ə) daha sonra bir sıra əlavə izahat da verərək bütün alimləri heyrətdə qoydu. Imamın (ə) verdiyi cavabı Rum padşahına göndərdilər. O da məktubu oxuyaraq sevindi və Müsəlmanlığı qəbul etdi.

# İMAM ƏLIYYƏN-NƏQININ (Ə) BUYURDUĞU HƏDISLƏR

1.Dünya bir bazardır ki, bəzi adamlar ondan mənfəət götürər, bəziləri də ziyan çəkər.

2.Hər kim Allahdan qorxub çəkinsə, ondan qorxub çəkinərlər. Hər kəs Allaha itaət etsə, ona itaət edərlər.

3.Allah-Təalanın yer üzərində elə müqəddəs yerləri var ki, İnsanların o yerlərdə Allaha dua etmələrini Allah özü sevər və o yerlərdə edilən duaları Allah qəbul edər. İmam Hüseynin (ə) türbəsidə o yerlərdədir.

4.Həsəd (paxıllıq) yaxşı əməlləri məhv edər və əzabı həsəd edənə tərəf çəkər.

5.Ata-ananı əziyyətə salmaq qıtlığa səbəb olar və əziyyət edənlər zillətə düşərlər.

6.Tələbə və alim elmin tərəqqisində şərikdirlər.

7.Allah dünyanı imtahan yeri, axirəti isə nəticə evi etmiş-dir və dünyanın imtahanını axirət mükafatının səbəbi hesab etmişdir.

8.Əlinin altında olan bir adama qəzəblənmək bir növ alçaqlıqdır.

9.Şükür edən şükür etdiyi nemətdən çox şükrü ilə sevinməlidir. Çünki nemətlər keçici zövqlərdir. Amma şükr etmək qa-lan nemətdir.

10.İnsan dünyada malı ilə, axirətdə isə əməli ilə tanınar.

11.Pozğun xasiyyətlərə hikmət təsir etməz.

12.Öz düşüncəsini və dostluğunu səndən əsirgəməyən adamın sözündən çıxmamağa çalış.

13.Pis və yararsız danışıqlar ağılsızların ləzzətli sözləri və axmaqların işidir.

14.Özünü bəyənmək insanı elm öyrənməkdən saxlayar, alçaqlıq və nadanlığa səbəb olar.

# İMAM ƏLIYYƏN-NƏQI (Ə) HAQQINDA SUAL-CAVAB

**Sual - 1.**

İmam Əliyyən Nəqi (ə) nə vaxt və harada dünyaya gəldi?

**Cavab:**

Hicrinin 321-cü ilinin Zilhiccə aiının 15-i, Mədinə şəhərində.

**Sual - 2.**

İmam Əliyyən Nəqinin (ə) ata və anasının adı nədir?

**Cavab:**

İmam Əliyyən Nəqinin (ə) atasının adı İmam Məhəm-məd Təqi (ə) və anasının adı Səmanə (ə) idi.

**Sual - 3.**

İmam ƏliyyənNəqinin (ə) yaşayış dövrü neçə hissədən ibarətdir?

**Cavab:**

Üç hissədən ibarətdir:

**1**.İmamətdən qabaqkı dövr.

**2**Mütəvəkkildən qabaqkı xəlifələrin zamanındakı İmaməti dövrü.

**3**.Mütəvəkkilin diktatorluqla hökümət etdiyi 14 il ərzində ən çətin şəraitdə olan imamət dövrü və ondan sonrakı xəlifələ-rin zamanındakı dövrü.

**Sual - 4.**

İmam Əliyyən Nəqinin (ə ) İmamət dövrü neçə il çəkdi?

**Cavab:**

33 il.

**Sual - 5.**

Hansı İmam idi ki, Mütəvəkkilin muzdurları onu Mədinə şəhərindən Samirraya aparanda Mədinə əhalisi bunu eşidib ağlamağa başladılar?

**Cavab:**

İmam Əliyyən Nəqi (ə).

**Sual - 6.**

İmam Əliyyən Nəqi (ə) hansı xüsusiyyətlərə malik idi?

**Cavab:**

İmam Əliyyən Nəqi (ə) orta boy, yanaqları bir qədər çıxıntılı, qarabuğdayı, gözləri iri və qaşları enli idi. İmam Əliy-yən Nəqi (ə) çoxlu ehsan edirdi. Elə bir heybət və şövkətə ma-lik idi ki, zülmkar Abbasi xəlifəsi olan Mütəvəkkilin yanına gedərkən, Mütəvəkkil və onun ətrafında olanlar o Həzrətin(ə) ehtiramını saxlamaq məqsədi ilə dərhal ayağa qalxırdılar. Həzrətin (ə) paltarı kobud parçadan hazırlanmışdı və evinin döşəməsinə həsir sərilmişdi. Hər hansı bir qəmgin insan o Həz-rətə(ə) nəzər edərkən şadlanır və sevinirdi. Həmişə İmam Əliy-yən Nəqinin (ə ) dodaqları təbəssüm edirdi.

**Sual - 7.**

Nə üçün ***"Həmd"*** surəsində yeddi hərf ( c, x, z, s, ş, za, a,) yoxdur?

**Cavab:**

İmam Əliyyən Nəqi (ə) Abbasi xəlifələrindən birinin hə-min yeddi hərif haqqında verdiyi sualın cavabında buyurdu: **"S"** hərfi suburə (həlakətə), "C" hərfi Cəhimə (cəhənnəmin təbəqələrindən birinin adı) "X" hərfi xəbisə (napak), "Z" hər-fi zəqquma (cəhənnəmin meyvəsi), "Ş" hərfi şəqavətə (bədbəx-lik), "ZA" hərfi zülmətə və "A" hərfi afətə[1] işarədir.

Abbası xəlifəsi bu cavabı Rum padşahı üçün yazdı. Qey-sər məktubu alandan sonra çox xoşhal olub İslam dinini qəbul etdi. Rum Qeysəri müsəlman olan halda da dünyadan getdi.

**Sual - 8.**

Parça üzərində çəkilmiş şir şəkili necə həqiqi heyvan surətinə düşüb bir insanı uddu?

**Cavab:**

Çox təkəbbürlü bir şəxs olan Mütəvəkkil İmam Əliyyən Nəqi (ə) öz yaxın adamlarının yanında başıaşağı etmək üçün Hindistandan gətirdiyi bir sehirbazı məclisə dəvət etdi və ona

---

[1] ***Afət - yəni bəla, çətinlik, müsibət və ilahi sınaq "Bəqərə" surəsi ayə 155***

dedi: Əgər İmam Əliyyən Nəqini (ə) pərt etsən min əşrəfi sənə hədiyyə edəcəyəm.

Mütəvəkkil həmin sehirbazın göstərişi ilə müxtəlif yeməklərə malik olan bir süfrəni açdırdı və adlı-sanlı dövlət işçilərin-dən bir dəstəsini, həmçinin İmam Əliyyən Nəqi (ə) dəvət etdi. İmam Əliyyən Nəqinidə (ə) məcbur olub bu mehmanlıqda hazır oldu. Qonaqlar yemək yeməyə məşğul oldular. İmam Əliyyən Nəqinin (ə) qarşısında bir neçə çörək var idi. İmam Əliyyən Nəqi (ə) çörəyi götürmək istəyərkən həmin sehirbaz çörəyi başqa tərəfə hərəkət etdirdi. İmam Əliyyən Nəqi (ə) başqa bir çörəyi götürmək istədi, yenə də həmin çörək başqa tərəfə hərəkət etdi. Bu işin orada təkrar olması orada olanları güldürdü. İmam Əliyyən Nəqi (ə) onların hiyləsindən agah olub mütəkkənin üstündəki parçada çəkilmiş şir şəklinə əlini qoyub buyurdu:

***“Qum fə xuz haza*”** (yəni qalx ayağa və sehirbazı tut). Birdən orada olanlar gördülər ki, həmin şəkil həqiqi şir surətinə düşüb sehirbazın üzərinə hücum çəkərək onu uddu, sonra öz əvvəlki yerinə qayıtdı və şəkil surətinə düşdü. Mütəvəkkil qorxusundan çaşıb qaldı. Məclisdə olanlar da qorxaraq ora-dan qaçdılar. Sonra Mütəvəkkil İmam Əliyyən Nəqinin (ə) ayağına düşərək aciz surətdə o Həzrətdən (ə) istədi ki, həmin sehirbazı geri qaytarsın.

İmam Əliyyən Nəqi (ə ) ona buyurdu:

"Artıq bu iş mümkün deyil. Sən Allahın düşmənlərinin Allahın övliyalarına qalib gəlməsini istəyirsən". Bir daha həmin sehirbaz görünmədi.

**Sual - 9.**

İmam Əliyyən Nəqi (ə ) neçə yaşında və kimin vasitəsi ilə zəhərləndi?

**Cavab:**

41 yaşında Mötəzilin (Abbasilərin 13-cü xəlifəsi) hiyləsi ilə və Mötəməd Abbasının vasitəsi ilə o Həzrətə(ə) zəhər verib o Həzrəti(ə) zəhərlədilər.

**Sual - 10.**

İmam Əliyyən Nəqi (ə ) nə vaxt və harada şəhid oldu?

**Cavab:**
Hicrinin 254-cü ilinin Rəcəb ayının 3-ü, Samirra şəhə-rində.
**Sual - 11.**
İmam Əliyyən Nəqinin (ə ) şərafətli qəbri haradadır?
**Cavab:**
İraqın ***"Samira"*** şəhərində.

# ON ÜÇÜNCÜ MƏSUM

## İMAMƏT SƏMASININ ON BİRİNCİ ULDUZU İMAM HƏZRƏT HƏSƏN ƏSGƏRİ (Ə)

***Bismillahir-Rəhmanir-Rəhim***

***Ya Həsən Əsgəri! Çağırram səni,***
***Əli ləşgərinə qəbul et məni.***

Bu məqalədə İmamət səmasının 11-ci ulduzu İmam Həsən Əsgərinin (ə) mövludu barədə əziz oxuculara söhbət acılacaq. İmam Həsən Əsgəri (ə) kimdir?

Adı: Həsən

Məşhur ləqəbi: Əsgəri

Künyəsi: Əbu Məhəmməd

Atası: İmam Hadi(ə)

Anası: Səlil

Anadan olduğu tarix: 232-ci il, 8 Rəbiəs-sani (yaxud 24 rəbiyəl-əvvəl).

Anadan olduğu yer: Mədinə

Şəhadət tarixi: 260-cı il, Rəbiəl-əvvəlin 8-i, 28 yaşında

Şəhadətə çatdığı yer: XIV Abbasi xəlifəsi Mötəmədin hiyləsi ilə Samirra şəhərində

Müqəddəs məzarı: İraq, Samirra şəhəri

Yaşayış dövrü: O Həzrətin(ə) həyatını 2 hissəyə bölürlər:

- İmamlıqdan əvvəlki dövr – 22 il (232-254-cü illər)
- İmamlıq dövrü – 6 il (254-260-cı illər)

İmam Həsən Əsgəri (ə) öz dövründəki zalım hökumətlərin zülmü altında ömrü boyu zindanda qalmışdır, nəhayət zəhərlənərək şəhadətə çatmışdır.

Allah Rəsulunun (s) bizim aramızda əmanət kimi qoyub getdiyi iki əmanətdən biri olan Qurani-Kərim biz müsəlmanlar üçün həyat proqramı, həyat mənbəyidir. Digəri olan Əhli-beyt(ə)

isə bizi Quranın əmrlər istiqamətində hidayət edən pak İmamlarımızdır(ə).

***Vəqti rehlətdə mükərrər tapşırıb Xətmi-Rəsul,***
***İki zad məndən əmanətdir sizə eylin qəbul,***
***Ey camaat! Biri Qurandır, biri Ali-Rəsul,***
***Saxlayın , siz onlara hörmət Peyğəmbərdən sora.***[1]

İmamların(ə) tərcümeyi-halını öyrənmək zəruridir. Xüsusən bu zamanda müxtəlif hiylərlərlə öz mədəniyyətindən, yüksək mənəvi dəyərlərindən uzaqlaşdırılmağa çalışan yeni nəslin tərbiyəsi üçün hər bir İmamın(ə) həyatını, keçdiyi həyat tərzini öyrənib, bilmək vacib məsələlərdən biridir. Əgər insanın əqidəsi düz deyilsə, deməli əməlləri də dəyərsizdir. İslam dini-nin maarifi də 3 prinsip əsasında qurulub:

1.**Əqidə –** yəni, ***Üsuliddin***. Bu da 5 əsasdan ibarətdir ki, 4-cüsü imamətdir.

2. **Əməl –** yəni, ***Firiuddin***. 10 əsasdan ibarətdir.

3. **Əxlaq.**

Bu məqaləmizdə əsas məqsəd İmamət səmasının 11-ci ul-duzu İmam Həsən Əsgərinin (ə) mübarək mövludu münasi-bətiylə Əhli-beyt (ə) tərəfdarlarına və doğru yola hidayət olun-maq istəyən bütün insanlara İmamın (ə) həyat və fəaliyyəti haqqında qısa da olsa dolğun və düzgün məlumat verməkdir. İxlas və səmimiyyətlə xidmət bəndədən, uğur və müvəffəqiyyət isə bəndəni xəlq edən Uca Tanrıdan. Mütəal-Allah hamımızı Əhli-Beyt (ə) yolunun davamçıldarından eləsin.

İmamət səmasının 11-ci parlaq ulduzu Mədinə şəhərində dünyaya göz açıb. O, 22 yaşında ikən atası şəhid oldu və Həz-rət(ə) İmamlığa yetişdi. 6 ildən sonra isə 28 yaşında özü də şəhid olaraq Samirra şəhərində dəfn edilmişdir. Yeganə övladı zühuru vəd olunmuş Həzrət İmam Mehdidir (əc.f) ki, dünyanı ədalətlə dolduracaq. İnşaallah!

---

[1] ***Haci Əbulhəsən Raci***

İmam Həsən Əsgəri (ə) öz zamanında Qurani-Kərimin misilsiz müfəssiri sayılırdı. Yüz nəfərdən çox məşhur alim o Həzrətin (ə) məclisində iştirak edirdi. İraqda qaldığı 16 il müddətində Şamdan Mədinəyə qədər olan ərazi İmamın (ə) nüfuz dairəsində idi. İmamın (ə) elmi və mənəvi nüfuzu o qədər bö-yük idi ki, Abbasi xəlifəsi Əlmötəzil sarayında çalışan alimlər heyran qalmışdılar.

İmam Həsən Əsgəri (ə) İrana səfər edərkən Qum və Rey şəhərlərindən keçərəkLəvasana gəldi. Əhli-beyt (ə) tərəfdar-ları Onu sevinclə qarşıladılar. Camaatla görüşüb, bir məscid tikərək onu öz mərkəzlərinə çevirmələrini tapşırdı. Bu iş xalqın həyatında təsiredici və mühüm rol oynadı. Deyilənlərə görə, İmamın (ə) bu əmrinə tabe olan insanlar bir gündə 70 məscid tikməyə başlamışdılar. Əhli-beytin(ə) düşmənlərindən olan və Abbasi hökumətində xidmət edən Əhməd ibn Xaqan adlı bir şəxs demişdir: ***"Mən Samirrada Bəni-Haşim xanədanında nə-ciblik, böyüklük və fəzilət baxımından İmam Həsən Əsgəri-dən(ə) başqasını görməmişəm. Əgər xəlifəlik Abbasilərin əlin-dən çıxsa, İmam Həsən Əsgəridən (ə) başqası xəlifə olmağa la-yiq deyildir".***

Həmən şəxs sözünə davam edərək demişdir:

***"Bir gün atamın yanında idim. Onun Peyğəmbər (s) xanədanının düşmənlərindən olmasına baxmayaraq, həmişə Həsən Əsgəri(ə) yanına gəldikdə yerindən qalxıb əlindən öpər, öz yerini ona verər və İmamı (ə) müəllimin qarşısında duran bir şagird kimi dinləyərdi".***

***Sən qareyi-Quransan, həm sahibİ-təfsir,***
***Fəzlinlə olur çarəsizin dərdinə tədbir.***

Əbu Yusif İmam Həsən Əsgərinin (ə) səxavət və əliaçıqlığı barədə deyirdi:

«Mən çətin bir vəziyyətdə idim, belə ki, uşaqlarıma çörək pulu qazana bilmirdim. Hamımız ac və narahat idik. Dəfələrlə Abbasilərin sarayına getmişdim ki, orada olan qohumlarım-dan

köməklik alım. Lakin onlar o qədər məğrur idilər ki, sözü-mə qulaq asmırdılar. Bir gün İmam Həsən Əsgərinin (ə) hüzu-runa gedib vəziyyətimi danışdım. İmam (ə) 400 dinardan iba-rət pulun hamısını mənə verib buyurdu:

"Get,ailəni ağır vəziyyətdən qurtar".

Bir dəfə İmam (ə) 200 min dinarı Əli ibn Cəfərə göndərdi ki, onu yoxsul və möhtac əshabları arasında paylasın.

6 il davam edən İmamlıq müddətinin 3 ilini zindanda keçirməsinə, qarşılaşdığı çətinliklər və narahatçılııqlara bax-mayaraq, o Həzrət(ə)  həmişə xalqla yaxşı rəftar edərdi. Ən qəddar məmurları zindana keşikçi təyin etmişdilər ki, İma-ma(ə) əzab-əziyyət versinlər. Ancaq məmurlar İmamın(ə) zöhd və ibadətinə heyran qalıb onunla yaxşı rəftar edirdilər. Bir gün zindan müdiri belə rəftara etiraz edir və məmurlar deyirlər:

"O bir insandır, həmişə Allahına ibadət və dua ilə məşğul olan bir insan. Gündüzlər oruc tutur, gecələr də ibadət edir. Bizə nəzər saldıqda isə bədənimiz titrəyir. Bizdən belə şəxsiy-yətə əziyyət verməyi necə tələb edirsiniz?".

Mütəvəkkilin vəziri Abdullah Xaqan çox qürurlu və etina-sız bir adam olmasına baxmayaraq, İmamı(ə) görəndə yerindən qalxar və əgər ata minmiş olsa, düşərdi. Abdullah Xaqan İmam (ə) haqqında deyib:

«Həsən Əsgəri(ə) gecələr dua və ibadətlə məşğul olan, gündüzlər isə oruc tutan bir kişi idi. Ürəyi o qədər pak idi ki, hətta düşmənlərini dua etməyi belə unutmazdı. Yoxsul bir adamla qarşılaşanda bütün pulunu ona verərdi».

Samirada bir ***monastr*** var idi ki, başçısı xristianların böyüklərindən heçab olunurdu. O çox hörmətli bir adam idi. Həmin xristian bir gün İmamın (ə) hüzuruna gələrək müsəl-man oldu. Səbəbini soruşduqda dedi: ***"Mən bu kişidə yalnız Həzrət İsada (ə) mövcud olan nişanələri görmüşəm".***

İmam Həsən Əsgərinin (ə) zəkası dalğalı bir dənizə bənzəyirdi ki, elm təşnələri öz susuzluqlarını burada doyururdular. Xarəzminin dediyinə görə, elm aşiqlərindən 18000 nəfər İmamın(ə) məclislərindən istifadə edirdilər. Abbasi

xəlifəsinin nümayəndəsi Məhəmməd ibn Məsud Şirazi İmama(ə) beyət edən ilk saray alimi olub. Qaynaqlarda yazıldığına görə, Əbunəsr Fərabinin ustadı olan Kendi İmamla (ə) mübahisə edə bilməyib İslamın ziddinə yazdığı kitabını yandırmışdı. Xristian alimləri İmamın (ə) elminə, eləcə də dərin düşüncə və biliyinə o dərəcədə heyran olmuşdular ki, onu Məsih adlandırırdılar. İmam(ə) ayrı-ayrı ölkələrdən gələn və ona sual vermək istəyən şəxslərlə onların öz dili ilə danışdığı zaman hamını heyrət bürüyürdü:

***Elm içrə ola hər nə sual, vardı cavabı,***
***Gör sən biləsən izzətilə layiqi təqdir.***

***Ya Əsgəri! Sən bəxş elədin Mehdiyə elmi,***
***Hər sirri o bu qüdrət ilə eylədi təqrir.***

***Zayirdi sənin elminə Soltan gecə-gündüz,***
***Hər an eləyir vəsfini aləmlərə təzkir.***

İmam Həsən Əsgərinin (ə) dövründə Məsihilərin və onların böyük ruhanilərindən olan Casiliqin dualarından sonra yağış yağırdı, lakin müsəlmanların duasından sonra yağışın yağmaması həm müsəlmanları, həm də Abbasi xəlifəsi Mütəvəkkilin narahatçılığına səbəb oldu. Bəziləri hətta İslamın haqq din olmasına şəkk edirdilər. İmam (ə) həmin vaxt zindanda idi. Abbasi xəlifəsi İmamı (ə) zindandan çıxartdıraraq dedi: «Ey Əbu Məhəmməd, cəddinin dinini qoru».

Məsihilər 6-cı gün Casiliq ilə birlikdə biyabana getdilər. İmam Həsən Əsgəri (ə) öz qulamlarından birinə buyurdu:

"Sən də məsihilərin cəmiyyəti arasında ol. Casiliq dua et-mək üçün əllərini göyə qaldıranda onun yanında dur və sağ əli-nin iki barmağı arasındakı sümüyü götür və özünlə gətir".

Həmin qulam məsihilərin arasında getdi. Casiliq dua etmək məqsədiylə əllərinə göyə qaldıranda dərhal iki barmağı arasındakı sümüyü götürdü və İmamın (ə) hüzuruna qayıtdı. Həmin gün

məsihilər nə qədər dua etsələr də, yağış yağmadı. Mütəvəkkil İmam Həsən Əsgəridən (ə) soruşdu:

***"Bu sümük nədir və hadisənin sirri nədən ibarətdir?"***

İmam Həsən Əsgəri (ə) buyurdu:

***"Bu sümük bir peyğəmbərin qəbrindən götürülüb. Hər vaxt hər hansı bir peyğəmbərin bədənindən sümük aşkar olsa, yağış yağar".***

***Göydən yerə bir damla yağış yağmasa hərgah,***
***Rəhmət yağışın cari edər ayeyi-təkbir.***

Beləliklə də həmin gün İslam dininə mənsub olan insanlar məsihilərin yanında izzət tapdılar.

# İMAM HƏSƏN ƏSGƏRININ (Ə) TƏRBIYƏ ÜSULU

*Təriqətlə -Mərifətə qulaq ver,*
*Şəriətdə yol-ərkani biləsən.*
*Həqiqətdə nədən xəlq eylədi Həqq,*
*Ərşi-kürsi, ol asmanı biləsən.*

*Aşıq Ələsgər*

***Bismillahir-Rəhmanir-Rəhim!***

İmam Sadiqin (ə) nəslindən olan Əbulhəsən Qum şəhərin-də yaşayırdı və çirkin əməllər sahibi kimi tanınırdı. Bir gün Əbulhəsən İmam Həsən Əsgərinin (ə) Qum şəhərində olan nümayəndəsi Əhməd ibn İshaq Əşərinin evinə gəldi və içəri girməyə icazə istədi. Lakin İmamın (ə) nümayəndəsi onu gör-düyü pis işlərə görə evə buraxmadı. Əbulhəsən kor-peşman ge-ri qayıtdı və ona qarşı edilən bu hörmətsizliyə görə çox nara-hat oldu.

Həmin il Əhməd ibn İshaq Əşəri Məkkəyə getdi. Oradan qayıdarkən İmam Həsən Əsgərinin (ə) yanına gəldi, amma İmam Əşəri(ə) onu qəbul etmədi. Çox yalvar-yaxardan sonra İmamın (ə) hüzuruna gəlib səbəbini soruşdu. İmam (ə) buyur-du:

«Səninlə mən, sən bizim əmioğlumuzla etdiyin kimi rəftar etdim».

Əşəri dedi:

"Ey Peyğəmbər övladı, mən onu tərbiyələndirmək və gör-düyü pis işlərdən uzaqlaşhdırmaq üçün bu işi gördüm".

İmam(ə) buyurdu:

"Sənin gördüyün iş doğru deyildi. İslamda yolunu azmış insanla belə rəftar etməzlər, əksinə onları hidayət edib, doğru yol göstərərlər".

Əşəri Quma qayıtdı. Bu münasibətlə hamı onun görüşünə gəlmişdi. Onların arasında Əbulhəsən də var idi. Əşəri onu görən

kimi yerindən qalxıb hörmət etdi və yerini ona verdi. Əbulhəsən bu işdən heyrətlənib dedi:

"bu işin keçmişdəki rəftarınla fərqlidir. Məni əhvalatdan xəbərdar et."

Əşəri əhvalatı olduğu kimi danışdı. əbulhəsən o qədər utanmışdı ki, evə qayıtdıqdan sonra pis işləri buraxıb, təqvalı olmaq qərarına gəldi və ondan sonra zahid və pak insanlardan biri oldu.

## İMAM HƏSƏN ƏSGƏRİNİN (Ə) HƏDİSLƏRİ

1.İmam (ə) səhabəsi Əbul-Ədyana buyurdu: «Məndən sonra hər kəs bu üç əlamət və nişanəyə malik olsa, mənim canişinim və məndən sonra İmamdır:

- Məktublarımın cavabını səndən istəyən şəxs
- Mənim cənazəmə namaz qılan şəxs
- Kisənin içində olan əşyalardan xəbər verən şəxs»

2. Sadəliklə yaşa və israfdan çəkin

3. Yalandan çəkin, çünki yalan bütün pisliklərin açarıdır

4.Adi adamlar nəfsini qoruyan, dinini hifz edən, həva-həvəsinə müxalif olan, Allahın əmrinə itaət edən fəqihlərə təq-lid etməlidirlər.

***5.Bir zaman gələr ki, insanlar şad və gülərüzlü, amma qa-ra ürəkli olarlar. Peyğəmbərin(s) sünnəsini bidət, bidətləri isə sünnə sayarlar. Mömin onların yanında aşağı, münafiqlər isə hörmətli olarlar. Onların hakimləri cahillər və zalımlar olar. Alimlər isə zalimlərin qapılarında və saraylarında qulluq edərlər.***

6.Mömininin onu xar və zəlil edən bir şeyə meyl etməsi çox pisdir.

7.Mömin mömin üçün bərəkətdir, kafir üçün hüccət.

8.İki xislətdən üstün xislət yoxdur: Allaha iman gətirmək və din qardaşına xeyir vermək.

9.«Qəmli bir kəsin yanında şadlıq etmək ədəbsizlikdir».

10.Ürəklərində kinə saxlayan adamlar narahat adamlar-dır.

11.Sizlər az ömür və qısa dövran keçirirsiniz. Ölüm gözlənilmədən gələr, xeyir toxumu əkənlər şadlıq və mənfəət biçər, pislik toxumu əkənlər isə peşmançılıq biçər. Nə əkərsən, onu da biçərsən.

12.Allahdan qorxub zinət olun, biabırçı yox.

Bu məqaləni Axund Hacı Soltan Hüseynqulu oğlunun İmam Həsən Əsgərinin (ə) "***Mövludu"*** barədə yazdığı bir şeiri ilə tamamlayırıq:

***Şad ol, ey müsəlman, gözlərin aydın,***
***Göz açdı dünyayə İmam Əsgəri.***
***Odur zəmanənin hakimi, şahi,***
***Göz açdı dünyayə İmam Əsgəri.***

***Xuda duaları eylədi qəbul,***
***Əliyyün Nəqiyə verdi bir oğul,***
***Ərşidə şad oldu Zəhrayi-bətul,***
***Göz açdı dünyayə İmam Əsgəri.***

***O tapdı zamanda dərdin əlacın,***
***Durdu qarşısında hər ehtiyacın,***
***Həqqin daşımaqçün imamət tacın,***
***Göz açdı dünyayə İmam Əsgəri.***

***Elmi bu dahiyə bəxş etdi qüdrət,***
***Baxışı bir hikmət, sözü bir hikmət,***
***Mühəmməd adına verməkçün ziynət,***
***Göz açdı dünyayə İmam Əsgəri.***

***Dedim Kərbəladən, söz yaralandı,***
***Qəmi içmək üçün qəlb paralandı,***
***Göy lərzəyə gəldi, yer aralandı,***
***Göz açdı dünyayə İmam Əsgəri.***

***Gözləri səmayə baxır Soltanın,***
***Məhəbbət qəlbini sıxır Soltanın,***
***Sevinc yanağından axır Soltanın,***
***Göz açdı dünyayə İmam Əsgəri.***

*********

# İMAM HƏSƏN ƏSGƏRİNİN (Ə) HƏYAT VƏ FƏALİYYƏTİ BARƏDƏ SUAL VƏ CAVABLAR

**Sual - 1.**

İmam Həsən Əskəri (ə) nə vaxt və harada anadan olub?

**Cavab:**

Hicrinin 232-ci ilinin Rəbiyüs-sani ayının 8-i Mədinə şəhərində.

**Sual - 2.**

İmam Həsən Əskərinin (ə ) ata və anasının adı nədir?

**Cavab:**

İmam Həsən Əskərinin (ə) atasının adı İmam Əliyyən Nəqi (ə) və anasının adı Süheyl (ə).

**Sual - 3.**

İmam Həsən Əskəri (ə) hansı xüsusiyyət və rəftarlara malik idi?

**Cavab:**

On birinci İmamın çöhrəsi qarabuğdayı, boyu orta, qaşla-rı qara kaman, gözləri parlaq və alnı geniş idi. O Həzrətin (ə) dişləri iri və ağ idi. Sağ yanağında bir xalı var idi. Həzrət(ə) şirin və cəzbedici bəyana malik bir şəxsiyyət idi. İmam Həsən Əskəri(ə) misilsiz bir müfəssir (Quran təfsirçisi) idi.

**Sual - 4.**

İmam Həsən Əskərinin (ə) yaşadığı dövrü neçə hissəyə bölmək olar?

**Cavab:**

İki hissəyə:

1.İmamətdən qabaqkı dövr.
2. İmamət dövrü.
**Sual - 5.**
İmam Həsən Əskərinin (ə) İmamət dövrü neçə il çəkdi?
**Cavab:**
6 il, Hicrinin 254-cü ilindən 260-cı ilinə qədər.
**Sual - 6.**
İmam Həsən Əskəri (ə) bir şəxsin " Nə üçün İslamda qadının irsi kişiyə çatan irsin yarısı qədərdir?" -sualının cavabında nə buyurdu?
**Cavab:**
İmam Həsən Əskəri (ə) buyurdu: ***"Çünkü qadın üçün ci-had etmək, öz əyalının gündəlik yemək-içməyini təmin etmək və mehriyə vermək vacib deyil, amma bunların hamısı kişiyə vacibdir. Buna görə də qadının irsi, kişiyə çatan irsdən azdır".***
**Sual - 7.**
Mütəvəkkil Abbası İmam Həsən-Əskərini (ə) hansı bəha-nə ilə Samirra şəhərində zindana saldı?
**Cavab:**
Mütəvəkkil Abbası İmam Həsən Əskərinin (ə) Samirrada olan nüfuzundan ehtiyat etdiyi üçün və İmamın (ə) haqqı müdafiə etdiyini gördüyü üçün onu zindana saldı.
**Sual - 8.**
İmam Həsən Əskərinin (ə) məktublarını lazım olan yerə çatdıran şəxsin adı nə idi?
**Cavab:**
Əbul-Ədyan (r.ə).
**Sual - 9.**
İmam Həsən Əskərinin (ə) dövründə məsihilərin (xristiyanların) və Casiliqin (məsihilərin ən böyük ruhanisinin) duasından sonra nə üçün yağış yağırdı, amma müsəlmanların duasından sonra isə yağmırdı?
**Cavab:**
Məsihilər dua edəndən sonra yağış yağırdı, amma müsəlmanlar dua edəndən sonra yağış yağmırdı. Bu müsəlmanların

başıaşağı olmasına səbəb olmuşdu. Bəziləri İslam dininin haqq din olmasında şəkk edirdi. İmam Həsən Əskəri (ə) həmin vaxt zindanda idi. O Həzrət(ə) Mütəvəkkilin yadına düşdü. Mütəvəkkil əmr etdi ki, İmam Həsən Əskərini (ə) zindandan çıxarsınlar. Mütəvəkkil o Həzrətə (ə) dedi: ***“Ey Əbu Məhəmməd, ceddinin dinini qoru”.***

Məsihilər altıncı gün Casiliq ilə birlikdə biyabana getdilər. İmam Həsən Əskəri (ə) öz qulamlarından birinə buyurdu: ***"Sən də məsihilərin cəmiyyəti arasında ol. Casiliq dua etmək üçün əllərini göyə qaldıranda onun yanında dur və onun sağ əli-nin iki barmağı arasında olan şeyi ondan alıb özünlə gətir".***

Həmin qulam Məsihilərin arasına getdi. Casiliq dua et-mək məqsədi ilə əllərini göyə qaldırdı. İmam Həsən Əskəri-nin(ə) qulamı dərhal onun sağ əlinin iki barmağı arasındakı sümüyü götürdü və cəld İmamın(ə) tərəfinə qayıtdı.Həmin gün Məsihilər nə qədər dua etsələr də, yağış yağmadı. Mütəvəkkil İmam Həsən Əskəridən (ə) soruşdu:

"Bu sümük nədir və hadisənin sirri nədən ibarətdir?"

İmam Həsən Əskəri (ə) buyurdu:

***"Bu sümük bir Peyğəmbərin(ə) qəbirindən götürülübdür. Hər vaxt hər hansı bir Peyğəmbərin (ə) bədənindən sümük aşkar olsa, yağış yağar".***

Beləliklə həmin gün İslam və müsəlmanlar Məsihilərin yanında izzət və xüsusi əzəmət tapdılar.

**Sual - 10 .**

Nə üçün İmam Həsən Əskəri (ə) ciddi surətdə öz dövrünün xəlifələrinin nəzarəti altında idi?

**Cavab:**

Bunun əsas səbəbi bundan ibarət idi ki, həmin zaman Həzrət Mehdinin (ə) İmam Həsənin Əskərinin (ə) sülbündən dünyaya gəlməsi xalq arasında yayılmışdı. Həmin dövrün xəli-fəsi, Fironun Bəni-İsraillə etdiyi rəftarı həyata keçirmək idi. Bu dövrün xəlifəsi elə fikirləşirdi ki, İlahi əmrin qarşısını ala biləcək.

**Sual - 11.**

İmam Həsən Əskəri (ə) İmam Mehdinin (ə) İmamətini təsdiq edən hansı nişanələri tanıtdırırdı?

**Cavab:**

İmam Həsən Əskəri (ə) Əbul-Ədyana buyurdu: ***"Məndən sonra hər kəs üç əlamət və nişanəyə malik olsa, o mənim cani-şi-nim və məndən sonra İmamdır"***

1. Mənim məktublarımı səndən istəyən şəxs.
2. Mənim cənazəmə namaz qılan şəxs.
3. Kisənin içində olan əşyalardan xəbər verən şəxs.

**Sual - 12.**

İmam Həsən Əskəri (ə) neçə yaşında və kimin vasitəsi ilə şəhid oldu?

**Cavab:**

28 yaşında Mötəmədin (Abbasilərin 14-cü xəlifəsi) hiyləsi ilə şəhid oldu.

**Sual - 13.**

İmam Həsən Əskəri (ə) nə vaxt və harada şəhid edildi?

**Cavab:**

Hicrinin 260-cı ilinin Rəbiyul-əvvəl ayının 8-i, Samirra şəhərində.

**Sual - 14.**

İmam Həsən Əskərinin (ə) şərafətli qəbiri haradadır?

**Cavab:**

İraqda olan Samirra şəhərində.

# ON DÖRDÜNCÜ MƏSUM

## İMAMƏT SƏMASININ SOLMAYACAQ GÜNƏŞİ HƏZRƏTİ MEHDİ SAHİBƏ-ZAMAN (əc.f)

## DÜNYA ƏDALƏTİN, ƏDALƏTSƏ O HƏZRƏTİN (əc.f) İNTİZARINDADIR

***Şəriət yolunu Məhəmməd açdı,***
***Təriqət gülünü Şah Əli seçdi.***
***Şu dünyadan neçə yüz min ər köçdü,***
***Onlar ittifaqda, Mehdi yoldadır.***

***Ş.İ.Xətai***

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Peyğəmbər (s) buyurub: "Əfzəlul ibadət, İntizarul-fərəc" – "Ən fəzilətli ibadət, Zəmanə İmamının(əc.f) fərəcidir" -yəni zühurudur.***

***Ya Sahib-əz-Zaman, Mehdiyi-Xuda***
***Ya İmami-zində! Yoluna fəda.***
***Səndən isə budur qəlbin niyyəti,***
***Yetir muradına bəşəriyyəti.***
***Qurulsun dünyada təxti-ədalət,***
***Əlini tanısın bəşər, nəhayət.***
***Ya Əli! Nitqim yox ki, edim xitabi,***
***Hansı söz vəsf etsin sən tək cənabi.***
***Bilmirəm, mənzilim hara olacaq,***
***İstəyim bir səni görməkdi ancaq.***
***Bu dünyada ali tək səni bildim,***
***Səninçün yaşadım, səninçün öldüm.***
***Yenə ömür versə Həqq mənə əgər,***
***Səninçün yaşayıb ölməyə dəyər.***

Sarbon Universitetinin Fəlsəfə fakultəsinin müəllimi Professor Henri Korbon deyir:

“Mənim inamım belədir, şiə yeganə məzhəbdir ki, Allah-Təala ilə insanlar arasında olan vasitəni həmişə qorumuşdur.

Çünki, yəhudilər insanla Allah arasında olan rabitənin davamını Həzrət Musadan (ə) sonra kəsiblər, xristianlarda isə Həzrət İsadan (ə) sonra belə bir rabitənin davamı olmayıbdır. Həmçinin, müsəlmanların içində ***“Əhli-Sünnə”***nin bir qismi Həzrət Məhəmməddən (s) sonra Tanrı ilə bəndə arasında olan rabitəni kəsilmiş hesab edirlər. Bunlardan fərqli olaraq şiə məzhəbi peyğəmbərliyi Həzrət Məhəmməd(s) ilə tamamlanmış bilib, hidayət yolunun təkmilləşməsini ***“Vilayət”*** adı ilə tanı-nan İmamət məhfumuna aid edirlər.”[1]

***Eydi-Əkbərdir cəmalın, eydə can qurban olum,***
***Şəhi-Məhdi dövri gələr, bir əcəb dövran olar.***

***Ey yəqin əhli, yəqin bil ki, olar surqu hesab,***
***Şəhi-Məhdi Xanədanda bir ulu divan olar.***

***Pərdəni üzdən götürər Həzrəit Sahib-Zaman,***
***Kim onun üzünü görsə, yengidən oğlan olar***

Bu şah beytlərin müəllifi şah babamız, Əhli-beyt (ə) aşiqi, Həzrət Əlinin (ə) məslək və əqidə davamçısı Ş.İ.Xətaidir.

İmam Məhdi (ə) Hicri-qəməri 255-ci il Şəban ayının 15-də Samirra şəhərində anadan olmuşdur.

Tarixdən məlum olduğu kimi 3 şəxsin anadan olması gizli şəkildə baş vermişdir.

Onlardan biri Həzrəti İbrahim (ə) idi.

Həzrəti İbrahimin (ə) anası onu gizli şəkildə dünyaya gətirib, həddi-büluğa çatana qədər bir mağarada saxladı.

---

[1] ***Məktəbu Təşəyyu. “Əl-Mizan” təfsirinin müəllifi Həzrət ƏllaməTəbatəbayi Təbrizi ilə Henri Korbonun şiə məzhəbi barəsində olan müsahibəsi.***

***İkincisi,*** Həzrəti Musadır (ə) ki, anası onu dünyaya gətirəndən sonra Fironun zülmündən amanda qalması üçün bir sandığa qoyub dənizə buraxdı.

**Üçüncüsü,** Həzrət Mehdidir (ə).

Əsas səbəbi bundan ibarətdir ki, həmin zaman Həzrət Mehdinin (ə) İmam Həsən Əsgərinin (ə) sülbündən dünyaya gəlməsi xalq arasında yayılmışdı. O dövrün xəlifəsi Fironun Bəni-İsrailə etdiyi rəftarı həyata keçirmək istədi. Elə fikirləşdi ki, bu işi həyata keçirməklə İlahi əmrin qarşısını ala biləcək.

Əhli-beyt (ə) aşiqi Dahi Almaslı demiş:

***Haqq gələr, batil gedər, hökmü-Xudadır, dönmərəm,***
***Mən hidayət nuruyam, tufani-şərdən sönmərəm.***

İlahi-günəşin nurunu heç kəs söndürməyə qadir deyil.

Həzrət Mehdinin (ə) atası İmam Həsən Əsgəri (ə), anası Nərcis Xatundur.

İmam Həsən Əsgəri (ə) İmam Mehdini (ə) təsdiq edən bu üç nişanəni səhabəsi Əbul-Ədyana tanıtdıraraq buyurdu: ***“Məndən sonra hər kəs üç əlamət və nişanəyə malik olsa, o mənim canişinim və məndən sonra imamdır.***

***1.Mənim məktublarımın cavabını səndən istəyən şəxs;***

***2.Mənim cənazəmə namaz qılan şəxs;***

***3.Kisənin içində olan əşyalardan xəbər verən şəxs”***

Atası İmam Həsən Əsgəri (ə) Hicrinin 260-cı ilində 28 yaşında şəhid edildikdən sonra İmamlıq Həzrət Mehdi Sahib əz-Zamana(əc.f) çatdı.

Həzrət Mehdinin (ə) yaşadığı dövrü 4 hissəyə bölmək olar:

1.Uşaqlıq dövrü;

2.Qeybəti-Suğra dövrü;

3.Qeybəti-Kübra dövrü;

4.O Həzrətin (əc.f) parlaq zühuru dövrü və onun bəşəriy-yətə rəhbərlik dövrü.

Həzrət Mehdinin (ə) **«Qeybəti-Suğra»** dövrü məşhur nəzəriyyəyə əsasən 69 il çəkib və 329-cu ildə sona çatıb. Bu 69 il müddətində Həzrət Mehdinin (ə) xüsusi canişinləri olub və onların vasitəsi ilə camaatla əlaqə saxlayıb.

***Bu xüsusi canişinlər 4 nəfər idi:***

***1. Osman İbn Səid – 260-280-cı illər olub (20 il);***

***2.Muhəmməd İbn Osman – 280-305-ci illər olub (25 il);***

***3.Hüseyn İbn Ruhi Nobəxti – 305-326-cı illər (21 il);***

***4.Əli İbn Muhəmmədi Seymuri – 326-329-cu illər olub (3il)***

Sonuncu canişinin ölmünə altı gün qalmış İmam(əc.f) ona məktub yazır və Qeybəti-Kübranın (böyük qeybətin) başlandı-ğını bildirir. Həzrət Mehdi (əc.f) yazır:

***«Bismillahir Rəhmanir Rəhim!***

***Ey Əli İbn Muhəmmədi Seymuri! Allah-Təala qardaşlarına sənin əzanda əcr versin. Çünki sən 6 gündən sonra həyatla vidalaşacaqsan. Bəs öz işlərini sahmana sal və özündən sonra heç bir kimsəni canişin kimi sifariş etmə. Çünki tam qeybət baş veribdir və Allah-Təala izn verməyincə zühur olmayacaq!»***

Beləliklə, **"Qeybəti-kübra"** Hicri-qəməri 329-cu ildən başladı. 13 əsrə yaxındır ki, zəmanənin sahibi qeyb olub. Müsəlmanlar onun intizarındadırlar. O, məzlumların haqqını zalımlardan alacaq, İlahi ədalətlə dünyanı yenidən quracaq.

Bu cür uzun qeybət təkcə səmavi alimlərdən İmama (ə) aid deyil, başqa səmavi alimləri Allah-Təala Qurani-Kərimdə bizə misal gətirir. Həzrəti Saleh (ə) və yaxud Həzrəti Musa (ə) öz qövmlərini sınaqdan çıxarmaq üçün müəyyən müddət ca-maatın gözündən qeyb olub və sonra yenidən qayıdıblar.

Allah-Təala ***«Ənbiya»*** surəsinin 105-ci ayəsində buyurur: ***"Və biz Zəburda Tövratdan sonra yazmışıq ki, mənim saleh bəndələrim bu yeri irs aparacaq".***

***"Qəsəs"*** surəsinin 5-ci ayəsində buyurulur:

***"Biz yer üzündə olan müstəzəflərə minnət qoyub onlara nemət vermək və onları başçı və varis etmək istədik".***

Şah İsmayıl Xətai demişkən:

***Bahadur Qazilər qoydu, başında taci dövlət var,***
***Budur Mehdi-Zaman dövrü, cahan nuri-bəqa gəldi.***

İmam Mehdi (ə) Allah-Təala tərəfindən onun üçün yazıl-mış şərəfli və mühüm olan vəzifəni gözləyir.

Peyğəmbər (s) bu barədə buyurub:

***“Ümmətimin ən fəzilətli əməli Allahın fərəcinə müntəzir ol-maqdır”***

***Ey Sahibi-Əsr, ey Məhi-Təban, Sənə qurban,***
***Gözlər yolunu ümməti Quran, Sənə qurban!***

Alimlərdən biri yazır ki: “Allah-Təala biz insanların hida-yəti üçün 12 ulduz yaratdı. Təəssüf ki, vəzifəpərəst insanlar bu ulduzların qədrini bilməyib, onlardan 11-ni müxtəlif vasitələrlə söndürdülər. Buna görə də Allah-Təala 12-ci ulduzu uzaq-laşdırdı, ta xalq o səviyyəyə çatsın ki, qaytarılmasına layiq ol-sun”.

Əhli-beytin (ə) məqamını bizlərə tanıtdıran şair Fəxrəd-din Cəfakeşin İmam Zaman(əc.f) ağa haqqında yazdığı bir qə-zəli bütöv şəkildə oxucuların diqqətinə yetiririk:

***Rahinə baxsın nə qədri gözlərim, qan ağlasın,***
***Gəl, yetiş küfrün əliylə, qoyma iman ağlasın,***

***«Qist» üçün yazmış kitab, mizan düzəltmiş, küfr əli,***
***Ey ədalət gənci biz heç, qıyma Quran ağlasın.***

***Et mübarək zuhrun ilə, həqqi batildən təmiz,***
***Hər kimin dinində var, qoy cürmü-nöqsan ağlasın.***

***Xaki -payına olum qurban, əgər sən gəlməsən,***
***Dərdi-dinə bəs necə, sənsiz müsəlman ağlasın.***

***Gəl, yetər, qoy müstəzəf silsin gözündən yaşını,***
***Şərqi-qərbin məhvi ilə, çeşmi-şeytan ağlasın.***

***Malı-can ilə sənə, piri-cavani gəl deyir,***
***Görmə hicrinlə rəva, övladi-İran ağlasın.***

***Zülmü-zalimdən Cəfakeş canə gəlmiş «Vəl -əsr»,***
***Səbri etsin "Əhli-həqq" yox taqət ünvan ağlasın.***

İmam Mehdinin (əc.f) qeybdə olduğu dövrdə xalqın təklif və vəzifəsi bu şərtlərdən ibarət olmalıdır:

– O Həzrətin (əc.f) qeybdə olduğu dövrdə qəmgin olmaq – necə ki, "***Nüdbə***" duasında oxuyuruq:

***«Mənim üçün çətindir xalqı görəm, amma səni görməyəm və səndən bir səs və nida eşitməyəm».***

– Yer üzünün ədalətlə dolması və İslam dininin bütün dinlərə qalib gəlməsi üçün hər bir zaman və məkanda o Həzrətin(əc.f) zühurunu gözləmək;

– O Həzrətin (əc.f) mübarək vücudunu bütün insanlardan və cinlərdən ibarət olan şeytanların şərindən qorunması üçün dua etmək, O Həzrətin (əc.f) zühurunun tezliklə olmasını Al-lahdan istəmək, kafirlərə və münafiqlərə qələbə çalmasını istə-mək;

– O Həzrətin (əc.f) mübarək vücudunun qorunması üçün hər vaxt mümkün olan miqdarda sədəqə vermək;

– O Həzrətin (əc.f) əvəzində Həccə getmək;

– O Həzrətin(əc.f) mübarək adını eşidən zaman onun hörmətinə xatir ayağa qalxmaq, xüsusilə mübarək Qaim (əc.f) adı-nı eşitdikdə;

– İmanın və dinin şeytanların şübhələrindən qorunması üçün yazılmış duaları oxumaqla Allahdan yardım diləmək;

– Xəstəliklər, çətinliklər və bəlalar insana üz verən zaman kömək istəmək və hər hansı bir şübhənin dəlili üçün Həzrətə(əc.f) üz tutub yalvarmaq.

Bu sayılan şərtləri biz bir çox alimlərin və klassik şairlərin həyatında müşahidə etmişik. S.Ə.Şirvani yuxarıda sadaladığı-mız

keyfiyyətləri özündə cəmləşdirmiş və öz qəzəllərində səadət intizarında olanlara çatdırmışdır:

***Hanı o mah ilə mən işrət etdiyim gecələr,***
***Tüliyi-sübhə kimi söhbət etdiyim gecələr.***

***Gedəndə yar, durub naz ilə kənarından,***
***Alıb ələ ətəyin minnət etdiyim gecələr.***

***Düşəndə xatirimə göylərə çıxar ahım,***
***O mahparə ilə xəlvət etdiyim gecələr.***

***Ayaq yalın, baş açıq, zəmzəmi-sirişk töküb,***
***Təvafi-kuyi üçün niyyət etdiyim gecələr.***

***Mükərrər eyləyib ol acı sözlərin, Seyyid,***
***Özüm-özümə dönüb ləzzət etdiyim gecələr.***

Ulu ustad, ruhun şad olsun… Sən də bu dünyada ömür sürmüsən, mən də ömür sürürəm. Sən ruhunu böyüdüb elə bir ali məqama çatdın bəzi insanlar isə ömürlərini səmərəsiz işlər-lə başa vurdular. Sən mənəviyyata qiymət verdin, biz maddiyyata. Nə isə…

M.Füzuli bir qəzəlində nə qədər ki, İmam(əc.f) zühur etməyib, dünyanı zülmət gecəyə bənzədir:

***Sübhətək yatmayıram, yoxdur mədarım gecələr,***
***Qəmi-qüssəndir işim, ahu-fəğanım gecələr.***

***Lütf qıl, bir gecə gəl külbeyi-əhzanıma sən,***
***Gör mənim halimi bil, yoxdur mədarım gecələr.***

M.Ə.Sabir də İmamın(əc.f) mübarək zühurunu istəmiş və öz dərdini ona çatdırmağa can atmışdır:

***Zairi-kuyinəm ey məh, qoy öpüm xalından,***
***Həcəri öpməyənə xəlq deməzlər Hacı.***

***Gecə-gündüz, səri-kuyində sızıldar Sabir,***
***Neyləsin, qovma qapından kəsilib illaci.***

Peyğəmbəri-Əkrəm (s) buyurub:

***«Mehdi mənim övladlarımdandır. Onun, millətləri çaşqınlığa salacaq qeybəti olacaqdır. O, Peyğəmbərlərin (ə) mirasların sahibi kimi gəlib Yer üzünü zülm və təcavüzdən azad edəcək və dünyanı ədalətlə dolduracaq».***

Axund Hacı Soltan ağa İmam Zamana (əc.f) yazdığı ***"Mövludnamə"***sində Peyğəmbərin (s) bu hədisinə işarə edərək yazır:

***Bir vəliyyül-əsrdir kim, həqqüdür daimliyi,***
***Çünki bir gün cəngi var həm, həm də ki, alimliyi.***
***Xoş sabahlarçün ümiddir bizlərə qaimliyi,***
***Öylə şad ol ki, bilinsin hansı can mövlududur,***
***Vaqif ol, ey möminan, Sahibzaman mövlududur.***

# MƏSUMLARIN IMAM MEHDI (ƏC.F) HAQQINDA BUYURDUĞU HƏDISLƏR

1) Peyğəmbər (s) buyurub:

***"Əfzəlul-ibadət intizarul-fərəc" – yəni, "Ümmətimin ən fəzilətli əməli Allahın fərəcinə müntəzir olmaqdır".***

***Rəhm qıl tez gələ imdada imami-Mehdi,***
***Tapa şadlıq yolunu ta bu sitəmxana Xuda.***

Məhəmməd ibn Müslüm İmam Baqirdən(ə) rəvayət edir ki, o Həzrət(ə) buyurdu:

***"Vəl-ləyli iza yəğşa" –*** yəni, ***"And olsun hər yeri bürüyən gecəyə***" ayəsindən məqsəd Əlidir (ə). Çünki o Həzrət(ə) batil dövlətin vasitəsilə gizli qaldı və səbr etməli oldu.

***"Vən-nəhari iza təcəlla» –*** yəni, ***"And olsun hər yeri işıqlan-dıran gündüzə"*** ayəsindəki bu işıqlı gündüz biz Əhli-Beytin(ə) Qaimidir ki, o qiyam edərək batil dövlətlərə qələbə çalacaqdır. Bu 2 ayə Qurani-Kərimin ***"Leyl"*** surəsinin 1-ci və 2-ci ayələri-dir.

3)Həzrəti Muhəmməd (s) buyurur:

"Mən Peyğəmbərlərin(ə) böyüyü, İmam Əli (ə) isə canişin-lərin böyüyüdür. Məndən sonra 2 nəfər canişin gələcək ki, on-ların əvvəlincisi İmam Əli (ə), axırıncısı İmam Mehdi-dir(əc.f)".

İmam Mehdi (ə) Allah-Təala tərəfindən onun üçün yazıl-mış şərəfli və mühüm olan vəzifəni gözləyir.

***Ey yəqin əhli, yəqin bil ki, olar surqu hesab,***
***Şahi-Mehdi xanədanda bir ulu divan olar.***

4)İmam Muhəmməd Baqir (ə) buyurub:

"Adəmin ölümündən qiyamət gününə qədər yer üzü İmamsız olmayıb".

5)İmam Cəfəri-Sadiq (ə) buyurur:

«O Həzrətə ***“Mehdi”*** deyirlər, çünki o elə yola dəvət edə-cək ki, əgər o yol olmasa, xalq azacaq. Onu “***Qaim”*** adlandı-rırlar, çünki haqqı dirçəldib ayağa qaldıracaq».

***Mehdinin şəninə gəlibdir ayət,***
***İsminə möminlər verir salavat.***
***Yövmül-ərasətdə etmə xəcalət,***
***Yandırma odlara qul Ələsgəri.***

6)İmam Həsən Əsgəri (ə) buyurub:

«Oğlum Məhəmmədə (ə) məndən sonra İmam və Allahın höccətidir. Kim onu imam ikim tanımayıb ölsə, cahiliyyət dövründə ölmüş kimidir».

İmam Zaman (əc.f) ağa haqqında gözəl söz sərrafların-dan biri də S.Ə.Şirvanidir.S.Ə.Şirvani yaradıcılığı-nın demək olarki ana xəttini İmam Zaman (əc.f) ağaya məhəbbət təşkil edir. Nümunə üçün Seyyidin bir qəzəlindən iki beyti qeyd edirik:

***Ey kaman qaşlı, məni yaraladı qəmzən oxu,***
***Zülfünü bas yarama, qoyma məni qan aparır.***

***Zahid ol zülfüdə rüxsarını gördükdə dedi,***
***«Bu o hindu-beçədir məktəbə Quran aparır».***

Bu bölümü Əhli-Beyt (ə) şairlərindən olan S.İ.Xətainin beytləri ilə yekunlaşdırırıq.

***Məhəmməd Mehdiyi Sahib-Zamanın***
***Eşigində kədayidir Xətai***

## ***Əssəlamu Əleykum və Rəhmətullahi və Bərəkətu***

# İMAM HƏZRƏT MEHDI SAHIBƏZ-ZAMANIN (ƏC.F) MÜBARƏK HƏDISLƏRI:

***Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,***
***Yer üzünün fatehi ədalətdir, ədalət***

***N.Gəncəvi.***

**1**. “Allahın bizə izn verəcəyi gün haqq aşkar, batil isə yox olacaq”.

**2.** “Heç bir şey namaz kimi şeytana zərbə vura bilməz. Namaz qılın və bununla da şeytanı vurun!”

**3.** “Mən Mehdiyəm və zəmanənin İmamıyam. Yer üzü zülmlə dolduqdan sonra onu ədalətlə dolduracağam. Yer üzü heç vaxt Höccətsiz qalmaz! ”

**4**. “Mənim qeybətimdən faydalanmaq, buludlar dalında gözlərdən itən günəşdən bəhrələnmək kimidir”.

**5.** “Çox dua edin ki, zühur günü tez gəlsin, sizin qurtuluşunuz da ondadır”.

**6**. “Bil ki, Allah ilə heç kimin arasında qohumluq yox-dur”.

**7.** “Allah-Təala məxluqatı hikmətsiz yaratmamışdır və onları hədəfsiz və öz başlarına buraxmamışdır”.

**8**. “Biz həmişə sizin yaşayışınıza göz qoyur və sizi unutmuruq”.

**9.** “Biz sizin mallarınızı yalnız sizin pak olmağınız üçün qəbul edirik”.

**10.** “Doğrudan da, Allahın müqəddəratı məğlubiyyətə uğramaz, Allahın iradəsi labüddür. Heç nə Allahın əmrindən irəli deyildir”.

**11.** “Mən Peyğəmbər (ə) canişinlərinin sonuncusuyam. Allah mənə xatir mənim şiələrimi və əhlimi bəlalardan qoru-yar”.

**12.** “ Allah bizə danışmaq icazəsi verəndə Haqq üzə çıxacaq, batil isə məhv olacaqdır”.

**13**. “Sizə xeyri olmayan sualların qapılarını bağlayın”.

**14.** “Baş verən hadisələr barədə bizim hədislərimizi söyləyənlərə müraciət edin. Çünki onlar sizin üçün mənim hüccətimdir və Mən onlar üçün Allahın hüccətiyəm”

*****

# İMAM MEHDİNİN (ƏC.F) TƏVƏLLÜDÜ VƏ HƏYATI HAQQINDA SUAL VƏ CAVABLAR

**Sual - 1.**

Nə üçün yalnız Sahibəzzaman (ə) Qaim adlanıbdır?

***Cavab:***

Əbu Həmzə Somali deyir:

“İmam Baqirdən (ə) soruşdum:

“Ey Allah Rəsulunun (ə) övladı! Məgər siz İmamlar(ə) hamınız haqq yolunda qiyam etmirsinizmi?”

İmam Baqir (ə) buyurdu:

***“Bəli”.***

Dedim:

“Bəs nə üçün yalnız Sahibəz-zamanı (əc.f) Qaim adlandır-mısınız?”

Buyurdu:

“Cəddim İmam Hüseyn (ə) şəhid olan zaman mələklər Allah dərgahına üz tutub dedilər:

“İlahi, ən üstün bəndələrinin qatillərini azad buraxırsan?!” Allah-Təala onlara vəhy göndərdi ki,and olsun izət və cəlalıma, uzun müddətdən sonra olsa da, onlardan intiqam alacağam.

Sonra Allah-Təala İmam Hüseynin (ə) övladları olan İmamların (ə) ruhlarını mələklərə göstərdi. Mələklər bunu görüb şad oldular. İmamlardan (ə) biri ayaq üstə dayanıb, na-maz qılmağa məşğul idi. Allah-Təala buyurdu:

“Bu Qaimin (ayaq üstə dayanan,qiyam edən) vasitəsiylə onlardan intiqam alacağam.”

Şeyx Səduq *"**Məaniul-əxbar**"* kitabında rəvayət edir:

***“Sabihəz-zamana (ə) Qaim deməyin səbəbi bundan ibarətdir: Xalq Sahibəzzaman (ə) unudan zaman o Həzrət (əc.f) qiyam edəcək”.***

**Sual - 2.**

İmam Mehdiylə (əc.f) görüşən İmam Həsən Əskərinin (ə) vəkillərindən birinin adı nə idi? İmam Mehdi (ə) ona hansı cümləni bəyan etdi?

**Cavab:**

İmam Həsən Əskərinin (ə) Qum şəhərində vəkili olan Əhməd ibni İshaq buyurur:

“Mən İmam Həsən Əskərinin (ə) hüzuruna yetişib ərz et-dim:

“Ey Allahın Rəsulunun (s) oğlu! Sizin canişininiz kimdir? O Həzrət (ə) surətlə otağa daxil oldu və bir oğlanın surəti 14 gecəlik ay kimi saçırdı.

İmam Həsən Əskəri (ə) buyurdu:

“Mənim canişinim budur. Bunun adı Peyğəmbərin adı, künyəsi Peyğəmbərin künyəsi ilə birdir. Bu, yer üzünü başdan-başa ədalətlə dolduracaq”.

Dedim:

“Ey Allahın Rəsulunun oğlu! Qəlbimin xatircəm olması üçün bir əlamət və nişanə vardırmı? “

Birdən həmin oğlan (o vaxt onun üç yaşı var idi) buyurdu:

“Mən Bəqiyyətullah və Allahın düşmənlərindən intiqam alan şəxsəm. “Ey Əhməd! Buna görə də məni görəndən sonra dəlil axtarmaq lazım deyil”.

Əhməd deyir:

“Çox sevindim və İmam Həsən Əskərinin (ə) hüzurundan sevinc dolu qəlblə ayrıldım”.

**Sual - 3.**

Əhli-Beytin (ə) rəvayətlərində İmam Mehdinin (əc.f) zühuruna işarə olunan Quran ayələrindən birini nümunə gətirin?

**Cavab:**

Məhəmməd ibni Müslüm, İmam Məhəmməd Baqirdən(ə) rəvayət edir ki, o Həzrət(ə) buyurdu:

**"Vəl-ləyli iza yəğşa"-*"And olsun (hər yeri) bürüyən gecəyə"*** ayəsindən məqsəd Əlidir (ə). Çünki o Həzrət (ə) batil dövlətin vasitəsi ilə gizli qaldı və səbir etməyə məcbur oldu.

***"Vən-nəhari iza təcəlla"-"And olsun hər yeri işıqlandıran gündüzə"***-ayəsindəki bu işıqlı gündüz biz Əhli-beytin (ə) ***Qaimidir*** (əc.f). O qiyam edərək batil dövlətlərə qələbə çala-caqdır.

**Sual - 4.**

Allah-Təala Peyğəmbərlərin (s) haqqında üç xüsusiyyəti əməli surətdə həyata keçirdi. Həmin üç xüsusiyyəti İmam Mehdinin (əc.f.) haqqında da həyata keçirdəcək. O üç xüsu-siyyət nədən ibarətdir?

**Cavab:**

Həmin üç xüsusiyyət aşağıdakılardan ibarətdir:

O Həzrətinn təvəllüdü Həzərt Musanın (ə ) təvəllüdü kimi, qeybə çəkilməsi Həzrət İsanın (ə) qeybə çəkilməsi kimi və uzun ömrü Nuh Peyğəmbərin (s) ömrünün uzunluğu kimi qərara alı-nıbdır. Belə ki, Xızır peyğəmbərin (ə) ömrünün uzunluğu O Həzrətin(əc.f) ömrünün uzunluğuna bir dəlildir.

**Sual - 5.**

İmam Mehdinin (əc.f.) qeybdə olduğu dövrdə xalqın tək-lif və vəzifəsi nədən ibarətdir?

1) İmamın və dinin şeytanların şübhələrindən qorunması üçün yazılmış duaları oxumaqla Allahdan yardım diləmək. Həmin duaların biri də bundan ibarətdir:

***"Allahummə ərrifni nəfsək, fə innəkə in ləm tuərrifni nəfsək ləm ərif nəbiyyək, Allahummə ərrifni Rəsulək, fə innəkə in ləm tuərrifni Rəsulək, ləm ərif huccətək, Allahummə ərrifni huccə-tək, fə innəkə in ləm tuərrifni huccətək, zələltu ən dini".***

2) Xəstəliklər, çətinliklər və bəlalar insana üz verən zaman o Həzərtdən(əc.f) kömək istəmək və hər hansı bir şübhənin də-lili üçün, həmçinin bəlanın yox olması üçün Həzrətə(əc.f) üz gətirmək.Çünki o Həzrət(əc.f) İlahi qüdrət ilə və lədunni, rəb-bani (Allah tərəfindən verilən) elmlərlə hər bir şəxsin vəziyyə-tindən xəbərdardır.Hər şəxsin istəyini yerinə yetirməyə qadir-dir. Necə

ki, o Həzrət(əc.f) özü Şeyx Mufid üçün yazdığı mək-tubda buyurub:

"Mənim elmim sizin əməllərinizi əhatə edir və sizin xəbər-lərinizdən heç biri bizim elmimizdən gizli deyil."

**Sual - 6.**

Peyğəmbər (s) İmam Mehdi (əc.f.) zühur etməmişdən əv-vəlki dövr haqqında nə buyurubdur?

**Cavab:**

Peyğəmbər (s) buyurub:

"Dünyanı hərc-mərclik başına götürən zaman, ölkələr bir-biri ilə döyüşən zaman və güclünün zəifə mehribançılıq göstər-mədiyi zaman Sahibəzzaman (əc.f.) qiyam edəcək."

**Sual - 7.**

İmam Mehdinin (əc.f.) öz böyük mübarizəsi üçün nəyə eh-tiyacı vardır?

**Cavab:**

Sahibəzzamanın (əc.f.) fədakar, mömin, muxlis və həqiqi mücahidə, döyüşçüyə lazım olan bütün xüsusiyyətlərə malik köməkçilərə ehtiyacı vardır.

# III BÖLÜM

***İnsan gül bağçasında gəzdiyi zaman ruhuna dinclik və gözəllik hissi gəldiyi kimi müsəlmanın da hər halı gül bağçasından daha gözəl olmalıdır. Getdiyi hər yerə dinclik və səadət bəxş etməli, könülləri nurlandırmalıdır.Necə ki, şair deyib:***

***Gül toxumu əkdim, gül bitdi,***
***Başında da bülbül nəğmə oxudu!***
***Tikan əksən, səmərəsi də tikan olar,***
***Tikan tikandan başqa nə səmərə verməlidir ki?!***
***Torpağın ürəyinə özün tikan əkdin,***
***Məhsulu da tikan olub, sənə əziyyət verdi!***

# ALLAH YANINDAKI MƏQAM

***Bismillahir-Rəhmanir-Rəhim!***

***«Be» ismi İlahi, rəhmanir-rəhim,***
***Qadirü, Hadiyu, Ğəfuru, Kərim.***
***İslamın dənizi aşıb-daşırdı,***
***Bir müqəddəs günü yaxınlaşırdı.***
***O gün ki, bəxş edib xəlqə sürudi,***
***Car oldu dünyaya Abbas mövludu.***
***Deyirlər tarixə düşən həmin gün,***
***Elə bir gündü ki, vəsfi namümkün.*** [1]

Həzrət Əbülfəzl Abbas (ə) Hicri-Qəmərinin 26-cı ili Şəban ayının 4-də dünyaya gəlib. Atası möminlər ağası Həzrət Əli(ə), anası Ümmül-Banudur. Həzrətin (ə) ən məşhur ləqəbi Abbas-dır. Həmçinin o Həzrətə Əbülfəzl, Əbülqürbə, Qəməri-bəni-Haşim, Babul-Həvaiç, Əbdüs-Saleh və Səqqa da deyirlər. Hə-zrət Abbas xoş üzlü və gözəl olduğu üçün ona ***«Bənü-Haşimin ayı»*** ləqəbini veriblər. Həzrət Abbas (ə) ucaboylu və güclü idi.

Həmçinin gözəl və nurani çöhrəsi vardı.

Qiyamət günü bütün şəhidlər ona qibtə edərlər.

***Şücaət mülkünün saları kimdir? Həzrət Abbas,***
***Mənim şahim də ol meydan ara ol şəhsəvar olmuş,***
***Xoşa ol aşiqi-sadiq ki, olmuş vəhdətə layiq,***
***Tutub küncü-xifa bu xəlqi-aləmdən kənar olmuş.*** [2]

İmam Həsən(ə) və İmam Hüseyndən (ə) sonra şücaətdə və qəhrəmanlıqda adı çəkilən Abbasdır(ə). O, Kərbəla Ələmdarı və İmam Hüseynin (ə) ordusunun sərkərdəsi idi.

---

[1] ***Axund Hacı Soltan Huseynqulu oğlu***
[2] ***S.Ə.Nəbati***

***Hər aşiqə bu dəhridə ibrətdi Əbülfəzl,***
***Səqqaye-hərəm, miri-şücaətdi Əbülfəzl.***

***Söylərdi ki, ey şahım, Hüseyn, mən sənə çakər,***
***Can verməyə hazırdı nə müddətdi Əbülfəzl.***

***Gördü ona cəng etməyə vermirlər icazə,***
***Bildi ki, şəhid olmağa fürsətdi, Əbülfəzl.***

İmam Mehdi Sahibəz-Zamandan (əc.f) nəql olunmuş **"Nahiyeyi-Müqəddəsə"** ziyarətnaməsində o Həzrət (əc.f) Əbülfəzlin (ə) barəsində belə buyurub:

***"Salam olsun Həzrət Əlinin (ə) oxlu Əbülfəzlinə. O elə bir kəsdir ki, canını qardaşına qurban verdi. Dünyanı axirətə çatmaq üçün vasitə etdi. Və o, qardaşına fəda olan keşikçi idi. Və çox çalışdı ki, suyu susuz dodaqlara yetirsin. O bir kəsdir ki, iki qolları Allah yolunda kəsildi".***

***Su gətirən dəmdə kəsildi yolu,***
***Qələm oldu bədəndən bir cüt qolu.***
***Zəvvar olaq, Əlinin qəzəb oğlu,***
***Məşqi-ələmpərvəri yektayə biz.***

***Haqq yolunda Hüseyn təki dünyada***
***Yoxdu əhli-əyalın verən bada.***
***Şahi-şühədanı salanda yada,***
***Lənət deyək Şümri-bihəyaya biz.***

İmam Zeynəlabidin (ə) buyurub:

***"Allah-Təalanın yanında Həzrət Abbas(ə) üçün elə bir məqam vardır ki, qiyamət günü bütün şəhidlər ona qibtə edərlər".***

İmam Sadiq (ə) buyurur:

***"Bizim əmimiz Abbas(ə) dolğun təfəkkürlü və imanlı idi".***

*Sidq ilə edib əhdə vəfa, yetdi vüsalə,*
*Dərk eylədi Soltan, necə hikmətdi Əbulfəzl.*

# HƏZRƏT ƏBULFƏZL ABBASIN (Ə) KƏRAMƏTLƏRİ

Həzrət Əbulfəzl Abbasın (ə) bir çox kəramətləri olub. O kəramətlərdən bir neçəsini bu məqalədə oxucuların diqqətinə çatdırırıq.

***"Burdan çölə çıxın, yoxsa hamınızı öldürərəm!"***

Höccətul-islam vəl-müslimin Hacı Şeyx Əşrəf Kaşani bizə üç kəramət yazıb:

1.Bəndə Həzrət Əbulfəzl Abbasın (ə) kəramətini belə müşahidə etmişəm. Səkkiz yaşımda ikən valideynlərimlə bir-likdə atamın anasından irs qalan evdə yaşayırdıq. Anamın atası Kaşan məntəqəsinin tanınmış rövzəxanalarından idi. Adı Seyyid Məhəmməd idi. Onun 6 övladı (4-ü oğul, 2-ci qız) vardı. Oğlanlardan ikisi ruhani idi. Böyük oğlu Seyyid Əbul Qasim rövzə oxumaqdan ötrü bir il Semnan məntəqəsinə ge-dir. Orada bəhailərlə qarşılaşır. Yolunu azmış bu məzhəbin üzvləri onu zəhərləyirlər. O, dəli olmuş halda Kaşana qayıdır. O vaxt mən 8 yaşında idim. Gördüm ki, günlərin birində o, evin üstünə çıxıb öz-özünə belə deyir:

***"Hamınız çıxın çölə, yoxsa sizləri öldürərəm!"***

Üç ilə yaxın bu divanəlik onda davam etdi. Bu vaxtda onun vəziyyəti elə qorxulu idi ki, bütün Kaşan əhalisi ondan qorxub çəkinərdilər. Nəhayət, məcbur olurlar ki, onu zəncirlə bağlasınlar. Sağalmasına da heç kim artıq ümid etmirdi. Üç ildən sonra zövcəsinin Həzrət Əbulfəzl Abbasa (ə) pənah aparması ilə şəfa tapdı. Onun təvəssülü hadisəsi belə olub:

Zövcəsinin atası zahid və mömin bir şəxs imiş. Dünyasını dəyişərkən qızına deyir:

“Mən kasıb şəxsəm, əlimdə bir şey yoxdur ki, sənə verəm. Amma elə bir gövhər verirəm ki, min dəfə dünya malından üstündür. Nə vaxt biçarə oldun və nicat yolları üzünə bağlansa get qaranlıq bir otağa, iki rükət namaz qıl və bu iki beyt şeiri oxumağa başla:

***“Ey mahi- bəni- Haşim, Xurşidi liqa Əbbas!***
***Ey Nuri -dili -Heydər, Şəmi- şühada Əbbas!***
***Ba mehnəto dərdi cəm, Mən ru be tu avərdəm!***
***Dəste məne məhzun gir, əz bəhri Xuda Əbbas!***

Tərcüməsi:

***Ey bəni Haşimin ayı, Günəşə oxşar Əbbas!***
***Ey Heydərin qəlbinin nuru, şəhidlərin şəmi Əbbas!***
***Dərdli və qəmli halda, sənə üz gətirmişəm!***
***Mən qəmlinin əlindən tut, Allah xatirinə Ya Əbbas!***

Seyyidin divanəliyindən üç il sonra bu vəsiyyət onun zövcəsinin yadına düşür. Aşağı otağa gedir. Heç bir işıq gəlməyən yer tapır. İki rükət namaz qılıb duanı oxumağa baş-layır. Özünün dediyinə əsasən birdən görür ki, qaranlıq otaq işıqlı olur. Başını qaldıranda başının üstündə kəsilmiş bir əlin durduğunu görür. Səs gəlir ki:

***“Dur get! Biz Seyyid Əbul Qasimə şəfa verdik!”***

Tez qalxıb tələsik çölə çıxır. Seyyidin başının üstünə gəldikdə görür ki, yuxudadır. Halbuki, o vaxta qədər gözlərinə yuxu getmirdi.

Kaşan əhalisi xəbərdar olurlar ki, Həzrət Əbulfəzl Abbas (ə) Seyyidə şəfa verib. Onlar bir aya yaxın Seyyidin gö-rüşünə gəl-get edirlər. İş o yerə çatmışdı ki, onun əlinin suyun-dan xəstələrəaparırdılar ki, şəfa tapsınlar.

Harada ***“Rövzəxan”***lıq məclisi olurdusa, birinci onu dəvət edirdilər.

# BIR ƏL GƏLIB MƏNI GÖTÜRDÜ!

Kaşan şəhərində ***“Möhtəşəm”*** adlı təzə bir xiyaban açmışdılar. Asfalt çəkməmişdən qabaq yola su tökürdülər. Kaşanda dərinliyi 40 metrə çatan çoxlu quyular var. Məktəb uşaqları səf çəkib, xiyabandan keçirdilər. Təsadüfən quyular-dan biri uçur və Cavad Əxbari adlı bir uşaq həmin quyunun içinə düşür. Əlacsız halda hamı tamaşa edirdi. Maşın gətirib 3 gün quyunun torpağını çölə atdılar.

Nəhayət, uşağa çatdılar. Gördülər ki, uşaq sağdır. Uşağı quyudan çölə çıxartdılar. Dövrəsini alıb, sual-cavab etməyə başladılar. Necə oldu ki, sağ qaldın? Cavab verdi:

“Elə ki, quyunun dibinə düşdüm ancaq ***“Ya Əbul Fəzl Abbas!”*** deyə çağırdım. Bu vaxt bir əl çıxıb, məni quyunun dibində olan taxçanın üstünə qoydu”.

Dedilər:

**“**Bu neçə günü orda ac necə qaldın?”

Dedi:

“Məndən ötrü süd gətirmişdilər”.

Bu aşkar möcüzədən sonra Kaşanda bir müddət çıraqlar yandı. Hamı uşağın ziyarətinə gəlirdilər.

# YA BABUL – HƏVAİC! NƏYİM VARDISA ALDILAR!

Bir vaxtlar günortadan sonralar Həzrət Əbulfəzl Abba-sın(ə) pak hərəmində, sübhlər isə İmam Hüseynin (ə) mübarək hərəmində mənbərə gedirdim. Həzrət Əbulfəzl Abbasın(ə) həreminin kiliddarı Seyyid Həsən idi. Mən mənbərdə Həzrət Əbulfəzl Abbasın (ə) ziyarəti barədə söhbətə başladım. Günlə-rin birində mənbərdən düşərkən hərəmdə namaz qılan bir Sey-yid məni çağırıb dedi:

Bu gün sizin söhbətlərinizi eşitdim. Gördüm, Həzrət Əbulfəzl Abbasın (ə) ziyarətinin fəziləti barəsində söhbət edirdiniz. Amma, mən özüm müşahidə etdiyim əhvəlatı sizə nəql edirəm siz də bunu minbərdən əhaliyə nəql edərsiniz. O əhvəlat bu idi.

Kərbəla ətrafında olan çobanlardan birisi bir neçə baş qoyunu bazarda satıb pulunu cibinə qoyub, qayıdırmış. Kərbəladan çıxanda oğrular onun yolunu kəsib, pulunu zorla alırlar. Kişi yarı yoldan Kərbəlaya qayıdır və Həzrət Əbulfəzl Abbasın (ə) hərəminə daxil olur.

Həzrətə (ə) xitab edərək buyurur:

***“Ya Babul Həvaic! Nəyim varsa aldılar! Səndən başqa mənim pənah yerim yoxdur”.***

Əhali onun ardınca hərəmə daxil oldular. O, çoxlu ağladıqdan sonra əlini zirehin pəncərəsindən içəri salıb bir neçə dəqiqədən sonra dedi:

***“Ya Əbulfəzl! Təşəkkür edirəm!”***

Pakistan camaatı onu dövrəyə alıb, soruşurlar ki, əlindəki nədir? “O əlini açır. Görürlər ki, əlləri qızıl pulla doludur. Onun əlində bir ədəd qızıl pul qalır. Alverçilər onu da almaq istəyirlər, lakin kişi cavab verir:”

“Əgər Kərbalanı da qızılla doldurub mənə versəniz. Həzrət Əbulfəzl Abbasın (ə) kərəmindən olan bu qızılı sizə verməərəm.”

# QATARDAN YIXILDI, AMMA SAĞ QALDI!

***Cənab Hacı Əbul Qasım Məqazeyi belə nəql edir:***

“Mən atamla qatar stansiyasından evimizə tərəf hərəkət etdirdim. Atam buyurdu:

“Əbul Qasim! Yaxşı olar ki, kömürlə dolu bu kisələri də evə aparaq”. Düşüb kömür kisələrini qatara yüklədim.

Sonra atam mənə buyurdu: “Sən bu kisələrin üstündə otur, mən qatar rəisi ilə söhbət etməyə gedirəm”. Mən kisələ-rin üstündə oturdum. Atam bir-iki dəfə məni səslədi. Bu vaxt qatar

tunelə daxil olurdu. Tuneldən çıxdıqdan sonra gördüm ki, atam qatarda yoxdur. Mən dad-fəryad etməyə başladım. Qatarı saxlatdırdım.”

Qatar məmuru dedi:

Mən arxaya qayıtmayacağam. Bəlkə böyük Allah möcüzə göstərə, atan sağ qala. Bu vaxt əgər mən arxaya qayıtsam atan qatarın təkərləri altda qala bilər. Hamının nəzərində bu idi ki, atam sağ qalmayıb. Növbəti dayanacağa qədər hərəkət etdik. Bu stansiyadan teleqraf etdilər ki, təcili maşın göndərin cənab Məğazeyinin cənazəsini aparsınlar.

Elə bu vaxt atam gözlənilmədən dayanacağa gəldi.

Mən atamdan soruşdum: “Atacan! Necə oldu ki, sağ qaldın?”

Cavabında buyurdu:

Mən sizə tərəf gəlirdim, birdən qatarın qapısından yerə yıxıldım. Yıxılan anda ancaq ***“Ya Sahibəzzaman! Ya Əbulfəzl Abbas!”*** deyə fəryad etdim. Birdən hiss etdim ki, kimsə məni götürüb kənara qoydu. Ona görə də görürsən ki, sağ qaldım.”

# KƏRBƏLA QƏHRƏMANI HƏZRƏTİ ZEYNƏB (S.Ə.)

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Sədaqətə arxalan, zülmü qoyma yaxına,***
***Kimsəyə bel bağlama, sığın haqq dərgahına.***[1]

Bəşəriyyət insanlara mənəvi dəyərlər bəxş edən bir sülaləyə həmişə borcludur.Bu pak və nöqsansız Əhli-beyt (ə) ailəsidir. O ailə ki, bütün kainat onların qarşısında baş əyib tə-zim edir, mələklər onlara səcdə etməkdən çəkinmir və Cəbra-yıl (ə) Həzrət Əlinin (ə) məclislərinə girmək üçün izn istəyir. Bu, o ailədir ki, İlahi nemətlər təcəssümü, Allahın cəlal və cə-mal sifətlərinin aynasıdır.

Onlar Peyğəmbər (s) və onun Əhli-beytidir (ə) ki, Allah-Təala məxluqatın yaranma səbəbini onların varlığı ilə izah edib, buyurur:

***"Əzəmətli səma və geniş yerləri, işıqlı günəş, ay və ulduzları, axar dəniz və dəryaları siz əhli-beyt(ə) üçün və sizin məktəbinizdən ötrü yaratmışdır".***

Əhli-beyt (ə) hər cür eyib və nöqsandan uzaq olan beş müqəddəs nur, vəhy xanədanı və vilayət ailəsidir.

Allah-Təala ***"Əhzab"*** surəsinin 33-cü ayəsində Əhli-bey-tin (ə) hər növ çirkinlikdən uzaq olduğunu bəyan edərək bu-yurur:

***"Allah siz Əhli-beytdən (Peyğəmbərin (s) ailəsindən) pisliyi uzaqlaşdırmaq və sizi pak-pakizə etmək istəyir".***

Mövlanə Məhəmməd Füzuli **«Olsun»** rədifli qəsidəsini Əhli-beytə (ə) həsr etmiş və bu gülüstandın aldığı mənəvi ne-mətləri incəliklə qələmə almışdır:

***[1] N.Gəncəvi "Sirlər Xəzinəsi"***

*Mənə Xaliq o şərt ilə veribdir hüsni-gəftarı,*
*Ki, Mövla gülşənində bülbüli-dastansəra olsun.*

*Gəh alsın «İnnəma» bağındakı güllərdən ilhamı,*
*Sapa inci düzərkən dürrü bəhri-"həl- əta" olsun.*

Bu beytdə şair ***«Əhzab»*** surəsinin 33-cü ayəsini və ***«Həl-əta»*** surəsini qələmə alaraq, bu solmaz gülüstandan bəhrə-ləndiyini oxucusuna çatdırır.

Bəli, Yer üzündə bənzəri olmayan Əhli-beyt (ə) ailəsi. Belə bir ailədə bir qız uşağı dünyaya göz açır. Əzəmətli vilayət bağ-çasına mənsub olan bu çiçək, sonralar özünün Allah yolunda sədaqət və vəfası, şücaət və fədakarlığı, iman və təqvası, iffət və səbri, dözüm və mübarizəsi ilə bütün Allah yolçuları (və xüsusilə, özünü Əhli-beyt (ə) davamçısı hesab edən qadınlar) üçün ülgü və nümunə olacaqdı.

Bu xanədanın üçüncü övladı Həzrət Zeynəb (s.ə.) hicrətin 6-cı ilində Cəmadiyyul-əvvəl ayının 5-də Mədinə şəhərində anadan olmuşdur. Atası möminlərin əmiri Həzrət Əli (ə), anası dünya xanımlarının rəhbəri, Allahın sevimlisi Həzrət Fatime-yi-Zəhra(s.ə.), babası Peyğəmbərlərin əşrəflisi, Xətmi-Peyğəm-bər Həzrət Muhəmməd (s), qardaşları behişt gənclərinin ağa-ları sayılan İmam Həsən (ə) və İmam Hüseyndir (ə).

***"Zeynəb"*** – atanın zinəti deməkdir. Allah tərəfindən belə adlanan bu qız, öz vəzifəsini yerinə yetirməklə tarixin zinəti və ailəsinin fəxri oldu. Odur ki, Zeynəb (s.ə) adı məhz onun fədakarlığı hesabına həmişə gözəl, müqəddəs və əbədidir.

Həzrət Zeynəb (ə) dünyaya gələrkən babası Həzrət Mu-həmməd (s) səfərdə idi. Anası Fatimə (ə) Həzrət Əlidən (ə) is-tədi ki, övladları üçün ad qoysun. Əli (ə) buyurdu:

***"Mən atandan qabağa keçmərəm. Səbr edək, Peyğəm-bər(s) səfərdən gəlsin".***

Peyğəmbər (s) səfərdən qayıtdıqdan sonra Əli (ə) Həzrət Fatimənin (ə) uşağı olması xəbərini Peyğəmbərə (s) çatdırıb, ondan uşaq üçün ad qoymasını xahiş etdi.

Peyğəmbər (s) buyurdu:

***“Fatimənin övladları mənim övladlarımdır, lakin onlar barəsində qərara gəlmək yalnız Allaha məxsusdur”.***

Sonra vəhy mələyi Cəbrayıl (ə) nazil olub, xəbər gətirdi ki, Allah-Təala buyurur:

***“Bu qızın adını Zeynəb qoy! Çünki mən bu adı lövhi-məhfuzda yazmışam”.***

Bunu eşidən Peyğəmbər (s) Zeynəbi öpdü və buyurdu:

***“Tövsiyə edirəm hamı bu qıza hörmət etsin. Çünki o, Xədiceyi-Kübra (s.ə) kimidir. Yəni Həzrət Xədicənin (s.ə) fə-dakarlığı kimi, Həzrət Zeynəbin (s.ə.) Allah yolunda dözüm, səbr, şücaət və mübarizəsi İslamın əbədiliyi üçün xüsusi əhə-miyyətə malikdir”.***

Həzrət Zeynəb (ə) beş ilə qədər babası Həzrət Peyğəm-bər(s) ilə bir zamanda yaşamışdır. Bu beş il böyük bir fürsət idi ki, Həzrət Zeynəb (ə) babası Peyğəmbərin (s) mübarək vücu-dundan səbr və dözüm dərsini alsın. Çünki Peyğəmbər (s) əziz nəvəsi Həzrət Zeynəbin (ə) həyat yolunun bütün müsibətlərin-dən xəbərdar idi və bilirdi ki, bu çətinliklərə yalnız böyük ruh, dağ kimi möhkəm qəlb və Allah eşqi ilə dolu ürək dözə bilər. Elə bir müsibət, çətinlik Zeynəbin (s.ə.) taleyi ilə qarışmış və Allah-Təala səbr və dözümü onda cilvələndirmişdir ki, bütün Allah bəndələri üçün nümunə olsun.

***Əhli-cəhanə oldu çox vəfası Zeynəbin,***
***Baxma ki, həddən idi dərd-bəlası Zeynəbin.***

***İmam Hüseyn xahəri, Həzrət Əli duxtəri,***
***Həzrəti Xeyrənnisa çün anası Zeynəbin.***

***Başı bəlalı idi, qəlbi yaralı idi,***
***Yeddi fələkdən ötdü ah-nəvası Zeynəbin.***

Peyğəmbərin (s) ömrünün son illəri idi. Sevimli nəvəsi olan Zeynəb (s.ə) onun yanına gəlib dedi:

***"Ya Rəsulallah(s) bu gecə yuxuda gördüm ki, şiddətli bir külək əsib bütün dünyanı zülmətə qərq etdi. Mən küləyin şiddətindən o tərəf, bu tərəfə düşürdüm. Axırda məcbur qalıb böyük bir ağacdan yapışdım. Amma külək onu da yerindən qopardı. Mən ikinci dəfə onun bir budağından tutdum, amma o da da-vam gətirmədi. Üçüncü dəfə onun başqa bir budağından yapış-dım, lakin külək onu da sındırdı. Sonra bir-birinə yapışmış iki budağa üz tutdum ki, birdən onlar da sındı və mən, yuxudan ayıldım".***

Peyğəmbər (s) Zeynəbin (s.ə) yuxusunu eşidəndən sonra ağlayıb buyurdu:

***"Sənin ilk yapışdığın ağac babandır ki, tezliklə dünyadan köçəcək. Sonrakı iki budaq atan və anandır ki, onlar da dünyadan köçəcəklər. Bir-birinə yapışmış iki budaq isə qardaşların Həsən və Hüseyndir ki, onların müsibətindən dünya zülmətə qərq olacaqdır".***

Çox keçmədi ki, Zeynəbin (s.ə) yuxusunun bir hissəsi çin çıxdı və o babasının vəfatı ilə ilk pənahını əldən verdi.

Babasının və anasının vəfatından 30 il sonra Həzrəti Zeynəbin (s.ə.) yuxusunun üçüncü hissəsi çin çıxdı. Atası mö-minlərin əmiri Həzrət Əli (ə) Hicrətin 40-cı ili Ramazan ayının 19- cu gecəsində Kufə məscidində sübh namazı qılarkən Xəva-ricdən olan İbn Mülcəm Muradi tərəfindən ağır zərbətləndi və Ramazan ayının 21-də İlahi dərgaha qovuşdu.

***Sənin başın qızıl qanə boyandı,***
***Sübh namazı ta yarımçıq dayandı.***
***Bu günahdan dag od tutdu, daş yandı,***
***Ulduzlara düşdü səda, ya Əli!*** [1]

Həzrət Əlinin (ə) şəhadəti və onun kimi bir atadan ayrıl-maq Zeynəbə (ə) çox ağır idi. O, babası Peyğəmbərin (s) və anası Fatimənin (ə) vəfatından sonra atasına daha çox bağlan-mışdı o,

---

[1] ***Şairə Kəmalə Ağayeva***

bu ocaqdan da məhrum olub, öz dərdləri üstünə bir dərdə də əlavə etməliydi.

Həzrət Zeynəb (ə) qardaşı İmam Həsənin (ə) İmaməti dövründə də atasının məzlumiyyətli günlərində olduğu kimi xalqın vəfasızlığı, düşmənlərinin hiyləsi, Müaviyənin dəqiq və geniş təbliğatı və nəhayət, qardaşının məzlumiyyət və tənhalığından başqa bir şey görmədi. Zeynəb (s) şahid oldu ki, Əhlibeytin(ə) müdafiə iddiaçıları çətinlik və imtahan zamanı zəiflik göstərir, dini və mənəvi dəyərləri fani dünyaya satıb, ***məsum və İlahi*** rəhbərlərini öz şeytani arzularına qurban edirlər. Zeynəb(s.ə.) öz dost və düşmənlərini tanıyır, Allah-Təalanın əmrlərini icra etməkdən başqa bir şey düşünmürdü.

Həzrət Zeynəb (s.ə.) bu müddətdə özünü qardaşı İmam Həsənin (ə) bütün dərdlərinə şərik bilir, zəhərlənərkən necə ci-yər qanı içdiyinin şahidi olur, onun məzlumanə şəhadətini, cənazəsinin oxlanaraq təhqir olunmasını öz gözü ilə görürdü.

***Əsəri-zəhr ilə sən, ey cigəri parə, Həsən,***
***Vurulan cisminə zülm ilə neçə yarə, Həsən.***

***Zeynəbin ağlayacaq halına min şövq ilə bil,***
***Gülsümün tapmayacaq dərdinə bir çarə, Həsən.***[1]

Bu dərd və müsibətlərin, qəm və qüssələrin əzəmət və böyüklüyünü Zeynəb (ə) Aşura gecəsi dilinə gətirdi. Qardaşı İmam Hüseynin (ə) oxuduğu rəcəzlərdən onların da şəhadətini duyaraq fəryad etdi:

***"Həzər bu müsibətdən, kaş ölüm həyatıma son qoyaydı. Bu gün anam Fatimə, atam Əli və qardaşım Həsənin dünyadan gedən günlərinə bənzəyir".***

Bütün bu müsibətlərdə Həzrət Zeynəbin (s.ə.) şüarı həmin Seyyidüş-şühədanın şüarıdır ki, Kərbəlanın ağır müsibəti dalğalarında dodaqaltı zümzümə edirdi:

---

***[1] Axund Hacı Soltan Hüseynqulu oğlu***

***“Sənin qəza və qədə-rinə səbr edirəm, İlahi! Səndən başqa Allah yoxdur, ey kömək istəyənlərin fəryadına çatan!”***

Həzrət Zeynəbin (s.ə) həyatının ən mühüm və əzəmətli dövrü qardaşı imam Hüseynin (ə) dövrünə, eşq və şəhadət kar-vanı ilə yoldaşlıq etdiyi zamana təsadüf edir. İmam Hüseyn (ə) qiyamını Zeynəbsiz təsəvvür etmək mümkün deyil. Çünki, İmam Hüseynin (ə) qiyamının hərtərəfli təhlili üçün Zeynə-bin(s.ə.) həyatını öyrənmək lazımdır. Əgər belə demək müm-künsə, Zeynəb (s.ə) Kərbəla hadisələrində Seyyidüş-şühəda(ə) hərəkatının canlı tarixi, ölməz  natiqidir.

Həzrət Zeynəb (s.ə) Kərbəla tarixi ilə hərəkətdədir və bu tarixin bütün hadisələrinin Zeynəblə (s.ə.) çox sıx əlaqəsi var-dır. Bu səbəbdən Zeynəbin(s.ə) həyat tarixini Kərbəlasız təsəv-vür etmək mümkün deyil.

Həzrət Zeynəb (s.ə) İmam Hüseyn (ə) hərəkatının bütün səhnələrində nəzərə çarpır. Buna görə də, demək olar ki, Kər-bəla hadisəsi İmam Hüseyn (ə) həyatının böyük bir hissəsini təşkil etdiyi kimi, Həzrət Zeynəb (s.ə.) həyatının da izzət və əzəmətli dövrünə təsadüf edir.

***Kərbəla, ey qiblagahi eşqi canan Kərbəla,***
***Kərbəla, səndə yatan canana qurban Kərbəla.***

Həzrəti Zeynəb (s.ə.) İmamət məqamını tanıdığından yax-şı bilirdi ki, İmam Hüseyn (ə)  öz şəxsi iradə və istəyinə uyğun deyil, İlahi vəzifəsinə əsasən “***əmr-beməruf və nəhyəz-munkər”*** edibdir. Buna görə də tarixdə onun haqqında İmam Hüsey-ni(ə) ilahi işindən saxlamaq üçün heç bir təklif görünmür. O, bu işdə öz İmamına(ə) müti və təsəllidir.

Həzrəti Zeynəb (s.ə.) Mədinədən Kərbəlaya qədər İmam Hüseynin (ə) yanında olmuşdur. O, bu səfəri ailə qurmazdan əvvəl duymuş və öz nigahında mehriyyə haqqı olaraq qardaşı İmam Hüseynlə (ə) birgə olmağı şərt etmişdi. İndi isə bu şərt-dən istifadə etməyin vaxtı gəlib çatmışdı.

Yaşı əllini ötmüş, oğul-uşaq, ailə sahibi olmuş bir qadın üçün qəm karvanını müşayiət etmək, ruhi və cismi çətinliklər, ağır təhlükələrlə rastlaşmaq nə qədər çətin olsa da, zamanın İmamına və Hüseyn (ə) kimi əziz qardaşına olan sonsuz eşq və dərin məhəbbət bütün bunları Həzrəti Zeynəbə (ə) olduqca asan etmişdi. O bilirdi ki, İmam Hüseyn (ə) Allahın höccəti, Peyğəmbərin (s) canişini, onun və zamanın bütün insanlarının İmamıdır (ə).

İmam Hüseynlə (ə) yoldaşlıq etmək həqiqətdə insani fəzilətlə yoldaşlıq etmək, əbədi səadətə çatmaq deməkdir. Həzrət Zeynəb (s.ə.) elə bunun üçün də özünü hər növ müsibətə hazır edib, müqəddəs məqsəd üçün ev, ailə və ümumiyyətlə həyatdan imtina etməyə hazırlaşıb. Allah eşqi ilə güclü bir qəlb və polad iradə ilə insaniyyətin əzəmətini özü ilə aparan bir yola qədəm qoyur.

***Ey Sarivan, ahəstə get, arami-canımdır gedən,***
***Yar könlümü çəkmiş mənim, ruhi-rəvanımdır gedən.***

***Səy eylədim əfsun ilə pünhan qılım mən dərdimi,***
***Pünhan işim çıxdı üzə, seyr eylə, qanımdır gedən.***

***Qaldım belə zarü-zəlil, biçarəyəm, qəlbim əlil,***
***Düşdüm o dilbərdən uzaq, asudə anımdır gedən.***[1]

Həzrəti Zeynəb (s.ə.) karvan böyüklərindəndir və onun idarə olunmasında mühüm məsuliyyət daşıyır. O, bütün hərə-kət və qəmli səhnələrdə özünəməxsus vüqar və əzəməti ilə işti-rak edirdi.

O, Zəhra (ə) yadigarıdır və elə bil anasının əvəzinə Hü-seyn(ə) və övladlarına analıq qayğısı göstərir. Bu səbəbdən də Həzrəti Zeynəbi (s.ə.) ***“Seyyidüş-şühəda”*** hərəkatının ən böyük himayəçisi hesab etmək olar. O, bu işi İmamla (ə) birgə, çiyin-çiyinə başlayıb, iradə və təmkinlə yerinə yetirirdi.

---

[1] ***Sədi Şirazi***

Həzrəti Zeynəb (s.ə.) Əhli-beytin (ə) və Əhli-beyt(ə) dost-larının, qadın və uşaqların böyüyü idi.

***“Tasua”*** günü və ondan qabaqkı günlər baş verən hadisə-lər, İmam Hüseynin (ə) Həzrəti Zeynəblə (s.ə.) söhbəti, bacısı-na, Əhli-beytin (ə) himayəsi barəsində olan tövsiyələri açıq-aşkar onun karvanda olan məsuliyyətini göstərir. Həzrəti Zey-nəb (s.ə.) İmam Hüseynin (ə) sirlərinin məhrəmi və əmanətdarı idi, gərək qardaşının onun boynuna qoyduğu yükü məqsədə çatdıraydı.

Həzrəti Zeynəbin (s.ə.) Kərbəlaya daxil olması ilə onun həyat tarixi də əbədiyyətə qovuşdu. Harda Hüseyn (ə) var, Kərbəla var, orda Zeynəbdə (ə.s) var. Kərbəla tarixi həm də Zeynəbin(s.ə.) Kərbəladakı və Aşuradan sonrakı həyat tarixinin onun həyatının başqa dövrlərindən daha aydın yazılmasına səbəbdir.

Həzrəti Zeynəb (s.ə.) Kərbəlaya daxil olur. O, bilir ki, bu-ra onun qardaşı ilə olacağı son mənzildir. Elə o səbəbdən də İmamın (ə) şəhadətinə qədər ondan bir an da ayrılmır.

Həzrət Zeynəb (s.ə.) Kərbəlada Yezidə qarşı öz nifrətini bildirərək, buyurdu:

“Ey Yezid, mən bu dünyanın çətinliklərinə dözə-dözə ra-hatlığa yaxınlaşıram, sən isə rahatlıq çəkə-çəkə əbədi əzaba tə-rəf gedirsən”.

Allah eşqi və Əhli-beyt (ə) vilayəti ilə gələnlər axıra qədər qaldılar ki, özlərinin ən yaxşı nemətlərini əbədi və gözəl məqsə-də qurban edib adlarını tarixin qızıl hərflərlə qeyd etdiyi Hü-seyn (ə) və Kərbəla adları ilə yanaşı yazsınlar. Özünü qardaşı-na və onun yoluna qurban demiş Zeynəbin (s.ə.) çiynində bu vəzifədən ağır bir yük vardır, o da gələcəkdə Kərbəlada baş ve-rən hadisələri tarixin səhifələrinə olduğu kimi yazdırmaq və həqiqəti bəşər dünyasına çatdırmaq idi. İmam Hüseynin (ə) in-sanların boynunda nə qədər haqqı var idisə, onun ürəyi dağlı bacısı Həzrət Zeynəbin (s.ə.) də bir o qədər haqqı vardır.

Çünki İmam Hüseynin (ə) şəhadətinin əzəmətini bacısı Həzrəti Zeynəb (ə) öz əsirliyi ilə təkmilləşdirdi. Əgər Həzrəti Zeynəb (s.ə.) orada olmasaydı, İmam Hüseyn (ə) şəhid olan-dan sonra onun haqqını camaata çatdıracaq bir kəs olmaz və O Həzrətin (ə) şəhadəti

nəticəsiz qalardı. Doğrudan da, əgər Həzrəti Zeynəb (s.ə) İmam Hüseynə (ə) kömək edib Kərbəladan Kufə və Şam şəhərinə əsir aparılmasaydı və oradan Mədinəyə qayıtmasaydı, Yezid və onun əlaltıları Kərbəla faciəsini kiçik və əhəmiyyətsiz bir hadisə kimi qələmə verəcəkdi. Çünki Yezid öz hiyləgər siyasətini axıra qədər icra etmək istəyirdi. Yezid Kərbəla qiyamının mahiyyətini tam əksinə təbliğ etmək, İmam Hüseynin(ə) səltənət fikrində olub, İslam ölkələrində fitnə yaratmaq istədiyini təlqin etməyə çalışırdı.

Lakin Həzrəti Zeynəb (s.ə.) Yezid kimi Allah düşməninin qarşısında İmam Hüseynin (ə) hədəfini bütün aləmlərə çatdır-dı. Yezidin Şam şəhərində təşkil etdiyi şadlıq məclisində müx-təlif İslam ölkələrindən gələcək nümayəndələr iştirak edirdi. Həzrət Zeynəb (s.ə.) həmin məclisdə öz tarixi xütbəsini söylə-yib, Bəni-Üməyyənin qəsbkar hakimiyyətini ifşa edərək, İmam Hüseynin (ə) izzətini, şərəfini, yüksək məqamını sübuta yetirdi.

Həzrət Zeynəb (s.ə.) öz əsirliyi müddətində İmam Hüseynin (ə) ali hədəfini xalqa çatdıraraq, onlara həqiqəti başa saldı və Yezidin Kərbəla hadisəsini camaatın zehnindən silib yaddan çıxartmasına mane oldu. Bu səbəbdən də Həzrət Zeynəbin (s.ə.) bizim boynumuzda böyük haqqı var. Gərək bütün möminlər Həzrəti Zeynəbi (s.ə) yada salıb onun İslam və müsəlmanlara etdiyi böyük xidməti insanlara təqdim etsinlər. Qoy bütün müsəlmanlar Həzrət Zeynəbin (s.ə.) ilahi ruhiyyəsindən və Allahın ona verdiyi vilayət məqamından bəhrələnsinlər.

Həzrət Zeynəb (ə) 56 il ömür sürmüşdür. Məşhur rəvayətə əsasən, onun ömrünün axır vaxtlarında Mədinədə qıtlıq ol-muşdu. Həzrət Zeynəbin (s.ə.) həyat yoldaşı Əbdüllah İbn Cə-fərin Şamda bir tarlası vardı. Çarəsiz qalıb oraya gedirlər. Orada Həzrət Zeynəbin (s.ə.) vəziyyəti ağırlaşır və dünyadan köçür. Onu Əbdüllah İbn Cəfərin torpaq sahəsində dəfn edir-lər. Hal-hazırda o xanımın məqbərəsi böyük ziyarətgah və di-ləklər qapısıdır.

# IV BÖLÜM

***Dara düşdükdə, çətin vəziyyətdə qaldıqda sarılacağımız iki silahımız var: Səbr və namaz.***
***Bunlar Allah-Təalaya yaxınlaşacağımız ən gözəl vasitələrdir.***
***Necə ki, N.Gəncəvi və S.Şirazi deyib:***

***Namaz insan mənliyinin süzgəcidir, bir an dayan!***
***Namazın yoxdursa əgər mənliyin yox buna inan!***

***Bulanıq axan bir çaya, süzgəc qoysan təmizlənər,***
***Namaz qılsa nicat tapar, bulanıqdan bil ki, insan.***

***Ağıllı adamlar səbirsiz olmaz,***
***Keçi bir arpayla heç ətə dolmaz.***

***Qardaşım, qəm çəkib etmə ahu-zar,***
***Allahın çox gizli mərhəməti var.***
***Zəmanə dərdindən çəkmə qəm, kədər,***
***Səbr acı olsada, şirin bar verər.***

# NAMAZ MÖMININ MERACIDIR

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Müsəlmanam deyən adam,***
***Şərti nədir bilsin gərək.***
***Tanrı buyruğunu tutub,***
***Beş vaxt namaz qılsın gərək.***[1]

Allah-Təala Qurani-Kərimin ***«Ənkəbut»*** surəsinin 45-ci ayəsində buyurub:

***"Bu kitabdan sənə vəhy olunanı tilavət elə. Və namaz qıl, çünki namaz adamı pis və yaramaz əməllərdən saxlar və Allahı yad etmək daha böyükdür, Allah gördüyünüz işlərdən agahdır".***

Bu ayədən aydın görünür ki, namaz insanı bütün çirkinliklərdən saxlayır. Namaz qılan oğurluq, zina, qeybət və s.kimi çirkin işlərə əl atmaz, yalan danışmaz, böhtan söyləməz.

Ruhi xəstəliklərin əlacı namazdır, namaz qılan ölümdən qorxmaz. Tamam günahların kökü, mərkəzi insanın ürəyində-dir. İnsanın qiyamətə inamı olsa namaz qılar**.**

***"Namaz"*** **–** bütün yaxşı işlərin köküdür.

Şair gözəl demişdir:

***Namaz insan mənliyinin süzgəcidir, bir an dayan,***
***Namazın yoxdursa əgər, mənliyin yox, mənə inan.***

Peyğəmbər (s) buyurmuşdur:

***"Elə ki, namaz vaxtları yetişir bir məlaikə Allahın hüzurunda durur və səslənir: Ey insanlar, durun o odlarınızın tərəfinə, o odlar ki, kürəyinizdə yandırmısız, söndürün o odları namazla".***

İbadətlərin ən əfzəli namazdır, insan kamala çatmaq üçün bu dünyaya gəlir. Kamala yetişmək Allaha yaxın olmaqla

---

[1] ***Türk şairi dərviş Yunis İmrə***

mümkündür. Biz nə qədər Allaha yaxın olsaq bir o qədər çox kamala çatmış olarıq.

İmam Rza (ə) buyurub:

***"Namaz hər təqvalı mömini Allaha yaxın edir".***

Təqva sahibi o müsəlmandır ki, günah etmir.

Şair F.Cəfakeş bir qəzəlində namaz haqda belə yazır:

***Təqva əməldə şah isə, gər tacıdır namaz,***
***Məşuqə yetsin aşiqə meracdır namaz.***

Peyğəmbər (s) buyurub:

*"**Namaz möminin meracıdır".***

Namaz bir vasitədir ki, söminə qol-qanad verir, onu yüksəkliyə Allaha tərəf aparır.

İmam Sadiq (ə) buyurub:

"Əgər sizlərdən birinin qapısından bir çay axsa və o şəxs hər gün orada beş dəfə yuyunsa, onun bədənində çirk qalarmı? Həqiqətən namaz belə bir çaya bənzəyir. Namaz qılan şəxsin namazı onun günahlarının kəffarəsidir".

Allah-Təala *«**Məryəm**»* surəsinin 31-ci ayəsində İsanın (ə) barəsində belə buyurur:

***"Və harada olsam, mənə bərəkət veribdir və yaşayanacan. Mənə namaz və zəkat vəsiyyət qalıbdır".***

Bu ayədən göründüyü kimi Allah-Təala İsadan (ə) namaz qılmağı tələb edir.

Namazla hər əmələ qiymət verilir. Namazsız bizim qalan əməllərimiz sıfır dərəcəsindədir. Əgər namaz qəbul olmasa di-gər əməllər də qəbul olmaz.

***Elə bir bəxşi-Xudadır bizə dünyadə namaz,***
***Verər əcrin nə ki, dünyadə, həm üqbadə namaz.***

***Gör necə kamına çatdırdı Rəsulallahı,***
***Yetdi dərgahə qılıb «leylətul-Əsra»da namaz.***[1]

Peyğəmbər (s) buyurub:

*“**Namaz dinin sütunudur”.***

Deməli, dini saxlayan namazdır. Allahdan naümid olan namaz qılmaz. Namaz həm dini, həm ölkəni, həm də müsəlmanların birliyini saxlayır. Namaz nə qədər qüvvətli olsa, imanda bir o qədər qüvvətli olar. İnsan Allahı nə qədər yaxşı tanısa, namazı da bir o qədər aşiqanəliklə, arifanəliklə və ürək-lə qılar.

Peyğəmbərlər (s) və məsum İmamlar (ə) Allahı hamıdan yaxşı tanıyıb, sevdikləri üçün hamıdan artıq ibadət edirdilər. Həmişə və hər halda onu düşünürlər, uzun səcdələri, davamlı rükuları, ağlar gözlə qıldıqları gecə namazları və ürəkdən etdikləri duaları vardı.

Həzrət İbrahimin (ə) Allahın dostluğu dərəcəsinə çatmasının və «***Xəlilullah»*** olmasının səbəbi onun namazda etdiyi uzun səcdələri idi.

Həzrət Musa (ə) hər bir müstəhəb namazdan sonra üzü-nün sağ və sol hissələrini torpağa qoyardı.

İmam Kazım (ə) sübh namazından sonra səcdəyə düşüb, xeyli müddət səcdə halında qalardı.

İmam Səccad (ə) hər bir səcdədə o qədər Allahın adını təkrar edib, səcdələrini uzadardı ki, səcdədən qalxanda qan-tər içində olardı. O Həzrətə(ə) uzun səcdələri üçün *“**Səccad”*** deyi-lir və səcdənin əsəri onun alnında görünürdü.

Həzrət Əli (ə) o qədər rüku halında dayanıb qalarmış ki, mübarək qıçları tərlərmiş.

Həzrəti Əli (ə) bir hədisdə namazın fəziləti haqda buyurur:

***“Əgər namaz qılan şəxs Rəbbinin sonsuz rəhmətinin onun halına necə şamil olduğunu bilsəydi, heç vaxt başını səcdədən götürməzdi”.***

---

[1] ***Axund Hacı Soltan***

***Gör namaz üstə necə Həzrət Əli oldu şəhid,***
***Yazaraq ahı ilə ərşi-müəlladə namaz.***

Allahın Peyğəmbəri (s) namazın vurğunu idi və namazı o qədər sevirdi ki, namaz vaxtının çatması üçün dəqiqələri sayır-dı, namaz vaxtı çatdıqda namaza tələsirdi.

Peyğəmbər (s) buyurur:

***"Allah, namazı gözümün nuru etmiş, onun məhəbbətini ürəyimə salmışdır. Ac və susuz adam su içib, xörək yedikdə doyur, mömin isə namaz qılmaqdan heç vaxt doymur".***

***Gözümün nuru namazdır, dedi Peyğəmbərimiz,***
***Bu səbəbdən qətidir hər günü fəryadə namaz.***

O Həzrət(s) namaz qılarkən ürəyi titrəyir, Allahın qorxu-sundan əsirdi. Peyğəmbər (s) gecənin çoxunu ibadətlə keçi-rirdi.

Peyğəmbər (s) buyurmuşdur:

***"Mən behişti sizin üçün zəmanət edirəm, bu şərtlə ki, uzun səcdələrlə mənə yardım edəsiniz".***

Qurani-Kərim Peyğəmbərin (s) səhabələrinin simasını be-lə təqdim edir:

**"Fəth"** surəsi, 2-ci ayə: ***"Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahından riza və lütf diləyən görərsən. Onların əlamətləri üzərində olan səcdə nişanəsidir".***

Şair Hacı Yusif ***"Namaz"*** rədifli ***"Müxəmməs"***ində na-mazı belə vəsf edir:

***İslam övladı üçün öncə şəhadətdi namaz,***
***Pak olan qəlbə qida, ruha şəfaətdi namaz.***
***Şəriət hökmünə əlbəttə itaətdi namaz,***
***Səcdə et, yığ yükü yük üstünə sərvətdi namaz.***
***Allaha səcdədi, Peyğəmbərə hörmətdi namaz.***

İmam Sadiq (ə) İmam Hüseynin (ə) türbəsindən başqa heç bir şeyə səcdə etməyib buyurardı:

***“İmam Hüseynin (ə) türbəsinə səcdə etməyin elə nuraniyyəti vardır ki, bütün pərdələri aradan qaldırır”.***

İmam Sadiqin (ə) bu hədisindən aydın görsənir ki, Sey-yidüş-Şühada (ə) türbəsinə səcdə etmək din yolunda fədakarlıq və cihad edib, şəhid olmağı ilham edir və namaz qılan Kərbəla da baş verən hadisələrdən xəbərdar olub və Kərbəlanın verdiyi yüksək mədəniyyətlə tanış olur.

***Kərbəlada boyanıb qanə Hüseyn teşnə susuz,***
***Qan ilə aldı vuzu, qıldı o səhradə namaz.***

Peyğəmbər (s) və İmamlar (ə) namaz qılanda bilirdilər ki, nə iş görürlər və kimin hüzurunda dayanıblar, İmam Həsən (ə) dəstəmaz alıb, üzü qibləyə dayanıb namaz qılarkən Həzrə-tin(ə) rəngi dəyişirdi. İnsanın qıldığı namaz onun imanının mizanıdır. Kim nə cür namaz qılsa, mərifəti, imanı, ədəbi də bir o qədərdi, namazda bu deyilənlərin hamısı bilinir. Namaz qılan qılmayandan yaxşıdır. Namaz qıldıqca adamın mərifəti çoxalır, mərifəti çoxaldıqca namaz gözəlləşir. Bəs namaz qılmayan necə?

***Namaz insan mənliyini günahlardan təmizləyər,***
***Sənsə qəflətdə yatmısan, qalxmayırsan o çirkabdan.***

***Namazın yox, paklığın yox, Allahınla yox əlaqən,***
***Çiyninə minmişdir sənin, sürür səni rəzil şeytan.***

Bizim namaz qılıb-qılmadığımız Allah üçün zərrəcə belə xeyri və yaxud ziyanı yoxdur. Namaz qıldıqca özümüz pis əməllərdən uzaqlaşıb, ruh paklığına və ruh saflığına çatırıq. Namaza eitinasız yanaşdıqda isə bir çox ictimai və mənəvi nemətlərdən məhrum oluruq.

Bir halda ki, bizim səadət və xoşbəxtliyimiz Allahın dərgahına üz tutmaqdır  və onun bol nemətləri qarşısında şükür etməkdir. Bu ibadət nəticəsində insan yalnız Allahı anır,  Alla-hı

anmaq isə insanı pozğunluq və günahdan, zülm etməkdən çəkindirir.

Haqq aşiqi Yunis İmrə ***"Müsəlmanam"*** deyən adamlara ***namaz*** barədə belə tövsiyyə edir:

***Sənə derəm, ey dostum,***
***Dur ertə namazına!***
***Əgər dirisən oyan,***
***Dur ertə namazına!***

***Namaz qıl yaraq olsun,***
***Axirətdə gərək olsun.***
***Qəbrində çıraq olsun,***
***Dur ertə namazına!***

Və yaxud:

***Hər kim bu sözdən almadı,***
***Beş vaxt namazı qılmadı.***
***Bilin müsəlman olmadı,***
***Cəhənnənə girsin gərək.***

Bu gün cəmiyyətdə bir söz insanları daha çox özünə cəlb edir. Mənim ürəyim pak, qəlbim düzdür, niyə namaz qılım? Bu söz nəfsin istəyidir və şeytani bir sözdür.

Allahın həqiq bəndəsi olan bir adam şeytana aldanıb, həva-həvəsin əsiri və köləsi olmaz. Allahın qarşısında təslim olub, namaza duran adam heç bir zaman tağut və şeytan qüvvələrinə tabe olmaz, onların qarşısında baş əyməz.

***"Mənim ürəyim düzdür"*** – deyənlərə üz tutub deyirik ki, bizim heç birimizin ürəyimizin paklığı haqda Qurani-Kərimdə ayə nazil olmayıb. Amma Peyğəmbərin (s) və İmamların (ə) ürəklərinin paklığı barədə Qurani-Kərimdə çoxlu ayələr nazil olub. Biz Peyğəmbərin (s) və İmamlarımızın (ə) necə namaz qılması barədə əvvəldə söhbət açdıq. İndi isə Peyğəmbərin (s) və İmamlarımızın (ə) ürəklərinin pak olması haqda nazil olan ayələrdən ikisini yazımızda qeyd edirik.

***“Əhzab*** *”* surəsi, 21-ci ayə:

***“Həqiqətən Allahın Rəsulu, sizlərdən Qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün ən gözəl nümu-nədir”.***

Bu ayədən aydın görsənir ki, Allah-Təala Peyğəmbərin (s) gözəl əxlaq və davranışını müsəlmanlar üçün örnək qərar ve-rib. Bir nəfər müsəlman öz dünya görüşünü, baxışını islah edib, mükəmməlləşdirməli olsa, o zaman əziz islam Peyğəmbəri-nin(s) müqəddəs davranışlarını özünə ülgü qərar verər.

Böyük satira ustası, S.Ə.Şirvani məktəbinin ən ləyaqətli davamçısı M.Ə.Sabir M.Füzuliyə yazdığı bir «Təsdis»ində Peyğəmbərin (s) yüksək məqamını belə qləmə alıb və mənəvi nemətə görə Allah-Təalaya şükür edir.

***Şükrü-lillah ki, bizə şamil olub lütfi-xuda,***
***Bu mübarək günü dərk etməyə ömr etdi vəfa.***
***Eydi-mövludi-Nəbidən gözümüz tapdı ziya,***
***Qılın ey ümməti-mərhumə bu gün vəcdü səfa.***
***Əşrəqət min-fələki-bəhcəti-şəmsün və biha,***
***Mələəl-aləmə nurən və sururən və bəha.***

***“Əhzab”*** surəsinin 33-cü ayəsində buyurur:

***“Allah istəyir pisliyi siz Əhli-beytdən (ə) uzaqlaşdırsın və sizi tamamilə pak etsin”.***

Ümmi Sələmə(ə) deyir:

“Bir gün Rəsulallah(s) mənim evimdəydi və mən evin as-tanasında əyləşmişdim bu ayə nazil oldu. Bu vaxt evdə olan şəxslər bunlardan ibarət idi. Muhəmməd (s), Əli (ə), Fati-mə(s.ə.), İmam Həsən (ə), İmam Hüseyn (ə)”.

Peyğəmbər (s) onları əbasının altına alıb dedi:

***“Ey Pərvərdigara, şahid ol bunlar mənim Əhli-beytimdir”.***
Ümmi Sələmə(ə) deyir:

***“Ya Peyğəmbər (s), mən də Əhli-beytdənəm?”***

Peyğəmbər (s) buyurdu:

“Ey Ümmi Sələmə(ə), sən aqibəti xeyrli xanımsan, möminlərin anasısan və Peyğəmbərin (s) xanımısan! Lakin bu məqam sənə aid deyil”.

Sözə əhya verən, neçə-neçə şairlərin və qələm sahiblərinin ustadı Əlinin (ə) aşiqi və İmam Hüseynin (ə) xidmətçisi və şairi Mövlanə Muhəmməd Füzuli bu barədə “***Olsun***” rədifli qəsidəsində Əhli-beytin(ə)  necə yüksək məqam sahibləri olduğu-nu xatırladır.

***Mənə Xaliq o şərt ilə veribdir hüsnü-göftarı,***
***Ki, Mövla gülşənində bülbülü-dastansəra olsun.***

***Gah alsın «İnnəma» bağındakı güllərdən ilhamı,***
***Sapa inci düzərkən dürrü, bəhri, “həl-əta” olsun.***

***Gəda tək ummaram pay süfrəsindən bir kəsin, əmma,***
***Könül istər Əlinin asitanında gəda olsun.***

***Dilim varmaz Əlidən qeyri bir Sultanı mədh etsin,***
***Budur arzum ki, məmduhim Əliyyi-Murtəza olsun.***

Əhli-beytin (ə) belə yüksək məqam sahibi olmaqlarına baxmayaraq, onlar heç vaxt bizim ürəyimiz düzdür, niyə namaz qılaq demədilər.

Həzrət Əli (ə) və İmam Hüseyn (ə) namaz üstə şəhid oldular.

Şairə Kəmalə Ağayeva yazır:

***Sənin başın qızıl qanə boyandı,***
***Sübh namazın ta yarımçıq dayandı.***
***Bu günahdan dağ od tutub, daş yandı,***
***Ulduzlara düşdü səda, ya Əli.***

İmam Hüseyn (ə) Kərbəla çölündə 72 qurban verdikdən sonra bacısı Zeynəbə(ə)  üz tutub deyir:

***Budur əhdim ki, gərək burda qılam bacı namaz,***
***Qan içində eliyəm həqq ilə bir razu-niyaz.***
***Can verən vəqtidə meydanda qılam bacı namaz,***
***Dəstəmazım ola bu şərt ilə öz qanım ilən.***[1]

Peyğəmbərlər(ə) və İmamlar(ə) həmişə namazı yüksək tutmuş və namaz haqqında çoxlu hədislər söyləmişlər.

Rəsuli-Ək-rəm Həzrəti Muhəmməd (s) buyurub:

***"Namazı yüngül sayanlar məndən deyil. Allaha and olsun ki, belə bir şəxs mənim yanıma (kövsər hovuzuna) gələ bilməz".***

Qurani-Kərimdə namaz haqda çoxlu ayələr var. Həzrəti Zəhra (ə) haqqında nazil olan ***"Kövsər"*** surəsinin 1-ci ayəsində Allah-Təala Peyğəmbərə (s) buyurub:

***"Biz sənə Kövsəri bağışladıq".***

Kövsərin əsas mənası Zəhra(s.ə) və ondan dünyaya gələn İmamlardır(ə). Sənə bu neməti verdim, kövsəri verdim, Fatimeyi-Zəhranı(ə) verdim, imaməti, vilayəti verdim. İndi sən də lazımdır bir təşəkkür edəsən. Yaxşı, Allah-Təala bizə bu nemətləri, bu vücudu, bu ağıl, bu dərk etmə qabiliyyətini verib, indi istəyirik ona təşəkkür edək, nə cür təşəkkür eləyək. Allah-Təala özü ***"Kövsər"*** surəsinin 2-ci ayəsində buyurub:

***"Onda Pərvərdigarın üçün namaz qıl və dəvə qurban kəs".***

Peyğəmbərin (s) ürəyinin paklığı haqda Allah-Təala şəha-dət verdiyi halda, onu namazdan azad etmir. Çünki ən gözəl təşəkkür ən əla təşəkkür namazdır ki, Allah-Təala onu bizdən istəyir.

Şeyx Sədi bir şeirində deyir:

***Namaz qılmayana borc vermə aman,***
***Aclıqdan şikayət etsə də həman.***
***O, Allah borcunu vermirsə əgər,***
***Bəndənin borcunu de necə verər?***

---

[1] ***Hacı Əbülhəsən Raci***

***"Ənbiya"*** surəsi 73-cü ayə:

***"Biz vəhy elədik onlara yaxşı işlər görsünlər və namaz qılsınlar".***

Bu ayələrdən bir daha aydın olur ki, hər işdən yaxşı, hər əməldən üstün, ən əla əməl namazdır.

Bu bölumu Görkəmli Əhli-Beyt şairlərindən olan Hacı Yusif Qulammirzə oğlunun ***"Namaz"*** haqqında yazdığı bir ***"Müxəmməs"***indən iki bəndlə tamamlayırıq:

***O namaz ki, onu vaxtilə Peyğəmbər qılmış,***
***Tanrının şiri, o həqq aşqi, Heydər qılmış.***
***On bir övladı ilə Fatimə yeksər qılmış,***
***Dur qoşul sən də bu sıx cərgəyə, vəhdətdi namaz,***
***Allaha səcdədi, Peyğəmbərə hörmətdi namaz.***

***Tövbə et keçmişinə, bəlkə də ömrün var hələ,***
***Hər namaz vaxtı tələs, sən də bu xeyrül-əmələ.***
***Qibləyə üz tutaraq üz-üzə dur Rəbbin ilə,***
***Aşiqin məşuq ilə etdiyi söhbətdi namaz,***
***Allaha səcdədi, Peyğəmbərə hörmətdi namaz.***

Allah-Təala bizim hamımızı namaz qılıb, oruc tutanlar-dan qərar versin.

# FƏZILƏTLI AYLARINIZ MÜBARƏK!

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Rəcəb, Şaban*** və ***Ramazan*** ibadət və mənəviyyat dövrü olaraq,digər aylara nisbət daha üstün şərəf və fəzilətə malikdir.

***Rəcəb***-dua və münacat ayıdır. Cahiliyyət dövründə insan-lar hacətlərini diləmək üçün bu ayı səbirsizliklə gözləyirdilər. Bəzi rəvayətlərə görə, bu ay Əmirəl-mömini-nin(ə) adı ilə bağlıdır. Belə ki, Şaban ayı Peyğəmbərimizin(s), mübarək Ra-mazan ayı isə Allahın ayı adlanır.

Həzrət Rəsuli-Əkrəmdən (s) nəql edilən bir hədisdə belə buyurulur:

***"Rəcəb Allahın böyük ayıdır. Heç bir ay hörmət və fəzilət-də bu aya çata bilməz. Bu ayda kafirlərlə döyüş haramdır. Kim Rəcəbin bir gününü oruc tutsa, Allahın razılığını qazanmış olar. Allahın qəzəbi ondan uzaqlaşar və cəhənnəm qapılarından biri onun üzünə bağlanar".***

İmam Museyi Kazimdan (ə) belə rəvayət edilir.

***"Kim Rəcəb ayında bir gün oruc tutsa,cəhənnəm atəşi bir illik məsafədə ondan uzaqlaşar. Kim üç gün oruc tutsa,cənnət ona vacib olar."***

Allahın Rəsulu (s) buyurur:

"Allah yeddinci səmada ***"dai"*** adlı mələk qərar veribdir ki, Rəcəb ayı yetişdikdə bu mələk hər gecənin əvvəlindən süb-hə kimi belə nida edər: ***-Xoş Allaha itaət edən və Allahı yad edən hər kəsin halına".***

Allah-Təala buyurur:

***"Mənlə söhbət edənlə, mən də həmsöhbət olaram. Mənə itaət edənin, mən də istəklərini yerinə yetirərəm. Məndən bağışlanmaq diləyəni bağışlayaram. Ay mənim ayım, bəndə mənim bəndəm,rəhmət isə mənim rəhmətimdir. Məni bu ayda çağıran hər kəsə cavab verər və istədiyi hər şeyi ona əta edərəm. Məndən yol istəyənə yol göstərərəm. Bu ayı bənd (ip) kimi qərar vermişəm ki, hər kəs ondan tutsa mənə yetişəcək".***

# İSTIĞFAR VƏ TÖVBƏ DÖVRÜ.

İmam Sadiqdən (ə) nəql edilən hədisdə deyilir ki, Rəsul-Əkrəm (s) buyurub:

"Rəcəb mənim ümmətim üçün bağışlanmaq ayıdır.Bu ayda istiğfar edin (tövbə edin və bağışlanmaq diləyin), çünki Haqq-Təala bağışlayan və rəhmlidir.Rəcəb ayına ***"asabb"*** da (dolu,mükəmməl) deyilir, çünki bu ayda mənim ümmətimin üzərinə çox rəhmət yağar.O halda bu zikri çox söyləyin:

***"Əstəğfirullahə və əsəluhut-təvbə". (***Allahdan bağışlanma və tövbə diləyirəm).

İbn Babəveyh Salimdən belə rəvayət etmişdir:

"Rəcəb ayının sonuna bir neçə gün qalmış İmam Sadi-qin(ə) yanına getmişdim.Məni görən kimi belə buyurdu:

***"Ey Salim! Bu ayda oruc tutdunmu?"***

Dedim: ***"Xeyr",***

İmam (ə) belə buyurdu:

***"O qədər savab itirmisən ki, miqdarını ancaq Allah (c) bi-lər. Bu, Allahın üstün etdiyi və hörmətini ucaltdığı bir aydır. Bu ayda oruc tutanlara ikram və bağışlamağı özü vacib etmiş-dir"***

Salim deyir:

***"Ey Rəsullulahın (s) oğlu,əgər Rəcəbin qalan günlərini oruc tutsam, bu ayda oruc tutanların savabının bir qismini əldə etmiş olarammı?"***- deyə soruşdum.

İmam(ə) buyurdu:

***"Ey Salim! Kim bu ayın axırında bir gün oruc tutsa,ölüm anındakı narahatlıqlardan, ölüm sonrasının vəhşətindən və qə-bir əzabından xilas olar.Kim bu ayın axırında iki gün oruc tut-sa,sirat körpüsündən asanlıqla keçər.Kim bu ayın axırında üç gün oruc tutsa,qiyamət gününün böyük qorxusu,dəhşət və çə-tinliklərdən xilas olar və ona cəhənnəm atəşindən qurtuluş bə-raəti verilər".***

# ORUC TUTA BILMƏYƏNLƏR ÜÇÜN ZIKR

Rəcəb ayının orucuyla əlaqədar çox fəzilət və savablar nəql edilmişdir.Bəzi üzrlərdən oruc tuta bilməyən şəxslər hər gün yüz dəfə bu zikri söyləsə, Rəcəb orucunun savabını (qismən də olsa) əldə edər:

***"Subhanəl-İlahil cəlil.Subhanə məhrum la yənbəğit-təsbihu illə-ləhu.Subhanəl-əəzzil-əkrəm.Subhanə mən ləbisəl-izzə və huvə ləhu əhlun".***

***Hər gün namazlardan sonra oxunan dua***

Seyid İbn Tavus (r.ə) Məhəmməd İbn Zəhvandan (r.ə) belə nəql edir:

İmam Cəfər Sadiqə(ə) müraciətlə "Canım sənə fəda, Rəcəb ayına daxil olub Allahın məni faydalandıracağı bir duanı öyrətməyini istəyirəm" -deyəndə o Həzrət **"yaz",-**deyə buyurdu.

***Bismilləhir-rahmənir-rahim.*** Rəcəb ayının hər günündə axşam, səhər,gecə və gündüz vacib namazların ardından bu duanı oxu: ***"Ya mən ərcuhu li-kulli xəyir və əmənu səxətəhu ində kulli şərr.Ya mən yuti-kəsrə bil-qalil.Ya mən yuti mən səələh.Ya mən yuti ləm yəsəluhu və mən ləm yərifhu təhənunəm-minhu və rahməh.İtini bi-məsələti iyyək cəmiən xayrid-dunyə və cəmiə xayril-axirəh,vasrif ənni bi-məsələti iyyək cəmiə şərrid-dunya və şərril-axirəh.Fə-innəhu ğayru mənqusim-ma ətəytə vəzidni min fazlikə ya kərim".***

Ravi belə davam edir: Sonra İmam (ə) sol əliylə saqqalını tutduğu halda sağ barmağını hərəkət etdirərək bu duanı oxudu və ardından bu cümlələri əlavə etdi:

***"Ya zəl-cəlali vəl-ikram.Ya zən-nəmai vəl-cud.Ya zəl-mənni vət-tavl.Hərrim şəybəti ələn-nar".***

***Rəcəbin gündəlik zikrləri***

1.Min dəfə "Əstəğfirullahə zəl-cəlali vəl-ikarmi min cəmiz-zunubi vəl-asam" deмək.

Şeyx Səduq rəvayət edir ki, əgər bir şəxs Rəcəb ayında bu zikri min dəfə deyərsə, Allah-təala buyurar:

***"Əgər bağışlamasam,sizin Allahınız deyiləm."***

2.Ay ərzində *"La ilahə illəllah" zikrini min dəfə demək.*

***3.Yüz dəfə "Əstəğfirullahəl-ləzi la ilahə illa huvə vəhdəhu lə şərikə ləh və ətubu iləyh"*** demək.

4.Sübh və axşam çağı 70 dəfə ***"Əstəğfirullahə və ətubu iləyh" demək.***

***Ayın əlamətdar günləri***

Rəcəbin biri İmam Məhəmməd Baqirin (ə) doğum günündür. Çox şərafətli gündür. Bəşir Dəhlan Umar Cəfər Sadiq-dən(ə) nəql edir ki, İmam (ə) buyurdu:

"Hər kim Hüseyn ibni Əlini (ə) Rəcəbbin birində ziyarət etsə, Allah-təala onu bağışlayar."

***Rəqaib*** gecəsi (Rəcəb ayının birinci cümə axşamının gecəsidir).Allahın Rəsulu (s) buyurur:

***"Rəqaib gecəsindən qafil olmayın, çünki bu gecəni göyün mələkləri "rəqaib" adlandırıblar.Gecənin üçdə biri keçəndən sonra göyün və yerin mələkləri Kəbənin kənarında və içində cəm olarlar və Allah onlara buyurar: Ey mənim mələklərim,məndən hər nə istəyirsiniz istəyin".***

Onlar deyərlər:

***"İlahi, Rəcəb ayının oruc tutanlarını bağışla".***

Allah buyurar: ***"Bağışladım".***

Rəcəb ayının 13-cü günü İmam Əlinin (ə) doğum günüdür.

Bu gündə Allah dostlarının ağası, Əziz Peyğəmbərimi-zin(s) qardaşı, Həzrət Fatimənin (s) həyat yoldaşı, Kəbənin övladı Həzrəti Əli(ə) dünyaya göz açıb.

Rəcəb ayının 27-si Həzrət Məhəmmədin (s) besətidir.Çox əzəmtli və şərəfli olan bu gündə Həzrət Məhəmməd (s) 40 yaşında Allah tərəfindən Peyğəmbərliyə seçilib və Quran Peyğəmbərə (s) nazil olub.

# RAMAZAN ALLAHIN SEVDIYI AYDIR

***Bismillahir-rəhmanir-rəhim!***

***Acından pay yığsan, harama uyma,***
***İşlərin ən təmiz, gözəli budur.***
***Oruc tut, namaz qıl, yalan danışma,***
***Dünyanın axırı, əzəli budur*** [1]

Dünya müsəlmanlarının müqəddəs Ramazan ayı mübarək qədəmlərini məmləkətimizə qoydu. Əzəmətli müsəlmanların evində Orucluq niyyətləri tutuldu, əllər haqqın dərgahına uzandı, dillər dualara bələndi, Orucluq ayı başlandı.

Şaban ayının axırıncı cüməsi Peyğəmbər (s) məscidə gəlib minbərə çıxdı və xalqı Ramazan ayının gəlməsi ilə müjdələdi. Əziz islam Peyğəmbəri (s) Allahı həmdü-səna etdikdən sonra belə buyurdu:

***"Allahın ayı sizə tərəf gəlir. Bu günləri bütün günlərdən, gecələri bütün gecələrdən, saatları bütün saatlardan əfzəl olan bir aydır. Bu ayda siz Allah qonaqlığına dəvət olunmusunuz və Allahın sizə çox hörməti vardır. Nəfəsləriniz bu ayda təsbeh, yuxularınız ibadətdir. Bütün yaxşı və saleh əməlləriniz Allah dərgahında qəbuldur. Dualarınız bu ayda müstəcəbdir. Allahı saf niyyətlə çağırın ki, sizi bu ayın orucuna və Quran tilavətinə müvəffəq eləsin. Bədbəxt o insandır ki, Allahın mərhəmətindən uzaq ola. Ac və susuz qalmaqla qiyamət gününün aclığını və susuzluğunu yada salın".***

O Həzrət(s)sonra sözünə belə davam etdi:

***"Hər kəs bu ayda bir yaxşı iş görsə, digər aylarda etdiyi işdən 70 dəfə üstündür, hər kəs bu ayda bir oruc tutana iftar verərsə, bir qul azad etməyə bərabərdir və etdiyi günahlardan tə-***

---

[1] ***Kərəm Kürqıraqlı***

***mizlənir. Behiştin rəhmət qapıları açılıb, Allahdan diləyin ki, onları üzünüzə bağlamasın. Cəhənnəm qapıları bağlıdır. Allahda istəyin ki, o qapıları üzünüzə açmasın. Şeytanlar bu ayda zəncirdədir. Allahdan istəyin ki, onları sizə hakim etməsin".***

***Sidq ilə bu ayda eləyir şükrü-Xuda çün***
***Tapmışdı şəfaət Hacı Soltan Ramazanda.***

Allah-Təala Qurani-Kərimin ***"Bəqərə"*** surəsinin 183-cü ayəsində buyurur:

***"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə siz pis əməllərdən çəkinəsiniz".***

Bu ayədən aydın olur ki, oruc təkcə müsəlmanlara deyil, bütün millətlərə aiddir. Oruc sizə vacib oldu, ondan xatirə ki, təqva sihibi olasınız. Təqva insanın özünü günahdan qoruması deməkdir.

İnsan Allah-Təalanın qulu olmalıdır ki, başqalarına qul olmasın. Əziz İslam Peyğəmbəri Rəsuli-Əkrəm (s) üçün böyük iftixar Allaha qul olmaq idi. Çünki Allaha qul olmayan hamıya qul olar. Əvvəli budur ki, özünə qul olacaq, nəfsinə, şəhvətinə, qəzəbinə və s. Biz də əgər Allah-Təalaya qul olmaq istəsək gərək oruc tutaq ki, təqva sahibi olaq və həqiqi qul məqamına yetək. Təqva sahibi haqq yolla batil yolu bir-birindən ayırır.

Ulu Rəbbimizdən bircə diləyimiz var:

Özü gərək bildiyi duaları eşitsin, Oruc, namazlarımızı qəbul etsin, Amin!

# QURANI- KƏRIMIN BAHARI - RAMAZAN AYI

***Bismillahir-Rəhmanir-Rəhim!***

***“Ağıllı adamla dostluq bağlasan,***
***Bilik və mərifət alarsan ondan.”***[1]

İmam Sadliq (ə) buyurur: "Hər bir şeyin baharı var. Quranın baharı da Ramazan ayıdır".

Ramazan sözü "rəmz" kökündəndir, mənası "yandırmaq" deməkdir.

***Ramazan*** - Quranın nazil olduğu və Quranda adı çəkilən yeganə aydır:

***"Ramazan ayı bir aydır ki, Quran onda nazil olmuşdur"*** [2]

***"Təfsiri-Bürhan"***da İslam Peyğəmbərinin(s) belə buyurduğu nəql ounmuşdur: "Bütün səmavi kitablar Ramazan ayında nazil olmuşdur. Bu ay Allahın ən üstün ayıdır".

Ramazan ayına verilən ismlər (adlar) onu digər aylardan fərqləndrir:

***- Şəhrullah - Allahın ayı***
***- Şəhrullahi Əkbər - Allahın böyük ayı***
***- Şəhruz-ziyafətullah - Allahın ziyafət ayı***
***- Şəhrinzulil-Quran - Quranın nazil olma ayı***
***- Şəhrus-siyam - oruc ayı***
***- Şəhrul-İslam - İslam ayı***
***- Şəhrul-bərəkət - Bərəkət ayı***
***- Şəhrul-məğfirət - bağışlanma ayı***
***- Şəhrul azim - Əzəmtli ay***
***- Şəhrul-mübarək - bərəkətli ay***
***- Şəhrud-dua - dua ayı***
***- Şəhrul-ibadə - ibadət ayı və s.***

---

[1] ***N.Gəncəvi “İsgəndərnamə”***
[2] ***"Bəqərə", 185***

Ramazan İlahi qonaqlıq ayıdır. Süfrə sahibi Allahdır. Allah-Təala Özü şəxsən qonaqlığa dəvət etmişdir.

***Nazildi yerə rəhməti sübhan Ramazanda***
***Həm nazil olub ayeyi-Quran Ramazanda.***

***Hər kəs ki, oruc tutsa olur Xaliqə mehman,***
***Əlhəq tapacaq hər işi səhman Ramazanda.***

***Bu mahi-mübarək verəcək ruhə qidanı,***
***Pakizə olur ruhi-müsəlman Ramazanda.***

***Allah ayıdır, çün sayılır aylara sultan,***
***Möminlər edir sidqiylə ehsan Ramazanda.***

İslami rəvayətlərdə Ramazan ayı ***"Rəbiul-muminin - "möminlərin baharı"*** kimi vəsf edlmişdir. Həmçinin hədis var ki, Qəməri ayların əvvəlincisi Məhərrəm, övliyaların aylarının əvvəlincisi isə Ramazan ayıdır.

Peyğəmbər (s) buyurur:

***"Hər kəs Ramazan ayında Allaha görə oruc tutsa, bütün günahları bağışlanar".***

Ramazan ayının qidası ruhi qidadır və mənəvi təkamül üçün bu qida zəruridir. Bu qonaqlığın qida lütfü Quran ayələridir. Mənəvi dəyərlər ayı olan Ramazan ayında tilavət olmuş bir ayə digər aylarda bütün Quranı oxumağa bərabərdir.

***Maddi cismimə baxıb sanma həyat əhli məni,***
***Mənviyyata nəzər sal ki, vəfat eyləmişəm.***[1]

Qeyd olunduğu kimi Ramazan ayı qonaqlıq ayıdır. Bunun dünyavi qonaqlığa heç bir orxşarı yoxdur. Bu qonaqlıqda alim,

---

[1] ***Fəxrəddin Cəfakeş***

ğəni, xaliq, əbədi, əziz, cəlil Allah-cahil, fəqir, fani, yaranmış və zəlil insanları bir süfrə ətrafına toplayır və buyurur:

***"Oruc mənim üçündür. Mən onun əvəzini verərəm".***

"**Vəsailüş-şiə”**də oruc tutan şəxsin əxlaqı haqqında geniş bir rəvayət nəql olunur:

***"Oruc şəxs yalandan, günahdan, yersiz mübahisədən, həsəddən, qeybətdən, haqqa qarşı çıxmaqdan söyüşdən, danlaqdan, qəzəbdən, tənədən, zülm və xalqa əziyyətdən, qəflətdən günahkarlarla ünsiyyətdəndən, söz gəzdirməklə, haram yeməkdən uzaq olsun".***

Bu qonaqlıqda iştirakın şərti təkcə aclığa dözüm deyil. İslami rəvayətlərdə belə bir hədis nəql olunmuşdur: "Səmavi rəhbərlərin itaətindən çıxan, ailə və şəxsi məsələlərdə zövcəsi ilə pis rəftar edən, onun şəri istəklərini yerinə yetirməyən, valideynini narazı salan kəsin orucu qəbul deyil:

Belə şəxs İlahi ziyafətin şərtlərini yerinə yetirməmişdir".

***Bəqərə 184-cü ayə: "(Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!".***

Allah əmrinə təslimçilik bir dəyərdir. Əgər oruc tutmaq əmr olunursa oruc tutmalı, iftar etmək hökm olunursa, orucumuzu açmalıyıq.

Orucluq müəyyən bir müddət ərzində ac və susuz qalmaqdan ibarət olmayıb, özündə çox geniş anlamlar ehtiva edir. Oruc tutan şəxs maddi nemətdərdən çəkinməklə yanaşı, saleh əməllər yerinə yetirməli, gözəl əxlaq nümayiş etdirməli, insanlarla xoş davranmalı, bir sözlə bütün müsbət keyfiyyətləri öz mənəviyyatında zənginləşdirməlidir. Əgər insan oruc tutduğu halda çirkin işlər görərsə, nalayiq işlərə yol verərsə, Allahın

dərgahında heç bir mükafata layiq görülməz və bu insan orucluğun həqiqi gözəlliyini, faydasını dərk etməz.

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

***"Bir çox oruc tutanların mükafatı yalnız aclıq və susuzluqdur".***

İmam Sadiq (ə) buyurur:

***"Orucluq dilin, gözün, qulağın və qəlbin oruc tutmasıdır".***

Bu səbəbdən də Ramazan ayının orucu insan vücudunun pis əməllərdən təmizlənməsi üçün böyük əhəmiyyət kəsb edir. Peyğəmbərdən (s) nəql olunub ki, uca və qüdrətli Allah buyurmuşdur:

***"Hər kimi bədən üzvləri haram buyurduğum şeylərdən çəkinməsə, yolumda yemək-içməkdən imtina etməsi mənə lazım deyil".***

İmam Sadiq (ə) buyurur:

***"Oruc tutduğun zaman qulağın və gözün haramdan, bütün bədən üzvlərin isə pislikdərdən qorunmalıdır".***

Kəlbəldi Təbrizi orucluğun sonunun çatmasını təəsüf hissi ilə qeyd edərək yazır:

***Təəssüf ki, orucluq ayı artıq bitdi***
***Qocaya, həm cavana tövbə verən getdi.***
***Gəlmişdir o işləri salsın öz yoluna***
***Əxlaqsızlığımızdan cana gəldi, getdi.***

Hədislərdən belə aydın olur ki, insan bu mübarək ayda həm cismən həm də ruhən oruc tutaraq saflaşır. Özünü pis əməllər və günahlardan qorumaqla yanaşı dua, münacat, xeyir əməllər edərək Rəbbinə yaxınlaşır və Allahın dərgahında dəyərli bəndəyə çevrilir. Ramazan ayında insan Rəbbinin haram buyurduğu işlərdən çəkminməklə, özünü islah edir və əxlaqını gözəlləşdirir. Bu mübarək Ramazan ayının orucu insanın maddi aləmindən mənəvi aləminə nüfuz edərək onun bütün vücudunu təmizləyib mənəviyyatını saflaşdırır.

On bir ayın sultanı olan bu müqəddəs ay özündə mənəviyyatın əvəzolunmaz dəyərlərin ehtiva edir. Qəlbini həmin dəyərlərlə zənginləşdirən insan bir sıra nəcib və faydalı xüsusiyyətlərə sahib olur. İnsan səbr sahibi olur.

Həzrət Peyğəmbər (s) buyurur:

*"**Orucluq səbrin yarısıdır. Ramazan səbr ayıdır. Səbrin savabı isə cənnətdir**".*

İmam Sadiq (ə) buyurub:

*"**Əgər hər hansı bir bəla ilə üzləşsəniz, oruc tutun. Həqiqətən oruc səbrdir**".*

*"**Bəqərə**"* surəsi ayə 185-də buyurulub:

*"**İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona ("Allahu Əkbər" deməklə) tazim və şükür edəsiniz**".*

Ayədən aydın olur ki, Ramazan ayını dəyərli edən səbəblərdən ən mühümü bu ayda Qurani-Kərimin nazil olmasıdır. Həmçinin buyurulur ki, Ramazan ayının çatmasına əminlik yarandıqda oruc tutmaq vacib olur.

Qədr gecəsi Quranın bütöv şəkildə Peyğəmbərimizin (s) mübarək qəlbinə nazil olduğu gecədir. Bu gecə mələklərin enməsi, duaların qəbulu, ruhların lətafəti insanlara Allah-Təala tərəfindən bəxş olunan ən böyük nemətlərdir.

***Min aylıq ibadət ola əfzəldi şəbi-qədr,***
***Xaliq onu da etdi nümayan Ramazanda.***

***"Qədr"*** gecəsində insanların bir illik ehtiyacı təmin olunur və mələklərin nazil olması ilə Yer üzü zinətlənir.

Bu ayın qidası ruhi qidadır və mənəvi təkamül üçün bu qida zəruridir. Bu qonaqlığın qida lütfü Quran ayəldəridir. Ramazan

ayında tilavət olunmuş bir ayə digər aylarda bütün Quranı oxumağa bərabərdir.

***Təqsim olunur bəndə üçün ruzi bu gündə,***
***Əfv eylər onun çürmüm Yəzdən Ramazanda.***

Bu ayın fəzilətləri çoxdur. O fəzilətlərdən biri də günahların bağışlanmasıdır. Hədisdə qeyd olunur ki, Ramazan ayının əvvəli bərəkət, ortası rəhmət, axırı isə mükafatdır.

Orucluqda insan səhərdən axşama qədər tamam nemətlər-dən kənar olur. Oruc bizə nəfslə döyüşməyi öyrədir, insanı ira-dəli, cəsarətli edir. Orucluq ayında şeytanın əli-qolu bağlı olur.

İmam Zeynalabidin (ə) buyurur:

***«Təkcə dildən deyil, bütün üzvlərdən oruc olun».***

Hüşam İbn Həkəm İmam Zeynalabidinin (ə) tələbəsi olub, çox güclü iman sahibi idi. Hüşam deyir:

***"Mən İmam Sadiqdən (ə) Orucun illətin sual elədim".***

İmam Sadiq (ə) buyurdu:

***"Allah-Təala orucu vacib eləyib ta dövlətli ilə yoxsul bir olsun. Çünki dövlətli heç vaxt aclıq çəkmir ki, yoxsula rəhm elə-sin. Dövlətli hər zaman hər nə istəsə ona qüdrəti çatır. Allah-Təala istədi ki, xəlqi bir olsun və sərvət sahibi də aclığı dadsın, ta ürəyi yoxsullara yansın və aclara rəhm etsin".***

Oruc insanı hər cür çirkinlikdən saxlayır. Oruc cəhənnəm oduna qarşı bir maneədir.

***Oruc tutmursan ağlını salıb piyli bir qəfəsə,***
***Öz piyli, paslı beynini, ağlına etmisən zindan.***
***Murdar cisminin altında saxlayaraq pak ruhunu,***
***Orucsuz bəs o pak ruhun azadlığa çıxar haçan?***

İslam Peyğəmbəri (s) buyurur:

***"Sumu təsuhhu"*** – yəni, "***Oruc tutun ki, sağlam olasınız".***

Az yeməyin faydası haqqında İslam Peyğəmbərinin(s) və İmamlarımızın (ə) çoxlu hədisləri mövcuddur.

İslam Peyğəmbəri (s) buyurur:

***“Mədə bütün dərdlərin evidir. Az yemək bütün dərmanların başıdır”.***

Digər hədisdə Peyğəmbər (s) buyurur:

***“Çox yeməklə qəlbi öldürməyin”.***

Həzrət Əli (ə) oğlu İmam Həsənə (ə) buyurdu:

***“İstəyirsən sənə 4 xislət öyrədim və bu səni xəstəliklərdən qorusun.***

***1. Süfrə başında acmamısansa, qarnı tox oturma.***

***2. Doyunca yemə.***

***3. Tikəni ağzında çox çeynə.***

***4. Yatmazdan əvvəl ayaqyoluna get”.***

Bir yəhudi əziz Peyğəmbərimizdən (s) orucun illətindən sual edir və Həzrət (s) ona cavab verir, ta yetişir orucun sava-bına və sual edir ki, orucun savabı nədir?

Həzrət Peyğəmbər (s) buyurdu:

***“O insan ki, orucluq ayı Allahdan xatir oruc tutur, Allah-Təala ona yeddi xislət verəcək.***

***1. Haram onun bədənində əriyər;***

***2. Allahın rəhmətinə yaxın olar;***

***3. Həzrəti Adəmin (ə) xətasına bu kəffarədi;***

***4. Can vermək ona rahat olar;***

***5. Qiyamət günü ac və susuz olmayacaq;***

***6. Allah-Təala onu oddan azad eləyəcək;***

***7. Allah-Təala behiştin təmiz yeməklərindən ona yedirdə-cək”***

Ramazan ayının hörməti təkcə orucluğa görə yox, Qura-nın bu ayda nazil olmağına görədir. Ramazan ayı Quranın ba-harıdır. Orucluq hazırlıqdır ziyafətə.

İmam Sadiq (ə) buyurur ki, Allah-Təala belə buyurur:

***“Oruc mənim üçündür və mən də onun savabını verə-cəm”.***

***Bu Mahi-Mübarək verəcək ruhə qidanı,***
***Pakizə olur səhhəti-insan Ramazanda.***

# BIZIM 4 CÜR ORUCUMUZ VAR.

***Vacib oruclar 5 dənədir ki, bunlardır:***

**1**. ***Ramazan ayının orucu*** **–** hər bir müsəlmana vacibdir ki, bu bir ayı oruc tuta. Hər Kim xəstə olsa, Ramazan ayından başqa aylarda oruc tutsun.

Bu sözü Allah-Təala Quranda iki yerdə təkrar edir. Onlardakı qocadırlar, taqət gətirə bilmirlər aclığa, bir nəfər miskinə, yoxsula gündə bir dəfə yemək versin-lər.

***2. Ramazan ayının qəza orucu*** **–** hər kəs bu ayda oruc tuta bilməsə, səfərdə olsa, digər aylarda orucluğun qəzasın tutma-lıdır.

***3. Kəffarə orucu*** –billə-bilə orucu yeyən gərək kəffarəsini versin.

***4. Qurbanlıq əvəzi*** **–** o ki, Məkkəyə gedib hacıdır, orda şərait olmasa, yəni əgər həcc günlərində qurbanlıq tapılmadı, hacı 3 gün orda, 7 gün də vətəndə oruc tutur.

***5. Atanın orucunun qəzası***-böyük oğula vacibdir, ya gərək özü oruc tuta, ya da pul verə başqası onun yerinə atası-nın qəza orucunu tuta.

***Haram oruclar:***

**1.** Fitr bayramının orucu;

**2.** Qurban ayının orucu;

**3.** Yovmul - şəkk - Şabanın axırı, ya Ramazanın əvvəli;

**4.** Səfərdə oruc tutmaq;

**5**. O yerdə ki, ata-ana uşaqlarını oruc tutmaqdan kənar eləyə.

***Məkruh oruclar:***

Məhərrəm ayının 10-u oruc tutmaq məkruhdur.

***Müstəhəb oruclar*** **–** bu oruclar çoxdur.

Orucluq ayının üstün cəhəti odur ki, Ramazan ayından başqa heç bir ayın adı Quranda gəlməyib və ***«Qədr»*** surəsində Allah-Təala buyurur: “Şübhəsiz, biz onu Qədr gecəsi nazil etdik”.

Quran iki dəfə nazil olub. Bir dəfə Quran bütövlükdə nazil olub ki, bir neçə surədə bu qeyd olunub.***”Bəqərə”*** surəsi 185-ci ayə:

***«Quran insanları hidayət etmək, doğruluğun aydın yolunu göstərmək və haqq ilə batili bir-birindən ayırd etmək üçün Ramazan ayında nazil olmuşdur. Hər Kim bu ayın şahidi olsa, onda oruc tutmalıdır. Və hər Kim xəstə və ya səfərdə olsa, elə o qədər o biri günlərdə oruc tutmalıdır. Allah iradəsi sizə çətinlik deyil, rahatlıq dilər və siz o sayı tamamlamalısınız. Allah sizə doğru yol göstərdiyi üçün böyüklüklə yad edin və Allaha şükr edin».***

Bir dəfə də tədricən 23 il müddətində Cəbrayılın (ə) vasitə-si ilə ayə-ayə, surə-surə Peyğəmbərə (s) nazil olub.

Allah-Təala ***«İsra»*** surəsinin 106-cı ayəsində buyurulur:

***«Və Quranı ayrı-ayrı nazil etdik ki, yavaş-yavaş adamlara oxuyasan. Və nazil etdik və mükəmməl bir nüzul».***

İkinci dəfə Rəcəb ayının 27-də Peyğəmbərə (s) peyğəmbərlik veriləndən sonra Quran hissə-hissə nazil olur.

Oruc batini bir əməldir. Əməl nə qədər gizli olsa, Allaha bir o qədər çox yaxın olar. Peyğəmbər (s) həmişə Şaban və Ramazan ayı birgə, başqa aylardaisə 3 gün oruc tutardı.

Mübarək Ramazan ayının duası:

***«Bismillahir-rəhmanir-rəhim!***

***Ya Əliyyul, ya Əzim. Ya Ğəfuru, ya Rəhim. Əntər Rəbbul Əzim. Əlləzi leysə kəmislihi şəy. Vəhuvəs səmiul bəsir. Və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərəffətəhu və fəzzəltəhu ələş-şühur və hüvəş-şəhrulləzi fərəztə siyaməhu əleyə. Və huvə şəhru-Ramazan. Əlləzi ənzəltə fihil-Quran . Hüdən lin-nasi və bəyyinatin minəl huda vəl-furqan. Və cəəltə fihi ləylətəl-qədr. Və cəəltəha xəyrən min əlfi şəhr. Fəyazəl mənni və la yumənnu əleyk. Munnə ələyə bifəkaki rəqəbəti minən-nar. Fimən təmunnu ələyh. Və ədxilnil-cənnətə. Birəhmətikə ya ərhəmər-rahimin».***

Tərcüməsi belədir:

***Rəhman və rəhim Allahın adıyla!***

***“Ey uca və əzəmətli Allah! Ey bağışlayan və mehriban Allah! Sən o ulu Rəbbimizsən ki, heç yerdə mislin və bərabərin yoxdur. Və o, (Ulu Allah) hər şeyi eşidən və görəndir. Və bu ay***

***elə bir aydır ki, onu başqa aylardan daha əzəmətli, kəramətli, şərafətli və fəzilətli qərar verdin. Və bu, o aydır ki, o ayda oruc tutmağı mənə vacib etdin. Və o Ramazan ayıdır. Və bu ayda bütün bəşəriyyət üçün hidayət kitabı olan Quran nazil etdin ki, insanlar haqqı batildən ayıra bilsinlər. Və bu ayda «Qədr» gecəsini qərar verdin və bu gecəni min aydan da xeyirli etdin. Ey minnət sahibi ki, heç kim sənə minnət qoya bilməz, minnət qoy mənə, məni minnətli edib cəhənnəm atəşindən xilas et. Və məni cənnətə daxil et. Sənin mərhəmətinlə, ey rəhmlilərin rəhimlisi!”***

İftar duası:

***“Allahummə! Ləkə sumtu və əla rizqikə əftərtu və əleykə təvəkkəltu” – yəni, “Ey mehriban Allah! Sənin xətrinə oruc tutdum və sənin verdiyin halal ruzi ilə iftar açıb sənə təvəkkül etdim”.***

İslam Peyğəmbəri (s) buyurub:

***«Hər bir şeyin qapısı var və ibadətin qapısı da orucdur».***

Orucu batil edən şeylər – orucu batil edən 10 şeydir:

1. Yemək.
2. İçmək.
3. Cinsi əlaqə.
4. İstimna.
5. Qəsdən qusmaq.
6. Allaha, Peyğəmbərə(s) və İmamlara(ə) yalandan isnad etmək.
7. İmalə.
8. Başı bütövlükdə suya salmaq.
9. Gecə ərzində murdarlanmaq (əgər murdarsansa o başdan qüsl edilməlidir).
10. Huşunu itirmək.

# RAMAZAN AYINDA OLAN MÜHÜM HADISƏLƏR

1. Ramazan ayının 7-si - Əbu Talibin (ə) (Həzrət Məhəmmədin (s) əmisi və Əlinin (ə) atası) vəfatı.

2. Ramazan ayının 10-u - Həzrəti Xədicənin (ə) vəfatı. Həzrəti Xədicə (ə) və Əbu Talib (ə) hər ikisi eyni bir ildə vəfat ediblər. Bunların vəfatı İslam Peyğəmbərinə(s) çox ağır təsir etdi və o ili ***"Hüzn ili"*** adlandırdı.

3. Ramazan ayının 15-i - əziz İslam Peyğəmbərinin (s) nəvəsi, Həzrət Əlinin (ə) böyük oğlu İmam Həsənin (ə) mübarək mövludu.

4. Ramazan ayının 16-sı - Həzrəti Rəsuli Əkrəmin (s) Me-rac günü.

5. Ramazan ayının 17-si "***Bədr***" müharibəsi.

6.Ramazan ayının 19-u -Möminlərin ağası Həzrəti Əlinin(ə)zərbərlənməsi və 20 Ramazan Əmirəl-Möminin Əli-nin(ə) şəhadəti.

Bu 2 gecə də ***"Əhya gecəsi"*** hesab olunur. Yəni - Quranın nazil olduğu gecə.

***Əhya gecəsi çökdü bütün aləmə zülmət***
***Çün qanə batı bol Şahi-Mərdan Ramazanda.***

Bu məqaləni Əhli-beyt (ə) şairlərindən olan Ucar rayonu-nun Bayat kəndində doğulmuş, bir neçə kitabın müəllifi olan və böyük nüfuz sahibi kimi tanınmış əziz şair dostum Fəxrəd-din Meydanlının Ramazan ayı barədə yazdığı bir qəzəllə tamamlayıram.

***Göndəribdir müjdəsin, Rəbbim, müqəddəsdir bu ay,***
***Dinləsən haqq kəlməsin, göydən gələn səsdir bu ay.***

*Eyləyibdir niyyəti əhli-ibadət dün gecə,*
*Ki, bir ay ağzı oruc, alnı möhür kəsdir bu ay.*

*Çox günahlar etmişik,  Tanrım bizə rəhm eyləyib,*
*Biət et, gəl haqqa sən, çün tövbəyə şərtdir bu ay.*

*Gəldi hikmət çeşməsi Quran bu ay Peyğəmbərə,*
*Möminə cənnət bağı, şeytanə məhbəsdir bu ay.*

*Var cəzasi hər kəsin, axirəti-dünya gələ,*
*Xaliqindir mərhəmət, ruhlar mürəxxəsdir bu ay.*

*Ol yaxın dini-Xudaya, ki, adındır Fəxri-din,*
*Məclisi-haqqa yaxın dur, ən əziz kəsdir bu ay.*

# V BÖLÜM

*Allah-Təalanın bizə verdiyi ən böyük nemət Allaha bəndəçilik etmək və Peyğəmbərimizə (s) ümmət olmaq nemətidir. Dünyanı və içindəki hər şeyi versələr nəyə lazım? Bizi dünya və axirətdə əbədi səadətə nail edəcək olan xüsus İslamı yaşamaq və Allaha gözəl qul ola bilməkdir.*

*Necə ki, Filosof-şair S.İ.Nəsimi deyib:*

*Ya Rəbb! Məni sən aləmə sərtac etmə,*
*Həm siflələrin tirinə möhtac etmə.*
*Ya Rəbb! Mənə bir gənci qənaət ver kim,*
*Namərdə deyil, mərdə də möhtac etmə.*

# FITR VƏ  QURBAN BAYRAMLARI

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Quran! O bizim rəhbərimiz, bürhanımızdır,***
***Əyriylə, düzü seçmək üçün mizanımızdır.***[1]

İslam dinində 4 əziz bayram mövcuddur:

Bu bayramlardan biri – ***"Fitr bayramı"***dır ki, ***Şəvval ayının 1-də,*** Ramazan ayının qurtarması ilə əlaqədar keçirilir.

***2-ci – "Qurban bayramı"*** Zilhiccə ayının 10-u Həzrət İsmayilin (ə) adı ilə bağlıdır.

***3-cü - "Qədir-Xum"*** bayramıdır ki, Zilhiccə ayının 18-də keçirilən kamillik bayramıdır ki, Qədir-xum bayramı adı ilə adlandırılıb və İslam dinin kamil olduğu gündür.

Həzrət Peyğəmbər (s) ***"Vida həcci"***ndən qayıdarkən ***"Qədir-Xum"*** çölündə Allah-Təalanın əmri ilə Həzrət Əlini (ə) öz yerinə canişin etdi və o gün ilk dəfə olaraq Peyğəmbərin (s) iştirakı ilə bu bayram qeyd olundu. Həmin bayramda 120.000 nəfər iştirak edirdi.

Peyğəmbərin (s) vəfatından sonra 25 il bu bayram unuduldu və nəhayət Həzrət Əli (ə) xəlifə olduqdan sonra yenidən bərpa olundu.

İmam Sadiq (ə) buyurur:

***İslam bayramlarının ən üstünü "Qədir-Xum" bayramıdır və o, Zilhiccə ayının 18-dir".***

***4-cü - "Novruz bayramı"***dır ki, Ərəb müsəlmanlarından fərqli olaraq Əcəm müsəlmanlar (qeyri ərəblər) hər il Hicri-şəmsi tarixi ilə mart ayının 20-dən 21-nə keçən günü yeni günün başlanğıcı kimi qeyd edirlər və bunu Həzrət Əlinin (ə) taxta çıxması ilə əlaqələndirirlər və bunu ***"Cənabi-Əmir"*** bay-ramı kimi tarix boyu yaşadıblar.

---

***[1] Həmid Nutqi***

İrfan şairlərindən olan Seyid Əbulqasim Nəbati də bu bayramı ***“Görünür”*** rədifli şerində təsdiq edir:

***“Bəzmi vəhdət”də bu gün özgə tədarük qurulur,***
***“Qul kəfa” şahinə övradi-mübarək toxunur,***
***“Həl-əta” surəsi “Vən-nəcm”ü təbarək oxunur,***
***“Vəz-zuha” təxtinə Soltan Şahi-Mərdan görünür.***

Göründüyü kimi bu beytlərdə S.Ə. Nəbati Quran ayələri işığında Həzrət Əlinin (ə) taxta çıxdığı günü çox gözəl şəkildə nəzmə çəkib, ***“Cənabi-Əmr”*** bayramını təsdiq edir.

Bu məqalədə əsas məqsədimiz ***“Fitr”*** və ***“Qurban”*** bayramları haqqında məlumat verməkdir.

Yuxarıda qeyd etdiyimiz kimi ***“Fitr”*** bayramı Şəvval ayının birinci günüdür.

***“Fitr”və “Qurban” bayramları günü oruc tutmaq haramdır.***

***“Fitr”*** bayramının əsas fəlsəfəsi bundan ibarətdir ki, bir ay müsəlmanlar Allahın əmrinə tabe olub, oruc tuturlar və Ramazan ayının sonu fitrə zakatı ayırıb, Şəvval ayının 1-ni bayram edirlər. Yəni, bir ay müsəlmanlar Allah ziyafətində olduqlarından Allah-Təalanın insanlara verdiyi ən böyük ne-mət olan ***“Əqlin nəfs üzərində qələbə çalmağını”*** bayram edirlər.

Bir nəfər Həzrət Əlidən (ə) sual edərək soruşur ki :

“Ya Əli! Bayram nədir?

Həzrət Əli (ə) buyurur:

***“Bayram o gündür ki, o gün insan günah etmir”.***

Əhli-beyt(ə) şairlərindən biri Mərdan Tövbəkar demişdir ki:

***Tanrı mərhəmət elədi bizlərə,***
***İman nuru doldu saf könüllərə,***
***Müjdə verdi onu sevən qəlblərə,***
***Çünki, gəldi xeyir bərəkətli ay,***
***Açıldı rəhmət qapısı taybatay.***

# FITR VƏ QURBAN BAYRAMLARININ NAMAZI

***“Fitr”*** və ***“Qurban”*** bayramının namazının vaxtı bayram günü yəni Şəvval ayının 1-i və Zilhiccə ayının 10-u Günəş çıxandan günorta azanına qədərdir.

***“Fitr”***və***“Qurban”*** bayramının namazı İmamın (ə) hüzuru zamanında vacibdir və camaat ilə birgə qılınmalıdır.

Lakin bizim zamanımızda İmam Mehdi (əc.f.) qeybə çəkildiyi üçün bu namazları qılmaq müstəhəbdir. Bu namazları həm camaatla, həm də fərdi qılmaq olar.***“Fitr”***və***“Qurban”*** bayramlarının namazı iki rükətdir.

1-ci rükətdə “***Həmd”*** surəsindən sonra ***“Əla”***surəsi oxu-nur, 5 qunut tutulur, rükuya gedilir, 2 səcdə etdikdən sonra 2-ci rükətdə “***Həmd”*** və “***Şəms”*** surələri oxunulur. Sonra 4 qu-nut tutulur, rükuya gedilir, səcdə olunur, Təşəhhüd deyilir, sa-lamlar deyilir və namaz sona çatır.

Müstəhəbdirki, bayram namazı səhrada qılınsın və bu bayram namazlarına piyada, ayaqyalın və eşq ilə getsinlər.

Müstəhəbdir ki, namaz və xütbə qurtardıqdan sonra bu təkbirlər deyilsin.

***“Allahu Əkbər” “Allahu Əkbər” “La ilahə illəllah”, “Vəl-lahu Əkbər,” “Allahu Əkbər” və lillahil həmd, “Allahu Əkbər”, Əlama hədana!”***

Qadınların bayram namazlarına getməkdən çəkinmələri ehtiyac müstəhəbdir. Bu ehtiyac qoca qadınlara aid deyil. Bayram namazlarında da başqa namazlar kimi məmum (iqti-da edən) ***“Həmd***” və ***“Surə***”dən başqa namazın qalan hissələrini özü oxumalıdır.

# HƏZRƏTI IBRAHIM (Ə) VƏ ISMAYIL (Ə) HAQDA QISA MƏLUMAT

“Ulul-əzm” (1-ci dərəcəli) Peyğəmbərlərdən(ə) biri də Həzrət İbrahimdir (ə). O, xalası qızı Sara xanımla ailə qurmuşdu.

Lakin Sara ilə neçə illər yaşamalarına baxmayaraq övladları yox idi. Bir gün Sara xanım öz kənizi Hacəri Həzrət İbrahimə (ə) bağışladı ki, ondan övladı olsun.

Beləcə İbrahim Peyğəmbər (ə) Hacərlə evləndikdən sonra onlara bir oğul əta edildi, adını İsmail qoydular. Beş ildən sonra Saranın da bir oğlu oldu, adını İshaq qoydular. Saranın oğlu olduqdan sonra Hacərə təhəmmül edə bilmirdi. Bir gün o, Həzrət İbrahim Peyğəmbərə (ə) dedi:

***"Hacəri mənim gözümdən uzaq elə".***

Allahın əmri ilə Həcc mövsümü gəldikdə Həzrət İbrahim (ə) Hacəri oğlu İsmail (ə) ilə birlikdə aparıb Məkkədə qoydu və qayıtdı. Bir müddətdən sonra onların suyu qurtarır. İsmail (ə) susuzluqdan taqətdən düşüb uzanmış, dabanlarını yerə sürtürdü. Hacər isə Səfa və Mərvə dağları arasında qaçaraq su axtarırdı. Hacər İsmaildən (ə) nigaran qaldığına görə tez-tez gəlib ona baş çəkirdi. Bu dəfə gələndə gördü ki, uşağın dabanı olan yerdə bir çuxur əmələ gəlib, oradan su çıxır. Hacər suyun axıb qurtarmasından qorxub, onun ətrafına torpaq yığaraq dedi: ***"Zəm-zəm"***, yəni ***"dayan-dayan"***. Su dayandı və o vaxtdan suyun adı ***"Zəm-zəm"*** oldu. Əgər Hacər onu dayandırmasaydı, axar suya çevrilərdi.

Bir gecə Həzrət İbrahim (ə) yuxuda gördü ki, oğlu İsmaili (ə) qurban kəsir. Peyğəmbərlərin(ə) yuxusu vəhy olduğu üçün İbrahim (ə) bu işi yerinə yetirməli idi. Odur ki, Həcc mövsümü gəldikdə Məkkəyə getdi və Həcc əməllərini qurtardıqdan sonra İsmailə (ə) dedi:

"Oğlum, yuxuda görmüşəm ki, səni Allah yolunda qurban kəsirəm".

Həzrət İsmail (ə) dedi:

***"Ey ata, sənə hər nə əmr olunubsa, onu yerinə yetir, mənidə səbr edənlərdən görərsən".***

İbrahim Peyğəmbər (ə) oğlu İsmaili (ə) götürüb Mina dağında qurban kəsməyə apardı. Lakin İsmailin (ə) başını kəsmək istədikdə bıçaq kəsmədi. Həzrət İbrahim (ə) nə qədər çalışsa da bir şey hasil olmadı. İbrahim (ə) əsəbi halda bıçağı daşa çaldı. Bıçaq Allahın izni ilə dilə gəlib dedi: ***"Ya İbrahim, Xəlil deyir kəs, amma Cəlil (Allah) deyir kəsmə. Mən də, sən də Cəlilə tabeyik".***

Əhli-beyt (ə) aşiqi, könüllər sultanı Şah İsmail Xətai ***"İsmail Qurbanı"*** haqqında gözəl bir gəraylı yazıb ki, onun bir bəndində deyir:

***Bıçaq dedi: "Haşa-haşa***
***Neyçün çaldın məni daşa.***
***Daşı kəsdim başdan-başa***
***Kəsməm İsmaili", - dedi.***

Bu zaman Allah-Təalanın vəhy mələyi Cəbrail (ə) asimandan nazil olub bir qoç gətirdi. Həzrət İbrahim (ə) oğlu İsmailin (ə) əvəzində həmin qoçu qurban kəsdi. İsmail (ə) bu halı görərkən üzünü asimana tutub öz Rəbbinə belə münacat etdi:

***İsmailəm, Haqq yolunda***
***Canımı qurban eylərəm.***
***Çünki bu can qurban sənə,***
***Mən qoç qurbanı neylərəm?***

Beləliklə də, zilhiccə ayının 10-da ***"Qurban bayramı"*** və qurban kəsmək rəsm (adət) oldu.

***"Zəm-zəm"*** suyu Məkkədə zahir olandan sonra o nahiyədə yaşayan Curhum qəbiləsi Hacərin razılığı ilə gəlib Məkkədə məskunlaşdılar. İsmail (ə) o qəbilədən Əmarə adlı bir qızla

evləndi. Sonra Həzrət İsmailin (ə) anası Hacər vəfat eylədi. İbrahim (ə) gəlib onu Kəbənin yanında dəfn etdi.[1]

Rəvayətə əsasən Həzrət Nuhun (ə) tufanında Kəbə zədələnmişdi. Allah-Təalanın əmriylə İbrahim Peyğəmbər (ə) onu təmir elədi. Bu zaman İsmail (ə) ona daş verərək kömək edirdi. Kəbənin divarı ucalanda, İbrahim (ə) böyük bir daşın üstünə çıxıb divarı tikirdi. Onun ayaqlarının izi həmin daşda nəqş bağladı və həmin daş indi də Kəbənin ətrafında qoyulub və ***"Məqami-İbrahim"*** adı ilə məhşurlaşıb.

Həzrət İbrahim (ə) Kəbə tikildikdən sonra tez-tez bu evin ziyarətinə gedirdi. Peyğəmbər (ə) qocalmışdı, xanımı Sara ona dedi ki, sənin əcəlin yaxınlaşıb, dua et, Allah sənin ömrünü uzatsın. İbrahim (ə) dua edib Allahdan uzun ömür istədi. Allah-Təaladan vəhy gəldi ki, nə vaxt istəsən, səni o vaxt qəbzi-ruh edəcəyəm.

İbrahim (ə) bir gün mömin və fəqirlərə ziyafət verirdi. O məclisə çox qoca bir kişi gəlmişdi, zəiflikdən əlləri əsirdi və yeməyi ağzına apara bilmirdi. İbrahim (ə) bu mənzərəni görüb narahat oldu və Allaha yalvardı ki, daha uzun müddət yaşamaq və o cür zəif olmaq istəmir.

İbrahimin (ə) vəfatı yaxınlaşdıqda onun yanında (vədiə) əmanət olan şeyləri - Peyğəmbərlərin (ə) miraslarını, hikməti, İsmi-əzəmi və digər şeyləri Həzrət İsmailə (ə) verib, vəsiyyət elədi.

Həzrət İbrahim (ə) 120 yaşında vəfat elədi. İsmail Peyğəmbər (ə) ona qüsl verib kəfənə bükdü və "**Beytül-müqəddəs**" nahiyəsində dəfn elədi.

Həzrət İbrahim (ə) vəfat edəndən sonra onun şəriətinə İsmail Peyğəmbər (ə) rəhbərlik etdi. O, Məkkədə yaşayırdı və ərəb dilində danışırdı. Həzrət İsmail (ə) də 120 yaşında vəfat elədi və qardaşı İshaq onu Məkkədə dəfn elədi.

***"Zilhiccə"*** ayının 10-u ***"Qurban"*** bayramıdır. Bu bayram İslam dininin üç əziz bayramından biridir. Bu gün Allah evi Kəbə

***[1] "Biharül-ənvar", c.59. səh.26***

ziyarət olunur, şeytana daş atılır, Hacılar qurbangaha gedib qurban kəsirlər.

## *QURBANGAH*

Qurbangah - düşməndən qisas almaq rəmzidir. Həzrət İbrahim (ə) oğlu İsmaili (ə) Minaya gətirdi. İbrahim (ə) həyat yoldaşı Hacərə dedi:

***"Oğlum İsmaili qonaq aparmaq üçün hazır et".*** İbrahim (ə) özü ilə bıçaq və ip götürdü. Şeytan birinci dəfə Hacərə vəsvəsə etdi və dedi:

***"Oğlunu qonaqlığa yox, qurbanlığa aparırlar".***

Hacər cavab verdi:

***"Əgər bu Allahın əmridirsə, mən özüm də qurban getməyə hazıram".***

Həzrət İsmail (ə) Allahın hökmünə təslim idi. Atasına belə müraciət edir:

***"Əl-ayağımı elə bağla ki, əl-ayaq çalıb səni incitməyim. Məni qurban kəsərkən üzümü torpağa qoy. Üzümə bir pərdə ört ki, atalıq məhəbbəti sənə mane olub, Allahın əmrindən saxlamasın. Mənim salamımı anam Hacərə çatdır".***

***İbrahim Xəlil Peyğəmbər əhdi-peyman eylədi,***
***Öz oğlunu Mina dağında Haqqa qurban eylədi.***
***Hacər nalə çəkdi, ahu-fəğan eylədi,***
***Bar-ilahim Kərəm qılıb göndərdi qurbanı mənə.***

İbrahim Peyğəmbər (ə) belə çətin imtahandan üzüağ çıxdı və müsəlmanlara çatdırdı ki, Məkkə və Minada Allahın eşqini duyub, övlad eşqini qəlbdən silmək lazımdır. Hətta Həzrət İbrahim (ə) özü odda yanmağa hazır oldu ki, insanları zülm odundan xilas eləsin.

# QURBAN KƏSMƏYIN ŞƏRTLƏRI

Qurban kəsməyin şərtləri vardır ki, o da aşağıdakılardan ibarətdir:

- Qurban kəsilən heyvanın sağlamlığı vacibdir,
- Çox qoca olmasın.
- Eybi olmasın (kor və topal olmasın).
- Çox arıq olmasın
- Qurban kəsilən qoyun 1 yaşı, keçi və inək 2 yaşı, dəvə isə beş yaşı keçsin.

***Qurban kəsən şəxs qurban ətini üç yerə bölüb, bir hissəsini kasıb qohum-əqrəbaya, bir hissəsini imkansız qonşulara, bir hissəsini isə özünə götürməlidir.***

Qurban kəsmək ibadət sayılır və Allah dərgahına yaxınlaşmaq üçün yerinə yetirilir.

Allah-Təala cəmi möminlərin qurbanlarını qəbul eləsin. Amin!

Yazımı Mövlana Cəlaləddin Ruminini bir beyti ilə yekunlaşdırıram:

***İsmail da səhrada kərəmindən su tapmış,***
***Onunçün də başını bıçaq altına qoymuş.***

***Vəssalamu Əleykum və Rəhmətullahi və Bərakatuh!***

# QURBANINIZ QƏBUL OLSUN!

**Bismillahir-rəhmanir-rəhim!**

Ya Allah, Ya Məhəmməd, Ya Əli səndən mədəd!

Bir neçə gündən sonra müsəlman aləmi müqəddəs və mübarək bir bayram gününü yaşayacaq. Qapılarda, ocaq və pirlərdə İsmayıl adına qurbanlar kəsiləcək, ehsanlar veriləcək. Bəşər həzin, kövrək hadisələri çox eşidib. Tarix hüznlü yaşantıları çox yaşayıb. Amma beləsini nə bəşər, nə tarix eşitməyib. Həmin gün İsmayılın adına qurban kəsmək istəyi çoxlarının ürəyində qalacaq. Və bu gün acından ölməmək problemi ilə yaşayan soydaşımız ürəyində, dilində, gözündə bir qoç boğazına bıçaq aparacaq və gələn il İsmayıl qurbanı kəsmək ümidi ilə yaşayacaq. Nə deyək? Allah ürəyinizcə versin.

***Tərki-təcrid oldum, tökdüm qəbayi,***
***Əynimə geyindim şalü-əbayi,***
***Mana sorun, kimdən aldım yasayi?***
***İsmayıla enən qurbandan aldım***

Bu qiymətli kəlamın müəllifi şeir və qəzəlləri ilə yanaşı cəmi 38 illik fəaliyyəti ilə bütöv bir xalqın yaddaşına əbədi həkk olan, Əhli-beyt aşiqi (ə) Ş.İ.Xətaidir. Aşıq Qurbani onu belə xatırlayır:

***Gözəl şahim şeyx oğludu,***
***Şah Xətai, Şah Xətai!***
***Şahi-Mərdana bağlıdır,***
***Şah Xətai, Şah Xətai!***

İldə bir dəfə ***“Qurbanlıq Bayramı”*** yurdumuza qədəm qoyur. İslam dünyasında müqəddəs sayılan İsmayıl qurbanı.

Allah-Təala “***Bəqərə***” surəsinin 124-cü ayəsində buyurur:

***“Rəbbi İbrahimi (ə) bir neçə işlə sınadı, o da onları bütünlüklə yerinə yetirdi. Allah buyurdu: -Mən səni insanların imamı etdim.***

***Dedi:***

***Uşaqlarımıdamı?***

***Buyurdu:***

***Mənim əhdim zalımları ehtiva etməz”.***

Allah-Təala Peyğəmbərlik və Xəlillik (Allahın dostu) rütbələrindən əlavə İbrahimə (ə) daha yüksək rütbə vermək istəyir, ona görə də onu müxtəlif yollarla sınağa çəkdi. İbrahim(ə) əvvəl Nəmurd tərəfindən oda atılır. Bu imtahandan baş ucalığı ilə qalib çıxdıqdan sonra imamlıq rütbəsinə layiq oldu. Bu sınaq imtahanın bir mərhələsidir.

Rəvayətlərdə deyilir ki, Həzrət İbrahimi (ə) oda atdıqda Cəbrail (ə) o Həzrətin (ə) qulluğuna yetişib “Hacətin varmı?” – deyə soruşdu. İbrahim (ə) buyurdu: “Hacətim var, hər bir yaranmış möhtacdır, lakin sənə yox, yeganə olan Allaha ehtiyacım var”.

S.İ.Nəsimi deyib:

***Sən özünü dərk eləsən, haqq sirrini dərk edərsən,***<br>***Haqq özünü dərk edənə Cəbrayılı eylər nökər.***

İbrahimin (ə) birinci imtahanı bu oldu ki, belə çətin şərait-də möhtac əlini hətta vəhy mələyi Cəbrayıla (ə) da uzatmadı, köməyi Allahdan istədi və qalib çıxdı.

***İbrahimə sən nari-gülüstan eləyibsən,***<br>***Hər müşkül əlində sənin asandır, Əlican.***[1]

Sınağın başqa bir mərhələsində İbrahimə (ə) əmr olunur ki, ailəsini və oğlu İsmayılı otsuz-susuz bir yerə, ***“Hicaz”*** səhrasına aparıb Məkkədə məskunlaşsın. İbrahim (ə) bu əmri də qəbul edib

***[1] Şair Sifyari Dilxun***

bu diyara köçür və Allah-Təalanın razı olmağı naminə hicran (ayrılıq) dərdinə dözür. Aşıq Məhbub Xəlili bir ***"Divani"*** sində deyir:

***124 min gəldi getdi, İbn Əbdullah gözəl,***
***Müşkülləri həll eləyən ol Vəliyyullah gözəl.***
***Yapdı Kəbənin evini ol Xəlilullah gözəl,***
***Dedi: «Xudam, gətirmişəm İsmayıl qurbanə mən!»***

Sınaqların ən çətini Həzrəti İbrahimin (ə) qocalıq vaxtına düşür. İbrahimin (ə) qocalıq çağında Allah-Təala ona İsmayıl adlı bir oğul verdi. İsmayıl böyüdükcə atası oğlundan həzz alırdı. Bir gün İbrahimə (ə) yuxuda əmr olundu ki, oğlun İs-mayılı Allah yolunda qurban kəs. Çox çətin və ağır bir sınaq imtahanı idi. Belə bir işi yerinə yetirmək üçün iradə, səbr və dözüm lazım idi. Buna görə də İbrahim (ə) bu sözü oğlu İsma-yıla çatdırdı.

Həzrəti İsmayıl (ə) dedi:

"Əziz atam, Allah-Təalanın əmrini yerinə yetir, mən də onun yardımı ilə dözərəm".

***"Səffat" surəsi 102-ci ayədə buyurulur:***

***"Atası ilə birlikdə işləyəcəkləri yerə çatdıqda dedi: "Oğlum, yuxuda gördüm sənin başını kəsirəm. Buna sən necə baxır-san?" Dedi: "Ata, məmur olduğunu yerinə yetir. Allah istəsə mə-ni dözümlülərdən görərsən". 103-cü ayə: "İkisi də təslim olunca, onun alnını yerə söykədi".***

***104-cü ayə:***

***"Biz nida verdik, Ey İbrahim!",***

***105-ci ayə:***

***"Yuxunu gerçəkləşdirdin və biz yaxşı iş görənləri belə mükafatlandırırıq",***

***106-cı ayə:***

***"Bu açıq bir sınaq idi",***

***107-ci ayə:***

***"Və onun məzyəsinə böyük bir qoç verdik"***

Quran ayələrindən göründüyü kimi İbrahim (ə) oğlu İsmayıla (ə) deyir:

"Oğul! Mən dəfələrlə yuxuda eyni şəkildə görürəm və bilirəm ki, bu adi yuxu deyil. Bəlkə bir vəhyidir. Mən Allahın əmriylə sənin basını kəsirəm. İbrahim (ə) bu mətləbin fəlsəfəsindən agah deyildir. Lakin yəqin bilirdi ki, bu iş Allahın əmri-dir. Bəs İbrahimin (ə) oğlu İsmayıl (ə) atasının bu yuxusuna necə cavab verir:

İnsan belə fikirləşə bilər ki, İsmayıl (ə) demişdir:

***"Ata bu yuxudur! Yuxuda birinin başını kəsmək, ona həyat vermək və onun ömrünü uzatmaq deməkdir. İnşallah mənim ömrüm uzun olacaqdır".***

Bu adi insanın təfəkkürü ola bilər. Lakin həm İbrahim (ə) həm də oğlu İsmayıl (ə) Allah məktəbinin yetirmələridir.

***"Səffat"*** surəsinin 102 ayəsinə nəzər salarkən bir daha bunun şahidi oluruq və görürük ki, İsmayıl(ə) atasının ona söylədiyi vəhydən ibarət olan yuxunun cavabında deyir:

***"Ata! Bu mətləb Allah tərəfindən gəlib və Allahın vəhyidir və ona görə kifayət edər."***

İbrahim (ə) İsmayılın (ə) başını kəsərkən ona belə bir vəhy oldu:

"İbarhim! Biz istəmirik ki, oğlunun başını kəsəsən, bizim hədəfimiz bu deyil. Onda fayda yoxdur. Hədəf bu idi ki, mə-lum olsun ki, sən və oğlun Allahın qarşısında və onun əmrinin qarşısında nə qədər təslimsiniz? Allahın əmrinə itaət etməyə nə qədər hazırsınız? Bu hər iki itaətə, keyfiyyətə - yəni itaət və təslimə qabilsiniz. Ata qurbanlıq vermək, oğul isə qurbanlıq olmaq hədəfinə yetişdi. Biz bundan artıq bir şey istəmədik. Oğlunun başını kəsmə!"

Məşhur Sufi şairi Yunis İmrə də bu hadisəni çox dolğun şəkildə İsmayılın (ə) diliylə belə nəzmə çəkib:

***İsmailəm, haqq yolunda,***
***Canımı qurban eylərəm.***

***Çünki bu can qurban sənə,***
***Mən qoç qurbanı neylərəm?!***

Bütün çətinliklərə dözən, bütün varını Allah yolunda qur-ban verən İbrahim (ə) kimi şəxslər başqalarına ***İmam*** və ***meyar*** olmalıdır. Peyğəmbərlərdən(ə) bəziləri bir sıra çətinliklərə dö-züb sınaqlardan üzüağ çıxdıqdan sonra İmamlığa çatdılar.

**"Səcdə"** surəsi 24-cü ayədə buna işarə olunub:

***"Səbr etdikləri üçün biz onlardan, əmrimizlə haqq yolu göstərən rəhbərlər təyin etmişdik".***

Həzrət İbrahim (ə) da belə səbr edənlərdən idi və bu sınaqda Allah-Təalanın məqsədi İbrahim (ə) kimi şəxsləri ye-tişdirmək idi.

Əziz müsəlman bacı və qardaşlarım! Sizi qarşıdan gələn müqəddəs Qurban bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edir, sizlərə xoş günlər arzulayıram və yazını Ş.İ.Xətainin "***Dedi***" gəraylısı ilə tamam edirəm.

***Haqq-Təala Cəbrailə***
***Cəbrailim gəlsin, dedi.***
***Varın söylən Xəlilimə,***
***Əhdi yerin bulsun, dedi.***

***Yenə gəldi bayram anı,***
***Titrər o Xəlilin canı.***
***Varun, İsmayılım səni,***
***Həqqə qurban demiş dedi.***

***Həqq qəbul edərsə məni,***
***Ata, sən heç çəkmə qəmi.***
***Qoç-quzu qurban olmasa,***
***Sərim həqqə qurban dedi.***

***Çıxın, baxın da zavaldan,***
***Yönün çevirmiş qibləyə.***

*Bəlkə təlaş verəm, ata,*
*Əllərim bağlasın, dedi.*

*Əllərin bağla bağladı,*
*Anası oğrun ağladı.*
*Yetmiş yeddi kərə çaldı,*
*Kəssən, ey zalım, dedi.*

*Bıçaq dedi: «Haşa, haşa!*
*Neçün çaldın məni daşa?*
*Daşı kəsdim başdan-başa,*
*Kəsməm İsmayılı, dedi.*

*İsmayıl qalxdı, oyandı,*
*Boyunca nura boyandı.*
*Ya Xəlil, necə dayandı,*
*Varım İsmayılım, dedi.*

*Qurbanı göndərdi dəlil,*
*Cəbrail önüncə gəlir.*
*Mən səndən cövmərdəm, Xəlil,*
*Qaldır İsmayılı, dedi.*

*Ağlar ikən gülüşdülər,*
*Göz yaşların silişdilər.*
*Həp döşəndi peyğəmbərlər,*
*Qoç ətini bölüş, dedi.*

*Xətaiəm, bayramda qurban,*
*Ola dərdlilərə dərman.*
*Siratı keçməyə insan,*
*Qorxmasın qullarım, dedi.*

***Vəssalamu Əleykum və Rəhmətullahi və Bərakatuh***

# KAMILLIK BAYRAMI - QƏDIR XUM

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Peyğəmbər(s) buyurub:***
***"Mən kimin rəhbəriyəmsə, Əli də (ə) onun rəhbəridir"***

***Özün inkar eliyər, kim Onu etsə inkar,***
***İki aləmdə xəcalətdə qalar, çar-naçar.***
***Əlisiz olmaz ibadətdə qəbul, ey dindar!***
***Gecə-gündüz Əli zikrin elə ta halın var,***
***Amma cəhd eylə nə gerçək, nə də röyadan keç.***[1]

Hicrətin 10-cu ili. Bu ildə baş vermiş hadisələrin ən mühümü İslam Peyğəmbərinin (s) vida Həccidir. Bu ildə Həccin əməllərini yerinə yetirmək və onu xalqa çatdırmaq Allah-Təala tərəfindən Peyğəmbərə (s) əmr olunmuşdu. Həccə getmək xə-bəri bütün Mədinəyə yayıldı. ***"Zilqədə"*** ayının 26-da İslam Peyğəmbəri (s) böyük bir karvanla ***"Şəcərə"*** məscidində ehram bağlayıb Məkkəyə yola düşdü. Peyğəmbər(s) Məkkənin evləri görünənə qədər, yəni yolboyu ***"ləbbeyk, əllahummə ləbbeyk"*** zikrini tilavət edirdi. O, Məscidi-Hərama ***"Bəni-Şeybə"*** qapısından daxil oldu. İslam Peyğəmbəri (s) həccin bütün əməllə-rini müsəlmanlara başa saldı. Bir neçə yerdə o cümlədən, ***"Ərəfat"*** çölündə xütbə oxudu. Xütbəsini bu sözlərlə başladı:

***"Ey müsəlmanlar, bir-birinizin malına, canına, namusuna təcavüz etməyin. Qadınların sizin boynunuzda, sizin də onların üzərində haqlarınız vardır. Onlar Allah tərəfindən sizin əlinizdə əmanətdir. Sizlərdən ən yaxşısı odur ki, evdə ailəsi ilə xoşbəxt ola..." Peyğəmbər (s) xütbəsini bu sözlərlə yekunlaşdırır: "Bütün müsəlmanlar bir-birlərinə qardaşdırlar".***

Sonra Peyğəmbər (s) üzünü göylərə tutub dedi:

---

***[1] Arif Buzovnalının Hacı Soltanın bir qəzəlinə yazdığı "Təxmis".***

***“Ey Allah, Sənin əhdü-peymanını ümmətimə çatdırdım”.***

İslam Peyğəmbəri (s) Mina əməllərini də yerinə yetirəndən sonra Mədinəyə qayıtdı. Həccdən qayıdan karvan Qədir çölü-nə çatanda Cəbrayıl (ə) mühüm bir xəbəri Allah tərəfindən Peyğəmbərə(s) çatdırdı. (Onu da qeyd etmək lazımdır ki, Qə-dir Cövhənin yaxınlığında yol ayrıcında yerləşir). Həmin mü-hüm xəbər «Maidə» surəsinin 67-ci ayəsinin nazil olma xəbəri idi:

***“Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olan camaata çatdır ki, əgər bunu etməsən, elə bilki, Allahın risalətini yerinə yetirməmisən. Allah-Təala səni camaatdan qoruyacaq. Həqiqə-tən də Allah kafir qövmü hidayət etməz”.***

Bu ayə nazil olanda ***“Qurban”*** bayramından 8 gün keçirdi. Zilhiccə ayının 18-i idi. ***Cövhə*** çölü görünür, onun ardınca isə ***Qədir-Xum*** səhrası başlanırdı. Bura dörd yol ayrıcısı idi. Misirə, Yəmənə, İraqa və Mədinyə yollar ayrılırdı. Birdən Peyğəmbər (s) müsəlmanlara dayanmaq əmrini verdi. Qabaqda gedənlər geri qayıtdılar. Peyğəmbər (s) ***müəzzinə*** azan verməsini əmr etdi və azandan sonra namaz qılındı. Namaz qurtaran kimi müsəlmanlar dağılışmaq istədilər. Buna səbəb də havanın həddən artıq isti olması idi. İstidən insanlar əbalarının bir hissəsini başlarına çəkməyə məcbur olmuşdular. Peyğəmbər(s) göstəriş verdi ki, hamı ilahi bir xəbər eşitmək üçün yerində qalsın. Sonra əmr etdi ki, dəvələrin yəhərindən bir minbər düzəltsinlər. Peyğəmbər(s) həmin minbərin üstünə çıxıb Allah-Təalaya həmd-səna edəndən sonra buyurdu:

***“Ey camaat, tezliklə mən sizin aranızdan gedəcəyəm və Al-lahıma qovuşacağam. Deyin görüm, mənim barəmdə necə şəha-dət verirsiniz?”***

Hamı bir ağızla ucadan dedi:

***“Şahidlik veririk ki, həqiqətən sən nəsihət vermiş, bizi düz-gün yola hidayət etmisən. Allah sənə əcr əta etsin, ya Rəsulal-lah!”***

Həzrət(ə) buyurdu:

***“Siz Allahın birliyinə, mənim risalətimə, qiyamət gününə və o gündə hamının diriləcəyinə şəhadət verirsinizmi?”***

Hamı dedi:

***“Bəli!”***

Sonra Peyğəmbər (s) buyurdu:

***“İndi baxın, görün sizə tapşırdığım iki qiymətli əmanət barəsində necə rəftar edəcəksiniz”.***

Sual verdilər ki,

***“Hansı iki əmanət, ya Rəsulallah?”***

Peyğəmbər (s) buyurdu:

***“Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm. Onlardan biri Allahın kitabı və ikincisi mənim Əhli-beytimdir. Bu iki əmanətdən qabağa düşsəniz də ziyan çəkərsiz, geri qalsanız da”.***

Sonra Peyğəmbər(s) Əlini(ə) yanına çağırıb onun əlini yuxarı qaldıraraq buyurdu:

***“Ey camaat! Allah mənim rəhbərimdir, mən isə sizin rəhbərinizəm. Kimin rəhbəri mənəm, Əli də onun rəhbəridir”.*** Peyğəmbər(s) bu sözü üç dəfə təkrar etdi. Sonra üzünü göyə tutub belə buyurdu:

***“Ey mənim Allahım! Kim onu dost tutsa, sən də onu dost tut, kim onu sevsə, sən də onu sev, kim onu düşmən tutsa, sən də onu düşmən tut, kimin ondan acığı gəlsə, sənin də ondan acığın gəlsin, kim ona kömək etsə, sən də ona kömək et, haqqı onunla yoldaş et və onu haqdan ayırma”.***

Böyük Füzuli yadigarı, Əhli-beyt(ə) aşiqi S.Ə.Şirvani ***“Qədir-Xum”*** bayramı haqqında geniş bir qəsidə yazmış və Peyğəmbərin(s) bu hədisini və duasını belə vəsf etmişdir:

***Dedi: Hər şəxsə ki, aləmdə mən olsam mövla,***
***Ona mövladu Əli, ol şəhi-mülkü-məna.***
***Ona nasir olana, nasir ola Bari-Xuda,***
***Hasidü-düşməninə düşmən ola Rəbbi-səma.***
***Bu duanı elədi Əhmədi Muxtar bu gün.***

Sonra buyurdu:

***“Bilin ki, sizin vəzifəniz bu hadisəni burda olmayanlara da çatdırmaqdır”.*** Camaat dağılışmamış Cəbrayıl (ə) nazil olub **“Maidə”** surəsinin üçüncü ayəsini gətirdi:

***“Bu gün dininizi sizin üçün kamil etdim, nemətimi tamamladım və bir din olaraq islamı bəyəndim”.***

Bu ayədəki ***“Nemət”*** dən məqsəd İmamətdir.

***Çatdı bu ayə Əli şəninə “Əkməltu- ləkum”,***
***Çünki hər ayəvü, hər surəvü, hər cüz Əlidir.***

Bu ayə nazil olduqdan sonra Peyğəmbər (s) təkbir (Alla-hu-Əkbər) deyib öz sözünə davam etdi:

***“Allah böyükdür. O Allah ki, öz dinini kamil etdi. Öz nemətini tamamladı, mənim risalətimdən və məndən sonra Əlinin(ə) rəhbərliyindən razı qaldı”.***

Göründüyü kimi Peyğəmbərin(s) ən mühüm vəzifələrindən biri də İmamət məqamını camaata çatdırmaq Həzrət Əlinin (ə) özündən sonra rəhbərlik məqamını elan etmək idi.

Sonra camaat Əlini(ə) təbrik etməyə başladı. Təbrik edən-lər içində birinci və ikinci xəlifələr də var idi. İkici xəlifə Ömər İbn Xəttab Həzrət Əlini (ə) təbrik edərək dedi:

***“Mübarək olsun, mübarək olsun! Ey Əbu Talib oğlu, sən mənim və bütün mömin və möminələrin mövlası və rəhbəri oldun”.***

***Tutdu bir xeymədə bəs Heydəri-Kərrari qərar,***
***Təhniyyət etdilər ol şiri-dilə xürdü kibar***
***İbni Xəttab xitab eylədi: “Ey şıri-şikar,***
***“Bəxxun, bəxxun ləkə Mövla” səni qıldı Cəbbar,***
***Oldun ey sərvəri din, aləmə Sərdar bu gün”***[1]

---

[1] ***S.Ə.Şirvani “Qədir-Xum” qəsidəsi***

İbn Abbas dedi:

***"Allaha and olsun ki, bu əhdi-peyman hamıya vacib oldu".***

Sonra məşhur ərəb şairi Həssan İbn Sabit bu hadisə haqqında nəzmə çəkdiyi ***"Qədir"*** şeirini oxudu:

***İslam Peyğəmbəri Qədiri-Xumda,***
***Üz tutub ümmətə verdi bir sual.***
***Sizlərin rəhbəri mən deyiləmmi?***
***Hamı təsdiq etdi, yox başqa xəyal.***
***Belə davam etdi sözünə Həzrət:***
***«Məni mövla bilən bisin bu gündən,***
***Mənim canişinim, öz ağası tək.***
***Əlini tanımaq gərəkdir hökmən.***

Həzrəti Peyğəmbər(s) Həssanın şeirini dinləyib buyurdu:

***"Ey Həssan, nə qədər ki, dilinlə bizə yardımçısan, daim Ruhul-Qüds tərəfindən təsdiqlənmisən".***

Qədir-Xum hadisəsinin sübutu firqələr üçün o qədər aydındır ki, kimsə üçün inkar və şübhə yeri qalmamışdır. Əksər sünni tarixçiləri və təfsirçilər azca fərqlə bu hadisə barədə məlumat vermişlər. Onlar da ***"Təbliğ"***[1] ayəsinin ***Zəlhiccənin*** 18-də Qədir-Xumda Həzrət Əli (ə) haqqında nazil olmasını təsdiqləyirlər. Həzrət Peyğəmbərin (s) ***"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"*** buyurduğu bu hədis sünni mənbələrində nəql olunmuşdur.[2]

Qeyd etmək lazımdır ki, ***"Mövla"*** kəlməsi müxtəlif mənalara malik olduğundan bəzi sünni alimləri hədisdə onu «dost» kimi mənalandırmışdır. Onlar ***"Mən kimin Mövlasıyamsa, Əli də onun Mövlasıdır"*** kəlməsini ***"Mən kimin dostuyamsa, Əli də onun dostudur"*** mənasında qəbul edirlər. Bu mənanı İbn Səb-bat Maliki də öz ***"Füsulul mühimmə"*** kitabında bəyan etmiş-dir.

---

[1] ***"Maidə" 67***

[2] ***Fəxri-Razi- "Təfsire-Kəbir"***

Təssüf üzündən həqiqəti görə bilməyənlərə ***“Mövla”*** kəl-məsinin mənalarını izah edəcəyik. Bu sözün müxtəlif mənaları vardır.

***“Mövla”*** – ixtiyar sahibi, bəndə, azad olmuş, azad edən, qonşu, həmpeyman, həmand, şərik, yeznə, nemət yetirən, dost, yardımçı və sair.

Bu mənalardan bəziləri Qurani-Kərimdə işlədilmişdir. ***“Duxan”*** surəsində ***“Mövla”*** sözü ***“qohum”, “Muhəmməd”*** su-rəsində ***“dost”, “Nisa”*** surəsində ***“həmpeyman”, “Əhzab”*** surə-sində ***“azad etmiş”*** mənalarını bildirir. Bu mənalardan bəzilə-rini Peyğəmbərə (s) aid etmək olmaz. Çünki Peyğəmbər (s) kimsənin qulu və həmandı olmamışdır. Əhəmiyyətli olmayan bir mövzuya görə Həzrət Peyğəmbərin (s) insanları qaynar səhrada toplayıb saxlaması inandırıcı deyil. İnanmaq olmur ki, hacılara Həzrət Əli (ə) ilə dostluq haqqında məlumat ver-mək üçün səhrada saxlanmışlar. Ayədə Peyğəmbərə (s) buyu-rulur:

***“Əgər bunu etməsən Allah risalətini yerinə yetirməmiş olarsan”.***

Məgər sadəcə dostluğu bəyan etməmək bu qədər ciddi dəyərləndirilə bilərmi? Əslində Peyğəmbərin bu bəyanatı daha dərin mahiyyətə malikdir. Allah-Təala ayənin davamında buyurur:

***“Allah səni insanların şərindən qoruyacaq”.***

Dostluq nəti-cəsində hansı nəticələr yarana bilərdi ki, Allah uyğun vədlə be-lə bir təhlükəni aradan qaldıracağını bəyan edə. Digər tərəfdən ***“Mövla”*** kəlməsinin dostluq mənasında təbir olunması dəlil tələb edir. Əks təqdirdə, belə bir mənalandırma üsul elminə zidd olar. Bu baxımdan yalnız ***“İxtiyar sahibi”*** mənasının də-lilləri vardır. Həmin dəlilləri nəzərdən keçirək.

– Allah-Təalanın Peyğəmbərin (s) bir işi görməsini onun risaləti üçün şərt bilməsi məsələnin ciddiliyindən danışır**.** **“Mövla”** kəlməsinin yalnız **“ixtiyar sahibi”** mənası ciddi ma-hiyyət daşıyır. Əgər uyğun kəlməni **«ixtiyar sahibi»** kimi təbir etsək, söhbətin Peyğəmbərdən (s) sonra kimin canişin olaca-ğından getməsi aydınlaşar. Ayə ***“Cövhə”*** yaxınlığındakı Qədir-Xumda nazil olmuşdur. Hacılar adətən ***“Cövhə”***yə çatdıqda bir-

birlərindən ayrılaraq öz vətənlərinə yola düşürlər. Artıq onların bir yerə toplanması mümkünsüz olur. Əlbəttə ki, bu göstəriş Peyğəmbərə (s) bir neçə gün əvvəl nazil olmuşdu. Amma onun dəqiq vaxtını təyin etmək çətindir. Peyğəmbər (s) yaxşı bilirdi ki, Əli (ə) döyüşlərdə bir çox düşmənlərin həyatına son qoyduğu üçün həmin qətlə yetirilənlərin qohum-əqrabası o Həzrətə (ə) qarşı kinlidir.

***“Allah səni insanların şərindən qoruyacaq”*** vədi də Əliyə(ə) qarşı kinin mövcudluğundan danışır.

– Həzrət Peyğəmbər(s) ***“Mövla”***lıq məsələsinə toxunduqdan sonra göstəriş verir ki, Əliyə (ə) əmir ünvanında salam verilsin. Əgər məqsəd dost olsaydı, Peyğəmbər (s) buyurardı ki, ona bir dost olaraq salam verin. Ömər İbn Xəttabın ***“Mənim mövlam hər bir kişi və qadının mövlasıdır”*** deməsi də Əlinin (ə) vilayətini təsdiqləyir.

– Ən məşhur sünni kitablarında da yazılmışdır ki, ilahi fərmanının bəyanından sonra bu ayə nazil olmuşdur. Peyğəmbər (s) həmin ayə nazil olduqdan sonra buyurdu: ***“Dinin kamilləşməsi, nemətlərin tamamlanması, mənim risalətimə və məndən sonra Əlinin (ə) vilayətinə Allahın ra-zılığına təkbir! Allahu-Əkbər!”***[1]

Şair Fəxrəddin Cəfakeş Peyğəmbərin (s) bu şüarını belə vəsf edir:

***Biz ki, Quranda bu “əkməltə” kəlamın oxuruq,***
***Nə bu Davuda, nə Musa, nə də İsayə gəlib.***

– Bu ayənin əvvəlində Allah-Təala buyurur: ***“Kafirlər dinizdən əllərini üzdülər, onlardan qorxmayın, məndən qorxun”.***

Kafirlər və müşriklər elə düşünürdülər ki, Peyğəmbərin (s) oğlan övladı olmadığından o dünyasını dəyişdikdən sonra din də aradan gedəcək. Amma Allah-Təalanın əmri ilə Həzrət Əli-nin

---

[1] ***“Maidə”, 3***

Peyğəmbərə (s) canişinliyi bəyan olunduqdan sonra onla-rın bütün ümidləri puça çıxdı. Düşmən anladı ki, bu din həmişəlikdir. Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Peyğəmbərin (s) buyruğundakı ***"Mövla"*** kəlməsi vilayət və canişin mənasında işlədilmişdir.[1]

***"Mövla"*** sözünün yeganə həqiqi mənası «ixtiyar sa-hibi»dir. Başqa mənalar məcazidir və onların təsdiqi üçün də-lillərə ehtiyac var. Üsul elminə əsasən həqiqət məcazidən irəli-dir. Bir sözlə, ***"Mövla"*** kəlməsi hədisdə "ixtiyar sahibi" məna-sını daşıyır.

***"Qədir-Xum"*** mərasimindən sonra Həssan İbn Sabitin oxuduğu qəsidə ***"Mövla"*** sözünün həqiqi mənasını aydın göstərir. Həssan öz qəsidəsində Həzrət Peyğəmbərin (s) dili ilə Əlinin canişinliyi haqqında, onun ümmətə imaməti barədə məlumat verir.

Əgər ***"Mövla"*** sözü ***"dost"*** mənasında olsaydı, Peyğəmbər(s) Həssanın qəsidəsində Həzrət Əlini (ə) İmam və canişin adlandırmasına etiraz edərdi. Bəzi sünni alimləri bu mənanı etiraf etməyə məcbur olmuşlar. Onlar bildirirlər ki, Həzrət Peyğəmbər (s) Qədir-Xum günü Həzrət Əlinin (ə) vilayət və canişinliyini etiraf etmişdir.[2]

Peyğəmbərin (s) zamanından bu günə qədər tarixçilər və ravilər Qədir-Xum hadisəsini təhlil etmiş və söyləmişlər. Bu barədə bir çox kitablar yazılmışdır. Əsl həqiqəti axtaranlar Mir Həmid Hüseyn Hindinin ***"Ədəqat"*** adlı əsərini və Əllamə Əmininin ***"Əl-Qədir"*** kitabına müraciət edə bilərlər.

Həmçinin bu hadisəni şairlər, ədiblər də Qədir günündən bu günə qədər ərəbcə, farsca, türkcə və Azərbaycan dilində yazdıqları şeirlərində təsvir etmişlər. O şairlərdən M.Ə.Dil-suzu, S.Ə.Şirvani, M.Füzuli, K.Sərbəndi, Axund Hacı Soltan, S.N.Darafərini və sair qeyd etmək olar. Biz Əhli-beyt aşiqi Ayətullah Əhməd Sabir Həmədani ağanın ***"Qədir-Xum"*** haqqında yazdığı şeiri oxuculara təqdim edirik:

---

[1] ***"Təfsirul-mizan", s.5***

[2] ***"Təzkireyi-İbni-Cevzi" .səh.20; F.Kompani "Əli (ə) kimdir?".***

***Qədiri-Xum tutdu Əli əlindən,***
***Açıqladı həqiqəti dilindən:***
***«Mən küntü mövlahü Əli mövlahü,***
***Allahummə vali limən valahu.***
***Onun dostu Muhəmmədin dostudur,***
***Mənim dostum Allahımın dostudur.***
***Ona düşmən bilin, mənə düşməndir,***
***Mənə düşmən Allahımla düşməndir.***
***Əhli-beytim əmanətdir sizlərə,***
***Quran kimi hidayətdir sizlərə».***

Son olaraq bir hədisi əziz oxucuların nəzərinə çatdıraq. Həzrət Əlinin (ə) İslam dinində və Allah-Təalanın yanında olan məqamını bəyan edirik.

Ötən hicri əsrinin dahi ravilərindən və **«Firdovsil-əxbar»** kitabının müəllifi Peyğəmbəri-Əkrəmdən(s) 300 min hədis eşidib əzbərləmişdir, məhz buna görə də **"Seyyüdül-hüffaz" - "Hafizlərin ağası"** ləqəbini almışdır. "***Zeydi"*** firqəsindən olmasına baxmayaraq, etimadlığı və düz danışdığına görə, onun nəql etdiyi hədis və rəvayətlər həm sünni, həm də şiə alimləri tərəfindən səhih[1] qəbul edilir. Belə nəql etmişdir ki, Peyğəmbər Həzrət Əliyə (ə) buyurdu:

***«Ya Əli, əgər bir kəsin Həzrət Nuhun ömrü qədər ömrü olsa və bu müddət ərzində yaşayıb bütün gündüzlərini oruc tutsa, gecələrini sübhə kimi ibadətlə keçirsə, hər ildə bir dəfə piyada Həccə getsə və "Ühüd" dağı qədərində qızılı olsa və o qızılları Allah yolunda paylasa, axırda da "Səfa" və "Mərva" arasında məzlumcasına ölsə, amma sənin vilayətinə etiqadı olmazsa, heç vaxt behiştin ətrini iyləməyəcək»***[2]

Peyğəmbər(s) buyurub:

***"Əli Allah və Rəsulunun yanında ən sevimlidir".***

---

[1] ***Düzgün***

[2] ***«Əldə qələm qan ağlar», toplayan Mübariz Əlizadə***

# QƏDIR-XUM ƏHLI-SÜNNƏ MƏNBƏLƏRINDƏ

Həzrət Məhəmməd Peyğəmbərin (s) ***“Vida həcci”***ndən qayıdarkən Həzrət Əlinin (ə) vilayət və canişinliyini bəyan etməsini sünni mənbələri də təsdiqləmişdir.

Əhli-sünnə alimlərindən olan Həfiz Əbdüləziz deyir: ***"Qədir hədisi təvarutun ən uca dərəcəsində dayanmışdır".***

Hicri 6-cı yüzilliyin Əhli-beyt şairi olan Fənckərdi öz şeirində yazır:

***La tunkirənnə Qədirə-xummu innəhu***
***Kəşşəmsi fi işraqiha bəl əzhəru***
***Fihi imamətu hədərun və kəmalihu***
***Və Cəlalihu həttəl-qiyaməti tuzkəru.***

(Sən Qədir -Xum hadisəsini inkar etmə, çünki aşkarlıqda günəş kimi, hətta ondan daha işıqlıdır. O gündə Əlinin (ə) imaməti, cəlaləti və kamalı aşkar olub, Qiyamətə qədər davam edəcəkdir).

İslam dünyasının böyük ustadı Əbdullah Əlayili "Livan" radiosunda 18 zilhiccə 1380 hicri-şəmsi tarixində apardığı söhbətində demişdir: "Qədir bayramı İslamın bir bölümüdür. Bunu inkar edən, İslamın əsasını inkar etmişdir".

Qədir-Xum günü tarixin, Həzrət Əli (ə) eşqinin odunu düşüncələrə salıb, ürəklərdə ümid və fərəh yaradan günlərindəndir. Mühəqqiq İsfəhani ***"Əl-ənvarül-qüdsiyyə"*** qəsidəsində bu bayramı belə vəsf edir:

***İdul-qədiri əzəmul əyadi***
***Kəm fihi lillahi minəl-əyadi.***
***Əkmilu fihi dinəhul-mubina***
***Summər-təzəl-İslamə fihi dina.***

(Qədir bayramı bayramların ən əzəmətlisidir. Tanrının o gündə əlləri var. Allah o gündə dinini mükəmməl etdi. Və bu dinin bəşər dini olmağına razı oldu.)

## QƏRB MÜTƏFƏKKİRLƏRİNİN “QƏDİR-XUM” HƏDİSİ BARƏDƏ SÖYLƏDİKLƏRİ

***Volter. “Qədir-xum” barədə söylədiklərindən***

XVIII – əsr görkəmli fransız yazıçısı, filosofu və dramaturqu, ***“Xalqların adət-ənənələri haqqında”*** adlı kitabında müəllif Əlinin (ə) haqqında mühüm sənədlərə toxunaraq yazır:

***“Peyğəmbərlərin(ə) sonuncusunun istək və iradəsi yerinə yetmədi. O, ölüm yatağında olarkən Əlini(ə) öz canişini seçmişdi. Lakin onun vəfatından sonra bu istək həmin əsrin bir sıra nüfuz sahibləri tərəfindən nəzərə alınmadı”.***

Müəllif bu kitabında Həzrət Əlinin (ə) xəlifəliyini qanuni-lik baxımından sənədləşdiyini göstərmişdir. Eyni zamanda ya-zıçının əqidəsinə görə islam Peyğəmbəri (s) əmisi oğlu və kürə-kəni olan Əlinin (ə) canişinliyini açıq-aydın və qətiyyətlə vəsiy-yət etmişdir. Hətta ölüm yatağında olarkən öz səhabəsindən qələm və mürəkkəb istəmişdir ki, yazılı surətdə Əlini (ə) cani-şin kimi təqdim və təsdiq etsin.

***İlya Pavloviç Petruşevski–Sankt-Peterburq Universitetinin tarix professoru.***

“Məhəmmədin yetirməsi olan Əli (ə) ona və İslam dininə dərindən bağlı və vəfalı idi. Əli (ə) sadiq və imanlı idi, əxlaqi məsələlərdə çox diqqətli idi, şöhrətpərəstlikdən, şəhvətpərəstlikdən uzaq idi, şübhəsiz həm döyüşkən idi, həm də şair idi və Allah övliyalarının bütün lazımi sifətləri onda cəmlənmişdir”.

***Baron Kardova – fransız.***

Həzrət Əlinin (ə) necə bir şücaət və cəsarət sahibi olduğundan söhbət açır və Peyğəmbərin(s) ona bağlılığından danı-şır:

“Əli – o bənzərsiz şücaət sahibi, tayı bərabəri olmayan qəhrəman və cəsur insan islam Peyğəmbəri (s) ilə çiyin-çiyinə vuruşur, fəaliyyət göstərir və möcüzəsayağı qiyam edirdi. Bun-lar tarixdə şan-şöhrət və əzəmətlə xatırlanır. Əli (ə) ***“Bədr”*** döyüşündə iyirmi yaşlı cavan idi. Bir qılınc zərbəsi və qolunun zoru ilə Qüreyş süvarilərindən olan, özü də güclü və qəhrəman sayılan məşhur bir adamı iki böldü. ***“Ühüd”*** döyüşündə peyğəmbərin qılıncını götürdü. Hər bir zərbəsi ilə başları parçaladı, zirehləri yırtdı. Yəhud və Xeybər qalalarına yürüşdə bir əli ilə ağır dəmir darvazanı yerindən qoparıb başı üzərində sipərə çevirdi.

Islam peyğəmbəri onu çox sevirdi, ona böyük inam və etibarı var idi. Bir dəfə peyğəmbər (s) nəzərlərini ona dikmiş halda belə söylədi:

***“Mən hər kim üçün Mövlayamsa, Əli onun Mövlasıdır”.***

## İMAM ƏLİNİN (Ə) FƏZİLƏTİ ŞƏRQ ALİMLƏRİNİN NƏZƏRİNDƏ

***Xəlil İbn Əhməd – əruz elminin banisi:***

«Dostları qorxudan və düşmənləri ürəklərindəki həsəddən onun fəzilətlərini gizlətdilər. Bununla belə, şöhrəti Şərqi və Qərbi bürüdü».

***Şəbi-Alim:***

«Bu ümmət içində Əli İbn Əbu Talib (ə) Bəni-İsrail içində Məryəm oğlu Məsih (ə) kimi idi. Bir dəstə onu sevdi və bu sevgidə ifrat edib kafir oldu. Bir dəstə də onu inkar etdi və bu düşmənçilikdə küfrə bulaşdı.

***Şeyx Bəhai Amuli – İslam alimi:***

“O, alicənab bir insan idi. Onun ehtiramı və böyüklüyünü saxlamaq üçün xaçpərəstlərin İsa Məsih haqqında dediklərin-

dən əlavə də nə istəsən deyə bilərsən. Peyğəmbərin (s) Qədir-Xum bayramında xalqa rəhbərlik etməyi tapşırdığı adam həmin şəxsiyyət idi. O, bunu Tanrı əmri ilə etdi və məsələni ay-dınlaşdırdı. O, məxluqatın sevimlisi və əzizi, insanların ən şöh-

rətlisi idi. O, nəsil və əsl-nəsəb baxımından ən pak bəşər övladı idi ki, Qüreyş qucağında böyümüşdü”.

***Professor Hacı Vasim Məmmədəliyev:***

Bir zatın, bir kimsənin ki, qiymətini Allah-Təala öz kitabında verə, Peyğəmbər (s) öz hədislərində ifadə eləyə, mənə elə gəlir ki, ondan böyük qiymət yoxdur. Bir zatın haqqında ki, Həzrət Peyğəmbər (s) “Mən elm şəhəriyəm və Əli (ə) onun qapısıdır” kimi hədis buyurubsa, bu Həzrət Əlinin (ə) elminə və helminə, şəxsiyyətinə verilən ən böyük qiymətdir. Bir şəxsin ki, comərdliyi, səxavəti, ədaləti Qurani-Kərimin surələrində, ayələrində vəsf oluna, insan dili onu vəsf etməkdə təbii ki, acizdir. Buna görə də Həzrət Əli (ə) haqqında danışmaq çox çətindir. Peyğəmbər (s) özü hədislərinin birində buyurub: “Həzrət Əli (ə) haqqında danışan hər kəs çox ehtiyatlı olmalı-dır. Həzrət Əlinin (ə) haqqını layiqincə verməyən qiyamət gü-nü Allah-Təalanın qəzəbinə düçar olar”.

Ona görə belə böyük bir şəxsiyətin qiymətini vermək məsələsinə həddindən artıq ağılla, dərrakəylə, elmlə yanaşmaq lazımdır və Həzrət Əlinin (ə) qiymətini Quran ayələri işığında, Peyğəmbərin (s) hədisi işığında vermək lazımdır. Onun böyüklüyünü, şəxsiyyətini, ədalətini, mərdliyini, Peyğəmbərdən (s) sonra İslam dininin saflığını, ülviyyətini qoruyub saxlamaq və xidmətlərini olduğu kimi şişirdib-gizlətmədən insanlara çatdırmaq lazımdır.

# QƏDIR-XUM HAQQINDA IBRƏTAMIZ HADISƏLƏR

Böyük alimlərdən biri olan Həsən əl-Qədari Əfəndinin qardaşı oğlu Mirzə Hadi xilafət barəsində əmisinə məktub yazır və xahiş edir ki, Peyğəmbərin(s) həqiqi canişini haqqında ona məlumat versin. Həsən əl-Qədari Əfəndi qardaşı oğlunun xilafət barəsində verdiyi suala şeir dili ilə belə cavab verir:

***Mükərrəm zadeyi-cismil-abadi,***
***Cənabi-nuri-eynim Mirzə Hadi.***
***Səni hifz eyləsin Xəllaqi-aləm,***
***Əbul-ətavanun olsun şadü xürrəm.***
***Pəs, əz iblaqi-təslimati-afir,***
***Olub məlumunuz, ey pakizə xatir.***
***Ki gəldi nameyi-fərxundə halun,***
***Xilafət macərasından sualın.***
***Mühaqa eyləyib təşviri təyin,***
***Bu barədə var əqvali-əssəhhin.***
***Cənabi Mustəfadan sonra əkrəm,***
***Fəqəd Ali-əbadır, ey mükərrəm.***
***İbarətdir olar şiri-Xudadən,***
***İki şahzadədən, Xeyrün-nisadən,***
***Olardı Mustəfanın yadigarı,***
***Kəlamullah ilə hər yerdə cari.***
***Əli ol itrətin şiri-nəridir,***
***Rəsuli ma ədanun sərvəridir.***
***Yetər bürhan ona "Mən küntü mövla".***
***Hüdudinə olmuş mümtaz ol şah.***
***Qəsimi nari vəl cənnə Əlidir,***
***İmamül insi vəl cinnə Əlidir.***
***Əlidən sabiq üç digər xəlifə,***
***Deyillər layiq olsunlar şərifə.***
***Olar ancaq rəsul əshabidirlər.***

***Səhabə Al ilə olmaz bərabər.***
***Oğul xilafət mülki-dünyəvidir,***
***İmamət dində hər surət Əlidir.***
***Ki, axırda imamət ba xilafət,***
***Onun üstündə tapdı istiqamət...***

*****

Bir gün Qazi Əbdülcəbbar Bağdadda şiə və sünni alimlərindən təşkil olunmuş məclisin başında əyləşmişdi. Bu zaman Şeyx Mufid (o zamanlar ona Şeyx Mufid deyilmirdi) məclisə daxil olub məclisin aşağı hissəsində əyləşir. Bir qədər keçdikdən sonra üzünü Qaziyə tutub deyir:

- Mənim bu alimlərin hüzurunda sənə bir sualım var. Peyğəmbərin (s) Qədir-Xumda dediyi bu hədis barəsində fikriniz nədir: ***"Mən kimin ağası və rəhbəriyəmsə, Əli (ə) da onun ağası və rəhbəridir".*** Bu hədis düzgündürmü?

- Bəli, düzgündür.

- Bəs onda şiə və sünnilər arasında ədavət və fikir ayrılığı nədir?

- Bu hədis rəvayətdir. Amma Əbu-Bəkrin xilafəti dirayətdir. (ictihadın görünüb, elm və məlumat üzündən olması).

Ədalətli insan rəvayəti (xəbəri) dirayətlə (görməklə) tay tutmaz. Çünki dirayət rəvayətdən üstündür.

Şeyx Mufid deyir:

- Siz Peyğəmbərin (s) Əliyə (ə) dediyi bu söz barəsində nə deyirsiniz: "Səninlə müharibə mənimlə müharibə, səninlə sülh mənimlə sülhdür".

Qazi:

- Bu hədis səhihdir.

- Sizin ***"Cəməl"*** səhabələri (Təlhə, Zübeyr və sair) barəsində nəzəriniz nədir?

- Sonradan onlar tövbə etdilər.

- Onların müharibəsi dirayət (görmək və elm) üzündən olmuşdur. Amma tövbə etmələri rəvayətdir. Qədir-Xum hədisi

barəsində isə dediniz ki, rəvayət dirayətlə bərabər deyil, bəlkə dirayət üstündür.

Qazi Şeyx Mufidin sualı qarşısında aciz qalıb, başını aşağı salır və soruşur:

- Sən kimsən?

Şeyx Mufid cavab verir:

- Mən Mühəmməd ibn Mühəmməd ibn Nömani Harisəm.

Qazi taxtından durub Şeyx Mufidin əlindən tutaraq öz yerində əyləşdirir və deyir:

- Əntəl mufidu həqqa (şübhəsiz sən mufid (faydalı, xeyirli) bir insansan).

Məclisdəkilər bu işdən narahat olsalar da, qazi üzünü onlara tutub söyləyir: "Bu kişi mənə bir sual verdi, mən onun cavabında aciz qaldım. Əgər sizlərdən hər hansı biriniz onun cavabını verə bilsə, qazilik taxtında o əyləşəcəkdir". Ordakılardan heç kəs cavab verməyib susurlar.

Bu hadisə bütün yerlərə yayıldı. Elə həmin gündən də İbn Nomani Harisi Şeyx Müfid adı ilə səslədilər.[1]

***Eyləmiş xətmi-Peyğəmbər Qədri-Xumda çün bəyan***
***"Siz bilin məndən sora, Mövla Əlidir, şiəyan!***
***Həm Həsən, həm də Hüseynin bu cahanda parlayan***
***Mənbəi-nuri-qidası ya Əliyyəl-Mürtəza.***

*****

Həzrət Peyğəmbər buyurub: ***"Ümmətimin alimləri ulduzlar kimidir".*** Belə ulduz alimlərdən biri də mərhum ***Müqəddəs Ərdəbili*** olub. Deyirlər ki, müqəddəs Ərdəbilinin vəfatından sonra müctəhidlərdən biri yuxuda görür ki, Müqəddəs Ərdəbili böyük alimlərin və səhabələrin cərgəsində Həzrət Əlinin (ə) hərəmini gəzir. Həmin adam yuxuda Müqəddəsdən soruşur: ***"Belə uca məqama necə və nə yolla çatmısan?"***

---

***[1]Molla Əliheydər Naqis Tazəkəndi "İbrətə layiq olanlar", səh. 237-239***

Müqəddəs Ərdəbili cavab verir:

***"Mənim bu məqama yetməyimin səbəbi Həzrət Əlini(ə) sevməyim və onun İmamlığını qəbul etməyim oldu".***

***Ey dil, yapiş ol Əhməldi -Muxtar ətəyindən***
***Ta kim nəfəsin var,***
***Səflər dağıdan Heydəri-Kərrar ətəyindən***
***Qəmdən bizi qurtar.***
***Tut silsileyi-seyyidi-əbrar ətəyindən***
***Onlardu dəhü çar.***[1]
***Həftad du tən yavəri qəmxar ətəyindən***
***Xoşxülq, xoşətvar.***

Qasım bəy Zakir bu şeirində vurğulayır ki, insanların bu dünyada və axirətdə səadətə, xoşbəxtliyə çatması üçün yeganə düzgün yol 14 məsumun ətəyindən tutmaları və 72 Kərbəla şəhidlərindən ibrət almalarındadır. Allah-Təala bizi doğru yolun yolçularından qərar versin. Amin!

*****

İmam Sadiqin (ə) şagirdlərindən biri Hişam sünni alimi Əmr ibn Übeyd ilə mübahisə edir ki, Peyğəmbərdən(s) sonra İmam (ə) və rəhbər zəruridir. Hişam belə söyləyir: "Cümə günü Bəsrə şəhərinə daxil oldum və məscidə getdim. Əmr ibn Übeyd Mötəzili məsciddə oturmuşdu, böyük bir dəstə də onun ətrafında həlqəvari şəkildə əyləşmişdilər və müxtəlif suallar verirdilər. Mən də məclisin bir tərəfində onların arasında oturdum və üzümü Əmrə tutub soruşdum:

- Ey alim, mən bu şəhərin adamlarından deyiləm. İczə versəz sizdən bir sual edim?

- Ürəyin nə istəyir soruş.

- Sizin gözünüz varmı?

***[1] Dəhu-çar - 14 məsum, həftadu-tən - 72 yavər (Kərbəla şəhidləri).***

- Görmürsənmi mənim gözüm var, bunu niyə soruşursan?

- Mənim suallarım bu növdür.

- Soruş, amma sualların faydasızdır.

- Sizin gözünüz varmı?

- Bəli, var.

- Gözlə nə edirsiniz?

- Gözlə görməli şeyləri görürəm, onların rəngini, növünü və sair təyin edirəm.

- Diliniz də varmı?

- Bəli var.

- Onunla nə iş görürsünüz?

- Onunla yeməyin dadını və ləzzətini bilirəm.

- Qoxu və iybilmə hissiniz varmı?

- Bəli var.

- Onunla nə iş görürsünüz?

- Onunla qoxuları duyuram.

- Sizin bunlardan başqa qəlbiniz (və ağlınız) varmı?

- Bəli var.

- Onunla nə edirsiniz?

- Əgər mənim başqa bədən üzvlərim və duyğularım şəkk və tərəddüd edərsə, qəlbim onu aradan qaldırır. Aydındır ki, bəzi hallarda insanın beş hiss duyğusu səhvə yol verir, səhvləri aradan qaldırmaq üçün ağıl və qəlb məhkəməsinə müraciət edirik, bununla onların səhvlərini aşkar edirik".

Hişam deyir: "Elə ki, Əmr İbn Ubeyd bu cümlələri söylədi, mən də onun sözlərini təsdiq etdim və dedim:

"Bəli, Allah insan üzvlərinin və beş duyğu orqanlarının fəaliyyətini istiqamətləndirmək üçün, eyni zamanda onların xəta və səhvlərini aradan qaldırmaq məqsədiylə qəlbi yaratmışdır. Ey alim! Belə söyləsək düzgün olarmı? Tanrı insanın gözünü, qulağını və başqa üzvlərini yolgöstərənsiz yaratmamışdır.

Mehriban Allah Rəsuli-Əkrəmdən(ə) sonra müsəlmanları rəhbərsiz və yolgöstərənsiz qoymuşdursa, nəticədə insanlar şəkk, şübhə, tərəddüd və ixtilaf içində qalmazmı və yoldan çıxmağa, məhvə düçar olmazmı?"

Hişam deyir: "Dedim bir fikirləşib düşünmək lazımdır, hansı sağlam fikir və düşüncə bu mətləbi qəbul edər?" O zaman bu cür sadə suallardan belə bir nəticə ortaya çıxardım. Əmr İbn Ubeyd başa düşdü ki, mən Əhli-beyt(ə) tərəfdarıyam və İmam Sadiqin (ə) tələbələrindənəm. Bu səbəbdən sakit oldu, mənə başqa cavab verə bilmədi. Yalnız bunu bacara bildi ki, xoşagəlimli ümumi sözlər desin və mübahisəni bitirsin".

Hişam bu mübahisədən belə nəticə çıxarmaq istəyir və qarşı tərəfi başa salmaq istəyir ki, Allah-Təala Peyğəmbərdən(s) sonra onun canişini olaraq mütləq rəhbər və başçılar təyin etmişdir ki, bir-birinin ardınca müsəlmanların rəhbəri və başçısı olsun.

Ustad Şəhriyar gözəl demişdir ki:

***Bu olan işdi ki, axşamçağı Allah çobanı***
***Çöldə Allah davarın boşlaya bica başına.***

İslamın adlı-sanlı filosofu Əbu Əli Sina deyir:

"Allah-Təala hikmətlidir, insan üçün onun ən kiçicik və zəruri ehtiyacını ödəmək üçün kiprik və qaş yaratmışdır. Belə olduğu təqdirdə ağıl və məntiqə uyarlı olarmı ki, bu qədər mehriban olan Tanrı insanın ən böyük ehtiyacını, - yəni ona yolgöstərən təyin etməyi unutsun və bundan qafil olsun, insanı başsız, rəhbərsiz, tərbiyəçisiz və müəllimsiz qoysun, xalqı başlı-başına buraxsın".

Bütün Azərbaycan xalqını və Əhli-beyt (ə) tərəfdarlarını kamillik bayramı sayılan Qədir-Xum bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edirik. Bayramınız mübarək!

# NOVRUZ GƏLDI, YAZ GƏLDI

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Aşiqisən gəl bəri kim, cani-canan məndədir,***
***Zahida, sən hardasan kim, nuri-iman məndədir.***

***Məndədir yer ilə göyün hikməti, həm qüdrəti,***
***Abu, ataş, xaku, badü cümlə ərkan məndədir.***[1]

13 yaşında şahlıq taxtına əyləşən, 235 illik Azərbaycan Səfəvilər Dövlətinin əsasını qoyan, doğma Azərbaycanın birliyi, bütövlüyü uğrunda mübarizə aparıb böyük qələbələr qazanan, bütün dünyada şöhrət tapan, görkəmli dövlət xalimi, elm və iman fədaisi, Əhli-beyt (ə) aşiqi Ş.İ.Xətai ozan-aşıq sə-nətinin dərin bilicisi olaraq folkloru gözəl bildiyindən öz qəzəl və şeir nümunələrində folklordan bəhrələnmiş və insanın yara-dılış mayası olan 4 ünsürdən söhbət açmışdır.

***Naru, badu, abu, xakdan xəlq oldum,***
***Kəndi-kəndim ana rəhmində buldum,***
***Müddət tamam oldu, dünyaya gəldim,***
***Bu ibrətnümayi cahandan aldım.***

Öz rübailəri ilə dünyaya səs salan və incə qəlbli insanların böyük rəğbət və hörmətini qazanan şair, şərq filosofu Ömər Xəyyam Nişapuri də bir ***"rübai"***sində 4 ünsürdən söz açmışdır.

***Ey dördlə yeddinin məhsulu insan,***
***Bu dördlə yeddidə nə qovrulursan.***
***Mey iç ki, min dəfə demişəm sənə,***
***Bir kərə getdinmi, dönməzsən inan.***

---

[1] ***Ş.İ.Xətai***

Şair bu rübaisində dörd ünsürü – ***od, torpaq, hava, su*** və yeddi planetləri göstərir. Şair insanlara çatdırır ki, sənin yara-dılış xəmirin bu 4 ünsürdən təşkil olunub və bu müvəqqəti dünyada da 4 ünsürdən istifadə edirsən, bəs niyə şükür etmir-sən?

"Mey iç" deməklə şair əbcəd hesabı ilə "mey"in 14 demək olduğunu bildirir. "Mim" 10, "yey" - 4, Mey=14. 14-dən də məqsəd 14 məsumlardır:

***Peyğəmbər(s), Həzrət Fatimeyi-Zəhra (s.ə) və 12 İmam.*** Əgər Yer üzündə yaşayan insanlar bu 14 məsuma məhəbbət göstərməsələr, axirətdə peşman olacaqlar və deyəcəklər ki, kaş bir də dünyaya qayıdıb, onların məhəbbəti ilə yaşayaydıq. Şair yazır ki, ey insan, təfəkkür et, düz yolu tut. Mövlanə Cəlalləddin Rumi demişkən:

***Əgər varsa ağlınız, təyin edin düz yolu,***
***Ondan sonra şövq ilə gediniz dümdüz yolu.***

Bildiyimiz kimi, bir ildə 4 fəsil var: Yaz, yay, payız, qış. Fəsillərin tacı olan yaz mart ayının 21-də Novruz günü adı ilə məmləkətə qədəm qoyur.

"Novrüz"- fars sözü olub, «nou» - «yeni», «ruz» - «gün» deməkdir. Mart ayının 21-i yeni gün başlanır. Xalq arasında bu bayram ***"Bahar bayramı"," Novruz bayramı"*** adı ilə məşhurdur.

"Novruz bayramı"ndan öncə 4 ***"Çərşənbə"*** qeyd olunur: su, od, hava və torpaq çərşənbəsi.

Təbəri yazır: "Şiələr hicrətin 68-ci ilinin son çərşənbə günü Muxtar Səqəfinin başçılığı ilə İslam Peyğəmbərinin (s) Kər-bəlada şəhid edilən nəvəsi İmam Hüseynin (ə) qisasını aldılar. Üsyanı hazırlayan Muxtar göstəriş vermişdi ki, yandırılmış tonqallar göyə atılanda, üsyançılar hərəkətə başlasınlar. Uğur-la nəticələnən üsyan qatillərin məhvi ilə sona çatdı».

Təbərinin dediyi bu hadisədən sonra Əhli-beyt (ə) tərəf-darları bunu zəfər bayramı olaraq qeyd etməyə başladılar. Hə-min gün olduğu kimi yenə də göyə tonqallar atdılar, yerdə 7 tonqal yandırdılar. 7 tonqalın da öz mənası var. Kərbəla hadisəsi Hicri-

Qəməri 61-ci ildə olmuşdu. Hicri-qəməri 68-ci ildə qisas alınanadək 7 iztirablı il keçdi. Qələbədən sonra hər il üçün bir tonqal yandırıldı. Beləliklə də, çərşənbə bütün Əhli-beyt (ə) aşiqləri kimi, Azərbaycan xalqının da həyatına daxil oldu və o vaxtdan da xalqımız bu 4 çərşənbəni və "Novruz bayramını" özünəməxsus qayda-qanunlarla, bayram əhval-ruhiyyəsi ilə keçirirlər.

"Novruz" əsrlər boyu dünyanın bütün bayramları ilə fərq-li olmuşdur. "Novruz" ictimai bir qərar və qəbul etdirilmiş si-yasi bir münasibət olmadığına görə həmişəyaşardır. Bu bay-ram ümumbəşəri bir şənlik, yer ilə göyün şadlıq günüdür. His-sləri coşduran, çiçəklənmələrin həyəcanıdır. Novruz bayramı xalqların gözəl adətlərindəndir. Yaz fəsli ilk mövsüm, novruz isə ilk gündür.

Məşhur alimlərdən biri yazır: «Novruz haqqında yeni bir söz söyləmək çox çətindir. Novruz mili bayramdır».

Həzrət Əlinin (ə) xilafətə «Qədir-Xum» günü vəsi seçilmə-si Novruz günündə olmuşdur. S.Ə.Nəbati də bu deyilənləri təsdiq edir və «Görünür» rədifli şeirində yazır:

***Bəzmi vəhdətdə bu gün özgə tədarük qurulur,***
***"Qul-kəfa" şahinə övradi-mübarək toxunur,***
***"Həl-əta" surəsi "vən-nəcmü" təbarək oxunur,***
***"Vəz-züha" təxtinə Soltan Şahi-Mərdan görünür.***

# NOVRUZ BAYRAMININ MEYDANA GƏLMƏSI

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Baharın var bu gün, ye meyvəsindən,***
***Hər gün Novruz olmaz məgər bilmirsən?***[1]

Bu bayramın necə yaranmasına dair müxtəlif tarixi rəvayətlər və yazılar vardır. Onların ən üstünü və önəmlisi Novru-zun yaranmasını "***Pişdadi"*** sülaləsinə mənsub edir.

***"Novruz"*** bayramı haqqında Firdovsi ***"Şahnamə"***də, Ömər Xəyyam ***"Novruznamə"***də, Əbureyhan Biruni və Təbəri öz əsərlərində söz açmışlar. Məsudi yazır:

«Xalqın çoxu Novruzun o dönəmdən başlanmasına və şahların rəsmi bayramları olduğuna inanmaqdadırlar».

Nuhun (ə) müasiri olan, 716 il davam edən Pişdadi silsiləsinin şahlarından biri Xurşid oğlu Cəmşiddir. O, 384-cü ildə Zöhhakı məğlub edəndən sonra şahlıq taxtına çıxdı. Novruz "parsi"lər ilinin ilk günü olaraq onlardan yadigar qalmışdır. Cəmşid səltənətinin 316-cı ilində Azərbaycanı fəth etdi. Orada onun üçün şərqə tərəf şanlı bir taxt qurdular. Şah taxta əyləşib, daş-qaşla bəzənmiş tacını başına taxan zaman gün çıxdı və şahın cəvahirləri parıldadı. Xalq şadlıq edib dedi:

***"Bu gün yeni gündür".***

Cəmşid şah əmr etdi ki, İran xalqı hər il o günü bayram etsinlər.

Dahi Nizami Gəncəvi də ***"İskəndərnamə"*** poemasında Zöhhakı Cəmşidin taxtdan saldığını qeyd edərək insanları ədalətli olmağa səsləyir:

***Qocaman ağaca mişar çəkmə sən,***
***Zöhhak bunun üçün düşdü təxtindən.***

---

[1] ***N.Gəncəvi "Xosrov və Şirin"***

***“Qocaman ağac”*** sözlərindən məqsəd bunu çatdırmaqdır ki, Pişdadi sülaləsinin 4-cü şahı ədalətsiz olduğu üçün Cəmşid şah onu taxtdan salmış, özü isə taxt-tac sahibi olmuşdur.

Şərqin dahi şairlərindən Firdovsi “***Şahnamə”*** əsərində Cəmşid şah və Novruz barəsində belə deyir:

“Bu mübarək Novruz günü o zamandan yadigar qalmışdır”.

Ömər Xəyyam Nişapuri ***“Novruznamə*”də yazır: «Kiyu-mərs 3197 (c.ə) ildə İranın ilk padşahı olaraq şahlıq taxtına keçdi. O illər və aylara ad qoymaq və tarix yazmaq istədi. Ki-yumərs o günün səhəri vaxtı, həməl bürcü ilk dəqiqəsinə gələn-də bütün əcəm «mübəd»lərini toplayıb əmr etdi ki, tarixi bura-dan başlasınlar. Habelə ilin 4 mövsümünü yəni, yaz, yay, pa-yız, qış mövsümlərini də Kiyumərs təyin tdi. Amma bu günü «***Novruz»*** adlandıran Cəmşid idi. Cəmşid bu günü bayram qə-rar verib, şadlıq qurmağı əmr etdi».

İranın məşhur şairi Ünsüri deyir:

*“**Böyük Novruz gəldi; Dünyanın zinəti İranlılar üçün Cəm (Cəmşiddən) miras qalmışdır”.***

**“Novruz bayramı**” günü il təhvil olunanda bu duanı oxu-maq tövsiyə olunub:

***Bismillahir Rəhmanir Rəhim!***

***Ya müqəllibəl qülubi vəl əbsar,***
***Ya müdəbbirəl leyli vən nəhar.***
***Ya mühəvvilən hövli vəl əhval,***
***Həvvil halənа ilə əhsənil hal.***

Tərcüməsi:

***Bağışlayan və Mehriban Allahın adı ilə!***
***Ey qəlbləri və gözləri dolandıran Allah!***
***Ey gecə və gündüzün tədbirini tökən Allah!***
***Ey halları (işləri) və illəri dəyişdirən Allah!***
***Dəyişdir halımızı ən gözəl hala Allah!***

Ş.İ.Xətai fəsillərin gözəlliklərini dəfələrlə qələmə alıb. Lakin bahar fəslinin gözəlliklərini qələmə alarkən şair bütün qüdrətini səfərbər edib, insana və təbiətə olan məhəbbətini ***"Dəhnamə"*** ("On məktub") adlı ***"məsnəvi"***sində ümumiləşdirmişdir.

***"Dəhnamə"*** məsnəvisinin müqəddiməsində şairin qələmə aldığı ***"sifəti-gülşənü bahar"*** adlandırdığı ***"Bahariyyə"*** Azərbaycan ədəbiyyatı tarixində təbiət təsvirinin ən gözəl nümunəsidir. 122 misradan ibarət olan bu təsvir müşahidələrin dəqiqliyi, rəngarəngliyi, təzəliyi və təravətli olması ilə indi də insanı heyrətə salır, şən əhval-ruhiyyə oyadır. Bu təsvirlər o qə-dər dəqiqdir ki, rəssamlar onun əsasında heç bir çətinlik çək-mədən çoxlu lövhələr yarada bilərlər. Ədəbiyyatşünaslığımızda ***"Bahariyyə"*** adlı janra bir qayda olaraq Ş.İ.Xətainin həmin təsviri ən səciyyəvi nümunə kimi göstərilir. Ədəbiyyatımızda çoxlu təbiət təsvirləri yaradılmasına baxmayaraq, Xətainin yaratdığı ***"Bahariyyə"*** belə təsvirlər içərisində müstəsna yer tutur. İlk misralardan başlayaraq həmin lövhələr insanı valeh edir:

***Qış getdi, yenə bahar gəldi,***
***Gül bitdi və laləzar gəldi.***
***Quşlar qamusu fəğanə düşdü,***
***Eşq odu yenə bu canə düşdü.***
***Yer geydi qəbayi-xizr puşan,***
***Cümlə dilə gəldi ləbxəmuşan.***
***Sərvin yenə tutdu damənin su,***
***Sərv üstən oxudu faxtə gu-gu,***
***Qönçə dəhəni çəməndə xəndan,***
***Gülməkdən ənar açıldı dəndan.***
***Bülbül oxudu sifatü-hicran,***
***Dəryada dür oldu əbrü-neysan,***
***Durna uçuban həvayə düşdü,***
***Laçın aluban ovayə düşdü.***
***Alma ağacı dibində sayə,***
***Tən eylər idi buludda ayə.***

# BAHARIYYƏ

Qış getdi, bahar gəldi. Gül bitdi, laləzar oldu. Quşlar fə-ğanə gəldilər, yəni cəh-cəh vuraraq oxudular. Eşqin odu cana düşdü. Yer Xızır kimi yaşıl geydi. Danışmayanlar dilə gəlib danışdı. Sərvin ətəyin su tutdu. Alabaxta (çöl göyərçini) sərvin üstündə oxudu. Çəməndə nar ağacı çiçək açdı. Bülbül ayrılığa vida nəğməsi oxudu. Neysan suyu gövhərə çevrildi. Durna ha-valanıb uçdu, Laçın ova çıxdı. Alma ağacının dibindəki kölgə bulud ilə aya rişxənd edirdi. Neysan yağışı yağdı, minlərlə bül-bül oxudu. Hər yarpaqda şeh mey bəsləyirdi. Turac da hər yarpağı vərəq edib kitab oxuyurdu. Ağacda qumru ***"qum-qum"*** deyə oxuyurdu. Bənövşə şərab içib məst olmuşdu. Bal-qabaqlar tağda açıla qalıb qu quşunun boynundan xəbər ve-rirdilər. Quş balaları yuvadan məktəb uşaqları kimi səs–səsə verirlər. Torpaq min rəngə boyandı, ağac yarpaqları pul-pul oldu. Nilufər açılaraq libasını başına bürüdü və suya girdi. Çi-nar əlini açaraq rəqsə başladı. Gül ən xırda qızılını şabaş atdı. Çaylar bulanıb səddi aşdılar, bağlarda ağacı və budaqlarını yaşıllaşdırdılar. Çəmənlər yüz cür paltar geyindilər, yasəmənlər ağ dona büründülər. Sudan doymuş gülün üzündə su vardı, nərgiz yuxulu halda oturmuşdu. Hər qönçədə qumru gözü ki-mi qırmızı yarpaq var idi. Dan yeli üzünə şillə vurmasın deyə, qönçə üzünü niqab ilə örtdü. Yaşıl çəmən üstə düzülmüş şeh damlaları yaşıl səmadakı Pərvin ulduzunu qısqandırırdı. Sərv çəməndən başını ucaltdı, gül cilvələnib naz etdi. Çəmən xətibi olan bülbül budağı minbər edib üstündə oxuyurdu. Hər su çə-məndə arxa dönmüşdü, nərgis gülünü yuxu tutmuşdu. Heç bir sərvərə ehtiyacı olmayan lalə başına tac qoyub oturmuşdu. Sünbül saçını daraq ilə darayıb ənbər ətrini yayırdı. Bağın kə-narında arx axırdı. Ahu, dağdan enib, su içməyə gəldi. Lalə gecələr çırağını yandırıb aşiqin ciyərinə dağ çəkirdi. Bağ sərvi naz ilə bəzənib başına qırqovul quyruğu sancdı. Zəmzəm ho-vuzun suyu kimi gül yarpağına şəbnəm doldu. Bağlar qırmızı, yaşıl don geyindi, dağlar ağ ləçəyin sərdilər. Şənlənməyənlərin gözünə sancmaq üçün süsən qılınc götürdü, seyid isə xəncər.

Ağac üstündə yüz sığırçın oxuyar, göyərçin də onlara qoşular. Səhər yeli ənbər ətri yayayraq əsir, budaqda yarpaq titrədir. Köçəri quşlar olan durna, qaranquş, qurqura, qaz uçub köç-dülər. Sona qanadını yığıb gölə qondu. Kəklik dağda qah-qah çəkib gülürdü, bayquşlar liməallah (Allahdan başqa Allah yoxdur) deyə oxuyurdular. Sərv öz saçı ilə ayağına kölgə sal-mışdı. Novruz gülünün ağzı açıq qalmışdı, quş min dil ilə ora-da oxuyurdu. Dayçalar tüləyib yol buraxdı, çalağan qulun ki-mi kişnədi. Qoyun döl töküb quzuladı, ellər yaylağa çıxdılar. Hər su düşmən qanı kimi qızardı, ahu ötgünə sarı getdi. Ge-yiklər bir-birini qovmağa başladılar. Sərv çəməndə ayağa du-rub sola-sağa tamaşa edirdi. Gülün qızı gəlinlik çağına yetmiş-di, ona görə də qırmızı duvağını başına örtmüşdü. Ahu öz ba-lasını yuxuya verib ot dalınca getdi. Öz göbəyindən səhrayə nafə buraxdı, qara torpaq müşk ətri verdi. Durna havada elə səda verdi ki, 40 ağac ətrafa yayıldı. Tərlan bağrıqaraya doğru uçanda bağrıqaranın bağrı qaraldı. Quşlar balalarını böyüdüb yuvadan uçurtdu. Ahu isə yenə də balasına süd verir. Yer əjdə-hası günəşə çıxdı, dağ buğası buynuzunu silkələdi. Hər bir gülün üstünə bir arı qondu, qarışqa dən dalıyca çıxdı. Hər şey öz nəmliyini günəşin altında qurutdu, göy qurşağı tər qurşağını açdı. Yarpaqlar ağaclarda titrədi. Kimisi ox kimiydi, kimisi də oxun ucuna taxılan dəmir kimi. Tutuquşu şirin-şirin oxuyaraq öz qəfəsini qənd ilə doldurdu. Cümlə quşlar vətənlərinə döndü.

# İMAM CƏFƏRI SADIQIN(Ə) NOVRUZ BAYRAMINA MÜNASIBƏTI

İmam Cəfəri Sadiqin (ə) yaxın səhabəsi olan Müəlla ibn Xüneysdən rəvayət:

Novruz günü İmam Cəfəri Sadiqin (ə) yanına getmişdim. İmam (ə) məndən soruşdu**:**

***"Sən bilirsən bu gün hansı gündür?"***

Dedim:

- Sənə fəda olum, elə bir gündür ki, əcəmlər bunu bayram edərlər və bir birlərinə hədiyyə, töfhələr göndərərlər.

İmam (ə) buyurdu:

- Bu təkcə bir-birlərinə hədiyyə göndərmək deyil. İstəyir-sən ki, ***"Novruz bayramı"***nın əsl fəzilətlərini sənə izah edim?

Dedim:

- Ey mənim ağam, bu fəzilətləri bilmək mənim üçün ölən-lərimin dirilməsindən və düşmənlərimin ölməsindən daha yax-şıdır.

İmam (ə) buyurdu:

- Ey Müəlla, doğrusu, Novruz bir gündür ki, Allah-Təala bu gündə ruhlarla əhd-peyman bağladı ki, onun birliyinə pərəstiş et-sinlər, ona şərik qərar verməsinlər. Onun Peyğəmbərlərinə(ə) və İmamlarına(ə) iman gətirsinlər. Bu əvvəl gündür ki, günəş tülu etdi. Küləklər ağacları tozlandırdı. Güllər və çiçəklər yerdə yaran-dılar. Bu gün Nuh Peyğəmbərin (ə) gəmisi tufandan sonra Cudi dağında dayandı. Bu o gündür ki, Allah Təala neçə min insana həyat bəxş elədi ki, onlar taun xəstəliyinin qorxusundan ölümdən qaçırdılar. Bir dəfəyə Allah onları öldürdü. Bir müddətdən sonra onların bədənlərinin sümükləri qalmışdı. Allahın Xirqil (ə) adlı Peyğəmbəri o sümüklərin yanından keçəndə Yaradandan sual et-di ki, ***"Bu sümükləri necə dirildəcəksən?"*** Allah ona vəhy etdi ki, ***"Dəstəmaz alıb, suyunu sümüklərin üstünə töksün"*** . Peyğəm-bər(ə) o cür də etdi. Bütün sümüklərin sahibləri Allahın qüdrətiylə dirildilər. Bu səbəbə görə, bir-birinin üstünə su çiləmək və ya in-sanın öz üzərinə su çiləməyi və qüsul etmək Novruz günündə sa-vabdır. Hikməti dirilik və həyat sayılır. Bu qissəyə Qurani-Mə-ciddə işarə vardır.

***“Ələm tərə iləlləzinə xərəcu min diyarihim vəhum ülufun həzə-rəl mövt. Fə qalə ləhumullahü mutu sümmə əhyahum”.***

Bu Novruz günündə Cəbrail adlı mələk Peyğəmbərə (s) vəhy gətirdi. Yəni ***“Məbəs”*** günü, 27 Rəcəb həmin gün idi. Və bu gündə Peyğəmbərimiz (s) Qüreyşilərin Məkkədə bütlərini sındırdı. Və Həzrət İbrahim (ə) o gün kafirlərin bütlərini sındırdı. Həmin gün Peyğəmbərimiz Həzrət Əliyə (ə) buyurdu: ***“Mənim çiyin-lərimə çıx və kafirlərin bütlərini sındırıb yerə tök”.*** Novruz günü Peyğəmbər(s) səhabələrə əmr etdi ki, Həzrət Əliyə (ə) beyət edin və deyin ki, ***“Ya Əli, sən bizim əmirimiz, rəhbərimiz və mövlamızsan”***. Yəni ***“Qədir-Xum”*** günü də Novruza təsadüf etmişdi. Peyğəmbər (ə) Həzrət Əlini (ə) cinnilər vadisinə bu gündə göndərmişdi Osmanın ölümündən sonra xəlifəlik haqqı Həzrət Əliyə (ə) qaytarıldı. Novruz günü Həzrət Əli (ə) Nəhrivan müha-ribəsində qalib gəldi. Novruz günündə 12-ci imamımız Həzrət Qaim (əc.f) zühur edəcək və zülmə qalib gələcək. Biz Novruzun fərəc intizarını çəkirik. Bu gün bizim və şiələrimizin günüdür. Bu günə əcəmlər hörmət və ehtiram edirlər. Amma siz ərəblər onu zay edirsiniz.

İmam Cəfər Sadiqin (ə) bu mübarək kəlamlarından sonra sözümüzü yekunlaşdırmaq qərarına gəldik.

Son olaraq xalqımızı ***“Novruz bayramı”*** münasibətilə sə-mimi qəlbdən təbrik edir və mərhum xanəndə, gözəl Fizulişü-nas Hacıbaba Hüseynovun baharın gəlişi ilə yazdığı qəzəlin-dən bir neçə beytlə sizi Allaha tapşırıram:

***Tamaşa eylə, ey könlüm, bu aləm gör nə aləmdir,***
***Bahar əyyamı gəlmişdir, səfası canə məlhəmdir.***

***Gecə gündüzlə tənlənmiş, bu gündən eydi-Novruzdu,***
***Sular torpağa can vermiş, vüsali-abi-Zəmzəmdir.***

***Açılmış qönçələr bir-bir, çəmənlər laləzar olmuş,***
***Nəvayi-şurişi-bülbül, mənim şurimlə toəmdir.***

# VI BÖLÜM

***İslamın həyatımızın hər mərhələsinə əks olunması lazımdır. Bəzi əmrləri edib, bəzilərini etməmək olmaz. Necə ki, su dolu bir stəkanda iynənin ucuyla bir yer açsaq, içindəkilər yavaş-yavaş boşalmağa başlayar və bir müddət sonra içində heç nə qalmaz. Dini həyat da belədir. Həyatımızda nöqsanlar varmı? İslamı unudub laqeyd olduğumuz bir yer varmı? Ata-anamıza qarşı davranışımız, qohumlarla rəftarımız, əmr be-məruf və nəhyəz-münkirə riayətimiz, İlahi ölçülərə qarşı həssaslığımız necədir? Bunları yaxşı-yaxşı fikirləşib nəfsimizi daim hesaba çəkməliyik.***

***Necə ki, böyük filosof-şair, General A.A.Bakıxanov deyib:***

***Alçaq nəfsin dad əlindən, verir mənə min əzab,***
***Odur verən ürəyimə sonsuz kədər, iztirab.***
***Cananımın dərgahından uzaq salır o məni,***
***Onun zalım əlləriynən alışır can xərməni.***

# İSLAMDA AILƏYƏ MÜNASIBƏT NECƏ OLMALIDIR

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Bu dünyanın hər işini xəbər aldım bir arifdən,***
***Dedi:"Cavan qum-torpaqdır, bir küləkdir, əfsanədir"***
***Dedim: "Kimlər hərisliyə, acgözlüyə mübtalədir?"***
***Dedi: "Həris insan bilki, kordur, kardır, məstanədir."***[1]

İslam dininin möhkəm və haqq bir din olması dəlillərindən biri bu dinin hərtərəfli olmasıdır ki, bəşərin maddi və mənəvi həyatına aid olan bütün mövzulara diqqət yetirmişdir. Əgər bu din bəzilərinin dediyi kimi, sadəcə olaraq bəşər tərəfindən meydana gətirilən bir din olsaydı, heç vaxt onun əhatə dairəsi bu qədər geniş olmazdı. Biz bu yazımızda əqidə, təfəkkür, əxlaq, ictimaiyyət, siyasət və s. kimi mövzuların üstündən keçərək, "İslamda ailəyə münasibət necə olmalı" sualına cavab axtarmağa çalışağıq.

Ailə zahiri nəzərdən cəmiyyətin ən kiçik qurumudur, lakin əhəmiyyət baxımından cəmiyyətin əsas sütunlarından birini təşkil edir, həqiqətdə isə çox böyük və əzəmətlidir. Əgər ailə mühitindəki mədəniyyət və vəfadarlıq istənilən səviyyədə səmərəli olsa, təbiidir ki, ölkə, şəhər və dünya miqyasında olan böyük cəmiyyətlərdə də kamal və nailiyyətlər istiqamətində müsbət addımlar atılacaq, irəliləyişlər olacaqdır. Çünki böyük bəşər cəmiyyəti elə həmin kiçik ailə cəmiyyətindən təşkil olunmuşdur və bu iki cəmiyyət bir-biri ilə sıx əlaqədədir.

Müqəddəs İslam dini ailələrin islah olunmasına yüksək dərəcədə əhəmiyyət vermiş, bu işin icrasında ailənin hər bir üzvünün vəzifəsini təfsilatı ilə bəyan etmiş, həmin proqramlara əməl olunub diqqət yetiriləcəyi təqdirdə onların səadət və müvəffəqiyyətlərinə zəmanət vermişdir.

---

[1] ***Əbul Səid Əbul Xeyr***

Bütün təşkilatlar və bəşər cəmiyyətləri xüsusi qanuna, inzibata ehtiyaclı olduğu və bu deyilənlər mövcud olmadan nailiyyət əldə edə bilmədiyi kimi, ictimaiyyətin bir zərif və həssas qurumu olan ailədə şübhəsiz ki, məxsus inzibata və qanunlara malikdir. Bu mühit o halda sağlam bir mühit olacaq ki, həmin qayda-qanunları özündə tətbiq etsin və onları dəqiq şəkildə icra etsin.

İslam dininə görə, müqəddəs ailə ocağında ata və ana ailə üzvləri arasında son dərəcə ehtirama və hörmətə layiqdirlər, övladlar onlara tabe olmalıdırlar, heç bir vaxt şəri və üzrlü səbəb olmadan onların göstərişlərindən kənara çıxmamalıdır.

Aşıq Əhməd demiş:

***Atadır, Anadır varlığın canı,***
***Onlarsız törəyib yetişən hanı,***
***Şah olsan ziyarət etməsən onu***
***Təxti-səltənətin başına dəysin.***

Həmçinin Quranda və hədislərdə bu barədə möhkəm göstərişlərdən əlavə, övladlara yol göstərilməsi və onlara qayğıkeşlik nəzəridən bu məsələ böyük əhəmiyyət kəsb edir. Əgər nəzərə alsaq ki, valideynlər bir ömür övladlarının sonsuz məşəqqətlərinə, çətinliklərinə sinə gərib bütün varlıqları ilə onların xoşbəxt olmalarına çalışmışlar. Buna görə də hər bir övlad ata-anasının ehtiramını əziz tutmalı və onların sözündən çıxmamalıdırlar.

***Atanı-ananı sağ vaxtı istə,***
***Mərdliyin deyilsin eldə, məclisdə,***
***Öləndə pul töküb qəbrinin üstə,***
***Vurduğun zinyətin başına dəysin!***

Eyni zamanda ata və ana da öz övladları qarşısında məsuliyyət daşıyırlar və bu ata-ananın boynunda böyük bir ilahi vəzifədir. Ailə mühitində ər və arvad bir-birinə nisbətən qarşılıqlı

hüquq və vəzifələrini yerinə yetirməli, məsuliyyətli olmalı, tam səfa və səmimiyyətlə yaşamalıdırlar. İslam dininin bu barədə ki, xüsusi göstərişlərini icra etməklə ailədə məhəbbət tellərini möhkəmlətməli, hər növ azğınlıqlardan (çirkinliklərdən) çəkinməlidirlər.

Çünki ailənin mühüm səmərəsi olan övlad öz valideynlərinin əxlaq və tərbiyələrini özləri üçün nümunə götürürlər.

Quran ayələrindən, məsum İmamların (ə) dəyərli kəlamlarından və İslam alimlərinin qiymətli kəlamlarından bəzisini bu yazıda qeyd etməklə əziz oxuculara ailə hüququ və ailə əxlaqı barəsində mühüm nöqtələri qeyd etməyi özümə borc bildim.

Qurani-Kərim *"**İsra**"* surəsi 23-24-cü ayələrdə buyurur: ***"Allahın qəti hökmü olmuşdur ki, Ondan başqasına pərəştiş etməyin, ata və ananıza yaxşılıq edin. Hər vaxt sənin valideynlərindən biri və ya hər ikisi sənin yanında qocalıq yaşlarına çatsalar, (onlara ən kiçik təhqiri belə rəva görmə və) onlara "uf" demə, onlara gözəl və ədəbli sözlər de, nəvaziş qanadlarını onların üstünə sal və de: "Pərvərdigara, necə ki, onlar məni körpə yaşlarımda tərbiyə etmişlər, onlara öz lütfünü şamil et".***

Bu ayədən bir daha məlum olur ki, müqəddəs İslam dini bu insani vəzifənin əhəmiyyətini təkidləndirərək valideynə ehtiram barəsində lazımi göstərişləri verir və ata-anaya hörmət edib, nəvaziş göstərməyi vacib bilir və bu məsələyə o qədər əzəmətlə yanaşır ki, onu Tovhid və Allahpərəstlik məsələsi ilə yanaşı qeyd edir. Bu tövsiyə Qurani-Kərimdə 5 yerdə qeyd edilmişdir:

***"Bəqərə"- 83;***
***"Nisa"-36;***
***"Ənam"-151;***
***"İsra"-23;***
***"Loğman"-14;***

Mərhum Əllamə Təbatəbai "Əl-Mizan" təfsirinin 13-cü cildində belə yazır:

"Valideynin əmr və göstərişlərinə tabe olmaq və onlara yaxşılıq, ehsan etmək Tovhiddən sonra vacib əməllərin ən mühümlərindən sayılmış, onların hüquqlarında nöqsanlı hallara yol verilməsi Allaha şərik qoşmaq günahından sonra ən böyük günah sayılır."

***"Məcməül-Bəyan"*** təfsirinin müəllifi Mərhum Təbərsi yazır: ***"Ata və ana qocalığın təsiri nəticəsində elə bir yerə çata bilərlər ki, uşaq kimi qorunub saxlanmağa daha çox ehtiyac duya bilərlər və özləri müstəqil şəkildə hərəkət edə, yaxud özlərini paklaya bilməzlər".***

Bir daha bu deyilənlərdən aydın olur ki, ata-anaya ehtiram qoyub nəvaziş göstərmək bütün zamanlarda insani və dini bir vəzifə olmaqla yanaşı, vacibatın ən mühüm hökmlərindən sayılır.

***Atanı-ananı kim çox istəsə,***
***El-oba afərin deyər o kəsə,***
***Diriyə yaxşılıq etməmisənsə,***
***Ölüyə rəhmətin başına dəysin.***

Həzrəti Peyğəmbər (s.ə.) buyurub:

"Ata-anasının üzünə məxsus məhəbbətlə baxan saleh övladın hər bir baxışına Allah-Təala bir qəbul olunmuş Həcc mərhəmət edər. Peyğəmbərin (s.ə) sahəbələri bu böyük müjdəni eşidəndə Həzrətdən (s) soruşdular:

"Ya Rəsulallah! Əgər bir şəxs bir gün ərzində valideyninin üzünə bu cür baxsa, yenə də bu qədər savab və mükafata çatar?" Həzrət(s) buyurdu:

***"Bəli, Allah-Təalanın şəni bundan çox-çox yüksəkdir, heç vaxt bu savabı azaltmaz."***

Mənsur ibni Hazim İmam Sadiqdən (ə) soruşdu:

**"Ey böyük rəhbər ən yaxşı əməl nədir?"**

İmam (ə) cavabında buyurdu:

**"Üç şeydir:**

1. Namazı fəzilətli vaxtında qılmaq;
2. Ata-anaya yaxşılıq edib, onlarla xoş rəftar olmaq;

3. Allahın razılığı üçün Onun yolunda düşmənlərlə cihad etmək"

İmam Sadiqdən (ə) nəql ounan bir hədisdə buyurulur ki, bir kişi Peyğəmbərin (s.ə.) yanına gəlib dedi:

"Ey Allahın Peyğəmbəri(s) sidq-qəlbdən cihad üçün hazıram.

Həzrət(s) buyurdu:

***"Allah yolunda din düşmənləri ilə cihad et, əgər şəhadət şərbətini içsən, Allahın hüzurunda diri olacaq və Onun ruzilərindən bəhrələnəcəksən. Sənin əcr və savabın Allahın öhdəsindədir. Əgər sağ-salamat qayıtsan, sənin bütün günahların sanki yeni doğulmuş uşaq kimi bağışlanacaq".***

Sonra həmin şəxs dedi:

"Ya Rəsulallah! Amma mənim qoca ata-anam vardır ki, mənimlə çox ünsiyyət bağlamışlar, mənim onların yanlarında olmamağımdan çox narahat olurlar. Bu halda mənim vəzifəm nədir?"

Həzrət (s) buyurdu:

***"Ata-ananın yanına qal! Onlarla birlikdə ol. And olsun canım əlində olan Allaha, bir gecə-gündüz ata-anaya xidmət etmək Allah yolunda din düşmənləri ilə bir il cihad etməkdən daha fəzilətlidir".***

***Ata-ana sağkən saymayan övlad,***
***Öləndə hörmətin başına dəysin!***
***Cənazə başında qoparıb fəryad,***
***Həşri qiyamətin başına dəysin!***

İmam Sadiq (ə) buyurub:

"Bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib Həzrətdən (s) övladların valideyn qarşısındakı hüquq və borcları haqqında soruşdu.

Həzrət (s) buyurdu:

***"Övladın ata-ana qarşısındakı hüquq və borclarından biri də budur ki, övlad onu öz adı ilə çağırmasın, onlardan qabaq yol getməsin, onlardan qabaq oturmasın, elə işlər görməsin ki,***

***camaat onların barəsində nalayiq sözlər danışıb onlara qarşı bədnam olsunlar".***

***Övladsan, atanı sağ vaxtı ara,***
***Ana ağ deyəndə sən demə qara,***
***Onlar bu dünyadan köçəndən sonra,***
***Xərcin, xəcalətin başına dəysin!***

İmam Səccad (ə) bir hədisdə belə buyurur:

***"Ananın sənin boynundakı haqqı budur ki, biləsən o, səni elə bir müddətdə və elə bir yerdə öz bətnində saxlamışdır ki, heç kəs sənə qarşı bu işi görməzdi. Anan səni öz qəlbinin meyvəsi ilə qidalandırmışdır. Halbuki, başqaları bu işi görməzdi. O səni bütün var qüvvəsi ilə və bütün vücudu ilə, qulağı, gözü, əli, ayağı və s. ilə qoruyub saxlamışdır. Həmçinin ana barəsində bilməlisən ki, o sənin vücudunun başlanğıcı, əslidir, sən isə onun budaqlarısan. Əgər o olmasaydı sən də olmazdın. Sənin vücuda gəlməyin ona bağlıdır".***

İmam (ə) bu hədisdə övladların valideynə qarşı qürur və təkəbbürlərini sındırır, onları ayıldır, onların diqqətini bu böyük İlahi nemətə yönəldir, valideynlərin vücud izlərini cavanlar və övladlar üçün canlandırır.

Bir çox şairlər, aşıqlar, el ağsaqqalları da müdrik kəlamları ilə həmişə gənclərə öyüd, nəsihət vermiş və onları düzgün yola dəvət etmişlər. Mövlanə Muhəmməd Füzuli "**Ənisül-Qəlb**" qəsidəsində oğlu Fəzlin simasında; S.Ə.Şirvani oğlu MirCəfərin simasında bütün gənc nəslə öz tövsiyyələrin çatdırmışlar.

Sədi Şirazi də "Gülüstan" əsərində İlahinin insana bəxş etdiyi nemətləri yada salır və bu nemətlərin müqabilində insanın Allaha ehtiyatclı olmasını, ata-anasına hörmət bəsləməsini tövsiyyə edir.

***Allah səni unutmadı öz ananın bətnində,***
***Ki, huşsuz və hissiz olan bir nütfəydin o zaman.***

***Belə yazıq vəziyyətdə qaranlıq bir guşədə,***
***Əta etdi sənə: "Əql, nitq, şüur, camal, can".***

***Əllərində yaratdı o, xoş düzülmüş on barmaq,***
***İki güclü qol düzəldib asdı iki yanından.***

***Ey hummətsiz indi necə xəyalına gəlir ki,***
***Gün keçdikcə unudacaq səni böyük Yaradan.***

***Gör Allahda nə qədər vardır lütfi-kəramət.***
***Bəndə günah eyləmişsə, Allah çəkir xəcalət.***

İslam dini ailə qurmağa və ailədə nizam-intizamlı olmağa böyük əhəmiyyət vermişdir. Eyni zamanda hər bir müsəlmanın son arzusu Allahın razılığını qazanmaqdır ki, bu da ata-ananın razılığını əldə etməyə bağlıdır. Bir nəfər öz anasını çiynində alıb, onu təvaf etdirirdi. Peyğəmbəri (s) görən kimi ona ərz etdi:

"Ya Rəsulallah! Bu işlə anamın qarşısında olan borcumu yerinə yetirmiş olurammı?”

Həzrət(s) buyurdu:

***"Yox! Bu iş onun nalələrindən hətta birinin belə yerini verməz."***

Doğrudan da, əgər insan düzgün fikirləşsə, qəflət və qürur pərdələrini kənara atsa, özünün zəif və bacarıqsız olduğu uşaqlıq çağlarını yadına salsa, həmin günlərdə ata-anasının canfəşanlığını, üzücü zəhmətləri, əzab-əziyyətlərini yadına salsa, əbəs yerə öz valideynlərinin haqqını tapdalamaz, onların qəlblrini sındırmaz, ata-anasının ona qarşı etdiyi lütflər qarşısında məhəbbətlə, sevinc və təvazö ilə qədirlərini bilər, bütün hallarda onların əmr və göstərişlərinə itaət edər.

Bəli, göründüyü kimi İslam dini valideynə hörmət göstərməyi onların qayğısına qalmağı vacib bilir.

İmam Rza (ə) buyurur:

***"Valideynə yaxşılıq etmək, hətta onlar müşrik olsalar belə, vacibdir. Amma Xaliqə qarşı günaha səbəb olan əmrlərində itaət etmək olmaz."***

İmam (ə) bu mübarək kəlamı ilə bütün bəhanə yollarını bağlayır və ailədə ata-anaya ehtiram edilməyi mühüm sayır.

İslam dini ailənin daha yaxşı və səmimiyyətli olmasını, bəyan etmiş, onun hər bir üzvünün vəzifələrini tam və kamil surətdə aydınlaşdırmışdır. Ailənin bütün üzvləri İslam dininin ayilə barəsində olan qanun və meyarlarını öyrənərək öz həyatlarına tətbiq etməlidirlər.

Ailə üzvləri nə qədər ki, özlərinin qarşılıqlı əlaqə və vəzifələrini, ailə qanunlarını bilmirlərsə və həyatlarında onlara əməl etmirlərsə, heç vaxt həqiqi səadətə çatmayacaqlar, hərc-mərclik, boşanma və s. kimi mənfi hallar axırda ailənin dağılmasına səbəb olacaqdır. Atanın ailədə başçılıq, ananın isə idarəçilik məqamını gözləməyən ailələrdə şübhəsiz heç vaxt sakit həyat tərzindən, rahat ömür sürməkdən, xoşbəxt günlər yaşamaqdan əsər-əlamət görünməyəcək.

Həzrəti Musanın (ə) belə bir duası olur: "Ya Rəbbim! Mənə Cənnətdəki qonşumu göstər, gedib onunla görüşüm"

Həzrəti Musaya (ə) vəhy gəlir: "Filan bölgəyə get! Orada bazarın başında bir qəssab dükanı var. O dükanın sahibi olan qəssabı tap. O, yaxşı qulumdur. Yalnız bunu bil ki, onun çox vacib bir işi var. Çağırsan gəlməz. Bax o, sənin cənnətdəki qonşundur".

Həzrəti Musa (ə) həmin an bildirilən yerə getdi. Qəssabı tapdı və ona: " Mən sənə qonaq gəldim"- dedi:

Qəssab Həzrəti Musanı (ə)  tanımırdı. Ona " Xoş gəldin"- deyib əyləşməsi üçün yer göstərdi. Dükanda işləri bittdikdən sonra onu evinə qonaq apardı. Evində süfrəsinin başında oturub yaxşı qulluq etməyə başladı. Həzrəti Musa (ə) qəssabı diqqətlə izləyirdi. Qəssabın odun üstündə ət bişirdiyini gördü. Ət bişdikdən sonra bir hissəsini xırda-xırda doğrayıb bir boş-qaba yığıb kənara qoydu. Sonra qazandakı ət yeməyindən başqa bir boşqaba çəkərək Həzrəti Musanın (ə) qarşısına qoy-du və dedi:

- Mənim vacib bir işim var. Sən məni gözləmə yeməyini ye-deyib getdi.

"Vacib işim var"- deyincə, Həzrəti Musaya (ə)  çox ma-raqlı gəldi və gizlicə qəssabı izləməyə başladı. Qəssab isə Həzrəti Musanın (ə)  yanından getdikdən sonra yan otağa da-xil oldu.

Orada divardan asılmış bir zəmbili yerə endirdi. Zəm-bildə çox qoca, yumrulanıb yumağa dönmüş bir qarı vardı. Qəssab qadına gətirmiş olduğu kiçik tikələri əlləri ilə yedirdi, sonra əl-üzünü yuyub, altını tər-təmiz dəyişdirdi. Kirlilərini yuyub asdıqdan sonra əllərini yuyub Həzrəti Musanın (ə) ya-nına gəldi.

Onun hələ də yeməyini yemədiyini görüb soruşdu:

- Nə üçün yeməyə başlamamısınız?

Həzrəti Musa (ə):

“Sən mənə zəmbildəki sirri söyləmədikcə bir loxma da yemərəm”-dedi.

-Madam ki, maraqlanırsan söyləyim. Ey qonaq, bu zəmbildəki mənim yaşlı anamdır. Çox yaşlı olduğu üçün taqətdən düşüb. Başqa baxacaq kimsəmiz də yoxdur. Evlənmək istəyi-rəm, ancaq yoldaşım anamı incidər deyə qorxuram. İşə gedər-kən it, pişik zərər verməsin deyə onu zəmbilə qoyub divardan asıram. Gündə iki dəfə gəlib yeməyini verib, altını, üstünü ra-hatlayıram. Sonra da arxayın işimə gedirəm.

Həzrəti Musa (ə) dedi:

- Ancaq mənim anlamadığım daha bur şey var. Sən ananı yedirib içirdib, altını təmizlədikdən sonra o, dodaqlarını tərpə-dib nələrsə dedi, səndə Amin! dedin. Anan ne dedi ki, sən Amin dedin?

Anam hər qulluğunda duranda " Allah səni Həzrəti Mu-saya (ə) Cənnətdə qonşu eləsin"- deyə dua edir. Mən inanma-sam da bilaixtiyar bu duaya " Amin" dedim. Mən kiməm ki, o böyük Peyğəmbərə (ə) qonşu olum? Onunla qonşu ola biləcək qədər hansı əməlin sahibiyəm ki?

O vaxtadək kim olduğunu gizləyən Musa (ə) buyurdu:

- Ey Allahın sevimli qulu, mən Həzrəti Musayam (ə). Mə-ni sənin yanına Allahu-Təala göndərdi. Ananın hallalığını qazandığın üçün Cənnəti və orada mənə qonşu olmağı qazandın.

Qəssab həmin an qalxıb, Həzrəti Musanın (ə) əlini öpdü və sevinclə yeməyini yedi.

Allahu-Təala bizləri ana şəfqətindən məhrum etməsin və analarımızın bədduasından uzaq eləsin.

Amin!

Bu yazıda "İslamda ailəyə münasibət necə olmalıdır?" sualına cavab verməyə çalışdıq, necə cavab verməyimizi oxucular qiymətləndirsin.

Əhli-beyt (ə) tərəfdarlarlından olan Aşıq Əhməd Rüstə-mov da İslamda ailəyə münasibət mövzusuna öz münasibətini bildirərək, gənclərə ata-anaya sağlığında qiymət verməyi nəsi-hət və vəsiyyət etmişdir:

***Əhməd: Gənc nəslə eylə vəsiyyət,***  
***Diriyə hörmət var, ölüyə rəhmət.***  
***Atana zülm etsən, anana nifrət,***  
***Kişilik ismətin başına dəysin!***

***Vəs-səlamu ələykum və rəhmətullah və bərəkətuh.***

# VII BÖLÜM

*“Gələcək, gələcək” deyirik. Hamımızı gözləyən ən böyük gələcək ölümdür....*

*Okeanlar xəzinə olaraq verilsə də bir gün hamısı əlimizdən çıxacaq, öləcəyik. Taxta bir sandıqda bu dünyadan köçəcəyik, CƏSƏDİMİZ TORPAĞA TAPŞIRILACAQ, lakin əməllərimizlə həm bu dünyada, həm də axirətdə yad olunacağıq. Deməli, ən mühüm gələcək ölüm və axirət gələcəyidir.*

*Necə ki, Baba Tahir Üryan deyib:*

*Başına tac qoysan ən saf qızıldan,*
*Padişahlıq edib, keçirsən dövran,*
*Süleyman mülkinə sahibdə olsan,*
*Sonu bir heçlikdir, ölümdür inan.*

# CƏNAZƏ ÜÇÜN TƏLQIN DUASI

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Arif ol, qəm çəkmə, qəmdən et həzər,***
***Qum nəm çəkən kimi, qəm qəmi çəkər.*[1]**

Hər bir cənazəyə təlqin duası vermək istədikdə, əvvəlcə cənazənin çiynindən tutaraq silkələndirilir. Sonra təlqin duasını oxuyan şəxs ağzını cənazənin qulağına tərəf tutaraq 3 dəfə *“**İsmə ifhəm yə Fulan İbn Filan**”*deyir.[2]

Burada ***“Filan İbn Filan”***sözlərinin yerinə mərhumun və onun atasının adları deyilməlidir. Misal üçün:

Əgər mərhumun adı Əli, atasının adı isə Məhəmməddirsə 3 dəfə:

*“**İsmə ifhəm Əli İbn Məhəmməd”**[3]* söylənməlidir. Bunu dedikdən sonra belə davam edir:

[1.] ***“Həl əntə ələl-əhdilləzi fərəqtənə ələyhi, min şəhadəti ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh və ənnə Muhəmmədən(s.ə) əbduhu və rasuluh,və səyyidin nəbiyyinə, və xatəmul-mursəlin, və ənnə Əliyyən Əmirul-mumininə və səyyidul-vəsiyyi-nə, imamun iftərəzəllahu taətəhu ələl-aləmin, və ənnəl-Həsənə vəl-Huseynə və Əliyyəbnəl-Husəyni və Muhəmmədəbnə Əliyyin və Cəfərəbnə Muhəmmədin və Musəbnə Cəfərin və Əliyyəbnə Musa və Muhəmmədəbnə Əliyyin və Əliyyəbnə Muhəmmədin vəl Həsənəbnə Əliyyin vəl-Qaiməl-Huccətəl-Məhdi səlavatullahi əleyhim, əimmətul-mumininə və hucəcullahi ələl-xəlqi əcməin, və əimmətukə əimmətu hudən bikə əbrar.***

***Ya fulanəbnə fulan.”*[4]**

---

[1] ***N.Gəncəvi “Xosrov və Şirin”***
[2] ***“Eşit ey filan oğlu filankəs”***
[3] ***“Eşit ey Məhəmməd oğlu Əli”***
[4] ***Mərhumun adı və atasının adı çəkilir***

(“Görəsən sən bizdən ayrılarkən öz inamın və əhdin üzərindəsənmi?

***1.O əhd və inam, Allahdan başqa bir İlahın olmadığı, şəriki olmadığı, Məhəmmədin (s) onun qulu və rəsulu, Peyğəmbərlərin ağası və rəsulların sonuncusu olduğu, Əlinin (ə) möminlərin əmiri, qəyyumların ağası və bütün aləmlərə itaət edilməsi vacib olan imam olduğu, Həsənin (ə), Hüseynin (ə), Hüseynin oğlu Əli Zeynul-Abidinin, Əlinin oğlu Məhəmməd Baqirin, Məhəm-mədin oğlu Cəfəri Sadiqin, Cəfərin oğlu Musa Kazımın, Musa-nın oğlu Əli Rzanın, Əlinin oğlu Məhəmməd Təqinin, Məhəm-mədin oğlu Əli Nəqinin, Əlinin oğlu Həsən Əsgərinin və Həsənin oğlu Əli Qaim, Hüccət Mehdinin (Allahın rəhmət və bərəkəti onların üzərinə olsun), möminlərin İmamları(ə) və Allahın bü-tün yaradılanlarına olan hüccətləri olduqları əhd və inamıdır.***

***Ey Filan oğlu Filankəs! Bil ki, Sənin bu öndərlərin hidayət başçıları olub Sənə qarşı çox ehsankardırlar”***).

**2.** ***İzə ətakəl mələkanil muqərrabani rəsuləyni min indillahi təbarəkə və təalə, və səəlakə ən rəbbikə, və ən nəbiyyikə, və ən dinikə, və ən kitabikə, və ən qiblətikə, və ən əimmətikə, fəla təxəf, və la təhzən, və qul fi cavabihima: Əllahu Rəbbi, və Mu-həmmədun (s) və alihi nəbiyyi, vəl-İslamu dini, vəl-Quraniu ki-tabu, vəl-Kəbətu qibləti və Əmirəlmumininə Əliyyubnu Əbu Talibin İmami, vəl Həsənubnu Əliyyinil Muctəba İmami, vəl Hüseynəbnu Əliyyiniş-şəhidu bi Kərbəla İmami, və Əliyyun Zeynul Abidinə İmami, vəMuhəmmədunil-Baqiri İmami, və Cə-fərunis-Sadiqu İmami, və Musəl Kazimu İmami və Əliyyunir Riza İmami, və Muhamməduni Cəvadu İmami və Əliyyunill Hadi İmami, vəl-Həsənul-Əskəri İmami, vəl Huccətul Muntə-zəru-İmami. Haulau sələvatullahi ələyhim əimməti və sadəti və qadəti və şufəai bihim ətəvəllə və min ədaihim ətəbərrəu fid-dünya vəl-axirəh, summə ləm ya fulanəbnə fulan***[1] **(**mərhumun və atasının adları çəkilir**)**

Tərcüməsi:

*2."(Ey filan oğlu Filankəs!) Allah-Təala dərgahından elçilər olan iki müqərrab mələk gəlib səndən Rəbbini, Peyğəmbərini, Dinini, Kitabını, Qibləni və İmamlarını (ə) soruşduqda, qorxub kədərlənmə. Onlara cavab olaraq de ki:*

*"Allah Rəbbim, Məhəmməd (s) Peyğəmbərim, İslam dinim, Quran kitabım, Kəbə qibləm, Əbu Talib oğlu Əmirul-muminin Əli, Əli oğlu Həsənul-Muctəba, Kərbəla şəhidi Huseyn İbn Əli, Əli Zeynul-Abidin,Məhəmməd Baqir, Cəfəri Sadiq, Musa Kazım, Əli Rza, Məhəmməd Cavad, Əli Hadi, Həsən Əskəri və zühuru gizlənən Hüccət (Mehdi) imamlarımdır. Bunlar imamlarım, ağalarım, başçılarım və Allah dərgahındakı şəfaətçilərimdir. Dünyada da, axirətdə də onları sevirəm. Onların düşmənlərindən də uzağam.*

*Ey filan oğlu Filankəs! Sonra bil ki..."*

*3.İnnəllahə təbərakə və təalə nimər-rəbb və ənnə Muhəmmədən (s.ə) nimər Rəsul, və ənnə Əliyyəbnə Əbi Talibin və əvladəhul-məsuminəl-əimmətəl-isna əşərə niməl-əimməh, və ənnə ma caə bihi Muhəmmədun (s.ə.) və Alihi həqqun və ənnəl-məvtə haqqun, və sualə Munkərin və Nəkirin fil-qəbri həqqun vəlbəsə həqqun, vən –nuşurə həqqun, vəs-siratə həqqun, vəl –mizanə həqqun, və tətayurəl kutubi-həqqun və ənnəl-cənnətə həqqun, vən-narə həqqun, və ənnəs-saətə atiyətun la rəybə fiha, və ənəllahə yəbəsu mən fil qubur.*

*Əfəhimtə yə fulan ibnə Fulan*[1]

Tərcüməsi:

*3.("Ey filan oğlu Filankəs!)*

*Allah-Təala nə gözəl Rəbb, Məhəmməd (Allahın rəhməti və hərəkəti onun və onun Əhli-Beytinin (ə) üzərinə olsun) nə gözəl rəsul, Əli (ə) və məsum övladları, yəni on iki imam nə gözəl imamlardır. Muhəmmədin (s) Allahın rəhməti və bərəkəti onun və Əhli-Beytinin (ə) üzərinə olsun) gətirdiyi (din), Sirat, Mizan, əməl dəftərlərinin uçuşaraq dağılması, cənnət və cəhənnəm bunların hamısı haqqdır. Şübhəsiz ki, qiyamət gələcəkdir. Onda*

---

*[1] Mərhumun adı çəkilir*

***(onun gəlməsində) heç bir şübhə yoxdur. Və Allah məzarda olanları diriləcəkdir.***

***4. Səbbətəkəllahu bil-qəvlis-sabiti və hədakəllahu ilə Siratin mustəqim. ərrəfəllahu bəynəkə və bəynə əvliyaikə fi mustəqərrin min-rahmətih. Əllahummə cafil ərzə ən cənbəyh vəssud biruhihi iləykə və ləqqihi minkə burhana Əllahummə əfvəkə, əfvək***

*Tərcüməsi:*

***4. Ey filan oğlu Filankəs! Görəsən qavrayaraq anladınmı? Allah səni düz söz olan iman üzrə saxlasın. Səni doğru yola hidayət etdirsin və rəhmətindən olan istiqrar (qərar yeri) yerində səninlə sevdiklərinizi biri-birinizlə tanış etsin. Allahım, onun məzarını iki yandan da genişlət. Ruhunu öz dərgahına yüksəlt və ona qəti dəlilini təlqin et. Allahım onu əfv et, onu əfv et, onu əfv et,***

Bundan sonra mərhumun ruhuna "Fatihə" deyərək, orada olanlarla birlikdə ***"Həmd"*** və ***"İxlas"*** surələri oxunaraq təlqin duası sona çatdırılır.

# CƏNAZƏ ÜÇÜN EHSAN VERMƏK

***Bismillahir-Rəhmanir-Rəhim!***

Hədislərdə də deyildiyi kimi, mərhumun sahibinin qonşu-larına yaraşan, hətta sünnət olan, üç gün boyunca yemək bişi-rib ölən kimsənin evinə aparmağı ən gözəl ehsan hesab olunur. Amma bunula bərabər ölən şəxsin varislərinə yaraşan da ölülərini dərhal unutmamalı, əksinə bir sıra ehsanlar verib, xeyir işlər görməkdir. Kasıblara və başsağlığı verməyə gələnlə-rə ehsan vermək, Quran oxumaq, hətda bir sıra sünnət olan namaz və oruc kimi ibadətləri yerinə yetirərək, savabını ölən kimsənin ruhuna bağışlamağı buna misla göstərmək olar. İnsanın vəfat edənlərin qəbirlərini ziyarət etməyə getməsi və orada onlar üçün Allahdan əhv və məğfirət diləməsi də, Pey-ğəmbər (s) və onun Əhli-Beyti (ə) tərəfindən tövsiyə edilmiş, bu ziyarətin mərhumların

sevinməsinə səbəb olduğu bildiril-mişdir. İnsanın, ölümündən sonrakı yas mərasimində malının bir qədərinin xərclənməsini vəsiyyət etməsi də sünnətdir. Bu barədə Əhli-Beyt (ə) kanalı ilə rəvayət edilən bir çox hədis mövcuddur. Məsələn:

İmam Baqirin (ə) səhabələrindən olan Zürarə nəql edir ki:

"İmam Məhəmməd Baqir (ə) vəfatından sonra yas mərasimində xərclənməsi üçün 800 dirhəm vəsiyyət etmişdir.

İmam (ə) bu işi sünnət olaraq yerinə yetirmişdir".[1]

Ömər İbn Yezid, İmam Cəfəri Sadiqə (ə):

"Ölən şəxsin adına namaz qılmaq olarmı?" sualını verdiyini rəvayət edir.

İmam (ə) buyurumuşdur ki:

"Bəli olar! Hətta bəzən ölən kimsə sıxıntı içərisində olur. Sonra onun sıxıntısı aradan qaldırılır və ona:

"Allah-Təala sənin bu sıxıntını filankəsin qıldığı namaza görə aradan götürdü" deyilir.

Ömər iki rükətlik namazı iki nəfər üçün qılıb-qıla bilmədi-yini soruşmuş, İmamda (ə):

"Qıla bilərsən. Həyatda yaşayan kimsə, ona verilən hər hansı bir hədiyyəyə görə sevindiyi kimi, ölən şəxs də onun üçün Allahdan dilənən rəhmət və məğfirətə görə sevinc hissi duyur" buyurmuşdur.[1]

İmam (ə) başqa bir hədisdə:

"Müsəlmanlardan hər hansı bir şəxs, ölən kimsə tərəfin-dən hər hansı xeyir iş görərsə, Allah onun mükafatını qat-qat artırar və onunla birlikdə mərhuma da savab yazılar" buyur-muşdur[2]

İmam (ə) digər bir hədisdə isə :

"Ölən kimsəyə məzarında onun üçün qılınan namza, tutulan oruc, verilən sədəqə, ehsan və oxunan dualar çatır. Bu əməllərin

---

[1] ***Əl-vəsail, c.2, s.890***

[2] ***Mən lə yahduruhul-faqih, c.1, s. 117. Biharul-ənvar c.82, s.82***

savabı isə həm ölənə, həm də bunu yerinə yetirən şəxsə yazılır"[1] buyurmuşdur.

Peyğəmbər (s) belə buyurmuşdur:"Ata-anamız üçün həm həyatda ikən, həm də dünyadan köçəndən sonra ehsan verməyinizə mane olan nədir? Hər bir şəxs ata-anası tərəfin-dən namaz qıla, sədəqə verə və oruc tuta bilər. Beləliklə onun bu etdiklərinin savabı onlara yazılır. Ayrıca olaraq, bunu etdi-yi üçün Allah-Təala həmin şəxs üçün daha artıq savab yazır".[2]

İbn Əmmar İmam Cəfəri Sadiqdən (ə) insana ölümündən sonra verilən savabları soruşmuşdur.

İmamda (ə) cavabında buyurmuşdur:

"İnsanın özündən sonra qoyduğu gözəl bir işin savabı ona yazılır. Bu işə kim əməl edərsə, bunu yerinə yetirən şəxsin savabından bir şey əksilmədən savabın o qədəri də bu işi qoyub rəhmətə gedən kimsəyə yazılır. Necə ki, övlad ata-ana-sının ölümündən sonra onlar üçün dua edib, Allahdan onlar üçün məğfirət diləyir. Övlad ata-anası tərəfindən Həcc ziyarə-tinə gedə, kölə azad edə, namaz qıla və oruc tuta bilər. Bütün bunların savabı onlara yazılır"[1]

Davud Ər-Riqi söyləyir ki, İmam Cəfəri Sadiqdən (ə):

"Hər hansı bir kimsə yaxını olan və ya olmayan birisinin məzarını ziyarət edərək dua etdikdə, bunun ona bir faydası olarmı?"-deyə soruşdum.

İmam (ə) buyurdu:

"Bəli, sizdən birisinə bir hədiyyə verildikdə sevindiyi kimi, bunun savabı da ona yazılır"[3]

Peyğəmbər (s) belə buyurmuşdur:

"Ölülərinizi ziyarət edin. Çünki, onlarda sizin üçün ibrət dərsi vardır".[4]

---

***[1] Mən lə yahduruhul-faqih, c.1, s.117, Biharul-ənvar, c.82, s.62***

***[2] Biharul-ənvar c.82, s.62***

***[3] Biharul-ənvar, c.82, s.64***

***[4] Biharul-ənvar, c.82, s.63***

Həzrəti Əlidə (ə) belə buyurmuşdur:

“Ölülərinizi ziyarət edin ki, onları ziyarət etdiyinizə görə sevinsinlər və sizlərdən biriniz ata-anasının qəbrini ziyarət edib onlar üçün dua edərkən Allahdan öz istəyini də diləsin”[1].

Məhəmməd İbn Müslim, İmam Sadiqdən (ə):

“Ölülərimizi ziyarət edəkmi?”soruşmuşdur.

İmamda (ə) cavabında:

“Bəli” söyləmişdir.

Məhəmməd İbn Müslim yenidən:

“Biz onları ziyarət etdikdə, onlar bunu hiss edirlərmi?” sualını vermiş, Oda (ə) belə cavab vermişdir:

“Allaha and olsun ki, onlar bunu hiss edir, sevinir və sanki sizinlə ünsiyyət yaradırlar”.

Məhəmməd İbn Müslim:

“Onları ziyarət etdikdə necə dua edim?” soruşmuşdur və İmam (ə) aşağıdakı duanı söyləmişdir:

***“Allahummə cəfil-arda an cunubihim və said ileykə ərvahahum və laqqihim minkə ridvanəv və əskin ileyhim mir-rahmətikə mə təsilu bihi vəhşətəhum innəkə alə kulli şeyin qədir”.*** -“Allahım bunların məzarlarını iki yandan da genişlət. Ruhlarını öz dərgahına yüksəlt, Öz rizanı onlara təlqin et və onları, tənhalıqlarını aradan qaldıracaq, ürkəkliklərini ünsiyyətə çevirərək rəhmətində yerləşdir. Şübhəsiz ki, Sən hər şeyə qadirsən”

Peyğəmbər (s) buyurub:

“Hər hansı bir kimsə ata-anasına qarşı həyatda ikən gözəl davrandığı halda ölümlərindən sonra Allahdan onlar üçün məğfirət diləmədiyi üçün ata-anasına pislik edən olaraq yazılır. Lakin valideynlərinə qarşı həyatda ikən pis davranan olsa belə, ölümlərindən sonra Allahdan onlar üçün əhv dilədiyinə görə ata-anasına yaxşılıq edən övlad kimidir”.

Peyğəmbərdən (s) rəvayət edilən başqa hədisdə isə:

“Ata-ananın övladı üzərindəki haqqlarından biri də, onların borclarını ödəməsi, nəzirlərini verməsi və onlara küfr edilməyə vasitə olacaq hər hansı pis iş etməməsidir. Bunları etdiyi təqdirdə,

onlara qarşı pis rəftar edən olsa belə, vali-deynlərinə yaxşılıq edənlərdən sayılır. Lakin onların borclarını ödəməz, nəzirlərini verməz və onlara küfür edilməsinə vasitə olacaq hər hansı pis iş edərsə, həyatda ikən onlara qarşı yaxşı-lıq edənlərdən olsa belə, valideynlərinə qarşı pislik edən övlad sayılır”.[1]

# ÖLÜLƏRİ ZİYARƏT ETMƏYİN SAVABI

***Bismillahir-Rəhmanir-Rəhim!***

***Fələk nə veribsə geri alacaq,***
***İlahi vergidir əbədi ancaq!***[2]

Peyğəmbər (s) və onun Əhli-beytindən (ə) rəvayət edilən bir çox hədisdə ölən kimsənin öldükdən sonra müəyyən vaxt-larda öz ailəsini ziyarət etdiyi, onların xeyir əməllər etdiklərini gördükdə sevinərkən, asi çıxdıqları zaman məyus olduqları qeyd edilmişdir. Daha doğrusu insana yaraşan əməl, vəfat edən yaxınlarını unutmaması və onları davamlı olaraq anla-masıdır. Xüsusilə də hədsilərdə bildirilən ziyarət zamanları mərhumların sevincli bir şəkildə geri qayıtmaları üçün onlara görə dualar etmək, məğfirətlər diləmək və xeyirli işlər görmək lazımdır.

İshaq İbn Əmmar, İmam Museyi Kazıma (ə):

“Mömin kimsə öləndən sonra ailəsini ziyarət edirmi?”-deyə sual vermişdir.

İmam (ə) “Bəli” buyurmuşdur.

İshaq:

“Neçə gündən bir ziyarət edirlər?” sualını vermişdir.

İmamda (ə):

---

[1] ***Mən lə yəhduruhul-faqih, c.1, s.115, Əl-vəsail, c.2, s.878 Biharul-ənvar, c.82, s.65.***

[2] ***Həkim Sənai***

“Fəzilət dərəcələrinə görə! Bəzisi hər gün, bəzisi iki gün-dən bir, bəzisi də üç gündən bir ziyarət edir”söyləmişdir.

Hədisi nəql edən şəxs söyləyir ki:

“İmamın (ə) sözlərindən ən az fəzilət sahibinin cümə günü ziyarət etdiyi anlaşılır.”[1]

Sonra İshaq belə sual verir:

“Onlar günün hansı saatında ziyarət edirlər?”

İmam (ə):

“Günorta və ya bir az ondan tez. Allah onunla birlikdə bir mələk göndərir. O mələk ona ailəsinin onu sevindirəcək hallarını göstərir və onu məyus edəcək halları da gözəldir. Daha doğrusu mömin bəndə ailəsinin sevindirici hallarını görərək sevinclə geri qayıdar” buyurur.[2]

İmam Museyi Kazım(ə) başqa hədisdə belə buyurmuşdur:

“Ölülərin bəzisi öz ailəsini hər cümə günü, bəzisi də əməl ölçüsünə görə ziyarət edir”[3]

Başqa bir hədisdə də:

“İstər mömin, istərsə də kafir kimsə öz ailəsini günorta vaxtı ziyarıt edir. Mömin şəxs ailəsinin yaxşı əməllər gördüyü-nə sevinər, kafir isə həsrət çəkər”.[4]

Bu bölümü Borçalı Aşıq məktəbinin ustadlarında olan haqq aşiqi şair Nəbi Borçalının qardaşı Xəlilin ölümünə həsr etdiyi “Qarşıma gəlsin” rədifli vəsiyyətnaməsi ilə tamamla-yırıq.

***Sığındım Mövlamın min bir adına,***
***Xeyir əməllərim qarşıma gəlsin.***
***Xaki-xasiyy zxətim, dürüst cavabım,***
***O gözəl hallarım qarşıma gəlsin.***

---

***1 Biharul-ənvar, c.82, s.65***
***2 Mən lə yahduruhul-faqih, c.1, s. 115, Furul-kafi, c. 3, s.231***
***3 Furuul-kafi, c. 3, s.230***
***4 Furuul-kafi, c. 3, s.230***

***Mən də çox çalışdım murada yetim,***
***Əcəl dəf eylədi, nə çarə edim?***
***Halaldan qazandım, halaldan yedim,***
***Şükürlü dillərim qarşıma gəlsin.***

***Xəliləm, çəkdiyim dünya darını,***
***Binə  qoydum, abad etdim yerimi.***
***Kimsədən tutmadım bağça-barımı,***
***O ehsan əllərim qarşıma gəlsin.***[1]

***1  Şair Nəbi Borçalı "Qarşıma  gəlsin"***

# VIII BÖLÜM

*Bu dünyaya ilahi bir proqramla gəldik. Ağacdakı bir yarpağın yerə düşməsi belə bu proqrama bağlıdır.*

*Bunu bilən bir mömin yaşanan çətinliklər, başına gələnlər qarşısında, "a h"etməz. Tədbirlərin bitdiyi nöqtədə təvəkkül və təslimiyyətin başlaması lazımdır. Peyğəmbərimiz (s): "Dəvəni möhkəm bağla , sonra təvəkkül et".-buyurur.*

*Tədbirimizi aldıqdan sonra işin bizim öhdəmizə düşən qismi bitmiş sayılır. Geriyə o qalır ki, Allaha dua edib, Ona təslim olaq. Allah-Təala istəyərsə, istədiyimizi verər, istəməzsə verməz. İstədiyimiz olmadığı zaman "Bunda da bir xeyir var". deyə bilməliyik. Həyata keçməyən istəklərimizin mükafatını axirətdə görəcəyik İnşallah.*

*Mənim yolum məhəbbət caddəsiydi,*
*Son sözlərim haqqın iradəsiydi,*
*Məhəbbətin risalət vədəsiydi,*
*Yoxsa məndə bir kəs ilə qərəz yox,*
*Siyasət adlı məndə bir mərəz yox.*

# S.M.ŞƏHRIYAR DÜNYASINA SƏYAHƏT

***Bismillahir-Rəhmanir-Rəhim***
***Ya Allah Ya Mühəmməd Ya Əli səndən mədəd***

***Hay verin Allaha, şeytanı qoyun tək qalsın,***
***Tovlanıb, tovlamağında bala, əndazəsi var.***
***Allahın şəhri Nəbidir, qapısı şahı-Vəli,[1]***
***Deşik axtarma bu şəhrin belə darvazası var.***

Böyük mütəfəkkir, filosof şair, ustad S.M.Şəhriyarın hə-yat fəlsəfəsi bərabərlik, ədalət, sülh, əmin-amanlıq, insanpər-vərlik, mənəvi ucalıq fəlsəfəsidir.

Şəhriyar fəlsəfəsinin əsl mahiyyəti bundan ibarətdir:

"Təkcə özün üçün yox, başqaları üçün yaşa, yarat!"

Ulu Nizaminin kəlamı bu yerdə xatırlanır.

***Çalış öz xalqının işinə yara,***
***Geysin əməlindən dünya zərxara.***

"Təkcə özün üçün yox, başqaları üçün yaşa, yarat!"

Yəni həyatını fərdiyyətçilik duyğularından təmizlə, insan-larla gözəl ünsiyyət yarat. Yaşadığın cəmiyyətdə insanların dərdinə şərik ol. Təkcə özünün qeydinə qalma. Hər zaman irə-liyə doğru, kamal, mərifət dünyasına doğru addım at. Düşün və ağılla yaşa. Keçmiş nəsillərin, ata-babaların həyat təcrübə-sini dərindən öyrən, xalqımızın gözəl adət və ənənələrin davam etdir. Keçmişə gerilik kimi baxma. Bəli, bütün bu dedikərimiz Şəhriyar poeziyasının əsasının təşkil edir. Ustadın bu fəlsəfi fikirləri insanları gələcəyə çağıran kamal, zəka fəlsəfəsidir. Hə-yatın incə qanunlarını dərindən duyan, aktual ictimai prob-lemləri dərindən

***[1] "Şahi-Vəli" - dedikdə ustad Şəhriyar Həzrəti Peyğəmbərin(s) buyurduğu bu hədisə işarə edir. "Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır"***

bilən Şəhriyar ilə cəmiyyət arasında sıx əla-qə, qırılmaz birlik mövcuddur.bu vəhdət olmadan nə böyük sənət olar, nə də böyük sənətkar.

S.M.Şəhriyarın doğum tarixi dəqiq göstərilmir. Bəziləri onun 1905-ci, bəziləri isə 1906-cı ildə Təbriz şəhərində vəkil ailəsində anadan olduğunu yazırlar. Şairin uşaqlıq dövrü Məş-rutə inqilabına təsadüf edir. Şairin atası ailəsini əzəmətli ***“Hey-dərbaba dağı”*** nın ətəklərində yerləşən Xoşginab mahalına aparır. Ustad şairin uşaqlıq illəri büllur çeşmələr, zümrüd me-şələr, tərlanlar, turaclar məskəni olan Qaraçəməndə Xoşginab mahalında keçmiş, bu ilahi gözəlliklər şairin uşaqlıq yaddaşında əbədi həkk olub qalmış, unudulmaz uşaqlıq xatirələri yaratmışdır və sonralar *“**Heydərbabaya salam**”* poe-masıda həmin uşaqlıq xatirələrini incə şəkildə nəzmə çəkmişdir.*“**Heydərbabaya salam**”*poemasın oxuduqca insan öz uşaqlığın yadına salır, ötən günləri xatırlayır və ustada qəni-qəni rəhmət oxuyur.

***Heydərbaba, quru gölün qızları,***
***Gədiklərin sazax çalan sazları,***
***Kənd-kövşənin payızları, yazları,***
***Bir sinema pərdəsidir gözümdə,***
***Tək oturub, seyr edirəm özümdə.***

***Heydərbaba, dağın, daşın sərəsi,***
***Kəklik oxur, dalısında fərəsi,***
***Quzuların ağı, bozu, qərəsi,***
***Bir gedəydim dağ-dərələr uzunu,***
***Oxuyaydım: “Çoban qaytar quzunu”.***

***Heydər baba, kəndin günü batanda,***
***Uşaqların şamın yeyib yatanda,***
***Ay buluddan çıxıb qaç-göz atanda,***
***Bizdən də bir sən onlara qissə de,***
***Qissənizdə çoxlu qəmi qüssə de.***

***Əmməcanın bal bəlləsin yeyərdim,***
***Sondan durub üst donunu geyərdim,***
***Baxçalarda tiringəni deyərdim,***
***Ay özümü o əzdirən günlərim,***
***Ağac minib, at gəzdirən günlərim.***

***Həçi xala çayda paltar yuyardı,***
***Məmmədsadıq damlarını suvardı,***
***Heç bilməzdik dağdı, daşdı, divardı,***
***Hər yan gəldi, şıllaq atıb aşardıq,***
***Allah, nə xoş, qəmsiz-qəmsiz yaşardıq!***

Ustad şair bu poemasında bir çox mətləblərə toxunmuş-du. O cümlədən axır çərşənbəni, "**Novruz bayramı**"nı necə keçirdiklərini bu poemada çox zərif şəkildə qələmə almışdır.

***Baxıcının sözü, sovu, kağızı,***
***İnəklərin bulaması, ağızı,***
***Çərşənbənin girdəkanı, mövizi,***
***Qızlar deyər: "Atıl-matıl, çərşənbə,***
***Ayna təkin bəxtim açıl, çərşənbə".***

***Yumurtanı göyçək güllü boyardıq,***
***Çaqqışdırıb sınanların soyardıq,***
***Oynamaqdan bircə məgər doyardıq,***
***Əli mənə yaşıl aşıq verərdi,***
***İrza mənə Novruzgülü dərərdi.***

Ustad axır çərşənbənin gözəl ənənələrin qələmə almaqla, ***"Novruz bayramı"***nıda incə şəkildə qələmə almış və oz oxucusuna bu bayramın xeyir-bərəkət gətirdiyini, təbiətin oyanmasını, ağacların çiçəklənməsini və quşların nəğməsində baha-rın gəldiyini çatdırır.

***Bayram idi gecə quşu oxurdu,***
***Adaxlı qız bəy corabın toxurdu,***
***Hər kəs şalın bir bacadan soxurdu,***
***Ay nə gözəl qaydadı şal sallamaq,***
***Bəy şalına bayramlığın bağlamaq.***

***Şal istədim mən də evdə ağladım,***
***Bir şal alıb tez belimə bağladım,***
***Qulamgilə qaçdım, şalı salladım,***
***Fatma xala mənə corab bağladı,***
***Xan nənəmi yada salıb ağladı.***

Şəhriyar kiçik yaşlarından şeirə, ədəbiyyata həvəs göstər-miş və ilk şeirini bacısı Ruqiyyəyə həsr etmişdir. Ustadın öz di-lindən (lent yazısı) eşitdim ki, bir gün bacısı Ruqəyyə Şəhri-yara yemək gətirdiyi vaxt , qapıda yatan it Ruqəyyənin əlində-ki yeməyə baxır, bu zaman Şəhriyar bacısına bədahətən belə bir şeir deyir:

***Ruqəyyə bacı,***
***Başımın tacı,***
***Əti at itə,***
***Mənə ver kətə.***

Şeirə, sənətə ürəklə bağlanan şair gənc yaşlarından şeir yazmağa başlamışdır. Şəhriyarın 1929-cu ildə Tehranda nəşr edilən ilk şeir məcmuəsi xalqın məhəbbətini qazanır. Hətta us-tadın ilk şeir məcmuəsi İranın məşhur şairi Məliküş-şüəra Ba-harın diqqətini cəlb edir və Bahar gənc şairi təkcə İranın deyil, bütün şərq dünyasının fəxri adlandırır. Lakin bu qədər böyük tərif Şəhriyarı inkişafdan saxlamadı. O özünə qarşı daha çox tələbkar idi. O, ömrü boyu sənətə, sənətkara böyük tələbkar-lıqla yanaşmışdır. Onu da qeyd etmək lazımdır ki, Şəhriyar özü də ustad, sənətkar bir şairdir. O seçdiyi hər bir mövzunu ustalıqla, sənətkarlıqla işləməyi bacaran şairlərdəndir. Şəhri-yar

poeziyasında ürək sözə hakimdir. Şairin parlaq istedadı, odlu ilhamı, könül saflığı, səmimiliyi, acı həyat təcrübələri, onun şeirlərini yüksək sənətkarlıq zirvəsinə qaldırır. Geniş ürək sahibi, gözəl təbə malik olan şair şöhrətə, sərvətə susamır. Şairin şəxsiyyətindən doğan bu gözəl xüsusiyyətlər şairin fikir dünyasına qol-qanad vermiş, poeziyasını şöhrətləndirmişdir.

Şəhriyar təkcə Azərbaycan və İran şairi deyil, bütün Ya-xın Şərqin böyük söz ustadı kimi şöhrət tapmış şairdir. Şeir və sənəti ürəkdən sevən, öz sənətkar oğlunun qədrini bilən xalq hələ şairin sağlığında ***16-isfəndi*** (7 mart) ***"Şəhriyar günü"*** elan etmişdir. Təntənə ilə keçirilən bu şeir-sənət bayramında Təbriz məktəblərindən birinə şairin adı verilmişdir. Ustad şair İran ədəbiyyatında tutduğu mövqeyinə görə 1-ci dərəcəli ***"Maarif nişanı"*** ordeni ilə təltif olunmuşdur. Təbriz Universitetinin ədəbiyyat fakultəsinin böyük salonu Şəhriyarın adını daşıyır.

Əgər biz müasir İran poeziyasını əlvan bir gülüstana bənzətsək, Şəhriyar bu gülüstanın qızıl gülüdür. Şair öz poezi-yası ilə ürəkləri fəth etmiş, geniş xalq kütləsi məhəbbətini qa-zanmışdır. Bütün bu sadalanan yüksək keyfiyyətlərə S.M.Şəh-riyar çox çətin və məşəqqətli yollarla çatmışdır. Orta təhsilini Təbrizdə "Füyüzat" mədrəsəssində alan Şəhriyar Hicri-şəmsi 1303 (hicri-miladi-1924)-cü ildə Tehrana gedir və Tibb institu-tuna daxil olur. Şəhriyar 5 illik təhsildən sonra diplom alma-dan inistitutu tərk etməyə məcbur olur. 1314-cü (1935) illədək Xorasanda və sonralar Tehranın kənd təsərrüfat bankında işləyir. Şəhriyar hələ institutda oxuduğu vaxt Sürəyya adlı bir qızı sevir və onunla ailə qurmaq istəyir. Şairin yoxsulluğu üzündən bu sevgi uğursuz olur. Şəhriyarın bütün qəlbi, varlığı ilə sevdiyi qız başqasına ərə verilir. Şairin ilk eşqi təmiz mə-həbbəti ictimai bərabərsizliyin qurbanı olur. 1971-ci ildə Teh-randa çıxan "İttilaat"qəzetində S.M. Şəhriyarın müsahibəsi lazımi məlumat verir. Müxbir yazır:

"Şəhriyarın sürgün olunması məsələsi maraqlıdır.

O, Tibb institutunun tələbəsi olduğu vaxt bir qıza vuru-lur. Eşqin coşğun çağlarında Şəhriyar adını və vəzifəsini de-mək

istəmədiyi güclü bir şəxslə üz-üzə gəldiyini görür. O, gənc tələbəni tutduraraq, zindana saldırır. "Günah"ından bir şərtlə keçəcəyini bildirir ki, Şəhriyar Tehrandan çıxıb getsin. Belə-liklə o,Nişapura sürgün olunur. Orada yaşayan məşhur rəssam Kəmalülmülkün yanına gedir, onun işə qarışmasını xahiş edir. Kəmalülmülk şairə deyir:

"Keçəl çarə bilsəydi öz başına qılardı".

Şəhriyarın bu uğursuzluğu, nakam məhəbbəti onun son-rakı kəşməkeşli və məşəqqətli həyatında baş verən məhrumiy-yətlərin başlanğıcı olur. Şəhriyar ömür boyu ilk eşqinə sadiq qalır. Bu ölməz məhəbbət uzun illər şair ilhamının bəzəyinə çevrilib, şairin yaradıcılığında yol yoldaşı olur. Şair qəzəlləri-nin birində bu ilk məhəbbətini belə qələmə alır.

***Ey vəfasız, səni mən ta özümə yar elədim,***
***Gül kimi ömrümü saldım ayağa xar elədim,***

***Kafir olsaydı əgər rəhmə gələrdi gözəlim,***
***Q qədər ki, sənə mən dərdimi izhar elədim,***

***Qeyr ilə həmdəm olub qəmlə məni yad elədin,***
***Səndən ötrü hamını könlümə əğyar elədim.***

Göründüyü kimi şairin ilk məhəbbət oxu daşa dəyir. Bu hadisə Şəhriyarın həyat və yaradıcılığına öz təsirini göstərir. O, məhz bu kəşməkeşli yolda yazıb-yaradır,sosial nöqsanları amansız tənqid atəşinə tutur. Şair yaşadığı dövrdən daha irəli gedərək, ictimai yaramazlıqların köklərini axtarıb tapmağa ça-lışır, onların aradan qaldırılması üçün yollar arayıb axtarır.

Maddi cəhətdən yoxsul olan şair, mənəvi cəhətdən çox zəngin idi. Lakin şairin mənəvi cəhətdən zəngin olmasını nə Süreyya, nə onun valideynləri, nə də təhsil aldığı inistitutun vəzifəli şəxsi başa düşə bilməzdi. Böyük türk dünyasının dahi söz ustadı Yunis İmrənin dili ilə desək, dünən bir pula sayılma-yan, yoxsul bir şəxs bu gün barmaqla göstərilir. Amma yazıq-lar olsun

ki, cəmiyyət heç vaxt belə şəxsləri tanıya bilmir. Am-ma Şəhriyara ərənlər, övliyalar nəzər salır. Yunis İmrə demiş:

***Bir göl idim qıldı ərənlər nəzər,***
***Dəniz oldum-dörd yana irmaq ilə,***
***Məni görən bir pula saymaz idi,***
***İndi görən göstərir barmaq ilə.***

Bəli, bu gün S.M. Şəhriyar barmaq ilə göstərilən şairlərimizdəndir. Şəhriyar o taylı, bu taylı Azərbaycanımızın fəxri-dir. Bu yerdə İslam dünyasının görkəmli alimlərindən biri Ayətullah Mərəşi Nəcəfinin gördüyü yuxunu oxucuların nəzə-rinə çatdırmaq yerinə düşərdi.

İranın Təhsil Nazirinin müavini Ağayi doktor Qulaməli Həddad Adilin atası Hacı Rza Həddad Adil məşhur vaiz və yuxu təbirçisi kimi tanınmış höccətül-islam Ağayi Seyyid Qa-sım Şücaidən eşitdiyi bir əhvalatı mənə nəql etmişdi. Həmin mətləbi təfsilatı ilə öyrənmək üçün mən şəxsən Ağayi Şücaiyə müraciət etdim. Ağayi Şücai belə nəql etdi:

Mərhum Ayətullah Mərəşi Nəcəfi rəhmətə getməzdən bir neçə il əvvəl iki-üç nəfər tanışımla onun yanına getmişdim. Mərhum Ayətullah o vaxt demişdi:

"Bir gecə Allaha təvəssül etmişdim ki, İmamlardan (ə) bi-rini yuxuda gördüm. Yatdım və yuxuda gördüm ki, Kufə məs-cidində bir küncdə oturmuşam və Əlidə (ə) camaat arasındadır. Həzrət Əli (ə) buyurdu:

"Bizim Əhli-beyt (ə) şairlərini çağırın gəlsinlər!".

Gördüm ki, bir neçə ərəb şairin gətirdilər.

Həzrət (ə) yenə buyurdu:

"Türk dilli şairləri gətirin!".

Elə bu vaxt bir neçə nəfər fars və türk dilli şairlər gəldi.

Həzrət Əli (ə) onları görcək buyurdu:

"Şəhriyarı gətirin!".

Şəhriyar gəldi.

Əli (ə) Şəhriyara xitabən buyurdu:

“Şerini oxu! Şəhriyar bu şeiri oxudu”:

***Əli, ey humayi-rəhmət, to çe ayəti Xodara?***
***Ke be maseva fekəndi, həme sayeye Homara!***

***Del, əfər xoda şenasi, həme dər roxe Əli bin,***
***Be Əli şenaxtəm mən, bexoda qəsəm, Xodara!***

***Tərcüməsi:***

***Əli, ey Humayi rəhmət, nə dəlilsən Xudaya***
***Ki, Xudadən özgə sayən nə ki, var edər himayə!***

***Əgər aşinayi həqsən Əli ilə aşina ol,***
***Əli ilə olmuşam mən, könül aşina Xudayə!***

Bu şeir uzundur. Bu məqalədə ilk beytlərin verdik. Şeiri bütövlükdə oxumaq istəyənlər Axund Hacı Soltan Hüseynqulu oğlunun “Həzrət Əli və dünya ədəbiyyatı”, və məqalə müəl-lifinin “Parlaq ulduz”kitablarından əldə edə bilərlər.

Bəs, yuxunun davamı necə olur? Həzrət Ayətullah Mərəşi dedi ki, Şəhriyar şeiri deyib qurtarandan sonra yuxudan ayıl-dım. Şəhriyarı o vaxtadək görmədiyimdən soruşdum ki, Şəhri-yar kimdir?

Dedilər ki, şairdir. Təbrizdə yaşayır.

Dedim ki, mənim adımdan dəvət edin, qoy gəlsin Qumda mənim yanıma. Bir neçə gündən sonra Şəhriyar gəlib çıxdı. Baxdım ki, yuxuda Həzrət Əlinin (ə) hüzurunda gördüyüm adamdır.

Ondan soruşdum:

***“Əli(ə) ey humaye rəhmət, to çe Ayəti Xodara?”***-Şeirini nə vaxt qoşmusan?

Şəhriyar təəcüblə soruşdu:

“Siz hardan bildiniz ki, onu mən yazmışam? Axı indiyə-dək bu barədə heç bir adama danışmamışam. Özümdən başqa heç kim onun yazıldığından hali deyil”.

Mərhum Ayətullah Mərəşi Şəhriyara deyib ki, neçə gecə əvvəl yuxuda gördüm ki, Kufə məscidindəyəm. Həzrətdə (ə) oradadır. Həzrət Əli (ə) Əhli-beyt (ə) şairlərini hüzuruna ça-ğırtdırdı. Əvvəlcə Ərəb şairləri gəldilər.

Sonra buyurdu ki:

“Deyin türk dilli şairlər gəlsinlər. Onlar da gəldilər. lakin Həzrət Əli (ə) səni istədi və dedi Şəhriyar gəlsin. Sizdə gəlsiniz. Görən kimi buyurdu ki, “Şəhriyar, şeirini oxu!”. Sizdə başladı-nız mətlə bəndi yadımda qalan şeirinizi oxumağa”.

S.M. Şəhriyar Ayətullanın dediklərindən son dərəcə heyrətlənir və deyir:

***“Bu şeiri filan gecə yazmışam və indiyədək heç kimə onu yazdığımı deməmişəm”.***

Ağayi Şücai daha sonra dedi:

Mərhum Ayətullah Mərəşi buyurub ki, Şəhriyar şerin yazdığı tarixi və vaxtı deyən kimi məlum oldu ki, mən öz yu-xumu düz Şəhriyar şeirin son misrasını yazıb, qurtaran saatda görmüşəm.

Ağayi Şücai dediklərinə təkiyyə vermək fikrinə buyurdu ki, mərhum Ayətullah Mərəşi həmin yuxu məsələsini məndən savayı Ağayi Vaiz Rəhmaniyə də nəql edib və təsdiq üçün bunu ondan da soruşa bilərsiniz. Biz belə də etdik və Ağayi Rəhmani həmin mətləbi bir daha təsdiqlədi.

Mərhum Ayətullah-Üzma Mərəşi Nəcəfinin, Allah ona rəhmət eləsin,yuxusu deyilən yuxu bu idi. Və məlum olur ki, Şəhriyar həmin şeiri onunla görüşdükdən sonra çapa vermişdir.

1978-ci ildən bəri Nəcəfi-Əşrəfə getmək şərəfinə nail olan-lar Həzrət Əlinin (ə) məzarına çəkilən müqəddəs gümüşü mə-həccərin üstündəki çərçivəyə həmin şeirin xoş və nəfis xətlə yazılıb salındığını müşahidə etməmiş deyillər. Mən özüm də onu görmüşəm. lakin şeirin ortaya kim tərəfindən gətirildiyini və məhəccərin üstünə kim tərəfindən sancıldığını bilmirəm.

Şəhriyara və bütün Əhli-beyt (ə) şairlərinə Allah rəhmət eləsin! Şəhriyar Əhli-beytə (ə) dərindən bağlı olmuş, onların vəsfinə bir sıra şeirlər yazmışdır. Bu səbəbdən də Şəhriyarı Əh-li-beyt (ə) şairi, məxsusən Həzrət Əlinin (ə) şairi adlandırsaq səhv etmərik. Şəhriyar Əlinin (ə) haqqında həm fars dilində, həm də Azərbaycan dilində şeirlər yazmışdır.

***Binəvayəm, məskənin zənciri zindan, ya Əli,***
***Tut əlimdən, binəvayə əl tutansan, ya Əli!***

***Mənzilimdir tülkülər zindanı, ey Şiri-Xuda,***
***Dişlərimlə çeynərəm zənciri hər an, ya Əli!***

***Heyf, sən yoxsan, bizim alçaq, gödəkdir qəddimiz,***
***Şərmsarıq boy buxunlu lovğalardan, ya Əli!***

Ustadın yazdığı bu qəzəl bu beytlərlə yekunlaşır.

***Bir günahkar dərdliyəm, var ehtiyacım lütfünə,***
***Şəhriyar dərman rica eylər qapından ya Əli!***

Şəhriyar Əlinin (ə) şairi, İmam Hüseynin (ə) aşiqidir. Şəh-riyar Əlinin (ə) diliycə bir şeir qələmə almış və o şeirdə Əli-nin(ə) öz xanımı, Peyğəmbərin (s) qızı, İmamlar anası, iki dün-yanın xanımı olan Fatimeyi-Zəhra (s.ə) ilə necə fəxr etdiyini çatdırır.

***Başımın tacı, canım məbədi Zəhrayə ərəm,***
***Böyük həqq bəxşişi mən onu can tək sevərəm.***

***Allahın elçisinə bağlı ona can-ciyərəm,***
***Az yaşımdan onun əhkamını əzbər bilərəm.***

***İki oğlumdakı Zəhradan olub fəxr edərəm,***
***Atası söylədi damadi mənə bəxtəvərəm.***

Ustad – şair bu qəzəlini Əlinin (ə) mübarək adı ilə yekunlaşdırır.

***Əliyəm şahi-vilayət iki aləm ağası,***
***Elmi şəhridi peyğəmbər, mən onun darvazası.***

Bu şeiridə əldə etmək istəyənlər "Parlaq ulduz" kitabına müraciət edə bilərlər. Onu da qeyd etmək istəyirəm ki, bu şeiri ilk dəfə əziz dostum, gözəl ağsaqqal Musa əminin dilindən eşitdim və çox xoşuma gəldi və bu şeiri Musa əmidən alıb, "Parlaq ulduz"kitabına daxil etdim. Musa əmi həm Həzrət Əlinin (ə), həm də ustad Şəhriyarın aşiqidir.

Yuxarıda qeyd etdim ki, Şəhriyar İmam Hüseynə (ə) dərin məhəbbət bəsləyən bir şair olmuşdur. Şəhriyarın Dilrişə nəzirə yazdığı məşhur nərsiyyəsi daha çox diqqəti cəlb edir.

***"Hüseynə yerlər ağlar, göylər ağlar,***
***Bətuli, Murtəza, Peyğəmbər oldu".***

***Hüseynin növhəsin Dilriş yazanda,***
***Müsəlman səhldir ki, kafər ağlar.***

***Kor olmuş gözlərin qan tutdu Şümrün,***
***Ki, görsün öz əlində xəncər ağlar.***
***Hüseynin köynəyi Zəhra əlində,***
***Çəkər qıyya-qiyamət məhşər ağlar.***

***Mərsiyyə bu beytlərlə yekunlaşır.***

***Əlidən, Şəhriyar, sən bir nişanə,***
***Qucaqlar Qəbri Malik Əjdər ağlar.***

Ustad Şəhriyar Kərbəla səhrasında İmam Hüseynin (ə) öz Rəbbi ilə razu-niyazını bir münacatda İmamın (ə) mübarək dilindən belə çatdırır.

***Ya Rəbb! Mənə bir ləhzədi, bir ömridi-yari,***
***Eşqində sənin can verirəm, hər nəsə vari.***
***Qan-qan deyə oxlar yağır isti həvadan,***
***Üz döndərib oxlar mənə, mən də sənə sari.***

***Verdim Sənin eşqində nəyə gəldi gümanım,***
***Bir başdı qalan aşiqivin dari nə dari,***
***Bu başda səninkiydi ki, məndəydi əmanət,***
***Rədd eyliyərəm indi onu al qovza yuxarı.***

***Gər cami-bəladə yenə var badeyi-möhnət,***
***Göndər yenə ya Rəbb! Yuxuma qoyma xumari.***
***Düşmən dedi: "Qol beyyətə qoy", mən dedim: "Olmaz"***
***Eşqim dedi: "Qan-qan çağırısan", dedim: "Ari".***

***Dünya su ola mən susuzu salmaz atəşdən,***
***Qurtarsa atəşdən məni vəslindi İlahi.***
***Ruhum quşu çoxdandı darıxmışdı qəfəsdən,***
***Bir ox toxunub qəlbimə sındırdı hisari.***

***Ox qəlbimi dahun elədi sökdü, dağıtdı,***
***Vurdu, caladı qanı yerə qırdı damarı,***
***Axır nəfəsimdi verirəm can üzüm üstə,***
***Qan içrə qəmim yox, üzüm olsa sənə sarı.***

Şair bu münacatda İmam Hüseynin (ə) Allah-Təalaya olan sonsuz eşqini və məhəbbətini İmamın (ə) aşiqlərinə çat-dırır.

Göründüyü kimi Şəhriyar öz yaradıcılığında bütün sahələ-rə toxunaraq özünəməxsus sənət inciləri yaradıb.

Əvvəldə qeyd etdiyimuiz kimi Şəhriyarın həyatı, güzəranı məşəqqətli və əzablı olmuşdur. Atası vəfat etdikdən sonra anasını, bacı və qardaşlarını, bacısı uşaqlarını, bir sözlə 10 nəfərlik ailəni dolandırmaq məsuliyyətini öz üzərinə götürərək, hər cür əzab və əziyyətlərə dözür.

Şəhriyarın ilk məhəbbət oxu daşa dəydikdən sonra şair uzun illər ailə qurmur. Bu tənhalıq Şəhriyar ömrünün ən mü-hüm hadisələrindən biri kimi şairin qəzəllərində özünü büruzə verir.

***Nəğməkar bülbül idim, düşdüm uzaq bağımdan,***
***Güllərimdən aralı qəlbimə ox vurdu tikan.***

***Çox təəssüf, tikana səhv eyləyib gül demişəm,***
***Olmuşam indi nə etmək, əməlimdən peşiman.***

***Kəkliyi şahin əgər tutsa, bu bir adətdir,***
***Məni quzğunlara yem etdi bu nakəs dövran.***

***Şəhriyara, demə sən qəmlə ki, qəmxar hanı?***
***Göz yaşın tək belə bi yar veribdir hicran.***

Lakin şair bütün çətinliklərə sinə gərir və uzun müddət tənha qaldıqdan sonra taleyiylə barışmalı olur və ailə həyatı qurur. Övladları Şəhrizad, Məryəm və Hadi şairin sevincinə çevrilir. Amma tale şairə bu gecikmiş səadəti də çox görür. Şəhriyar ömür gün yoldaşı Əzizəni qəflətən itirir və 3 uşaqla yenə tənha qalır. Şair dünyadan vaxtsız köçmüş həyat yoldaşı Əzizənin xatirəsini əziz tutur və ona ithaf etdiyi şeirdə yazır:

***Nə zərif bir gəlin, Əzizə səni***
***Mənə layiq Tanrım yaratmışdı.***

***Bir zərif ruha bir zərif cismi,***
***İzdivac hörmətilə qatmışdı.***

***Eşqimin bülbülü səni tutmuş,***
***Hər nə dünyada gül var, atmışdı.***

***Sanki dustaqikən mən azaddım,***
***Elə eşqin məni rahatlatmışdı.***

Bu şeirin ən qaynar nöqtəsi, insan vücudunu lərzəyə salan hissəsi bu beytlərdir:

***Sən nə yaxşı eşitmədin, balalar,***
***"Ana vay" naləsin ucaltmışdı.***

Sanki bu beytdə tarix təkrar olur. Şəhriyarın məşuqi möminlərin ağası Həzrəti Əli (ə) xanımların xanımı Fatimeyi-Zəhra(s.ə) dünyadan köçərkən belə bir hadisənin şahidi olmuş və Əli (ə) Həzrəti Fatimeyi-Zəhranı (s.ə.) gecəykən dəfn etmişdi. Bu sözləri ona görə qeyd etdim ki, Şəhriyar öz ömür gün yoldaşını Həzrəti Əlinin (ə) əliylə Peyğəmbərin (s) qızı Fatimeyi-Zəhraya (s.ə.) xidmətçi verir.

***Səni verdim Behişti-Zəhraya,***
***Mənə Mövla əlin uzatmışdı.***

Nə xoşbəxt bir qismət imiş bu ulu ustad. Özün Əlinin (ə) və İmam Hüseynin (ə) xidmətçisi, xanımın Əzizə isə iki dün-yanın xanımı, Peyğəmbərin (s) gözünün nuru, Əlinin (ə) bəxt ulduzu, Behişt gənclərinin ağaları sayılan İmam Həsən (ə) və İmam Hüseynin (ə) anaları xanım Həzrəti Fatimeyi-Zəhra-ya(s.ə.) xidmətçi. Bunu etiraf etməliyəm ki, oxuduğum və sev-diyim klassik şairlərin həyatında bu cür bir hadisəyə rast gəl-məmişəm ki hansısa bir Əhli-beyti (ə) sevən şairin xanımı Həz-rəti Fatimeyi-Zəhraya (s.ə.) xidmətçi olub.

Şəhriyarın cavanlıq çağları müsibətli, üzüntülü olsa da, ömrünün son çağlarında çox böyük məqam sahibi oldu. Şəhri-yar bəlkədə ilk sevgisinə qovuşsaydı heç bu qədər təsirli və güclü şair kimi tanınmazdı. Lakin kərpic bişə-bişə möhkəm-ləndiyi kimi, insanda bərkə-boşa düşə-düşə mətinləşir, güclənir. Əgər Şəhriyarın qismətinə Sürəyya çıxsaydı bəlkədə Şəhriyarın həyat yolu tamamilə başqa səmtə yönələrdi. Amma Allah-Təala bütün qəlblərdən xəbərdardır və hər kəsin qismətin necə verməyi daha gözəl bilir.

Əziz ustadım Ağayi Sauvərin bir cümləsi xatirimə gəlir: "Pərdənin arxasını görən var. Biz bilmirik bizim xeyrimiz hardadır".

Bəli, Şəhriyarın da xeyri Əzizə kimi zərif və incə ruhlu bir şəxslə ailə qurmaqda imiş. Onun vaxtsız vəfatına həsr etdiyi şeirdə şair onun yerinə özünə ölüm arzulayır.

***Nə yaman yerdə köçdü karvanımız,***
***Nə yeyin yük-yapın da çatmışdı.***

***Qırxa sən yetmədin, cavan getdin,***
***Mən gedəydim ki, yeddim altmışdı.***

Yəni mənim 67 yaşım var, ölüm mənimdi, sən isə 40 yaşı-na çatmamış getdin.

***Qoca vaxtımda bu qara bəxtim,***
***Məni qul tək bəlaya satmışdı.***

Ulu Tanrıdan ustadın ruhuna rəhmət diləyirəm və Axund Hacı Soltanın "Şəhriyara ithaf etdiyi bir qəzəllə" sözümü ye-kunlaşdırırıq.

***Sən könül sultanısan cümlə cahanın, Şəhriyar,***
***Xoş bu ki, olmuş sənin Təbriz məkanın, Şəhriyar.***

***Adi bir insan deyilsən, bir mələksən bimisal,***
***Bizlərə mehmanısan sən asimanın, Şəhriyar.***

***Sən Bakı dərdiylə, hicranıyla etdin tərki-can,***
***Daima bizlərlə qaldı yarı canın, Şəhriyar.***

***Dərdivin həmdərdi oldu hər zaman Heydər baba,***
***Tək ona dar gündə gəldi son gümünın, Şəhriyar.***

***Sən Xudayə adi bir bəndə, bizə fövqəlbəşər,***
***Xilqətə ibrət olub dinin, imanın Şəhriyar.***

***Sən Vətən eşqiylə yandın kimsədən bak etmədin,***
***Yetdi o taydan bu taya ələmanın, Şəhriyar.***

***Fəxrimizsən hər məkanda çox sevirlər şerini,***
***Ağladır hər aqili ahu fəğanın, Şəhriyar.***

***Soltanam mən, qismət oldu zair oldum kiyivə,***
***Gör necə xoşbəxtəm oldum pasibanın, Şəhriyar.***

# UĞURLU SONLUQ
***(Son söz əvəzi)***

***Bismillahir-Rəhmanir-Rəhim!***

Xeyirxahlıq bizim balaca dünyamızın günəşidir.

***"Bəzən elə adamlar olur ki, onların yaşayış tarixini yazmaq üçün bütün bir xalqın, bir ölkənin tarixini yazmaq lazım gəlir"-*** deyən C.Cabbarlının bu fikirləri ilə "Uğurlu sonluq" son söz əvəzi yazımızla Hacı Həsən Hüseynovun "Sığın Haqq Dərgahına" (Məqalələr toplusu – 1) kitabına yekun vururuq.

Mən bu fikirdəyəm ki, kitab yazmaq da ağac əkmək, yol çəkdirmək, məktəb, məscid tikdirmək, məsləhətə ehtiyacı olanlara ağıllı məsləhət vermək, gənclərə düzgün yol göstər-mək kimi bəşəri hisslər xeyirxahlığın nişanələrindən biridir. Peşəkar İlahiyyatçı alim kimi yaxşı tanıdığımız Həsən Hüsey-nov "Sığın haqq dərgahına (Məqalələr toplusu -1)" adlı dəyər-li bir kitab yazıb ortaya qoymaqla əslində müasirlərinə olduq-ca zəngin bir yaddaş toplusu bəxş etmişdir.

Müəllifin dünya filosoflarından seçdiyi dəyərli sitatlar onun ədəbi və fəlsəfi zövqünü təyin etmək üçün əyani bir vasi-tədir. Filosoflardan biri yazır ki, "Uğurlu sonluq yalnız müd-rik insanlara nəsib olur". Bu fikir S.M.Şəhriyarın tərcümeyi-halında öz real təsdiqini tapıb.

S.M.Şəhriyar həyatının başlanğıcında rastlaşdığı çətinlik-lərə, başına gələn fəlakətlərə mətanətlə sinə gərərək qaranlığın, zülmətin işığa çevriləcəyinə inanıb.

S.M.Şəhriyar uzun və keşməkeşli bir həyat yolu keçib. Həyatda çox şeylər görüb və çox şeylərin şahidi olub, görə-görə kamilləşib, müdrikləşib. Müəllif bu məsələyə xüsusi diq-qət yetirib və S.M.Şəhriyar fikirlərinə əsərdə xüsusi yer ayırıb. S.M.Şəhriyar əqidəsinə görə, yaxşılıq bütün kamilliklərin mər-kəzində durur, bütün sevinclərin əsas mənbəyidir. Bu xüsusiy-yət insanı ağıllı, ədalətli, diqqətli, uzaqgörən, düşüncəli, müd-rik, mərd və xoşbəxt bir qəhrəmana çevirir. Yaxşılıq bizim ba-laca

dünyamızın Günəşidir, təmiz vicdan isə onun göy qübbə-sidir. Bu gözəl xüsusiyyət həm Allahın, həm də insanların mə-həbbətini qazanmışdır. Yaxşılıqdan xoş, əxlaqsızlıqdan iyrənc əməl yoxdur. Yalnız yaxşılıq həqiqidir, qalan hər şey saxtadır. İnsanın dərinliyi və böyüklüyü onun bəxti ilə deyil, etdiyi yaxşılıqlarla ölçülür, çünki yaxşılıq hər şeydən üstündür. Belə insanı sağlığında sevirlər, öləndən sonra isə ehtiramla xatırla-yırlar.

Hacı Həsənin: “Sığın haqq dərgahina ” kitabının başlıca qayəsi, müəllifin əsas məram və məqsədi müasirlərinə xeyir-xahlıq duyğuları aşılamaq, insana daim insan olduğunu, hərə-kət və rəftarında yalnız fəzilət və qüdsiyyət gözləməli olduğu-nu anlatmaqdır.

Bu nəcib istək bizim Azərbaycan klassiklərinin hamısına xas xüsusiyyətdir. Xalq müdriki Dədə Qorqud, Eşqin Tanrısı Şeyx Nizami, Eşq peyğəmbəri M.Füzuli, könüllər sultanı Ş.İ Xətai, “Əxlaqı-Nasirin” müəllifi Nəsrəddin Tusi, haqq və ədalət carçısı S.İ.Nəsimi, S. Ə. Nəbati, S. Ə. Şirvani, satira janrının banisi M.Ə.Sabir, gözəl dramaturq C.Cabbarlı, o tay-lı bu taylı Azərbaycanı bütöv görmək istəyən S.M.Şəhriyar, gözəl lirikalarıyla qəlbimizə nur yayan B.Vahabzadə və s. hər sözündə, hər sətrində insanları kamilliyə və xeyirxahlığa çağırmayıblarmı?

Həsən Hüseynovda qələmi ilə sələflərin bu çağırışına hay verib,onların dediklərini bir daha müasirlərinin yadına salıb və əlavə edib deyib ki: “Müdriklik və mərdlik-əzəmətin təməli-dir... Mərdlik olmasa, müdriklik faydasızdır”.

Bu fikir nə qədər aktual və həyatidir! Elm dəryası olub mərdliyi, fərasəti və qeyrəti olmayan alim kimə lazımdır? Xe-yirxah olmayan müdriklər bəşəriyyət üçün çox fəlakətlər törə-dib. Vicdanı qısır, ağlı isə dərya olan şərəfsiz və dələduzlar ət-rafımızda azdırmı? Belələrindən əlhəzər!

Əgər insan təkcə özü üçün çalışırsa, bəlkə, o, məşhur alim, böyük mütəfəkkir, çox yaxşı şair ola bilər, lakin heç vaxt əsl mənada kamil və böyük insan ola biməz.

Tarix o insanları böyük hesab edir ki, onlar ümumi məq-səd üçün çalışmaqla özləri də nəcibləşirlər: “Kim ki daha çox

başqalarının  səadətinə səbəb olur, həyat onu ən xoşbəxt insan kimi yüksəldir". Bu inkar edilməz bir həqiqətdir.

Hacı Həsənin : "Sığın haqq dərgahına" kitabı bu məziyyətlərin real, məntiqi tədqiqi kimi olduqca dolğun, məzmunlu və təsirli hikmətlər boxçasıdır. Bu boxçada müəllif dünya müdriklərinin öz ədəbi zövqünə uyğun kəlam və hikmətlərini səbirlə toplayıb oxuculara təqdim etmişdir. Bu özü ən böyük fədakarlıq və xeyirxahlıqdır. Çünki bütün süfrələrdən ən dəyərlisi kəlam və hikmət süfrəsidir. 495 səhifəlik bu "süfrə-dən" mən çox şey əxz etdim, amma ondan yenə doymamış ay-rılıram.

Sözümü M.Füzulinin söz barədə yazdığı şer nümunələrin-dən bir neçə beytlə tamamlayıram:

***Mən bir gözəl süfrə açdım sözdən, əhli aləmə,***
***Onda min zövq artıran hər dürlü nemət düzmüşəm,***

***Süfrəmə hər bir qonaq gəlsə, xəcalət çəkmərəm,***
***Fərqi yox ya türk gəlsin, ya ərəb, yaxud əcəm.***

***Kim gəlir gəlsin, aparsın hər nə istər xatiri,***
***Qurtaran nemət deyil, süfrəmdən olmaz heç nə kəm.***

***Leyla Musəvi***

# MÜNDƏRİCAT

Təqdimat........................................................................3
Redaktordan
......................................................................................Ошибка! Закладка не определена.
Müəllifdən ..................................................................7

I BÖLMƏ

İnsan və Quran..............................................................19
Şəriət (vacibat) məsələləri məclisi...............................42
Həzrət Əlinin (ə) mədhi məclisi ..................................43
Həzrət Əlinin (ə) buyurduğu hədislər..........................49
“Hüseynə (ə) ağlayan gözləri qiyamət günü ağlamaz” ..................50
Təqva ədəbiyyatda və hədislərdə.................................68
Allah övliyalarina ehtiram............................................82
Həzrət Peyğəmbərin (s) əmisi və Həzrət Əlinin (ə) atasi Həzrət Əbu Talibin (ə) imanı................................................88
Əbu Talibin(ə) imanlı olmağının səbəbləri .................89
Şeirlər divani ................................................................89
Əbu Talibin(ə) Peyğəmbəri(s) qorumaqda göstərdiyi xidmətləri...91
Qohumlari və dostlarinin Əbu Talibin (ə) imanina münasibəti......90

II BÖLMƏ

**Birinci məsum**
İslam Peyğəmbəri Həzrəti Məhəmməd (s) Tanrının nurudur ........97
İslam Peyğəmbərinin(s) zühuruna müxtəlif dinlərdə olan müjdələr.....................................................................104
İslam Peyğəmbəri Həzrət Məhəmmədin (s) hədisləri ....................108
Peyğəmbərin (s) Meracı ..............................................108
Böyük İslam Peyğəmbəri Həzrət Məhəmməd İbni Abdullahın (s) təvəllüdü, şəhadəti və həyatı haqqında sual-cavab........................117
**İkinci məsum**
Analar bayramı Fatimeyi-Zəhranın (s.ə) həyat və fəaliyyəti barədə......................................................................128
Peyğəmbərin (s) xanım Fatimeyi-Zəhraya (ə) nəsihəti ................133
Həzrəti Fatimeyi-Zəhranin (s.ə.)
buyurduğu hədislər.......................................................134

Həzrəti Fatimeyi-Zəhranın(s.ə) kənizi Fizzənin elminə bir baxış....................................................................................................139
Həzrəti Zəhra (s.ə.) və onun şiələrinin fəziləti və behiştdəki məqamları...........................................................................................139
Həzrət Fatir ... əyatı
haqqında su ... ............140
İmamət bar ... ............143
Peygəmbərlərin (ə) və İmamlarin (ə) isməti barəsindəki əqidəmiz 147
İsmətin mənası................................................................................149
**Uçüncü məsum**
İmamət səmasının parlaq ulduzu
Həzrət Əli(ə) Kəbədə doğulan yeganə şəxsiyyətdir.........................154
İmam Əlinin (ə) şəxsiyyəti "Nəhcül-Bəlağə"də..............................154
Əmirəlmöminin Həzrəti Əlinin (ə) səxavəti....................................154
Əmirəlmöminin Əlinin (ə) ədaləti...................................................157
İmam Əli(ə) və İbadət .....................................................................161
Mömünlər ağasi Həzrət Əlinin (ə) şəhadəti....................................171
Həzrət Əlinin (ə) buyurduğu hədislər..............................................174
Həzrəti Əlinin(ə) təvəllüdü, şəhadət və həyatı haqqında sual-cavab..........................................................................................179
**Dördüncü məsum**
İmamət səmasının ikinci ulduzu İmam Həsənin(ə) mübarək mövludu...........................................................................................183
İmam Həsən Müctəbanin (ə) şücaəti ............................................182
İmam Həsən Müctəbadan (ə) hədislər.............................................184
İmam Həsənin (ə) təvəllüdü, şəhadəti və həyatına aid sual və cavab...................................................................................189
**Beşinci məsum**
İmamət səmasının üçüncü ulduzu Seyyidüş-Şühəda İmam Hüseyn(ə)................................................................................193
"Biz ona böyük bir Qurbanlıq fəda etdik"......................................190
İmam Hüseynin (ə) hicrəti...............................................................195
Nəyə görə İmam Hüseyn (ə) qiyam etdi?........................................196
Hicri 61-ci il. Aşura günü................................................................197
Aşura ən böyük müsibət günüdür....................................................198
Qurani-Kərimlə Imam Hüseynin (ə) oxşarlığı................................199
İmam Hüseynin(ə) təvəllüdü, şəhadəti və həyatı haqqında sual-cavab.........................................................................................206
**Altinci məsum**

İmamət səmasının dördüncü ulduzu İmam Zeynəlabidinin(ə) mövludu………………………………………………...………………218
İmamın(ə) yaşadığı dövr ..............................................................213
Dördüncü ..............216
İmam Zey ..............217
İmam Zey qqinda sual-cavab...........................................................................................218
**Yeddinci məsum**
İmamət səmasının beşinci ulduzu İmam Məhəmməd Baqirin(ə) mövludu.........................................................................................225
İmam Məhəmməd Baqirin (ə) həyat və fəaliyyəti barədə sual və cavablar ...........................................................................................223
**Səkkizinci məsum**
İmamət səmasının altıncı ulduzu İmam Cəfəri Sadiq(ə)…………....232
İmam Sadiqin (ə) vəsiyyətnaməsi ................................................230
İmam Sadiqin (ə) buyurduğu hədislər ..........................................231
"Ünvani bəsri"...............................................................................233
İmam Cəfəri Sadiqin (ə) həyat və fəaliyyəti barədə sual-cavab....238
**Doqquzuncu məsum**
İmamət səmasının yeddinci ulduzu İmam Museyi-Kazım(ə)…….249
İmam Museyi-Kazımın (ə) buyurduğu hədislər ...........................249
İmam Museyi-Kazımın (ə) həyat və fəaliyyəti barədə sual və cavablar ...........................................................................................250
**Onuncu məsum**
İmamət səmasının səkkizinci ulduzu İmam Rza(ə)………..….......260
İmam Rzanin (ə) əxlaq və rəftarı...................................................257
Salam olsun Ali-Yasinə.................................................................260
İmam Rzanın (ə) həyat və fəaliyyəti barədə sual və cavablar ........261
**On birinci məsum**
İmamət səmasının doqquzuncu ulduzu İmam Məhəmməd Təqinin(ə) mövludu……………………………………………………...271
İmam Cavadın (ə) yetişdirdiyi tələbələr........................................270
İmam Cavadın (ə) buyurduğu hədislər..........................................271
İmam Məhəmməd Təqinin (ə) həyat və fəaliyyəti barədə sual və cavablar ...........................................................................................272
**On ikinci məsum**
İmamət səmasının onuncu ulduzu İmam Əliyyən-Nəqi(ə)………..283
İmam Əliyyən-Nəqinin (ə) buyurduğu hədislər ............................280
İmam Əliyyən-Nəqi (ə) haqqinda sual-cavab................................281

**On üçüncü məsum**

İmamət səmasının on birinci ulduzu İmam Həsən Əsgəri(ə)..........291
İmam Həs ................291
İmam Həs ................292
İmam Həs
sual və cavablar..........................................................................300

**On dördüncü məsum**

İmamət səmasının solmayacaq günəşi
Həzrət Sahibəz-Zaman(əc.f)……………………………….......304
Məsumların İmam Mehdi (əc.f) haqqında buyurduğu hədislər......306
İmam Həzrət Mehdi Sahibəz-Zamanin (əc.f) mübarək hədisləri ...308
İmam Mehdinin(əc.f) təvəllüdü və həyatı haqqında
sual və cavablar…………………………………………...315

III BÖLMƏ

Allah yanındakı məqam..............................................................314
Həzrət Əbulfəzl Abbasın (ə) kəramətləri........................................316
Bir əl gəlib məni götürdü! ..............................................................318
Ya Babul- Həvaic! Nəyim vardısa aldilar!......................................318
Qatardan yıxıldı, amma sağ qaldi!..................................................319
Kərbəla qəhrəmanı Həzrət Zeynəb (s.ə.)........................................321

IV BÖLMƏ

Namaz möminin meracıdır..............................................................331
Fəzilətli aylarınız mübarək!..............................................................341
İstiğfar və tövbə dövrü. ...................................................................342
Oruc tuta bilməyənlər üçün zikr.....................................................343
Ramazan Allahın sevdiyi aydır ......................................................345
Qurani- Kərimin baharı - Ramazan ayı ..........................................347
Bizim 4 cür orucumuz var. ..............................................................354
Ramazan ayında olan mühüm hadisələr..........................................357

V BÖLMƏ

Fitr və Qurban bayramları ..............................................................360
Fitr və Qurban bayramlarının namazı...............................................362
Həzrəti İbrahim(ə) və İsmayıl (ə) haqda qısa məlumat .................363
Qurbangah .......................................................................................366
Qurban kəsməyin şərtləri.................................................................367
Qurbanınız qəbul olsun! ..................................................................368

Kamillik bayrami – Qədir-Xum ....................................................374
Qədir-Xum Əhli-Sünnə mənbələrində ...........................................383
Qərb mütəfəkkirlərinin "Qədir-Xum" hədisi barədə söylədikləri ..384
İmam Əlinin ..........385
Qədir-Xum h ..........387
Novruz gəldi, ..........393
Novruz bayramının meydana gəlməsi ............................................396
Bahariyyə..........................................................................................399
İmam Cəfəri Sadiqin(ə) Novruz bayramına münasibəti.................401

VI BÖLMƏ

İslamda ailəyə münasibət ...............................................................404

VII BÖLMƏ

Cənazə üçün təlqin duasi ................................................................415
Cənazə üçün ehsan vermək ..............................................................418
Ölüləri ziyarət etməyin savabı.........................................................422

VIII BÖLMƏ

S.M.Şəhriyar dünyasına səyahət.....................................................426
Uğurlu sonluq ...................................................................................442
İstifadə olunmuş ədəbiyyat…………………………………......453